MƏHƏMMƏD ƏMİN
RƏSULZADƏ

# əsərləri

## I cild

*(1903-1909)*



BAKI–2014



Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

MƏHƏMMƏD ƏMİN
RƏSULZADƏ

# ƏSƏRLƏRİ

## I cild

*(1903-1909)*

İkinci nəşri

«TƏHSİL»
BAKI – 2014

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin*
***«Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında»***
*22 noyabr 2013-cü il tarixli Sərəncamına əsasən çap olunmuşdur.*

Araşdırıb toplayanı, ərəb əlifbasından 1992-ci ildəki mövcud əlifbaya çevirəni, ön sözün və qeydlərin müəllifi, lüğətin tərtibçisi
**Şirməmməd Hüseynov**

1992-ci il nəşrinin transliterasiya redaktorları:
**Məlik Qarayev**,
*filologiya elmləri namizədi*
**Məmmədəli Müsəddiq**,
*filologiya elmləri namizədi*

Latın əlifbasına transliterasiyanın redaktoru: **Məsudə Əvəz qızı**

**Rəsulzadə M.Ə.**
**R51** Əsərləri. I cild *(1903–1909)*. İkinci nəşri. Bakı, «Təhsil», 2014. 480 səh.

Oxuculara təqdim olunan «Əsərlər»in I cildinə Azərbaycanın milli istiqlal hərəkatının ideoloqu və lideri, Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin yaradılması işinə başçılıq etmiş görkəmli ictimai-siyasi və dövlət xadimi, istedadlı alim, jurnalist və publisist Məhəmməd Əmin Rəsulzadənin 1903–1909-cu illərdə «Şərqi-Rus», «Hümmət», «Dəvət», «İrşad», «Təkamül», «Yoldaş», «Tərəqqi» qəzetlərində, «Füyuzat», «Volna» jurnallarında çıxan 280-ə yaxın yazısı daxil edilmişdir. Bu əsərlər azadlıq və demokratik hərəkata qoşulan inqilabçı sosial-demokrat, hümmətçi gənc.in I Rusiya inqilabı və ondan sonrakı illərdə siyasi xadim, jurnalist və publisist kimi formalaşdığını, yetkinləşdiyini nümayiş etdirir. Kitab nəinki Azərbaycan tarixini tədqiq və tədris edənlər üçün, həmçinin geniş oxucu kütləsi üçün də faydalı olacaqdır.

R $\frac{4502020000}{053}$ 2014

© «Təhsil», 2014



## ÖN SÖZ

Məhəmməd Əmin Hacı Molla Ələkbər oğlu Rəsulzadə (1884–1955) ilk dəfə «Azərbaycan» adlı türk və islam aləmində ilk müstəqil Xalq Cümhuriyyəti dövlətinin (1918–1920) yaradılması işinə başçılıq etmiş, görkəmli ictimai-siyasi və dövlət xadimi, istedadlı alim, jurnalist və publisist olmuşdur.

M.Ə.Rəsulzadənin çoxcəhətli fəaliyyətini, zəngin ədəbi-siyasi irsini, elmi-nəzəri görüşlərini dərindən, obyektiv və sistemli şəkildə öyrənmədən Azərbaycan tarixinin XX əsrin birinci yarısı, xüsusilə Rusiyada üç inqilab (1905–1907, 1917 fevral və oktyabr) dövrü və milli, müstəqil Azərbaycan dövlət quruluşunun yaradılması və fəaliyyəti dövrü tarixini tədqiq etmək, işıqlandırmaq mümkün olmaz.

M.Ə.Rəsulzadənin irsi, əsərləri məlum səbəblər üzündən bu vaxta kimi aranıb toplanmamış, tədqiq və təhlil edilməmişdir. İndi vəziyyət dəyişmiş, xalqın bu böyük və qeyrətli oğlu sahibinə – Azərbaycan xalqına qaytarılmışdır. Qarşıda vəzifəmiz, hər şeydən əvvəl, M.Ə.Rəsulzadənin zəngin ədəbi-mətbu irsini arayıb toplamaq, ərəb əlifbasından istifadə etdiyimiz əlifbaya köçürmək, lüğət və elmi qeyd və şərhlərlə nəşr edib xalqa, oxuculara çatdırmaqdır. Göstərək ki, geniş dünya görüşünə, hərtərəfli biliyə və qüdrətli qələmə sahib olan M.Ə.Rəsulzadənin mətbu irsinin coğrafiyası çox genişdir. Əlbəttə, Azərbaycan burada həlledicidir. Lakin Zaqafqaziya və Rusiya, İran və Türkiyə, Qərbi Avropa və Amerikada baş verən hadisələr, ümumiyyətlə, planetimizin mənzərəsi, demokratiya və tərəqqi, azadlıq və milli istiqlaliyyət uğrunda mübarizə məsələləri, hadisələr onun diqqətini cəlb etmişdir. Bu xüsusiyyət onun Azərbaycan mətbuatı səhifələrində dərc olunmuş yazılarında açıqca görünməkdədir.

Min illər ərzində müstəqil siyasi-dövlət həyatını yaşamış xalqın tarixi yaddaşında, qanında və ruhunda dərin kök salmış milli istiqlal düşüncəsinə, inam və iman gücünə söykənərək M.Ə.Rəsulzadə Azərbaycan Cümhuriyyətinin milli bayrağının qaldırılması mərasimi ilə əlaqədar demişdi: «Bir kərə yüksələn bayraq bir daha enməz!» Doğrudur.

istiqlal bayrağını 1920-ci il aprelin 27-də bolşevik Rusiyasının işğalçı qoşunları və onların yerli nökərləri müvəqqəti endirməyə müvəffəq oldular.

Lakin M.Ə.Rəsulzadənin sadiq silahdaşlarından Mirzə Bala Məmmədzadə şahidlik edir və yazır: «Rəsulzadə qırmızı istiladan sonra başda mütərəqqi gənclik olmaq üzrə millətin göstərdiyi şiddətli müqavimətı və verdiyi saysız qurbanları görərək milli bayrağın torpaqlara deyil, millətin vicdanına enmiş olduğunu, hər kəsin bu bayrağı ruhunda, qəlbində və bağrında mühafizə etməkdə olduğuna inandığını bildirirdi»[1].

Tarix M.Ə.Rəsulzadənin peyğəmbərcəsinə dediyi sözləri təsdiq etdi. Azərbaycan xalqı vicdanına endirmiş olduğu, ruhunda, qəlbində və bağrında mühafizə etdiyi üçrəngli istiqlal bayrağını yenidən yüksəltməyə müvəffəq olmuşdur. «Bir kərə yüksələn bayraq bir daha enməz!» şüarı və fikri qalib gəlmiş və yaşamaqdadır.

İndi Azərbaycan Cümhuriyyəti ağlasığmaz çətinliklərə, açıq-gizli təcavüz və fitnələrə baxmayaraq, müstəqillik, həqiqi suverenlik yolu ilə inamla addımlamaqdadır. Azərbaycanın istiqlaliyyətini artıq dünyanın 120-dən artıq ölkəsi rəsmən tanımışdır. Suveren Azərbaycan dövləti BMT-nin tamhüquqlu üzvüdür. M.Ə.Rəsulzadə və onun məsləkdaşlarının birgə qaldırdıqları istiqlal bayrağı indi Nyu-Yorkda, BMT-nin əzəmətli binası qarşısında dünyanın digər suveren dövlətlərinin milli bayraqları ilə bir sırada dalğalanmaqdadır.

Azərbaycanın uzaqgörən, dünyanın və tarixin inkişaf meyillərini və perspektivlərini dərk edən görkəmli siyasət və dövlət xadimləri 1918–1920-ci illərdə milli istiqlalımızı yenidən bərpa edərkən parlamentli, çoxpartiyalı demokratik respublika dövlət formasını seçmişdilər. Nəinki Rusiyada, o zaman bütün İslam Şərqində belə bir dövlət, hakimiyyət forması, üsuli-idarəsi yox idi. Mütləqiyyət və totalitar rejimlərin əhatəsində yaşayan, siyasi mədəniyyət və mübarizə meydanında ilk müstəqil addımlar atan, uzun əsrlər boyu öz dövlət istiqlalını itirmiş bir xalqın və məmləkətin parlamentli, çoxpartiyalı, demokratik dövlət formasını seçməsi tariximizin ən böyük nailiyyəti və hadisəsidir. Tarixçilər, haqlı olaraq, yazırlar ki, «Azərbaycanın siyasi tarixinin qədərini əllərində tutanlar tam zamanında çox hazırlıqlı dövlət xadimləri olduqlarını göstərərək, istiqlal hərəkatını yerində və zamanında qiymətləndirə bilmişdilər»[2].

[1] «Azərbaycan» məcmuəsi, № 30–31, 1955
[2] **Hüseyn Baykara**. Azərbaycan istiqlal mücadiləsi tarixi. İstanbul, 1975, səh.258



İlkin araşdırmalara görə, M.Ə.Rəsulzadənin 1903–1954-cü illərdəki yazılı ədəbi-siyasi irsi, əsərləri təxminən 12–15 cilddən ibarət ola bilər. Məsələn, təkcə 1903–1920-ci illərdə Azərbaycan dövri mətbuatında onun 1200-dən artıq müxtəlif janrlı yazısı, həmçinin nitqi, çıxışı və s. dərc olunmuşdur. Oxuculara təqdim olunan «Əsərləri»nin I cildinə onun 1903–1909-cu illərdə «Şərqi-Rus», «Hümmət», «Dəvət», «İrşad», «Təkamül», «Yoldaş», «Tərəqqi» qəzetləri, «Füyuzat» və «Volna» jurnallarında çıxan 280-ə yaxın yazısı daxil edilmişdir.

Məlumdur ki, mətnlərin düzgün oxunması, yəni əlifbadan əlifbaya köçürülməsi çox böyük zəhmət və səriştəlilik tələb edir. Filologiya elmləri namizədləri ərəbşünas Malik Qarayev və iranşünas Məmmədəli Müsəddiq nəzarət tariqi ilə mətnləri mənimlə birlikdə nəzərdən keçirmişlər, başqa deyimlə, transliterasiyanın redaktorlarıdırlar. Onların cildin hazırlanmasındakı böyük zəhmətlərini qeyd etmək istəyirəm. Bundan əlavə, M.Ə.Rəsulzadə adına BDU-nun mətbuat tarixi kafedrasının dissertantı Rəhilə Mirzəyeva əsərin çapa hazırlanmasında müəlliflərə xeyli kömək göstərmişdir.

Ümid edirik ki, xalqımızın böyük mütəfəkkir oğlu, görkəmli dövlət xadimi M.Ə.Rəsulzadənin əsərlərinin bu ilk cildi müstəqil Azərbaycanın ictimaiyyəti və geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanacaq. Azərbaycan tarixini öyrənmək istəyənlər üçün dəyərli mənbə və vasitə olacaqdır.

M.Ə.Rəsulzadənin əsərlərinin, bütövlükdə ədəbi irsinin çoxcildliyini hazırlamaq və nəşr etmək sahəsində ilk addım olan birinci cilddə ön sözlə yanaşı, Azərbaycan istiqlal hərəkatının görkəmli xadimi, onun ən yaxın əqidə, məslək və mübarizə dostu və silahdaşı Mirzə Bala Məmmədzadənin M.Ə.Rəsulzadənin vəfatı münasibətilə söylədiyi vida nitqini verməyi məqsədəuyğun sayırıq. M.Ə.Rəsulzadənin 71 illik nəhəng və kəskin hadisələrlə zəngin həyat və mübarizə yoluna yaxşı bələd olan, uzun müddət onunla birgə addımlayan, Azərbaycan istiqlal hərəkatı tarixinin həm yaradıcısı, həm də bilavasitə fəal iştirakçısı və tədqiqatçısı kimi tanınan M.B.Məmmədzadənin vida sözü dərin elmi-nəzəri təhlili, əhatə dairəsi, yığcam ümumiləşdirici xarakterinə görə M.Ə.Rəsulzadə haqqında bu vaxta kimi deyilən və yazılanlardan öz sanbalı və mötəbərliyi ilə fərqlənir.

**Şirməmməd Hüseynov**

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ

Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu və lideri Məhəmməd Əmin Rəsulzadə 1955-ci il martın 6-sı gecəsi Ankara Universiteti xəstəxanasında gözlərini həyata qapadı. Daha bir il əvvəl – 1954-cü il yanvarın 31-də yetmiş yaşının bitməsi münasibətilə yazdığım məqalədə («Azərbaycan» jurnalı № 11–12, 1954, Ankara; «Birləşik Qafqasiya» № 30–32, Münxen, 1954) «Qələm, kəlam və məfkurə ustadımız» – deyib müraciət etdiyim Rəsulzadənin, mütəfəkkir və inqilabçı, siyasət və dövlət adamı, mühərrir, ədib və natiq bir şəxsiyyət kimi obrazını yaratmağa çalışmışdım. Gərək o yazılarda, gərəksə onlardan bir müddət əvvəl (1953) «Azərbaycan mühacirlik mətbuatının 30 illiyi» sərlövhəli məqaləmdə və 1938-ci ildə Berlində nəşr olunan «Milli Azərbaycan hərəkatı (Milli Azərbaycan «Müsavat» Xalq partiyasının tarixi)» adlı əsərimdə qeyd etdiyim kimi, qurulmasında, işlənməsində və inkişafında bilavasitə iştirak etdiyi liberal-demokratik milli məfkurənin mücadiləçi bir taktika ilə mahiranə bir surətdə həyata keçirilməsini gözəl bilən Rəsulzadə Azərbaycanda inqilabçı bir azadlıq ordusunun yetişməsi qənaətinə daha gənc yaşlarında gəlmişdi. Heyvanın insandan daha çox qiymətli olduğu orta əsr dərəbəylik və köləlik nizamı ilə idarə olunan çarlıq Rusiyasında hüdudsuz istibdadiyə ilə ağıllara durğunluq verən «millətlər həbsxanası» dövlətinə qarşı üsyan bayrağını qaldıran gənc Rəsulzadəni 1903–1904-cü illərdə, özünün təşkil etdiyi «Azərbaycanlı gənc inqilabçılar dərnəyi»-nin başında görürük. Rusiyanın ruslaşdırma, rusçuluq və müstəmləkəçilik siyasətinə qarşı protest mahiyyəti daşıyan ilk məqaləsi də 1903-cü ildə nəşr olunmuşdur. Bir il sonra baş verən rus–yapon müharibəsində Rusiyanın bütün əzəməti və cəlalı ilə bərabər məğlub olması mütləqiyyət və istibdadın özülünü də sarsıtmış və ocaqlarından birini də Bakı təşkil edən inqilab həmlələrinə tab gətirməyən jandarma-polis dövləti yarıyarımçıq da olsa, məşrutəli bir idarəyə icazə vermək məcburiyyətində qalmışdı. Bu surətlə 1905-ci ildə verilən nisbi azadlıq sayəsində milli-mədəni fəaliyyət başladı və Azərbaycanın fikir və bilim mərkəzi olan Bakıda türkcə gündəlik, həftəlik və aylıq qəzet və jurnalların nəşri bir-birini təqib etdi. Başda Əlimərdan bəy Topçubaşi, Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə və bilavasitə Azərbaycan mətbuatının ağsaqqalı və yaradıcısı Həsən bəy Zərdabi olmaq üzrə, Qərbi Avropa mədəniyyəti məktəbi keçmiş milli açıqfikirli ziyalıların yaratdıqları milli mətbuatda daxi gənc Rəsulzadə də iştirak etməyə başladı. İslam ümməti (milləti) dövründən (yəni hər kəsin özünü yalnız müsəlman hiss etdiyi və türklüyünü, milliyyətini dərk etməmiş olduğu bir dövrdən) hənüz çıxmaqda olan Azərbaycan milli mühitini çalxalayan: qərbçilik-avropaçılıq, şərqçilik-islamçılıq və türkçülük-milliyyətçilik cərəyanlarını «türkləşmək, islamlaşmaq və müasirləşmək» şəklində ifadə edib formula halına salmağa müvəffəq olmuş Azərbaycanın böyük oğlu və böyük türkçü, mərhum professor Əli bəy Hüseynzadənin (sonralar bu düsturu Ziya Gökalp İstanbulda işləmişdir) gərək dil, gərəksə fikir baxımından Rəsulzadə üzərində böyük təsiri olmuşdur. Çox keçmədən onu 1906-cı ildə nəşrə başlayan «Təkamül» (1906–1907) qəzetinin başında görürük. İnqilabçı, millətsevər gəncliyin fikirlərinə tərcüman olan bu qəzet proqram məqaləsində «Millətlərin, qövmlərin, heyətlərin, siniflərin və şəxslərin hüquq və ixtiyaratda azad və bərabər olmalarını və hər növ təcavüzdən qorunmalarını» müdafiə edən gənc və inqilabçı mütəfəkkir Rəsulzadə bu tezisi həyatı boyunca işlədəcək və: «İnsanlara hürriyyət, millətlərə istiqlal!» şəklində ifadə etdiyini milli məfkurə halına gətirəcəkdir.



Qərbi Avropanın hürriyyət dəyərlərindən əxz edilmiş bu insani və mədəni düşüncəyə ilk dəfə olaraq böyük mütəfəkkir və ədibimiz Mirzə Fətəli Axundzadənin «Kəmalüddövlənin Cəmalüddövlə ilə məktublaşması» adlı məşhur əsərində və ilk azəri qəzetəçisi Həsən bəyin «məğrib-zəmin» dediyi Qərbi Avropa ilə «məşriq-zəmin» adını verdiyi müsəlman Şərqi arasında hürriyyət baxımından müqayisə edən məqalələrində rast gəlmişik. Qeyd olunan əsərində Qərbi Avropa parlament rejimini idealizə edən Mirzə Fətəli ilə «məğrib-zəmin»dəki mədəniyyəti hürriyyətin təbii bir nəticəsi olaraq alan Həsən bəy, Azərbaycanda özünə çox əlverişli zəmin tapan Avropa azadlıq fikrinin başçıları, icraedicilərі hesab olunurlar. Fərdin (şəxsin, insanın) azadlığı, əmək və çalışma azadlıqları və millətlərin azadlığı kimi üç ana ünsürdən ibarət olan bu Qərbi Avropa azadlıq qaydasının Şərq dünyasına yayılmasına və yerləşməsinə qarşı çətin bir cəhalət səddi təşkil edən Rusiya imperatorluğunu, inqilabçı həmlələrlə yıxıb ortadan qaldırmağın mümkün olacağına inanan Rəsulzadə «insanlara hürriyyət, millətlərə istiqlal!» şüarı ilə milli Azərbaycan məfkurəsinin insani, mədəni və aləmşümul mənasını da qısa bir şəkildə ifadə etmişdir.

M.Ə.Rəsulzadəni 1908-ci ildən 1911-ci ilə qədər Tehranda və 1911–1913-cü illər arasında İstanbulda görürük. Mərkəzini Azərbaycan və onun hürriyyətsevər baş şəhəri Təbriz təşkil edən İran inqilabına demokratiya aşiqi Rəsulzadə də müşahidəçi kimi qalmamışdır. Hələ bu inqilab hərəkatının eyni zamanda İranı müstəmləkə halına salmaq və Türkiyəni

mühasirəyə salmaq istəyən Rusiyaya qarşı da bir qiyam mahiyyətində olduğu düşünülür və bu hərəkətdə qafqazlı hürriyyətsevərlərin də mühüm rol oynadıqları göz önündə tutulursa, Rəsulzadəni sövq və təşviq edən qüvvət daha aşkar anlaşılmış olur.

İranda hürriyyətin zəfəri və məşrutənin elanından sonra Tehranda nəşrə başlayan və Avropa üsulunda ilk gündəlik qəzet olan «İrani nov»un (Yeni İran) müdiri və baş redaktoru Rəsulzadə idi. Mərkəzi komitəsinə daxil olduğu «İran demokrat partiyası»nın ideologiyasını, məzkur partiyanın azərbaycanlı olan lideri Seyid Həsən Tağızadə ilə birlikdə işləyən də odur.

Fəqət Türkiyə ilə İranda hürriyyətin müzəffər olmasına və mütləqiyyət idarəsinə son verən məşrutiyyətin qurulmasına qarşılıq Rusiyada 1905-ci ildə elan olunan məşrutiyyət tanınmaz bir hala gətirilmiş, orta əsr despotizmi yenidən xortlamışdı. 1907-ci ildən etibarən hər gün bir az daha şiddət kəsb edən bu irtica və istibdad rejimi Qafqaz ilə Türküstan ətrafında bir hürriyyət və demokratiya təməlinin qurulmasına dözə bilmir, ordusu ilə müdaxilə edərək İranda irtica və istibdadı himayə altına alan çarlıq Millət Məclisini bombardman edir, hürriyyəti və hürriyyətsevərləri boğur. Təslim olmaq barədə tələb müqabilində Rəsulzadə Tağızadə ilə bərabər Türkiyəyə mühacirətə getmişdi. İttihadi islam fikirləri ilə osmanlılığın tarixə qovuşmağa başladığı Türkiyədə türk milliyyətçiliyi inkişaf etməyə başlamışdı.

Rusiyada irtica və terrorun şiddətlənməsi üzündən məmləkətlərini tərk edən rus əsiri türklərə mənsub bir çox mütəfəkkir, o cümlədən böyük azəri milliyyətçilərindən Əli bəy Hüseynzadə və Əhməd Ağaoğlu bəylər də buraya sığınmışdılar. Rəsulzadə burada yeni qurulan «Türk ocağı»na daxil olur və yeni nəşrə başlayan «Türk yurdu» jurnalında «İran türkləri» başlığı ilə bir seriya məqalələr yazmağa başlayır. İrandakı türk topluluqlarını, xüsusilə onların ən çox və həmcins qismini təşkil edən Azərbaycan türklüyünü türk ümumi əfkarına tanıdan ilk məqalənin Rəsulzadə tərəfindən yazılmış olduğu iddia edilə bilər. Eyni zamanda Azərbaycanın Qafqaz qitəsi üzərindəki, Şimal qismində rus hakimiyyətinə qarşı davam edən gizli fəaliyyəti təşviq etməkdə və 1905–1906-cı illərdə Ağaoğlu Əhməd bəyin qurub idarə etdiyi «Difai» partiyasının yerini tutmağa başlayan «Müsavat» partiyasının zühurunu sürətləndirməkdədir. «Ümmət» dövrünü yaşayan müsəlman Şərqində milliyyət şüurunun oyanmasında çox böyük rolu olan məşhur islam mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin «milliyyət xaricində səadət yoxdur», – deyən «vəhdəti cinsiyyə fəlsəfəsi»ni (yəni «milli birlik fəlsəfəsi») farscadan türkcəyə çevirib «Türk yurdu»nda dərc etməsi də bu zamana rast gəlir. Sonralar Bakıdakı nəşriyyatında milliyyət məsələsini işlədiyi zaman Cəmaləddin Əfqanidən çox faydalandığı görüləcəkdir.



Rəsulzadənin Bakıya dönüşü, Romanovlar sülaləsinin 300 illik yubileyi münasibətilə elan olunan ümumi əfv üzərinə 1913-cü ildə vaqe olunmuşdur. İrandakı fəaliyyəti, hürriyyət yolundakı mücadilə təcrübəsinin rus imperializminə qarşı kininin artmasına yaradığı kimi, İstanbuldakı təmasları da milli məfkurənin yetişməsi və mənəvi təşəkkülünə qəti şəkil verməsi baxımından çox mühüm bir mərhələ olmuşdur. Bu dövrün Rəsulzadə üzərindəki qüvvətli təsirini, türklüyün böyük mütəfəkkiri Ziya Gökalpın ölümü münasibətilə «Yeni Qafqasiya» (İstanbul, 1340-cı il, sayı:3) jurnalındakı baş məqaləsində bilavasitə özü də etiraf etməkdədir.

O dövrdə çarlığın törətdiyi bütün əngəllərə baxmayaraq, Bakı ilə İstanbul arasında qüvvətli mənəvi bağlar qurulmuş və bunlar getdikcə sıxlaşmağa başlamışdı. XIX əsrin ortalarında Qafqazda tamamilə yerləşməyə başlayan Rusiya Azərbaycandakı İran dil və mədəni nüfuzuna qarşı, yerli azəri dil və mədəniyyətini himayəyə başlamış, fəqət əsrin sonlarına doğru ruslaşdırma yolunu seçmişdi. Tam bu zamanda Rusiyada baş alıb gedən qarışıqlıq və Hüseynzadə Əli bəyin İstanbuldan Bakıya dönərək nəşr işinə başlaması, Osmanlı mədəni təsirini qüvvətləndirmiş və Azərbaycan türk cəmiyyətinin inkişaf istiqamətini dəyişdirmişdi. Əli bəy Hüseynzadənin İstanbuldan döndükdən sonra Bakıda ortaya atdığı və üç cərəyanı əhatə edən «türkləşmək, islamlaşmaq və müasirləşmək» düsturu İstanbulda Ziya Gökalp tərəfindən əsaslı bir sürətdə işlənməyə başlanmış, buna müqabil Hüseynzadənin şiddətlə müdafiə etdiyi «Osmanlı dili» yerinə Z.Gökalpın ortaya atdığı sadə türkcə davası da Azərbaycanda dərin əks-səda oyatmışdı. Rəsulzadə bu xüsusda bunları yazmaqdadır:

«...Mərhumun (Ziya Gökalpın) «Türk yurdu»nda dərc olunan «Türkləşmək, islamlaşmaq və müasirləşmək» məqalələri məni, adətən, vəcdə gətirdi. Bakıya geri döndüm. Mətbuat dil məsələsi ilə məşğul idi. Bu məsələdə Ziya nəzəriyyəsinin müdafiəçisi oldum. Türkçülüyə rəvac vermək üçün dünya müharibəsi əsnasında təsis etdiyimiz «Açıq söz» qəzetinin başına Ziyanın müqəddəs düsturunu bir «şüar» olaraq qoyduq. Daha sonra Ziyanın son zamanlarda «Türk millətindənəm, islam ümmətindən, Qərb mədəniyyətindənəm» (Hüseynzadə Əli bəy bunu əvvəl, 1906-cı ildə «Türk qanlı, İslam imanlı, firəng qiyafəli» şəklində ifadə etmişdi – *M.B.*) şəklinə salmış olduğu bu şüar türkçülük, xalqçılıq ümdələri (dayaqları) üzərində təşəkkül edən milliyyətpərvər «Müsavat» firqə-

sinin proqram müqəddəməsində yer tutdu. Rus istibdadı pəncəsindən dağılmış xanlıqlar şəklində deyil, müttəhid və milli bir kütlə surətində nicat arayan Azərbaycan türklüyü bu istiqlalını tərtəmiz edəcək bayrağa əsri məfkurəsi ilə mütənasib bir məna vermək istəyirdi. Bu mənanı da «türkləşmək, islamlaşmaq və müasirləşmək» məfhumlarında tapdı: bayrağı mavi, yaşıl və al (mavi, al və yaşıl) rəngli qumaşlardan düzəldildi».

İstanbul «Türk ocağı» mühitinin öz üzərindəki təsirini bu surətlə əks etdirən Rəsulzadə Bakıya döndükdən sonra «Osmanlı dili» ilə «azəri türkcəsi» tərəfdarları arasında cərəyan edən münaqişələrə «Osmanlı dili» ilə nəşr olunan «Şəlalə»yə yazdığı «Dil ictimai bir amil» və «Yeni dilçilər və türkçülər» sərlövhəli məqalələri ilə qarışdı. Dilin geniş xalq kütləsinin başa düşülməsi üçün lazım olan ictimai bir amil olduğunu qeyd edən və türkçülərin dil haqqındakı sadəlik və birlik görüşlərindən ilham alan Rəsulzadə o istiqamətdə inkişaf edən yeni bir azəri türkcəsinin də artıq doğmuş olduğunu müjdələyir və 1915-də təsis elədiyi «Açıq söz» qəzetəsini bu ədəbi türkcə ilə nəşr edirdi.

Rəsulzadə dil bəhsində olduğu kimi, milliyyət bəhsində də Azərbaycan türk toplumuna yeni-yeni istiqamət göstərmişdir. «Dirilik» (1914–1916) jurnalında, ilk dəfə olaraq millətin elmi tərifini verən «Milli dirilik» başlıqlı seriya məqalələrində, millətçi din birliyinə deyil, dil və mədəniyyət birliyinə dayandığını, müsəlmanlıq milləti deyil, dini bir toplum olan ümməti ifadə etdiyini elmi bir metodla, əsaslı və ətraflı bir surətdə izah edən Rəsulzadə, eyni zamanda siyasi-dövlət milliyyətçiliyi nəzəriyyəsini də çürütmüşdü. Bu surətlə millətin: dini, siyasi, iqtisadi, coğrafi və başqa bu kimi dar və birtərəfli, geniş kosmopolit və qeyri-milli tərifi yerinə, elmi və demokratik bir tərif vəz etmişdi. Bu tərifə görə Rusiya imperatorluğu daxilindəki türklər, o cümlədən azərbaycanlılar, hakim və istilaçı rus millətçiliyi ilə heç bir münasibəti və bağlılığı olmayan ayrı və müstəqil milli bir mövcudiyyətdir. Onlardan ayrı dilləri, ədəbiyyatları, xristianlıqdan başqa bir dinləri, qayda-qanun, adət və ənənələri, parlaq tarixi keçmişləri və mədəniyyət əsərləri ilə müstəqil milli varlıq olan bu türklərin qurtuluş davası Rəsulzadə tərəfindən toplu ələ alınmış və «Müsavat» partiyası ilə bu partiyanın orqanı olan «Açıq söz» qəzeti bu hərəkatın bayraqdarı olmuşdur. Rəsulzadə bu səbəblərə görə rus hökuməti tərəfindən təqiblərə məruz qalmaqda və nəhayət, müharibə zamanının ehkamına görə əsgəri məhkəməyə verilmək üzrə ikən, baş verən inqilab sayəsində həyatını qurtarmağa müvəffəq olmuşdu. Fəqət çarlığı devirən liberallar və sosialistlər, onları devirib vəziyyətə



hakim olan bolşevik ruslar da türk milliyyətçiliyinə qarşı çarların siyasətini təqib etdilər. Azərbaycana «muxtariyyət» yerinə məzarıstan verəcəklərini elan edən və məhəlli idarə seçimlərini qazanmış olan Bakı türklərini 1918-ci ilin martında qılıncdan keçirən qırmızı rus inqilabçıları (bolşeviklər) Rəsulzadənin lideri olduğu «Müsavat» partiyası binası ilə sahibi və baş redaktoru olduğu «Açıq söz» qəzetəsi mətbəəsini atəşə verdikləri zaman – «Türkiyənin Bakı cəbhəsini yıxdıq», – deyə sevinmişlərdi. Çünki 1917-ci ilin aprel ayında Bakıda toplanan «Qafqaz İslam qurultayı» ilə eyni ilin may ayında Moskvada toplanan «Rusiya türkləri böyük Konqresində» (Rusiya Müsəlmanları heyəti) Rəsulzadə «milli dövlət» tezisini hərarət, israr, qüvvət və müvəffəqiyyətlə müdafiə etmiş və bu müvəffəqiyyət onun şöhrətini bütün türklər arasında ümumiləşdirərək bütün məhkum türklərin lideri etmişdi. 1917-ci ildə çarlıq rejiminin yerini tutacaq Rusiyanın gələcək idarə şəklini təyin edəcək Qurucular Məclisinə Rəsulzadənin həm Azərbaycandan, həm də Türküstandan xalq vəkili seçilməsi bu şöhrətin nəticəsi idi. Çünki 1918-ci ilin fevralında açılan Zaqafqaziya seymində (parlamentində) Rəsulzadə Qafqazın Rusiyadan ayrılmasını, müstəqil və konfederativ bir dövlət olaraq elan edilməsini və müstəqil Qafqaz dövlətinin Türkiyə ilə müzakirələrə girişərək, Rusiyadan ayrı barış aktı imzalamasını müdafiə edir və bu müdafiə mart ayı zərfində müsbət nəticələr verməyə başlayırdı.

* * *

Rus əsarətindəki türklərin XIX əsrin ortalarına doğru milli-mədəni yüksəlişi şəklində başlayan milli qurtuluş hərəkatı bu günə qədər üç dövr keçirmişdir:

1. Milli-mədəni oyanışının bir nəticəsi olmaq üzrə «Milli-mədəni muxtariyyət» üçün mücadilə dövrü;
2. Milli-siyasi dövlət şüurunun bir nəticəsi olmaq üzrə, tam istiqlala gətirəcək «Milli-məhəlli (torpaq) muxtariyyəti» üçün mücadilə dövrü;
3. Rusiyadan tamamilə ayrılmağı ifadə edən tam istiqlal üçün mücadilə dövrü.

Bunlardan birincisi 1905-ci il inqilabı əsasında ələ alınmış, fəqət qismən olsun həyata keçməmişdi. Çarlıq Rusiyanın yalnız sarsılmış və özünü tez ələ almış olduğu 1905-ci il inqilabı əsnasında əsir türklər birinci mərhələdə bulunurlardı. Və ikinci mərhələyə keçmək üzrə bəzi qımıldamalar müşahidə olunurdu. 1905 və 1906-cı illərdə təşəkkül edən

«Rusiya müsəlmanları ittifaqı»nın təşəbbüsü ilə Rusiya Dövlət duması – parlamentində qurulan «Müsəlman fraksiyası» rus olmayan bəzi millətlərin vəkilləri ilə anlaşaraq mərhum Topçubaşinin sədrliyi altında bir «Federalistlər birliyi» meydana gətirmişdi. Fəqət çarlıq Birinci Dünya savaşı ərəfəsində bütün qımıldamaları boğmuş idi.

Birinci Dünya savaşı və 1917-ci il inqilabı Rusiyanı tamamilə yıxmış və çarlıq tarixə qarışmışdı. Türklər milli varlıqlarını təminat altına alacaq və bir millət olaraq yaşayıb inkişafına imkan verəcək yeni bir dövlət nizamı düşünməli və müdafiə etməli idilər. Beləliklə, Bakı və Moskva qurultayları bu məsələləri münaqişə edirdi. Bir tərəfdə Rusiyanı demokratik və mərkəziyyətli bir cümhuriyyət olaraq təsəvvür edənlər vardı ki, rus olmayan millətlərə, o cümlədən türklərə bəxş ediləcək mədəni və dini «şəxsi muxtariyyət» ilə kifayətlənir; digər tərəfdə də gələcək Rusiyanı ayrı-ayrı milli dövlətlərdən ibarət, İsveçrə tipli federasiyalı bir cümhuriyyət halında təsəvvür edən «Milli-məhəlli (torpaq) muxtariyyətçilər» vardı ki, bunların başında Rəsulzadə dururdu.

Rəsulzadə milli-məhəlli (torpaq) muxtariyyətçilərin istəklərinə tərcüman olaraq milli dövlət tezisini və bu tezisin dayağını təşkil edən mədəni və hüquqi təməlləri bəlağət, həqiqət, məntiq qüdrətini, milli və tarixi, coğrafi və iqtisadi dəlillərini işlədərək hərarət və qüvvətlə müdafiə edir.

Bəzi Türküstan şairlərinin nəzmə çəkmiş olduqları bu tarixi müdafiədən sonra qəbul edilən bu «Milli tezis»ə görə, böyük çoxluğunu rus olmayan millətlər təşkil edən Rusiya imperatorluğu milli vahidlərə, yəni millətlərin sayı qədər ayrı-ayrı müstəqil milli dövlətlərə parçalanacaq, o cümlədən olmaq üzrə, rus əsiri türklərin də özlərinə məxsus milli dövlətləri olacaqdır.

İsveçrə üsulunda bir federasiya bağları ilə bağlanacaq olan bu dövlətlər ailəsində türklərin də öz aralarında ayrı bir federasiyası olacaqdır. Azərbaycan, Qafqaz, Türküstan, Volqa–Ural, Krım və Sibir türklərini içinə alacaq əzəmətli bir türk federasiyası...

Rəsulzadənin təmsil etdiyi bu hərəkat rus olmayan digər millətlərcə də anlaşılmışdır. Kiyevdə toplanan rus olmayan millətlərin «Federalistlər konqresi»ndə başda Rəsulzadənin «Müsavat» partiyası olmaq üzrə türk ellərinin vəkilləri də iştirak etməkdədir. Rusiya kimi qan və atəş üzərində qurulmuş və «millətlər həbsxanası» şöhrəti ilə tanınmış bir məmləkətdə belə bir hərəkatın keçməyi, gəldiyi nəticədən şübhələnən sağlı-sollu bütün ruslar aldıqları müxalif və düşməncə vəziyyətlə şiddətli bir əksüləməl meydana gəlməsini sürətləndirirdilər. Artıq tam istiqlaldan başqa bir qurtuluş yolunun mövcud olmadığı anlaşılmışdı. İlk və müsbət örnəyi müstəqil və demokratik Milli Azərbaycan Cümhuriyyəti təşkil edən bu hərəkat və dava ətrafında Rəsulzadə Məhəmməd Əmin konqres, konfrans, qurultay, məclis və yığıncaqlarda söylədiyi nitqlər, oxuduğu məlumatlar, etdiyi mübahisə və müzakirələr, nəşr etdiyi bəyannamə və verdiyi bəyanatlar, çıxardığı qəzetə və jurnallar, yazdığı məqalə və çap etdirdiyi kitablar siyasi tariximizin qızıl səhifəsini təşkil etməkdədir.



Qafqazın Rusiyadan ayrılıb istiqlalını elan etməsi və Azərbaycan, Şimali Qafqaz, Gürcüstan və Ermənistandan ibarət bir konfederasiya qurması üçün 1918-ci ilin fevral, mart və aprel aylarında Zaqafqaziya parlamentində söylədiyi siyasi nitqlər tarixi və siyasi dəyərlərini heç bir zaman qeyb etməyəcəkdir. Zaqafqaziya konfederasiyasının dağıdılması üzərinə 1918-ci il mayın 28-də Azərbaycan istiqlalını elan edən «Milli Şura» rəisi sifətində Osmanlı dövləti ilə imzaladığı müqavilə gərçəyincə alınan əsgəri yardım, milli varlığımızı yox olmaqdan qurtarmış və bütün Qafqaz millətlərinə müstəqil milli dövlət həyati imkanlarını təmin etmişdir. Əgər Osmanlı dövlətindən bu əsgəri yardım alınmamış olsaydı, Azərbaycan türkü qılıncdan keçiriləcək və Gürcüstanla Ermənistan da 1920–1921-ci illərdə məruz qaldıqları fəlakətə 2–3 il daha əvvəl uğramış olacaqlardı. Milli Şuranın rəisi sifəti ilə 1918-ci il dekabrın 7-də Azərbaycan parlamentində etdiyi tarixi nitqi və ondan sonra «Müsavat» partiyası adından elan etdiyi bəyannamə, gənc cümhuriyyətin dövlət quruluşunda, daxili və xarici siyasətində təməl daşını təşkil etdiyi kimi, Azərbaycanın gələcək əsas təşkilat qanununun da ana prinsiplərini əhatə etməkdədir.

Rəsulzadəyə görə, «Milli mədəniyyət əsasına dayanması və milli-demokratik türk dövlətçiliyi üzərində qurulması etibarilə Azərbaycan ilk türk dövləti və ilk müsəlman cümhuriyyətidir» («Azərbaycan», Bakı, 28 may 1919).

Müstəqil milli Azərbaycan Demokratik Cümhuriyyətinin davamı müddətincə (1918–1920) gərək parlamentdə, gərəksə parlament xaricindəki nitq və məruzələri, məqalə və bəyanatları bu milli türk dövlətinin və bu ilk müsəlman cümhuriyyətinin möhkəmlənməsinə və yaşamasına xidmət edirdi.

Rəsulzadə Azərbaycan Cümhuriyyətinin təşəkkülündə, içində öz varlığından bir hissə daşıyan milli məfkurənin canlandığını, təxəyyül etdiyi və uğrunda çalışdığı milli istiqlalın gərçəkləşdiyini, milləti üçün bir səadət qapısı açıldığını görürdü. Bu cümhuriyyətin məlum şərtlər altında, yenidən rus istilasına uğramasından duyduğu inzibatın dərinliyi

də bundan irəli gəlirdi. Halbuki parlamenti açarkən söylədiyi nitqində: «Bir dəfə yüksələn bayraq bir daha enməz!» – demişdi.

Rəsulzadə qırmızı istiladan sonra başda mütərəqqi gənclik olmaq üzrə millətin göstərdiyi şiddətli müqavimət və verdiyi saysız qurbanları görərək, milli bayrağın torpaqlara deyil, millətin vicdanına enmiş olduğunu, hər kəsin bu bayrağı ruhunda, qəlbində və bağrında mühafizə etməkdə olduğuna inandığını bildirirdi.

## RƏSULZADƏ MÜHACİRƏTDƏ...

Rəsulzadə istilaya uğramış məmləkət və millətlərin inqilab tarixlərində görüldüyü kimi, siyasi mühacirətin öz davasını davam etdirmək üçün tərki-diyar edən mücadiləçi bir təmsilçisi, yalnız təmsilçi deyil, rəhbəri və rəisi idi. Bu etibarla Rəsulzadə mühacirətdə də misilsiz idi. 1953-cü ildə yazdığım «Azərbaycan mühacirlik mətbuatının 30 illiyi» sərlövhəli yazımda («Azərbaycan» jurnalı, Ankara, 1953, № 7; «Birləşik Qafqasiya», Münxen, 1953, № 9.) dəxi qeyd etmiş olduğum kimi, istilaçı qırmızı Rusiyaya qarşı İstanbulda 1923-cü ildə azad milli nəşriyyatı təsis etməklə işə başlayan Rəsulzadənin bu təşəbbüsü bu gün əsir türk dünyasında və İslam aləmində dərin əksilər oyandırmış və qırmızı imperialistlərin iç üzünü ortaya qoyduğu üçün sovetləri ciddi şəkildə təlaşa salmışdı. Sovet mətbuatı Rəsulzadənin nəşriyyatını cavablandırmaq məcburiyyətini hiss edirdi. Sovet dövlət adamları qurultaylarda bu nəşriyyatdan danışır, xaricdəki sovet nümayəndələri bu nəşriyyatın qarşısını almaq üçün təşəbbüslərə girişirdi. Rəsulzadənin nəşriyyatı Azərbaycanda, Türküstanda və Kazanda diqqətlə oxunur və həmən hər yazısına cavablar verilirdi.

Məmləkət daxilində əldən-ələ keçən və oxunması üçün gizli təşkilatlar meydana gətirən bu nəşriyyat daxilindəki mücadiləyə yeni bir istiqamət vermiş və bu hərəkət bir çox kommunistləri də içinə alan bir sel halına gəlmişdi. Başda qabaqcıl gənclik olmaq üzrə qüvvətlənən milli müqavimət Azərbaycan milli davasının yeni bir dövrə girdiyini elan edirdi. Orada, yəni istila altındakı yurdda, özünü istiqlalın bir simvolu olaraq alan istiqlalçı bir gənclik doğmuşdu. Çekalarda, zindanlarda, Sibiriyalarda, Şimal qütbü sərhədlərindəki ölüm düşərgələrində şəhidlik qədəhini sevə-sevə içən bu istiqlalçı gənclik, daxil və xaricdəki şair və ədiblərə həyəcan və ilham qaynağı olur və bu gün iftixar etməkdə olduğumuz şeirdə, nəsrdə istiqlalçı bir mücadilə ədəbiyyatı əmələ gəlirdi. Üzərində qüvvətli təsir edən olduğu və istiqamətini təyin etdiyi məmləkət daxilindəki milli mücadiləni dünyaya əks etdirən mühacirətdəki bu azad, milli nəşriyyat, eyni zamanda dünyanın dörd bir tərəfinə yayılmış olan milli Azərbaycan mühacirətinin bir fikir mərkəzi halına gəlmişdir. Milli Azərbaycan «Müsavat» xalq partiyasının xarici məmləkətlər bürosunu təşkil edən Rəsulzadə, bütün istiqlalçı, idealist və fəal adamları Milli Azərbaycan Mərkəzi ətrafında birləşdirmişdir. Başında hər zaman Rəsulzadənin durduğu bu Azərbaycan Milli Mərkəzi Qafqaz millətləri ilə, rus əsiri türklərlə və nəhayət, rus olmayan digər istiqlalçı millətlərlə iş və cəbhə birliyi vücuda gətirmiş və Azərbaycan istiqlal davasını millətlərarası bir məsələ halına qoymuşdu.



Mühacirətdə Rəsulzadənin başçılığı altında çalışan bu Milli Mərkəzin siyasi fəaliyyət tarixi hələlik yazılmamış və belə bir tarixin yazılması üçün də ilk qaynaq mahiyyətindəki sənədlərin nəşr və elan edilməsi üçün müvafiq zaman da hələlik gəlmiş deyildir. Bu tarix yazılınca, məfkurəçi və inqilabçı Rəsulzadənin istiqlal davasındakı nəhəngliyi, uzaqgörənliyi, biliyi, iş yoldaşlarını seçməkdəki bacarığı və sərrastlığı o zaman bir kərə dəxi anlaşılmış olacaqdır.

İkinci Dünya savaşına qədər fəaliyyət göstərən və «Prometey birliyi» adını daşıyan əsir millətlər cəbhəsinin qurulmasında və müvəffəqiyyətlərində Rəsulzadənin böyük xidmətləri və rolu olmuşdur. Azərbaycan davasının ön xəttində duran vuruşlardan biri olduğu bu dövrdə imzalanan «Qafqaz konfederasiyası əhdi»ndə Rəsulzadənin də imzası vardır.

İkinci Dünya müharibəsi əsnasında Hitlerin «həyat sahəsi» nəzəriyyəsinə dayanan istila və hakim olma siyasətinə və totalitar rejiminə qarşı Rəsulzadənin tutduğu mövqe, istiqlal məfkurəsinə və demokratiya əsaslarına sadiq məfkurəçi bir liderin tuta biləcəyi yeganə bir yol idi. Berlinə dəvət olunan və o zamankı alman hökuməti ilə aylarca müzakirə aparan Rəsulzadə istiqlal xaricində heç bir anlaşmaya tərəfdar olmamışdı. İçində yaşadığımız İkinci Dünya savaşından sonrakı dünyanın iki cəbhəyə ayrılmış olduğu indiki dövrdə qırmızı rus imperializminə qarşı yalnız şəxsiyyətin və əməyin azadlığı bayrağı altında müvəffəqiyyətlə mücadilə edilə biləcəyinə qane olanlara, bu yolun yalnız «böyük və parçalanmaz rusiyaçıları» təmin edəcəyini söyləyən Rəsulzadənin istiqlalçı azərbaycanlılar adına nəşr etdiyi bəyannamələr məlumdur. Rəsulzadə məzkur bəyannamələrində və bunlarla əlaqədar müzakirələr və nəşrlərində özündən sonra mübarizəni davam etdirəcək olanlara demokratik azadlığın, fərdin və əməyin azadlığı ilə bərabər, millətin də azadlığını içinə alan bir bütün olduğunu, bir vacib vəzifə olmaq üzrə milli bir məfkurə mirası olaraq vəsiyyət etməkdədir.

Bizlərcə bu vəsiyyətə görə fərdin, əməyin və millətin azadlığı bir küll halında düşünülməlidir. Bu azadlıqları bir-birindən ayırmaq mümkün deyildir. Sovetlər birliyində fərdlə və əməklə bərabər, millətlər də əsirdir!

İnsanlara hürriyyət, millətlərə istiqlal!.. – deyən bir düşüncə tərzində bu azadlıqların bir-birindən ayrılmasına yer yoxdur. Bu etibarla 72 yaşına yeni qədəm qoymuş olan uzaqgörən Rəsulzadə ilə bir zamanlar 20 yaşına qədəm qoymuş gənc və inqilabçı Rəsulzadə arasında heç bir fərq yoxdur.

Milliyyətçi, istiqlalçı, demokrat və inqilabçı Rəsulzadə «İnsanlara hürriyyət, millətlərə istiqlal», – deyə meydana qədəm qoydu və yenə «İnsanlara hürriyyət, millətlərə istiqlal!» – deyə gözlərini qapadı.

Rəsulzadə prinsipə sədaqətin, məfkurəyə bağlılığın və bu yolda səbrin, fədakarlığın, əzm, söz və əhdindən dönməməyin də timsalı idi. Çünki o tam mənası ilə fəzilət sahibi kamil bir insan idi.

Onun bizə miras qoyub getdiyi böyük milli məfkurənin gerçəkləşməsi və Azərbaycanın yenidən istiqlala qovuşması uğrunda müqəddəs mücadiləni eyni əzm, qeyrət və mətanətlə davam edəcəyimiz haqqındakı andımızı təkrar edir və əziz xatirəsi önündə hörmətlə baş əyirəm.

**Mirzə Bala Məmmədzadə**
*«Azərbaycan» məcmuəsi, № 12 (36), 1955*

# 1903–1909

## ÖZ MÜXBİRLƏRİMİZDƏN

### BAKI

Səadətli Məhəmməd Ağa hüzuruna!

Həmd[1] olsun xudavəndi[2] təbarək[3] və təalayə[4] illər ilə yolunu gözlədiyimiz və gecə-gündüz arzusunda olduğumuz türk Azərbaycan qəzeti hümmətli cənab Məhəmməd Ağanın qələminin ağzından Tiflisdə «Şərqi-Rus» ayəndə[5] ələmül-əttibaə[6] qədəm qoydu. Şükür və min dəfə şükür! Ki biz Qafqaz müsəlmanları da bir qəzet sahibi olduq. Allah millətimiz arasında hümmətli əxşası çoxaltsın, tainki bu cürə nəvaqisatımız[7] ki, həddən ziyadədir, yava-yavaş düzələ. Həmdən sümmə[8] həmdən ki, çox gec də olsa amma yenə müsəlmanların da asari-tərəqqiləri görünür.

Bu şərif qəzetənin səbəbilə Allah bilir ki, gələcəkdə biz Qafqaz müsəlman taifələrindən nə qədər nəvaqisat rəf olacaqdır.

Qafqaz müsəlman əhalisindən ümumi və Bakı əhlindən xüsusi təvəqqe edirəm ki, öz uşaqlarından balaca olan vaxtda elm və tərbiyə kəsb eləməkdən başqa bir şey mənzur[9] tutmasınlar. Məsələn, hər kəsin ki, qüvvəsi çatır uşağını məktəbə qoymağa məbada-məbada palçıxçı dükan şagirdi və qeyrə və qeyrəyə razı olsun.

Bizim təsəvvürümüz budur ki, «Şərqi-Rus» qəzeti bu mətalibi layiqincə millətİ-məhruməyə fəhm edəcəkdir.

Xudavəndа, bu qəzetin dəvamını sizdən rica edirəm. Amin!

**Məhəmməd Əmin Rəsulzadə**
*«Şərqi-Rus», № 14, 2 may 1903*

## HÜMMƏT VƏ QEYRƏT VAXTIDIR

İlahi, havaxtacan bizlər gecə-gündüz fikrə qərq və millətimizin dərdini və dalda qalmağını özümüzə vəzifə biləcəyik? Məgər bizlərə tərəqqi etməyə manеə vardır? Bəli, vardır! Nə şeydi bizə mane olub? Hümmətsizlik, kibr[10] və qürur, mədəniyyətə ədəmi-meyil. Müsəlmanam – deyib, oturub baxmaq. Bəli, bir para əhli-maariflərimiz yeri düşəndə köhnə islam mədəniyyətilə təfaxür[11] edərlər ki, bu hal alim babası ilə fəxr edən cahil nəvənin gülünc

[1] **həmd** – şükür
[2] **xudavəndə** – pərvərdigara
[3] **təbarək** – mübarəkdir
[4] **təala** – nə gözəl, nə yaxşı
[5] **ayəndə** – gələn
[6] **əttiba** – təbiblər
[7] **nəvaqisat** – nöqsanlar
[8] **sümmə** – sonra
[9] **mənzur** – məqsəd, niyyət
[10] **kibr** – təkəbbür
[11] **təfaxür** – fəxr

halına bənzər. Zamanımızda millətimizin təfaxür eləməli nəyi vardır? İlahi, nə oldu o günlər? Bu cürə də insaniyyət olarmı? Pəs gündə beş-altı nahaq qan töküyoruz. Bununla belə, Allahdan rəhm ümid ediriz?! Və millətə! Bu nə əhvaldır biz düşmüşük? Məgər vaxt gəlməyib ki, bu dərdlərin çarəsini edək?! Bir kərə ətrafımıza baxaq, bizdən savayi sərgərdan kim qalıb? Qardaşlar! Gəlin hamımız birdən hümmət edək, məktəbxanələr açaq, cəmiyyəti-xeyriyyələr təsis edək, füqəraya əl tutaq. Ta Allah da bizim əlimizdən tutsun. Hədisi-şərifi-nəbəvi[1] varid olubdur ki, füqəraya əl tutmaq insanın ömrünü uzun eylər. Əbəs yerə deyilməyibdir məlum ki, füqəraların məskənləri pulsuzluqdan çirkli və mütəəffin[2] saxlanır və buna görə o yerlərdən bəzi naxoşluqlar hadis olur ki, qonşulara da sirayət edir. Hər ayinə dövlətlilər füqəralara əl tutsalar, yəqin ki, onlar da fəqirlikdən xilas olub, öz məskənlərini təmiz edərlər. O naxoşluqların qapısı bağlanar. Və qeyrilər də salamət olar. Pəs nəfəqə[3] insanın ömrünü uzadar. Budur! Axirət savabı isə daha artıq.

Bu vaxta bizə lazım və vacibdir ki, hümmət edib, elm öyrənməyə və öyrətməyə və öyrətdirməyə səy və kuşiş qılaq. Elmsiz heç bir nöqsanımız götürülməyəcəkdir. Elmin fəzilətində bu bəsdir ki, peyğəmbərimiz əleyhissəlam hədisi-mütəəddidədə elə bizlərə tapşırıblar, əzon cümlə bu aşağıdakılardır ki, nəzmə çəkmişəm.

Peyğəmbərimiz həzrətləri tərəfindən yetişən hədislərdən:

1) Söylədi peyğəmbər ol xətmi rüsül[4]
Bu hədisi ol vəliyyü-cüzvü-küll:
Öyrən elmi məhdidən[5] ta ləhdəcən,[6]
Ta ki, hər dünyadə ol sən mümtəhən.[7]

2) Elmi qismi ikidir, ey bülvəfa[8]
Bu hədisi çünki söyləyib Müstafa:
Elmi əbdan[9] əvvəli sən eylə yad,
Elmi ədyandır[10] biri ey xoş nəjad[11].

[1] **nəbəvi** – peyğəmbər
[2] **mütəəffin** – üfunətli
[3] **nəfəqə** – ehsan, əl tutma
[4] **rüsül** – peyğəmbər
[5] **məhd** – beşik
[6] **ləhə** – qəbir
[7] **mümtəhən** – imtahan olunmuş
[8] **bülvəfa** – vəfalı
[9] **əbdan** – tibb elmi
[10] **ədyan** – din elmi
[11] **nəjad** – ulus



3) Talibi elgilən, sən, ey əziz!
Alimi-Allah, olur Əbdüləziz.
Məqsədi-əsliyi-peyğəmbər budi:
Ütlubu-l-elm vəlo fis-sin*, dedi.

M.Ə. və M.Ə.
(Məhəmməd Əmin və Məhəmməd Əli)
*«Şərqi-Rus», № 19, 14 may 1903*

## ÖZ MÜXBİRLƏRİMİZDƏN

*19-cu nömrədən məbədi*

Həzrəti Əli həzrətlərindən yetişən hədislərdən:

1) Ey olan aşiq Əli övladinə,
Bir qulaq ver sən Əli fəryadinə!
Kim o sərvər söyləyir bu nəğməni:
Alim həyy[1] və cahilin yoxdur cəni (canı).

2) Ey olan şiyeyi Əbu Talib,
Elmə hər bir zaman sən ol talib!
Sərvəri-din ol vəliyyü-xuda[2]
Söyləyibdir ziruyi-sidqi-səfa[3].
Adəmin cinsi alimü-talib,
Qeyri besyar vardı ruhi-biqalib.

Bu elmlərin ikisini də öyrənmək bizə lazımdır. Amma elmi-əbdan, hansı ki, məişət və mədəniyyətə məxsusdur, onun təhsili üçün minlərcə məktəb vardır. Amma din elmini öyrənməyə demək ki, cəmi Rusiyada bir mədrəsə tapılmayan kimidir.

Pəs hümmət və qeyrət vaxtıdır. İttifaq edib, bir məktəbxanə bina eləyin ki, ona da ümumi ruhani deyilə. Hansı ki, o məktəbdən çıxan üləmadan molla və axundlar təyini lazım olacaqdır.

Dövləti-aliyyeyi-Rusiya qanunu ilə müsəlman ruhani sinfinə girən əşxas gərəkdir ki, Rusiyada təlim almış olsunlar. Bu hamısına məlumdur. Halbuki Rusiyada bir bab ruh ruhani məktəbxanası yoxdur. Pəs bizə molla kim olub, qəzavət[4] kim edəcəkdir?

* **Ütlubu-l-elm vəlo fis-sin** – elmi, hətta Çində olsa da, axtar! (hədislərdən)
[1] **alim həyy** – alim diridir
[2] **vəliyyü-xuda** – Allahın vəlisi, Əli
[3] **ziruyi-sidqi-səfa** – səmimiyyətlə
[4] **qəzavət** – qazılıq

Məlumdur ki, bizim üləmalarımızın əksərinin ümumi riyaziyyədən bilmərrə xəbərləri yoxdur. Hər ayinə üsuli-cədid ilə ruhani mədrəsəmiz olsa, mollalarımız da fünuni-haziraya aşina olub, həm özləri, doğrudan, alim olarlar, həm də övladi-milləti müstəfid[1] edərlər. Bu səadət qapısının açılmasını Qafqaz dövlətlilərindən və hümmətlilərindən, ələlxüsus Bakı milyonçularından gözətləyirik.

## ELM TƏRİFİNDƏ DEYİLİBDİR

### MÜXƏMMƏS

Aç qulağını bir eşit bu sözlərin ey bül füzul,[2]
Elmə rağib[3] olgilən qafildilər küllən cühul.[4]
Hər nə var dünyada bil ki, elmilən olmuş hüsul,[5]
Fəzli elmi bilgilən şərilə olmuşdur qəbul,
Olmasın qafil xəlayiq eyləyib Quran nüzul[6]
Bu təriqətdə nə qədri çəkdi zəhmət Müstəfa[7],
Söylədi əlelmü-elmani və fis-sin bərməla.[8]
Hər necə cövr etdilər edmüb olara iqtifa,[9]
Hökm edərdi hökmü kim, hökm eyləyib ani xuda.
Olmasın qafil xəlayiq eyləyib Quran nüzul.
Elmilən bir vəqti də mənsur olub islamiyan,
Nüsrəti-islama eylərdi təəccüb bu cahan.
Bu zamanda azdı dünya içrə islami sayan,
Düşmənidir qafilin ol xudayi-laməkan.
Olmasın qafil xəlayiq eyləyib Quran nüzul,
Öyrən elmi ləhdəcən tapşırmış ol fəxri-ənam.
Mərdüzən alim olsun gərək deyibdir ol imam.
Elm elindir hər nə var biz müxtəsər qıldıq kəlam,
Dustudari-əhl-elm olmuş bilin rəbbül-ənam,
Olmasın qafil xəlayiq eyləyib Quran nüzul.

**Məhəmməd Əmin Rəsulzadə**
*«Şərqi-Rus», № 20, 18 may 1903*

[1] **müstəfid** – faydalanmış
[2] **ey bül füzul** – ey füzulun atası (füzul – uzun danışma)
[3] **rağib** – rəğbət göstərən
[4] **cühul** – cahil
[5] **hüsul** – hasil olma, ələgəlmə
[6] **nüzul** – göydən yerə enmə, nazil olma
[7] **Müstəfa** – Məhəmməd peyğəmbərin ləqəblərindən biri
[8] **bərməla** – aşkar, aydın, göz qarşısında
[9] **iqtifa** – arxasınca getmə



## «HÜMMƏTÜR-RİCAL TƏQLƏÜL-CİBAL»

Bu kəlami-hikmət nizam ki, bizim cəridənin hər səhifəsinin əvvəlində, intibahnamələrin ünvanlarında, cavanlarımızın övradi-zikrində mütədavil[1] və bərqərardır – nə deyən sözdür bilməli.

Bu kəlami-izan həzrət əmirülmöminin Əli ibn Əbu Talib əleyhissəlamın kəmali-möcüznümalarından olub, «Kişilərin hümməti dağları qoparar», – dediyini hamımız bilirik. Və bu sözü özümüzə ünvan qayırdıqda bu söz bizə dəsturüləməldir. Xəyal edirik və özümüzü bu dəsturüləməldən mütəxəllif hesab ediyoruq. Amma həqiqətdə isə belədirmi? Özümüzə ünvan tutduğumuz qaydaya müvafiq gedirizmi? «Hümmətür-rical» – kəlməsinin əsl mənasını fəhm edirizmi? Biibarəti üxra[2], müəyyən bir məsləkimiz varmı? Bu sözü özünə ünvan edən bir dəstənin bu suallara cavabı nə olmalıdır? Əlbəttə ki, belədir: bu sözün məzmunu ilə müvafiq hərəkətdəyiz. Demək lazımdır və illa qövldə bir, fe'ldə qeyri olmalıdır. Biz isə bu suallara bu cür cavab verməliyiz. Həm müttəhidülkəlmə[3] və həm qəlbən cavab verməliyiz. Amma bu cür cavabı vicdanımız təsdiq edirmi? Bu cavabı verib də səvab da buluyoruzmu? Gümanımca bizim cavanların cəmiyyəti həmin suallara sidq ilə bu cavabı verməyə muxtar deyildirlər. Ona görə ki, «hümmətür-rical» – «kişilərin hümməti» deməkdir. Hümmətür rəcül – kişinin hümməti deyil, yəni «hümmətür-rical» – cəmdir müfrəd deyildir. Burada təəmmül etməli, dərin fikir edib kəlamın lübbünü[4] bilməlidir. Bu kəlam «Kişilərin hümməti birləşsə, dağları qoparar» deməkdir. Həqiqətdə də öylədir. Hər bir şeyin qüvvəti birlikdədir. Birlik isə yalnız «Mən sənə yoldaşam», – deyib təsəlli verməklə olmaz. Bu, dildə deyilən sözü əməl ilə də göstərməlidir.

Bir neçə şəxsin arasında ittihad həmfikirlilik, həmməsləklik ilə olur. Və illa ilə yovmilqiyamə[5] nifaq üzrə baqi qalacaqlar. Məsələn, biz cavanların biri millətpərəst, o biri demokrat, üçüncüsü ətiqpərəst, dördüncüsü cədidpərəst olub da, bu cür dəstə-dəstə olmaqda, hərəmiz özünə məxsus bir yol götürüb, müəyyən bir məslək ilə getməkdən hamımız tək-tək tələf olluq. Və heç birimizin əli öz muradına çatmaz. Yaddan fəramuş etməməlidir. Bu təfriqəbazlıqla belə hamımızın dilində virdimiz «hümmətür-rical, təqləülcibal» sözüdür. Bəs biz müttəfiq olmaq istəsək, bu kəlam ki, hamımız ona mütəkəllimik[6], mənasını qanıb dildə vird[7] edən

[1] **övradi-zikrində mütədavil** – həmişə dilinin əzbəridir
[2] **biibarəti üxra** – başqa sözlə
[3] **müttəhidülkəlmə** – yekdillik
[4] **lübb** – cövhər, məğz
[5] **ila yovmilqiyamə** – qiyamət gününədək
[6] **mütəkəllim** – deyən, danışan
[7] **vird** – dilinin əzbəri

kimi, ürəkdə də qəbul etsək müttəfiq, müntəzəm, müttəhid olmağımıza hərgiz şəkk-şübhə yoxdur. İndi yoldaşlar! Hərəmiz bir küncdə bir xüsusi cəmiyyət qayırıb da müxtəlif yollar ilə getməkdənsə, birləşməli, öz fikir və fellərimizdən bir-birimizi hali etməliyiz. Millətpərəstlik bizə yararsa, hamımız millətpərəst, demokratlıq yararsa, hamımız demokrat və qeyri bir yarar məslək üzrə olub, müttəhidül-qövl vəl fel[1] iş görək.

Bəndəyə qalır isə hər bir dəstədən olursa olar, ancaq islamiyyət üzrə olaq. İslamiyyətdən kənara çıxsaq, fəlakət bizi gözləyir. İslam bizə rəhnicatdır, – desəm eyni səvabdayam. Nə sosializmin, nə demokratizmin ümdə əqidələri islam ilə müxalif deyil. Bəlkə, şərəyei-müqəddəsi-islam qoyduğu qavaidlə eyni mütabiqətdə və müvafiqətdədir. Zəkat, fitrə və qeyrə sədəqələr vacibi-sünnəti materializm deyil də nədir? Bərəkət cəmaətlikdədir. Ümur cümhuri-şura ilə görülməlidir – kəlamları demokratizmi icab etməzmi? Xülasə, yenə də təkrar edirəm, hər nə olmalıyız, olaq. Fəqət islamiyyət üzrə olaq ki, bu eyni insaniyyətdir.

*«Hümmət» qəzeti, № 3, 1905*
*(Bax: «Açıq söz», № 513, 5 iyul 1917)*•

---

[1] **müttəhidül-qövl vəl fel** – sözü və işi bir olan

• Məlumdur ki, M.Ə.Rəsulzadə 1902–1903-cü illərdə «Müxtəlif rus liseylərində və digər orta məktəblərdə oxuyan Azərbaycan-türk tələbələrindən ibarət gizli bir dərnək» təşkil etmişdi... Dərnəyin mətbəə üsulu ilə intişar edən bir də «Hümmət» adını daşıyan bir dərgisi vardı» *(Bax: «Stalinlə ixtilal xatirələri», Bakı, 1991, s. 13–14).*

«Hümmət» qəzetinin 1904–1905-ci illərdə çıxmış 5–6 nömrəsindən heç biri hələlik tapılmamışdır. 1917-ci il iyulun 3-də Bakıda «Hümmət» qəzeti N.Nərimanovun redaktorluğu ilə yenidən nəşrə başlamışdı. «Açıq söz» qəzetinin redaktoru olan M.Ə.Rəsulzadə bu münasibətlə qəzetin 1917-ci il iyulun 5-i nömrəsində «Təzə rəfiqimizi təbrik» sərlövhəli bir xülasə dərc etmişdi. «Açıq söz» N.Nərimanovun «Hümmət»in 1-ci nömrəsində dərc olunmuş beş məqaləsindən bu sözləri iqtibas edirdi: «Bizim məsləkimiz bütün insanları birləşdirməkdir, biz diyoruz hamı millətlər üçün məqsəd (ideal) birdir. Bu müqəddəs nöqtəyə çatmaq üçün hər bir millət öz yolu ilə getməlidir. Çünki bu təbiidir. Fəqət bu nöqtəyə ciddi surətdə yeriş etmək hankı üsuli-idarədə mümkündür? Müsavi yaşayış, ciddi tərəqqi, ruhun təmizlənməsi və ucalması, ancaq cümhuriyyət üsuli-idarəsinə bağlıdır». M.Ə.Rəsulzadə bu parçanı eynilə xülasəsində verir və «Hər bir millət öz yolu ilə getməlidir» – amənna (inandıq), «çünki bu təbiidir» – cümlələrini təkrar nəzərə çatdırır və yazırdı ki, «Pək doğru. Bu xüsusda təzə rəfiqimizlə razı olmamaq mümkün deyildir. Həqiqi hürriyyətin ancaq cümhuriyyət üsuli-idarəsinə bağlı olduğuna gəlincə, yəqin ki, burada cümhuriyyətdən məqsəd: əvvəla, «Cümhuriyyət ənam» (bəxşiş) olduğu və saniyən (ikinci) «cümhuriyyət ənamı»ın belə məqsəd deyil, vasitə olduğu unudulmuşdur».

M.Ə.Rəsulzadə qeyd edirdi ki, «Hümmət» Qafqazda türk (Azərbaycan) «mətbuatı arasında ali «partiya vasiteyi-nəşri əfkarı olmaq üzrə» (yəni partiya orqanı olmaq üzrə) ilk qəzetə olub. «15 illik tarixçəsi «Hümmət» qəzetində nəql olunan «Hümmət» təşkilatı öz adını məhz «kiçik mütəəllimlər heyəti tərəfindən 1905-ci ildə gizli surətdə jelatin yapı ilə nəşr olunan «Hümmət» məcmuəsindən almışdır». Sonra yazır ki, bu sətirləri yazarkən qəzetin 3-cü nömrəsi əlimiz altındadır. «Tarixi bir əhəmiyyətə malik olduğu üçün nümunə olaraq məzkur nömrədən aşağıdakı məqaləyi nəql ediyoruz». Beləliklə, bizim qənaətimizcə, M.Ə.Rəsulzadənin öz qələminin məhsulu olan məqalə, doğrudan da, «Hümmət» qəzetində yeganə yazı kimi tarixi bir əhəmiyyətə malikdir. – *Ş.H.*



## MƏRƏZİMİZİN ÇARƏSİ

Bir ildən mütəcavizdir[1] ki, erməni ilə müsəlman «şeytan»ın alətişəqavətkaranəsindən[2] arasına fitnə toxumu düşüb, özünə müsaid bir zəmin tapdığı üçün göyərib, nəşvü-nüma[3] etməkdədir.

Bu bir il yarım içində ariz olan bəlanın xarabedici əsərlərini, yandırıcı, öldürücü nişanələrini tərif etməyəcəm. Zira, hər bir vətən övladı ki, göz sahibi və qulaq yiyəsidir, bu xərabələri görüb, bu nalə və fəqanları eşitmişdir. Yox, əgər eşitməyənlər varsa, karlara nə demək. Tüfənglərin taqqıltısın, topların gurultusun eşitməyən şəxs «top atdılar», «güllələdilər» – sözlərinimi eşidəcək?!

Mən nə deyim ki, abad şəhərlərimiz xaraba qalmış, kəndlərimiz viranə olmuş, gözəl Qafqaz iki düşmən ordusuna dönmüş... Bəsirət sahibi özü görər...

İndi olan olub, keçən də keçib, gələcəyə çarə axtarmalıdır... Fikir etməlidir ki, nə etmək lazımdır ki, bir də vətənimiz qan ilə əlvan olmasın, yəni bimənə tökülən qardaş qanı ilə boyanmasın?!

Hər bir naxoşluğun, mərəzin illətini, səbəbini bilməmiş, ona hərgiz çarə etmək olmaz. Bir təbibi-haziq azarlının qızdırmasını bilib, sonra çarəsi, dərmanı olan kinə-kinə (xinin) veriyor. Sərsəm olur isə turşu yeməyi qadağan edir, səfra[4] qələbə edibsə, şirin yeməkdən mümaniət ediyor. Xülasə, hər bir mərəzi əvvəl tanıyıb, nədən naşi olduğunu bilib, sonra tədavi ediyor.

Erməni-müsəlman qırğını da vətənimizə ariz olmuş bəladır, bir mərəzdir ki, aramızda said bir zəmin tapıb, bu cür olan illət və səbəblərdən naşi şiddət etmişdir.

İştə bu bəlanı rədd edib, qədimül-əyyamdan, sülh və müsalimət ilə yaşayan iki milləti barışdırıb, əvvəlki haləta gətirməkdən ötrü bu illətləri arayıb tapmaq gərək.

Tapıb da tədavi etmək gərək. Bizə ariz olan bu mərəzin səbəbini, illətini də bilməyən yoxdur, zənn ediyoram. Cümlə Rusiyanı qanlı bir girdab içinə buraxan istibdadı, bürokratiyanı cümləsi bilir, tanıyır. Cənnət misal Qafqazı böylə cəhənnəmə döndərən həman Rusiyanın qeyri şəhərlərini məsələn: Odesi, Kişinyovu, Ukraynanı xunalud[5] edən Rusiya istibdadi-qəddaranəsini kim tanımıyor?!

Qafqaziya əmirlərinin hərəkati-xəyanətkaranəsinə bələd olan hər bir şəxs bunda mənimlə həməfkar olacaqdır. Zira ki, naqaşidzeləri, əlixa-

---

[1] **mütəcaviz** – çox, artıq
[2] **şəqavət** – bəla
[3] **nəşvü-nüma** – boyatma, inkişaf
[4] **səfra** – sarılıq
[5] **xunalud** – qanlı

novları, qoloşşapovları, lyutskiləri, pivovarovları və qeyrilərini görüb də razı olmaq yaramaz.

Bürokratlar Rusiya inqilabi-kəbirindən rəhayab[1] olub, xilaslıq tapmaq üçün biçarə rəiyyəti bir neçə vaxtda təhti-təzyiq və təkdirdə saxlamaq üçün olmazın hiylələr edib, hər bir ərzəl işlərə tənəzzül etdilər. İki milləti bir-biri ilə vuruşdurub, nahaq qanlar içində inqilabı qərq etmək istədilər. Lakin bundan bixəbər ki: «xuni-ərbabi-həmiyyət qərq edər zalimləri, müştəməl əfkari-əhrarənə sönməz xunilə»* – bətəhqiqən cümlə poqromların, qırğınların ümdə səbəbi, inqilabiyyunlar heybətindən, füqərayi-kasibə qiyamından bağrı yarılmış, başın itirmiş bürokratiyadır.

Lakin bürokratiya özünün bədəfkar şeytaniyyə, bu məqhur[2] zalimanəsinə tərvic verməк üçün bir müsaid zəmin aradı ki, özünü də özü piş əz vəqt hazırlamışdır. Həman zəmin də müxtəlif millətlərin burjuaları arasında olan iqtisadi rəqabət idi. Bu rəqabət də «şeytan»a imkan verdi ki, fevral ayında Bakıda bir şöleyi-şəqavət və ədavət işıqlandırsın ki, o şölədə həmin məzkur burjuaların bərəkətindən və bəzi maskalı üzvlərin sayəsində işıqlanıb, cümlə Qafqazı alovlatdı.

Budur bizim Qafqazı tutmuş müsri[3] azarın ümdə illətləri və ya doğrusu ümdə illəti.

Madam ki, bu tərzi-idarə, bu rejim duruyor, madam ki, çinovniklər, bürokratlar öz istədiklərini eliyorlar, madam ki, toplar, tüfənglər, kazak və məhbuslar, həqq sözü təcəlli etməyə qoymuyorlar, madam ki, müftinlər, provokatorlar hökumət tərəfindən təbid edilmiyorlar, madam ki, istibdad cümlə öz zülm və təəddiləri ilə yaşayır, bir söz ilə, nə qədər ki, bürokrat üsulu var.

Ey vətənini istəyən qafqazlı sülhsevən ünsürlər! Əgər sülh istəyirsiniz, yəni düçar olduğumuz mərəzdən səhhət tapmağımızı arzu edirsiniz, müttəhid olun, birləşin taki zikr olunan illətlər aradan götürülsün. Nə qədər ki, bu illətlər duruyor, bu mərəz, bu xəstəlik olacaqdır.

**M.Ə.R-zadə**

*«Dəvət Qoç», № 6, 19 iyul 1906*

[1] **rəhayab** – xilas olan, qurtulan

* Comərdlərin qanı zalımları qərq edər, alovlanan azad fikirlər qanla sönməz

[2] **məqhur** – qəhr olmuş, əzilmiş

[3] **müsri** – yoluxucu



## BƏLAYİ-ƏZİM

Bu gün külli Rusiyanı əhatə edən hədsiz-həsrsiz bəlalar, təcavüzlər, zülm və təəddilər cəmi aləmi müdhiş bir halə salmaqdadır.

Rusiyanın hər bir küncünə, hər bir nöqtəsinə baxılırsa, insafsızlıq, həlakət və fəlakət görülməkdədir. Millət ümidgahı olan Dövlət duması dağılandan sonra, adət üzrə Rusiyanın üstünü qara istibdad buludları alıb, hürriyyət və ədalət günəşinin zəif olsa da, pərtövəndaz olmağına mumaniət etməyə başladı: müftinlər, xuliqanlar, siqnala, işarəyə müntəzir olanlar hər yerdə hərəkət etdilər. Bu qəbildən olub da Qafqaz siqnalçıları da işə şüuru edib, gözəl Qafqazı cəhənnəmə döndərməyə, onu yenə də nahaq qanlara boyamağa şüru etdilər: qoloşşapovlar və onun həməfkarları hərəkət etdilər.

Şuşadan gələn dəhşətli xəbərlər bu gün hər bir sahibi-vicdanın fikrini işğal etməkdədir. Şuşa əhvalatı partlayıcı əczа misalı külli Qafqazi səfhəsinin üstündə (indi düşər ya bir qədər sonar düşər) asılı olub, cümlə Qafqaziyanı təhlükəli bir hal içrə buraxmışdır. Məlum olduğu üzrə Qoloşşapovu Şuşa uyezdinə «sülhçü» olaraq göndərmişlər. Qoloşşapov da «sülhçü»lüyünü büruzə verib, toplar, tüfənglər, atəşlər ilə sülh etməyə başlamışdır.

Sülh-səlah arizməndləri də böylə bir sülhdən ləzzətyab olub sevinirlər. Heyhat! Atəş, güllə, xəncər, top, tüfəng – bulərmıdır sülh aləti? Yağ odu söndürsə, Qoloşşapov ilə də top, tüfəngləri ilə sülh çıxarıb narə-ədavəti[1] söndürərlər.

Ey vicdansız Qoloşşapov! Bəsdir, bəsdir içdiyiniz insan qanları, bəsdir iki milləti bir-birilə çalışdırıb, sonra hər ikisini də badi-fənayə verdiyiniz! Bu qədər insafsızlıq, vəhşilik olmaz ki, siz edirsiniz!

Tutalım ki, əhali nadinc və sülhşikəstdirlər. Pəs məsum biçarə tifillər, heç bir cinayət göstərməyə qadir olmayan zaif-zəifələr, əlsiz-ayaqsızlar, oğul-uşaqlar nə eləsin, onlar nə günahın yiyəsidirlər.

Bu yazıq, səmigün millətlərdən nə istiyorsunuz. Bunlara nə vermisiniz ki, ala bilmiyorsunuz? İnanın ki, bir vaxt millət mühakiməsinin qabağında durub, tutduğunuz işlərdən sual-cavab olunacaqsınız! Qorxun o gündən ey cəlladlar, ey insan qanına atşan[2] olanlar!

Ey camaat, ey generalların qurbani-istibdadları olanlar! Siz nə vaxt ayılacaqsınız, nə vaxta qədər öz qədrinizi, qüvvənizi bilməyəcəksiniz?! Vəhşət və istibdad qurbanı olanlar sizin qardaşlarınız deyilmidir? Onlar

[1] **narə-ədavət** – silahlı ədavət

[2] **atşan** – susamış

də insandırlar. Bu bəlaya siz də düçar olmusunuz, belə soyuq olsanız, yenə də olacaqsınız!

Ey iki millətin həqiqi sülhpərəsti olan füqərayi-kasibə, harada qalmısan ki, səsin çıxmıyor! Cümlə zalimləri heybətə salan sədayi-qəhrəmanəni ucaldıb, niyə Qoloşşapov və Qoloşşapovun həməfkarı olub, onun tutduğu şeytənətkarənə işlərinə təqviyət verən ünsürlərə ibrazi-təərrüz edib[1], protesto etmiyorsan?!!

Bəsdir, bəsdir çəkdiyimiz müsibətlər! Bəsdir bu qədər nahaq tökülən qanlar!

Bəs biz nə vaxt əqillənib, «şeytan»a alət olmayacağız?!.

M.Ə.Rəsulzadə

*«Dəvət», № 14, 20 iyul 1906*

## NÖVHƏ

Yenə fitnə alıb meydan,
Müftinlər sürür dövran,
Gözəl Qafqaz olur viran,
Qalır hər kəs buna heyran,
Tərəhhüm[2] eylə ya sübhan,
Amandır, dada yet rəbbi!

Nədir bu qan, nədir möhnət?!
Ki tutmuş bizləri nükbət,
Yapır «şeytan» işi nüsrət.
Gedir əldən tamam qeyrət,
Xudaya! Et bizə rəhmət!
Amandır, dada yet rəbbi!

Hökumət mayeyi ifsad,[3]
Ki qan içməkdədir mötad[4].
Bu cəngi eylədi icad,
Ki etsin bizləri bərbad.
İlahi sən elə imdad!
Amandır, dada yet rəbbi!

[1] irazi-təərrüz etmək – qarşı çıxmaq
[2] tərəhhüm – rəhmetmə, yazığı gəlmə
[3] ifsad – fitnə salma
[4] mötad – vərdiş edilmiş



Tökülmüş bu qədər qanlar,
Deyilmi bəs bu qurbanlar?
Nə vəhşilikdir, ixvanlar[1]!
Tələf əmlak olur, canlar
Olub divanə insanlar,
Amandır, dada yet rəbbi!

Cəmaət hiylə qurbani,
Olub şad etdi «şeytani».
Fəramuş[2] etdi imani.
Nəhayət sandi dünyanı,
Axıtdı nahəq al qani.
Amandır, dada yet rəbbi!

Qədim qonşu, iki millət,
Dolanmış mehrlə hər vaqt.
Nə üz verdi ki, bu hörmət,
Mübəddəl[3] oldu bər xirəd?[4]
Nə dövrandır bu, nə fürsət?!
Amandır, dada yet rəbbi!

M.Ə.Rəsulzadə

*«Dəvət», № 14, 20 iyul 1906*

## KƏNDDƏ MÜSİBƏT

İyirminci qərinənin hadisati-məqulanəsi[5] arasında bir neçə bimənə və bisəbəb vaqiələrin vüqu bulması hər bir sahibi-fikir və vicdani-huşdan qalacaq, əqlin itirəcək dərəcəyə yetirmişdir. Rusiya hərəkəti-hürriyyətpərvəranəsi dövründə istibdad əleyhində dəlirənə qital edənlərdən başqa müsibətamiz hürriyyətəfra vaqiələr cümləsindən bizim vətəni-əzizimiz olan Zaqafqaziya min illərcə qonşuluq edən iki millətin qanları ilə əlvan oldu. On bir aydır ki, biz bir-birimizi öldürməkdən, malını qarət, əmlakına təhriqdən[6] usanmıyoruz. Heç bir tərəf öz qəbahətini qanmayıb kuhiatəşfəşan kimi, gah sakitləşib, gahi gurlayır, ədavəti şöləvər ediriz.

Oktyabrın 17-sindən sonra bu qırğınların təkrarına hərgiz inanmıyordunuz. Lakin Gəncə və Tiflis hadiseyi-ələməngizləri bizim fikrimizə müğayir olaraq müsibətlər üstünə təzədən ğəm və ələm artırdılar. Xara-

[1] ixvanlar – qardaşlar
[2] fəramuş – unutma
[3] mübəddəl – dəyişdirilmiş, əvəz edilmiş
[4] xirəd – fikir
[5] məqul – ağlıkəsən
[6] təhriq – yandırmaq

baların, fuqəraların ədədi daxi də artdı; amma ədibi-təhririərimizdən birisi dediyi kimi bu vaqiələri qanuni-ətalət (inersiya) babından hesab edib bir növ özümüzə təskini-qəlb verir idiz. Amma bu günlərdə yetişən xəbərlər ki, guya, Qarabağda şuluqluq üz verib, bizi bu ümiddən daxi salıyor. İndi hər kəs əhvalata nikbinlik deyil, ziştbinlik ilə baxırlar. Çoxları sülh və müsalimətdən qəti-ümid edib, aləmi-ədavət və qisasda cövlan ediyorlar. Çarəmiz nədir? Müsalimati-haradan taparız? Şiqaq[1] və nifaqı rədd edib vifaqə[2] nə vəsil ilə müvəffəq olarız? Bu suallara hər kəs öz fəhm, fərasəti müvazinəsincə cavab verir. Bəndənizsə bu suallara bu tövr cavab verərim:

Ən əvvəl bu vaqieyi-müəssəfələrin[3] nətayici iqtisadiyyə və siyasiyyələrin nəzərə alıban hər iki tərəfin qara camaati arasında sülh və müsalimət mənfəətinə mitinqlər, ictimalar tərtib verməklə bərabər müşəvviqlər[4] hazırlamalıdır ki, camaət arasına girib cidal və qitalın müzürr olduğunu məxluqə bildirsinlər.

İkinci əlac isə bilafəq məzhəb və din ianə dəftərləri açıb hərəkati-vəhşiyanədən mütəzərrər olanlara maddən kömək etməkdir. Üçüncü əlac yazıçılar əlindədir. Yazıçılara lazımdır ki, nifaqa bir cüzi daxi olsa xidmət edən məqalələrdən ibrazi-nifrət və narazılıq etsinlər. Bunu bilməlidir ki, erməni-müsəlman əlaqəsinə zərb-hərəkət verən idareyi-müstəbiddeyi maziyyə oldusa da, amma bu qədər davam edib uzanmasına hamana nifaqpərəst yazıçıların təqrirati-şəriranələri[5] səbəb oldu. «Hərgah erməni məsələsi və panislamizm» kimi kitablar əvəzində, məhəbbət və qardaşlığa çağıran risalələr nəşr etsə idilər, bu qədər nahaq qanlar tökülməyib, bu qədər evlər, xanimanlar bərbad olub viran qalmaz idi. Bu qədər arvadlar dul, bu qədər uşaqlar yetim düşməz idi. Ey vətəndaşlar! Bəsdir bu qədər həlakət! Bəsdir bu qədər qəflət!..

**M.Ə.R-zadə**
*«İrşad», № 15, 5 yanvar 1906*

## MÖVCİBİ-HEYRƏT

Bu bəndimi yuxarıda yazdığım, ünvan ilə sərlövhələndirməyim cərideyi-«İrşad»ın intişarında eşitdiyim müxtəlif fikirlərdən naşidir. Hənuz cərideyi-«İrşad» aləmi-intibaə qədəm basmamış şəhərdə bəzi əcib və qərib fikirlər dövran ediyorlardı ki, guya, «İrşad» zühur edir isə şəhərimizə nifaq, ikitirəlik düşəcəkdir. Həmin fikir sahibləri öz səhvlərini buna

[1] **şiqaq** – ikitərəflik, ixtilaf
[2] **vifaq** – razılıq
[3] **müəssəf** – təəssüf doğuran
[4] **müşəvviq** – təşviq edən
[5] **təqrirati-şəriranə** – yaramaz izahetmə, çıxış



məbniyi-isbat ediyordular ki, bir yerdə, bir şəhərdə iki qəzetə olur isə, bir məmləkətdə iki hökmdari-mütləq olduğu kimi şiqaq[1] və nifaq büruz edəcəkdir. Nə kəsif təsəvvür, nə vəxim fikir! Qəzetənin mütəəddid[2] olmağındanmı nifaq çıxar?!.

Doğrudur, qəzetələr arasında hər bir vaxt, hər bir zaman mübahisə, mücadilə, mübarizə olur, lakin bu bəhs, bu cidal, xəncər və tapança davası olmayıb müsadimeyi-əfkar, mübarizeyi-təsəvvürdən ibarətdir və bu toqquşma və vuruşma qəbih olmayıb, bəlkə, ən gözəl və ən müstəhsən mübarizə təriqidir. Müsadimeyi-əfkardan bariqeyi-həqiqət çıxartmışlar! Qəzetənin tədadına sədd qoyan əşxaslar ya gərək qəzetəni mənfəətdən xali bilsinlər və yainki yetmiş min müsəlman əhalisi olan bir şəhərdə iki deyil, onlarca qəzetə nəşrinə himmət eləsinlər.

Əcəba, nə üçün gərək qəzetə çox olduqca nifaq artsın, bərəks olaraq cəraid[3] və ruznamələrin çoxluğu həsbi ilə ittifaq, ittihad artıb, insaniyyət, həqqaniyyət, mədəniyyət tərəqqi etməlidir. Buna intibaatı çox olan millətlərin halı şahidi aşkardır.

Şəhərimizdə bir qəzetə nəşr edilərkən millətimizə «Həyat» bağışlandı. Həyat olandan sonra irşad lazımeyi-mədəniyyət olduğundan «İrşad»ın zühuru mətlubi-təbii olmazmı?

Fikrimcə, «Həyat» ilə «İrşad» sütunlarında yekdigərinə intiqad bəndləri yazılır isə, həriflər budur əlaimi-nifaq[4] – deyə çıxaracaqlar. Lakin xeyr! Bu tənqidlər hərgiz qəbih, ədavətəngiz olmayıb, bəlkə, həqiqəti faş etməyə bir asan yol, bir müstəqim caddədir.

Ey həyatçılar! Vəli irşadçı hər kəsdə nə nəqs, nə eyib var isə ona aynə faş edin, tainki o eybdən, o nəqsdən mübərra olsunlar. Millətin ehtiyaclarını, fərdlərini nəzəri-tənqiddən keçirib ona ayna olun. İntiqaddan əl çəkməyiniz, çünki tənqidsiz heç bir sənət, heç bir hirfət[5] tərəqqi etməmişlər. Göstərin ki, müsadimeyi-əfkardan nifaq, fəsad deyil, həqiqət, səadət və tərəqqi çıxar!

**M.Ə.R-zadə**
*«İrşad», № 18, 9 yanvar 1906*

[1] **şiqaq** – iki hissə
[2] **mütəəddid** – çoxsaylı
[3] **cəraid** – qəzetlər
[4] **əlaimi-nifaq** – nifaq əlamətləri
[5] **hirfət** – peşə

## TƏƏSSÜFLİ HALƏTİMİZ

Əhalinin bekar vaxtlarında güzəranı bihudə keçməyib ləhvü-ləəbə[1] məşğul olmasın deyə, Avropa qaidəsi olaraq şəhərlərdə cəmiyyətxanələr təşkil olunmuşdur. Bu cəmiyyətlərin qisim-qisim olduğunu hər kəs bilir zənnindəyəm. Amma nəzərimdə bir təəssüfli halətimizi nəzərə vermək üçün bu dəfəlik «klub» deyilən cəmiyyətdən danışmağı kafi hesab ediyoram.

Klub cəmiyyəti əslən mülaqat, ülfət, müsahibə, qiraət və qeyri-qeyri məhəbbət artıran, məlumat ziyadələndirən, tərəqqi və təaliyə xidmət edən bir məcmə olmalı isə də, amma əsl məqsəddən uzaqlaşıbdır. Ləhvü-ləəbdən qaçaraq özünə klub evini pənah bilənlər ədulərinə burada giriftar olmuşlardır. Klub bəlasına giriftar olanlar hər millətdən var isə də müsəlmanlar nəhayət mərtəbədə bu bəlaya alışıb, guya, təbən məxsusları olan qəflətə giriftar olmaqdadırlar. Qeyri millət vətəndaşlarımız kluba bir saat gəlib gəncəfə[2], şətrənc[3] və qeyri oyunlara məşğul olursalar da, bir neçə saat daxi qalıb da öz ana dilində və ya rus dilində olan qəzetələr, jurnallar ilə məşğul olurlar. Öz rəfiqləri ilə millətin, dövlətin, camaatin əhval və məişətindən və qeyri zamanənin mühüm məsələlərindən danışır, deyişirlər. Bu söhbətdən, bu danışıqdan da siniflərinə, cinslərinə xidmət edəcək bir fikir, bir təsəvvür, bruz[4] ediyor – əfkarın qovuşmasından həqiqət təvəllüd ediyor.

Amma müsəlmanlar isə axşamdan qumara oturan sübhi göz ilə görürlər. Oyun üstə bir-birilə höccətləşib, bəlkə də, söyüşürlər. Evə qayıdanda bir-birlərindən kədərli, küsülü gedirlər. Millət dərdi bilməz, camaat fikri çəkməz, zamanə məsələsi qanmaz, klubu fəqət gəncəfəxanə fəhm edib, işrət evi ədd edirlər. Buna şahid olaraq bir nəfər rəfiqlərimdən mənə etdiyi söhbət atidə rəvayət olunur:

Kluba gedib oturdum ki, bir az qəzetədən, jurnaldan oxuyub kəsb ittila və mərifət edəm. Çar[5] ətrafımda rus, erməni və qeyri xaricə qəzetələri gördüm. Amma müsəlman şəhərinin klubunda, bir yerdə ki, üzvlərin bir hissəsi müsəlmandırlar, özgə yerdə çıxan öylə dursun, şəhərimizdə intişar olunan qəzetələrin heç birini görməyib, nəhayət təəccüb və heyrət ilə pişxidməti çağırıb sual elədim: – Niyə müsəlman qəzetləri yoxdur? Cavab verdi: – Əzizim, bu barədə sizin müsəlmanlarınız özləri müqəssirdirlər, ona görə ki, elamnamə verib tələb etmiyorlar: ancaq

[1] **ləhvü-ləəb** – eyşü-işrət
[2] **gəncəfə** – qumar kağızı
[3] **şətrənc** – şahmat
[4] **bruz** – aşkar
[5] **çar (çəhar)** – dörd tərəfimdə



gəlib yalxu keyf etmək, ləhvə məşğul olmaqdan başqa qeyri bir şey bilmiyorlar. Budur bizimtək bir nəfər polyak (ləh) üzvümüz var. Məhz onun xahişinə görə bir ədəd polyak qəzetəsi alırız, sizin müsəlmanlar istəməyən halda bizə nə sərfədir ki, bicə yerə pulumuzu xərc edək. Rəfiqim diyor: – Gördüm ki, sözü haqdır, daxi ona bir söz deməyib hazırda olan müsəlman üzvlərdən birinə bu xüsusda şikayət edib nə üçün tələb etməmələrini soranda mənə təsəlli verib dedi ki, «bu barədə inşallah bir məsləhət edəcəyiz...» Heyhat, heyhat! Bir adamın tələbi ilə başa gələn şeylərin xüsusunda məsləhət gözləyib, ümumiyyətlə, görülməli olan məsələnin həllini bir nəfərə ricu etmək haləti biz müsəlmanlardan, görəsən, nə vaxt zail olacaq?!.

Kəmhimmətlik budur, qəflət bu əndazədə olmaz!
Əz maast ke bər maast!..
Gər müsəlmani həminəst ke maha darim
Vay əgər ən peyc emruz bovəd fərdai!*

**M.Ə.R-zadə**
*«İrşad», № 47, 15 fevral 1906*

## QARA PUL

Ey olan hökmü rəvan, hakimə hörmət, qara pul!
Vey qılan piri cavan, bikəsə izzət, qara pul!
Sən deyilsənmi açan cənnəti-əla qapısın?!
Sən deyilsənmi verən naridə[1] zəhmət, qara pul?!
Sən deyilsənmi olan bəzinə lənət səbəbi?!
Etdirən bəzinə gorunda da rəhmət qara pul?!
Sən deyilsənmi məgər baniyü-beytül-fahiş?!
Sən deyilsənmi verən qatilə cürət, qara pul?!
Sən deyilsənmi tutan acizi-miskin əlini?!
Yoxluğundur o fəqirə qamu-nükbət, qara pul!
Heyf səndən qara pul, kim cühələ[2] yoldaşısan.
Üqəlalar hamı sənsiz çəkü zillət, qara pul!
Mən pul olsaydım əgər səy qılardım ki, müdam
Üqəlalarla qılım ülfətü söhbət[3], qara pul!

* Azhimmətlilik budur, bu dərəcədə qəflət olmaz, özümüz özümüzə edirik.
Əgər müsəlmanlıq budur ki, bizdə var,
Vay, əgər bugündən sonra qiyamət günü gələ.
[1] **naridə** – cəhənnəmdə
[2] **cühələ** – cahillər
[3] **söhbət** – dostluq

Səhvsən əhli-kəmal ilə olubsan düşmən,
Fani dünyayə baxıb bir elə ibrət, qara pul!
Olsan ər əhli-həmiyyətlə müvafiq, həmrəh,
Səndən əsər qalar elm ilə hikmət, qara pul!
Vər gedib əhli-şəqavətlə müvafiq olasan,
Qalacaqdır əsərin eyni-məzəllət, qara pul!
Raziya,* bəsdi məzəmmət elədin qara pulu!
Ürəfalən[1] kəsib..., etməz dəxi ülfət qara pul.

**M.Ə.R-zadə**
*«İrşad», № 48, 16 fevral 1906*

## İRANDA HÜRRİYYƏT

Hürriyyət, azadlıq və sərbəstliyin nə əndazədə ziqiymət olmağına hər bir yerdə dəlil, bürhan[2] istəsələr də, rusiyalı bir nəfərin cümlə Rusiyanı tutan iğtişaş və ixtilali və bu yolda tökülən qanları, dağılan xanimanları görüb də dəlil istəməsi əqlidən kənar, fəhmdən xaric bir şey olduğunu hər kəs uca bir səslə şəhadət verib, böylə bir şəxsdən nifrət edəcəkdir. Böylə bir bahalı, qiymətli, iranlıların mövhumi kimyaları dərəcəsində qiymətdar olan hürriyyət, bir elə hürriyyət ki, onu ələ gətirmək üçün Avropa dövlətlərinin hamısında zəhmətlər çəkib, qanlar töküb, xanimanlar dağıdıb, yüz illərcə, min illərcə səy və güşişdən sonra hasil etdikləri hürriyyəti İran milləti bir cüzi təşəbbüs ilə almağa müvəffəq oldu.

Həmin tarixlərin səhifələrini öz istedad və mədəniyyəti ilə tənvir[3] edən İran: nifaq və şiqaqpərəstlər, müftəxor və müstəbidlər, alimnüma cahillər ucundan bir dərəcəyə çatmışdı ki, bu günlərdə qəlbimizdə bir ümid işığı peyda edən İran hürriyyətinə dair teleqraf xəbərlərinə heç kəs inanmaq istəmiyordu. Çoxları, bu millət öldü daxi dirilməz, – deyib duruyordu. Amma bir az fikir edilirsə iranlıların qabiliyyət və istedadi-fitriyyələrinə bir nəzər edilərsə, tarixi-mədəniyyətlərinə imani-nəzər olunursa, srağa günkü farsi vərəqəmizdə mündərici-dəsti-xətti-hümayunun[4] surəti hər bir bədbin şəxsi şəkk və şübhədən ari etsin gərək. Farsi vərəqədə dərc olunmuş dəsti-xətti-hümayuni isə farsi bilməyən oxucularımızdan ötrü tərcümə edib sonra məqaləmizi qurtaracağız.

* **Razi** – M.Ə.Rəsulzadənin təxəllüslərindən biri – *Ş.H.*
[1] **ürəfa** – arif adamlar
[2] **bürhan** – dəlil, sübut
[3] **tənvir** – aydınlaşdırma
[4] **dəsti-xətti-hümayun** – mübarək əlin dəsti-xətti



### «ƏDALƏTXANƏ» MƏCLİSİNİN TƏRTİBİ XÜSUSUNDA SADİR OLAN DƏSTİ-XƏTTİ-HÜMAYUNUN SURƏTİ

Cənab Əşrəfi Atabəyi Əzəm! Necə ki, neçə dəfə özümüzün ədalətxanə məclisinin tərtib və təsisi barəsindəki rəiyyətin rifa və səadətlə yaşaması və münəvvər olan şəriətin qəvanin və əhkamını rəvaci xüsusunda hər bir mühüm məqsudlardan vacibraqdır. Və budur ki, bissərahə müqərrər buyururuq ki, müqəddəs qanuni-ədaləti-islamiyyənin ki, pak olan şəriətin əhkam və hüdudlarından ibarətdir, tezlik ilə rəiyyətin heç bir təbəqəsinin arasında fərq olmayaraq ədl və siyasəti ki, nizamnamədə işarə edəcəgiz cari olsun. Gərəkdir şəxsiyyət və tərəfdarlıqlar cidayi-məmnu olsun.

Əlbəttə, bu tərtib ilə şəriət qanunlarına mütabiq bir layihə yazıb ərz edək ki, tamam vilayətlərə dair olsun. Və onun məclislərinin tərtibi vəchi səhih ilə olmalıdır. Əlbəttə, üləmayi-əlamın bu növ müstədəyatı ki, bizim ömrümüzün duagüluğuna baisdir, həmişə məqbul olacaqdır. Və bizim bu dəst-xəttimizi ümum vilayətlərə həmittilə veriniz.

*Şəhri-zilqədə, 1323*

Görünür ki, Asiya özünün köhnə aləmini yada salıb təzədən həyata, mədəniyyətə, tərəqqi və rövnəqə üz döndərmişdir. Yaponiyanın dünənki halətı, İranın bugünkü təşəbbüsü, Çin, Əfqan və Hindistan məmalikinin tərəqqiyə olan meyli cümlə məmaliklə müşahidə olunan tərəqqi, hürriyyət və səadətcuyanə olan hissiyyati-amiyə, təşəbbüsati-aliyə iddiamıza şahid deyil də nədir?!

İndi İranda verilən zikr etdiyimiz hürriyyət nişanəsi və ittihad, ittifaq səmərəsi olan «Ədalətxanə»yə bir nəzər edib buna dair fikrimizi izah edəlim:

İranda verilən «Məclisi-məbusan» (əgər demək olur isə) Rusiyanın hürriyyəti, sərbəst və azadəliyi kimi olacaqmı? Bu sual verilirsə qətiyyən deyə biləriz ki, xeyr! Bundan əsaslı, sədaqətli olmasına artıq güman gediyor, zira İran dövləti öz halının davamına qabil olmayan bir surətdə qaldığını etiraf edərək hürriyyət əsası üzrə təkrar təəssüs və təşəkkül etməsini vacib bilirdi. Və ancaq camaat tərəfindən cüzi bir cünbüşə hazır idi ki, özün düzəltməklə belə camaatin də arzu və tələblərini kəmali-xoşnudi ilə pişvaz etsin.

Asiyanın bu cünbuşini ümumən və iranlıların bu hərəkətini xüsusən görüb də, ictimaiyyatın bu yovuqda Asiya torpağında bir müvəffəqiyyət kəsb etməsindən əmin olub qəlbimdə bir hissi-şadyani olaraq ürəyimin ən dərin guşəsindən iranlı qardaşlarımızı bu müvəffəqiyyəti-üzma və eydi-kübra münasibətilə təbrik edib diyoram:

– Ey qəflət yuxusu ilə məşhur olan qardaşlar, axır ki ayıldınız! Sübhləriniz xeyir olsun!

Lakin bu cünbuş, bu hərəkət ki, ona iqdam etmisiniz bəs deyil, dəxi ayaqlanıb yeriməyə başlayın! Cümlə karvanlar sərmənzili məqsudə yavuqlaşıbdırlar. Amma siz indi yerinizdən hərəkət etməyə başladığınızda bir qədəm yerinə iki qədəm, bəlkə də, on qədəm vurmalısınız ki, qabaq gedənlərə çatıb millət və dövləti məzəmmət və zəlalətdən qurtarıb mənzili-məqsudə çatasınız!

Ey iranlı qardaşlarımız!.. Sizin məqsudə yetməyinizdə hər kəs şəkk edirsə etsin. Mən özlüyümdə şəkk etmirəm: Sizin əslafınızın tarixi bunu göstərib əlaniyyə diyor ki, zöhhaklar zülmünə düçar olduqda gavələr, əfqanlar talanına giriftar olanda nadirlər olduğu kimi, bu dəfə dəxi istibdad bəlasına aludə varsınızsa da, ittihadi-milliyyə, məhsusati-ammiyyə sağ olsun!

Yaşasın İranda hürriyyət!

Yaşasın İranda qanuni-əsasi!

**M.Ə.R-zadə**

*«İrşad», № 51, 20 fevral 1906*

## ÇİN MÜSƏLMANLARI

Bu günlərdə islamiyyətin pərtövü Əqsa Şərqdə[1] işıqlanıb şəşə əndaz[2] olmaqdadır. «İslam qılınc gücü ilə rövnəq tapıb», – deyən həriflərin nəzəri-bədbinlərini İngiltərə məmalikində Abdullah Gilyomlara, Yaponiya ölkəsində Həsən Tyutinlərə cəlb edib Çin müsəlmanların görməyə ətf[3] ediyoruz. Çin məmləkətinə əsakiri-islam vasitəsilə din aparıldığını heç bir tarix göstərmiyor. Lakin hal-hazırda Çin ölkəsində 60–70 milyona baliğ əhli-islam olduğu qəzetələrin ən müvəssəq və ən doğru olan xəbərlərindəndir.

Bu məqalədə qeyri bir məsələlərlə məşğul olmayıb ancaq Çin müsəlmanlarının əhval və övzalarından şəmmə əxbar etmək niyyətindəyəm.

Tehranda nəşr olunan mötəbər «Ədəb» cəridəsində (Levant Herald) qəzetəsindən nəqlən atidəki təfsilat yazılıbdır:

«Doktor (İyeruzalem) öz səyahətində Çin müsəlmanlarının əhval və övzasına bələd olub deyir ki, sabiq Yunnan əyaləti Çin müsəlmanlarının mərkəzi hökmündə olubdur ki, bəzi keçmiş əsar bunu isbat ediyor. Bu gün orada çoxlu müsəlman kəndləri mövcuddur.

[1] **Əqsa Şərq** – Uzaq Şərq
[2] **şəşə əndaz** – şüa saçmaq
[3] **ətf** – hüsnrəğbət



Doktor deyir ki, mən həm müqayisə xəyalı ilə həmin kəndlərin mühümlərinə varıb onları ziyarət elədim. Qeyri Çin məmləkətinin daxilini səyahət edən səyyahlar kimi mən də onların istiqamətlərini[1] və hüsni-əxlaqlarını təsdiq edirəm. Hər halda çinlilərin məhəbbəti-milli və ülüvvi-hümmətlərini inkar etmək olmaz.

Budda məzhəblər və müsəlmanların arasında olan əxlaq və adətin zidliyini görüb, onların əxlaq və adətlərinin ovsafi-mütəmayizəsində müxtəsər bir mülahizə kafidir: Yunnan müsəlmanlarının çoxu ziraətə məşğul olub kəmali-şövq və vəcdi-diqqəti tamamilə ömürlərini ziraət sənətinə həsr edib bu fəndə xeyli tərəqqi etmişlər. Müsəlmanlar çox mehriban olub mehmannəvaz və həlimdirlər. Bu kəndləri seyr etdiyim halda müsəlman ülamaları tərəfindən hüsn qəbula nail oldum. Bu kəndlərdə müsəlmanların ətfal tərbiyəsinə olan himmətləri yenə nəzər-diqqətimi cəlb etdi və halən ki, onların buddaməzhəb qonşuları tamamən cəhalət dəryasına qərqdirlər. Bunun da əlavə əfyun (tiryək) işlətməklə öz xanimanlarını viran ediyorlar. Nəzafət və paklıq ki, müsəlmanların xanələrində gördüm məni heyrətə saldı və bərəks buddaların mənzillərində napaklıq və ədəmi-təharət hökmfərma idi. Məhəllikar və dəstikahları görüb müsəlmanların qənaət və nəzafətlərini rəyul-eyn[2] gördüm, amma sair çinli əmələlər napak tənpərvərlikləri ilə tez tanınırlar.

Müsəlmanlar təbiblərin nəsihətlərindən istifadə edib lazım gələn tədbirlərin tətbiqində əhmal və təkasül etmiyorlar. Amma buddalar azarı maddeyi-mənəviyyə hesab edərək heç vaxt tədavü etməyə çalışmıyorlar və mütləq şəfanı buddadan istida ediyorlar. Lihaza[3] onların vəfatı müsəlmanların vəfatının on müqabildir.

Xülasə, «Yunnan» islamları arasında müntəzəm bir həyat cari olub, hüsni-əxlaq və istirahəti-ruh və fəziləti tam bərqərardır».

Görünür ki, Çin müsəlmanları yalxu qoşunları buddaları deyil, hətta bizim ölkələrin müsəlmanlarından da təfəvvüq etmişlər. Yəqin, onlar ruhi-islamı əldən buraxmayıb bəzi alimnüma cahillər bəlasına giriftar olmamışlar.

Bu vaxta kimi bizə görə aləmi-qeybətdə qalmış çinli qardaşlarımızdan ibrət almalıyız, dəxi azarlayanda bəzi şəbədəbazlara allanmayıb dinimiz buyurduğu kimi ətibbalara[4] ricu etməliyiz.

Ey çinli qardaşlarımız! Məbada, məbada bu şəbədəbazları aranıza qoysanız ki, sizləri də bizlərin gününə salarlar.

**M.Ə.R-zadə**

*«İrşad», № 59, 3 mart 1906*

[1] **istiqamətlərini** – vicdanlılıqlarını
[2] **rəyul-eyn** – gözlə görmək
[3] **lihaza** – buna görə
[4] **ətibba** – təbiblər

## QİRAƏTXANƏ

Hörmətli qarelərimiz, keçən nömrələrimizdə Bakı xəbərləri qismində təzə bir qiraətxanə açılmasını qiraət buyurdular.

Qərinələrlə zülm və cəbrə tabe olan millət axır bir cüzi olsa da, hürriyyətə, sərbəstliyə nail oldu. Yəni illər ilə arzusunda olub dəfəat ilə ərizələr verib, pullar xərc edib bir belə mədəniyyət vasitəsi olan qiraətxanə iftitahına nail olmuyordular.

Hörmətli qarelər! Yuxarıda zikr etdiyimi nəzərə alaraq xəyal edə bilərsiniz ki, Badkubə qiraətxanə üzü görmüyüb əvvəlinci dəfə olaraq «Nicat» qiraətxaneyi-islamiyyəsini görmüşdür. Yox, əzizim qare, belə güman etsək nəməkbəharamlıq etmiş oluruz.

11 il bundan əqdəm millətimiz uğrunda şayani-təhsini-təşəbbüsdə bulunan ədəbiyyat xadimi Nəriman bəy Nərimanov Rusiya istibdadının qüvvətli bir dövründə sərfi-məsai[1] edərək bir qiraətxanə güşadına izin alıb hər bir tərəfdə nəşr olunan islam qəzetlərini havi bir qiraətxanə açmışdı. Lakin millət bağçasında yeni açmış bu qızılgül millətimizə ariz olan xəzan vasitəsilə tez soluxub bağlanması güşadinə müqabil olaraq millət dostların yaralı ürəyini xəraş etdi. Qiraətxanənin bağlanmasına səbəb nə oldu?

Buna səbəb bizim cəhalətimiz, bətalətimiz, mədəniyyətsizliyimiz, daha doğrusu, hümmətsizliyimiz oldu.

Vaxtilə maarifimiz üfüqündə bu gün görükdü, lakin sənigün edib 11 il təmam qürub etdi. İndi isə zamanə iqtizasi olaraq yenə tüluə başlamışdı.

Mətləbimizi bir az açıq deyəlim, sözü başıörtülü deməyib məqsədimizi faş edəlim. İyirminci qərinə çatdı. Cümlə millətlər tərəqqiyə üz çevirdilər. İstibdad və zülmün inhidaminə qəsd etdilər. Mədəniyyət yolları açıldı. Aralıqda tərəqqiyə sədd çəkən bəzi mümaniət götürüldü. Hamısı götürülmədisə də, bir cüzi rəf edildi. Məsələn: qəzetələrdən senzur götürüldü isə də iki həftə zərfində mətbuat moqutə nəşrinə izin almaq mümkün oldusa da, amma qəzetələrin iki ya üç nömrəsi çıxandan sonra bağlanması daxi təcrübəyə mindi...

Bu münasibətlə islam qəzetələri daxi bolləndı, çox şəhərlərdə birər qəzetə, jurnal nəşrinə iqdam edildi. Qəzetələrin artması oxucuların artmasına dəlil olmazmı? Oxucularımız varsa, qəzetə muştaqları bol isə bir «oxu» yeri, qiraətxanə açılması təbii olmazmı? Odur ki, şəhərimizin hümmətli və qeyrətli cavanlarından bir firqəsi hümmət və qeyrət kəmərini bağlayıb Bakıda «Nicat» adında bir qiraətxanə açdılar. Əvf buyurunuz, əfəndilərim! Şəhərimizdə yalnız bir «Nicat» deyil, bir də «qiraətxaneyi-ümumi» – deyə oxu yerimiz vardır ki, həmiyyətli mütəallimlərimiz tərəfindən idarə edilir.

[1] məsai – çalışma, səy



Bu tövzihatdan sonra demək istiyoram ki, 11 il bundan müqəddəm zikr etdiyimiz qiraətxanədir ki, indi bir az olsa da, hürriyyət, həmiyyət və himmət ünsürlərindən mürəkkəb bir hava tapıb yenidən aləmə ərzididar eyliyor.

Ey mədəniyyətli, həmmiyyətli əhli-maarif yoldaşlarım! Sizdən xahiş budur ki, bu tövr mədəniyyət asari olan təşəbbüsatda qayım durunuz, millətimizə rəhbər sizsiniz – rəhbərlik vəzifəsini ifayə hazırlaşınız! Hər dürlü-ümuri-xeyriyyəyə iqdam edib millətə xidmətdən usanmayınız.

Ey nicatçı qardaşlarımız! Bu xeyir işə iqdam etdiniz də sabit qədəm olunuz! Zamanənin hər bir təərrüzatını sədd olaraq hümmət və qeyrət ilə çalışınız. Var olunuz! Sağ olunuz! Qardaşlar!

Ürəfalarımıza millətimizi tapşırdız. İndi isə camaətimizə ricu edib diyoruz: Ey camaat, ey millət, ürəfalarla birləşməlisiniz, onlar bir xeyir işə iqdam edərlərsə, siz də onlara maddən yardım etməlisiniz! Hər kəs təkliyində hər dürlü qəzetələrin hamısını alıb oxumağa, hər qisim kitabları pul verib mütaliəyə qüdrəti olamaz. Amma qiraətxanə vasitəsilə iki qəpikdən keçərək nə qədri oxumalı olsa mümkündür...

Həmin bu «Nicat»ın 11 il bundan müqəddəm şükufələnərək soluxmasına səbəb həmanən, camaətimizin bihümmətliliyi olmadımı?!

Bəli, 11 il bundan müqəddəm Nəriman bəyin zəhməti hədərə getdi isə də, indiki qiraətxanələrin o günə düşməsinə hərgiz inanmıyoruz. Zira ki, o bir bahar gülü idi ki, «akvarium» vasitəsilə qışda göyərilmişdi. Ona binaən də mötədil hava tapmayıb saqit olmuşdu. Amma «Nicat» və «qiraətxaneyi-ümumi»lər isə özlərinə məxsus bir mötədil hava içində olmalarını görüb də davamlarına artıq inanırız.

Yaşasın maarif!

Var olsun əhli-maarif!

M.Ə.R-zadə

*«İrşad», № 67, 14 mart 1906*

## QİRAƏTXANƏLƏRİMİZƏ DAİR

Bir neçə vaxt bundan müqəddəm «qiraətxanələrimiz yoxdur», – deyə şikayət edirdik. «Hər bir qəzetə və jurnalı kasıb adam üçün alıb oxumaq mümkün deyil, buna görə qiraətxanə lazımdır», – deyə qəzetlər vasitəsilə dad və fəryad edir idiz. Nəhayət, bəxt üzümüzə güldü. Qiraətxanə bir deyil, ikisi açıldı və bununla daxi şikayətə getdikcə yer qalmadı. Qəzetə valehləri, jurnallar aşiqləri məhbublarına çatdılar.

İndi isə qiraətxanələrimiz başlamışdır: «oxucu yoxdur», – deyə şikayət ediyorlar. Bu vaxta kimi camaat «qiraətxanə yoxdur», – deyə şaki idi, indi isə «camaat yoxdur», – deyə qiraətxanələr şikayətə başlamışdır. Vaxtilə camaatin şikayəti həqq olduğu kimi – indi qiraətxanələrin rəncidəliyi daxi yerindədir.

Vaxtında «Qiraətxanə» ünvanlı məqaləmdə hazırdakı qiraətxanələrimizin əhvalını və yaşadıqları dövrün şəraitini on bir il bundan müqəddəm olan qiraətxanəyə nisbətən müqayisə edib demiş idiz ki, «... Qiraətxanələrimizin özlərinə məxsus bir mötədil hava içində olmalarını görüb də davamlarına artıq inanırız». Yahu! Yoxsa səhv etmişiz?! Səhv deyil də pəs nədir! Şəhər bağının rubərusində vaqe həmiyyətli cavanlarımız tərəfindən idarəedilən qiraətxanənin müdiri xeyli şikayət edib kəmali-təəssüf ilə «hərgah belə getsə qiraətxanəni bağlamağa məcburuz», – deyə ah sərdilə mənə izhari-dərd elədi.

«Bağlamağa məcburuz» deyəndə nəfəsindən, bilməm mənə elə göründü, yoxsa həqiqət idi – bir istilik röyətimə dəydi ki, hərgah dala çəkilməsə idim ehtimal surətimi qarsalıya idi.

Heyhat, heyhat! İllər ilə arzulayıb 80 min müsəlman əhalisi olan bir şəhərdə iki ufacıq islam qiraətxanəsi icadına müvəffəq olduq, onu da, görünür, saxlaya bilməyəcəyiniz.

Camaat! Hümmət edəlim! Qeyrət edəlim! Ürəfalarımız qiraətxanə açdılar, biz də pişvazlarına çıxalım! Maddən yardım etməklə davamlarına bais olalım! Və qeyri xeyir işlərə iqdam etməklərinə kömək edəlim!

**M.Ə.R-zadə**
*«İrşad», № 84, 7 aprel 1906*



## FƏHLƏYƏ DAİR

### ADİ İŞ GÜNÜ

Bu məsələni hər bir sinif öz nöqteyi-nəzərindən tənqidə çəkib «adi iş günü»nün öz mənfəətinə nəzərən özünə yarar vaxt ilə ədətləndirməyə çalışır. Böyük bir sərmayədar iş sahibi fəhləni on bir, on iki saat işləməyə vadar etmək üçün cürbəcür hiylələr və tədbirlər ittixaz ediyor. Və böylə bir binagüzarlığın həqq doğru olmasını isbata çalışıyor. Fəhlələri bu qisim işlədib də onlara bir həqqi-mənəmlik minnəti daxi qoymaq arzusunda bulunur. Fəhlə isə gündə səkkiz saat iş gününün müqərrər[1] olmasını tələb ediyor.

İştə biz fəhlənin bu tələb etdiyi iş gününü nəzərə alıb ətraflıca müzakirə edib nə əndazədə təbii, həqiqi və nəfili olmasını göstərəcəyiz. 1889-cu ildə Fransa öz inqilabi-kəbirəsının yüz illik eydini saxlayırdı. Parisdə bu münasibətlə bir beynəlmiləl zəhmət nümayişgahı açılıb hər bir ölkənin asari-səniyyəsindən[2] burda mövcud idi. Bu ildə Parisdə müxtəlif konfranslar yığıldı. O cümlədən beynəlmiləl ictimaiyyun fəhlə konfransı daxi mütəşəkkil oldu. Bu məclisə iyirmi mədəni ölkədən dörd yüzə qədər füqərayi-kasibə nümayəndələri yığışıb beynəlmiləl fabrika və zavod qanunlarından müzakirə edib bir böylə qətnamə çıxartdılar: «1890-cı ilin mayının əvvəlində lazımdır ki, cəmi məmləkətlərin fəhlələri bir dürlü manifestasiya – şənliklər düzəldib hər bir yerdə tələb etsinlər ki, hökumət rəisləri iş gününün qədərini 8 saat qərar versinlər».

Şənliyin də tərhü-siyaqı[3] hər bir məmləkətə göndərilmişdir. Böylə bir təşəbbüs üçün də may ayının əvvəli qərar qoyulmasına səbəb o idi ki, bir il qabaq 1888 sənədə Amerika fəhlələri C.-Luyn şəhərində bu günü 8 saatlıq iş günü nəfinə nümayiş bərpa etmişdilər.

Beynəlmiləl ictimaiyyun konfransının qətnaməsi böylə oldu. 1889-cu ildən isə həmin bu qətnamənin qövldən felə gəlməsindən cümlə aləm lərzəyə gəlib, həmı idarə edən siniflər vahimə və həyəcana düşdülər. Bu ildən başlayıb həmin bu qətnamənin qüvvəsinə milyonlarla fəhlə hər il yığıncaq bərpa edib aclığa, həbsə təəddiyə baxmıyıb da 8 saat iş günü tələb ediyorlar.

8 saatlıq iş günü camaat tələbi, cümlə dünyanın fəhlələrinin xahişi oldu. Camaat ixtiyarının qabağına isə heç bir qüvvə, heç bir şey dayanmaz. Bu 8 saatlıq iş günü ki, beynəlmiləl bir mütalibə hökmünə girmişdir, biz müsəlmanlara çoxdan təbliğ və təklif olunmuşdur. Lakin hansı bir təbliğə, təklifə səmi-etibar, guşi-itaət vermişiz ki, bunu da nəzərdə

[1] müqərrər – qərara alınma
[2] asari-səniyyə – məlumat
[3] tərhü-siyaq – gediş

tutub onunla nəfbərdar olaydıq. Şarei[1]-dini-mübinimizdən yetişən əhadisi-mötəbərdən olub da günü (sutkanı) üç yerə təqsim etməliyiz ki, 8 saat işləyib, 8 saat istirahət edib: 8 saat da ibadət və mərifət yolunda çalışmalıyız.

Bəs böylə olduqda 8 saatlik iş günü beynəlmiləl hökmünə girməmişdən biz hökmi-ilahi və əmri-şarе ilə bu binagüzarlığa mükəlləfmişiz.

Şəriətimizlə lazım görülən böylə binagüzarlığın təbiətcə, məişətcə nə nəfi olmasını gələcək dəfə bənd-bənd şərh edəriz, inşallah.

* * *

Keçən dəfə beynəlmiləl ictimaiyyun konfransının qətnaməsini və qətnamənin hökmü ilə fəhlələrin hər ildə may ayının əvvəlində etdikləri şənliyi yazmışdıq. İndi isə bu mayın əvvəlindən bir azca bəhs edib sonra «8 saat iş gününün» mənafeini saymağa başlayacağız.

Fövqdə məzkur qətnamədən sonra fəhlələr hər il mayın əvvəlini tətil edib nümayişlər bərpa edib bayraqlar üzərində «8 saat iş günü» yazdılar. Beləliklə, bu gün beynəlmiləl fəhlə bayramı hökmünə girdi.

İndi baxalım fəhlələrin bu bayramı etməyə haqları varmı? Və bu bayramın fəhlələrə nəfi varmı?

Heç bir işə əlini vurmayıb özgələrin rəncindən nəfbərdar olanlar tamam ili bayram edirlərsə, dünyanın küll mayəhtacunı[2] hazırlayan, qeyri bir söz ilə dünyanı idarə edən, lakin müdirlər təht təzyiqində qalan fəhlənin ildə bir gün bayram etməyə haqqi olmazmı? Böylə bir bayram edilirsə ədalətdən xaricdirmi?!. Bu bayram fəhlələri birləşdirmək üçün böyük bir vasilə, böyük bir alətdir. Cümlə cahanın füqərayi-kasibəsinin bir gündə məqsud olunmuş hürriyyəti almaq üçün ürəyi döyünür... bu elə bəsdir..., bu özü ittihada müvəffəq olmaq üçün böyük bir vasilədir.

İşdə gələlim «8 saat iş günü»nə. 1890-cı ildən fəhlələrin bu hərəkətləri, bu xahiş və tələbləri davam etməkdədir. Lakin əvvəl nəzərdə bu təşəbbüsdə mövhumi bir şey xəyala gəliyor idi. Hər kəs 8 saat iş günündən danışıyor idisə axmaq, səfeh, əhli-xəyal hesab olunur idi.

Əslən bu tələb fəhlələrin olmayıb üləma, ürəfa, ətibba və mühərrirlərin fikri-aliləridir.

İngilis əhli divanından alimi-məşhur Tomas Moris 1516-cı sənədə «Xəyal» nam kitabçasında iş gününü 6 saat qərar verib deyir: «Aləmi-xəyalın əhalisi günü 24 saata bölüb, maddi iş üçün 6 saat təxsis etmişlərdir ki, o da bu minval ilə təqsim olunur: «Nahardan qabaq 3 saat, sonra nahar, nahardan sonra iki saat dinclik, bədə yenə 3 saat iş. Bundan sonra şam».

[1] **şare** – qanun və nizam qoyan

[2] **mayəhtac** – gərəkli şeylər



Bu minval ilə Moris öz aləmi mövhüməsi üçün 6 saat iş günü qərar vermişdi. Yüz il bundan sonra məşhur röhban[1] Kampanell «Səltənəti-şəmsiyyə» namində bir əsər yazıb orada diyor idi ki, «Səltənəti-şəmsiyyənin əhalisi 4 saat işliyorlar».

Fəhlələrin düşmənləri irad edib diyordular ki, 8 saat iş günü bir xəyaldır ki, onu müxtərelərі[2] feliyyatə qoymadılar. Lakin qeyri bir taqım ülamalar da bu barədə yazmışlar. Məsələn, cədid pedaqogika elminin banisi Kompenius öz «Pedaqogika xüsusunda təlim» nam kitabında iş gününü 3 yerə təqsim edib diyor ki: gərək 8 saat yuxuya, 8 saat xörək, istirahət, təhsil, mərifət; 8 saat də işləməyə münhəsir olsun.

Məşhur firəngi Qiyavanski böyük sərməyə cəm eləməkdən ötrü 8 saatlik iş gününü təklif ediyor. Prusiya karolunun dərbarında olan təbibi-şəhir Qofeldyan Kantın kitabının haşiyəsində diyor ki: «günün ən təbi təqsimi odur ki, 8 saat işləyib, 8 saat istirahət və kəsbi mərifət edib, 8 saat yatasan».

8 saat iş günü tələbi indi yüz ildən ziyadədir ki, dünyada var, onu da ən əvvəl meydana çıxaranlar mədəniyyət asimanının ən işıqlı kokəbləri oldu.

Fəhlə sinfi bununla iftixar etməlidir ki, böylə zəvati-cəlilül-qədirlərin, böylə əcdadi-zəvil-ehtiramların ma-tərəkəni[3] ələ salmaqdan[4] ötrü çalışmaq rolu onlara qismət olubdur.

8 saat iş günü xəyal deyil, yəni bu fikir indi əmələ gəlməyibdir. Xəyalət və mövhumat qəbilindən də deyil. Bu qəsdin diriliyi məişəti, qanı, bədəni var və gündən-günə dəxi böyüyüb artmaqdadır. İngilis, Avstriya məmləkətlərində, Viktoriya, təzə və köhnə Vallis və cədid Zelanda da 8 saatlıq iş günü qanunu bir tərzdə mövcuddur.

Viktor ölkəsində 1856-cı sənədə əvvəl dəfə olaraq 8 saat iş günü mənfəətinə nümayiş bərpa etdilər. Bu gün milli bir eyd oldu.

8 saatlik iş günü yalxu bir Avstraliyada deyil, Amerikanın bəzi ştatlarında dəxi mövcuddur. Bəzi yerlərdə xüsusən dövlət müəssisələrində iş günü 8 saat qərarındadır. Dövlət öz fəhlələrini 8 saat işləməyə vadar ediyor və özü bir şeyi sifariş etdikdə qəbul edənlərdən 8 saat iş görməni tələb eyliyor.

Heyfa ki, Avropada hələ qanunən «8 saat» heç bir məmləkətdə yoxdur. Amma bura da 8 saatsiz deyil. 1840-cı sənədə Şeffild polad fabrikalarının fəhlələri həftədə 48 saat işliyordular. Bu axır ki, 12 ilin ərzində rüb-milyon[4] ingilis fəhlələri 8 saat iş gününə müvəffəq olmuşlar. Qey-

[1] **röhban** – rahib

[2] **müxtərə** – ixtira edən

[3] **ma-tərəkəni** – qoyub getdiklərini

[4] **ələ salmaq** – burada ələ gətirmək mənasındadır.

[4] **rüb-milyon** – milyonun dörddə biri

riləri isə 9 saat, ya 9 saat yarım işliyorlar. 8 saat iş günü 1894-cü sənədə vəzarəti cəngdə, 1895-ci sənədə posta müəssisələrində, 1901-ci sənədə isə aşağa palata tərəfindən mədən işlərində qərar qoyuldu.

Fransa ictimaiyyun ticarət vəziri 1901-ci sənədə cümlə posta və teleqraf işlərində ücrəti əskiltməmək şərti ilə 8 saat iş günü təyin elədi. 8 saat iş gününü qanun ilə təsdiq olmaqdan başqa, dövlət müəssisələrində olmasından başqa Avstraliyanın və Amerikanın bir çox şəhər sanaye və ticarətxanələrində dəxi görüyoruz. İngilis şəhərlərində və bəzi firəng vilayətlərində, Hollandada, Şvetsariyada və qeyri yerlərdə həm 8 saat iş gününü göstərmək olar.

Hətta Rusiyada bəzi rəhmdil və insaniyyətpərvər fabrikantlar tərəfindən 8 saat iş günü icra edilibdir. Bizim Badkubədə də 8 saat iş gününü göstərmək mümkündür. Görmək istəyənlər mətbəələrə baxsınlar.*

* * *

97-ci nömrəmizdə 8 saat iş gününün xəyalət qəbilindən olmaması qarelərə aşkar oldu. Bəs indi fəhlələr bu tələbi edəndə təzə bir şey istəməyib, bəlkə, elə bu yolda edilən səy və təlaşların, tökülən qanların, qurban olan canların xitamını, intəhasını istəyirlər. Bəzi amirlər, müəllimlər, ruhanilər gündə 8 saat işləyirlər. Bundan əlavə, həftədə neçə gün də tətilləri var. Məvacibləri isə fəhlələrdən neçə qat daha artıqdır.

Hərgah 8 saat iş günü bu cənablar üçün nizam və qanun üzrə caiz görülürsə, niyə fəhlələrə yaramasın ki, onların işləri, onlardan daha ağır, daha səbidir.[1]

Heç bir qanun, heç bir şəriət, heç bir kitab, heç bir əql, heç bir elm, ictimaiyyət və ərvahi fəhlələrin müəllimlərdən, ruhanilərdən və amirlərdən ixtiyarları az olmasına işarə belə eləməyib və eləməz.

Bunların cümləsini nəzərə alıb da fəhlə sinfi hər gün çəkdiyi zəhmət vasitəsilə məcburən öz ömrünün qəsdinə duran fəhlələrdən ötrü həmin 8 saat iş gününü tələb ediyor.

Fəhlələr ilə bərabər, biz də həmin ədaləti, həqqaniyyəti tələb ediyoruz. Çünki ancaq ədalət vasitəsilə camaatin qədri ucalar, balalara[2] çıxar.

İndiyə kimi yazdığımızda 8 saat iş gününün müxtəsərcə tarixini, bədən ona irad tutan ədulərin[3] rəddi-iştibahını[4] bəyan etdik və 8 saat iş gününün xəyali və mövhumi olmamasını dəxi bildirdik. İndi isə aləmi-məişətdə 8 saat iş gününün nə mənafei var isə tizkar[5] edəcəyiz.

* *Qeyd*: Bu məqalədən ötrü rus dilində yazılmış risalədən bir çox məlumat alınmışdır. – *R-zadə*

[1] **səb** – çətin

[2] **bala** – uca, yüksək

[3] **adu** – düşmən

[4] **iştibah** – səhv

[5] **tizkar** – yada salmaq



8 saatlik iş günü məhsulatın azalması və onunla da məən[1] kasadlığın xəfifləşməsi üçün tələb edilir.

İnsanın zəhməti dürlü-dürlü, qisim-qisim maşınlar, makinalar çıxandan sonra nəhayət dərəcədə məhsuldar oldu. Bir nəfər toxucu maşına vasitəsilə adi toxucudan 800–1000 dəfə çox və əla parçalar toxumağa başladı və qeyri işlərdə də həmçinin. Bu minval ilə çoxlu məhsulat hüsula gəlib, mağazalar dolub daşır. Və əsl işdə isə hərdən bir ümumi kasadlıq biruz ediyor.

Camaat isə bu kasadlıq, bu bazar sınıqlığından mütəzərrir olur, iflaslar başlanır.

Orta sinifdə minlərlə insanlar öz istitaətlərini[2] itirib, füqərayi-kasibə cümləsinə, müflislər dərəcəsinə düşüyorlar. Yüzlərcə fabrikalar işdən qalıb məhsulat şiddət ilə hasarlanır. Minlərlə fəhlələr küçəyə tullanıb işsiz qalıb, o cəhətdən də dilənçiliyə və bəzi günah işlərə məcbur oluyorlar.

Ancaq iş gününü əskiltmək üsulu ilə bu bəlanı yüngülləşdirmək mümkündür. İş vaxtını gödəltmək üçün qanunlar vasitəsilə bir qədəm götürülmüşdür. Lakin buna kifayət etməyib, 8 saat iş gününə müvəffəq olmalıdır.

8 saat iş gününü biz həmin məhsulatın tərvic və təkamülünü ki, gahi nəhayət süratlə tərəqqi edib, bəzən də qayət sərih[3] tənəzzül ediyor. Mövzunlaşdırmaq[4], bir qaidəyə salmaq üçün tələb ediyoruz: 8 saat iş günü sərmayə dövrünün təblərzini[5] sağaltmaq üçün xinin yerindədir. Nə qədər ki, 8 saat iş günü yoxdur, fəhlələr üçün də bir mövzun güzəran, bir mənzum məişət olmayacaqdır.

8 saat iş gününün işsizlik, həqqi-zəhmət (muzd) və əmək ilə dəxi bərk əlaqəsi vardır. 8 saat iş günü işsizliyi əskiltmək və camaatin iqtidari-maaddiyəsini artırmaq üçün tələb edilir.

Çoxlu maşınların işə qoyulması böyük bir işsizliyi icab ediyor. Həmişə minlərcə fəhlə işsiz əyləşib işləyənlərin həqqi-zəhmətlərinə bir dayantılıq, bir kasadlıq yetirirlər. İstər işsizlər, istər ucuz qiymətə işləyən fəhlələr, necə ki, məlumdur, lazım gələn iqtidari-madiyyəyə dara olmayacaqlar. Bizim öz əhalimiz hasil etdiyi mətadan çox azını işlətməyə qadir olacaqdır və bunun üçün də burada hasil olan mətaın İrana, Əfqana, Hindistana və qeyri xaricə məmləkətlərinə yeritməsi lazım gələcəkdir. İş müddəti az olur isə bekarçılıq da azalar. Çünki o zamanda əvvəlki məhsulatı almaq üçün çox adam olmaq lüzumu icab edər.

Buna nəticə olaraq müştərilərin hesabı çoxlaşıb və onların qüvveyi-iştirakiyyələri də dayanacaqdır. Belə olan surətdə də əmələ gələn məhsu-

[1] **məən** – bərabər

[2] **istitaət** – bacarıq, iqtidar

[3] **sərih** – açıq

[4] **mövzun** – ritmli, ahəngli

[5] **təb** – qızdırma, isitmə

latın bir çoxu öz vətənində işə gedib qeyri az hissəsini xarici məmləkətlərə daşımaq lazım gəliyor. Bu məsələ cümlə məhsulata və xüsusən kənd ziraətinə aiddir. Bu minval ilə satıcı olub da fabrikaçılar və kənd mülkədarları daxi 8 saat iş gününün qərar qoyulmasından nəfbərdardırlar.

Bekar qalanların hesabı azaldığı üçün işmuzdu bahalaşmağa başlayır. Bundan naşi haqqi-zəhmət çoxlaşıyor.

Fəhlələrin çoxu, müsəlman fəhlələrinin sanki hamısı «çox işlərsən, çox da yeyərsən, az işlərsən, az da yeyərsən» əhvalatının dürüst və haqq olmasına inanıyorlar. Lakin iş həqiqətdə bərəksdir. Az işləyən çox yeyib, çox işləyən az yeməkdədir.

İştə elm və təcrübə də bunu təsdiq ediyor. Cümlə o yerlərdə ki, iş vaxtı qısadır (muzd), həqqi-əməkdə çoxdur; iş vaxtı uzun olan yerlərdə isə iş muzdu azdır.

Avstraliyanın fəhlələri özlərinin müqənnənə 8 saat iş günləri sayəsində nəhayət dərəcədə həqqi-əməyə malikdirlər və bunun üçün də London doklarında işləyən tətil etmiş fəhlələrə ianətən az bir müddətdə 200.000 marka cəm edə bildilər.

Muzdun çoxalması cümlə camaətin səadətidir: belə ki, fabrikaçılar daxi bundan zərər çəkmiyorlar, çünki hər bir fəhlə, fəhlə olduğu halda məta müştərisidir. Necə ki, hər fabrikaçı fabrikant olduğu zaman məta bayeidir. Fəqət xəffaş[1] xislət və nəzdik bin[2] olan xudpərəstlər həqqi-zəhmətin çoxalmasını iqtisadi-ictimaiyyə üçün mühlik[3] bir bəla görürlər.

Gündə 8 saat işləyən və lazım qədər də məvacib alan fəhlə çox işləyib, az məvacib alan fəhlədən bir çox məhsulat hüsula verər. Çünki yaxşı bəslənmiş və vaxtlı-vaxtında rahətlik etmiş fəhlə 8 saat işlədikdə həvəs və huş ilə işlədiyi üçün işi əldən həm tez, həm də əla vəchilə çıxardar. Lazım qədər dincəlməz, kifayət qədəri əkl[4] etməz isə 11–12 saatı, yəqindir ki, kəsalət ilə işləyib, əlindən çıxan məhsulatın da bir dəyərsiz və alçaq şeylər olmasında şübhə olamaz.

* * *

Ailə içində güzəranı düz bir yola salıb məişəti rahətlandırmaqdan ötrü və ailənin tərəqqi və təkamülü üçün yəni bədənən və ruhən, mənən və maddən irəli getmək üçün 8 saat iş gününün müqərrər olunması tələb edilir.

İctimaiyyun-əmmiyyunları ailəni dağıtmaq fikri ilə ittiham ediyorlar. Lakin bu töhmətin bica və biəsil olmasını həmin hal-hazırda mövcud sərmayə dövründə tələf olunmuş, pərakəndə düşmüş ailə göstəriyor.

[1] **xəffaş** – yarasa
[2] **nəzdik bin** – yaxını görənlər
[3] **mühlik** – həlak edən
[4] **əkl** – yemək



Onda ki, bu qədər fabrika və zavodlar, ticarət və sənaətin bugünkü tərəqqi təalisi yox idi, işlərin əvvəli idi. Ailə tamam kamal mövcud olub, məişəti-beytiyyədə (ev güzəranı) gözəl bir tərzdə dolanıyordu. Sənayenin tərəqqisi olduqca, xırda, lakin müstəqil sənətkarlar yox olub, fabrikalar, zavodlar artdıqca, ailə pərakəndələnib məişəti-beytiyyə də tənəzzül etdi.

İndi görürsən: ana bir yerdə, ata qeyri bir zavodda, oğul digər bir fabrikada işləyir. Ya xeyr, xoşbaxtlıqdan ata yuxarı mərtəbədə, oğul aşağı mərtəbədə, arvad yan otaqda işləyir. Çox da olur ki, ailənin hər fərdi, hərəsi bir zavodda, fabrikada işləyir ki, günlər ilə də bir-birini görmək mümkün olmuyor və bu minval ilə ailə pərakəndə düşür, yox olur.

Bu dağılmış və əfradi bir-birindən ayrı düşmüş ailəni fəqət 8 saat iş günü bir yerə toplayıb, həmin ailəyə intizam verə bilər.

Əcirə olub işləyən arvadlar üçün 8 saat iş günü ən xeyirxahanə bir binagüzarlıqdır. Əcirə (işləyən arvad) fabrikada işlədiyindən başqa ki, on, on bir saat işləməyə məcburdur, evdə də bir 3 ya 4 saat işləyəcəkdir. Ona lazımdır ki, xörək bişirsin, uşaqların paltarını yamasın, evin nizamına, nəzakət və təmizliyinə göz yetirsin. Bunların hamısı işdir, vaxt istiyor. Vaxtın az olduğundan, bu ev işi ya yerli-dibli görülmüyor, yaxud görülürsə də, mükəmməl olmuyub, naqis olur. Və bundan da yenə məişəti-beytiyyə bərk zərərdidə oluyor.

İndi ailəni bu fəlakətdən qurtarıb, məişəti-beytiyyə səadətinə yetirmək istəyən bir vücud var isə, o ən əvvəl gərək 8 saat iş gününü tələb etsin. Bunu da ən əvvəl ünas taifəsi üçün tələb edib almalıdır.

Zəmani ki, 8 saat iş günü qərar verildi, ailənin hər fərdi gündə 2 saat rahət qalıb, əfradi ailənin tərbiyəsinə bədənən və mənən tərəqqisinə səy edir. Atanın və ananın uşaqlarının dalınca müvazib olub, tərbiyətlərinə layiqincə məşğul olmağa vaxtları olar. Bu minval ilə ailə tərəqqi edib, insaniyyətə böyük bir nəfi gəlmiş olur.

Ey uşaqların və ailənin xeyrini istəyənlər, kömək ediniz ki, 8 saat iş günü bacarıldıqca tez alınsın.

Bundan ananı balasına yetirmək, atanın külfətə məhəbbətini artırmaq, insanın nəfinə çalışmaqdan yaxşı iş olmaz. Ey insaniyyətpərvər əhli həmiyyətlər, cümlə cihad edib əlləşin, fəhlə sinfi və əfkarı xeyriyyə sahibləri ilə bərabər 8 saat iş gününü tələb ediniz. Tələb edib də bu yol ilə yaxşı tərbiyyənin, yaxşı nəslin zühuruna müvəffəq olunuz.

İştə, 8 saat iş gününün ailəyə və ondan naşi insaniyyətə nəfi bu. Lakin bu nə əvvəlinci idi, nə də axırıncıdır. Məlum olduğu üzrə keçmişdə qeyri mənafeindən danışdıq. İndi də bir neçə mənafeini daxi təzəkkür edəcəyiz.

8 saat iş günü mərifəti-ülumə və əxlaqə böyük bir təsiri vardır.

Camaatin ziyalı olması, yəni elm ilə bilik nuru ilə ziyalanması, onun azad olması, hürriyyətdir. Cəhalət, nadanlıq isə əbdlikdir. Bilik – bir qüvvəyi-fövqəladə olub, heç bir vaxt məğlub olamaz. Bu əsaslar camaatin mərifətli və tərbiyəli olmasının qədr-qiymətini, dərəceyi-əladə bəyan edib bildiriyor.

Pəs niyə bizim indiki, dövrümüzdə ki, mədəniyyət və mərifətin böyük tərəqqisinə şamildir camaatin təlimi, mərifəti bu dərəcədə xəfif və zəifdir? Bu sualın cavabına camaatin əbd[1] dərəcəsində işlədiyi zəhmətdən təhəmmül olmayan 11–12 saat uzunluğunda işlədiyi işi günündən almaq olur.

Camaat öylə bir məşəqqət ilə işləyir, təhsili-elm və mədəniyyətə nə vaxtı, nə maddəsi və nə təvanası qalır. Vaxt olur isə həm qüvvə, həm də istitaət olacaqdır.

* * *

Bizim böyük üdəba, şüəra, ürəfa və müərrixlərin[2] əsərini kim oxuyur, kim onlardan bəhrəyab olur? Hər halda onlardan nəfbərdar olan camaat deyil. Sənət və mədəniyyətin ixtiraati-fövqəladəsindən kim ləzzətyab olur? Camaatdan başqalar. Ədəbiyyatın bisəmərəliyi bu cəhətdən naşıdır. Bizlərdə ədəbiyyat yoxdur demək olmaz. Var, lakin cümləsinin vaxtı ötmüş, Nuh əyyamından qalmış, kif atmış ədəbiyyatdır. Qapı layları boyunda, vərəqləri çürüyüb bir-birinə qarışmış övraqdır.[3] Bu ədəbiyyatımızın çox qismi. Bir qisim də ədəbiyyatımız vardır ki, bunlara görə olar bir dərəcə nafedirlər. Lakin bunlara da camaat ədəbiyyatı demək, onları ümumi adlandırmaq hənüz caiz deyildir. Zikr etdiyimiz ədəbiyyatın axırıncı qismi ki, ədəbiyyati-cədid təbir olunur, fəqət rahət yeyib-gəzən, cibləri dolulara həzz verən kitablar, vərəqələrdir. Onlarda füqərayi-kasibənin könlünü açacaq, onların dərdinə çarə edəcək bir yol göstərilməmişdir. Lihaza[4] bizim aramızda cihad edən fəhlə sinfinin ədəbiyyatı yoxdur. (Bu sözü qeyrilər də diyor... vay bizə.) Əldə mövcud olan ədəbiyyatdan da nəfbərdar olmaq üçün fəhlə sinfinin, füqərayi-kasibənin, camaatin azad vaxtı yoxdur. Sahibkar arxasını məxmər yastığa söykəyib kamali-şövq və həvəs ilə «gözəl» romanlar oxuduğu zaman fəhlə qan-tər içində işləməyə məcburdur. Axşamlar xəvasslar «gözəl» damalar ilə qol-qola keçirib, bağlarda, parklarda, bulvarlarda və meydançalarda gəzən halda yazıq fəhlələr on iki saat işlədikdən sonra bilkülliyə gücündən düşüb, bulana-bulana evinə sürünüb uşaqların çıq-vıxı arasında köhnə döşənəcək üstündə ağır yuxu vurmağa məcburdur. Səhər

[1] **əbd** – bəndə, qul
[2] **müərrix** – tarixçi
[3] **övraq** – tamamilə sökülüb dağılmış, korlanmış
[4] **lihaza** – buna görə



tezdən isə durub yenə işə tələsməlidir. Bəs yazıq havaxt dincələcək ki, bekar vaxtını bir az da qiraət etməyə sərf etsin.

Əvamə, camaatə azad vaxt verilər isə o da öz məişətini yaxşılaşdırıb, öz arasından ədiblər çıxarmağa müstəid olar. Bu yol ilə öz ədəbiyyatını təzyin edib, tərəqqiyatə nail edər, onun da ədəbiyyatı olub, mənafeini bildirən kitabçalar, qəzetələr, jurnallar zühur edər.

8 saat iş gününün camaatin səhhətinə də böyük bir mədfəti vəsiləşmək[1] üçün istiyoruz. Biləxirə camaatin əxlaqını təhzib etmək (paklatmaq) üçün 8 saat iş günü tələb edilir.

İnsanın azad vaxtı olur isə, ibareyi-digərlə, insan hürr olur isə, əxlaqı yaxşı olur, vaxtsız, əsir olur isə bədəxlaq olur.

İnsanın azadlığı da onun öz ixtiyarında olmağından naşidir. Qədim əyyamda insanların yaxşılarından hesab olunanları özlərini dağların mağarasına çəkib hər bir şeydə tarki-əlaqə edib, ancaq özlərinə məşğul oluyorlardı.

Biz isə böylə təcridin, camaatdən ayrılmanın tərəfdarı deyiliz və xatirəmizdə də bir böylə arzu yoxdur. Biz ancaq cümə günlərindən başqa da hər gündə bir neçə saat özümüzə məşğul olmağı arzu ediyoruz ki, onunla əxlaqımızı düzəldək, paklaşdıraq. Və bu qəsdimizin icrası üçün 8 saat iş gününü tələb ediyoruz.

8 saat iş gününün camaatin səhhətinə də böyük bir mədxəliyyəti vardır. Əbdlik[2] dövrünü mədəniyyət uçurub, köhnə əbdliyi yeni kirayə olunmuş qullarla əvəz elədi, bu qulluq bir cəhətə qabaqki əbdlikdən də bədtər oldu. Əbd tamam-kamal ağasına məxsus olduğu halda, ağa onun səhhətinə qiymət qoyurdu. Çünki əbd heyvan misalı ağanın malı idi. Öküzün, atın və qeyri heyvanların qayğısına qalınan kimi, əbdin də fikrini düşünürdü. Amma fabrikaçı-zavodçu isə hərgiz öz fəhləsinin səhhətini gözləmiyor və gözləməyə də bir əsası yoxdur. Çünki bir gün bir fəhlə işlər, yorular, bir daxi işə yaramaz isə, qeyrisini kirayə edər. Aləmdə fəhlə azmıdır?! O qədər iş axtaranlar, çörəyə möhtac olanlar var ki, həddi-hesabı yoxdur...

Bəs betəhqiq[3] fabrikaçı camaatin səhhəti-bədəniyyəsinə hərgiz vaq və əhəmiyyət vermiyor. Lakin müttəhid bir dövlət camaatin səhhəti-bədəniyyəsinə böyük əhəmiyyət veriyor. Zira ki, camaatin külli fərdinin səhhəti və səlamətliyi onun mənfəətidir. Amma hər bir fərdin mərəzi onun zərəridir. Bəzi vaxt müsri[4] azara giriftar olan bir nəfərdən camaatin çox hissəsi zərərdidə oluyor.

(məbədi var)

**M.Ə.Rəsulzadə**
*«İrşad», № 95, 97, 103, 122, 133;*
*21 və 24 aprel; 3 və 25 may; 7 iyun 1906*

[1] **vasiləşmək** – genişlənmək
[2] **əbd** – qul
[3] **betəhqiq** – həqiqətdə
[4] **müsri** – yoluxucu

## YENİ QƏZETƏ

İstibdadın üfüqü əhatə edən dağları arxasından hürriyyət şəfəqi görükdükcə qəzetələr, jurnallar da çoxlaşmağa başlayır. İnqilab buludlarından səpilən hürriyyət yağmurları göbələk yağışına misal olaraq, bir çox qəzetələrin birdən-birə meydana gəlməsinə səbəb oldu. Ədəbiyyatımız, maarifimiz bollaşmağa başladı.

İştə göbələklər cümləsində olub da bu gün idarəmizə «Vətən xadimi»nin əvvəlinci nömrəsi gəldi.

Qəzetə Krımda «cismi var, ismi yox» «Quvasu» qəsəbəsində nəşr olunur. Müdiri-məsulu Rəşid Mehdiyev, sahibi-imtiyazı Seyidəhməd Çələbi Murad əfəndi həzrətləridir. Qəzetədə oxucularımıza asari-qələmiyyəsilə tanış olan ədibi-şəhir Həsən Səbri cənabları da iştirak ediyorlar.

Qəzetənin məsləki hürriyyətpərvərlikdir. Əvvəlinci nömrəsi «Yaşasın hürriyyət!» «Yaşasın millət-məclisi!» sözləriylə təzyin edilmişdir. Və heyəti-təhririyyə tərəfindən yazılmış bənddə qəzetənin rastguluğuna işarə olaraq deyilibdir ki, «yazacağımız əhval, qareinə ərz edəcəyimiz vüquat, nə qədər əlim[1] və nə dərəcə həzin olsa da, olduğu kimi bəyan ediləcəkdir. Yaxşı – «iluminasiya», qiyami-düğün, xəyanəti-kəramət, qarğanı-bülbül, viranəni-gülüstan... deyə təsvir etməyəcəyiz. Doğruya doğru, əyriyə əyri demək «Vətən xadimi»nin borcu olduğu kimi aləmi-islamiyyətdə cərəyan edən əhval və vəqayedə zaman, məkanın müsaidəsinə görə acı-acı tənqid etmək məsləkimiz müqtəziyyatındandır».

Qəzetənin dilinə gəldikdə Rusiyada sakin türk əqvamının çox hissəsi qanacaq bir ləhcə ilə yazılmışdır. Şiyveyi-təhririyyəsi də «İrşad» və «Həyat»ın şiyvələrinə qəribdir.[2]

Təzə rəfiqimiz «Vətən xadimi»ni təbrik edib, qələm arqadaşlarımızın başladıqları təşəbbüslərində müvəffəq olmalarını səmimi-qəlbdən arzu ediyoruz.

**M.Ə.R-zadə**

*«İrşad», № 108, 9 may 1906*

## YENƏ DƏ MÜSİBƏTMİ?!

Bu günlərdə ətrafdan gələn xəbərlər özgə idi, özgə rəngdə gəliyor. Ətrafdan gələn qara fitnə buludları üfüqü örtüb, həqiqət günəşini pərdələməsinə səbəb oluyor. Vətəni-məlufumuzu[3] qara günlərə qoyan, ataları oğulsuz, anaları balasız, qardaşları bacısız, bacıları qardaşsız, arvadları dul, biçarə ailələri pərəsdarsız, abadanlıqları xarab qoyan, gözəl,

[1] əlim – ağrıdıcı
[2] qərib – yaxın
[3] məluf – əziz



münbit çöllərimizi xarabazara döndərən müfəttinlər ətraf və əknafda vüqu bulan hadisati-ittifaqiyyələrdən istifadə edib, yeni sakit, rahat olmuş vətənimizi dübarə bəlayi-əzimə giriftar etmək istəyirlər.

Qan içməyi adət edən bu «şeytan» xadəmələrinə bu qədər də tökülən məsum qanlar görünür ki, kifayət etməyib, görünür ki, xaraba sevən bu bayquşlar vətəni-məlufumuzu bilmərrə xak ilə yeksan etmək istəyirlər.

Fitnəçilərin böylə bir iqazi-fitnəyə əllərində ümdə dəstavizləri İrəvan hadiseyi-müəssifəsidir. Lakin hər bir ziəql, zihuş bu hadisənin ittifaqi bir şey olduğunu qəzetələrdə verilən məlumatdan ələnin görür. Əgər ki, bu barədə bizə təfsilən bir xəbər gəlməmişdir. Lakin Bakı və Tiflis qəzetələrinin aldıqları xəbərlər cümləsi bir məzmunda olub, küllən hadisənin ittifaqən baş verməsini təsdiq ediyorlar.

İrəvanda vüqu bulan hadisənin çequmaliyin keçən nömrələrimizdə yazdığımızdan başqa bir şey olmaması qeyri-qəzetələrin xəbərlərindən də anlaşılır.

Lakin fitnəçi pravokatorlar, «şeytan» xadəmələri bunları mülahizə edirlərmi?.. İşin həqiqətini axtarırlarmı? Madam ki, iş böylə oldu, fitnəçi də həqiqət axtardı. Camaətin səadət və asayişini mülahizə etdi. Onda dəxi nə müftinlik, nə pravokatorluq!

Əcəba, biz həmişə pravokator, müftin deyə duruyoruz. Hər bəlanın mənbəi bunlar və baisi bunlardır, – deyib bir şey olan kimi, o saat «budur müftin yenə işlədi», – deyib izhari-nifrət ediyoruz. Madam ki, belə müftinlərin vətənimizdə olmasını biliriz, madam ki, hər vəqt mənbəi onlardır deyiriz – pəs niyə bunun önünü almağa bir çarə, bir vəsilə axtarmıyoruz?!!

Heyhat! Aramızda müftin olan qədər müşəvviqlərimiz yoxdurmu? İnsanları vəhşiliyə çağıranların müqabilində ünsə, ülfətə, niyyət və səlamətə, be ibarəti-üxra[1] insanlığa çağıranlar yoxdurmu?

Vaxtdır, vaxtdır ki, bəla sellərinin qabağı alınsın! Vaxtdır ki, hər iki tərəfin sülhpərvər olan ünsürləri, fitnə və fitnəçilərin əleyhinə durub, onların nəhs olan əfkarlarının vəsiinə sədd çəksinlər. O qədər ki, hər iki millət öz vəqi və heysiyyətini bilib böylə bir vəhşi ədavətə inqiraz[2] qoysunlar! Vaxtdır ki, insanlar özlərinin insan olub, qardaşı insanın üstünə əl qalxızmağın günahi-kəbir olmasını bilsinlər! Vaxtdır ki, Rusiyanın indiki, övzaini bilib, müttəfiqən, müttəhidən, cümlə millətləri bir əndazədə, bir mizanda təhti-zülm və təzyiqdə saxlayan, kökü çürümüş istibdad hökumətinin əleyhinə durub, nailiməram olaq.

Şükürlər olsun ki, indi hər iki tərəfdə sülhpərvərlər çoxlaşıb artmaqdadır. Hər tərəfdə fitnəəngizlərin səsləri gələn kimi sülhpərəstlərin də

[1] be ibarəti-üxra – başqa sözlə
[2] inqiraz – son

sədaları ucalır. Şəhərimizdə çıxan «Dəvət» qəzetəsi də hər iki tərəfin ən yaxşı ünsürləri tərəfindən nəşr olunur, bu yolda böyük xidmətlər edəcəkdir.

Biz çox inanırız ki, İrəvan müsəlmanlarının və ermənilərinin əfkari-həsənə sahibi olanları böylə vəqeyi-ittifaqiyyənin vəxim nəticələrinə öz dəvət və təşviqləri ilə sədd çəkib, bir dəxi hadisati-müəssifə[1] üz verməsinə imkan verməzlər.

Vükəla biz ilə və cümlə Qafqaz balaları ilə bərabər səs-səsə verib, ürəkdən nida edərlər ki, batsın fitnəçilər! Yaşasın sülhçülər!

**M.Ə.R-zadə**
*«İrşad», № 127, 31 may 1906*

## «TAN YULDIZİ»
### *(Dan ulduzu)*

Kazan şəhərində çıxan «Tan yuldızı» qəzetəsinin əvvəlinci və ikinci nömrələrini aldıq. Qəzetənin şiveyi-təhririyyəsi qafqaziyalılar anlayacaq bir dildə deyilsə də, mündəricatı o qədər maraqlı, məsləki o qədər müstəqimdir ki, hər bir sahibi-zövq hıqqana-hıqqana olsa da, onu oxuyub məzmunundan xəbərdar olacaqdır. Arzu edilirdi ki, ədəbiyyatımızın üfüqündə bu tövr yuldızlar çoxlaşıb «Tan yuldızı»nın məsləki aramızda bərqərar olaydı.

«Tan yuldızı» ən sol tərəfdə durub, fəhlə (işçi) və kəndistan füqərasının tərəfdarıdır. Qəzetə cümlə siyasi firqələrin nə olduğunu müxtəsərən deyərək, hökumət tərəfindən təşkil olunmuş firqələri, axırda «kadetlər»i də məzəmmətləyib fəhlə və kəndçi firqələrini təhsin edərək[2] diyor ki:

«Böylə bir mühüm vaxtda işçi və həm özü işləyib gün keçirdən kənd xalqının fayda və səadətini gözləyib onları düşmənləri olan baylar, bürokratlar və hökumət tərəfindən çıxarılan (partiya) firqələrin yalanlarından saxlamaq üçün böylə bir qaranlıq üfüqdə biz «Tan yuldızı»ndən olacağız.

Qəzetəmizin kənd xalqı üçün öz nəfi «yer elindin», işçi sinfi üçün zəhməti təmin edən qanunlar, 8 saətlik iş günü və məvacibin artırılması» olacaqdır.

Bunlardan başqa, «Tan yuldızı», ümumən, tatarların ehtiyacati-milliyyələrini müzakirə və tənqid təhtinə alıb, həqqini meydana qoyacaqdır...

Budur, «Tan yuldızı»nın gözəl məqsədi, müstəqim məsləki. Böylə qəzetələrin biz həmişə xahanı[3] olub, səmimi-qəlbdən tərəqqi və davamını arzu ediriz.

Qoy «Tan yuldızı» işıqlanıb, cümlə türk qardaşlarımızın qəlbinə sinfi xudşünaslıq[4] nuru salsın. Biz isə bu yeni rəfiqimizi təbrik edərək deyiriz ki:

---

[1] müəssifə – təəssüf doğuran
[2] təhsin etmək – tərifləmək
[3] xahan – istəyən
[4] xudşünaslıq – özünü tanımaqlıq



Yaşasın «Tan yuldızı»nın öhdəsinə götürdüyü ictimaiyyət! Yaşasın «Tan yuldızı!»

**M.Ə.R-zadə**
*«İrşad», № 128, 1 iyun 1906*

## YENİ İNQİLAB XADİMİ

İnqilab ilə əks-inqilab həmişə vuruşub çəkişməkdədir. Bu vuruşmanın, bu çəkişmənin asari aləmi-mətbuatda pək yaxşı müşahidə olunur. Bu gün bir qəzetə nəşr olunur, inqilab tərəfdən isə həqiqətsevər, ədalət tələb edər isə, sabah bağlanar. Əvəzində sər-surətini dəyişib, özgə bir surətdə nəşr edər. O da bağlanar təbid[1] edilər. Nəhayət, olduğu şəhərdə çap olunmağa qoyulmaz, özgə şəhərdə çap olunar. Çap olunar da dediyini deyər, yazdığını yazar, nəhayət, şiddətli də yazar. Xülasə, heç bir mümaniət və işğaldan çəkinməyib, kəmali-hümmət və qeyrət ilə inqilab əks-inqilab ilə boğuşar, savaşar. Tiflisdə çıxan «Vozrojdeniye» əksinqilabçı Timofeyev ilə indiyə kimi çəkişir. Heç biri o birinin arxasını yerə vura bilmiyor. «Vozrojdeniye» qələmi, Timofeyev isə kazağı, əsgəri, həbsi və tüfəngi ilə mücadilə ediyorlar. Nəticədə isə yenə də zəif qələm bu qədər cəsamətli zülm və təəddilər qarşısında müqavimət edib, fəth və qələbə ümidi ilə meydanı buraxmayıb müqabilə etməkdədir.

İş zahiri cüssədə, cəsamətdə deyil, ruhani və mənəvi qüvvət və istiqamətdədir[2]. Yapon da cüssəsi, cəsaməti tərəfindən zəif idi, kiçik idi. Lakin cəsamətli və əzəmətli olan Rusiyanı nə günlərə qoydu, başına nə gətirdi?..

İştə bizim Bakı mətbuatı da yenidən böylə bir mücahid orqan (vasiteyi-nəşriyyə) ilə sərvətləndi. Əks-inqilab ilə boğuşanların qüvvəsi artdı. Yeni hürriyyət tərəfdarı, füqərayi-kasibə hürriyyəti tərəfdarı, inqilabın pişrovu, ictimaiyyun-ammiyyun məsləkli bir qəzetə nəşrə başladı.

Bu qəzetə rus dilində «Prizıv» (Dəvət) ünvanı ilə naşirimiz İsa bəy Aşurbəyov cənablarının rəsmi olaraq təhti-müdiriyyətində nəşr olunur.

Həmin müqəddəməmizdə yazdığımız inqilab və əks-inqilab mücahidlərinə dair «Cərəyan edən dövr və görəcəyimiz məsələ» ünvanlı bəndində qəzetə böylə yazıyor ki:

«...Məişət bizə diyor ki, yeni aləmin diriliyi bu iki aləmin müsadiməsindədir. İnqilabın gücü gündən-günə artır. Əks-inqilabın gücü isə gündən-günə zəifləşib puç olur və altından müsaid[3]-zəmini itiriyor. Deməli ki, məişətin özü inqilabın qələbəsini aşkar ediyor və bu zəfər, qələbə də məhz o vaxtlar ola bilər ki, həmin inqilab başında pişrov fəhlələr durub, cidal və qital edən izdihamın müqəddəmətül-ceyşi[4] ictimaiyyun-ammiyyunlar ola.

---

[1] təbid – uzaqlaşdırma
[2] istiqamət – mətinlik, səbatlıq
[3] müsaid – köməkçi
[4] müqəddəmətül-ceyş – qoşunun ön dəstəsi

Ənasir böylə deyib, əsl məişət də bunu diyor. Bu deyilənləri nəzərdə tutub da bizim işimiz nə olmalıdır?

Engels diyor ki, füqərayi-kasibə firqəsi gərək «bilgisiz keçəcəyin bilgili tərcümanı olsun». Yəni o gərək tərəqqi edən məişətin bilgisiz bir yol ilə bizə dediklərini tənqidə çəkib, məqul[1], bilikli bir tərh və tərzdə qandırsın.

Məişət diyor ki, biz yeni bir millət qiyamı əvailində[2] duruyoruz ki, inqilab gündən-günə böyüyüb bimahəbə[3] olaraq millət istiqlalı tərəfinə yürüyor – bəs biz gərək bu qiyamə müsaidət verib, inqilabı onun müzəffər olmasına yetirək. Budur, bizim əvvəlinci öhdəmizə götürdüyümüz məsələ...»

İştə «Dəvət»in inqilab hamisi olub, əks-inqilab ilə çarpışacağı bu sətirlərdən bilinir.

Yeni rəfiqimizin bu niyyəti-alisinə biz də qəlbən şərakət edib, onun müvəffəq olmasını cümlə füqərayi-kasibə naminə dərgahi-həqqaniyyətdən[4] istirham[5] edəriz.

M.Ə.R-zadə
*«İrşad», № 139, 14 iyun 1906*

## İRANDA İNQİLAB

Hər bişə gəman məbər ki, xalist,
Şayəd ki, pələng xofte başəd.*
Sədi

«İranda həyat ölüb», «İran nizam və qanuna müstəid deyil», «İran ölmüş», «İran viran olmuş» kimi sözlər bu axır vaxtda adi bir sözlərdən olub, aramızda mütədavildir.[6] Hər kəs İran dedikdə məxrubə,[7] səkənəsi[8] bihiss, hüquq və qanun qanmayan, hər bir zülm və təəddiyə səbir və təhəmmül edən bir heyət nəzərə gətirir. Hər kəs «İran» dedikdə «viran» sözünü aşkar əlavə etməsə də, ürəyindən keçiriyor. «İran» – deyə hər kəsin ürəyində pələng ürəkli millət qəhrəmanlarından arı[9] bir zülm və istibdad meşəsidir yad edilir.

İranın barəsində bu vaxta kimi bu məsəlli əqidələr nə qədər olsa da, səzə və rəva idi. Çünki bədbəxt İran və İran milləti zalim və qəddar vüzəraların, üməraların müləqqib-bülməmaliklərin, xan xəvaninin təhti təzyiqi və istibdadlarından öylə pərakəndə, öylə pərişan olmuş ki, viranədən başqa

[1] **məqul** – ağlabatan, ağıllı
[2] **əvail** – əvvəllər, önlər
[3] **bimahəbə** – qorxmadan
[4] **dərgahi-həqqaniyyət** – Allah dərgahı
[5] **istirham etmək** – mərhəmət istəmək

* Güman eləmə ki, hər meşə boşdur,
Bəlkə, orda pələng yatıbdır.
[6] **mütədavil** – işlənən, tədavüldə olan
[7] **məxrubə** – xarabə qalmış
[8] **səkənə** – sakinlər
[9] **arı** – boş



bir şey ilə onu təsmiyə etmək hərgiz yaraşmaz. Cümlə dünyanı öz keçmişi ilə təzyin edən İranda hal-hazırda fəxr etməli, onunla meydana çıxmalı «mən də varam» deməli nə var? Hər tərəfə baxırsan zülm və istibdad, hər yana nəzər salırsan xərabə-viranə, hər səmtə dönürsən cəhl və qəflət, hər cəhətdə bətalət və kəsalət görülməkdədir. Bunların hamısı ilə bərabər camaatin, əhalinin bu zülm və təəddilərə qatlaşıb, səbir və təhəmmül etmələrini görəndə nəzəri-ümid bilmərrə götürülüb «İranda hiss yoxdur», ya «İran ölübdür», – deyə hər kəs bir haləti yəs[1] və peşimanidə qalıyordu. Milyonlarla ağır şərtlər üzrə borc edilib, məmləkətin daxilisinə deyil, məkatib və mədaris, türuq və məabirədə deyil, xarici ölkələrdə, Firəngistanda, Parisdə yenə İran xariciyyə işlərinə deyil, özgə zəhməti ilə bəslənən mütrüb xanların gözündə hurisifət görünən Avropa arvadlarına xərc olunmasını və bunun əleyhində camaat tərəfindən bir quru protesta belə biruz etməməsini görüb də kim «İran hərc-mərcdir», «hüququnu qanmıyor» deməz?!

Xülasə, bu günə kimi, yəni Rusiya inqilabının şiddətli dövrünə kimi, hər kəs İran xüsusunda bir təsəvvür ziştyanədə bulunurdu və bulunmağa həqqi də var idi. Lakin Rusiya inqilabının cəmi aləmləri titrədən bir zərbeyi-iqtisadiyyə və siyasiyyəsinin bərəkətindən iranlılar da ayılmağa başladılar. Başladılar da qəribə bir sürət, əcibə bir hümmət ilə iş görməyə təvəssül[2] etdilər. Bu hərəkəti, bu təşəbbüsü iranlılardan gördükdə, İran xüsusunda ziştbin olanlar öz əqidələrinin əksini görəndə, məhcub olub dayandılar, sükut etdilər.

Nikbinlər isə:

Hər bişə gəman məbər ki, xalist,
Şayəd ki, pələng xofte başəd.

– deyə fərəhləndilər.

Hər bir ölkədə, hər bir məmləkətdə tarixə baxarsaq, hərəkət hərəkətpərvanə bir tərzdə, bir formada zühura gəlmişdir. Bəzi bir təxəllüfat[3] olsa, o da haman yerin əhvali iqtisadiyyə və ictimaiyyəsindən naşidir. Yoxsa inqilab ümumiyyət üzrə hər yerdə bir qisim olmuşdur. Fransada görülən həvadisat bu gün Rusiyada görülməyə başladı. Rusiyada zühura gələn vəqələr də İrana əksəndaz olmaqdadır.

Rusiyada olduğu kimi, İranda da «idareyi-əskəriyyə» (voyennoye polojeniye) elan edilib əhali zəcr[4] və təkdir təhətinə alınmışdır. Rusiyada Trepov var isə İranda da Əmirbahadır onun kopiyəsi olub «patronlara heyfiniz gəlməsin, əbəs yerə güllə atmayınız» əvəzində «rəiyyət qoyun, toyuq misalında bir şeydir, onun nə həddi var ki, ağaları (qurdlar) ilə

[1] **yəs** – məyusluq
[2] **təvəssül etmək** – əl atmaq
[3] **təxəllüf** – gerilik
[4] **zəcr** – zülmetmə

həmməclis olsun»[1] – deyə, biçarə əhalini insaniyyətdən kənar olan sərbazlar, kazaklar, jandarmlar əlinə vermişdir.

Rusiya inqilabının İran inqilabı ilə bir çox müşabihəti[2] varsa da, böyük bir təxallüfü də vardır ki, o da İran inqilabının başında ruhani qisminin olmasıdır. Görünür ki, islamiyyəti abad edən də mollalar olacaqlar – deyilmi?

Dünənki nömrəmizdə İrandan gəlmiş bir məktubu dərc etmişdik ki, onda Tehranın haləti-mühasirəsi şərh olunub. Şəhərin voyenni polojeniada olmasından xəbər verilmişdi. Qan içməyə adət edən İran qulluqçularının dəsti-zalimanələrindən 100-ə kimi bigünah canlar tələf olmuşdur. Bir çox da hürriyyət fədailəri məhbəslərdə otururlar. Bu vaxta kimi İran hürriyyətpərəstləri İran hökuməti ilə fəqət şifahən müqabilə ediyordular. İndi müsadiməyə də çıxmışlar. Eybi yox, heç bir yerdə hürriyyət, azadlıq, qansız ələ gəlməmişdir.

Həyat – müsadimədə, mücadilədə, ittihad və ittifaqdadır.

Haydı iranlı qardaşlar, yeriyiniz, yeriyiniz də heç bir şeydən vahimə etməyiniz. Allah camaat iləndir. Bərəkət də camaatdadır. Camaat öylə bir qüvvədir (müttəhid olsa) ki, heç bir manеə və işğallıq qabağında dayanmayıb, tutduğu yol ilə gedəcək, gedib də sərmənzilə yetişəcəkdir.

Ey iranlı qardaşlar, meydani-mübarizəyə qədəm qoydunuz, cəhl ilə əql müqabilə etdi. Bir az da cürət ediniz. Bir az da ibrət. Ta hürriyyət işi həll olunub, İran və iranlılar səadətmənd olsunlar.

Rusiya hökumətinin istibdad və zülmü altında inləyən hürriyyətpərəstlər adından İran hürriyyətpərəstlərini bu əvvəlinci qədəmləri münasibətilə təbrik edib deyiriz ki, ey hürriyyət yolunda çalışan iranlılar, başladığınız işdə möhkəm durunuz! Füqəra və məsakin xanların, vəzirlərin icbaranə və qəddaranələrindən qurtarmaq üçün candan, maldan müzaiqə etməyiniz, var olunuz, sağ olunuz yoldaşlar!

İştə burada bir arzu:

Neçə vaxt bundan iləri hürriyyət gününün tüluini İran üfüqündə görəcəyin, «İrana hürriyyət» – deyə bir bənd yazdıq. Şükr Allaha ki, İran hürriyyətpərvərləri bizi allatmadılar, indi də «İranda inqilab» – deyə yazmağa səbəb oldular. İnşallah vaxt gələr «İranda qanuni-əsasi» – namində bir bənd yazmağa dəxi müvəffəq olarız. Ürəyimizdə bəslədiyimiz arzu iştə bu...

Yaşasın İran hürriyyətpərvərləri!

**M.Ə.R-zadə**

*«İrşad», № 145, 21 iyun 1906*

[1] **həmməclis olmaq** – bir yerdə, birlikdə oturmaq

[2] **müşabihət** – oxşarlıq



## İKİ NÜKTƏ*

Hacı Zeynalabdin Tağıyev cənablarının fəhlələri öz əhvali-iqtisadiyyətlərini yaxşılaşdırmaq üçün tətil edib, sair tələbləri ilə bərabər bunu da tələb etdilər ki, fabrikaya hər bir millətdən, xüsusən erməni millətindən də fəhlələr qəbul olunsun.

Həmin bu tələb bir böyük mətləbə sərçeşmə olub, həqiqətgüstər bir vaqiə oldu. Həmin bu tələb fəhlə sinfi üçün milliyyət, qövmiyyət mövcud olmadığı ələniyyə[1] bildirib, fəhlə sinfinin sülhpərvər olduğunu faş etdi. Həmin bu tələb bildirdi ki, gələcək sülh və səlahın rəhni, girovu həmanə fəhlə sinfinin üzviyyəti-orqanizasiyasıdır. Həman bu tələb göstərdi ki, sülhün qərarın verən, onu payəndə edən bir qüvvə varsa, o da fəhlə ictimaiyyun dəstəsidir.

Həmin bu tələb hər bir cəhətcə geriyə qalmış bir millət fəhlələrinin ki, adları bu vaxtadək «tətilçilər ziddi», «qara qüvvə» ilə yad edilirdi. İbraz etdikləri bu ali fikir, bu müqəddəs tələb mədəni, insaniyyətli adlanan bir millətin fəhlələrini və ya doğrusu, bir üzviyyətini yada saldı.

Əcəba, bu fəhlələr hansıdır? Bu üzviyyət nərədədir?

Bu fəhlələr qonşumuz, erməni millətinin bir qisim fəhlələridir ki, tətil edib öz sahibkarlarına təklif etdilər ki, müsəlman fəhlələri fabrikadan çıxsınlar.

İş böylə də oldu. 100-ə yavuq müsəlman fəhləsi ki, ömürlərinin ən cavan, ən təzə vaxtlarını orada itirmiş idilər, səfil-sərgərdan olaraq işsiz, gücsüz küçələrə töküldülər.

Bunu kim etdi? Həman bu müsəlman fəhlələri ilə yan-yana, çiyin-çiyinə işləyən fəhlə «yoldaş»!

Lakin hər bir işdə təfəkkür, təəqqül lazımdır, zahirpərəst olmamalıdır. İşə hər tərəfdən baxmalıdır. Erməni fəhlələrini nə vadar elədi ki, bu cüzi münaqişə üstündə bir dənaətkaranə[2] işə iqdam etdilər. İctimaiyyət və ammiyyət fikri ilə tərbiyələnmiş fəhlədən belə bir cinayət gözlənərmi? İştə məsələ:

Xeyr, öz mənafeini layiqincə fəhm edən, marksizmə fikri ilə tərbiyələnmiş bir fəhlədən, böylə bir iqdam hərgiz görükməz.

Erməni fəhlələrini bu işə vadar edən həman erməni ictimaiyyun-ammiyyun qəzetəsi «Kayts» yazdığı «sosialist daşnaksütyun firqəsidir». Həman daşnaksütyun firqəsidir ki, «sağ olsun sosializm! Yaşasın fəhlə sinfinin mühafizi daşnaksütyun!» qışqırdığı bir halda, erməni firmalarından müsəlman fəhlələrinin qovulmasına fərman veriyor!

* **nüktə** – incə məna

[1] **ələniyyə** – açıqca

[2] **dənaətkaranə** – alçaqlıqla

Müsəlman və erməni fəhlələrinin iki müxalif olan ibrətnüma əsərləri həmanə iki fikrin, iki üzviyyətin nəşəsidir. Yəni erməni fəhlələrinin etdikləri bu dəni iqdam, sosializm maskası ilə üzünü örtmüş, millətçi bir ədna firqənin təbliğati-şeytaniyyəsinin meyvəsidir. Amma müsəlman fəhlələrinin hərəkətləri pak, müqəddəs, dövriyyəlik və vəsvəsdən bəri olan[1] fəhlə sinfinin müvizi[2] – mütəəssiranəsindən nəşət edən insaniyyətgəranə bir təşəbbüsüdür.

Bu həqiqətlər aşkar olandan sonra daşnaksütyunun belə bir fitnəəngiz təbliğatı ki, füqərayi-kasibəni bir-birinə zidd edib, fəhlə işinə bir zərbə vurur, sübut ediləndən sonra fəhlə tərəfdarı olan firqələrin daşnaksütyun ilə əlaqələri necə olmalıdır? Böylə bir üzviyyətli müftinin əlindən nə yol ilə qurtarmalıdır?

Mənə qalır isə füqərayi-kasibəni hər bir yol ilə olmuş olsa bu firqənin cəngindən alıb, həmişə onunla dava etməlidir. Hər bir vəqtdə onun məqasidi-müfsidkarənəsinə sədd qurub, həqiqəti açmalıdır. Bir kəlmə, daşnaksütyun üzündə olan maskanı götürüb, onun nə olduğunu aləmə bildirən kimi, erməni füqərayi-kasibəsinə də göstərməlidir.

Hökumət əmirlərinin Qafqazda icra etdikləri şəqavətkarənə[3] tərhlərinin feliyyətə çıxmasına neçə ümdə səbəb var isə biri də bu maskalı üzviyyətdir.

Bu iki milləti barışdırmaq arzusunda olanların cümləsinə lazımdır ki, hər iki millətin füqərayi-kasibəsini qüvvətləndirib, daşnaksütyun kimilərin əlindən xilas etsinlər. Böylə olmaz isə cümlə əhli-kəsəbənin sülhpərvər olmasından hərgiz danışıq olamaz.

Füqərayi-kasibənin bu üzviyyətini də cümlə ictimaiyyun-əmmiyyunlardan, ümumən, müsəlman və erməni karkünlərindən xüsusən ümid ediyoruz.

Yaşasın ictimaiyyun beydaği təhtində müttəfiq olan sülhpərvər fəhlələr və puç olsun müftinlər!

**M.Ə.R-zadə**
*«İrşad», № 156, 4 iyul 1906*

[1] bəri olmaq – azad olmaq
[2] müviz – kasıb, möhtac
[3] şəqavət – özbaşınalıq, bəla



## İRANDA «YANVARIN DOQQUZU»

Hürriyyət işi gün-gündən ayaqlanıb, ətraf və əknafı ehatə etməkdədir. Hər yanda sədayi-hürriyyətpərvəranə ucalıb azadlıq və sərbəstlik meyli artmaqdadır. Tarixi-mədəniyyətdə əvvəlinci yer ittixaz edən Rusiya inqilabi-kəbiri bir çox işlərə hüsn təsir edib, nəticəgöstər olmaqdadır.

İllər ilə cəlayi-vətən[1] olub, Alp və Altay dağlarında «vətən-vətən» – deyib nalə edən cavan türklər sinələri hürriyyət yolunda dağıdar olub Türkiyə istibdadından vərəmlənmiş dahiyələr Rusiyanın böylə ğəyuranə[2] hərəkətini görüb, cürətləndilər. Hümmətləri artdı. Bir az da ümidlə işə girdilər. İnşallah müvəffəq də olarlar.

Türkiyəyə, cavan türklərə, sultan istibdadı altında çürüyənlərə ibrətnüma bir rəhbər olduğu kimi Rusiya inqilabı İranda daha böyük, daha müəzzəm bir təsirdə bulundu. Yerli-dibli xəraba qalmış bir məmləkətdə abadanlıq hissi oyandırdı. Camaat bir daha əmirbahadırların zülmünə tab gətirə bilməyib, ittihad və ittifaq baydağı təhtində birləşib, Rusiyaya misal olaraq İran bürokratiyasını bütün-bütünə ixtiyardan səlb edib[3], camaat vükaləti istədilər. İstədilər də müsadimə və müqabiləyə, bir kəlmə, inqilab çıxarmağa məcbur oldular.

İranda inqilab başlandı. Rusiya inqilabına nisbətən bir ayrı tonda, bir ayrı rəngdə başladısa da, eybi yox. O da İranın əhval və şəraitinə bağlıdır.

İranın cavan inqilabı öz mürəbbisi olan Rusiya inqilabına bir çox vəqəələrdə təqlid etdi.

Bu təqlidin cüziyyatından sərfi-nəzər edib, Peterburqda vaqe olan yanvar doqquzunun Tehranda vüqu bulmasından bəhs edəcəyəm: Əzizim qare! Yanvarın 9-u yadınızdan çıxmayıb?!. Minlərlə can fəda edən hürriyyət qurbanları yaddan fəramuş olarmı? Mümkündür ki, külli məşriqin və bəlkə, dünyanın səadət və hürriyyəti yolunda can qurban edən bu fədailər yaddan çıxsın?.. Heyhat! Heyhat! Onları nəinki, bir tək Rusiya, hətta cümlə məşriq, cümlə aləm yadda saxlayacaqdır. Yanvarın 9-u nə idi? İstibdad ilə hürriyyətin əvvəlinci qanlı müsadiməsi idi. Rusiya inqilabının bünövrəsi, füqərayi-kasibə cihadı idi. Yanvarın 9-u, Rusiya inqilab pürvahiməsinə bir müqəddəmə – tül-ceyş idi. Hökumətin o gündə etdiyi zülmü də hürriyyəti yatırtmaq üçün bir təşəbbüs, inqilabı qorxudub dayandırmaq üçün bir tədbir, tarixi saxlamaq üçün bir sədd idi. Lakin, heyhat, bu artıq cəbrlər, bu hədsiz zülmlər hürriyyəti, inqilabı tarixi saxlayacaqmı? Bərəks sıxıntı çox olduqca müqabilə çoxlaşmazmı!!?

[1] cəlayi-vətən – tərki-vətən
[2] ğəyuranə – qeyrətli
[3] səlb etmək – burada: salmaq

«Xuni ərbabi-həmiyyət qərq edər zalimləri
Müştəməl-əfkari-əhrarınə sönməz xunilə»*.

İştə Rusiyaya təqlid edən İran inqilabı da bir yanvar doqquzu çıxarmış, İranda inqilabın bünövrəsini qoymuş. Həm xüsusi müxbirimiz, həm də agentə teleqramı Tehranda vüqu bular qanlı bir müsadimənin xəbərini verdilər: «Əsgərlər ilə tələbələr arasında müsadimə oldu. 12 nəfər tələbə öldü, iki nəfər də əsgər». İştə hürriyyət qurbanları, iştə İran səadətini təmin edənlər! İran inqilabının bünövrəsinə bu 12 nəfər ali bir məscidin bünövrəsinə müqəddəs bir vücud tərəfindən təbərrük qoyulmuş bünövrə daşlarıdır. İran inqilabının müzəffər olmasına bu 12 nəfər bir qiymətli girovdurlar. Hürriyyət meydanında şəhid edilən bu 12 qurban həmişə sahibi-vicdanların gözlərində mütəsəvvir olub, onları intiqam, qisas almağa vadar edəcəkdir.

Tələbələrin bu mərdanəliyini üləmai-həqqənin, xüsusən ağayi Təbətəbai həzrətlərinin ciddiyyət üzrə səy və iqdamlarını görüb də, cümlə İranı bir atəşi-inqilabi intiqamcuyanə içində mütəsəvvir etməmək heç mümkün deyildir.

Ey hürriyyət qurbanları, ey Tehran yanvarının fədailəri, siz xəyal etməyiniz ki, İran sizi fəramuş edəcək! Xeyr, min dəfə xeyr! Gec ya tez İran sizin intiqamınızı alıb, sizin qatillərinizə şiddətli mükafat edəcəkdir. Sizin adlarınız cümlə aləmin tarixində yazılmaq ilə bərabər, İran inqilabı tarixində qızıl sətirlərlə səbt ediləcəkdir!!! Siz özünüz qətl edildinizsə də, sizin ruhunuz, sizin əfkarınız hənüz diridir və heç bir vaxt da ölməyəcəkdir.

Yaşasın İran tələbələri!

Yaşasın İranda inqilab!

**M.Ə.R-zadə**

*«İrşad», № 159, 7 iyul 1906*

## «SÜKUNƏT»

Məlum olduğu üzrə, Dövlət dumasını, dilşikəstə millətin yeganə ümidgahını qovduqda demiş idilər ki, Duma ifratpərəstlik edib, camaəti həyəcan və ğələyanə[1] gətirir. Bununla da ölkəni «anarxiya» halına salıb həlakətə sövq ediyor...

Əziz vətəni böylə bir öldürücü, dağıdıcı «anarxiyadan» qurtarmaq üçün dövlət kişiləri «gözəl» bir tədbir tapdılar... Camaat arasında fitnə

* Bizcə, bu beyt məşrutə inqilabı iştirakçılarından, şair Əbülhüseyn Xəzinindir. Tərcüməsi: Comərdlərin qanı zalımları qərq edər, alovlanan azad fikirlər qanla sönməz – *Ş.H.*

[1] **ğələyanə gətirmək** – cuşa gətirmək



və fəsad salan «inqilabçı», ifratçı Dumanı qovdular. Yeddi aydan sonra yığılmasına qərar verdilər. Həqiqətən, vətəni bu yol ilə bürokratlara, camaat üstündə müdami olaraq keyfəmayəşə üsulu ilə hökm sürmək arzusunda olanlara sərfə olmayan «anarxiya» hökumətin siyasətini duyub da, bir qisim sükunət ixtiyar etdi. Dumanın «anarxiyası» qurtardı. Bu «intəha» ölkənin halını, məişət və güzəranını dəyişdirdi. Dəyişdirdi də səadətli bir hala salmayıb, Rusiya inqilabının hər bir dövri-təbəddülündə zühur edən təbii yola saldı. Bürokratların anarxiyasına müqabil olan Duma «anarxiya»sı səsi yenə də qabaqkı halətinə qavıçqasız anarxiya surətinə düşdü. Polisə anarxiyası başlandı. Bürokratlar «sükunət»i də izhari-mövcudiyyət göstərdi. Hər yanda qırğınlar başlanıb, Rusiyanın üfüqi bigünah qanların rəngi ilə əlvan oldu. Və hənüz də olmaqdadır.

Qavıçqasız anarxiya başlandıqda mərkəzdən ətraf və əknafa imalar[1] verildi. İmaların verilməsi ilə bərabər qırğınlar, müqatilələr də başlandı.

Anarxiya adı aşkar olacağın fəaliyyətlə poqromlara giriftar olan odessalı hürriyyətpərəstlər qan ilə əlvan olan Odessa və Qafqaz qiteyi-zülm-didəsi vəhşiyanə bəlalara giriftar oldu. Bigünah qanlar ilə islanmış Qafqaz torpağı yeni qurumağa başlamış idi ki, yenə məsum qanlar ilə əlvan olmağa başladı.

Qoloşşapovların dövranı gəlib, toplar, pulemyotlar guruldayıb, biçarə əhali vahimə altına alındı. Evlər xaraba qalıb, xanimanlar, dudumanlar münhədim oldu. Şuşa hadiseyi-faciəsi Qoloşşapovun gördüyü insafsızlıq və vicdansızlıqlar cümlə arbabi-vicdanı dəhşətli bir hala salıb, külli Qafqaz səfhəsini fitnə və fəsad ruzigarı ilə doldurdu. Vəzirlərin diləyi olan «sükunət» zühur etdi. «Anarxiya» rəf olub, anarxiya gəldi...

**M.Ə.R-zadə**

*«İrşad», № 169, 14 iyul 1906*

## DƏHŞƏTLİ MƏBƏR*

Bizim indiki əhvalımız Rusiyanın bugünkü anarxiya halına düşməsi, hər kəsin başlı-başına qalması, hakim və məmurların üsuli-keyfəmayəşəüləri, qaragüruhların təəddi və cəbrləri, hürriyyətpərvərlərin gahi nüsrət tapıb, gahi də məğlub olmaları, fəhlə və kəndçi hərəkətləri, 8 saat iş günü istəyi, yer və ixtiyar tələbi, iqtisadi və siyasi tətillər, bomba və güllələrin partıltısı, hər yanda, hər tərəfdə icra edilən həbs və nəfylər, edam cəzası, qırğınlar, təcavüzlər, qəzetələrin, mətbəələrin bağlanması və qey-

[1] **İma** – işarə

* **məbər** – yol, keçid

ri-zalik[1] nədir? Bu nə ruzigardır ki, aləm matəm geyib, hamısına qan ağlıyor? Bu nə dövrandır ki, külli-aləmi dəhşət və vəhşət əhatə edib, yovmi məhşər kimi hər kəs vanəfsə[2] diyor? Bu nə zəmanədir ki, insanlar biri-birinin qayğısına qalmayıb, hərə öz başının həşirindədir? Nədir, nə olub, dünyanın axırıdır, yoxsa nədir?

Bugünkü əhvalı bilmək, hal-hazırdakı güzəranı öyrənməkmi istiyorsan?

İstiyorsanmı biləsən ki, bu nə yer, bu nə yoldur? Xahiş ediyorsanmı ki, rəsm etdiyimiz bu şəklin nədən ibarət olduğunu biləsən?..

Bu bir yoldur ki, bunu cəmi miləli-qərbiyyə getmişlər və yerdə qalan millətlər də gedəcəklər. Bu bir keçiddir ki, tarix hamısını buradan sürüb keçirdəcəkdir. Bu bir dəhşətli yoldur ki, xahi-nə xahi[3] hər kəs buradan keçməyə məcburdur. Bu bir məbərdir ki, istibdad dağlarından axan bulanlıq zülm sellərindən tərkib tapmış dəhşətli bir nəhr içində ittifaq düşmüşdür.

Rusiya milləti istibdad və təəddi dəştindən bürokratiya təbir edilən dağlıq və daşlıqlardan kəmali-səy və təlaş ilə Fon Pleva, Trepov və bu kimi səffaklərın[4], çinovnik və amir deyilən əlaltılarının zülm və təcavüzləri təhtində əzilə, qırıla, sürünüb qabaqda görünən rəfahət və asayiş düzəngahına hürriyyət və səadət çəməngahına şitab[5] ediyor idi. Hər bir qafilənin bir müqəddəmətül-ceyşi, pişahəngi oluyor. Bu hürriyyət qafiləsində sərxeyri ictimaiyyət olub, füqərayi-kasibənin inqilabıdır. Budur, həmin qafilə qabağına çıxan hər bir mümanəti götürüb, bimühabə yeriyərək, bu müdhiş məbərə çatmış, buradan keçmək istiyor.

Bu məbər nədir? Bu hər ölkənin dövri təməddün və təkamülündə görünən təbəddül və təbiri-zəmanədir. Bu zülm və istibdad kuhsarı[6] ilə hürriyyət və səadət çəngahının arasında düşən təamül (reaksiya) nəhridir.

Rusiya camaatı təyyi-mənazil edib, indi bu nəhri keçib çəmənzara çıxmaq istiyor. Məlum olduğu üzrə, bu da asan bir şey deyildir. Bu yolda fədakarlıq lazımdır. Cürət, hümmət, qeyrət gərəkdir. Buradan geri qayıtmaq olmaz. Bu yolu labüd və naçar keçməlidir. Bu məbəri keçdikdə insan tələfatı, mal zərəri və qeyri qəzazədəliklər olacaq. Kimini su aparacaq, kimi ayaq altında qalıb şikəst olacaq, biri-birindən yol almaq üçün mübahisə, mücadilələr də olacaq. Bəzi dun[7] təbiətlər tapılıb sudan keçməyə mümaniət də edəcək. Lakin bihudə... Bu tarixi bir təşəbbüsdür, heç bir şey ilə dayanmaz, geri dönməz.

İştə Rusiyanın indiki halı! Rusiya camaatı tamamlıq reaksiyanın müdhiş məbərindən keçmək istiyor. Odur ki, aləm biri-birinə qarışıb. Hər yandan iğtişaş, ixtilaf xəbəri gəlməkdədir.

---

[1] **qeyri-zalik** – başqaları
[2] **vanəfsə** – fəryad
[3] **xahi-nə xahi** – istər-istəməz
[4] **səffak** – zülmkar
[5] **şitab** – tələsmək
[6] **kuhsar** – dağlıq yer
[7] **dun** – alçaq



Bu günlərdə gələn teleqramlarda oxunduğuma görə, Rusiyanın hər bir tərəfi ixtilaf içində əl-ayaq vuruyor. Hər bir tərəfdə camaatın rifah və səadətinə düşmən olanlar, onun səadəti və hürriyyətini istəməyib, onları özlərinə əsir etmək istəyənlər cəbri tədbirlər görüyorlar ki, camaat yol tapıb bu məbəri o yana keçməsin. Zira ki, belə olan surətdə onlar bir daxi öz keyfləri istədiyi kimi ömür sürə bilməzlər. Rəyasətdən düşərlər, camaat özü öz böyüyü olar.

Buna görə camaata yol göstərən və onun bəsirətini açan bir vəsilə varsa, o saat onu puç ediyorlar.

Bunun üçün görürsən gün olmuyor ki, bir cərgə qəzetə, jurnal bağlanıb, müdirlər, mühərrirlər həbs edilməsin. Həmin məqsəd ilə də Dövlət dumasını buraxdılar...

Lakin qanuni-təbiidir ki, sıxıntı nə qədər çox olsa, əvəzində müqabilə bir daha artar. Reaksiya tərəfindən göstərilən bu qədər sıxıntılar da axırda şədid bir müqabiləyə düçar olar...

M.Əmin
*«İrşad», № 171, 21 iyul 1906*

## DAŞNAKSÜTYUNÇUYA RƏDDİYYƏ

«İrşad»ın 156-cı nömrəsində «İki nüktə» ünvanında yazdığımız məqalə daşnaksütyunun mürəvvici-əfkarı olan «Alik»i təşvişə salmışdır. Həqiqət acı olduğu üçün «Alik» öylə həyəcana gəlmişdir ki, adətdən bir az da artıq söyüş və hətərən-pətərən başlamışdır:

63-cü nömrəsində «Mətbuat» qismində bizim «iki nüktə»ni mövridi[1] – bəhs edib, «Alik» bu növ ilə intiqada girişir:

«İrşad»ın ətrafına toplaşan müsəlman «intelligentləri» erməni inqilabiyun firqəsi daşnaksütyunun əksinə çox şuriş ediyorlar. Bu da vazehdir ki, onların hökumətlə əlbir olub, erməniləri puç etmək demon[2] proqramlarına daşnaksütyun mane oldu. İş böylə olduqda, müsəlman «intelligentləri» gördülər ki, bütün erməniləri qırmaq üçün qabaqca daşnaksütyunu puç etmək lazım gəliyor».

Əcəba «Alik»in utanmamazlığı gör nə yerə çatıbdır ki, erməni milləti ilə daşnaksütyun firqəsini bir hesab ediyor. Bu firqəni də puç etmək fikrinə düşüb, onun əleyhinə fikir sürənlər yalqız «İrşad»çılardır, demək istiyor. Nə qədər cəsarət, nə əndazədə həyasızlıq! Cənab daşnak-

---

[1] **mövridi** – bəhs etmək, müzakirə etmək
[2] **demon** – iblis, şeytan

sütyunçu rus hökuməti ilə rus millətini bir hesab etmək olursa, daşnaksütyun ilə də ermənilər bir hesab etmək olur. İndi rus hökuməti istibdadiyyəsinin əleyhinə çalışanlar, rus millətinə qarşı gediyorlarsa, müsəlman intelligentləri ilə bərabər, qeyri-hürriyyətpərəstlər də daşnaksütyunu puç etmək istədikdə erməni millətini müzməhill[1] etmək istərlər. Ey erməni millətinin «hamisi»! Sizin əleyhinizə gedən tək bir müsəlman intelligentləri deyil. Rus intelligenti və erməni intelligentləri də vardır. Ürəyiniz bulansa da, Bakıda nəşr olunan «Trudovaya jizn» qəzetəsinin axırıncı hökumət tərəfindən bağlanmış nömrəsinə «Kayts» və «Mışak»ın 150-ci nömrəsində Sərkisyanın məqaləsinə baxınız. Baxınız da görünüz ki, daşnaksütyunu tanıyan tək bir «İrşad»ın tək bir müsəlman intelligenti, tək bu Rəsulzadə deyil, qeyriləri də var. «Hnçakistlər» kimi felən protest edib, dalaşanlar da var.

Zikr etdiyimiz müqəddimədən sonra «Alik» mətləb üstə gəlib, «Kayts»ın doğru və haqq sözünə, adətinə görə donos adı verib, bizim sosial-demokrat olmağımıza da şəkk edərək, «nağara çalıb» yoldaşların diqqətini daşnaksütyuna cəlb etməyimizdən mükəddər oluyor. Biz ki, müsəlman fəhlələrinin qoyduqları tələbi (ki erməni fəhləsinin də qəbulundan ibarət idi) tərifləyib, bu tələbin müqəddəs bir əqidədən naşi olduğunu demişdik. «Alik» bizim bu sadə ibarəmizi qanmayıb, xəyal etmiş ki, biz müsəlman fəhlələrinə müqəddəs demişiz.

Və bunun üçün də səbir edəməyib, kəmali-qəhr ilə bizə hücum ediyor:

«...Doğrudur, deyiblər ki, adam nə qədər cahil olsa, bir o qədər cəsur olar. Bizim sosial-demokrat gopçularımız bu qədər uzağa gediyorlar ki, «Volteri vaxmister etməyə» hazırdırlar... Onların təzə müsəlman «yoldaşları» cəsarəti o yerə çatdırıblar ki, meydana çıxıb elan ediyorlar ki, müsəlman fəhlələri müqəddəslər dərəcəsinə çatıblar, çünki sosial-demokrat təsiri altındadırlar...»

Qəddar daşnaksütyunçu öz cahil mütərciminin səhvinə düçar olub, müqəddəs ləfzini ki, ictimaiyyun-əmmiyyun əqidəsinə təbir edilmişdir, müsəlman fəhlələrinə müxtəs[2] edib, həyasızlığından, cəmi ictimaiyyun-əmmiyyunları gop vurmaqda müttəhim ediyor. Müttəhim etmək istədiyi yerdə biçarə hiyləgərin hiyləsi öz ayağına düçar olub, köhnə böhtançılıq və iftiraguluğunu indi də büruzə verir. Ey həqiqəti görmək istəməyən qəddar! Biz adını və müqəddəs ibarələri eşitmişiz, fəqət fəhlələrə deyil, əqidələrə təbir etmişiz, biz daşnaksütyun millətçiliyinin adını deyib, ictimaiyyun-əmmiyyun insaniyyətpərvərliyini müqəddəs bəyan etmişiz.

[1] **müzməhill** – məhv

[2] **müxtəs** – məxsus



Sözün məzmununu dəyişib, sonra məzəmmət etməyi ancaq daşnaksütyunçu «Alik» kimi həyasızlar bacararlar.

Lap axırda «Alik» bizim cümlə fəhlə sinfi tərəfdaranəsinə olan müraciətimizi dərc edib, daşnaksütyunun maskası götürülmək təklifinə xeyli acığı tutub diyor ki:

«...Hərgah məqalə yazan sosial-demokrat cənabın maskasını götürsək, görərsən altından nə çıxar?! Kramolni[1] panislamisti, yainki, müsəlman feodalizminin bir layiqli nümayəndəsi? Bəlkə, bunların xahişi budur ki, daşnaksütyunu puç etsinlər...»

Yenə köhnə zurna! Hər vaxt bir kəs daşnaksütyunçulara müqabil durur isə, o saat daşnaksütyunçuların nəzərində Sultan Həmid, panislamizm və müsəlman feodalizmi mücəssəm oluyor. Əcəba, «Alik» haradan duydu ki, biz panislamistik və yainki feodalist. Məhz ondan ötrümü ki, daşnaksütyunun əleyhində qələm sürmüşük?! Böylə isə «Alik»in məntiqinə görə, «Kayts», «Mışak», «Trudovaya jizn» panislamizm orqanları olub, «Hnçakistlər» Sultan Həmidin agentləridir. Bu bələmi?..

Əzizim qare, niyə gülürsünüz? «Alik»in məntiqinəmi? – Xeyr əfəndim, burada bir təəccüb yeri yoxdur, türkdə məsəldir: «Aşığın sözü qurtaranda yarım, yarım çağırar».

M.Ə.Rəsulzadə
*«İrşad», № 171, 21 iyul 1906*

## İRAN İŞLƏRİ

İranda idareyi-məşrutə verildi. Şah həzrətləri öz ixtiyaratının məhdud olmasına, millətin və dövlətin xeyrini mülahizə edərək razı oldu. Dəst-xətti mübarək mücibilə camaat tərəfindən vükala seçilib bir məclisi-milli təşkil edəcəklərdir ki, bu məclisi-milli qanun əsasını, yəni millət ilə dövlətin razılaşdıqları şəraiti təyin edəcəkdir.

Bizim Rusiyanın şayani-təzəkkür[2] olan Oktyabr manifesti böylə deyil idi. Oktyabr manifesti özü xudbəxud[3] qanun əsasını aşkar edib camaatı ona razı olub kifayətlənməyə çağırıyordu. Məşhur Osmanlı qanun əsası da ki, indi Sultan Həmid onu büküb altına qoyub böylə imiş.

İran qanun əsası böylə olmayacaq. İranda qanun əsasını hökumət deyil, millət özü qərar verəcəkdir. Qərar verib də hökuməti buna razı olmağa təklif edəcəkdir. İştə bu məsələdir ki, bizi İran xüsusunda bir mülahizeyi-nikbinanədə saxlıyor.

[1] **kramolni** – hökumət əleyhinə fəaliyyət

[2] **təzəkkür** – xatırlatma, yada salma

[3] **xudbəxud** – öz-özünə

Qanun əsasının nə qisim olmalısını deməmişdən bir neçə izahat verməliyiz: Doğrudur, iltifati-şahanə və mərahimi[1]-mülukanə, necə ki, dəst-xətdə deyilir, vətəndə bir çox qan tökülməksizin cuşə gəlib məmləkətə hürriyyət bağışlandı. Lakin buna ümid bağlayıb xatircəm oturmaq olmaz. Çox manifestlər verilib, sonra da geri alınmışdır. İranın bugünkü günləri Rusiyanın həman yaddan çıxmayan Oktyabr günlərinə bənziyor. Lakin Allah eləsin ki, Oktyabr günlərini təqib edən bəlayi-əzim İranda vücudpəzir[2] olmasın.

Əgər ki, hökumət adamlarına etimad və etibar etmək olamaz; lakin yenə də cürətlə deyə bilərik ki, Rusiyada görülən peşmançılıq İranda görükməz. Hər bir halda sərvaxt olmalıdır ki, şah həzrətlərinin dövrəsinə yığılan şeytanlar – vəzirlər işi bərhəm[3] edib pozmasınlar. Axır mənafei-ümumiyyəni öz şəxsi mənfəətlərinə qurban etməni bu vəzirlər çoxdan adət etmişlər. Yüz illər ilə onların qəlblərində yer eləmiş bu adət iki-üç gün ilən zail olamaz.

Bu günlərdən bəri İran azad bir məmləkət hesab olunur. Azad məmləkətin də azad rəiyyətləri gərək olsun. Rəiyyətlər gərək öz hakimlərinin əhval və ətvarlarını[4] miqyasa çəkib həmə vaxt gözətçi olsunlar ki, məbadə qasiblər[5] hüquqi-millətı qəsb edib, hürriyyətə sədəmə[6] vuralar ki, məbada əmirbahadırlar yenə də meydan edələr. Bürokratiya deyilən bu vəzir və hakimlər camaatin əvvəlinci düşmənləridir. Heç onları həcir sayıb onlara fürsət verməməlidir.

Dani ke çe göft Zal ba Rüstəmi kord düşmən nə tavan həqiri biçarə şəmord[*].

İndi gələlim dəst-xəttin özünə: dəst-xətti humayunda millətin hər bir məsləkinə işarə edilir. Fəqət dövlətli və əşraf silkinə işarə edilir. Kənd füqərası isə əslə belə yada gətirilmiyor.

Məclisi-milli təşkil olunub, qanun əsası nəşr edəcəkdir. Bəlkə, bu qanun əsasilərin biri də bu ola ki, parlament ümumi külli seçki qaydası ilə yığılsın, lakin bunu təmin edən bir əsas varmı?!

Deyilmi ki, bu biçarələri yaddan çıxarıb dəst-xətdə daxil etmədən, hər yerdə edildiyi kimi, İranda da bu biçarələri ixtiyarsız qoymaq istiyorlar? Bunun da çarəsini bir ayrı vaxt deyil, elə indi eləməlidir. Hökumətdən tələb etməlidir ki, bu vaxtacan dəst-xətt mövcübi ilə həqq intixab sahibi olanların təhti istibdad və təzyiqində hər bir zülm və məşəqqətə

[1] **mərahim** – mərhəmətlər
[2] **vücudpəzir** – meydana gələn
[3] **bərhəm** – pozğun
[4] **ətvar** – tövrlər, vəziyyətlər
[5] **qasib** – qəsb edən
[6] **sədəmə** – zərər
[*] Bilirsən ki, Zal qəhrəman Rüstəmə nə dedi: düşməni aciz və fərasətsiz hesab etmək olmaz.



qatlaşan kəndistan füqərasından da milliyyədə vəkillər olsun, tainki onların da hüququ o vaxta kimi zail olub ayaq altına düşübsə də, indi azad və idareyi-məşrutəsi olan bir məmləkətdə dəxi paymal olunmasın.

İndi gələlim İran qanun əsasına, yəni o qanunlara ki, onlar idareyi-hökumətdə əsas olub hər bir hökm və qanun o əsasdan müştəqq[1] olacaqdır.

İran qanun əsasisi hələ məlum deyil ki, nədən ibarətdir. Çünki onları təyin və aşkar edən məclisi-milli olacaq. Əgər məclisi-milli hürriyyətpərəstlərdən mütəşəkkil oldu, onda məmul[2] olunan bir surətdə qanun əsası həll olunub qərar veriləcəkdir. Yox, əgər əmirbahadırlar tərəfdarani çox olub istibdadxahlar qələbə etdilər, onda allah göstərməsin...

Rusiyada Dövlət dumasına edilən seçki bir ləhzdir, xatir edilsə məlum olar ki, İran hökuməti də seçki xüsusunda nə xəyanətlər edə bilər.

İndi ondan ötrü ki, millət allanmasın, ondan ötrü ki, millətin düşmənləri kamiyab olmasınlar, bu xüsusda çarə etməlidir.

Madam ki, mətbuat hökumət amirlərinin təhti-təftiş və nəzarətindədir, madam ki, qələm azad deyil, xanlar, vəzirlər hər nə istəsələr edəyəcəklər – seçkinin üsulunu bildirmək və hökumət amirlərinin xəyanətini kəşf etmək üçün lazımdır ki, mətbuat azad olub, hər bir təcavüzdən məsun[3] qalsın.

Məlum olduğu üzrə, keçmiş hökuməti mütləqənin bərəkətindən İranda bisavadlar həddindən ziyadədir. Pəs yalxu mətbuat azadəliklə də elə iş keçməz. Mətbuat vasitəsi ilə yüzdə on nəfər ancaq işin çegunəliyindən xəbər tutacaq. Yerdə qalan doxsan hissəsi isə bixəbər qalacaq. Və bu xəbərsizlikdən naşı ixtiyardan məslub[4] olacaqdır. Bəs bundan ötrü lazımdır ki, söz də azad olsun. Tainki mətbuat yazdığını natiqlər camaatə şifahən söylüyüb onları işdən müxbir etsinlər.

Tək bu da bəs deyil, zira ki, bir nəfər söz demək, nitq, irad etmək istərsə, evdə oturub daş-divara deyil, ictimaə, şuraya, mitinqə müraciətən deyəcəkdir. Pəs bunları nəzərə alaraq ictima, şura və mitinq azadlıqlarına da müvəffəq olmalıdır.

İttihad və ittifaq birlikdə olduğu üçün tək bir ayrı-ayrı üsulsuz, əsassız ictimailər qurub nitqlər iradı ilə də iş başa gəlməz. Hər bir işi başa aparmaq üçün sərmayə, həm maddi, həm də mənəvi sərmayə lazımdır. Bunun üçün də hər bir əsnaf, hər bir həmsənətlər ittifaqlar yapıb, özlərinə məxsus kassa icad etməlidir ki, lazım gələn mövrid[5] də xərc edilsin.

[1] **müştəqq** – düzəltmə
[2] **məmul** – arzu edilən, ümid edilən
[3] **məsun** – toxunulmaz
[4] **məslub** – məhrum edilmiş
[5] **mövrid** – səbəb, ehtiyac

Bu ittifaq (soyuz) yapılır isə, qabaqda gözə tək və qüvvəsiz nəzərə gələn həmkarlar indi müttəhid və müttəfiq bir qüvvə təşkil edərlər. Hər bir əsnaf və silk öz arasında böylə ittifaq təşkil etdikdən sonra bu ittifaqlar bir-birilə münasibət və əlaqədə bulunub bir «ittifaqlar ittifaqı» təşkil edərlər ki, bu yol ilə cəmi quvayi-ictimaiyyə birləşib üzviyyətli bir qüvveyi-mühibə[1] icad edərlər. Və bu yol ilə millət düşmənlərinin hər bir hiylə və duzaqlarına[2] müqabilə edib məğlub olmazlar, allanmazlar.

Xülasə nə qədər hürriyyəti-mətbuat, kəlam, ictima, şura və ittifaq yox isə, millət məclisinə bir o qədər ümid bağlamaq olmaz.

Ey İran mücahidləri, əlləşin ki, əvvəl bilaəvvəl zikr olunan bu hürriyyətləri alasınız. Ondan sonra bir gün təcahül[3] etməyib bu yolda işləyək ki, millət məclisi açıldıqda oraya seçilən üzvlərin çoxu hürriyyətpərəstlərdən olsun, millət məclisinin çox əzaları hürriyyətpərəstlərdən olar isə İran azad olmuş hesabındadır. Yox, əgər mazipərəstlərdən, hökuməti-müstəbidə tərəfdarlarından oldular, onda təzədən boyunduruğu hazırlayıb, yenə də zülm və təəddi altına girməlidir...

Bu günədək əlləşdiniz. İdareyi-məşrutə qurulmaq üçün dəst-xətt aldınız. Əsl işləmək bundan sonradır. Zira indi işləməyib məqsudinizi apara bilməzsiniz. Onda sizin hakimləriniz hər bir məşrutə və hürriyyətinizi əlinizdən alıb uca səs ilə küll aləmə deyəcəklər ki: Biz hürriyyət verdik, lakin millət hazır olmadığı üçün idarə edə bilmədi...

Hümmət ediniz arkadaşlar, təkahül[4] vaxtı deyil!

**M.Ə.Rəsulzadə**
*«İrşad», № 186, 8 avqust 1906*

## BU GÜN

Bu gün rəcəb-ül-mürəccəb ayının 27-dir. Bu gün bir yövmi-mübarəkdir[5] ki, aləmi-islamiyyətdə ondan artıq, ondan müqəddəs, ondan əzizraq gün olmasın gərək.

Bu gün aləmi-islamiyyət üçün əziz və giramidir, onun üçün ki, bu gündə əqli-küll[6] olan nəbiyyi-möhtərəmimizin[7] yövmi-cülusi[8] olub, cümlə müsəlmanların zəlam[9] və heyrət vadisindən xilas olaraq, nuraniyyət və mərifət bağçasına keçdikləri gündür.

[1] **mühib** – iri
[2] **duzaqlarına** – tələlərinə
[3] **təcahül** – yaddan çıxarma, unutma
[4] **təkahül** – tənbəllik, süstlük
[5] **yövmi-mübarək** – mübarək gün
[6] **əqli-küll** – bəşəriyyətin ağlı
[7] **nəbiyyi-möhtərəm** – hörmətli peyğəmbər
[8] **yövmi-cülus** – hərfən: oturma günü; taxta çıxma günü
[9] **zəlam** – qaranlıq



Bu gün həman gündür ki, onda, dəryayi-cəhl və vəhşətdə müstəğriq[1] olan ərəblərə mərhəməti-ilahi nazil olub, tarixi-bəşəriyyətdə şəşəəli[2] bir səhifə ittixaz etməklərinə səbəb olan Məhəmməd ibn Abdullah əleyhissəlam həzrətləri cümlə insanları vadiyi-cəhalətdən qurtarıb, elm və mərifətə irişdirmək üçün məbus oldu.

Bu yövmi-mübarək həman gündür ki, bunda cəhalət və səfalət ucundan illər müddəti ilə gizlin olub, təcəlli etməkdən məhrum qalan nurihəqqaniyyət cilvələnib, zülmətpərəst olan xəffaş təbiilərə[3] dünyanı daraltdı.

Bu gündən əsasi-islam olan hüquqpərəstlik «lailahəilləllah» cümlə həqiqətkaranəsi ilə işar edilib cəhalət məhz və küfran olan bütpərəstlik fəsxinə hökmü ilahi sadir oldu.

İslamiyyət nöqteyi-nəzərindən bu günün nə qədər heysiyyəti varsa, insaniyyət nöqteyi-nəzərindən də bir o qədər var və bəlkə, daha da artıqdır.

İslam dininin vəzi ilə bir çox insanlar təriqi-zəlal və əsəbiyyətdən qurtarıb, rahi-nicat və fəlahə düşdüyünü heç kəs dana bilməz, zənn ediyorum.

Bu gün aləmi-insaniyyətdə öylə bir müəzzəm günlərdəndir ki, onun misli tarixlərində az-az tapılar, bəlkə də, heç tapılmaz.

Başdan-ayağa qərqi-istibdad və cəhalət olub güzəranlarını qətl və qarət ilə keçirdən təəssüb ucundan öz doğma balasını diri-diri yerə basdıran bədəvi ərəblər arasında dini-islam kimi insaniyyətpərvər ədalət və musavatgöstər, maarif və həqqaniyyətamiz bir məslək icad edən nadir vücudun bu gün yövmi-məbusidir[4], yəni öz risaləti-insaniyyətkaranəsini təbliğ etməyə başladığı gündür.

Lakin heyhat! O gündən başlanıb, təbliğ edilən o əmr və nəhyi[5]-müqəddəsəni yadımızdan çıxardığımız kimi, bu yövmi-müqəddəs və müəzzəzi də fəramuş etmişiz!

Adımızı müsəlman qoyuruz, lakin islamiyyətin nə tarixindən, nə üsulundan, nə füruindən[6] və nə də mühəssənatından xəbərimiz yoxdur.

İslamiyyət, hürriyyəti – məhz olub, hər bir əsası ictimaiyyət üzrə bina olunduğu bir zamanda, biz istibdadpərəst oluruz. Quran bizə «və şavirhum fi-l-əmri»[7] buyurduqda, biz üsuli keyfəma yaşau dalınca gediriz. Cəmi taifələr dinimizin üsullarından olan hürriyyət və ittihadibeynəlmiləli ararkən, bizlər istibdad və nifaqı axtarıyoruz.

Müsəlmanlar! Bəsdir bu qədər özümüzdən bixəbər qaldığımız! Bəsdir dinimizə olan kəmetinalığımız, dinimizə diyoram – dinimizə, o dinə ki, onun cümlə üsulu və ərkani ictimaiyyət, məhz və məhz ictimaiyyətdir.

[1] **müstəğriq** – qərq olan
[2] **şəşəəli** – parlaq
[3] **xəffaş təbiilər** – yarasa təbiətlilər
[4] **yövmi-məbus** – vəhy günü
[5] **nəhy** – inkar etmə
[6] **füru** – şöbələr
[7] **və şavirhum fi-l-əmri** – hər iş barəsində onlarla məsləhətləşən

Hər bir müsəlman gərək bu gündə tətili-əşğal[1] edib, istər islamiyyət, istər insaniyyət namə bayram eləsin!

Bəndə isə «İrşad» qəzetəsi heyəti-təhririyyəsi tərəfindən cümlə qareini-kirami bu yövmi-məsud münasibəti ilə səmimi-qəlbdən təbrik edib, xətmi-kəlam ediyoram.

**M.Ə.Rəsulzadə**
*«İrşad», № 208, 4 sentyabr 1906*

## EDAM CƏZASI

Məlum olduğu üzrə, Rusiyada əvvəlinci dəfə qurulan Dövlət duması ki, «ifratçılıq» etdiyi üçün qovuldu, hökumətdən istəniləcək bir cərgə tələblər sırasına edam cəzası da daxil etmişdi. Özü də tələblərin hamısından ümdəsi və birinci olaraq tələb etmişdi.

«Əfvi-ümumi və edam cəzasının fəsxi»[2] işte bu tələblər idi ki, Dövlət dumasının dağılmasına səbəb oldu.

«Bəsdir bu qədər tökdüyünüz qanlar, rütubətlərdə çürütdüyünüz canları» – cümlə əhraranəsini virdi-zəban edən Dövlət dumasını tüğyançı, üsyançı, fitnəçi – deyib, hələ üsuli keyfəməyəşasından əl çəkmək istəmiyən bürokratiya dağıtdı. Duması dağıtdı da camaəti aşkara mücadiləyə çağırmaq istədi. Lakin millət pişrovları – siyasi firqələr hökumət ilə mübarizəyə girişmədən çəkindilər – hiyləyə aldanmadılar.

Hökumət isə şiddətli tədbirlərə əl atdı ki, bəlkə, bununla camaəti acıqlandırıb hal-hazırda hər tövr olur isə onunla mücadilə edib birdəfəlik qüvai inqilabiyyəni uzun illər müddəti ilə düzəlməyəcək bir dərəcəyə yetirsin və bu məqsəd ilə həbsi, nəfyi edam cəzasını bacardıqca çoxlaşdırdı. Qəzetələrin hansı birisinə baxırsan həbslərdən, edam cəzalarından və qeyrə bu qisim təəddilərdən[3] başqa bir şey görmiyorsan.

Hökumətin bu şiddətli tədbirləri camaat arasında böyük bir həyəcana səbəb olub, bəzi firqələr zühuruna bais oldu ki, onlar da bombalara əl atıb ölkəni «anarxiya»nın mənayi-məfihiz zəmirinə sövq etdilər. «Gücə-güc lazımdır», – deyə səbirsizlik istədilər. Üzviyyət və təbliğ üsulunu qoyub vaxtsız əczayi-nariyyəyə[4] əl atdılar.

O idi ki, hökumət bu anarxiyanı və bu hərc-mərci dəf etmək qəsdi ilə heç olmasa bilmünasibə bir az ədalətə yavuq olan məhkəmələri götürüb, əvəzində əsgəri məhkəmələr meydana qoydu. Mühüm işləri ki,

[1] **tətili-əşğal** – işi tərk etmək
[2] **fəsx** – ləğv etmə
[3] **təəddi** – təcavüz, zülm
[4] **əczayi-nariyyə** – odlu silah



onun həllinə aylar lazımdır, bu məhkəmələr iyirmi dörd saat ərzində qurtarıb bir çox bigünah qanlar axıtdılar. Əlan bu bir günə təcili mühakimələr Rusiyanın hər yerində icra olunmaqdadır...

**Məhəmməd Əmin**
*«İrşad», № 208, 4 sentyabr 1906*

## OKTYABRIN 17-si

Bu gün oktyabrın 17-dir. Tarixi-mədəniyyətdə bağlanan müəzzəm əqdlərdən birinin, Rusiya inqilabi-kəbirinin birinci fəth-əzəminin bir illiyidir.

Tamam bir il bundan qabaq həmin oktyabrın 17-də ölkənin əsab və damarları dərəcəsində olan cümlə dəmir yolları və teleqraflar tətil edib məmləkəti iflic halına yetirən bir zamanda xətti-hümayunu sadir olub məmləkətə səadət və rəfahət vədə etdi.

Bu oktyabrda vədə verilənlər çox-çox idi. Həm mətbuat hürriyyəti, həm danışıq, ittifaq və ictimalar azadlığı, hürriyyəti-din və vicdan, insani ondan məhrum etmək olmayacaq bir taqım hürriyyətlər, cümləsi vəd edilmişdi.

Bəli, vəd edilmişdi! Yalnız vədə olub da vədəliyində qaldı – qövldən felə keçmədi. Qövldən felə keçmədi sahildir, tərəqqiyi məkus edib oktyabrdan qabaqki dövrdən daha bədtər, daha acraq olaraq zülm və təəddilər rəsmi cəbr və təkdirlər çoxlaşdı.

İstibdad və bürokratiya təcavüzündən təngə gəlmiş cümlə millətlər bu fərman süduri ilə özlərinə bir ümid işığı gördülərsə də, lakin bu işıq, bu nur tezcə də sönüb hürriyyət və ədalət məhtabının üzünü yenə cəhalət və istibdadın dəhşətli buludları tutub hər tərəfdə cəfa rüzgarı mütərakim[1] olub müqatilələr, mücadilələr bir milləti o biri millətə yağı etmək siyasəti – şəni[2] meydangir olub, hürriyyəti-kəlam-həbs və nəfyidən, hürriyyəti-mətbuat-mətbəələrin qarəti və qəzetələrin bağlanmasından, hürriyyəti-ittifaq insanları dəstə ilə firqə ilə sürgünə çəkmədən, hürriyyəti-şəxsiyyə-xəlayiqi küçədə deyil, evində belə rahət qoymamadan ibarət oldu. Tamam hürriyyət və imtiyazlar mövcud oldu. Fəqət məzlumlara deyil, zalimlərə, camaat qanı soranlara əlverişli oldu.

Nəhayət, hər bir qisim ilə olsa da, Rusiya tamam bir qanlı meydana dönən halda, topların, tüfənglərin ürək partladıcı məhib sədaları altında, həbs və nəfyilərin müavinəti ilə Dövlət duması yığıldı.

Dövlət duması yığıldı, lakin hökumət çox çalışdı, çox say elədi ki, bu Dumaya cəm olanlar istibdad tərəfdarlarından, köhnə idarə dostlarından olsun. Lakin tarixin 2-ci səhifəsini çevirmiş olan Rusiya camaəti

[1] **mütərakim** – üst-üstə qalanmış
[2] **şəni** – biabırçı iş, eyibli iş

hökumətin bu hiyləsinə bacardıqca sədd qoyub, Duma əzalarının çoxusu hürriyyətpərəst oldular.

İş böylə olduqda hökumət özünü allanmış görüb «siz inqilabçısınız, məmləkəti islah etməyə müstəid deyilsiniz», – deyə Dumanı dağıtdı.

Dumanı dağıtdılar və «gediniz 7 aydan sonra təzədən çağıracağız», – deyə vəkilləri evlərinə qovdular və tək bu qovmaqla kifayət etməyib vəkillərin «şiddətli inqilabçı»larını da kimini nəfy, kimini həbs etməyə başladılar.

İndi hökumət yeni bir Duma ictimainə hazırlaşır. Hərgah bu dəfə də Duma «inqilabçı» olsa, onda hökumət nə tədbir tökəcəkdir özü bilir... Əlbəttə ki, camaat da öz hüququnu yaxşıca tanıyor.

Camaat da öz hüququnu yaxşıca tanıyor! Hər kəs öz hüququnu yaxşıca bilsə də, biz müsəlmanlar öz hüququmuzu heç yamanca da olsun belə bilmiyoruq.

Cümlə millətlər vəkil göndərəndə, o vəkilin nə əqidədə, nə yolda işlədiklərini bilib seçdilərsə, biz əlli iki min hiylə və təzvir qurub öz aşnamızı, dostumuzu, «millət necə tərəc olur olsun nə işim var» – deyib, vəkil etməyə çalışdıq. Ümumi adətimizə görə hər kəsin pulu varsa, arxalı isə, qolu güclü isə ondan qorxub öz hüququmuzu bir taqım «millətpərəst» namində cibpərəstlərə qurban etdik. Vəkil seçəndə onun istedadına, bacarığına, əqidəsinə, tutduğu məsləkinə etina etməyib, fəqət filankəs oxumuş adamdır, filan ağa onu təklif edir, – deyə qoyun sürüsü kimi birimiz hürkdükdə qeyrilərimiz də həman tərəfə qaçışdıq. Daxi Rusiyanı bürüyən bu təlatüm və həyəcanın həmin bu hüquqpərəstlikdən öz qədr və heysiyyəti – insaniyyəsini özgələrə qurban etməmək xahişində olmadan nəşət etməsini qanmadıq!

Qanmadıq ki, illər uzunu bizim qanımızı soran «rəislər, ağalar» bizə rəis deyillər, bizim həqiqi rəisimiz özümüzük, camaatdan böyük qüvvə heç bir şey yoxdur. Odur ki, bizim vəkillərimiz də nə Dumada bir iş gördülər, nə bizim dərdlərimizi bir dəfə olsun mövqeyi müzakirəyə qoydular və nə də qayıdıb geri gələndə bizə bir hesab, bir məlumat verdilər!

Əlbəttə ki, bir taqım rüəsalər[1] və ağalar tərəfindən seçilib gedən şəxs həman öz intixabçılarına da hesab və məlumat verir, o camaati nə tanıyor, camaat onun nəyinə gərəkdir. Lal və kar olan camaatin nəyindən qorxsun, nəyindən həzər eləsin!

Camaət, budur yenə seçki başlanır! Əvvəl biləvvəl gərək səy eləmək ki, bu Duma keçmiş Dumanın ixtiyarında olmayıb daha ixtiyarlı, daha imtiyazlı olsun, öylə Duma olsun ki, gəl deyəndə gəlib, get deyəndə getməsin. Bizə öylə Duma lazımdır ki, cümlə generallar, vəzirlər və sahib-mənsəblər onun hökmünə tabe olsunlar. Və oraya seçilən vəkillər

[1] rüəsalər – rəislər



bir taqım nəfspərəstlər tərəfindən deyil, ümum camaat tərəfindən dörd üzvülü seçki qaidəsi üzrə olaraq seçilsin!

Hərgah Duma böylə olarsa, onda Rusiyanın rahat və sakit olmasına ümid bağlamaq olar!

Rusiyanı bu fəlakət, həlakət və anarxiyadan qurtaracaq bir çarə varsa, o da tamam ixtiyarlı Dövlət dumasıdır.

Yaşasın tamam ixtiyarlı Dövlət duması!

M.Ə.Rəsulzadə

*«İrşad», № 245, 17 oktyabr 1906*

## RÜSTƏMİN YUXUSU

Bu günlərdə müəllim Abdulla bəy Əfəndiyev bəradərimiz tərəfindən əvvəli «Dəbistan» jurnalında, sonra xüsusi bir kitabça olaraq nəşr olunan «Rüstəmin yuxusu» ünvanlı mənzuməsi nəşr olunmuşdur. Bu mənzumə biz müsəlmanların məişətimizdə ən nazik və ən ağrılı dərdimiz olan dəstəbazlıq və qoçubazlığın bina və əslini və millətimiz arasında cəhl və nadanlıq ucundan cüzi bir şeyin üstə (ki, özgələri o barədə biri-birilərinə söyüş belə deməzlər) özlərini həlakət və fəlakətə sövq edib böylə bir hərəkəti-dənaətkaranənin adını namus və qeyrət qoyanların biləsəf iştimallarını[1] gözəl bir tərzdə tənqid ediyor.

Bu əsər qayət asan bir dil ilə yazılıb «müstəzad» surəti şeriyyəsi ilə tənzim edilmişdir.

Abdulla bəy cənabları həmin «Rüstəmin yuxusu» ünvanlı kitabçasında başqa bir-iki hekayə də dərc etmişdir ki, bunların mütaliəsi müsənnif cənablarının gözəl bir hekayənəvis ola biləcəyini aşkara göstəriyor. Bu mənzumələrin üslubi-inşası ümumi olub, mübtədilərin[2] anlayacağı bir tərzdədir ki, bu əsər rus-müsəlman məktəbinin kitabxanəsinə qəbul ediliyorsa, zənnimcə, mənfəətsiz olamaz.

Budur, ərbabi-qələmimiz himmət edib iş görmədədirlər. İndi lazım olan himməti-milliyədir ki, bir az mənafeyi-şəxsiyyədən keçib, yaxud hədərə xərclənən külli məbləğlərin bir cüzinin cüzindən cüzini bəzl edib, əhli-maarifimiz tərəfindən meydanə çıxarılan əsəri almaqla, təşviq və təhris buyrulsun. Həmin əsərin qiyməti olan «7» qəpik vermək heç kəsə ağırlıq edəcək bir məbləğ deyildir.

Lakin həmin «7» qəpiyin bəzli[3] aramızda Abdulla bəy kimi bir hekayənəvisi tərğib və təşviq edə bilər ki, gələcəkdə ondan daha mükəm-

[1] iştimal – əhatə etmək

[2] mübtədi – ibtidai sinifdə oxuyanlar

[3] bəzl – sərf etmə

məl, daha dəyərli əsərlər gözləməyə haqqımız olar. Bu 7 qəpik nisarından məqsud müsənnif cənablarına maddən yardım etmək deyil. Bəlkə, ona mənəvi kömək verməkdir ki, demişlər: «Müstəmi sahib süxənra bər sərkar avərəd».*

Müsənnif görürsə ki, oxucusu var, onun zəhmətləri hədərə getmiyor, o surətdə həvəsə gəlib daha böyük iqdaminə girişib, daha yaxşı əsərlər meydana çıxaracaqdır.

Qardaşlar! Rusiya inqilabının meyvəsi olan bir az da olsa bu hürriyyət əyamından istifadə edib ədəbiyyatımızı irəlilətməliyiz ki, bu da ancaq bir az cibə zərbə vurmaq ilə olur. İştə iqdam qardaşlar, iqdam!!

«Rüstəmin röyası»nı almaq istəyənlər Bakıda müsənnifin özünə rücu etməlidirlər. Müsənnifin adresi böylədir:

Baku, Zavaqzalnaya 4, russko-tatarskaya şkola, A.B.Efendievu

**M.Ə.R-zadə**
*«İrşad», № 260, 9 noyabr 1906*

## İRANA DAİR

### İRANDA BOMBA

Keçən nömrəmizdə Kirmanşahda bir mülkədara atılan bədə 30 ədəd 7-si hazır olmaq üzrə tutulmuş bombaların rəvayətini qareini-giram oxudular.

Zənnimcə, hər bir qareyə bu xəbər təsir etməlidir. Təsir kimə nə tövr olacaqdır. Kimdə nə hissiyyat oyandıracaqdır. Kimi şad edib, kimi qəmlərə salacaqdır? – bunlar müxtəlif suallar olub cavabı bir dərəcəyədək hamıya məlum ola gərəkdir.

Lakin hər kəs olursa-olsun, hər fikir və əqidə yiyəsi olursa-olsun, «İranda bomba» sözünü eşitcəgin – milli ibarə ilə deyəlim – xorullayacaqdır.

Həqiqətən də, özünü mülkədara qolu bağlı bilən İran kəndçisi o yerəcən dərrakə məqamına çatıbmı ki özünün zindəganlıq üsrət[1] və hərəcindən[2] qurtarmaq üçün bombaya təvəssül[3] etsin!!!

Hərgah verilən bu xəbər doğru isə İranın Yaponiya olmasına bir an şəkk qalamaz!

İran – demək istiyoram ki, öküz öldürüb (el istilahı) bu axır illərdə aludə olduğu xabi-qəflət sayəsində kəsb etdiyi «bətələt» namini dəyişdirmək istiyor, bunu isbat etmək üçün də kifayət edər dərəcədə həqiqətlər var. Bu həqiqətlər nə qədər çox isə də ən başlıcası bu bomba məsələsidir.

* dinləyici danışanı iş başına çıxarar
[1] üsrət – sıxıntı
[2] hərəc – çətinlik, korluq
[3] təvəssül – yaxın olma, ələtmə



Ey ziştbin! Nə dodağını büzürsən, nə yenə haləti-məyusanədə durub inanmaq istəmiyorsan?! Olmaya ingilis konsulxanəsinə sığışmanı, İranın üləmalarının və camaatinin təşəbbüsati-qeyrətməndanəsini ingilis intriqası, camaat yoxsulluğu, çörək davası hesab edən kimi, bu bombanı da intriqa hesab edəcəksən, olmaya yenə də iranlıların, həqiqətən də, hürriyyət şeydası olmalarına şəkk yetirəcəksən?!

Biz də bu şəkdə vardıq, biz də heç bir vəchlə tiryək və bəngə aludə olub dünya və mafihadan xəbəri olmayan hökumətin cümlə cəbr və zülmlərinə, xanların nizamsız hərəkətlərinə, mollaların müftəxorluqlarına, fərraşların həyasızlığına, vəzirlərin xayini-millət və dövlət olmalarına, İran bürokratiyasının camaat başında açan hər bir qurt oyununa samit, sakit olub da heç bir etiraz belə etməmələrini görüb, İran camaatından hürriyyət tələb etmək, azadlıq yolunda çalışmaq ümidini kəsmişdik. Biz də sizin kimi iranlılar öz hüquqlarını bilmiyorlar deyirdik, lakin İranda vüqu bulan hərəkətlər, insanı hər şəkk və şübhədən çıxaran həqiqətlər bir daha bu şəkkə mövqe, bu ümidsizliyə məhəl qoymuyor. Boynuna kəfən salıb al-qanına bulaşmış qoca bir seyidi millət mücahidi on mindən ziyadə bir cami-ğəfirin surəti-nümayişkaranədə siyasi bir işdən ötrü ingilis konsulxanəsinə mütəhəssin olmalarını, vəliəhdi-səltənəni cəbrən öz əmirini fəsx etməyə məcbur edən inqilabçıları, İran inqilabının atası olan Rusiya inqilabına bənzədən bu bombaları görüb də, yenə də «İranda hürriyyətçi yoxdur, fəqət aclar vardır» – demək nəhayətdə xətadır, daha doğrusu, İran mücahidlərinin heysiyyatlarına təcavüz etməkdir. Və bir də «Fəqət aclar vardır» – sözü məntiqsiz bir fikir, əsilsiz bir nəzərdir. Hansı bir məmləkətin inqilabıdır ki, o iqtisada bağlı olmasın? Bəli, iranlılar acdırlar. Bunu heç kəs dana bilməz, lakin həmin aclığı rəf edəcək hürriyyət istəməyə bu aclıq sədd olurmu, bərəks bu aclıq camaatı düşündürməyə vadar etməzmi? Bu aclıqdan qurtarmaq üçün hürriyyətçi olmaq lazım deyilmi? Əgər lazım isə bəs hansı məntiq üzrə iranlıların hürriyyətçi olmalarına şəkk edilir?!

Yox, cənab ziştbin, İranda edilən bu təşəbbüsat hamısı hərəkati-hürriyyətpərvəranədən nəşət edən təşəbbüslərdir. Həman hərəkati-hürriyyətpərvəranə ki, Rusiya inqilabi əzəmənin təhti-tərbiyə və təsirindən ki, yalnız bir İran deyil, küll Asiyaya, bəlkə də, cümlə aləmə sirayət edib, tamam dünyanı mütəhərrik etmişdir!

Haydı İran, haydı iranlılar, yeriyiniz, güc ilə aldığınız hürriyyətlər uğrunda canlar qoyub müvazib olunuz ki, hiyləkarlar onu Osmanlı qanun əsası və Rusiya Duması ilə dübarə əlinizdən müvəqqəti də olsa almasınlar!

**Məhəmməd Əmin**
*«İrşad», № 272, 26 noyabr 1906*

## ARAQ İÇMƏYİNİZ!

Müsəlman qəzetəsində böylə bir məqalə yazmanın, şəriət banisi olan Qurani-şərifin və peyğəmbəri əleyhissəlamın buyurduğu Quranın mətninə bir ləhzə diqqət edilirsə müsəkkiratın, yəni məstedici şeylərin işlətməsinin şəriətcə böyük günahlardan birisi olmasına baxılırsa əslən mənası yoxdur.

Lakin camaat düşmənləri olan pis vücudların intişar verdikləri bu zəhrimar bədbəxtanə hər bir mədəniyyətdən qabaq biz müsəlmanlara müstövli[1] olub xəsımız o yanda dursun, onların işi Allaha qalıb, avamlarımıza belə sirayət etmədə olduğunu gördükdə: «Dur, ay yatmış» jurnalının axırıncı nömrəsində başdakı ünvan təhtində yazılan məqaləni tərcümə edib, dərc etməyi münasib bildik.

*İştə tərcümə**

«Hər bir butulka araq içməyinizlə siz camaatin xoşbaxtlığını və azadlığını içirsiniz. Siz bununla ilanı, balığı bankada spirtləyən kimi öz hürriyyətinizi spirtliyorsunuz. Hər bir butulkasına verdiyiniz 12 qəpik pulun 11 qəpiyi bürokratlara çatıyor. Araq ucundan hökumət ildə 500 milyon manat yığır və bu pullara şpionlar, qatillər tutur, məhbəslər saxliyor ki, bu vasilələr ilə camaati dağıtsın.

Bundan başqa da, bu məlumdur ki, piyan camaat ilə dolanmaq bürokratlara çox asandır. Piyana nə yer, nə ixtiyar, nə öz ailəsinin (külfətinin) səadəti – heç bir şey piyana lazım deyil. Piyan olan şəxs özü hər bir pis işləri görməyə hazırdır, təki ona bir rumka araq versinlər. İştə bunun üçündür bürokratlar həmə vaxt əlləşirlər ki, meyxanə, kabaklar çox olsun ki, bacardıqca camaati artıq içdirsinlər.

Hər məmləkətdə ki, hökumət camaat əlindədir orada içkiçilik də azdır. Bəs arkadaşlar! İşi duyunuz, duyunuz da möhkəm durunuz! Araq içməyiniz. Elin (camaatin) hüquq və ixtiyarını içməyiniz! Öz ailənizin səadətini, öz uşaqlarınızın xoşbəxtliyini içməyiniz».

### «Araq içməyiniz!»

Bu tərcüməyə əlavə olaraq biz də öz tərəfimizdən «Araq içməyiniz!» əvəzində «Araq içməyi öyrənməyiniz!» – desək daha yaxşı, daha müsəlmanlara münasib olar, zənnindəyiz. Həqiqətən də, biz müsəlmanlar içkiçi olmasaq da, buna başlamışıq. Hətta Kazan tatarları, türkmən təkələri, ləzgilər bu babətdə heç rus mujikindən geri qalmazlar, amandır arkadaşlar, araq içməyə öyrənməyiniz, öz səadətinizi içməyiniz!

**Rəsulzadə**
*«İrşad», № 272, 26 noyabr 1906*

[1] **müstövli** – hakim olmaq
* Tərcümə olunduqda bəzi yerləri şiddətli dəyişdirilmişdir. (Qeyd mətndədir. – *Ş.H.*)



## «DƏBİSTAN»

Məlum olduğu üzrə, şəhərimizdə uşaqlara məxsus ayda iki dəfə nəşr olunan «Dəbistan» jurnalı 7 aydır ki, nəşr olunur. Demək olar ki, «Dəbistan» Rusiyada, bəlkə də, aləmi-islamda əvvəlinci jurnaldır. Doğrudur, Türkiyədə «Cocuqlara məxsus qəzetə» çıxır, lakin Sultan Həmid tərzi idarəsinin senzurundan keçən bu jurnal boş müqəvvadan ibarət qalmışdır. Cəmi Türkiyə mətbuatından məfqud[1] olunan ciddiyyət bundan da götürülüb. Təməllüq[2] və yalan ilə məmlu[3] olmuşdur, həm də cəbrən yazılan bir təməllüq və yalan ilə doldurulmuşdur.

Lakin özlüyündə tək-tənha olan bu jurnal 25 milyon Rusiya müsəlmanları demirəm, beş milyon Qafqaz müsəlmanları arasında olsun necə gediyor? İnsan xəyal ediyor ki, iki həftədə bir dəfə çıxan jurnal nədir ki, o da yeriməsin, o da xərcini ödəməsin?

Lakin heyhat, heyhat!! Müsəlman jurnalı olduğu üçün bu fikrin əksini görürüz.

«Dəbistan»da haləti-nəzidədir. Biçarə müdir həmi yazıçılıq ediyor, həmi təshih qılır, həmi poçta gediyor, həmi abunəçilərin adreslərini yazıyor, həmi də öz cibindən əlavə olaraq zərər qoyur.

İştə baxın qardaşlar, insaf eləyin, bu, rəvamıdır? Rəvamıdır ki, biçarə müəllim bu qədər cəfa və bəla çəksin, bu qədər əziyyətlərə qatlaşsın, nəhayətdə də kəmali-yəs[4] və ələm ilə güc-bəla düzələn, surətə düşən gözəl bir işi bağlasın getsin?!

Nədir bu ey müsəlman qardaşlar!! Bu nə bətalətdir, bu nə kəsalətdir, bu qədər himmətsizlik olarmı ki, bizdə var. İldə 4 manat nə puldur ki, ondan müzaiqə edib «Dəbistan» kimi uşaqlarımızı Hüseyn Kürd və Şiruyə kimi əclaf nağıllardan qurtaran üsuli-təlim və tərbiyə üzrə təlif[5] edilən gudəki-fəhimanə hekayət və nisari tərbiyət bəxşədən məhrum edək!!

Ey müəllimini giram! Bu yolda müdir cənablarına sizlər gərək kömək edəsiniz. Siz gərək bacardıqca uşaqları bu jurnalı alıb oxumağa təhris və tərğib edəsiniz, siz gərək bu jurnalın intişarında səyi-cəmil edəsiniz!!

Siz də ey atalar! Həmiyyətə gəliniz, nahaq yerə xərclədiyiniz pulların bir cüzisindən cüzisi də öz övladınız tərbiyəsində məsrəf edib bu jurnalı bağlanmağa qoymayınız! Kömək ediniz, 3–4 manata qızırqanıb daldasında yatmayınız.

[1] **məfqud** – yox edilmiş
[2] **təməllüq** – yaltaqlıq
[3] **məmlu** – dolu
[4] **yəs** – məyusluq
[5] **təlif** – yazılmış və tərtib olunmuş kitab

Çap və mətbəə işlərinə bələd olanlara məlumdur ki, bir nəfər adama fövqdə sadaladığım işləri görmək nə əndazədə çətin, nə mərtəbədə cəbdir. Heç olmasa, belə ediniz ki, bu biçarə müəllim əqəlləm bir nəfər özünə müavin saxlamağa müqtədir olsun!!!

Kömək edək qardaşlar: mətbuat ki var millətin çıraqlarıdır. «Dəbistan» da bu çıraqlardan birisidir. Biz gərək alləşək ki, bacardıqca bu çıraqlar çoxlaşsın, işıqlansın, amma gün-gündən daha da əksilir, hamısının yağı qurtarıb piltəsi yanmağa başlıyor, sönməyə üz qoyur.

İndi qardaşlar iki yol var. Birisi bu yağsızlığa fikir verməyib həmişəki qayda ilə soyuq əlaqədə bulunub qaranlıqda oturmaq, digəri isə çalışıb bu çıraqlara yağ vermək ki, tərəqqi edib işıq salsınlar.

İndi qardaşlarım ya qaranlığı, ya işığı – ikisindən birini qəbul ediniz!

**Rəsulzadə**
*«İrşad», № 280, 7 dekabr 1906*

## «ŞEYTAN» İŞİNİN NƏTİCƏSİ

İki millətin ağaları və rəisləri, burjua kirvələr, bəylər və xanların arasında olan rəqabəti-iqtisadiyyə ilə hazırlanmış bir zəmində hökumət dəsti-qəddaranəsilə edilən erməni-müsəlman hadiseyi-facianəsi lillahülhəmd[1] intihayə üz qoymaqdadır.

Hər iki millətin ümumi arasında sülhpərəstlər artıb, millət xainlərinin, iki camaatin çakişməsində, dalaşıb vuruşmasında öz səadət və rifahını düzəldən müftin və fəsadçıların arzu və istədiklərinin xilafı olaraq, hər iki tərəf də ataş və qılıncdan əl çəkib vəsaiti mədəniyyəyə əl atanlar və həmişə cidal və qitalın düşməni olub, ittihadi-beynəlmiləlli, yəni millətlər dostlaşmasına çalışanların səsi ucalıb özünə müstəid bir meydan hazırlamaqdadır.

İndi hər bir türk və erməni keçmiş qara günləri yadına salıb, o əqilsizlik, o vəhşaniyyət, o düşmənin hiyləsinə allanıb, öz əli ilə özünə quyu qazdığı məlanətli, nifrətli dövrü ürək yanğısı, cigər suzişi ilə yad etməkdədir.

Əlbəttə, hər bir vicdan sahibi, hər o kəs ki, onun qəlbində bir zərrə qədəri olsun rəhm və mürüvvət var, həmin bu mərəkeyi-vəhşət əfzaniyyətcəsi olan aclıqları fəlakət və səfalətləri görüb riqqətə gəlməyə bilməz. Keçmiş o qara günləri mələnət ilə yad edib onun yaradıcısından intiqam və qisas almaq qəsdi-həmiyyətməndanəsinə düşməyə bilməz.

Heç bir insan oğlu insan, heç bir bəşəriyyət hissi ilə hissilənən zat, nə qədər daşürəkli olsa da, nə qədər cəfa və məşəqqətlərə davam etməyə

[1] lillahülhəmd – Allaha şükür



qabil olsa da, evləri tar-mar olub, var-yoxları ataşə yaxılıb biməskənimənə qalan, dərbədər düşüb kəmali səfalət, rəzalət və zillət ilə saillikdə ömür keçirən, dünənki sahibli övrətlər, ata lütfünə öyrənmiş məsum balaları görüb, onların əhvali-pürmələllərına qan ağlamaya bilməz.

İştə «şeytan» əliylə yapılan erməni-müsəlman müqatiləsi, necə ki, gözləmək olardı, bizə bir böyük səfalət, tükənməz fəlakət, yaddan çıxarılmayan rəzalət və həlakət yetirməkdədir.

Budur Qarabağ dağılmış, Zəngəzur talan olunmuş, yüzlərcə erməni və müsəlman kəndləri yağmaya getmiş, əkinəcəkləri əkməyə nə vaxt olub, nə də yerə səpməyə dən tapılmış. Minlərlə binəvalar çöllərdə qalıb «acından öldük, soyuqdan qırıldıq, ey insanlar bizə imdad!» – deyə fəryadlarını asimana bülənd ediyorlar.

Hələ indi qışın şiddəti gəlməmiş, bu biçarələrin, yetim-yesirlərin ədusi qışın canalıcı soyuqlarında nə tövr rüzigar keçirəcəkləri bir ləhzə nəzərə alınarsa, nə mənzərə görüləcəyi şərhə gələsi, qələmlə vəsf və tərif ediləsi iş deyil.

Əhalinin hamıdan artıq, indi bu saatda un və çörəyə möhtac olduğu vazehatdandır. Zira ki, yuxarıda zikr olunduğu kimi çox yerlər əkilməmiş qalıb və bundan naşi taxıl hüsulu az olmuşdur. Və əlavə bər in qəddar və xain mülkədarlar camaatin belə ehtiyaclı və fəlakətli halından istifadə etmək niyyəti ilə hübubatı anbarlara vurub baha qiymətlərlə satıb əhalini soymaq xəyali-cinayətkəranəsinə düşmüşlər. Amma bu biçarə camaati, bu öz sadəligindən naşi dostu ilə düşmənini tanımayan camaati, böylə həlakətli bir işə salan ağalar, bəylər, xozeyin və kirvələr isti otaqlarda nazlı balışlara söykənib keyf ilə istirahət etmədə, ətrafda cərəyan edən fəqir və füqəradan xəbər tutmayıb da dövran sürməkdədirlər.

Hökumət isə öz işinə məşğul olub burasına heç diqqət belə etmiyor. Nə üçün də eləsin. Onun azmı dərdi, azmı cövri, azmı işi vardır?!

Hər bir aclara, yalavaclara o kömək etməli olsa, bəs bu hərbi məhkəmələri, cəza dəstələrini kim tərtib etsin? Və bir də hökumətə «asiləri sakit etmək məsələsi», hər bir şeydən əvvəl, hər bir şeydən müqəddəm, gərəkdir. Hökumət xarici məmləkətlərdən hədələrə aldanaraq pul borc edib qarabağlılaramı xərc eləsin – anlamamışdı. Bir zamanda ki, əsl «məmləkət düşmənləri» sağ-salamat dura – hökumət gəlib belə cüziyyata baş qatacaqmı?

Budur «şeytan» işinin nəticəsi! Budur «millətçiliyin» səmərəsi, budur müxtəlif maskalar altında gizlənən firqələrin zalimanə qəti-rəhmanə işləri!

Ey vətəndaşlar, ey sevgili qardaşlar, ey vətən məhəbbəti ilə ürəkləri dolu olan qafqazlılar! Bu bəlalar, bu fəlakətlər yalxu bir müsəlmanların,

yalxu bir ermənilərin bədbəxtliyi deyil. Bu bəla, bu bədbəxtlik cümlə Qafqazın, külli qafqazlıların bədbəxtliyidir.

Müsəlman milləti, həmçinin də erməni milləti bu bədbəxtliyə, bu fəlakətə və səfalətə giriftar olmayıblar məgər Qafqaz yolunda. Bunlar məgər haman cümlə Rusiya külli Qafqazı, hamı Rusiya və qafqazlıları bilafərq millət və məzhəb təhti-istibdad və xəsarətdə saxlayan idareyi-mütləqiyyənin inhidam və məhv olması üçün qalxacaq bir inqilabın qabağını saxlamaq üçün qurulan hiylə və fəsadlar qurbanları deyilmidir?!

Vətəndaşlar, ey Qafqaz övladları, ey qəlblərində insaniyyətə məhəbbət və şəfqət olanlar! Bu fəlakət, səfalətləri görüb də çox da ah-uf etmək, göz qorası sıxmaq yalxu izhari-təəssüf etməklə o biçarələrə mənəvi bir təskinlik olursa da, maddi ehtiyac bu təskinliyə hərgiz yol vermir. Belə bir zamanda yalxu ah-uf etməklə bir kar aşmaz, maddi kömək lazımdır. Pəs vətəndaşlar, səmimi və mənəvi olan ehsasatınızı bildirmək, öz hissiyyati-müavinətkarənənizi zavallı fəlakətzədələrə göstərmək və onların sağ və salamat bu qışdan çıxmalarını nəzərə alıb qüvvənizdən gələn iənəni müzayiqə etməyiniz!! Göstəriniz ki, siz insanları bilafərq millət və məzhəb sevməyə, hər bir kəsi fəqət insan olduğu üçün şəfqət və məhəbbətə layiq bilirsiniz!! Bildirin ki, iki qədim qonşuları biri-birilə vuruşduran dəni «millətçilik» və bundan istifadə edən daha dəni olan «şeytan» varsa da, sizdə də insanlıq məhəbbəti, insaf və mürüvvət şəfqəti hənuz itib batmayıbdır!!!

Vətəndaşlar, yalxu bir iənə vermək, nəzərimcə, bəs deyildir. Belə bir məqamda hökumətin borcudur ki, əhaliyə kömək edib onun dadına çatsın. Hökumət fəqət bundan ötrüdür ki, camaata dar gündə kömək edib onu hər bir xətalardan mühafizə etsin.

Lakin bizim hökumətimizdən bu vaxtadək camaata nisbət bir kömək, bir iənə görünməyib və gözlənmir. Gərək biz camaat, biz Qafqaz camaati, vətənimizin səadət və gələcəyini nəzərə alıb, hökumətdən istəyək ki, bu fəlakətzədələrə töycünü bağışlamaqla, onlara əkmək üçün dən verməklə, ucuz qiymət ilə məişət ləvazimatı satmaqla və ümumi işlər açmaqla kömək etsin!!!

İstəyin vətəndaşlar, hökumətin borcudur ki, bu tələbləri yerinə yetirsin!!.

Məlum olduğu üzrə, ermənilər çoxdan, müsəlmanlar da bu günlərdə zikr etdiyimiz bu aclara kömək etmək niyyəti ilə iənə komitələri təşkil edib işləməkdədirlər. Budur qış yaxınlaşır, erməni vətəndaşlarımız bir qədər olsa da, buğda filan cəmləmişlər, müsəlmanlar isə hələ indi təftişə çıxmışlar.

Təlasmalidir ki, bacardıqca bu binəvalara tezliklə əlac edib ac ölümdən onları və bu aclıqdan baş verə biləcək qisim-qisim məsrə azarlardan cümlə Qafqazı saxlayasınız.



Haydı qardaşlar, himmət ediniz, hər kəs qüvvəsi qədərincə iənə etməkdən çəkinməsin!!

**Məhəmməd Əmin**
*«Təkamül», № 1, 16 dekabr 1906*

## MİLLİYYƏT MƏSƏLƏSİ

Rusiya məmləkətində hökm sürən istibdadın ən qədim və köhnə olan üsullarından biri budur ki, istibdad (yəni bir nəfərin, yaxud bir dəstənin keyfi istədiyi kimi edilən idarə) özünə tabe olan millətləri bir-birilə yağılaşdırıb və tutuşdurub və bununla müxtəlif millətlər arasında ziddiyyət və düşmənçilik salıyordu, hökumət tamam qərinə özünü öz təhti hökumətində olan millətləri bəzi-bəzi xüsusi qanunlar verməklə və özünün nökərləri – qulluqçuları vasitəsilə və bəzi öz millətini, qövmini hər bir irz və namusunu satan «rəislər»in köməyi ilə cümlə Rusiya təbəəsi millətləri: müsəlmanları, erməniləri, gürcüləri, polyakları və qeyrilərini təqib edib sıxırdı.

Bir taqım xüsusi üsul üzrə verilən qanunların bərəkətindən padşahlığa tabe millətlərin cümlə ruhani həyatları və mədəniyyətləri, yəni dilləri, ədəbiyyatları, fünun və maarifləri həlakət və məhv olmağa üz tutmuşdu. Haman bu məqsəd ilə də ki, millətlərin bir-birinə ziddiyyətini artırsın. Hökuməti-mütləqə, yəni istibdad hökuməti, polisənin köməyi ilə qətl və qarətlər düzəldib camaatin əclaflarını Cənubi Rusiyada yəhudilərin, Qafqazda müsəlman və ermənilərin üstünə qalxızdı. Hökumət bu siyasəti ilə istiyordu ki, həmin bu üsul ilə çomaq və qorxu idarəsinin üzərinə camaat qəlbində olan nifrət və narazılığı yadlarından çıxarıb, məxluqi bir-birlərinə məşğul edərək özü asancasına tamam millətlərin üstündə sual və cavabsız hökm sürsün.

Hökumətin qəsdi öz milliyyət dairəsində belədir. Lakin bu məsələyə hər bir siyasi firqə özünəməxsus nəzər ilə baxıyor. Onlardan, məsələn, «xalis rus firqəsi» diyor ki: «Rusiya ruslarındır, qeyriləri nə ki var – ortodokslara (pravoslavlara) tabe olmalıdır».

Məktəblərdə, hökumət divanxanalarında, məhkəmələrdə və qeyri-ictimai dairələrdə ancaq rus dili gərək işlənsin, tamam ibadətgahlar gərək rus ortodoksa müti olsun və hərgiz, hər bir surətdə olsa da, «basurmanlara», yadlara heç bir milli müsaidələr, məsələn, ana dilində məktəb açmaq, cəmiyyəti-xeyriyyələr, güşadi və qəzetələr nəşrinə izin verilməsin, özgə millətlər hər bir padşahlıq qulluqdan, böyük qulluqlardan məhrum edilsin. Və bunların hamısından bu firqənin məqsədi odur ki, bacardıqca Rusiya dairəsində olan millətləri ruslaşdırıb, bacardıqca Rusiyanı qeyri məzhəblərdən paklandırsın.

«Kadet» firqəsi bu məsələyə geniş bir nəzər ilə baxıb deyir ki: «Rusiyada sakin olan hamı millətlərə ayrı-ayrı imtiyazlar verilməlidir».

Ən sol firqələr cümləsindən ictimaiyyun-ammiyyun (sosial-demokratiya) hal-hazırda mövcud olan bir millətin o biri millətə olan hökmranlığında həman sərmayə binasının səmərəsini görür, necə ki, bir sinfin o biri sinfə ağa olub onun zəhmətindən nəfbərdar olmasında vardır. Bir millətin o biri millətin üstündə ağalığını və birinin o birinə olan tabeliyini yerli-dibli puç etmək ancaq bu sərmayə əsasını uçurub, zatən nifaq və müsavatsızlıq deyil, ittihad, ittifaq, müsavat və qardaşlıq əsası üzrə bina olunan, ictimaiyyət əsasını quranda olar – deyib əlavə edir ki, «həmin bu zamanda, yəni sərmayədarlıq əsası durduğu halda ictimaiyyun-ammiyyun təzyiqi-milliyə, yəni millətlərin zülm və cəbr altında qalması qarşısına şiddətli cihad ediyor. İndiki Rusiyada millət təzyiqini rəf etməkdən ötrü hökuməti-istibdadiyyənin kökünü bilmərrə aradan götürüb el hökumətilə bərabər elə müəssisələr icad etməlidir ki, hər millətin həyati-huhaniyyəsinə azadlıq ilə tərəqqi etmək yollarını təmin eləsin».

Bu da əvvəl və biləvvəl milləti təzyiq və yox etmək niyyəti ilə olmuş olsa da, verilən qanunların götürülməsindən sonra cümlə Rusiya məmləkətində olan millətlərin öz dillərini hər bir ümumi və xüsusi dairələrdə, məsələn, sudlarda, divanxanalarda, upravalarda, kontorlarda işlətmək imkanından və həmçinin öz uşaqlarını ana dilində oxutmaqdan və cümlə vətəndaşlara bilatəfriq millət hər bir qulluq xidmətlərə mümanəətsiz girməkdən ibarətdir. Budur o əsaslar ki, onun üstündə sosial-demokratiya milliyyəti gözləyir.

İctimaiyyun-ammiyyun düşmənləri bu firqəni ləkələyərək deyirlər ki, guya, ictimaiyyət əfkarı milliyyəti bilmərrə götürüb millətlərin mədəniyyət, ədəbiyyat və dillərinə əsla qədr vermiyor.

Düşmənlər qoy belə desinlər, itməli həyaları yoxdur. Yuxarıda şərh verilən məramnaməni görmək istəmiyorlar. Doğrudur, sosial-demokratlar milliyyətə düşməndir. Lakin həqiqi milliyyətə deyil, kavıçkaya keçirilən «milliyyət»ə əksdir ki, bu da ancaq milliyyət maskası ilə (niqabı ilə) örtülmüş cibpərəstlikdən ibarətdir ki, millət sözünü hiyləgər sərmayədarlar əllərində aləti-kəsb ruzi eləmişlər. Sosial-demokratiya külli millətlərin özü üçün tərəqqi edib mədəniyyətləşməsinə zidd deyildir. Onların zidd olduğu o «millət»dir ki, özgə millətləri məhv və müzməhlil[1] etmək istiyor.

**Rəsulzadə**
***«Təkamül», № 1, 16 dekabr 1906***

[1] müzməhlil – tədricən aradan çıxarma



## HƏR YANDAN

Bax cənab oxucu, yainki oxucu yoldaş, mən indən belə «hər yandan» yazacağam, bir də görəcəksən ki, Peterburqdan deyirəm. Sonra baxacaqsan ki, gəldim Çornı qoroda. Gah görəcəksən ki, Londondan yazıyoram, sonra olur oxuyasan ki, İranın şəhərlərindən birindəyəm, gah sərmayədar ağanın ali imarətində oturub gözəl damalar ilə ləziz təamlar tamaşasını, gah da hisli-paslı fəhlə mənzilini seyr edəcəyəm.

Və hakəzə məni bir yerdə oturub, duran və yainki bir məsələ üstə dayanıb danışan çətin görəcəksən. Lakin bu əyri-üyrülükdən, bu hər yana qaçmadan muradım bircə şeyi sabit etmək olacaq ki, dünyanın hər işi biri-birinə, bunlar da bircə şeyə bağlıdır.

* * *

Cənab oxucu, gülmə, rişxənd eləmə, dediklərim məntiqsiz deyil: bax Peterburq dedim sonra Çornı qoroda gəldim – nə üçün? Ondan ötrü ki, Peterburq ilə Çornı qorod arasında əgərçi məsafəcə, nəzakətcə, hər cəhətcə, hər yandan, fəqət zahir göz ilə baxsan böyük bir oxşamamazlıq görəcəksən. Lakin bunların arasında böyük bir rabitə, yaxın bir münasibət vardır. Bunu sübut etmək üçün uzaq da getmək lazım deyil. Belədə, «senat razyasneniyası»na baxsaq o saat görəcəyiz...

Olmaya, yenə başı bağlı oldu? Açıq da deyə bilərəm, belə bax Peterburqda oturub həmişə «ədalət» və «müsavat» qaravulçusu olan «senator» baxdı gördü ki, fəhlələr həmin Çornı qorodda işlədikləri və həm də şəhərdə kirayənişin olduqları üçün iki səs alırlar bu isə böyük «ədalətsizlikdir».

Odur ki, cənab senator əlinə qələm alıb bir «razyasneniya» yazdı. Peterburqda «razyasneniya» yazılacağın, Çornı qorodda fəhlələrdən «iki» səsin birisini aldılar.

Bax, gördün, Çornı qorod ilə Peterburqun rabitəsi nə yavuqmuş?!

* * *

Çornı qorod ilə Peterburqun rabitəsi nə qədər yaxın olsa da, senat ilə sərmayədarların rabitəsi kimi yaxın ola bilməz. Bunu da «belə-belə ağlıma gəldi» demirəm ha, bu da yenə həman «razyasneniya» fəqərəsindən anlaşılır. Əgər bunların aşnalığı olmasaydı, onda, əlbəttə ki, fəhlənin iki səsini görən senat dövlətli, yainki sərmayədarın «17»sini də bayaq görərdi...

Lakin görmədi, ..... «əcəb də elədi», yoxsa bu sol firqələri görürsən elə «həyasız»dırlar ki, sonra görürdülər ki, lap başdan ayağa «ədalət» paydar oldu, onda «bunt» elərdilər. Yəqin ki, elərdilər. Bax, hələ harası-

dır ki, «ədalət»in bir balaca yarısını göstərən kimi, kağızlar tullamışlar ki, «fəhlə yoldaşlar, həqqinizi aldılar...»

* * *

London ilə İranın rabitəsini demək nəzərimcə heç gərək deyil. Zira kim bilmiyor İranın cümlə cənub tərəfində olan iranlılar ingilis ağaların quludur? Daha ağa-qulluqdan yaxın əlaqə nə istiyorsan?!

* * *

O ki qaldı gözəl xanım, ali imarət filan, o da qoy qalsın. Çünki bu dəfəlik istəmiyoram cənab ağanın keyfini pozam. Əgər durub desəm ki, bax, bu keyf, bu imarət, bu dəsgah hamısı fəhlə bərəkətindəndir, hamısı onun zəhmətidir, ola ki, acığı gələ... nəyə lazımdır ki, deyim, cənab sərmayədar, bax yanağında olan qırmızılıq fəhlənin qanıdır... ah, axı demək istəmiyordum, həm...

* * *

Xülasə, ...söz çoxdur... amma uzun müşərrəf eləmək də yaxşı deyil.

* * *

Uzun müşərrəf eləmək yaxşı olmasa da, bu bir neçə kəlməni də demək yaman olmaz:

Baxanda misyonerlik ilə direktorluq arasında böyük təbayün[1] vardır. Lakin həqiqət bizə göstərdi ki, xeyr misyonerlik ilə direktorluq arasında çox yavuqluq varmış, inanmıyorsan Bakı gimnaziyasının müdiri Katilovskidən xəbər al, desin.

**Mərzədə**
***«Təkamül», № 1, 16 dekabr 1906***

## HÜRRİYYƏTİ MƏTBUAT

### MÜSƏLMAN MÜRƏTTİBLƏRİNƏ DAİR

Ümumən, hər tayfanın arasında mürəttiblər qeyri-fəhlələrə nisbətən «ziyalı fəhlə» hesab olunurlar. Yəni qeyri-bisavad fəhlələrə nisbətən mürəttiblər öz savadları cəhətinə-tərəqqiyə və mədəniyyətə artıq mail olurlar.

Hər bir vilayətdə mürəttiblər öz hüquqlarını tələb etməkdə, ittifaqlar və cəmiyyətlər təşkil etməkdə pişrov olaraq qeyri-bisavad fəhlələrə misal olub bu tövr işlərə cəlb ediblər. Həmişə də bunların ittifaqları və cəmiyyətləri qeyri fəhlələrə görə münəzzəm olubdur.

[1] təbayün – fərq



Amma heyif olsun ki, bizim Qafqaz müsəlman mürəttiblərində bu tövr hərəkətlər görünmüyor. Nə özlərinin ittifaqları, cəmiyyətləri var və nə də qeyri mürəttiblərin həmkarlar ittifaqına daxil olurlar.

Müsəlman mürəttibləri üçün (bu axır zamanda Qafqazda bir azacıq nəzərə gəlirlər) əlahiddə ittifaq mümkün deyil. Əvvəlinci səbəb odur ki, onlar azdırlar. Ona görə öz hüquqlarını almağa və saxlamağa qadir ola bilməzlər. Çünki az adamın az da ehtiyat sərmayəsi olar. Ona görə də bunlar öz tətil edən yoldaşlarına kömək edə bilməzlər. Ta ki, onlar öz tələblərini və haqlarını alanadək dayansınlar və o cəhətdən labüd olacaqlar ki, sahibkarlar təklif edən sözləri qəbul etsinlər. Bu səbəbdən də bunların hüquqları qeyri taifələrin mürəttiblərinin hüquq və ixtiyarlarından az olacaq.

Tutalım ki, bunlar ittifaq təşkil etdilər. Amma yenə də öz hüquqlarını ala bilməzlər. Ona görə ki, hal-hazırda müsəlman mətbəəsi və müsəlman işləri çox azdır. Hərgah müsəlman mürəttibi tətil etsə və sahibkar da onun tələblərini qəbul etməsə, özü üçün qeyri mətbəədə yer tapmayıb ac qalacaqdır. Çünki bizim mürəttiblər əksərən müsəlman işlərindən başqa qeyri iş bilməyirlər və müsəlman işində də düz xətt yığmaqdan başqa bir şeyi bilməyirlər. Bəs müsəlman mürəttiblərinə lazımdır ki, qeyri-taifələrin «mürəttiblər ittifaqına» daxil olsunlar taki onlar ilə bərabər öz tələblərini istəyib alsınlar və sahibkarları da onları qəbul edib işlətməyə vadar etsinlər.

Hər halda müsəlman mürəttiblərinə, müsəlmanlar mətbəə işini gözəl və əla dərəcəyə yetirməkdən ötrü və həm də tətil günlərində qeyri yoldaşlarının boynuna yük olmamaqdan ötrü mürəttiblik işini lazımınca bilmək lazımdır.

Müsəlman mürəttiblərindən deyən var ki, «özümüz üçün əlahiddə ittifaq təşkil edək. Çünki xarici mürəttiblərin ittifaqları bizə kömək etmiyorlar».

Ola ki, bizim üçün əlahiddə ittifaq təşkil etmək yuxarıda zikr elədiyim səbəblərə görə namümkündür. Hərgah o mümkünat olmasa, yenə də bizim qeyriləri ilə müttəfiq olmamız lazımdır. Çünki bizim və onların tələbləri birdir. Zamani ki, tələblərimiz bir ola, aşkara məlumdur ki, tələblərimizi məan[1] istəsək tez allıq. Çünki bir ağır şeyə nə qədər artıq adam və müttəfiqən güc eyləsələr tez qalxızarlar, həmçinin də bizə.

O ki qaldı mürəttiblərin bizlərə bekar qalan günlərdə və tətil vaxtlarında kömək etməməklərinə də günahkar biz özümüzük. Çünki onların ittifaqlarına üzv olmayırıq və tətil günlərində tətil etməyirik, azarlı və naxoşlarına ianə kömək etməyirik, bilmərrə onları yaddan çıxarırıq. Və o cəhətdən onlar da bizləri yaddan çıxarırlar.

**Mürəttib**
***«Təkamül», № 1, 16 dekabr 1906***

[1] məan – birlikdə

## BAKI, 23 DEKABR

Dövlət duması yavuqlaşır. Cəbr və təəddilərin nəhayət dərəcədə şiddət və hiddət etdiyi bir zamanda hər yerdə seçkilərə hazırlaşırlar.

İndi hər bir mücahid və mərdin, hər bir firqə və heyətin ümdə əlləşdiyi, çalışdığı seçki meydanında faiq gəlmək, tərəfi-müqabili məğlub etmək, öz üzvlərini bacardıqca Dumada çoxlu əyləşdirmək arzusudur.

İndi külli Rusiyada seçkiyə çalışan, öz işini meydandan aparmağa əlləşən iki böyük üz-üzə durmuş tərəflər vardır. Onlardan əvvəlincisi həqiqi hürriyyət tərəfdarı olub, insaniyyət, həqqaniyyət, füqəra və züəfa tərəfdarı olub, məmləkəti bir girdabi-həlakətə döndərən bürokratiya və üsuli-istibdadiyyə və keyfəmayəşa düşmən olanlar, o biri tərəf isə «həqiqi rus» və «17 oktyabr» firqələri kimi köhnəpərəst olan bədəndişə pis fikirlilərdən ibarətdir ki, Rusiyanı azadlıq və səadətə hələ qabil bilməyib bir az da onu zənciri-əsarətdə saxlamaq tərəfdarlarıdırlar.

Seçki meydanında mübarizə edib qurşaq tutan pəhləvanlar çox-çoxdur. Lakin hamısının cəmliyində fövqdə deyildiyi kimi iki böyük firqə əmələ gəlir: biri sol hürriyyət və azadlıq və hökumətin camaat əlinə keçməsi tərəfdarı olanlar, digəri sağ bürokrat və istibdad «şəfqətinə» alışıb, ondan ayrılmayanlar.

Bu iki firqə (iki firqə, – deyiriz, çünki ümdə bu ikisidir) meydandadır. Çalışır, şirin qurşaq tutur. Cümlə əsli əsası qırılıb lərzəyə düşən biçarə ölkənin qəzavü-qədəri də bu qurşaq tutmanın nəticəsinə bağlıdır.

İndi baxalım bu mübarizəyə hökumət necə baxır, bu çalışmalarda bitərəfdirmi?.. İştə məsələ.

Zatən hökumət bu mübarizədə bitərəf ola bilməz. Zira ki, bu mübarizənin nəticəsi onun dirilik və ölülük məsələsidir. Hərgah elpərəstlər qalib olub şahpərəstləri və istibdadistləri bassalar, onda hökumət basıldı, istibdadın surəti-mücəssəmi olan bürokrat maşınası sındı – deməkdir. Yox, əgər xudanəkərdə, hürriyyətpərəstlər, elçilər basılıb məğlub olsalar, onda üsuli-keyfəmayəşə – «hər nə istər – elər» idarəsi təzədən bərqərar olub, hökmfərma olacaq və bürokratizmə maşınası sazlanıb yenə zülm, cəbr, vəhşət, dəhşət, fəlakət və səfalət mətaləri məmləkəti doldurub ədalət və müsavat bilmərrə məhv və nabud olacaqdır.

Tufan və mərəkəyə uğraşan hökumət gəmisi müvəqqəti də olsa, özünə sahili-nicat, nicati-kənari tapacaqdır.

İştə bu mülahizələrdəndir ki, hökumət hər bir vəsilə və yol ilə olsa da, hürriyyəti, azadlığı basmaq istiyor və bunun üçün qırğınçılara «qara üz»lərə və cəmi xuliqan firqələrinə meydan və vüsət verməklə bərabər, cümlə sol firqələri, hətta ən miyanə hesaba gələn «kadetləri» də təqib



edir, onlara aşkara öz qəsd və məramlarını camaata bildirmək, seçki ictimaları qurmaq, azadanə mübarizə etmək yollarını bağlıyor. Bu bağlamaq ilə də kifayət etməyib sürgün, nəfy, cəza dəstələri, əsgəri mühafizə və qeyri-qeyri cəhənnəm əzabları təşkil edir. Hər cür və hər qisim olsa da, gələcək Dövlət dumasını «sağ» vəhşilərlə doldurmaq, Tavriçeski sarayı qaranlıq əfkarı ilə kəsifləşdirmək istiyor.

Hökumət Dumanı həm ədədcə, həm də xasiyyətcə öz tərəfdarı etmək üçün müdam hiylə və tədbir qurmaqdadır. Odur ki, hökumət tərəfdarlığına müstəid bir ünsürü olmayan Qafqaz seçkiləri təxirə salınır.

Keçən dəfə Qafqazdan gedən vəkillərin çoxusu ziddi-hökumət görülüb, bu dəfə ona bir çarə axtarılır.

Nəhayət, seçkini gecikdirmək, təxirə salmaq məsələsi «zirək» kabinənin başına gəlir. Hökumətə zidd olan Qafqaz vəkilləri belə bir binagüzarlıq ucundan Dövlət dumasının ən iş görən, ən çalışan vaxtında hələ yerlərindən tərpənməyəcəklər. Dumada isə həm hökumət zidlərinin sayı azalacaq, həm də Qafqaz vəkilləri kimi mühib «düşmənlər»dən boş olacaq. Budur hökumətin o hiyləli fikri ki, bacardıqca Dumanı həmi ədədcə və həmi xasiyyətcə öz adamlarından mütəşəkkil eləmək istiyor.

İndi ey azadlığını sevən, camaat, ey hökumət cəbr və təəddisinə düxarədən mübtəla olmaq istəməyənlər, ey Rusiyanın anarxiya halından cana gəlib bir rahi-səadət arayanlar, iki yoldan birini qəbul edin: ya sol tərəfə gedib gözlədiyiniz hürriyyət və azadlığa, səadət və rəfahətə çıxınız.

Yainki istibdad və zülmə alışdığınızdan ondan ayrıla bilməyib sağ tərəfə yollanınız ki, ölkəni, camaatı təzədən zəncirə çəkəsiniz. İxtiyar sizindir: istərsiniz sola gedib səadətə çıxın, istərsiniz sağa yollanıb zəlalətə varın.

**Məhəmməd Əmin**

*«Təkamül», № 2, 23 dekabr 1906*

## CAVANLARIMIZA

Millətimiz bir cəhl içində yaşayıb, ömrünü qəflət və xəbərsizlikdə keçirməkdədir. Ətrafını tutan heç bir hərəkətləri sənələr ilə istibdadın və hökuməti-mütləqənin çəkdiyi zəncirlərdən keyimiş bədəni hiss etməyib havayı-havayı sözlər ilə cəfəngiyat və mövhumata hekayə və vəzlərilə dolmuş qulaqları külli Rusiyanı çuğlayan hürriyyət və inqilab sədalarını eşitmiyor. Alimnüma mollaların göz heyrətləndirən şəbədələri və sərmayədarların hər bir şeyi əsildə olmadığı bir rəngdə göstərmələrindən naşi pərdeyi-zəlam və qəflət ilə örtülən gözləri hürriyyət, insaniyyət və həqqaniyyət yolunda tökülən qanları, onu (özünü) əhatə edən

rəzalət və zəlaləti görmiyor. Və daha doğrusu, əvarizi-siyasiyyə ilə məyub olan gözləri əhval adamlar kimi hər bir şeyi başqa bir rəngdə, başqa bir ədəddə görür.

Elmə həvəs etmiyor, mərifət kəsb eləmiyor, kəsb-ruzi yolunda lazım olan səy və guşeş etmiyor, Allah özü yetirər diyor.

Giriftar olduğu fəqr və fəqayə təhəmmül ediyor. Sahibkar və dövlətlinin hər bir cövr və sıxıntısına səbir ediyor. İnsana yaraşmaz ağırlıqlarda ən alçaq bir məvacib və şərtlər üzrə işliyor. Hər cəbr və zülmü, nə qədər ağır və şiddətli olsa da, çəkiyor. Hər ədalətsizliklərə səbir edib dinmiyor, göydən belə yazılıb, – diyor.

Hər bir hiyləkara düçar olur, var-yoxunu əlindən alladıb alırlar, bir yavan çörəyə möhtac ediyorlar. Bunların hamısını görür, hamısının ağrısını qəbul ediyor – yenə də ümid üzməyib, Allah kərimdir, – diyor.

Bu qədər cəfa və əzalardan təngə gəlir, nəhayət, özünə bir çarə axtararaq hökumətə güvənir, polisəyə şikayət edir, bir neçə gün gedir-gəlir, yol ağardır, axırda özü müqəssir olur, dərdinə çatan olmuyor, yenə də sakit-sakit durub əli qoltuğunda heyran və sərgərdan qalıyor.

Nə eləsin, nə çarə qılsın, kimə dərdini deyib, kimdən imdad istəsin, hər yanə gedir zülm, hər tərəfə qaçır təəddi, hər şəxsə sığınır əza, hər guşəyə varır cəfa, hər səmtə dönür ədalətsizlik, xülasə hər yanda yalan və zülmət görüb aciz qalır, nə eləməyin bilmir, çarə yolunu tapmıyor. Özünə bir yol göstərən, dərdinə dəva deyən görmüyor. O biri yandan isə halli mollalar, rövzəxanlar və qeyri bu kimi şəbədəbazlar, o zülm və zülmətin əmirləri, o şəriət və millətin hadimləri[1], o pula səcdə edən dənilər bu biçarəni səbrə, təhəmmülə, hər şeyə razı olub «Allah tərəfindən müqəddərdir razı olmaq gərək» – deməyə alışdırıb və bu zəifin, bu məzlumun başaltını yastıqlayıb, onu yatırdırlar. Bəstəri-qəfləti döşüyüb, cəhalət yuxusuna alışdırırlar. Bu da yatır, mürəbbilərin verdikləri tərbiyə ucundan elə bərk yatır ki, hər bir ağrı və sancıları da bilmərrə yaddan çıxarıyor. Bu minval ilə bir xeyli zaman yuxulayır. Hərdənbir bəzi həmiyyətməndən tapılıb bunları oyatmaq istiyor, lakin qaravulda duran laylaçılar həman şəxsi qovub onu ayılmağa qoymuyorlar. Zira, yatanlar ayılarsa, öz həqlərini alarlar, qasiblər isə rüsvay olar.

Nəhayət, Rusiya inqilabı alovlanır, bir kirdar düşüb hay-huy qopur, bu hay-huy və mərəkənin səsindən yatmış olan millətimiz yavaş-yavaş ayılmağa başlayır, ayılır, ayılır da yön tutub bir yana getmək, vəsilə tapıb bu əsarətdən qurtarmaq, xadim tapıb hadimlərin əlindən çıxmaq istiyor.

Budur müsəlman füqərası, füqərayi-kasibəsi öz qeyri-münəzzəm tətilləri ilə ürəkdən fəryad edib çağırır ki, ey millətin cavan qüvvəsi, ey

[1] **hadim** – uçuran, sökən



hər bir camaatin tərəqqi və təalisinə səbəb olan millət cavanları, gəlin, siz allah gəlin, bizi əsarətdən qurtarıb rahi-səadət və səlaməti bizlərə göstərin. Qərinələr ilə uyuduğumuz xabi-cəhalət və qəflətdən oyandıq, bir daha yatmaq, bir daha düşmənlərin laylasına uymaq istəmiyoruq. Sizi and veririk insaniyyət və həqqaniyyətə ki, bizim əlimizdən tutub bizləri nicat və fəlahə yetirəsiniz!!!

Ey millət, millət deyib bar-bar bağıranlar, ey öz elm və bilikləri ilə fəxr və mübahat edən cavanlar, ey tələbəlik və studentlik faxir libası ilə müzəyyən ziyadarlar, ey camaat müəllimi adlanan zəvati-kiramlar, ey təbən hürriyyət və azadlıq məftunu olan millət balaları! Biçarə füqəra ürəyinin ən dərin guşəsindən gələn bu sədə və fəryadı, millətimizin çox qismi olan bu füqəra və kasəbənin yanğılı fəryadlarına guş veriniz. Giriniz bunların içinə, göstərin onlara o yolu ki, onunla mənzilə yetişə bilsinlər.

Ha vaxta kimi bətalət, ha vaxta kimi kəsalət bizlərə qalib olub, fəqət özümüzə məşğul olub öz qardaş və yoldaşlarımızı fəramuş edəcəyiz.

Bir baxın özgələrə, bir baxın ətrafınıza, bir görün qeyri millət cavanları nə qayırırlar, nə yolda iş görüyorlar. Necə gör hürriyyət və füqəra yolunda candan və başdan keçiyorlar.

Hər sahibi-vicdan, mərhəmət və şəvqətə lazım və bəlkə, vacibdir ki, füqərayi-kasibənin və ümum millətin yanıqlı ürəyindən gələn bu sədaya öz ürəyində yer verib onun dərdini öz dərdi, onun əsarətini öz əsarəti bilib ona imdad əlini uzatsın, ona yol göstərib belə bir fəlakətdən qurtarmağa səy etsin!

Gəlin yoldaşlar, işə insaniyyətə dəyər iş fəqət budur!

**Rəsulzadə**

*«Təkamül», № 2, 23 dekabr 1906*

## HƏR YANDAN

Bizim hökumətimiz qəribə dərdə giriftar olubdur. Həmişə döydüyü, əzdiyi, başında əlli iki min oyun çıxartdığı camaat indi durub ki, nə var mən də varam, nə var ki, mən də adamam. Hələ yenə bu arzunu edənlər dövlətlilər, «abrurilər»[1], böyük-böyük adamlar olsa dərd yarıdır... Əşşi bu cırıq fəhlələri görürsənmi, pah, iş gör nə yerə yetib ki, bunlar da durub haqq istəyirlər... Xülasə «yazıq» hökumət lap özünü itirib heç bilmir ki, nə eləsin. El idarəsi – deyib çığıranların ağzına sakit olmaqdan ötrü bir «Dövlət duması» buraxdı ki, gələ bu da sizin saqqızınız, çeynəyin, məni yadınızdan çıxardın.

Amma olmadı... iş daha da yaman oldu. Dumadakılar da ac adam olduqlarını iqrar edib hələ azdır, el vəkilliyi iddiasına düşüb, nə bilim

[1] **abrurilər** – şərəflilər

«yer və ixtiyar», «8 saatlıq iş günü», mən nə bilim cürbəcür azadlıqlar, elə şeylər ki, o vaxtadək onu hökumət eşitməmişdi, – deməyə başladılar.

Xülasəsi, axırda Dumanın lap «həyasızlığını» görüb, «haydı gediniz, sizə üz göstərməli deyil, yoxsa adamın başına çıxarsınız» sözünü burda deyib vəkilləri motalladılar».

* * *

Elə ki, Dumanı motalladılar, cənab tərəqqipərvər Stolıpin məmləkəti hərc-mərc bir halətdən qurtarmaq fikrinə düşdü və bunun üçün də əqlinə hər nə gəldi elədi...

* * *

Stolıpinin ağlına çox şeylər gəldi: məsələn, voyenni polevoy sudlar, cəza qoşunları, qəzetləri bağlamaq, top, tüfəng, xülasə, Stolıpinə layiq çox şeylər...

* * *

Stolıpinin ağlı nə qədər iti olsa da, nə qədər də vəsilə, tədbir tapsa da, Şamaxı əfəndisi Əbdürrəhim kimi zəki və iş bilən ola bilməz. Zalım balası götürüb padşaha bir petik yazmışdı ki, onunla ölkəni anarxiyadan qurtarsın. Zəhməti hədər də getmədi.

Əvvələ, padşah həzrətlərindən bir molodes alıb, sonra da, həqiqətən, məmləkəti anarxiyadan saxladı...

* * *

Olmaya əfəndi babanın duasının təsirinə inanmıyorsan? Bax keçən Dumanı baykotlayanlar indi hamısı seçkiyə çalışır, bu nədir? Haman o canına qurban olduğum ağanın bərəkətindən deyilmidir?

* * *

Amma doğrusunu deyəndə görünür ki, əfəndi babanın da duası çox kargər olmayıbdır. Zira ki, kargər olsa idi dəxi «həqiqi ruslar» keşiş Arseni cənablarının yoldaşlıqla zəhmət çəkib Qüdsi-şərifə getməz idilər ki, orada məmləkəti bəladan qurtarmaq üçün «qospod» cənablarına, yəni İsa əleyhissəlamə dua eləsinlər.

* * *

«Əsl rus» camaatı dini də insanın üzərinə müəyyən bir şeyi qərar verir ki, bəli, göygöz, sarı tük, piyanskə bir urusdur, qarşıda durur. Özü də rus millətindəndir.



Amma indi təzə «əsl rus» sözü çıxıbdır ki, insan lap təəccüb qalır ki, bu sözdə ibarət olsa Bağçasarayda əmələ gələn «müsəlman» xuliqan dəstəsinin adı «əsl rus müsəlmanları». Nədən təəccüb ediyoram. Hərçə fikir edirəm ki, bu adamları özümə bir təsəvvür etdirim.

Lakin heç mümkün olmuyor. «Əsl rus» deyəndə, ərz elədim ki, nəzərimə göygöz, sarı tük bir piyanskə urus gəlir, əgər «əsl müsəlman» desək yekəqarın, uzunsaqqal bir bay görərəm.

Amma «əsl rus müsəlmanı» deyəndə lap mat qalıram. A kişi müsəlman hara, urus hara, o da «əsli» ola...

Xülasə, bir müsəlmanlıqdan başqa hər nə desən müsəlmanlardan çıxar...

* * *

«İştirakiyyətin («Tərcüman» sosializmə «iştirakiyyət» diyor) nə olduğu aşkar edilərsə müsəlmanların heç biri ona tərəf getməyib müğayir din olmasını görər» – deyən «Tərcüman» qəzetəsi, görəsən, bu «əsl rus müsəlmanları» cəmiyyəti qayıranda harada imiş?.. Niyə onlara bir bənd də olsun yazmıyormuş?..

* * *

O kişini çox da qınamaq olmaz. Bu məlumdur ki, bir əldə iki qarpız dayanmaz, həmi iştirakiyyunları güdəsən, həm də «əsilləri». Bu bir işdir ki, öhdəsindən heç gəlmək olmaz...

Öhdə – dedim yadıma düşdü: bizim şəhər idarəsi və neçə vaxtdır ki, əlləşir, amma şəhər kassasını zalim seçilənlərdən xilas edə bilməyir, hərçə çalışır, hərçə vuruşur, tək bircə gün də olsa dolu kassa üzü görməyir, yazıq bizim şəhər idarəsi.

* * *

Yazıq dedim yadıma şey düşdü:

Əsl yazıq deyəndə, indi bu mütrübçilərdir. Bilmiyorum ki, «mücahid»ə mütrüblər nə eləyiblər ki, götürüb «Hidayət»ə onların əlindən ərizə vermişlər. A canım bəs bu yazıqlar haradan çörək yesin, hələ bu o yanda dursun, bəs bizim bu kərbəlayi məşhədilər indi nə eləsin? Bunlar hamısı o yana, belə de görüm ki, xalq daha toy eləməsin? Mütrübsiz də toy olar?..

Yazıq bundan sonra toy edənlərin gününə, əliniz mütrübdən çıxdı. Vay heyif, heyif!

* * *

Görünür ki, zəmanəmiz çox dəyişibdir.

Bir neçə gün bundan qabaq konsulxananın özündə padşah bayramı olanda mütrüb oynadırdılar.

Amma indi mütrübləri qovmağı konsulxanaya təklif edirlər...

* * *

Bəli, zamanənin dəyişməsinə heç söz yoxdur. Hər yerdə dəyişməsə də, Bakıda ki, lap dəyişibdir. Məsələn, əvvəl Bakı voyenni polojeniya idi.

Amma indi voyenni polojeniyadan çıxarılmışdır. İnanmırsan bu günlərdə bağlanan prikazçiklər ittifaqı idarəsindən xəbər al desin...

**Marzadə**
*«Təkamül», № 2, 23 dekabr 1906*

## MİLLİYYƏT VƏ TİCARƏT
*(Ticarətin beynəlmiləlliyi)*

Milliyyəti təbliğ edənlər, həmişə sinfiyyətə göz örtüb onu görmək istəməyənlərdir. Bir millətpərəst, millət dedikdə dövlətli-kasıb, mülkədar-rəncbər, iş verən və işçiliyi nəzərə almayıb, fəqət bir dildə danışan, bir adətdə olanları nəzərə alır.

Milliyyət müqəddəsdir. Qeyri mütəcavizdir, hüququ mühafizə edilməlidir, hər bir xaric sədəmədən saxlanmalıdır kimi ikimənalı sözlər diyor.

Bir mülkədar ilə rəncbəri, bir sərmayədar ilə fəhləni, bir iş verən ilə işçini nəzərində «bərabər» tutub onları ayrılmaz bir heyət, firqələnməz bir kilit hesab ediyor. Millətin içində sinifləri və bu siniflər arasında birləşən təbayün və təbii zidliyi görmiyor və daha doğrusu, görmək istəmiyor. Bir iş verən ilə işçi arasında əvvəlkilər də düşdüyü mübahiseyi-iqtisadiyyələrini görüb də qəbahətini qanmıyor, bilmiyor ki, bir işi işlədikdə iş verən az verməni və işləyən çox almanı həmə vəqt arzumənd və bu yolda hər cür vəsilələrə dəstəndazdır. Təcrübə ilə göstərilmişdir ki, ən xeyriyyəsi-asar millət yolunda canından keçər dərəcəsi ilə şöhrətlənən, millət balaları üçün digər imarətlər, layiq məktəblər və qeyri-qeyri əmali-xeyriyyəsilə müştəhir bir millətpərəst yolunda malına nisar etdiyi millətin bir cüzi olan fəhlə və əmələləri öz ağır, məşəqqətli zəhmətlərinə davam eləməyib tətil edən zaman necə yasaqlayıb, necə döydürmüşdür. Yenə həqiqət göstərmişdir ki, millətdən hesab olunan bir taqım məzlum fəhlələrin cüzi də olsa əhvallarını dərc edən qəzetəyə fabrikasını millət üçün qayıran sərmayədar necə hərbələr gəlib nə biabırçılıqlar eləmişdir!! Hər kəsə məlum və aşkardır ki, müsəlman firmaları ki, onlarda işləyənlərin çoxusu (dəcəl olmadıqları üçün) müsəlmandırlar. Hamı fəhlələrdən ucuz və hamısından ağır şəraitdə işləyirlər. Onların qayğısına qalan yoxdur o yanda dursun, həmişə təbəiyyət və inqiyadda qalmaqları üçün «millətpərəst» ağalar tərəfindən saxlanan qoçular vardır! Kim bilmiyor ki, böyük bir mülk və mənalə sahib olan mülkədar, xan və bəy yüz rəiyyətin canını bir pristav ağaya qurban edər.



Xülasə, sözümüz oradadır ki, dili bir olmaq, adəti biri-birinə oxşamaq ilə ittihad, birlik lazım görünür isə də, şərh etdiyimiz iqtisadi cəhət bu ittihadı hər bir halda «nifaqa» döndərir.

Bir şəxs nə qədər birinə dost olsa, nə qədər ona yaxın olsa da, yenə də onun özündən artıq olmaz.

Çox əcəb, müsəlman fəhləsi bir müsəlman sərmayədarına əcirdir, onunla bərabər bir qeyri müsəlman fəhləsi də işləyir... «millətpərəst» sərmayədar özü qeyri-millət sərmayədar müsəlman fəhləsinə deyir ki:

– Ada, xaricilər sənə düşməndir, sən onlara qoşulma, sən müsəlmansan, qeyrilər ilə işin yoxdur. Həmin bu zamanda cənab «millətpərəst» sərmayədar özü qeyri millət sərmayədarları ilə bakal-bakala vurub bir-birilərinin sağlığına badənuş oluyor.

«Özgə fəhlələrin ittifaqına qoşulmaq müsəlman fəhləsinə yaramaz» – diyor da cənab millətpərəst tacir özü tacirlərin bilafərq millət təşkil olunan ittifaqına girib, can-başla qulluq ediyor.

Məlum olduğu üzrə, bir hökumət öz sərmayədarlarının fabrikant və tüccarlarının mətaini rəvacə verməkdən ötrü gömrük (proteksionizm) üsulunu tətbiq etmişdir ki, bu gömrük üsulunun ən çox zərəri biçarə füqəra camaatin üstünə düşdüyündən füqərayi-kasibə firqəsi onun götürülməsinə dair öz məramnaməsində fəsl ayırmışdır.

İndi müsəlman «millətpərəstləri» də müsəlman fabrikantçıların mallarını rəvacə vermək üçün həmin gömrükə oxşar bir vəsiləyə əl atıyorlar ki, o da milliyyət hissindən istifadə etmək istəyib, məzkur malları millət mətai – deyə satdırmaqdadır.

Lakin bu zavata deyilməlidir ki, əzizim, nə ticarət və nə müştərilik milliyyət qanmayır, hərgah bəlaləri tapılarsa, o da onların fanatizminə mərbutdur. Bir fəqir bazara çıxıb bir arşın şilə almalıdır, o həmişə bunu gözləyir ki, bacardıqca harada yaxşısı və ucuzu var onu alsın, o tərəfdən də tamam satıcılar çalışırlar ki, bacardıqca çox satıb, çox mənfəət eləsinlər. Hər iki tərəf heç bir halda milliyyət filan gözləmiyorlar.

Budur, Rusiya hökuməti yəhudiləri necə zülm və istibdad altında əzir, onları qırğınlara və talana giriftar ediyor... Hər bir hüquq və ixtiyaratdan səlb ediyor.

Bununla belə, xarici vilayətlərdə olan yəhudi milyonerləri hər bir milliyyət və qövmiyyət hissini unudub öz mənafeyini gözləyərək Rusiya hökumətinə borc buraxmaqla onun istibdadını qayımlaşdırıyorlar...

Yox, cənab «millətpərəstlər», bu yol ilə sənaye və ticarət irəliyə getməz. Heç vaxt da tərəqqi eləməz... camaat də heç öz əli ilə özünə quyu qazımaz, qurd balasını tutub öz əli ilə bəsləməz!

Fəhlə camaəti milliyyətə fərq qoymamaqsızın qeyri fəhlələr ilə birləşib bu yol ilə öz əhvalını yaxşılaşdırmaq yolunda çalışaraq bununla rahi-səadət və fəlahətə çıxar.

Cənab Əbumüslim Dağıstani «İrşad» qəzetəsində bir məqalə yazıb diyor ki, niyə gərək biz Əzimbəyovun papirosunu qoyub Əfinciyansın papirosunu işlədək? Bu sualın cavabını cənab «Əbumüslim» özü başa düşməlidir. Zira ticarət işindən müxbir olan hər kəsə bu məsələ vazeh və aşkardır ki, niyə bu papiros alınmıyor o biri alınır, yainki Bakı qovunu Lənkəran qovununa tərcih ediliyor?

Papiros alan onun xasiyyətinə, qiymətinə və qeyri ləvazimatına diqqət ediyor, o daha baxmıyor ki, görən bu papiros hanki millətin malıdır. Buna heç baxmaq da lazım deyil... Əgər baxmalı, bu barədə diqqət etməli bir şey lazım olsa, o da Amerikada edilən üsul üzrə olsa gərəkdir: Amerikada həmkarlar ittifaqı tərəfindən hər fabrikanın mətainə markalar vururlar ki, əhali hansı malın üstündə ki, bu marka yoxdur, onu almaz və işlətməz. Zira markasız mətalar ona işarədir ki, bu məta qayıran fabrika və ya kargahın əmələləri pis şəraitə bağlı işləyirlər.

Bəli, bizə də bir məta alanda onun fəhlələrə görə nə şərait üzrə hüsula gəlməsini bilmək şərti-əzəm olsun gərək ki, nəinki bu mətai hazırlayanların şirəsini çəkən kimdir bilmək.

**Məhəmməd Əmin**
*«Təkamül», № 3, 30 dekabr 1906*

## ŞAHIN VƏFATINA DAİR

İran mücahidlərini bu axır zamanda məşğul edən bir fikir var idisə, o da Müzəffərəddin şahın azarlı olmağı, həm də ölümə müncər olan azarlılığı idi. Bu düşünmək, bu xəyal içrə qərq olmağın nəzərimizcə cəhəti Müzəffərəddindən sonra İran məşrutəsinin başına nə gələcək vəliəhdə olan etimadsızlıq və onun Təbrizdə – hənuz vəliəhd olduğu zamanda millət məclisinə göstərdiyi ihanət və təcavüzdən bir fikir rəşti-binanəyə düşüb, onun Müzəffərəddin imzaladığı qanuni-əsasiyyəyə müxalif etməsindən qorxulması idi. İştə həman cümlə iranlıları və qeyri siyasiyyunları müntəzir qoyan bir qəbil ilə asılı olan həyati-şahanə qırıldı.

Bu günlərdə İrandan mühüm bir xəbər gəldi. Bu xəbər hər şəxsi təfəkkür və əndişəyə giriftar edən bir xəbər olub. İran şahənşahı Müzəffərəddin həzrətlərinin vəfat xəbəridir. Bu xəbər hər bir firqə və məslək sahibini müxtəlif nöqteyi-nəzərdən fikir və əndişə etməyə vadar ediyor. Köhnəpərəst bir şahçı, həmişə özündən «böyügə» qul olmağı adət etdiyindən, bay evimiz yıxıldı, zillulah fi-l-ərz məhv olub, günəş altında qaldıq. «Ədalət yer üzündən götürüldü» – deyə düşünüyor, heyif və təəssüf ediyor. Məşrutəpərvər bir iranlı, bir müsəlman, yaxud bir nəfər qeyrisi «ey vah, məşrutə tərəfdarı olan bir vücudi-zil-iqtidar əlimizdən çıxdı, cümlə İran və iranlılara hürriyyət bəxş etməklə onları qeyri millətlər arasında sərəfraz edən bir vücudi-zil-iqtidar dünyadan getdi. Ədalət və rəfəti ilə millətə ata mənziləsində olub, onu övladi-əzizi kimi bəsləyən bir pədəri-mehriban dahi həqqə ləbbeyk deyib – iranlıları yetim qoydu – deyə «şivən və fəqan» ediyor. Qeyri bir hürriyyətpərəst şahdan sonra onun yerini şeytan vəliəhdin vicdanından müşəbih olduğundan, onu keçmişdə tutduğu işlərin nəticəsi olaraq bir müstəbid tanıdığından İran «millət məclisi»nin bəlaya giriftar olmasından, cavan müştəbihin qəhrinə düçar olmasından qorxuyor. Xülasə bu xəbər, bu vəfat xəbəri hər kəsi düşündürüyor. Hər kəs də öz arşını ilə bu vəqəni ölçüyor...

Biz isə bu xəbər barəsində öz əfkarımızı deməzdən əvvəl şahi-mərhumun dövr səltənətinə dair bir neçə söz demək istəyiriz. Mərhumun dövründə bir neçə dəfə Avropaya səyahət edilib bir çox millət sərvəti Avropa nəzəninlərinə sərf edilmişdir. İran ümuri-daxiliyyəsi, bir neçə müddət Nəsrəddin şah və qeyri padşahani-sələf əsrində olduğu kimi qeyri müntəzəm, dağınıq, başıpozuq bir halda qalmışdır. Rusiya hökumətindən borc alınıb millətin və dövlətin rifah və səadətinə deyil, onun xəsarəti-ziyanına sərf edilmişdir... Sədri-əzəm Əliəsgərxan kimi xain vüzəra da bu əsrdə gəlib milləti tar-mar etmişlər... bu biri tərəfdən baxanda da millətin həyəcan və diriliyi bu mərhumun vaxtında hüsulə gəlib, İran qanuni-əsasiyyəsi ilə nəticələndi. Mərhum şah bir o qədər yaşadı ki, idareyi-məşrutəni imzalamağa müvəffəq oldu və daha doğrusu məcbur edildi. Nəhayət, şah məşrutəyətə müxalif olmayaraq iranlılar arasında bir namilik qoyub dünyadan getdi. İndi isə hər bir şəxsi təfəkkür və təəmmümə salan kimi bu vəfat bizi də təfəkkürə salır. Bu təfəkkür İran məşrutiyəsinin bundan sonra başına nə gələcək məsələsidir:

Bizim əqidəmizcə «millət məclisi»nin qəzavü-qədəri iki böyük qüvvənin müsadiməsindən hasil olacaq nəticəyə bağlıdır. Bu qüvvələrin biri camaət olub, hər bir qüvvədən güclü olan elpərəstlikdir ki, İranda bu firqənin başında Seyid Təbatəbailər və qeyri Tehran şahidləri kimi canfədalar durmuşlar. Bu qüvvə həman o qüvvədir ki, cəmi İran xan və xainlərini, mülkədar və zəmindarlarını öz qanlı zəhmətləri ilə doydurub geyindirir. O biri qüvvə isə istibdad və üsuli-keyfəmayəşahudur ki, halhazırda İran vüzəraları və Əmiri-ümərə Bahadırı cəng dəbəngiləri başında gələcək taxt-tac sahibi olacaq vəliəhdi-səltənət Məhəmmədəli Mirzədir. Məhəmmədəli Mirzə özünün keçmişi ilə məlum olduğu üzrə hür-

riyyət əfkarına ziddiyyət göstərən bir vücud olub Təbrizdə olduğu zaman «millət məclisi»ni bağlamaq fikrinə düşüb, özünün hökmdari-mütləq olduğunu göstərdi.

Tehrana keçdikdən sonra da həmin bu sui-niyyətin səmərəsi olub da «millət məclisi»nin üstə bir də bir «senat» məclisini qərarlaşdırdı...

Bu izahati-cüziyyə bədində bunu deyə bilərik ki, əgər İran milləti, İran mücahidləri yatmayacaq olurlarsa, əllərində olduğu dar məşrutəni qayib etmək deyil, daha vüsətli, dairəli bir idareyi-məşrutəyə müvəffəq olarlar. O müstəbid olan Məhəmmədəli Mirzəni də Müzəffərəddin şah kimi tərəqqipərvər və hürriyyəti-dust olmağa icbar edə bilərlər...

İndi baxalım, İran milləti, buna müstəiddirmi, bunu eləməyə qabildirmi?

Bu məsələni kəşf etmək istəyənlər, Təbrizdə vəliəhdin əhatə olunmuş evini də Təbrizdən camaat qorxusundan gecə ilə qaçmasını nəzərə alsalar, İranın bu dairədə göstərdiyi, göstərə biləcəyi istedada şəkk yetirməzlər...

Bizcə, İran məşrutəsinin necə olması fəqət İran camaatından asılı olub nə Müzəffərəddinin vəfatına və nə də Məhəmmədəli Mirzənin cülusuna bağlı deyildir...

**Rəsulzadə**
***«Təkamül», № 3, 30 dekabr 1906***

## İSLAM MƏTBUATI

Elə bir gün yoxdur ki, zülm və istibdad altında qalmış vətənimizdə bir qəzetə və ya bir jurnal bağlanmasın. Bunlara ümdə səbəb ya idareyi-ürfiyyeyi-əsgəriyyələrdir (voyennoye polojeniye) ki, həqqaniyyəti izhar edici mətbuata nəfəs vermiyorlar. Və yaxud həqqaniyyəti icra etmək niyyətində olan mücahidlərin bacardıqları dərəcə özlərinin təvanası olmayıb müştərilər tərəfindən kömək və ianə görmədikləridir.

Mətbuatımızın belə bir böhrani-əzmindən qalmasını və ələlxüsus islam mətbuatında himmətsizlikdən yeni mücahidlər qəzetələrinin bağlanmasını görüb Uralsk şəhərində «Əl əsrül-cədid» və «Fikir» qəzetələrinin naşiri və ilk qədəm qoyan aylıq «Əl əsrül-cədid» jurnalında möhtərəm rəfiqlərimizdən bu niyyəti-xalisən naşirlərinə xitabən böylə yazıyor: «Gələcəkdə ixtiyarsız qəzetələri toxtayan mühərriri K.M.Töhfətülleyn cənabları ikinciyəni rica ediriz: toxtamağa qərar veriləndən sonra vaxtı qurtarmayan müştərilərin adreslərini «Fikir» idarəsinə göndərsinər. Biz bunun bədəlinə[1] heç bir şey almayaraq möhtərəm müştərilərə vaxtları qurtarana qədər «Fikir» qəzetəsini göndəririk. Çünki «Əl

[1] bədəl – əvəz



əsrül-cədid» və «Fikir» idarələri üçün heyəti-idarə tərəfindən yüz min manat nəqd təxsis və təyin edildi. Millət yoluna sədəqə hesab olunan bu yüz min manat ilə çox işlər görə biləcəyimizə etiqad qoymaqdayız. Binaən ileyh bu gündən etibarən biçarə millətimizə ikinci təriq ilə xidmət etməyə şüru edəcəyimizi ümid ediriz!

Bizim «Əl əsrül-cədid» jurnalını nəşr etməkdən məqsədimiz mal cəhətincə faidə qazanmaq deyildir. Yox, bizim başlıca məqsədimiz millətimizin inqirazdan[1] qurtarmaq yolunda behəqq sosialist-demokrat (ictimaiyyun-əmmiyyun) məsləkində olaraq tam hürriyyət qazanmağa xidmət etməkdir. Daloy (rədd olsun) bürokrat provakatorları! Daloy insanlara zərərli adamlar! Hürriyyət hamı üçün olsun! Millət, nəsil və nəsib ayrılmayınca – müsəlmanlara, ruslara, yəhudilərə və başqa millətlərə: kişilərə, övrətlərə və hamısına haqlar verilsin, hamısı üçün bir qanun olsun, iştə bizim məsləkimiz budur».

Jurnalın axırında möhtərəm mühərrir «Ərbabi-qələmə müraciət» sərlövhəsi ilə ümum mühərrirlərə xitabən böylə fəryad ediyor. «Ey mühərririni-giram, yədullahi ələl-cəmaəti kəlami-şərifi məlumunuzdur. bir yerə cəm olalım, bir can, bir tən olub iş görməyə başlayalım. Gəliniz cümləmiz bir olub, bir məslək ilə xidmət edəlim».

Möhtərəm rəfiqimizin ikinci illik davamını təbrik edərək cənabi rəbül ələmindən beləcə bir müqəddəs məsləkdə ilələbəd davamını istirham edəriz.

Yaşa mühərrir Əfəndi, Yaşa!

«Ari şotori-məst kəşəd bari gəranra!»[*] Bizlərə isə ar olsun ki, həqqaniyyət yolunda pul verməmədiyimiz, kömək etmədiyimiz bəs deyil isə, bir neçə manat verib qəzetələrə abunə dəxi olmayırız!.. Vay olsun bizim hümmət və qeyrətimizə... Fətəbiru ya ulul-əbsari.[**]

***«Təkamül», № 3, 30 dekabr 1906***

## HƏR YANDAN

Yəqin, mərhum şahın ölüm xəbəri sultana çatan kimi yorğan-döşəkdən özünü dik atıb, öylə duracaqdır ki, bir daha azarlamayacaqdır...

Axır sultanın azarı başqa bir azar deyil, onun öldüyü, azarladığı odur ki, heç bir vəch ilə onun həndəvərinə hürriyyət dolanmasın, hürriyyət adı, qanuni-əsası sözü eşidən kimi əqli başından uçur...

[1] İnqiraz – məhvolma

[*] Bəli, məst olan dəvə ağır yükü çəkər

[**] Ey gözü olanlar ibrət götürün

* * *

Deyirlər ki, cənab Stolıpin çox şükür edir ki, o və kampaniyası Dövlət dumasına xəyanət ediblər, yox, əgər verdikləri sözün üstə dursaydılar, yəqin, bunlar da... həmin bu məqsəd üçün cəmi poplara fərman verilibdir ki, kilsələrdə yalvarsınlar ki, əcəb olub Stolıpin Dumanı qovub, yoxsa ki, dövlətimiz padşahsız qalacaqmış...

* * *

Yaxşı deyirlər ki, qorunan gözə çöp düşər. A kişi, sultan hürriyyətdən nə qədər qorxursa, bir o qədər də hürriyyət ona tərəf gedir.

Məsələn, budur Trabzon camaati bunt edib erməni-müsəlmanlı İstanbuldan hər nə ki, adam göndərilir hamısını döyüb qovurlar... töycü yığanları hər yerdə görürlərsə qapazlıyorlar. İşlər belə ki tutub, qorxuram ki, sultan əfəndimiz qanuni-əsasiyyəni əlindən çıxarmamış keçinə...

* * *

Deyirlər ki, sultan çox müdəbbirdir. Amma görünür ki, yalan deyirlər. Onun üçün ki, əgər o hiyləgər olsa idi, o da Rusiya hökuməti kimi erməni ilə müsəlmanları çoxdan bir-biri ilə vuruşdurub indi sakit oturmuşdu. Qubernatorlarını da qapazlamamışdılar...

* * *

Hiylə sözü aralığa gəldi. Bakıda bir nəfər «diş qayıtdıran» seyid xatirimə düşdü...

Bir dənə göy qurşaq adam var ki, sənəti il-müdam diş qayıtdırmaqdır. Bunun sənətidir, həmişə gəzir diş həkimlərinin viveskalarını oxuyur. Diş həkimi arvad isə içəri girib dişini «qayıtdırır», «diş qayıtdırmaq» bəs deyil, ayrı bir xəyallara da düşür...

Diş həkimlərinin özlərindən qorxub kuxarkaları qucaqlayır...

Bunun nəticəsi olaraq da bir-iki kötək yeməmiş olmayır...

* * *

Bunlardan keçəndən sonra bir balaca da müttəfərriqə[1] yazmaq istəyirəm:

*«Millətpərəstlik»*

– «Millətpərəstlik» bilirsənmi nədir?

– Yox!

– Bəs, qulaq as deyim: bax iki cür «millətpərəstlik» var. Biri qoçaq, bir də maymaq. O ki qoçaq millətpərəstdir – gedib bir dükan açır, yainki

[1] **müttəfərriqə** – məzmunu başqa-başqa olan məqalə və ya hekayə



karxana bina eləyir. Adını qoyur «millət dükanı», yainki «millət fabrikası», başlayır yavaş-yavaş «millət qarpızı»; «millət papirosu», «millət bezi» satmağa. Bu «millətpərəst»in matai də həmişə qeyrilərinkindən bir az baha olur. Bu da məlumdur ki, neçün, ondan ötrü ki, özgələrinin yalxu papiros, qarpız, bez və filan isə, bununki «millət papirosu», «millət qarpızı», «millət bezi» və «millət filanı»dır. O ki maymaq millətpərəstdir, o da bu qoçaqların sözlərinə inanıb, bir şahılıq qarpızı altı qəpiyə, acı «papirosu» «şirin» əvəzinə, 8 qəpiklik bezi 10 qəpiyə «millət» naminə alıb işlədir.

**Mərzədə**

*«Təkamül», № 3, 30 dekabr 1906*

## BAKI, 10 DEKABR*

Seçkilər yaxındadır! Budur neçə gündən sonra hər bir ixtiyar sahibi olan vətəndaş seçici qutusuna yavuqlaşıb vətənin səadətini təmin edəcəkdir. Yəni bu qutuya bir taqım vəkillərin adı yazılmış olaraq kağız salacaqdır ki, o vəkillər ya köhnə idarə tərəfdarı olub, voyenni polevoy sud, cəza və cəfa üsuluna qədəm etməyə çalışacaqdır. Yainki hürriyyətpərəst bir kimsəni qərarlayıb elpərəstliyini göstərərək, məmləkəti həqiqi bir vəsilə ilə anarxiya halından qurtarmağı və bürokratların cəngəli-qəddaranələrini sındırıb əmali-müfsədətkaranələrini puç edəcəkdir...

Keçən nömrələrimizdə və fövqdəki ibarəmizdə ümumi olaraq cəmi Rusiyaya dair izahat verib, təkcə iki firqə, iki ümdə firqədən bəhs edirdik. İndi isə Bakıya dair öndə meydana çıxacaq firqə və heyətlərə məxsus bir neçə söz deməyi lazım gördük.

Bakıda seçki səhnəsinə çıxan bir neçə firqə vardır. Onlardan əvvəlincisi ki, onun qüvvəsi burada çox az və nəhayət dərəcədə binüfuzdur – köhnə idarənin tamam mənası ilə belə qalması tərəfdarı olan «həqiqi rus» firqəsidir. Bu firqənin əmal və əfkarını bir-iki söz ilə bəyan etmək olar: «Rusiya ruslarındır, Qafqaz da ruslarındır», «sağ olsun pravoslaviya, paymal olsun özgələr». İkincisi – daşnaksütyun, ictimaiyyun-inqilabiyyun və kadetlərin blokudur. Bunları da tanımaq üçün gümanımızca tək daşnaksütyun adı kafidir. O daşnaksütyun ki, zəmanənin istəyi və mənafeyinin göstərdiyi yol ilə gündə bir rəngə düşüb, saatda bir yol ittixaz ediyor. Üçüncüsü müsəlman blokudur ki, bildirki seçkilərdə kamali-fəaliyyət ilə iş görüb, bir çox camaat etirazlarına rəğmən öz sevdiyi

* Qəzetdə 10 yanvar əvəzinə səhvən 10 dekabr getmişdir. – *Ş.H.*

vəkilini üç-dörd adam xatirəsinə olsa da, göndərməyə çalışdı. Bu blokun qəsdi və amalı fəqət bir-iki nəfərin istək və xahişindən ibarət olduğundan, onun nə yolda iş görəcəyini hər kəs bilsə gərəkdir. Dördüncüsü, ictimaiyyun-ammiyyun firqəsidir ki, bu firqə həmişə camaat və onun səadəti yolunda əlləşib, həmişə onun mənafeyinin mühafizəsi və onun qarovulçusu olub, müdam səy və təlaş edir və edəcəkdir ki, inqilab öz məqasid və amali-insaniyyətkaranəsini ələ gətirməkdə müvəffəq olub zülm və cəbri bilmərrə yer üzündən götürüb füqərə və məzlumu hökumətin və qeyri ərbabi-təəddi və istibdadın dəsti-cəbranəsindən qurtarsın. Bu firqəyi-ammə camaətindir. Bu firqə hüquqsuzların, məzlum və məfluqların firqəsidir. Bu firqənin amal və əfkarı fəqət füqərayi-kasibənin əmniyyətini təmin edib, ümum insanları nəzərində bir tutub, bilafərq millət, məzhəb, arvad və kişilərin hər bir hüquq və ixtiyarda müsavi olmalarıdır. Bu firqə beynəlmiləldir. Bunun üçün milliyyət filan yoxdur. Bunun nəzərində əhəmiyyət qazanan fəqət sinifdir. Biri-biri ilə zidd olan iki sinfin ki, onları heç rabitə müttəhid edə bilməz. Birinə ki, həmi siyasi hüquqca, həmi iqtisadi əhvalca o birisinin təhti-təzyiq və əsarətindədir, bu firqə havadar olub, onun xadimi, onun hamisidir. Xülasə, bu firqə cümlə məzlumların, hüquqsuzların, yəni əvam camaətin köməkçisi, onun rahdarıdır.

Biz müsəlmanların hüquqsuz və ixtiyarsız olub, çoxumuzun fəqir-füqərə sinfinə mənsub olmamızı heç kəs dana bilməz. Bizim il-müdam qışqırdığımız, haman deyilmi ki, bizə zülm edirlər, hüququmuzu qəsb edirlər... məgər bizlər onlar degiliz ki, bu vaxta kimi zülm və təəddi altında, hüquq və ixtiyarsız bir halda qaldığımızdan bugünkü əsfəl dərəcədə qalıb mədəniyyət işığına həsrətik. Əsl həqiqətinə baxsaq, biz müsəlmanlar, ümumən, bir məzlumlarıq. İctimaiyyun-ammiyyun da məzlumlar firqəsidir. Pəs kəmali-cürətilə demək olar ki, ictimaiyyun-ammiyyun müsəlman firqəsidir. Bəli, müsəlmanlara, müsəlman füqərə və məzlumlarına, o ixtiyarsız və hüquqsuz füqəralara bir firqəyə mülhəq olmaq, bir heyətə mənsub olmaq münasib və məramə yavuq isə də o da ictimaiyyun-amiyyun firqəsidir.

Bu izahat və bəyənatdan sonra, Dövlət dumasının nə dərəcədə əhəmiyyətli olduğunu və ölkənin gələcəyinin ona edilən seçkilərin nəticəsinə bağlı olduğunu mülahizə edərək, ümum seçkilərə, xüsusən müsəlman seçkilərinə xitabən deyiriz:

Vətəndaşlar! Budur Bakıda öz vəkillərini keçirməyə çalışan firqələr! İxtiyar sizindir. Seçin olanı ki, onların məramnaməsini xoşlayıb, öz xeyrinizi, yəni ümumin xeyrini, onu da bilirsiniz! Çıxarın yadınızdan həmişə adət etdiyimiz qərəzi-şəxsiyyəti, vəkil seçək, fəqət millət naminə, camaət xatirəsinə olaraq seçək! Haydı vətəndaşlar, bu yolda himmət edin!!



Millət yolunda baş və canından keçən, hüquq və həqqaniyyətə özünü qurban verməyə müstəid olanları seçin! Seçin böylələrini və bunun ilə göstərin ki, siz müsəlmanlar da Stolıpin idarəsinin «sakit» edici politikasından bezarsınız! Göstərin ki, hürriyyət şəminə aşiq olan pərvanəni heç bir zülm və istibdad şöləsi vəsli-didara yetişmədən saxlayamaz!

Məhəmməd Əmin
*«Təkamül», № 4, 11 yanvar 1907*

## TƏBRİZ VƏKİLLƏRİNİN BAKIDA TƏVƏQQÜFLƏRİ*

Neçə gündür ki, şəhərimiz Təbrizdən İran Məclisi-Millisinə seçilən vükaləyi-möhtərəmlə-məkan olmaqla müzəyyəndir. Bu vükəlayi-möhtərəmin dərəceyi-məlumat və kamallarına, söylədikləri nitq hürriyyətpərvəranədən naşi baxılıyorsa, insanın İran barəsində bəslədiyi bir taqım ehsasi-zişti-binanə bibinə olub zail olur. Bizim heyəti-təhririyyədən bir-iki nəfərinin həzarət vükəlalar ilə etdikləri müsahibə əsasında mühərrirlərimiz tərəfindən verilən bir taqım iqtisadi, ictimai və siyasi məsələlərə layiqincə cavab verib sual edənləri cavabi-məlum ilə kifayətləndirmişlər. Hörmətli vükəlanın tərcümeyi-əhvallarına dair gələn nömrəmizdə inşallah təfsilən də olmasa, vəchi-ixtisar ilə məlumat verməmizi dəröhdə etməklə bərabər, vükəla cümləsindən olan möhtərəm axund Molla Fəzləli cənablarının Sabunçi məscidində İran fəhlələrinin tərəfindən hazırlanan ictimaidə söylədiyi nitq qeyri-təməndanəyi təxminən dərc ediyoruz.

Axund cənabları bizi səud[1] edib ərəbi bir xütbə oxuyur ki, xatimində bir ayə də tilavət edib, sonra camaəti böylə bir eydi-şərif ilə təbrik ediyor. Bədə[2] natiq bəliğinə bu qisim ilə davam ediyor:

İbtida biz vəkillər gərək çalışaq ki, istibdad və zülm və istibdad fironlarının, zalim və qəddar hakim və amirlərin cəfakaranələrindən qurtararaq özünə bir parça çörək üçün qürbət ixtiyar edib vətəndən uzaq düşən siz biçarələri cahi-əsarətdən qurtarmağa çalışaq. Biz gərək o firon və hamanlıq edənlərə göstərək ki, onlar bu vaxta kimi öz fironluqları ilə gözəl İranı bugünkü tənəzzül və tədəyyünə endiriblərsə də bundan sonra naili-məram olamazlar.

Keçəndə İranın zəifü-züəfaları[3], biçarə kəndçiləri əsarətdə olub istibdadi-firon və hamanları camaətə müsəllət[4] olub onların əllərinin rəncələrindən mənfəətbərdar olub xəbis, məlun mülkədarlar keyfə baxırdılar.

* **təvəqqüfləri** – dayanmaları
[1] **səud** – xoşbəxt
[2] **bədə** – sonra
[3] **züəfa** – zəiflər
[4] **müsəllət** – hakim, təcavüz edən

Bu məşrutiyyət ki, eşidirsiniz, bu o məşrutiyyətdir. Ülamayi-həqqə qabağa düşüb boyunlarına qanlı kəfən geyib öz canlarını fəda etdilər, tainki bu əqdi-əzimin sadir olmasına, yani məşrutiyyət verilməsinə müvəffəq oldular. Tehran vaqieyi-əziməsindən sonra Təbriz vaqiatı aralığa düşüb cümlə Azərbaycanı bir həyəcani-əzim bürüdü. Camaat və el təəssübüsü burada da zühura gəldi. İran millətinin tələbləri müəyyən olmağa başladı. İran milləti-nəcibəsinin istədiyi, onun tələb etdiyi müsavat küll olub, bilafərq millət və məzhəb, arvad kişi hamısının bərabər hər hüquq və bəixtiyarda bilafərq olmasıdır.

İndi Təbriz şəhəri bizləri küll Azərbaycanda məbus olaraq seçib millət məclisinə göndərirlər ki, orada onların hüquqi-bəşəriyyələrini mühafizə və müdafiə edək. İndi biz də camaat yolunda canımızı əlimizə tutub gedirik və hər mümaniə və müqabiləyə müqavimət edib hər bir mühaimət ilə çalışıb vuruşacağız. Siz də müttəhid olub, bizim tərəfimizə durun, ittifaq edin. Müttəhid olun ki, fəqət ittihad və ittifaq ilə onların, müstəbidlərin, zalımların əleyhinə dura bilərsiniz, nuqəti[1]-ittihad ilə məramə çatarsınız!

*«Təkamül», № 4, 11 yanvar 1907*

## HƏR YANDAN

A kişi dünyanın lap axırına düşdük. Hər ötən, hər yetən bir qəzetə çıxardıb adını mühərrir qoymuş... Heyif sənə keçən günlər, heyif sənə yazıq hökumət, mağıl sənin bərəkətindən meydanı təkliyib, pul qırırdıq. İndi uşaq əlində qalmışıq. Əgər durub sən də olar kimi «loğya», «moğya»lardan yazasan, onda cibinə mənfəətdir, nə də ki, «qospodinin» xoşuna gəlməz...

Pəs nə olsun, nə edək – özümüzü göstərək? Yaxşısı budur ki, götürüb bir şeyi yazım ki, biz də «loğya»lardan çox bilirik, amma müsəlmanlar XIV əsrdə olduqlarından bu sözləri onlara demək yaramaz, qulaqlarının pərdəsi deşilər. Bir qədər təəmmüldən sonra – yaxşı mən tək özümü desəm ki, bu «loğya»ları bilirəm, bəlkə, «etikeçni» olmadı. Ona görə də lazımdır ki, hürriyyətdən qabaq mövcud olan millətpərəst mühərrirlərin adlarını sadalayım: Rəşid, Hadi, Əlimərdan bəy, Əhməd bəy... bunlar hamısı bu təzə çıxan mühərrirlərin loğyalarından çox bilirlər. Lakin demək istəmiyorlar, çünki «Tərcüman» müsəlmanların təqvimini varaqlayıb, onları XX əsrdən XIV əsrə atmışdır.

* * *

«Tərcüman» zəmanəni XIV əsr etməyə nə qədər çalışsa da, onun acığına zəmanəmiz hələ XX olur və onu lap acıqlandırmaqdan ötrü XXI

[1] nuqət – nöqtələr, məc. toplanaraq



qərinəyə sarı sürünür. Budur İran vəkillərini İsmayıl bəy görsəydi, görüb də onlar ilə bir qədər söhbət etsəydi, yəqin ki, XX əsr olmasına şəkk yetirməzdi.

* * *

Şəkk yetirməzdi deyirəm, amma heç inanmaq istəmirəm. Çünki məlum olduğu üzrə, Mirzə cənabları çox mərd adamdırlar, kişidirlər. Kişinin də ki, sözü bir olur. Bu babətdən olaraq gərək bundan məyus olaq...

* * *

Məyus dedim yadıma yenə də «Tərcüman» düşdü. «Tərcüman» götürüb «Təkamül»ə bir cavab yazmış. Cavabında özünü bizə tərəqqixah tanıtdırmaq istiyor. Mən buna inanırdım, hərgah «Soxə»nin («Ülfət») 49-cu nömrəsi olmasaydı.

Mərzədə

*«Təkamül», № 4, 11 yanvar 1907*

## BAKI, 20 YANVAR

Hər yanda seçkilərə şüru edilib intixabçılar seçilmədədir. Hökumətin son hiylə və dosyesinə əhalinin seçki haqqını senat bəyannaməsinin qayçısı ilə kasib, ümumən, tərəqqipərvərləri, xüsusən sol firqələri müşkül bir halda qoymasına baxmayıb camaat yenə də öz əfkarını, öz amalını, amali-hürriyyətpərvəranə və inqilabcuyanəsini əldən vermiyor. Və bu məqsədinə çatmaq üçün canı-dildən əlləşib Dumaya öz vəkillərini göndərməklə hökumətə bildirmək istiyor ki, hələ inqilab odu sinələrdə atəşəfruz olub sönməyə üz tutmamışdır. Bəlkə, bir az da artıq olaraq irticanın (reaksiya) şiddətlənməsi inqilabın tiliyin oduna bir külək misalı olub, odu daha da yanmağa, şölələnməyə səbəb olmuşdur.

İştə hər tərəfdə icra edilən seçkilərin bir çox hürriyyətpərəst və zidd hökumətlərdən verdiyi seçkiçilər bu mətləbə bir aşkar dəlildir. Hətta qonşumuz olan Krasnovodskda heç kəs gözləmədiyi bir halda, dörd nəfər hürriyyətpərvər həqiqi ictimaiyyun-əmmiyyunların və iki nəfər də sürfəcu daşnaksütyun hürriyyətçilərin seçkiçi keçmələri oradan gedən vəkilin ictimaiyyun-əmmiyyun olmasını təmin ediyor.

Bakıda da bir neçə gündən sonra seçkilər olacaq. Bu seçkidə Bakı əhli göstərməlidir ki, onların da həyati-inqilabcuyanə və tərəqqipərvəranələri sönməyib, hökuməti-istibdadiyyə qarşı cihad etməyə müstəiddirlər. Bakı seçkilərində keçən də işarə etdiyimiz kimi üç firqə meydangir

olacaqdır: «Yer və ixtiyar» bloku, ictimaiyyun-ammiyyunlar və firqəsiz müsəlman bloku...

«Yer və ixtiyar» bloku ancaq seçkilər qabağınca meydana çıxan bir heyət olub, keçmişi məchul olan bir üzviyyətdir. Bəzi özlərini ictimaiyyun-ammiyyun adlandıranlar şəhərimizdə nəşr olunan «Bakinski dosuq» ruzinaməsində bunu sübut etməyə çalışırlar ki, «Yer və ixtiyar» heyəti hər halda ammiyyun bir firqə olub zidd hökumət və istibdaddır. Müsəlman bloku isə firqəsiz adlansa da, sağlardan olmasına şübhə yoxdur. Çünki bəzi müsəlman sərkarlarının təhti-idarəsində olub bətalətə giriftar olan bir camaətə nə hökm etsələr öylə də olacaqdır. Bu da məlumdur ki, məzkur sərkarlar hökumətə zidd olmayıb, onun yoldaşı və müttəfiqidirlər. Və bu əsasən istinadən Bakıda «sağ» qorxusu var deyə «Yer və ixtiyar» kimi «sollarla» mərvadəyə girməyi təklif edib özünü öldürür ki, bu qövl feliyyətə keçsin. Lakin zahirpərəst olan bu mühərrir «Yer və ixtiyar» maskası altında «daşnaksütyun» sinyorlarının gizləndiyini görmüyor. O biri tərəfdən də deyə biləriz ki, müsəlman blokunu «sağ»lardan hesab edib onu 17 oktyabr və «çenrus» firqələri bərabərində qoymaq da böyük bir səhvdir. Çünki həmin blokun bildir göndərdiyi vəkili Vıborq bəyənnaməsinə imza qoymaqdan çəkinmədi. Halonki, bildir Bakıda, əvvəla, indiki kimi müsəlmanlar arasında hissiyyat oyanmamışdı və saniyən «Yakor»çular da çalışıb vuruşurdular ki, öz adamlarını yollasınlar. Lakin mümkün olmadı. Bakı vəkili də «inqilabçı» çıxdı.

Bu mülahizələrdən «Bakinski dosuq»un heç bir ixtiyar və sənədi yoxdur ki, müsəlman blokunu «sağ» adlandırıb cürətini artıraraq tamam müsəlmanlara xuliqan demək dərəcəsinə də gəlsin.

Bu mülahizələrdən naşi Bakıda xuliqan keçməsindən vahimə edilməməlidir və buna görə də ictimaiyyun-ammiyyunların mərkəzi nöqtələri qət edən kimi ayrı dolanıb məchul-əlhal firqələrlə müqaviləyə girməklə özlərini ləkədar etməməlidirlər.

Mövsuq mənbələrdən bildiyimizə görə Bakıdan qaragüruhçu keçməyəcək və bu cəhətdən də ictimaiyyun-ammiyyun fəhlə firqəsinə müstəqil iş görüb heç bir tərəf ilə müqavilə bağlamaması əfsəl və əlzəmdir, zənn ediyoruz. Müstəqilən çalışmalıdır ki, ictimaiyyun-ammiyyun keçsin. Yox, bu mümkün olmaz isə «Yer və ixtiyar» ilə müsəlman blokunun arasında heç bir təfavüt yoxdur!

Təfavüt yoxdur, deyiriz. Zira, həqiqətən, millətçi olub üzünü dürlü-dürlü maskalar ilə örtən bir millətçinin, aşkara millətçilik edən ilə heç bir təfavütü olmasın gərək.

**Məhəmməd Əmin**
*«Təkamül». № 5, 20 yanvar 1907*



## TƏNQİDÇİLƏR

Bir şeyi: yazınımı, kitabımı, yaxud bir firqəni, bir heyəti tənqid edən kimsə gərək əvvəl, biləvvəl o yazıda, o kitabda bəhs edilən elmə, fənnə, əsasə bələdiyyəti olsun. Özü də az-maz deyil; kamalınca bələdiyyəti olsun, yainki bir firqəni tənqid edən gərək o firqənin əvvəl, biləvvəl əsasına bələdiyyət yetirsin. Sonra onun işlərini, yəni tutduğu əsaslara mütabiq və ya müxalif gördüyü işlərini kəşf və tərif eləsin.

Bu müqəddiməcikdən sonra müxtəsərcə bir digər müqəddimə iradını da lazımi bilib bir millət, bir camaat arasında olan heyəti, firqə və cəmiyyətlərin hərəsinin özünəməxsus əsası olmasını, özünə görə kargüzarlıq dairəsi varlığını və bu nöqtədən naşi gələcək izahatımız və cümlə iradətimizdən bu sərçeşmədən cari olmasını qareini-giram özləri görəcəklər.

Bir cəmiyyət təşkil olunur. Camaətin cəhalətə qərq olanlarını girdabi-zülmətdən qurtarmaq ümdə vəsilə sandığı maarifi nəşr etmək qəstilə özünə məqsədi-əsası olaraq nəşri-maarif yolunu ittixaz edib, bu yolda işləməyə şürü ediyor. Öz vəzifəsindən xaric olan camaəti zülm və istibdad qarşısına mühafizət etmək məramı ilə mücadilə dəstələrinin tərtib və tənziminə qarışmıyor. Yəni bu dairədə olaraq əlaniyyə iş görmiyor. Digər bir cəmiyyət camaət arasında bədəxlaqlıq və bədbihesablığı rəf etmək üçün meydana girir və bu vəzifəsini icraya qoymaq üçün teatro işinin tərəqqisi və milli musiqinin təkamülü yolunda hərgiz çalışmaz və çalışmağı lazım da deyil. Digər bir siyasi firqə hər bir şeydən əvvəl məmləkətin siyasətini təğyir vermək öz həmfkarlarının mərami-siyasiyyəsini icra etmək younda çalışır. Ona məqsəd əslini atıb füruat ilə məşğul olmaq yaraşmaz. Bir ağacı yıxmaq istəyən şəxsi kötüyə balta çaldıqda, kötüyü əldən buraxıb şax budağı qırmaq ilə dəfül-vəqt eləməz. Fəlakətzədəganə müavinət etmək qəsdi ilə bina olunan bir komitəyə acları unsuz, çörəksiz buraxıb məktəb güşadinə məşğul olmaq qəbihdir.

Xülasə bir fabrikada hər bir qisim işlərin zəhmətləri o fabrikanın işçiləri arasında təqsim olunan kimi, böyük bir fabrika şəbihi olan camaət işi də eləcə təqsim olunsa, gərək ki, ancaq bu yol ilə hər bir iş öz yerində yaxşı gedib tərəqqi edər.

Lakin nədən isə bəzi mütəşəxxisin[1] ki, tək özləri yoldaşları ilə istəsələr ki, Gəncə quberniyası fəlakətzədələrinə lazımınca ianə eləsinlər, qadir olduqları halda böylə bir mülahizədə bulunurlar ki, niyə bəzi firqəçilər özlərini əhli-hümmət adlandırırlar da, ibraza-hümmət edib, ianə komitəsi tərəfindən vəkil olaraq Zəngəzur zərərdidələrinin əzalarını

[1] mütəşəxxis – təşəxxüslü, görkəmli

təhqiq etmək üçün müfəttiş vəzifəsinə girmək istəmiyorlar? Nə qədər gülünc təsəvvür. Nə əndazədə xəbərsizlik!! Bu mütəşəxxisin nə bixəbərlikləri nə qədər təəccübəmiz olsa da, mühərrir vəzifəsini ifa edən, camaat işlərinin hər surətinə bələd olan Haşım bəy Vəzirovun «İrşad» cəridəsində «iş görənlərimiz»i etdiyi tənqid, onlara atdığı tənə, onlardan tələb etdiyi fədakarlıq bir daha əcəbəngizdir. Cənab Haşım bəy cümlə füqəra tərəfdarları olub, hürriyyət çağıranlara təklif ediyorlar ki, buyurun, məgər Zəngəzurda qırılanlar demokratlar deyil, məgər onlar füqəra silkinə mənsub deyillər? Və İrəvanda olanları bu bələdən qurtarın!

Haşım bəy cənabları özləri iş görənlərimizin ya ifrat və ya təfritindən[1] şikayət edir. Lakin özü də bu mərəzdən qurtara bilmiyor. Bir taqım qeyri-məzun firqələrin adını sayır ki, onların əzaları üçün hökumət göydə gəzir də əlinə düşmüyor. Və sonra bu xüsusi yadından çıxarıb özlərinin adlarını bir kartoçka üzərinə yazmaq ilə kifayətlənirlər kimi qeyri-səpkidə bir irad edir. Bir heyəti siyasi firqə adlandırır da, sonra ondan aclara kömək eləmək, məktəb açmaq, teatro qayırmaq kimi vəzifələrin də icrasını tələb ediyor.

Mühərrir cənablarının bu məqaləsi başdan-ayağa bir məntiqsizlikdən ibarət olduğu nə qədər bəid[2] olsa da, buraya «hümmət» adının idxali daha da bəiddir. Və bu bəidliyin nədən ibarət olmasını deməklə hörmətli müsənnifi heyrətləndirdik. Çefaidə ki, polisə şəraiti imkan vermiyor. Yəni bu halda hökuməti-istibdadiyyə bizim müsahibimizə köməkçi çıxıyor.

Tənqidçi həzrətləri hərgah Zəngəzura gedənlərə yaxın bələdiyyət yetirsəydi, yəqin ki, bu məqaləni yazmazdı...

Bəlkə, müşarül ileyhi[3] hər bir işdən bunu vacib bilib məhz buna xidmət etməyi müqəddəm saymaq istiyor. Öylə olanda lazım gəlir ki, cümlə ictimai işlər hamısı moquf olub, dəmirçi dəmirçiliyindən, teatroçu teatrosundan, mühərrir təhririndən, müəllim təlimindən, Haşım bəy də müvəqqət müdirliyindən əl çəkib Zəngəzura getsinlər... böyləmi?

**Rəsulzadə**
*«Təkamül», № 5, 20 yanvar 1907*

[1] **təfrid** – səhv, nöqsan
[2] **bəid** – qəribə

[1] **müşarül ileyhi** – yuxarıda göstərilən



## HƏR YANDAN

## SEÇKİÇİLƏR

1

A kişi, mən kimi seçim? Əgər durub qlasnılardan seçərəm, qorxuram ki, Dövlət duması da pulsuzluq bəlasına giriftar ola. Yox, əgər çinovnik filan seçim – onda da gərək ki, özümə bir ikiüzlü papaq zakaz eləyəm. Əgər sosialistlərə səs verim – onda da heç qeyrətim gəlmiyor ki, ağaların üzünə ağ olum. A kişi, nə olacaq mən ki, başı qapazlının biriyəm nəyimə gərəkdir belə-belə işlər. Qoy özgələr hər nə bilirlər eləsinlər.

2

Sən allah, bu da işdir. Gör nə günə qalmışıq ki, çolma-cocuqlar da durub seçkiyə qarışırlar. A canım, qoy Dumaya biz gedək. Bizim adamlarımız getsin ki, ləyaqətimiz də var, böyük adamlar ilə oturub dura bilərik. Vəzirlər, zadlar məclisə gələndə təzim eləməyin təhrini də bilirik. Fəhlə nədir, belə-belə məclislər nədir. Bizim təzə cavanlar da lap dəli olublar. Kişi pul məndə, güc məndə, məni qoyub, gör kimi seçmək istiyorlar. Fəhlə tərəfdarlarını...

Ax, ax... fəhlə yaxşı iş görən olsa, özün mənim zülmümdən qurtarar. Bir adam ki, mən ilə mənim qoçularım ilə bacarmır, vəzirlər ilə bacaracaq? Dumaya bizlərdən getməlidir ki, hamı işləri təkcə «mən ölüm» ilə aparsın. Lazım olanda rüşvət verməyə də qüvvəsi olsun.

3

Özümü cürbəcür rənglərə saldım, qisim-qisim örtüklərə bürütdüm ki, məni yaxşı adam bilsinlər. Amma yenə də örtüyü yırtdılar, altında daşnaksütyun olduğumu aləmə göstərdilər. Götürüb bir neçə adamlara ərk elədim ki, mənim tərəfdarım olsunlar. Onlar da, həyasızlıqlarına salıb, götürüb yazdılar ki, biz sizin üzünüzə tüpürmüşük. İndi isə onu yalamaq istəmiyoruz.

4

Keçən il Duma seçkisi olanda bir neçə kök qapaz yemişəm. Nəhayət, öz istədiyim adamı seçməyə məcbur olmuşam. İndi qapaz yesəm də, yeyəcəyəm, lakin hər qisim olsa da, öz istədiyimi seçəcəyəm. Kimin nə ixtiyarı ki, mənim qabağıma ağac qoysun. Amma işə baxanda «ayı bəd canavardır».

5

Sən allah, adam nə eləsin, hərəsi bir şəbədə ilə gəlir ki, nə var filan iş filan oldu. Bu kağızları mən nə edim, hər il də Duma olar? Bu nə, bizi lap təngə gətirdi. İndi dükanımı, alış-verişimi qoyub gedib bir-iki saat də məəttəl olacağam, nə var, nə var ki, mən Dumaya adam seçirəm. Cəhənnəm olsun Duma, belə gora olsun Duma!.. Hamıdan yaxşı belədir ha qollarını tullayıb seçki kuponlarını tikə-tikə eləyir və sonra iki ayaq ilə üstünə çıxıb tapdalayır.

Belədir bizim Bakı seçkiçilərinin müxtəlif üzvlərinin müxtəlif fikirləri.

**Mərzədə**

*«Təkamül», № 6, 27 yanvar 1907*

## CAVABA-CAVAB

«Tərcüman» qəzetəsi «Təkamül»ə cavab olaraq Bağçasarayda xuliqan müsəlmanların olması əsilsizdir – diyor və buna binaən «Təkamül»ün xatirini incitmək istəməyib, özünün nə iştirakiyyun tərəfdarı, nə də millətçilik dairəsindən xaric fəhlə tərəfdarı olmadığını bildirərək ümumi hürriyyətpərəst olduğunu mühafizəyə qalxışıyor. Hürriyyətpərəstləri biz qəlbən seviriz – diyor. Lakin biz bir dəqiqəliyə tutalım ki, «Tərcüman» hürriyyətpərəstdir. Qoy belə olsun. Onda bəs «Tərcüman»ın müdiri İsmayıl bəy cənablarının müsəlmanlar ittifaqi-mərkəziyyəsində söylədiyi «Ülfət»in qırx doqquzuncu nömrəsində dərc olunan bu nitqinə nə ad qoyalım?

«İsmayıl Mirzə Qaspirinski: proqramda avtonomiya var isə, bəzi məhkəmələrdə müsəlman lisanında hökm olsun demək varisə, mən ittifaqdan çıxıram. Lisana o qədər hüququ mən etibar etməzəm, səksən milyon rusdan qorxmaq lazım».

Budur, hürriyyətpərəst cənabın nitqi-əhararanə və təsəvvüri-tərəqqipərvəranəsi, budur, qoca ədibin, XIV əsr mühərririnin məişəti tanıyıb bilməsi, budur, «Tərcüman»ın siyasi əqidəsi. Nəhayət, budur onun həmişə qışqırdığı və bu kərə də işarə etdiyi millətçiliyi.

«Tərcüman» Bağçasarayda xuliqanların olmasını, «Təkamül»də oxuyub rədd ediyor. Lakin bu rəddiyyəni indi, dəri məsələsi araya gələndən sonra deyil rus qəzetələri yazanda çap eləməli idi. «Millətçilik» iddiasına düşüb də, millətin hüququnu vaxtında müdafiə, ona vurulan ləkələri mövqeində rəf etməli idi.

*«Təkamül», № 5, 20 yanvar 1907*



## BAKI, 3 FEVRAL

Biz öz əqidəmizin göstərdiyi həqiqi yollarından kənar çıxmadığımız üçün müqəddəs əsas və binalarımızın rəxnədar olmadığına inandığımızdan hər bir millətçilik asarına qarşı dururuz. Biz deyiriz ki, hürriyyət, azadlıq, gələcək səadət və rəfahət bir şəxsin işi olmadığı kimi bir millət, bir taifənin işi olmayıb, hamı insanların müttəhid, müttəfiq olaraq görəcəkləri bir əmri-əzimdir. Ona görə də «yalxu əldən səs gəlməz» zərbülməsələni ünvan edib, cümlə millətlərin füqəralarını ki, onları bir qisimdə olan övzayi-iqtisadiyyə və halati-ictimaiyyələri birləşdirib müttəfiq ediyor, çağırırız ki, birləşib, birlikdə əlbir olaraq dəhşətli bir sitvəti ilə üstlərinə düşən istibdad zəncirini qırsınlar. Və bu nöqteyi-nəzərdən olaraq, hər bir firqə, hər bir heyət ilə ki, bu əsasa ziddiyyət göstərib, bu binanın üstündə deyildir. Biz ümumi azadlıq naminə mühafizə ediyoruz.

İştə ictimaiyyun-ammiyyun tərəfdarı olub, seçkilərdə həmi müsəlman firqəsinə, həmi də daşnaksütyunlardan ibarət olan «Yer və ixtiyar» firqəsinə elan etdiyimiz cihad bu nöqteyi-nəzərdəndir.

Millətçi bir firqə özünün vüsətli məramnaməsilə bizə bir o qədər ağır deyildir, nə qədər ki, halı-hazırda Bakıda iş görən «müsəlman firqəsi».

Hərgah bu «müsəlman firqəsi» Nijni Novqorodda ictima edən «Müsəlmanlar ittifaqının» şöbəsi olsaydı, necə ki, bunu bəzi üzvləri iddia edir, necə ki, də bildirki buradan gedən Duma vəkilləri özünün «ittifaqi-müsliman» əzalarından olduğu ilə, bunu guya ki, göstərir, yenə dərd yarıdır, yenə də təskinlik verəcək bir şey idi.

Bu firqədən bir kəlmə söz eşitməyən əhali onun əsas və məramnaməsindən xəbəri olmayan camaət bu «müsəlman firqəsi»nin nə olduğunu bilirmi? Bir dəfə olsun məktubən və ya şifahən bu barədə camaətə bir söz deyilibmi??! Bir yol olsun bu firqənin məsləki və məramnaməsi və bu məramnamədə göstərilən məqsədlərə çatmaq üçün nə vasitələr ittixaz ediləcəyi xüsusda bir şey izhar edilibmi?

Xeyr, xeyr! Böylə işlər, bu qisim fədakarlıqlar, həqiqətən, camaət xatirəsinə işləyən bir firqənin, el naminə çalışan bir heyətin işidir. Adlarını «müsəlman firqəsi» qoyanlara isə camaətin bətalətindən kəsb-fürsət edib, öz ağalıqlarını sürməkdən, öz hökmlərini yeritməkdən başqa bir şey lazım deyildir! Onlara öz adamlarını keçirmək lazımdır. Camaətə bu barədə məsləhət eləmək, onları pişəzvaxt nə qisim adam göndərəcəklərindən xəbərdar etmək bir o qədər əhəmiyyətli işlərdən deyil. Onların Dumaya vəkil göndərməkləri müsəlman anasının oğluna aldığı gəlinin hekayəsinə bənziyor. Oğlunu evləndirir. Lakin kimə evlənməsini oğlu fəqət ziffaf gecəsi bilir. İndi Bakı əhalisi də Dumaya nə məsləkdə adam göndərdiklərini, fəqət bu adam Dumaya gedəndən sonra biləcəklər!

Qeyri firqələr ilə mücahidə edib meydandan faik çıxmaq üçün bu da bir vasitədir. Lakin çox təqsirli, nəhayət, qəbahətli bir vasitədir!

Qoy bu vəsilə və vasitə ilə iş görənlər, bunu qansınlar ki, onların belə bir fürsətbazlıqları həmişəlik deyildir! Qoy onlar bunu yaxşı qansınlar ki, bu il seçkilərdə edilən ğəlğəşlərə baxmayaraq, ictimaiyyunəmmiyyunlar aldıqları səslər onu göstərir ki, bətalətə giriftar olan külliyyət bu yavuq zamanda ayılıb özü-öz işini aparacaqdır, bir daxi ağalara fürsət verməklə öz hüququnu batırmayacaqdır!

M.Ə.

*«Təkamül», № 7, 3 fevral 1907*

## İRAN İŞLƏRİ

Bu axır zamanda İrandan gələn xəbərlər ora işlərinin pırtlaşıq olmasından xəbər verib, İranın bir həyəcani-inqilabçuyanə və hərəkati-ixtilalkaranə içində olduğundan xəbər veyanə və hərəkati-ixtilalkaranə içində olduğundan xəbər verirlər.

Hənuz vəliəhd ikən öz müstəbid və hökmpərəst olduğunu büruzə verən Məhəmmədəli şahın rəsmi-tac güzaridə millət vəkillərinə etdiyi kəmetinalığın, yəni cümlə İran camaatinin bir cüzidəsi, məzlum millətin seçilmiş olan vükəlayi-millətə etina etməyib onları öz zülmkarlıqları və cəlladlıqları sayəsində mənsəbdar olan sahibi-rütbələrdən əskik hesab edib, dəvət etməməsindən naşi, camaat həyəcana gəlib belə bir tədbirdə millət nümayəndələrini heysiyyətdən salmaq sui-qəsdini gördüyünü keçən nömrəmizdə teleqraf qismində dərc etmişdik.

Həqiqətən də, belə bir ələqəyə, bu cür kəmməhliliyə, bu əndazə etinasızlığa, bu qisim bir sui-qəsdə nə ad qoymalıdır? Bu qisim bir rəftar, bu əndazədə də ehtinasızlıq küll İran millətinin nümayəndələrinə edilən təhqir və təkdir deyilmidir?

Rəsmən nə qədər belə olsa da, həqiqət nöqteyi-nəzərindən millət vəkillərinin qədri-heysiyyəti o qədər alidir ki, belə bir oyunbazlıq məclisinə çağrılmamaqla onlar öz məqami-alilərindən millətin qəlb və dərunindən, camaat ümid və amalından zail olub düşməzlər, necə ki, də öz pişrovlarına edilən böylə bir etinasızlıqdan nifrətə gələn Tehran camaati millət məclisinə yığılıb, hökumətin böylə dəni işlərinə nisbətən irad edilən əhraranə nitqləri deyilib də, özünün seçdiyi məbuslar ilə yekdil və yekcəhət olub, onların arxasında durduğunu «rədd olsun xain vəzirlər», – deyə çığırdığı sözlər ilə sabit etmişdir.

Cahan şahın mütləqiyyət arzusu ilə millət vəkillərinə öyrətdiyi bu əvvəlinci nəzəri İran camaatində mövcud olan hissiyyati-inqilabçuyanəni cuşa gətirib onları «fədailər» dəstəsi tərtib verib müvəqqəti inqilab məclisləri təşkilinə sövq etmişdir. Bu həftə içində gələn teleqramların xəbər verdiklərindən anlaşılır ki, Tehranda, Şirazda, Təbrizdə məclislər düzlənib, hökumətə baxmayaraq özləri bilavasitə hərəkət edirlər. Bu məclislərdən biri Mərənd valisini tutdurub ağaca bağlatdırmışdır. Hökumət bu məclislər ilə müqabilə etməkdə qüvvəsizdir. «Fədai» dəstələrinin səfləri gün-gündən artıb məclislərin həqlərini mühafizə edirlər.



İranın bu məclisləri Rusiyada qurulan «Fəhlə vəkillərinin şuraları»nı bilaixtiyar yadavər edib insanı bəzi bir mülahizələrə salır.

Rusiya inqilabi-əzəminin dəst-pərvərdəsi olan İran hərəkati-hürriyyətpərvəranə, inqilab səadətçuyanəsi bir çox şeydə öz mürəbbisi Rusiyaya təqlid ediyorsa da, lakin özünün şəraiti-ictimaiyyə, siyasiyyə və ruhaniyyəsindən naşi bəzi işlərdə başqa nəticələr bağışlıyor. İran inqilabı «yanvarın doqquzuna» haiz olursa da, minlərlə fəhlənin qırılmasına, yüzlərcə balanın yetim qalmasına səbəb olmayıb. Fəqət 12 nəfər şühədanın qətli ilə məğzil-məram olur. İran inqilabçılarının boyunlarına kəfən salıb meydana çıxdıqda əllərində dağları dağıdan müdhiş bombaları yox isə də qarşılarına duran, hər bir insaniyyət və tərəhhümlərini kazarma üsuli-təbiətkaranəsi təhtində itirmiş biinsaf və bimürüvvət cəllad kazakları əyinlərinə şinel geyib, çiyinlərinə bafta tikdirmək ilə allanılıb camaatdan uzaq düşən, öz bacı və qardaşlarını, hətta ata və oğullarını öldürmək dərəcədə qəsavət[1] qılıb məhvə verən saldatları, din və imanı, İsa və Rəhmanı tullayıb çinovniklik cildinə girməklə camaatdan ayrılıb hökumət qulluqçusu olan ruhaniləri də görmüyorlar.

Bundan əlavə də İran inqilab məclisləri, Rusiya «Fəhlə vəkillərinin şurası»na qiyas edilməz. Ondan ötəri ki, Rusiyada məclislər təşkil olunanda, onları bir nöqtədə cəm edən millət məclisi (Dövlət duması) yox idi. İranda isə Tehran millət məclisi (parlamentosu) bu tazə təşkil olunan məclislərə mərkəz olub, onları müttəhid etməyə istedad göstərəcəkdir.

İştə bu nöqteyi-nəzərdən gözləmək olar ki, sapın və qeyridən ibarət olan cüzi bir «mərhəmətə» şamil olan Rusiya qoşunu kimi İranın sərbazları camaatin xahiş və istəyinin nəticəsi olan bu məclislərə əleyhən iş görməzlər, görsələr də qüvveyi-rabitə və mərkəziyyəyə dara olan bu inqilab məclislərinin qabağında dayanamazlar və bundan ötəri də İran müvəqqəti fədai məclisləri Rusiya «Fəhlə vəkillərinin şurası» kimi dağılıb istibdad və bürokrat idarəsinin çəngəlinə düşməz və bundan naşı da camaat qüvveyi-siyasiyyəsi birləşib öz vəkillərinin heysiyyətini, öz hüquqlarının qədrini gözləməyə hazırdakı bietina hökuməti məcbur

[1] qəsavət – rəhmsizlik, zülm

edirlər, vadar edirlər ki, hökmdarlar özlərinin bir zati-mütləq olduqlarını fəramuş edib camaat yanında heç yerində bir şey olmalarını boyunlarına alıb qəsb etdikləri mövqe və heyəti, onun həqiqi sahibi və tənha yiyəsi olan camaata versinlər.

Qoy bunu hökmdarlar qansınlar ki, camaat ilə camaatlik etmək olmaz!

Qoy bürokratlar bunu anlasınlar ki, camaat vəkillərinin qədri təckü-zarlıq məclisinə dəvət olunmaqda deyil, onlara kömək üçün qiyam edən camaat qədrdanlığı və haqşünaslığındadır.

**Məhəmməd Əmin**

**Bədət-təhrir:** *Axırıncı xəbərlərə nəzərən millət məclisinin tələbi olaraq post və gömrükat vəziri olan Naus və başqa iki vəzir qulluqlarından çıxarılmışdır. Və heyəti-vüzəranın millət məclisi qarşısında cavab-dəhəndəliyi tələb edilib məramə yetişilmişdir.

**M.Ə.**

*«Təkamül», № 7, 3 fevral 1907*

## NAGƏHAN BƏLA

*(Məişətdən bir səhifə)*

**Bakıda vaqe olan keyfiyyətdən bir pərdədir**

ƏFRADİ-ƏHLİ-MƏCLİS

1. Kəsb şöhrətü-nam etmiş Qurbanəli ağa
2. Fakültə qurtarıb imtiyaznamə almış bir abrazovannı müsəlman (diplomat)
3. Qurbanəli ağanın kontorşiki

Pərdə qalxır, nümayan[1] olur, ağanın kabinəsi, hər tərəfdən bahalı stul və mizlər düzülmüş, hündür bir pəncərənin qabağında vaz edilmiş stul üzərində Qurbanəli ağa ilə diplomat oturmuş.

Qurbanəli ağa *(üzünü diplomata tutub):* – Ah fələk, dünyada elmsizlikdən böyük bir dərd yoxdur. Kaş ki, mənim bu dövlətim ki başımdan aşır, olmayaydı, ancaq elm olaydı ki, hər bir şeyi özgədən xəbər almayaydım.

Diplomat: – Ağa niyə dilgir oluyorsunuz. Allaha şükür, elminiz olmasa da, fəhm və zəkavəti-xudadadınız o qədərdir ki, bir çox biz kimi diplomatlardan artıq olmasanız da, əskik deyilsiniz. Allaha şükür, sizin ayağınız biləni bəzi diplomatların başları da bilmiyor. Çox olur ki, insan oxumuş, tərbiyə almış olsun, lakin özü səfeh. Məsələ, indiki zamanə studentləri. Görürsən ağa, sizin kimi vücudların kölgəsində gedib təhsili-

* bədət-təhrir – yazdıqdan sonra

[1] nümayan – əyan, aşkar



kəmal etmiş, özünə bir abru[1] qazanmış, amma öz vəliyyi-nemətinin mənafeinə ziddiyyət göstəriyor, onu bəyənmiyor. Bu hələ o yanda dursun, millətə nə qədər zərər veriyorlar...

Qurbanəli ağa: – Nə buyurursunuz? Mən xərc çəkib təhsilə göndərdiyim studentlər qayıdıb məgər mənə bərəks gediyorlar, millətə zərər veriyorlar?!.

Diplomat: – Bəs nədir, ağa, müttəhid, müttəfiq bir milləti şöbələrə ayırmaq, partiya-partiya eləmək, bu millətə xəyanət deyil də nədir? Əşşi bunlar hələ o yanda dursun, çoxsu görürsən gedib sosialist olur, iddiası da budur ki, fəhlə gərək ağa olsun. Özü də deyir ki, cümlə aləmləri doyduran, geyindirən, dünyanın hər bir rifah və səadətini hazırlayan fəhlədir. Pəs niyə gərək tək-tək vücudlar keyfə baxsınlar. Minlər ilə fəhlələr işləsin, tək-tək xozeyinlər yesin, belə şey olmaz. Bu fasid əqidənin üstə öylə möhkəm də duruyorlar ki, Allah göstərməsin, çoxları çıxır ki, hər bir şan, ad və heysiyyətdən də görürsən əl çəkib öz əqidəsinin rəvacında işliyor.

Bu studentlərdən o gün bir neçəsini çağırıb nə qədər nəsihət etmişəm ki, böylə şey olmaz, siz qeyrilərə baxmayınız, onlar, bəlkə, dəli olublar, siz də özünüzü onlara müqəllid edib bu yolu getməyiniz. Əvəzində gör mənə nə cavab verirlər. Guya ki, küll Rusiya, bəlkə, cümlə Avropa divanə olub fəqət siz və həmfkarlarınız dünyada əqlin itirməmiş qalmısınız.

Qurbanəli ağa: – Əşi, nə olacaq cavan adamlardır. Təcrübə görməmişlər. Qoy hər nə deyirlər desinlər, bizə nə zərəri. Allahın bərəkətindən biz müsəlman sahibkarları iyirminci qərinədə xoşbəxtlərdən yaranmışıq. Cəmi aləm əgər sosialist olub müsəlman fəhləsinin arasında əqidə təbliğ edib zabastovkaya çağıralar, əminəm ki, heç kəs qulaq asmaz. Müsəlman fəhləsinin nə cürəti ola bilər ki, yerindən belə hərəkət eləsin. Sən bilməyirsən ki, bu müsəlman tayfası kazak-saldatdan necə qorxur! Bircə student-mutudetlərə uysunlar, zabastovka etsinlər, gör zabastovka nə tövr olar. Onlara bir toy tutdurum ki, qiyamətdə də özlərinə gəlməsinlər...

Əşi, təəccübdür bizim müsəlmanın işi, görürsən gəlir göynüyür ki, ağam fəqirəm, oxumaq istəyirəm tavanam yoxdur..., kömək ediyorsan, əlindən tutursan, xərcin çəkirsən ki, gedib oxusun, adam olsun. Lakin gedir gör axırda nə olur – sosialist! Virdi[2]-zəbani gör nə der: hürriyyət, müsavat, qardaşlıq!.. Ax, vay, ədə ay... illər ilə zəhmət çəkib qazandığım dövləti götürüm indi bir əbləhin biri ilə bölüşüm ki, nə var ki, müsavatdır, ağa sosialist böylə deyir...

Diplomat: – Bu günlərdə bizim həmin Bakıda bir tağım cavanlar vardır ki, özlərini fəhlə tərəfdaranı adlandırırlar. Guya, fikirləri budur

[1] abru – şərəf

[2] vird – eyni şeyi təkrarətmə

ki, müsəlman fəhləsi də zabastovka yolu ilə öz əhvalını *(istehza ilə)* yaxşılaşdırsın.

Qurbanəli ağa: *(hiddətli):* – Xub, mən məgər günah elədim ki, küçələrdə qalan adamlar üçün iş açdım ki, gəlib bir parça çörək yiyəsi olsunlar? Əşi, müsəlman cavanı bir dəstə olmasın ki, on dəstə olsun, yenə də müsəlman fəhləsi zabastovka eləməz. Əgər pir mənimdir kəramətini bilirəm *(döşünə döyür)*. Başına qapaz vururlar dinmir, durub indi məvacib üstə zabastovka edib haqqını istiyəcək. Vallahi biz pak xoşbəxt yaranmışıq. Nə zabastovka görürük, nə də başımız ağrıyor. Özgələr görürsən bizdən artıq məvacib verib fəhlə ilə yaxşı yola gedə-gedə yenə əmələləri zabastovka ediyorlar. Amma bizim fəhlələr işləyib, işləyib ay başında nəğd poluçka üç şahı, iki abbası çox olanda bir manat alır, onunla belə kəmali-sidq ilə xidmət edir. Zabastovka-mabastovka zad bilməz, başını aşağı salıb adam kimi işlər, hər nə desən baş üstə ağa, – deyib əməl də edər.

Diplomat: – Hər halda bu sosialistlərə mühib düşməndirlər, onlardan ehtiyatlı olmalıdır, Sədi deyir:

Dani-ke çeqoft Zal ba Rüstəme-qord.
Döşmən natavan həqir biçarc şomard.*

Qurbanəli ağa: – Əşi, bica ehtiyatdır ediyorsunuz. İnandırıram səni ki, əgər xuda nə kərdə mənim işimdə zabastovka zad olsa, cəmi sosialistləri Bakıdan köçürtməyə qadirəm.

Söz bura çatmış idi ki, nagəhan qapılar bir-birinə dəyib özgə bir halət ilə kontorşik içəri girib kəmali-pərişanlıq ilə salam verdi.

Qurbanəli ağa: – Nə var ədə, nə olub, əhvalın niyə pərişandır?
Kontorşik: – Böyük bir bəla üz veribdir ağa!
Qurbanəli ağa:– Necə, nə bəla, olmaya ədə, paraxod batıbdır?
Kontorşik: – Xeyr, daha bədtər.
Qurbanəli ağa: – Zavod yanıbmı? Pajar olubmu?
Kontorşik: – Bir daha pis!
Qurbanəli ağa: – Evin yıxılsın bir de görək axı!
Kontorşik: – Deməyə dilim varmıyor.

Qurbanəli ağa *(ayağa durub acıqlı):* – Pah atən ilə yeri! Qəribə insandır a... Ədə bir de görüm nə olubdur da!..

Diplomat: – Ədə zarafata salmısan nədir, kişi özünü itirdi, tez ol di xəbər ver, adamsan sən!

Qurbanəli ağa: – Ədə, deməyəcək idin bəs niyə gəldin... Lailəhə-illəllah... *(kontorşik sözünü deməmiş çıxır, çıxanda üzünü diplomata döndərib işarə ilə onu bayıra çağırır.)*

* Bilirsən ki, igid Rüstəm Zalə nə dedi, düşməni yazıq və biçarə saymaq olmaz



Qurbanəli ağa *(tək):* – İlahi, görəsən, nə xəbərdir. Yəqin, böyük bir müsibət üz veribdir ki, bu zalım baləsı deməyə ehtiyat ediyor ox!.. Ürəyim nə yaman xarab oldu! A... bəy zalım belə də xəbər gətirərlərmi?.. *(bixtiyar olub pəncərəyə söykənir. Bu vaxtda diplomat qayıdıb içəri daxil olur).*

Diplomat: – Ağa, ay ağa! Xof etməyiniz bir elə xəbər yoxdur. Fəhlələr gərək ki, tətil etmişlər, zabastovka!..

Qurbanəli ağa: – Bəy nə dedin, zabastovka?.. Nə, nə! Müsəlman fəhləsi də!.. Böylə də iş olarmı!.. Ey xuda, nə günlərə qaldıq!.. Cənab bəy! Siz doğruca ehtiyat edirmişsiniz, yerində imiş!.. *(üzünü qapıya tutub qışqırır)*. Ədə Nəsrullah, Nəsrullah. Telefonu general-qubernatorun eviylə birləşdir *(bu saat ağa, – deyə səs gəlir (Diplomata xitabən)*. Bu biz müsəlman sahibkarları üçün nagəhan bəladır, nagəhan bəla!!. Mən məlunəm əgər bir də bir uşaq oxutduram *(Deyib qapıya sarı gedir).*

*(Pərdə düşür)*

**Rəsulzadə**
*«Təkamül», № 7, 3 fevral 1907*

## RUS MƏTBUATI

Necə ki, məlumdur, Bakı seçkilərində üç firqə meydani-mücahidəyə girib, çalışmada idi ki, bu övzada Bakıdan qaragüruhçu keçməsindən qorxulunub bəzi məclislərdə ictimaiyyun-ammiyyunlar ilə «Yer və ixtiyar» ittifaqının birləşməsindən müzakirələr edildi və «Bakinski dosuq»un səhifələrində bu barədə ictimaiyyun-ammiyyun fəhlə firqəsinin ümumi şəhər ictimainin qətinə rəğmən əfkar sorulub bir nəfər «Vl. Ş.» tərəfindən «Firqəsiz müsəlman bloku» qaragüruhçu dərəcəsinə endirilərək, buna qarşı durmadan ötrü bu qətnamə tənqid edilib ictimaiyyun-ammiyyunlar «Yer və ixtiyarlar» ilə əlaqə bağlamağa çağrılır idilər. Vaxtında biz də bu barədə öz mülahizatımızı bəyan edib «Vl. Ş.»nın səhvlərini göstərmiş idik. İndi isə yenə həman «Bakinski dosuq»un 6-cı nömrəsində erməni ictimaiyyun-ammiyyun «M.Robert» tərəfindən «Vl. Ş.»ya etiraz olaraq dərc olunan bir məqalənin «daşnaksütyun»a dair yerlərini dərc eləmək ilə qərcinə göstərmək istiyoruz ki, ictimaiyyun-ammiyyun üçün millət filan yoxdur. Fəqət məzlumların haqqını himayə etmək, həqiqəti açıb aləmə bildirmək vardır.

Biz bu vaxta kimi daşnaksütyuna qəddar bir millətçiyə baxan kimi baxıb, onun irtica (reaksiya) nəfinə işlədiyini dəfəat ilə yazmışıq. Dəni millətçilik sayəsində öz insaf və insaniyyətlərini itirən daşnaksakanlara biz heç bir vaxt iniqilabçı deməməyimizlə bərabər onlardan geri qal-

mayan müsəlman millətçilərini də ermənilər arasında millətçilikdən ari olmaq mənası ilə «sosialist» yoxdur – deməlarini rədd və təkzib etmişiz. İşti bu dəfə də artıq olaraq yoldaş «M.Robert»in yazdığı məqalədə görülən daşnaksütyunun vəhşikaranə işlərini ənzari[1] ümumə qoyuruz:

«M.Robert» deyir:

«... üçüncü çastın seçkiçilərinin ədədi ki, «Vl. Ş.»nın məqaləsində göstərilibdir, deyir ki, ictimaiyyun-amiyyun tərəfindən rədd edilən ittifaq odur ki, öz məqsədinə çatsın, əgərçi özgə firqələr ilə bərabər bu ittifaqa (bloka) «daşnaksütyun» da girmiş olaydı. Doğrudur, «daşnaksütyun» özü-özlüyündə seçkilərdə meydana çıxmıyor. Lakin axırıncı modə ilə özünə tikdirmiş, əyninə lax gələn «Yer və ixtiyar» cübbəsi bu xüsusi hərgiz dəyişdirmiyor. Buna görə də Bakı ictimaiyyun-ammiyyunları qabağında belə bir məsələ durur ki, «daşnaksütyun» ilə istər aşkar, istər maskada olsun əlaqəyə girmək olar ya olmaz? Bu məsələyə isə, mənim nəzərimcə bircə cavab var: Yox, yox və yox! Bakıda «daşnaksütyun» ilə ittifaq bağlamaq cümlə seçki heyətinə milli bir surət verməyi göstərər idi. Böylə bir hərəkət göstərirdi ki, ictimaiyyun-ammiyyunlar ermənilər tərəfinə durub, müsəlmanların əleyhinə işləyir. İctimaiyyun-ammiyyun belə bir iş eləyə bilməz və ona görə də eləmədi.

Bu qətnamədə hamıdan artıq həqdar olan və hamıdan yaxşı işin nə yerdə olduğunu bilən erməni ictimaiyyun-ammiyyun firqəsi çalışdı ki, bu məsələ düz həll edilsin.

Odur ki, «Vl. Ş.» bizdən xəbər alsın: bizim böylə bir dərəcədə ciddi surətdə daşnaksütyunlar ilə ittifaqa girməmək barəsində məğlub olmağı da qəbul edərək çalışmamıza nə bir dəlilimiz, nə bir əsasımız vardır.

«Daşnaksütyun» firqəsinin cümlə o «ittihadi-əraminə», panermənizm dairəsində gördüyü işlərinə aşna olaq ki, onlardan bu firqə həmişə təbərra ediyor idi. Lakin bu axır zamanda bilkülliyyə[2] işarə olunub daşnaksakan mətbuatı ilə də qəbul edilmişdir. Fəqət bir-iki nömrə bu «firqə»nin rəsmi qəzetəsi olan «Droşak»ı ki Cenevrədə çıxır, oxuyun görün bir müsəlman kəndlərinə edilən hücumlar necə sevincək tərzdə yazılır. Yazıq müsəlman kəndçilərinin evlərini yandırmaq droşakistlər tərəfindən necə qəhrəmanlıq hesab edilir. Öz əfkarımı təsvir etməkdən ötrü bu qəzetədən bir neçə sətir iqtibas ediyoram. Baxınız «Droşak»ın 9-cu nömrəsində 2-ci Şuşa müqatiləsi barəsində nə oxuyuruz:

«Avqustun 16-da gecə qoşun və kazakların tərəfindən iki nəfər vəkil gedir Qoloşşapovun yanına və ona təklif ediyorlar ki, müsəlmanlara hücum etməyə izin versin. General bir təhər ilə onları sakit edir. Lakin qo-

[1] ənzar – nəzər

[2] bilkülliyə – bütövlükdə



şun yenə də gümanlanır ki, gecə saat dörddə müsəlmanlar üçün hazırlanan hücuma kömək eləsin. Saat 4 olur. Hər yerdə bizim qoşunun (daşnaksütyunun) top və ya bomba işarəsini gözləyirlər ki, hücuma başlasınlar. Amma məlum olur ki, qoşunlar öz qərarlarına müxalifət ediblər. Yenidən öz gücümüzə ümid bağlamağı qət ediyoruq».

Həmin bu xəbərin qeyri yerində deyilir: («Droşak» nömrə 9, səhifə 135) bu qisim dəstələrimiz (mətləb həriqçilər[1] – yandıranlar barəsindədir) hər bir məhəllələrdə var idi. O dəstələr qeyri təmənnüd və cəri[2] cavanlardan mütəşəkkil idilər ki, dolu kimi yağan güllələrin altında «düşmənin» səngərlərini odlayırdılar». Bədə deyilir: «Müsəlman hissəsində bir çox evlər yanmışdır (200-ə kimi ən fəqir və kasıb evlər yandırılmışdır ki, bu evlərin sahibləri başların götürüb qaçmış idilər. M.Robert). Yanğının meydan almasına neftin suya qarışıq olması manе oldu. Yanğı qabağında heç bir külək əsəri yox idi ki, bu da bir evi neçə dəfə yandırmağa məcbur ediyordu. Bu gecə də yanğınçılar dəstəsi çox böyük işlər görmüşdülər».

Bunu da demək lazımdır ki, bu məqalənin ünvanı altında «firqəmiz mənbələrindən» sözü yazılmışdır ki, bu da mətləbin iğraq[3] olmamasına aşkarca bir bürhandır. Şuşada «düşmənlər»in üstünə qoşun ilə bərabər şəbxünə[4] hazırlamaq «həman firqə yanğıçı dəstələrinin» işləri – budur bir az bundan irəli görülən işlərin surəti. Mənə derlər bəzi mülahizata görə ki, bu barədə artıq olaraq bir də danışmaq lazım deyil idi. Lakin mənim nəzərimcə şeyləri onların öz adları ilə çağırmaqdan heç vaxt qorxmamalıdır. Mərəzin əsl illətini tapıb, onu göstərmək azarı sağaltmaq üçün ümdə vəsilədir.

O böyük dastan və mətalibdən biz ancaq bir balacaca hissəsini dedik. Gələcək üçün mütərrix[5] bu dairədə çox şeylər yazacaqdır. Biz göstərdiyimiz həqiqətlər bəsdir ki, olardan bizim yoldaşlarımız bilsinlər ki, onlar daşnaksütyun ilə müttəfiq olduqda kim ilə yoldaş olasıdırlar. Mən burada müsəlmanlar tərəfindən görülən işləri demədim. Zira, bu barədə də çox yazılıbdır. Burada mən bunu fəqət göstəririəm ki, erməni-müsəlman müqatileyi-qəbihanəsi də yalxu müsəlman millətçiləri deyil, erməni millətçiləri də dərəceyi-əlada qəbahətlidirlər.

«Daşnaksütyun» sözü müsəlman külliyyəti üçün dava rükni[6] olmuşdur. Və onlar da öz məişətlərinə bir müsəlman «daşnaksütyunu» çağırmışlar.

Bizlərə bu, yainki o biri daşnaksütyun ilə, daha artıq birinə qoşulub o birinin əksinə getmək yaramaz. Biz gərək onlar ilə kəmali-ciddiyyət

[1] həriq – yanğın

[2] cəri – cürətli

[3] iğraq – mübaliğə

[4] şəbxünə – gecə basqını

[5] mütərrix – tarixçi

[6] rüknü – rəmzi

ilə müqabilə edək. Hər iki millətin aqilanə təsəvvür ilə gözlənən mənafei bunu təqdir ediyor ki, cümlə camaatda biz ilə bərabər bu və ya o biri «daşnaksütyun» rəfinə çalışaq. İstər erməni daşnaksütyunu ola, istər müsəlman.

İştə bu nöqteyi-nəzərdən ictimaiyyun-ammiyyun daşnaksütyun ilə, istər öz bayrağı altında olsun, istər ariyə edilmiş bir bayraq götürmüş olsun, əlaqəyə girə bilmədi. Bu əlaqə və ittifaq müsəlmanlara ziddiyyət göstərən bir sürətə düşüb, müsəlman camaatinin cümlə ünsürlərini milliyyət bayrağı təhtinə yığardı. Bu yol ilə biz bilaixtiyar hənuz bir azca sakit olmuş dar milliyyətçiliyə tərəqqi verdirib müsəlmanlar arasında yeni zahir olan beynəlmiləllik əfkarına mümaniət edərdiz».

İştə bir ləhzə mülahizə edilsin: budur ictimaiyyun-ammiyyunların ittifaqi-beynəlmiləli saxlamaq üçün gördükləri ehtiyatkarlıq, göstərdikləri fədakarlıqlar. Nə qədər ki, cümlə millətlərin külliyyəti, füqəra qismi bu müqəddəs olan əfkar və hissiyyat ilə tərbiyələnməmişlər, keçmiş illərdəki kimi ürək dağlayan vəqəələrə şahid olmamağımız təmin edilməz.

İndi hər iki millətin mücahidlərinə lazım gələn odur ki, cəngiku olan millətçiliyi bacardıqca məğlub edib ümuminsaniyyət və bəşəriyyət amalı və əfkarını camaat arasında ovsaf və sadə, hər bir hiylə və fitnədən mübərra olan camaat arasında möhkəmləşdirsinlər. Böylə bir mədəni zəhmət müsəlman və erməni camaatinin cümlə yaxşı hissəsinin, ümumən, ictimaiyyun-ammiyyunlarının isə xüsusən öhdələrinə vabəstədir. Haydı qardaşlar, bu yolda bir dəqiqə, bir anı təəmmül etməyib milliyyət ədavətini qalxızan daşnaksütyunların kökünü qazımaqda sabit qədəm olunuz!

*«Təkamül», № 7, 3 fevral 1907*

## İQNATYEVİN LAYİHƏSİ

Həmişə bürokratların səyi və çalışdıqları buna olubdur ki, camaati bacardıqca elm və mərifət nemətindən məhrum edib, onu qaranlıq və dəhşətdə saxlasınlar. Həmişə hökumətin ehtimami[1] bu yolda olubdur ki, camaati ya bilmərrə mərifətdən səlb[2] eləsin, yainki, ona məcbur olaraq mərifət verməli olsa da, öylə eləsin ki, camaat aldığı mərifətdən mənfəətbərdar olamasın. Camaati cəhalətdə saxlamaq, elm qapılarını onun üzünə bağlamaq və bu yol ilə onları haləti-ibtidaidə saxlayıb hər bir hiylə və vəsvəsədənaətkarasına alət etmək – həmişə hökumət kişilərinin qəsdi və fikri olmuşdur.

[1] ehtimami – qayğısı

[2] səlb – zorla əlindən alma, qarət etmə



Cənab bürokratlara öz şeytanətlərini yeritmək üçün ən əvvəl görüləcək hiylə, qurulacaq tədbir budur! Zira, elmsiz, biliksiz bir camaati hər bir qisim torlara salmaq mümkündür. Dünya və məfihadan xəbəri olmayan bir camaati asan toplayıb biri-birinin üstünə salmaq olur. Camaat nə qədər mərifətsiz olursa, bir o qədər onu təzyi etmək asandır. El cəhalət zülmətinə nə qədər aludə isə, bir o qədər də xabi-qəflətə uyub nuri-mədəniyyət və tərəqqini görəməz.

İştə hökumət özünün əsası olan bu qanuna həmə vaxt əməl edib, həmə vaxt bu fikrin nəşrində olmuşdur.

Rusiyanın kəndlərində məktəb və mədrəsə əvəzinə keyfxanələr açıb xalqi piyanlıq etməyə təşviq edib qeyri xristian millətlərinin qabaqda gedənlərini aşkara bir qanun ilə, geridə qalanlarını misyonerlik üsulu üzrə açılmış məktəblərin proqramı bərəkətindən təhsili-elm və mərifətdən məhrum etmişdir.

Rusiyada sükna[1] edib hər bir cəhətcə qeyri xristian əhalisinə nisbətən bir dərəcədə xərc və töycü verən millətləri, o cümlədən müsəlmanları xristianlar üçün açılan şkollardan məmnu[2] etmişdir. Yəhudilərin zəkavət və huşyarlıqlarının qarşısına bir sədd olaraq prosent qaydasını məktəblərə daxil edib müsəlmanlara da bəzi «mülahizatdan» naşi rus-müsəlman, rus-qırğız, rus-qaysaq və bu kimi məktəblərdən başqa camaatin özü istədiyi üsul üzrə məktəb açmağa izin vermiyor.

Bu «mülahizələr» bir çox zaman örtülü idi. Həmin bu «mülahizələr»in nəticəsi olaraq hər bir mədəni hərəkətlər ki, müsəlmanlar arasında görünüyordu, bir günahi-kəbirə hesab edilib həmişə böylə işlərə dair müsəlmanlar tərəfindən verilən ərizələr göy mahutlar altında yatır idi.

Qafqaz müsəlmanlarının bu axır illərdə cünbuşə gələn mədəniyyətlərinin tarixinə baxılırsa həmin «mülahizələr»dən bir çox qəzetə, məktəb, qiraətxana, məclisi-xeyriyyə və qeyri təsisati-mədəniyyə ərizələrinin 17 oktyabr gurultusuna qədər mahutlar altında gizlənməsi əvvəl nəzərdə, oktyabrdan sonra isə ikinci, üçüncü baxışda görülüb ərzi-vücud ediyor.

Bu «mülahizələr» Rusiyada sakin olan qeyri millətləri ruslaşdırmaq yolunda çalışan bürokratların ən mücahidi olub, bu yavuq zamanda bir nəfər sosialist tərəfindən öldürülən qraf İqnatyevin Dövlət dumasına verilmək üçün hazırladığı layihədən anlaşılıb, bürokratların nə cürə vücud olmalarında daxi şəkk və şübhə qoymamışdır.

Bu layihədə müsəlmanları böylə bir hüquqsuz halda saxlamaq üçün onların boynuna iki qisim təqsir yüklənmişdir. Bunların əvvəlincisi müsəlmanların vodka içməyib, bununla xəzinəyə hər ildə 70 milyon zərər verməkləri, ikincisi isə «xristianlara əleyhən bir fikrə aludə» olmalarıdır!

[1] sükna – sakin olma

[2] məmnu – qadağan olunmuş

İqnatyev öz layihəsində «xəzinəyə nə yol ilə camaatın səadətiləmi və ya nükbətiləmi pul gəlməsi çox da əhəmiyyətli işlərdən biri deyil. Hökumətə fəqət «xəzinəyə nə yol ilə pul gəlir və xəzinədə ona nisbətən, o tövr xərcləyir»i nəzərə almaq lazımdır, – deyir.

İqnatyev ürəyində tutduğu fikrini öz dili ilə alaraq belə bəyan edir. Bu bəyan nə qədər bürokratlara layiq bir bəyan və təsəvvür olsa da, onu insan dilinə tərcümə elədikdə ondan başqa bir məna da çıxır ki, o da piyanskə-millətə elm versən də bir o qədər qorxulu deyil, lakin içkiçi olmayan bir camaatın gözünü açıb onun əqlini işıqlandırmaq hökumət üçün özbaşına hökm sürən bürokratlar üçün böyük bir ədu[1], böyük bir həlakətdir. Ona görə də lazımdır ki, böylə bir millətə elm verməkdən əvvəl piyaniskəliyə təşviq etmək ki, o da hazırdakı misyoner şkolalarının vücudu ilə müyəssərdir.

O ki qaldı müsəlmanların xristianlar əleyhinə nəşri-əfkar etmələri, o da bizim bəzi «rəislərimizin» müsəlman milləti başdan ayağa hökumətpərəstdir – dedikləri kimi bir təsəvvürü-səfihanədən başqa bir şey deyildir.

İndi qoy bizim ərizəçilərimiz bilsinlər ki, yalvarmaq, yaxarmaq, kağızları qaralayıb divanxanaləri gəzmək ilə bizim dərdimizə (çarə olmaz), tənha bir çarə varsa, o da əleyhidar olmaq, inqilaba təvəssül etməkdədir.

Görünür ki, İqnatyevin böylə bir layihə düzəltməsində hökumət firqələrinin fəthinə inanıb, ikinci Dumanın sağ olmasına arxalanıbmış. İndiki intixabları görəcək olurdusa, yəqin ki, bu layihəyi də qeyri ərizələr kimi məhud altına qoymuşdu.

Qareini-giram* xahiş edərlərsə həmin nömrəmizdə «Mətbuat» qismində bu layihənin əslindən iqtibas edilən yerlərini oxuyarlar.

**M.Əmin**
*«Təkamül», № 8, 11 fevral 1907*

## HƏR YANDAN

«A kişi, mən axı sizə dedim ki, bu solu seçməyiniz! İndi nə olsun bunu seçdiniz, deyiniz görək ki, a... padşaha nə cavab verəcəksiniz. Deməz ki a... mən ixtiyar verdim ki sağ seçəsiniz, siz niyə sol seçdiniz. Onda nə cavab verərsiniz». Belə bir hiddətli söz ilə, bir nəfər dünyagörmüş kişi seçkiçiləri məzəmmətliyor idi.

Cavabında bir nəfər ona təsəlli vermək üçün dedi ki, «götür sən də bir teleqram vur ki, biz müsəlman camaatı böygümüzdən tutub ta beşikdəki uşağımızacan hamımız hökumətin qolu bağlı quluyuq. Nə qədər qapaz varsa yükləyin gəlsin, heç uf da deməsik ki, xatiriniz incisin».

[1] ədu – düşmən

* qareini-giram – hörmətli oxucular



Dünyagörmüş kişi də ki, təzəcə dünyaya gəlmişdi böylə gözəl məsləhətdən baş qaçırmadı.

* * *

Gözəl məsləhətlərdən gözəli, lap gözəlrəqi İqnatyevin müsəlmanlara elədiyi təklifidir. İqnatyev deyir ki, müsəlmanlar məktəb istəyirlərsə, araq içməlidirlər. Yoxsa piyaniskə olmayan millətə mərifət versək başımıza bəla olar. Amma bəziləri deyirlər ki, İqnatyev səhv edir. Müsəlmanlar ixtiyar olacaq dərəcə piyaniskəliyə aludədirlər. İnanmırsa gəlsin bizim klublara, görsün nə vurhavurdur.

Bir vurhavurdur ki, ibtidai şkola nədir, lap darülfünun almağa layiqdirlər!..

* * *

Bu söhbət araya gələndən sonra mən başa düşürəm ki, niyə bəs bizim kəndlərdə şkola yoxdur. İndi hər kəs istəyirsə ki, şkolası olsun qabaqca gərək bir şərabxanadan zaddan düzəltsin ki, sonra hökumət arxayın olsun şkola açmağa izin versin.

* * *

Həmişə şkola deyəndə yadıma bir şey düşür. Təəccübdür bu Qori Seminariyasının işi, hər kəs oraya uçitel olur, sonra ya gərək şeyxülislam ola, ya müfti. Məsələn, indiki şeyxülislam ora uçitellərindəndir. İndi də söz buraxıblar ki, müfti çıxacaq onun yerində seminariya müəllimi Rəşid bəy Əfəndiyev müfti olacaqdır.

Ay dünya... belə də iş olarmı!.. Uçiteldən müfti olar? Bəs nədən?..

* * *

Uçiteldən müfti olmaz o vilayətdə ki, hacıdan general, generaldan da maarif vəziri olmaya, zamani ki, bunlar olur – o da olur, olanda nə bir eybi var. Məsəldir deyirlər: «Hələ ciciniz olmasaydı bəbəciniz də olmazdı».

* * *

Qarabağda axırıncı iğtişaş olmasaydı, general Qoloşşapov da dilsiz qalmazdı. Odur indi Bakıdan teleqraf gedir ki, müsəlmanlar hamısı hökumət adamlarıdır: «qocalardan tutmuş təzə məktəblərin yetirmiş olduğu növcavanlaradək zat imperatora və vətənə sadiq və saf xadimlərdir». Yazıq Qoloşşapovun dili yoxdur ki, desin, a canım, budurmu sədaqət ki, məni lal eləmisiniz?..

* * *

Lal dedim yadıma bir kar düşdü. Kar dedim, yadıma bir kor düşdü. Hə... bu kar, kor, lal ilə əlləşirdim ki, bir də gördüm qalmışam avara, belə avara ki heç tayı tapılmaz, hətta bizim «avara»dan avara.

* * *

Bu avaraçılıqdan sonra bir neçə kəlmə də təzə vəkillərdən danışaq: İsmayıl Tağıyev necə ki, gözləmək olardı deyirlər ki, sağ kadetdir. Bu hərgah Dumada durub danışsa, yəqin ki, atası ilə araları dəyəcəkdir. O biri Mustafa Mahmudov əgər müəllimlər syezdini yadından çıxarsa, çox yaxşı olar, yəqin ki, çıxardacaqdır. Çünki oraya möhtərəm hacılar gəlməyəcəkdir.

Zeynalova biz indidən deyirik ki, baltavi itilə! Necə ki, fikrində var, belə lap dibindən vurub hökumət ağacını yıx! Onu, yəqin, özün bilirsən ki, bu ağac yıxılsa kimin başına düşəcəkdir...

**Mərzadə**

*«Təkamül», № 8, 11 fevral 1907*

## RUS MƏTBUATI

### «BÜROKRATİYA VƏ MÜSƏLMAN MƏKTƏBLƏRİ»

Bu ünvan təhtində «Tovariş» qəzetəsinin 178-ci nömrəsində Dövlət dumasının həllinə verilmək üçün hökumət komisyonları tərəfindən tərtib verilən layihələr cümləsində öz misyonerliyi və ruslaşdırmaq politikasının ən namidar qəhrəmanı olduğu ilə məşhur olan məqtul[1] İqnatyevin bürokratları təsvir edəcək, fəqət müstəbidlərə, şeytan fikirli dövlət kişilərinə layiq bir layihəsi dərc edilmişdir ki, bu layihənin layiqi-ətinə və intibah yerlərini dərc edib bu xüsusda öz əfkarımızı bəyan ediyoruz.

«Tovariş» qəzetəsi öz məqaləsində bu layihəyə dair bəyani-əfkar edib deyir ki:

«... Layihənin müsəlman məktəblərinə dair yerində verilən «mülahizələr» qayət mübindir ki, burada ap-aşkara belə bir fikrə irad edilir:

«Hökumət heç bir vəclə borclu deyil ki, müsəlmanların mərifəti yolunda çalışsın, zira müsəlmanlar vodka içməyib və bununla xəzinəyə hər ildə 70 milyon zərər verirlər». Bu qisimdən sonra qəzetə layihənin özündən iqtibas ediyor:

«Müsəlman cəmiyyətlərindən biri – Orenburq müftiliyi, qırğız qaysaqlar və qeyriləri deyirlər ki, müsəlman şkolaları və şəriət müəllimləri gərək müsəlman camaatinin ümumi bedehlərinin[2] hesabına saxlansın. Qeyriləri diyor ki, müsəlmanların məktəblərinin özünə və onların heyətinə gərək hökumət xəzinəsindən və ya Zemski xəzinələrindən xərc edilsin. Bu xahiş, bu mülahizədən naşidir ki, müsəlmanlar da imperiyanın qeyri təbəələri kimi töycü və bedeh verirlər və ona görə də padşahlıq xəzinəsi gərək lazım gələn miqdarı müsəlman cavanlarının tərbiyəsinə sərfi-vücuhat eləsin. Bu xüsusda müsəlmanlar səhvdədirlər ki, guya, onlar da xristianlar qərarında xəzinəyə xərc verirlər.

«Müsəlmanlar öz şəriət qanunlarına mütabiətən piyanedici içkilər işlətmiyorlar ki, bunu da aşkardır ki, heç bir xristian onlara mənəvi bir nəqs hesab etməz. Lakin bununla belə, burası var ki, *bu təriqilə müsəlmanların sərvəti-ümumiləri hər ildə 70 milyon manat qərarında dövlətləşir*, padşahlıq xəzinəsinə isə heç bir təfavüt eləmir ki, hansı vasitə ilə onun bedehçiləri məbləği-məlumi xəzinəyə yetirirlər. Xəzinəyə fəqət öz daxilatına nisbətən xaricatını təlbiq etmək lazım gəlir.

«Hərgah öz mədaxilinin gələn yollarına diqqət yetirməyib xristian əhalisindən aldığı on milyonlarca pulları müsəlmanların ehtiyacatına xərcləsə, xəzinə çox böyük bir səhv eləmiş olur». Bədə mülahizələrdə göstərilir ki, müsəlman məktəblərinə himayə eləmək bir də o babətdən yaramaz ki, müsəlmanlar «xristian dininə əks olan fikirlər nəşr ediyorlar». Və bundan başqa da öylə fikirlər nəşr ediyorlar ki, «cümlə mərifətli dünyanın qəbul etdikləri əsasa müğayirdir».

İqnatyevin bu mülahizatında böylə bir köməksizlikdən qurtarmaq üçün müsəlmanlara bir vəsilə təklif edilir ki, o da ruslaşmaqdır. «Bu xüsusə məzkur «mülahizatda» müəyyən imarə[1] və işarələr vardır: «Xudbə xud[2] məlumdur ki, məktəbləri rus dili ilə, yainki qarışıq olaraq rus-müsəlman, rus-başqırd, rus-qırğız və qeyriləri ilə ümummaarif proqramı dairəsində ki lazım ola hökumət amirləri tərəfindən tərtib tapmışdır ki, külli ixtiyarı var ki, hökumət tərəfindən saxlanılsın və bu barədə hökumət heç bir vaxt bu üsulda olan «məktəblərə təxsisat buraxmağa xəsasət[3] etməyəcəkdir».

Layihənin iqtibas olunan bu yerlərini dərc edəndən sonra qəzetə atidəki vəchilə öz məqaləsinə xatimə çəkiyor:

«Bu vəchlə müsəlmanlar özlərinə «haqq» almaq istiyorlarsa gərək şəriətlərini tapdasınlar və yainki mövcud olan ruslaşdırmaq əsası üzrə binalanan məktəblərə qənaət etsinlər. Və bu yol ilə, bəlkə, qarışıb içki içməyə adət etsinlər ki, dəxi xəzinəni dağıtmayıb hər il ona 70 milyon zərər vurmasınlar».

İştə budur bürokratların tutduğu işlər! Budur onların xəzinəni saxlamaq yolunda gördükləri fədakarlıqlar! Budur müsəlmanlar sədaqəti əvəzinə verilən mükafatlar!

*«Təkamül», № 8, 11 fevral 1907*

---

[1] **məqtul** – qətl edilmiş
[2] **bedeh** – vergi

[1] **imə** – əlamət, işarə, sözaltma
[2] **xud** – həqiqətən, doğrudan da
[3] **xəsasət** – xəsislik

## İBRƏT ALMALI

İbrət almalı ki, zaman insanların əfkarını nə tez dəyişdirir. Bir il içində nə böyük təbəddülat görünür. Keçən il Tiflisdə müsəlmanlar rus patriot firqəsinin vəkillərindən olan Hüseyn bəy Yadigarovla müəllim Baxşəli bəy Məhərrəmbəyovu öz tərəflərindən vəkil intixab etdilər. Bu il isə 960 səsdən ancaq bir səs o cənablara çıxıb. Şəkk yox ki, o bircə səsi də salan yenə özləridir. Bir il ərzindəki təbəddülata baxınız ki, keçən ilki xuliqan vəkilləri bu il müsəlmanlar «baykot» edib, onlar ilə danışmaq belə istəmiyorlar. Təəssüf ki, müsəlmanların bu ittifaqlarına müqabil Hüseyn bəy Yadigarovla Baxşəli bəy Məhərrəmbəyov rus patriot dəstəsindən əl çəkməyib özlərini biabır və cümlə müsəlmanları töhmət altına salırlar. Bununla belə, ibrət almalı ki, müsəlmanlar həqiqət nə tez oyanıb bir il ərzində bu qədər dəyişiblər.

*«Təkamül», № 8, 11 fevral 1907*

## BAKI, 17 FEVRAL

Üç gündən sonra Duma açılacaqdır! Üç gündən sonra «islahpərvər» vəzirin hərbi məhkəmələri, həbsi, nəfyi qərardadişədidəsi və qeyri mütəcavüzkaranə işləri təhtində xuliqan firqələrinin hədə və vəhşətləri arasında Dövlət duması yenə yığılıb Tavriçeski sarayında açılır.

Hürriyyət mücahidlərinin səadəti-ümumi yolunda yan-yana söynən təni-müqəddəsləri üzərindən keçərək millət vəkilləri yenə Peterburqa varıb camaat ehtiyacatını, el tələblərini, onu təzyiq edən cəlladlara yetirib hökumət başından rədd olmalarını istəyəcəklərdir.

Hökumət bildirki Dumanı qovduqda xəyal edirdi ki, stolıpinlərin «asayişkaranə» politikaları əhalini sağlaşdırıb ya budur ki, Dumanı bilmərrə yadlarından çıxararlar. Yainki, Duma yığılsa da, qabaqkı kimi inqilabçuyanə deyil, təbəiyyətkaranə olacaqdır.

Lakin heyhat, hökumət böyük bir səhvə düçar olaraq, heyətlə bildirkindən daha da sol olan Dumaya giriftar oldu.

Nə senat bəyannamələri, nə hərbi məhkəmələri, nə cəza dəstələri, nə züluslara (Afrika vəhşiləri) layiq insaniyyətsizliklər, heç bir şeyi camaatin, elin amal və məqsədinə, məqsədi-insaniyyətpərvəranəsinə sədd ola bilmədi. Camaat öz sözünü, öz səmimi sözünü dedi.

«İnqilab sözünü bizim sinəmizdə saxlayan, onu mühafizə edən səmimiyyətdir ki, ona nə güllə, nə xəncər, nə top, nə tüfəng – heç bir şey batammaz», – deyə camaat özünün hər bir dəqiqədə mütləqiyyət ilə cəhadə amadə olmasını fevralın 6-da uca bir səs ilə küll aləmin səminə[1] yetirdi.

[1] səm – qulaq asma, eşitmə



Camaat öz seçkiləri ilə bu ayın 6-da cümlə bürokratlara qəti bir mübarizə elan edib özünün davaya hazır olduğunu bildirdi.

Təbiidir ki, hökumət də gələcəyin çarəsini indidən görüyor. Təbiidir ki, bildirki Dumanı qovan hökumət bu ilkinə də təcavüz etməkdən çəkinməyəcəkdir!!

Lakin bu dəfə camaatin başqa bir vəzifə icra edəcəyi də aşkardır!

Camaat razı olmayacaqdır ki, onun Dumasını öldürsünlər. Camaat qoymayacaqdır ki, bir dəxi o, bir gün də olsa Dumasız qalsın. Camaat Dumanın təbdilinə, özündən əli bir idarə tədbilinə razı olar, lakin qovulmasına bir dəqiqə olsun, səbir edəməz. Zira, bildirki təcrübə ona bildirmişdir ki, məmləkəti həlakətə çəkən Dumanın «inqilabçılığı» deyil, hökumətin özü, yenə hökumətin özüdür.

Vətəndaşlar! Duma açılır, siz də gərək bu dumanın dairəsində birləşib üzvüyyətləşəsiniz!

Duma çox böyükdür, çox qüvvətlidir, hərgah onun dalında müttəhiq və müttəfiq camaat durmuş ola.

Duma bədəndir, camaat onun ruhu! Bədənə ruh verməlidir, vətəndaşlar! Duma bir idarədir ki, onun vasitəsilə camaat tamam ixtiyarlı el məclisinə müvəffəq ola bilər.

Duma intihayi-amal deyildir. Lakin ona yetməyə bir alətdir!

Duma həqiqi camaat nümayəndəsi deyildir. Lakin onun vasitəsi ilə həqiqi camaat nümayəndəliyinə çatmaq olar!

Hazırlaşınız vətəndaşlar! Çünki hökumət hazırlaşır. Belə bir vaxtda qəflət yaramaz, indi iş görmək zamanıdır!

Haydı vətəndaşlar. İttihadə – el nümayəndəsi ilə elin ittihadına san yeriyiniz!

Yaşasın camaat vəkillərinin camaat ilə ittihadı!

Yaşasın tamam ixtiyarlı Dövlət duması!!

**M.Əmin**

*«Təkamül», № 9, 17 fevral 1907*

## İRAN İŞLƏRİ

### AXIRINCI VAQİƏLƏR

İranın işi gəldikcə kəsb-xaməi etmədədir! İran camaati hüququnu qanıb, onun yolunda canını verməyə hazırlaşıb imiş! İrandan gələn xüsusi xəbərlər bu günlər içində İran daxilində görülən böyük bir tarixi əqdlərin həll olunmasından, camaat qiyam həyəcanından xəbər verib insani heyrətləndirmədədir!

Əsası və kökü çürümüş İran istibdadı axırıncı nəfəsində olaraq möhlik[1] yara almış əjdaha kimi qorulub çabalamaqdadır! El qəhr və qəzəbinə

[1] möhlik – öldürücü

giriftar olan bu əjdahayi-mühib[1] özünün bilmərrə fövt olmasından qorxub, özünü bu meydani-girüdardan[2] qurtarmaq yolunda baş qalxızıb quyruq fırlatmadadır!

Vəliəhd olduğu zamanında beçəbazlıq və keyfbazlığa məşğul olan cavan müstəbid özünü birzati-mütləq hesab etdiyindən qanun əsası və məşrutəni danmaq istəyib «belə güzəştlər edərsəm qorxuram ki, axırda məndən cümhuriyyət istəyəsiniz», – deyə camaət vəkillərini ona özünün məşrutəli bir hökmdar olmasını iqrar etmək yolunda etdiyi təklifə nəhy[3] cavabı vermişdir.

Cürət bəhəm eləyib belə bir şiddətli müqabilədə durmaq, Rusiya və ingilis səfirlərinin əğvasına[4] və vədlərinə uyub camaət ilə mücahilə[5] ucuz tamam olmayıb əleyhinə müntəzəm bir mücadilə firqəsinin çıxmasına bais olmuşdur. Xaricə qəzetlərinin yazdığına və xüsusi mənbələrdən aldığımız xəbərlərə baxılırsa, millət məclisinin mötədil üzvləri olmasa imişlər, böyük bir inqilabın zühuru ilə təxti-səltənətin taraca getmək qorxusu var imiş.

Ətrafda olan vəzirlərin vəsvəsəsi, ərbab və sahibi-şövkətlərin dəğdəğəsi[6], mülkədar və xanların intriqası, rus və ingilis səfirlərinin əğvası və özünün təbii olan hökmpərəstliyi ilə bərabər politika dairəsində imtəhan eləmədiyi təcrübəsizliyi Məhəmmədəli şahın öz əfal və hərəkati-dürüştkaranəsi və hakimiyyətpərəstanəsi ucundan elə bir məqamə çatdırmışdır ki, onun əleyhinə yalxu bir Tehran əhli deyil, küll İran demək olmasa da, küll Azərbaycan qalxmışdır.

Azərbaycanın mərkəzi olan Təbrizdə həmin bu nöqtədən, yəni şahın gəncliyindən həyəcana gələn camaət tuğyan edib böyük bir ğələyan içindədir. Təbriz hökuməti inqilabiyyunlar tərəfindən əzl edilib, cəzaya giriftar edilmişdir. Cəbbəxanə əhali əlinə keçib asilərin ixtiyarındadır.

İnqilab burada özünün adi olan qurbanlarından xali olmayıb 14 nəfərin qətl olunması ilə nəticələnmişdir. İran inqilabında Tehrandan keçəndən sonra özü əvvəlinci ad çıxarıb, böyük və mühüm təşəbbüsatı ilə məşhur olan Təbriz əhalisinin hissiyyati-intiqamçuyanələri o dərəcəyə çatıbdır ki, «hərgah hökumət millət məclisinin tələblərini qəbul eləməsə özümüzə «müvəqqəti bir hökumət» seçəcəyiz», – deyə inqilab ilə nəfəs alıb xəldən[7] dəm vuruyor.

İran hürriyyət işində ağayi Təbatəbailər kimi can fəda edən ruhanilər olduğu kimi bəzi adlarını alim qoyub, özləri sahibi-sərvət və mal olduqlarından naşi təbii istibdad və mütləqiyyət tərəfdarı olan alimnümalar

[1] **mühib** – qorxudulmuş, hürkmüş
[2] **girüdar** – çarpışma
[3] **nəhy** – qadağan
[4] **əğva** – qüvvətli, möhkəm
[5] **mücahilə** – etina etməmək
[6] **dəğdəğə** – qıcıqlandırma
[7] **xəldən** – taxtdan salma



də az deyildir. Xoşbəxtlik buradadır ki, qədrşünas olan əhali əvvəlincilər kimi camaət fədailərinin qədrini bildiyi halda, axırıncıların da cəzasını yaxşıca düşünüb onları layiq olduqları vəsilələr ilə cəzalandırıyorlar. Bu mətləbi aşkar göstərmək üçün Ərdəbildə vaqe olan bir nəfər məşrutə və ədalət düşməni «müctəhid»in xaneyi zülmətpəsəndanəsinin şuriş edən əhali tərəfindən atılan bir bomba vasitəsilə darmadağın edilməsini göstərmək olar.

Xülasə, bu günlər Azərbaycan bir atəşi-inqilab və ixtilal içində yanıb-yaxılmaqdadır. Bu günlər İranda böyük bir mərəkə qurulub cəhl ilə əql güləşməkdədir. Bir tərəfdə kökü çürümüş İran istibdadı durub, özünün bugünkü axır nəfəsini asanlıqla buraxmaq istəməyib qərq olan şəxs çör-çöpə pənah aparan kimi, hər bir vəsilələrə dəstbərdad olmaqdadır. Verilən xəbərlərə inanılarsa, bu gün şahın tamam ümidi və pənahi təkyəgah və söykənəcəyi 800 atlıdan ibarət olan Tehran xassə qoşunudur. İran əsgərlərinin üsuli-məşq və nəzmiyyələrinə[1] bələd olan hər kəsə belə bir həyəcanlı vaxtda, bu xəbərin səhih olmasında heç bir şəkk və şübhə olmaz. Ondan ötrü ki, Avropa dövlətlərində, xüsusən bizim Rusiya və Osmanlıda olan üsuli-təbəiyyətkaranə İran qoşununda hələ bir öylə əsərbəxş olmamışdır. İran sərbazları hələ camaətdən ayrı olub özlərinin əhali ilə mərbut olmalarını yaddan çıxardacaq dərəcədə qoşun nizaminə alışmamışlar.

Digər tərəfdə isə illərcə əsarət altında qalıb, canı boğazına gələn camaət istibdadın özünü dübarədən qayımalaşdırmaq yolunda axırıncı vaxtlarda görüldüyü xəyanətlərdən acığa gəlib, özünün hər bir qüvvə və hücumdan möhkəmraq olan ittihadi milliyyəsini cəmləyib mütləqiyyətin qalmış digər bir neçə rişələrin də qırmağa hazırlaşmışdır.

İranın bu hərəkati-inqilabçuyanəsinin Rusiya inqilabi-əzəmi ləpələrindən guşə gələn bir ixtilal olmasında heç kəs şəkk eləmiyor, zənnindəyiz.

İştə bu gün İran səhneyi-inqilabında oynanılan faciələrə baxılırsa, inqilab qəhrəmanlarının vəzifeyi-cansiparanələrini ifa edənlərin çoxusunda Qafqazdan gedən iranlıları görəcəyiz ki, bunu da bizim müxbirimiz «İran inqilabında böyük rol oynayanlar türklərdəndir», – deyə yazıyor.

Bəli, türklər də gərək olsun. Çünki Qafqaz vilayətlərində fəhləlik və hamballıq etməklə kəsb-ruzi edən iranlıların əksəri Azərbaycan türkləridir ki, burada Rusiya fəhlələri arasında işləməklə, yoldaşlıq təsiri olaraq, hürriyyət və fədakarlıq işlərinə alışmışlar!

«İran bahadırları türklərdir», – demək İran inqilabının əsası ilə, əsasi-elmiyyəsi ilə isbat edilmiş bir həqiqətdir ki, bu barədə heç danışıq belə olmaz.

**Məhəmməd Əmin**
*«Təkamül», № 9, 17 fevral 1907*

[1] **nəzmiyyə** – polis idarəsi

## «ŞURAYİ-OSMANİ»

Rusiya inqilabi əzəmi bir çox həqayiqi meydana qoyub hamı əhrarı[1] bu yolda müttəhid etməyə vadar ediyor.

Məlum olduğu üzrə, Türkiyə istibdadi və Sultan Həmidin mütləqiyyəti təhdində zar-zar inləyən əhali qırx ildən artıqdır ki, «Cavan türklər» və qeyri siyasi firqələr surətində olaraq çalışır. Minlərlə canlar qurban edilir. Lakin bir iş bacarmayıb gündən-günə zəncəri-təzyiqə daha da bərk sarılıb, daha da bərk sıxıntı altına düşüyor.

Türkiyə məmləkətini təşkil edən müxtəlif millətlər hər kəs öz başının çarəsində olub, ermənilər «Ermənistan» üçün, türklər «Türkiyə» üçün, ərəblər «Ərəbistan» üçün, bolqarlar «Bolqariya» üçün can qoyub, biri suya, biri havaya, biri göyə, biri də dala ha çəkirlərsə də istibdad öz yerində sabit qalıb bu mücahidlər fəqət ayrı-ayrı çalışdıqlarından gücdən düşüb zalimlərinin nəfinə işləməkdən başqa bir şey bacarmıyorlar.

Türkiyə cəmaəti bunu başa düşmüyor ki, hürriyyət, səadət ayrılıqla deyil, ittihadi-ittifaq ilə başa gəlib beynəlmiləllik zühuru ilə qələbə edəcəkdir.

Hal-hazırda isə Rusiya hərəkəti-hürriyyətpərvanəsinin əsəri-feyzbəxşi olaraq bu nöqteyi-nəzər həqiqi Türkiyə vətəndaşlarının arasında sari[2] olub istər cavan türklər, istər erməni və qeyri inqilabiyyunların arasında bu fikri-səadət əsəri özünə tərəfdarlar aramaqda və kəsbi-müvəffəqiyyət göstərmədədir.

İştə bu axır zamanda Misirdə təşkil olunan «Şurayi-Osmani» cəmiyyəti bu mətləbi təsdiq edər dərəcədə bir sübut kafidir.

«Şurayi-Osmani» cəmiyyətinin qəsdi Türkiyə istibdadından möhnətkeş Türkiyə əhalisini qurtarıb idareyi-məşrutiyyəyə və qəsb edilmiş qanuni-əsası iadəsi ilə bəxtiyar etməkdir.

Bu məramə çatmaq üçün «Şurayi-Osmani» ən ümdə olaraq beynəlmiləlliyi aləti-ittixaz edib, Türkiyədə məskun olan müxtəlif millətlər hamısı bərabər olaraq bir dərəcədə zülm və əsarətə giriftar olduqları üçün birlikdə gərək bu zülm və əsarətin izaləsinə cəhd eləsinlər deyir.

Bu cəmiyyət öz əfkar və amalını nəşr etmək məramilə ayda iki dəfə olaraq «Şurayi-Osmani» namində bir cəridə nəşrinə də iqdam eləmişdir ki, idarəmizə gələn əvvəlinci nömrəsindən cəmiyyətin məqsədini anlayıb, onun hürriyyət yolunu qeyri Türkiyə firqələrindən iyicə olaraq düşündüyünü qəlbən təhsinləyib alqışlayırız. Lakin bizi düşündürəcək bir məsələ varsa, o da cəmiyyətçilərin nöqteyi-nəzərlərinin burada dayanıb

[1] əhrar – azadlıq tərəfdarları

[2] sari – nüfuz edən



bir az da o yanı görməmələridir ki, bu da əsl hürriyyət almağa qabil olan füqərayi-cəmaətə istinad etməyib sinfiyyət ayırmayaraq «hamı cəmaətə» söykənmələridir. Əlbət ki, maişət gəldikcə bunu da öyrədəcəkdir.

İndi gələlim cəmiyyətin proqramına aşna olalım: əvvəlinci nömrə «Şurayi-Osmani»də ifadeyi-məram sırası ilə atidəki proqram dərc edilmişdir ki, eyniylə dərc ediyoruz:

Cəmiyyətin proqramı şudur:

Maddə 1 – Bu cəmiyyətin təsisindən məqsəd dövləti-aliyədə ümmətə qarşı məsul idareyi-məşrutəyi iadə etməkdən ibarətdir.

Maddə 2 – Cəmiyyət şu məqsədi vəsaiti-məşrutə ilə təqib edəcəkdir.

Maddə 3 – Şurayi-Osmani cəmiyyəti-dövləti-Osmaniyyə təbəəsindən təşkil olunaraq azaları hər növ əqvam və dinə mənsub zəvatdan[1] mürəkkəbdir.

Maddə 4 – Cəmiyyətin bir mərkəz komitəsi olacaq və bu komitə cəmiyyətin təşkilat və nizamnaməsini tənzim edəcəkdir.

Maddə 5 – Mərkəz komitəsi şimdilik Misrül-Qahirədədir.

Maddə 6 – Cəmiyyətin şöbələri hər işdə Mərkəz komitəsinə tabe bulunacaqdır.

Maddə 7 – Cəmiyyətin ümumi hərəkəti Mərkəz komitəsi tərəfindən təyin olunacaqdır.

Maddə 8 – Şurayi-Osmani cəmiyyətinin təqib etdiyi məqsəd xəfi[2] deyildir.

Bundan dolayı cəmiyyətin təşkili şimdidən elan edilə bilir.

Maddə 9 – Mərkəz komitəsi cəmiyyətin nizamnaməsini nəşr edəcək və bu nizamnamədə təyin olunan xədəmatə əfradı[1] və o əfradın kəndi vəzifələri icra edib etmədiklərinə nəzarət edəcəkdir.

Maddə 10 – Bu proqram türkcədən başqa ərəb, erməni və fransız lisanlarına tərcümə və təb olunacaqdır.

On fəsildən ibarət olan şu sətrlərə nə qədər proqram adı qoyulubdursa da, lakin proqramdan olaraq fəqət əvvəlinci fəsil xəbər veriyor. Yerdə qalan füsul isə nizamnameyi-əsasi adlansa daha övladır. Bizcə, bu qisim böyük bir cəmiyyətin aşkar və müəyyən proqram məramnaməsi gərək olsun ki, orada yalxu bir çox mənalı «idareyi-məşrutə» sözü ilə kifayətlənməyib mətlub olunan idarənin hər bir şərait və cüziyyatı məlum edilməlidir. Ola ki, bu bir müqəddimə olub «proqramda» deyildiyi kimi Mərkəz komitəsi tərəfindən nəşr oluna, gözləriz...

[1] zəvat – adamlar, əsillər

[2] xəfi – gizli

[1] əfrad – fərdlər, tək-tək adamlar

Hər halda bu cəmiyyətin təhsin ediləcəyi vardır ki, o da həqiqi hürriyyət yolu olan beynəlmiləllik «internasyonalizm» məsləki-müqəddəsəsidir. Həmin bu mətləbə dair «Şurayi-Osmaniyyənin» əvvəlinci nömrəndə «Fikir və məqsədimizə dair» ünvanlı məqalədə el divanı və qoyduğu qanun təqdis edilərək deyilir ki:

«Vətənimiz Türkiyədir. Türkiyə – Türkiyə vətəndaşlarınındır. Diqqət ediniz biz Türkiyə təbəəsinin demiyoruz, vətəndaşlarının deyiriz. Zira, tabe-mətbu, hakim-məhkum olmaq zamanı keçdi. Şimdi zaman ancaq insanların kəndiləri tərəfindən təəssüs qəbul, təsdiq edilən adilanə qəvaninə tabe olmaq zamanıdır. Hakimiyyət, mətbuiyyət yalnız qanunun şərayiindir[1].

Biz müslüm, qeyri müslüm, erkək, qadın hap Türkiyədə doğduq, əcdadımızın xatirati Türkiyədə mədfun. Biz Türkiyənin havası ilə, suyu ilə, əkməyi ilə bəsləndik. Türkiyə vətəndaşları üçün müqəddəs bir torpaqdır, müqəddəs, müəzzəz[2] bir vətəndir. Vətəndə yaşayan adam əsir deyildir. Kimsəyə sıxıntı deyildir. Kəndi babasının evində bulunan övladın halındadır. Halbuki biz vətənimizdə zindana atılmış bir məhbusun, bir məhkumun halında bulunuyoruz. Bizi döyürlər, bizə söyürlər, əmvalımızı zəbt ediyorlar, qanun yox, ədliyyə yox, maarif yox, ticarət yox, hətta ziraət yox, yalnız bir şeyi var:

Padşahım çox yaşa!..

Bu təriq ilə Türkiyə hökumətinin hazırdakı xunxaranə,[3] şeytankaranə, iblisanə xəyanətlərdən şikayət edilərək əhali atidəki, sözlər ilə indiki idarəni yıxmağa çağrılır:

«Ey Türkiyənin məzlum, səfil, biçiz vətəndaşları, xəbəriniz olsun! Ölüyoruz, gediyoruz, bir daha dirilməmək üzrə ölüyoruz.

Əllər birləşsin, qəlblər birləşsin, yalnız alçaqlar bizdən ayrılsın.

Yaşasın Türkiyə, bizim cəmimizin müştərək vətənimiz. Müslüm və qeyri müslüm bizim cümləmizin müştərək imperatorluğumuz. Yaşasın hürriyyət üçün, ədalət üçün çalışan əhrar!»

Hərgah Türkiyə əhrarları, istər cavan türklər, istər qeyriləri bu vaxta kimi Şurayi-Osmaniyyənin indi tapdığı olan yol ilə getsəydilər, yəqin ki, bu vaxta kimi bir şeyə nail olmuşdular! Heç eləməməkdən isə gec eləmək yaxşıdır nöqteyi-nəzərindən baxılırsa biz cümlə Türkiyə əhrarına Şurayi-Osmani məsləki dairəsində yığışıb bilafərq millət və məzhəb çalışmalarını Türkiyə hürriyyəti və səadəti naminə olaraq tövsiyə edib «Şurayi-Osmani» cəmiyyətinin zühurunda Türkiyə üləmasının oyanmağına bir nişanə olaraq meydana gəldiyini təbrik və təhniyət edib, ona həqqin yar və mədədkar olmasını səmimi-qəlb ilə arzu edəriz!

[1] **şərayiindir** – şəriətlərindir
[2] **müəzzəz** – əziz
[3] **xunxar** – zülmkar



Qoy beynəlmiləllik nuri işıqlanıb «millətçilik» və dargözlülük cəhlini yer üzündən məhv edərək səadəti-ümuminin vücudunu təmin eləsin!

**Rəsulzadə**
*«Təkamül», № 9, 17 fevral 1907*

## HƏR YANDAN

Amma raviyani-əxbar və naqilani-aasar, tutiyani-şəkkər şikən şirin qoftar.* Belə rəvayət edirlər ki, bir gün İran padşahı Məhəmmədəli şah oturub fikrə-piçidə idi ki, necə eləsin bu millət məclisinin əlindən qurtarsın. Bir də gördü ki, rus səfiri qapını açıb içəri girdi və dedi:

– Nə var, ey qibleyi-aləm, niyə belə qəm dəryasına qərqsən, olmaya rəhmətlik atan yadına düşübdür?!

– Hə, pədərsuxtə səni kimdir buraya buraxdı – deyə şah səksənib yerindən tullandı.

Səfir:

– Qorxma, qorxma qibleyi-aləm, mən də sənin dərdində olan bir kəsin nökəriyəm, həmdərdik ey qibleyi-aləm, vahimə eləmə!! De görüm, niyə belə fikrə getmisən!

– A kişi, evin yıxılmasın, hələ bir xəbər də alırsan, görmürsən ki, «həyasız» camaat mənim başıma nə gətirir?.. Bu təqsirlər hamısı sizin boynunuzdadır. Hərgah siz öz camaatiniz ilə bir növ yola gedib inqilab zad çıxartmasaydınız, yainki inqilab çıxartdınızda qorxub Duma zad verməsəydiniz biz məqul keyfi kök, damağı çağ dolanırdıq. Nə əlimizə dolaşırdılar, nə ayağımıza... İndi də görək nə olsun?..

– Əh, elə bundan ötrü fikrə getmisən? Doğrudan da, həmşəri!

A kişi, bunun çarəsi ki, asandır!!

– Necə məgər... sizin başınıza gəlibdir, sən allah mənə bir çarə!

– Götür camaatin əclaflarını hökm elə yığsınlar, hərəsinə bir qədər köpük-quruşdan, bürünc medaldan zaddan fərraş[1]-mərraşlıqdan vədə ver, sən də bir az öz tərəfini saxlayan firqə təşkil elə, adını da qoy «həqiqi iranlı» firqəsi, necə ki, bizim «həqiqi rus» firqəmiz var ki, nə vaxt istəsən o vaxt qətliam qayırmağa hazır və amadədir.

* Amma xəbər verən, rəvayət edənlər, əsərləri nəql edənlər, şəkər yeyən, şirin danışan tutilər

[1] **fərraş** – saray xidmətçisi

– Bu yaxşı fikrə oxşayır, axı qoy bunu vəzir-vəkillərim ilə məsləhət edim, – deyə şahın surəti açılır.

Bundan bir neçə gün keçmişdi ki, Peterburq agentəsi İranda qanun və nizam dairəsində bir firqə təşkil olunmuşdur ki, məqsədi ifratçıların qəsd «inhidamkaranələrinə sədd olmaqdır», – deyə xəbər verdi.

* * *

Həmişə Peterburq agentəsinin adı gələndə Duma seçkiləri və Duma özü yadıma düşür. Yazıq agentə o qədər çalışdı, o qədər yalan çözədi ki, vəkillərin sol olmalarını gizlətsin, amma yenə də bacara bilmədi. Açığına isə mötədil və sağ dediyi şəxslər öylə qəddar[1] sol çıxmışlar ki, padşahın adı gələndə yanların da tərpətməmişlər. İndi də açıqcan götürüb bir «səhv» eləmişdir ki, «Şəhər duması» əvəzində «Dövlət duması» yazıb xalqın başını yastıqlamaq istəmişdir.

* * *

Bəli, Dumamız da açıldı. Görəsən, haçan bağlanacaq? Hələ ki, Kruşevan ilə Aleksinski çlenləridir, hökumətlən də vuruşmasalar bir-birinin dişlərini qırmasalar xeyli hesabdır. Hələ işin harasıdır ki, Dumanın sədri padşaha dua eləyəndə solları gücla ayağa qalxızmışdır.

* * *

Təzim, təkrim işinə gələndə bax bizim qazılardan, mollalardan, hacılardan qıvrağı yoxdur. Lazım olan yerində sərdar filan gələndə müsəlman qaidəsi kimi salam nədir, lap saldat kimi isluşi durub «çast» da verirlər. Əgər qınayan-zad olmasa, lap palto tutub, qaloş da cütlərlər.

* * *

Siz elə bilirsiniz ki, tək bizim mollalar belədir? Yox a... tamam keşişlər, terterlər, poplar da bunların tayıdır.

* * *

Bir hesaba baxanda çox da bunları qınamaq olmaz. Tanrının «xadimi» Dövlət dumasına getməmişdən axtarıb, axtarıb polismeyster ilə aşna olur, sonra yola düşür. Hələ srağa günəcən medal alan molla küll Qafqazın canişininə çast verməsin?..

Nə bir eybi çast verir versin, özü bilər. Ancaq bəzi «generallar» kimi küll müsəlmanların tərəfindən vəkillik edib öz hissiyyatını, öz fikirlərini tamam müsəlmanlara bağlamasın, çünki indi bir zamandır ki, qardaş

[1] **qəddar** – satqın, ikiüzlü



qardaşa inanmıyor, ata-oğul ilə düz gəlmiyor. Necə olar ki, böyük bir millətin tərəfindən cəsarət eləyib bir və qeyri övzayi ona nisbət verəsən?

* * *

Həqiqətən, belədə bir cürət eləmək çox hünərdir, bu hünəri ancaq medal, yainki mənsəb alan şəxslər bacarar. Bunlar da bacarmazdılar hərgah mənsub olduqları millət əfradinin «intelligent»ləri bu gün imzaladıqları məktubdan sabah qaçmasaydılar.

Bu da olmazdı, hərgah jandarmlar adamı bir nitqdən ötrü qazamata salmasaydılar, bu da olmazdı əgər Duma vəkilləri yola düşməsəydilər.

Bu da olmazdı əgər İkinci duma çağırılmasaydı.

Bu da olmazdı əgər xaricə dövlətlər pul verməkdən baş qaçırmasaydılar.

Bu da olmazdı əgər əvvəlinci Dumanı qovmasaydılar.

Bu da olmazdı əgər Duma «ifratçı» olmasaydı.

Bu da olmazdı əgər Duma camaat vəkilləri göndərəndə, onlar da nitq deməyə idilər.

Bunların heç biri də bu yavuqda olmazdı əgər rus-yapon davası olmasaydı.

* * *

Bunların hamısından keçəndən sonra idarəmizə gələn bir məktuba cavab verməK istiyorum. İdarəmizə bir nəfər rusca kağız yazıb bir nəfərin əvvəl arvadını ondan sonra qohum-əqrəbasının işindən qovmağını tələb ediyor ki, ya dərc edin və yainki qəzetəmiz vasitəsilə nə üçün dərc eləmədiyimizi elan edək. Biz isə bu məsələni «Molla Nəsrəddin» əmiyə həvalə edirik ki, köhnə kişidir qoy o cavab versin.

Arvad-kişi davasına baxmaq mollanın işidir.

**Mərzədə**

*«Təkamül», № 10, 24 fevral 1907*

## HƏR YANDAN

### İNDİ HAMISI TƏLƏSİR

Hökumət tələsir ki, necə olsa da, Duma bir azca sakit olub vurhay zad salmasın ki, bəlkə, özgə yerin hökumətləri Rusiyanın Dumalı bir dövlət olmasını görüb pul buraxsınlar. Camaat da tələsir ki, haçan olsun ki, bir Duma küy-kələk salıb cümlə vəzir-vəkilləri Stolıpindən tutub lap bizim küçə qorodovoyuna kimi hamısını hara ki, lazımdır göndərib özü bilavasitə olaraq camaat dərdinə qalsın... Cümlə qazamatlarda, Sibirdə, dustaqlarda olan «qalmaqal»çılar da tələsirlər ki, nə vaxt olsun onları

bir buraxsınlar ki, çoxdandır «qalmaqal» eləməmişlər, ürəkləri lap darıxıbdır. Qəzetəçilər də darıxıb tələsirlər ki, nə olaydı qəzetəçiləri də 129-cu fəsil ilə qazamata oturtmaq, yazıq qəzetə satanları qovhaqova salıb bağırlarını çatlatmaq qurtaraydı. Fəhlələr də tələsirlər ki, nə olaydı zabastovka-zad eləyəndə kazaklar onlara kömək eləməsələr də, at döşünə də salmayaydılar. Müsəlmanlar da tələsirlər ki, nə olaydı Duma bu tezliklə onları keşişlərin əllərindən qurtara idi. (Burdan başa düşməyiniz ki, onlar keşişlərdən qurtarıb mollaların əlinə düşmək istiyor, xeyr a yox!) Stolıpin də tələsir ki, bacardıqca Dumanı noxtalasın. Yox, noxtalanmasa təşrif aparsın. Xülasə, indi bu saat hər kəs tələsir. Hətta bizim bu ağır oturub batman gələn bəylərimiz də tələsirlər: budur bu günlərdə tələm-tələsik bir syezd qayırmışlar, əlbəəl yer tapıb qabaqca hazırlanmış sədri, katibi, filanı hamısını da qurub oturmuşlar. Tələm-tələsik nitqə başlamışdır. Hərgah bir natiq az uzun danışıbsa o saət cənab general sədr onu tələsdirib «bəsdir, bəsdir, nəyimizə lazımdır ki, azarımız nədir, dərman eləməyə tələsməlidir»,– demiş. Xülasə söz çox. Tələsmişlər axırı tələsiklikdən böylə olmuş ki, sədr özü qətnamə yazıb hazırın da əsl müsəlman qaidəsi olaraq bəli-bəli demişlər... Həmin bu surətlə köçəri məsələsi də həll olunmuşdur. Allah qoysa, köçərilər də sağ-salamat gedib qayıdarlar.

* * *

Bəli, indi hamının işi tələsmədəndir. Hətta Duma vəkili Mahmudov da tələsir. Dumanın lap əvvəl açılmasında durub Kruşevanı – ah, mən də tələsdiyimdən çaşdım... Stolıpinin vəkillərini söyür ki, siz camaət vəkili deyilsiniz!..

* * *

Göyün ulduzları da tələsdiklərindən yollarından çıxıb budur bu günlərlə bizim yerimizə toxunub yerimizi tamam tələsik adamları ilə belə tələf edəcəklər.

* * *

Bizim Bakı müsəlmanları da tələsirlər... qorxurlar ki, birdən camaət idarəsi oldu. Ədalət divanxanəsi quruldu daxi iş görmək olmaz, odur düşüb gündə-gündə biri-birini öldürmədə, küçələrə partapart salmadadırlar.

* * *

Nə deyim indi heç bir adam, heç bir şey yoxdur ki, tələsməsin, hətta bizim müdirimiz də tələsir, o gün tələm-tələsik gəlirmiş qəzetə izinnaməsini də salıb itirmişdir.



* * *

Amma bizim Bakı şəhərindən Dumaya seçilən vəkilimiz heç tələsmir. Öz keyfində gəzib, deyəsən, Dumanı bilmərrə yadından çıxartmışdır... Deyirlər ki, yox Duma yadından çıxmayıb, ancaq bəzi vacibli işləri vardır, onları görüb sonra gedəcəkdir.

* * *

Vacibli işə sözümüz yox. Ancaq ki, Bakı camaəti çox tələsir ki, nə olaydı öz vəkilini yola salaydı. Olmasın ki, Dumanı qovalar, sonra küll aləm deyir ki, Bakı Dumanı boykot eləmişdi.

**Mərzədə**
*«Təkamül», № 11, 3 mart 1907*

## BAKI, 12 MART

Özünün hökmdarlıq əsasi-xudpəsəndanəsilə tərtib edilən məramnaməsini oxumağa tələsən Stolıpin, nəhayət, Tavriçeski sarayda olmasa da, qeyri bir zalda da olsun izhari-məram etdi. Stolıpin öz məramnaməsini oxuduqdan sonra millət vəkillərinin bir etibarsızlıq və protest eşitdiyinə əmin olduğunu yəqin biliyordu. Biz yəqin biliyordu – deyiriz. Zira, özünə həqiqi millət vəkili adını qoyan bir vəkil mövqeyi-xitabədən millət cəlladını millət nümayəndələrinin hədd və sınırını özlərinə tanıtdıran görəndə, oğrunun ev yiyəsinə öz evində nə qisim, hərəkət etdiyini göstərməni fəryad edib, cümlə Rusiyanı bir qital[1] və cidal[2] meydanına döndərən qəsiyyül-qəlb bir şəxsi-dəsti xuni-aludəyə protest etməyə bilməz. Millət və yainki onun nümayəndələri necə səbir edib dayansınlar. Halənki, onların ən baş ədüləri olan bir kimsə onlara daireyi-hərəkət qərar verib, o dairədən çıxmamaqlarını tələb ediyor. Öz rəy və iradəsindən müqəddəs və böyük bir rəy və iradə tanımayan, öz vəkillərinin qərar verdiyi qaidədən başqa digər bir qanun və nizami qəbul eləməyən camaət indi də gəlib stolıpinlər göstərdiyi yolla gedib, onların iradəsilə ruhlanıb, onlar qoyduğu qanunlara tabe olacaqmı?

İştə baxın Stolıpin öz məramnaməsində nələr deyir. Baxın da, baş vəzir nə dillər ilə özünü millət vəkillərinin qabağında cilvələndirir. O, küll Rusiyanı mühakimə altına çəkib tənbihə giriftar qılan Stolıpin – vəzirlər olan mövqeyə işarə edib diyor ki, buraya məhkumlar kürsüsü deyil, hakimlər məsnədinə[3] baxan kimi baxmalısınız! Bu sözün məna-

[1] **qital** – qırğın, qanlı vuruşma
[2] **cidal** – müharibə, qovğa, vuruşma
[3] **məsnəd** – taxt, böyük mənsəb

sının nə olduğu hamıca aşkar və mübərhəndir[1]. Əgərçe Stolıpin bu sözü bir azca dolandırmaya salıb, oyan-bu yana fırlandırır və bununla millət məclisinə tabe olmamaqlığını göstərmək istəmək deyil, buna camaatin inqilabçuyanə hərəkətlərindən məcbur olduğunu bəhanə gətirir. Lakin camaati canə gətirən, onu inqilab dərəcəsinə vardıran yenə Stolıpin və onun həmkarları deyilmidir?!

Stolıpin özünü əvvəl dəfə də vəkillərə şəstli göstərməkdən ötrü qabaqca hazırladığı sözləri bacardıqca «qəhrəmananə» bir surətdə deyib, «ruki vverx» sözləri ilə bizlər qorxmarız demiş. Lakin arzusu yerinə yetişməyib öz heybət və səlabətini[2] vükəlaya müstövli[3] edəməmiş. Belə ki, vükəlalardan birisi bir tərzi-istehzayanədə olaraq biz sizlərə «ruki vverx» (əlləriniz yuxarı) deyil «ruki proç» (əlləriniz yana) deyiriz, – demişdir.

Stolıpin öz məramnaməsində cümlə hürriyyətlərə əmmalar qoyaraq 17 oktyabr manifestinin bir çox dövr yerlərini kəsib gödəltmişdir ki, o cümlədən milliyyət məsələsində belə bir əmma əlavə etmişdir: «Məzhəblər hamısı azad olub sərbəst buraxılacaqdır. Lakin provaslaviya məzhəbi məzhəbi-hakimə olduğundan, ona bəzi artıq imtiyazat veriləcəkdir». Bu sözlərdən əcəba nə anlaşılır! Bu sözlər haman 20 milyonlu bir milləti piyaniskə etmək sədədinə düşən iqnatyevlərin siyasi bir hiylə və dəsisi[4] ilə, iki qonşu millətə quyu qazıyan şeytan fikirli qalitsinlərin, insanə nəuzubillah[5] – bir it dərəcəsində qiymət qoymayan plevelərin müğayiri-insaniyyəti-bəşəriyyət olan qrinqmutların, ilminskilər, kruşevanların və sairlərinin, bir sözlə, kökü çürümüş idareyi-mütləqənin haman köhnədə olan qanlı siyasətləri deyilmidir?.. Həmin fasildə işarə edilən «imtiyaz» qruşevanlara edilən hör-mətdən və izzətdən ibarət olmayacaqmı?!.

Stolıpinin Duma səhnəsində ərsəyə çıxdığı Duma deputatı Sereteli demişkən, köhnə Rusiyanın ərzi-vücud eləməsidir. Bu talan və qarət işlərinin yaradıcısı olan baş vəzirə Duma etiraz etməyə bir vəsilə və vasitə münasib bilməyib fəqət sükut və asayiş ilə etiraz etmişdir...

Lakin həqiqi camaat nümayəndəsi olan sosial-demokrat fraksiyasının Sereteli ağzından dillənən sözləri gərək camaat qəlblərində əsərbəxş olub, millət nümayəndələri ilə millət birləşib müttəhidən naili-bənam olsunlar. Bu ittihad, bu münasibə və mərbutiyyət olmayınca hökumətin qanlı əli müqəddəs məclisi-məbusanın üstündən rədd olmayacaqdır!

**Rəsulzadə**
*«Təkamül», № 12, 12 mart 1907*

[1] **mübərhən** – sübut olunmuş
[2] **səlabət** – möhkəmlik, dözümlülük
[3] **müstövli** – zorla qəbul etdirmək
[4] **dəsisə** – hiyləgərlik
[5] **nəuzubillah** – Allah eləməsin



## İKİNCİ DUMA

Bizim müsəlman sərkarlarının[1], pişrov və «yol aparanlarının» bir qəsdləri, təkcə bir amalları vardır ki, o da həmə vaxt ammeyi[2]-camaati əllərində saxlayıb onlara qəyyumluq etmək, hər bir iş başında özləri olub, hüquq və ixtiyaratın yeganə yiyəsi və sahibi olan camaati, əli öz həva və həvəslərinə qurban verməkdir.

Bu ağaların məqsədlərinə çatmaq üçün tutduqları məslək və rəftar bürokratiyanın gördüyü işlərdən zərrəcə geri qalmayıb onlar getdiyi yollar ilə getmədədirlər. 140 milyon Rusiya əhalisini özünə əsiri-dəstgir etmək arzusu ilə bürokratiya camaati biri-birinə salıb qırdırır. Bu cənablar da haman o qəsd ilə şəhərin, bir qəsəbəcə və yaxud bir kəndin əhlinə ağalıq etmək sədədilə haman yerin əhalisini biri-birinə salıb, onları biri-birinə məşğul edib başlarını qarışdırırlar və bu biri tərəfdən öz işlərini görüb ağalıqlarını möhkəmləndirirlər.

Həmin bu cənabların bərəkətindən Rusiyanın ən böyük və ən namdar şəhərlərindən biri, Rusiya müsəlmanlarının mərkəzi, Qafqaz sənaye və ticarətinin nöqteyi-mühümü hesab edilən Bakı İkinci Dövlət dumasına vəkil göndərmədən məhrum qaldı. Belə bir böyük siyasət və iqtisad cəhətlərincə mühüm bir mövqe ihraz[3] edən şəhərin, öz həqiqi ehtiyaclarını deməyə deyil, öylə bir ali məclisdə quru bir nümayəndənin ərzi-vücud etməyə də imkanı olmadı. Əlli iki min hiylə və dəsisə ilə, hədə və sıxıntı ilə yalvarmaq və təvəqqi ilə seçilən vəkil bu vaxta kimi yerindən hərəkət etməmişdir. Şəhərdə gəzən şayələrə inanılarsa bundan sonra da getməyəcəkdir.

İndi müsəlmanlar ayılınız! Öz dostlarınızı, ağalarınızı tanıyınız! Millət, millət deyib bağıran cənabların millətçiliklərinin əndazə və həddini, millət üçün qəlbləri yanıb və xeyirxah olduqlarını görünüz! Görünüz ki, bu pişrovlar necə camaati aldadıb Dövlət duması kimi böyük, müəzzəm bir idarədə şərakət[4] etməkdən onu məhrum qıldılar!

Camaat, indi daxi heç olmasa ayılınız. Ayılınız da vəkillərin bu vaxta qədər niyə məmur olduğu vəzifə başına azim olmadığını mətbuat vasitəsilə sorub cavab istəyiniz. Niyə bu vaxta kimi dayanıb və gələcəkdə gedəcəkmi, yoxmu? Qoy vəkiliniz sizə cavab versin... Ola ki, vəkil «mən sizi tanımıram», – deyə cavab versin. Çünki belə bir cavab verməyə onun cari olunan vasitəli haqq intixabdan naşi rəsmi bir həqqi vardır! Öylə olan surətdə qoy camaatin vəkaləti və qəyyumluğunu boyunlarına götürən seçkiçilər sizlərə cavab versinlər! Qoy onlar desinlər gərək ki,

[1] **sərkar** – başçı, iş başçısı
[2] **amml** – avam kütlə
[3] **ihraz** – qazanma
[4] **şərakət** – iştirak

Bakı camaatinin günahı nə idi ki, onlar İkinci Dövlət dumasından məhrum edildilər! Hərgah öz hüququnuzun hifz və vüqayəsi[1] uğrunda belə bir təşəbbüs eləməsəniz, onda məzkur «qəyyumlar» daha da cürətlənib bir az da artıq təcavüzdə bulunacaqlar!

Bu da qəhrəmanlar qanının bahasına, igidlər canının fədasına alınan Dövlət dumasının seçkiləri! Budur, iki gündən sonra da Şəhər dumasına qlasnılar seçiləcəkdir. Yenə də bu ağalar çalışacaqlar ki, öz qəyyumluqlarını birləşdirib ətba[2] və yoldaşlarını buraya salmaqla bir az da kəsb nüfuz edib sərkarlıq mənsəbi-qəsbkaranəsinə həqqdar olsunlar.

Ey bu seçkidə zəmanəmizin «ədalət üzrə» qurulan qanunlarından nəfbərdar olub seçki haqqına dara olan vətəndaşlar! Kimləri siz bu gələcək dörd illik qlasnılığa seçəcəksiniz? Onlarımı ki, bu vaxtacan camaati əldə oyun-oyuncaq edib, onun başında əlli iki min şəbədə və hoqqa çıxartmışlardır? Onlarımı ki, iyirmi il özünün qlasnılıq etdiyi bir müddətdə iyirmi kəlmə olsun bu məsələ, ya o biri məsələ barəsində söz danışmamışdır?

Onlarımı ki, qlasnı olub da öz evlərinin qabağını qəmbərlətdirib gücbəla ilə üç-dörd daşı bir-birinin üstə yığıb pərişan ailəsini onun altında bir halati-dərvişanə ilə bəsləyən biçarə fəqirin evinin dağıdılmasına əmr etmişdir? Onlarımı ki, Bakı kimi dövlətli bir şəhərin kassasını öylə bir hala yetirmişlər ki, qulluqçulara verməyə bir qəpik pul tapılmır? Onlarımı ki, hər yerdə mənəm-mənəm deyib, camaatin tələbini, onun xahişi və istəyini həmişə öz mənafelərinə, öz mənafeyi-xüsusiyyə və şəxsiyyələrinə qurban etmişlər?

Bu suallara cənab seçkiçilər nə cavab verəcəklər, onu bilmiyorum. Lakin həmi seçkiçilərin özləri üçün, həmi də ümum Bakı camaati üçün yaxşıraq o olar idi ki, qohumluğu, nisbəti, tabelik və hörmət gözləməyi kənara qoyub, bu dəfə hər kəs öz əqlinin göstərdiyi, öz insafının hiss etdiyi kimi camaat və millət üçün çalışan bir əmini[3], ümumin mənfəətini özününkündən yuxarıda görən bir şəxsi intixab eləsin. Zikr etdiyimiz bu xasiyyət sahibləri ilə bərabər, öyləleri gərək camaat işinin başında olsunlar ki, həqiqətən, onlar həman işi aparmağa, layiqincə yerinə yetirməyə müsaid olub öz əfkar və hissiyyatlarını deməyə, yoldaşlarına bəyan etməyə müqtədir olmaqla bərabər, camaatin aşağı sinfinin tərəfdarı, fəqarayi-camaatin himayəçisi olsunlar.

İştə hörmətli seçkiçilər! Dövlət dumasının seçkisini nəzərə alıb, Bakı dumasının seçkisinə iqdam ediniz!!

**Məhəmməd Əmin**
*«Təkamül», № 12, 12 mart 1907*

[1] **vüqayə** – qoruma
[2] **ətba** – təbəələr, raiyyətlər
[3] **əmin** – sədaqətli, etibarlı



## HƏR YANDAN

### HAYANDAN BAŞLAYAQ?

İndi hər yandan başlamalı olsan da əvvəl, bilə əvvəl gərək Dumadan başlayasan, çünki hər nə var burada var. Axtarsan «hər yandan» özü ki var, elə bu Dumadır: burada paqromçi Kruşevandan tutub «qışqırıqçı» sosial-demokrat Aleksinskiyəcən vardır. Özü də Rusiyanın hər yanından gəlmiş adamlar, hər qisim sər və surətlər, ləhcə və şivələr mövcuddur. Hətta Bakının pajarı, Şamaxının zəlzələsi də buradan əskik deyil.

* * *

Zəlzələ dedim Dumanın uçulmağı yadıma düşdü. Dumanın patolokunun (səqf) xəbəri çatanda bir nəfər təəccüb ilə məndən xəbər aldı ki, niyə bəs bu qədər ta ey... Yekaterina vaxtından tutub bu vaxta kimi Duma dayanmışdı, heç uçmurdu, elə indi camaat vəkilləri oraya yığılan kimi töküldü. Bunda nə sirr vardır? Yanımda bir özgəsi vardır, o mənə vaxt verməyib dedi ki, bu evi padşah tikib, ona görə də camaat üçün möhkəm ola bilməz. Camaat üçün ancaq özü tikdiyi ev möhkəm olar.

Mən də bu cavaba razı olaraq dayandım. Daxi bir söz danışmadım. Keçdik ayrı söhbətə.

* * *

Məsəli-məşhurudur, bunu ruslar da, farslar da, ərəblər də, türklər də deyirlər ki, «danışmamaq razılıq işarəsidir», yəni «molçaniye – znak soqlasiya». Amma nadan isə belə bir açıq şeyi özlərin həqayiqşünas, nüktədan[1], dərin bilən «kadet»lər tərsinə başa düşürlər. Onda ki, Stolıpin gəlib Dumada yalandan-palandan basıb kəsir, yəqindir ki, Kruşevan və purişkeviçlərdən başqa qeyrilər buna inanıb aldanmıyorlar. Ona görə də lazım gəlir ki, Stolıpinin sözünə cavab verib ona bildirəsən ki, sənin bu goplarının hamısı üstünə, biz səni çox yaxşı tanıyırıq. Çünki adam buna qulağın sallayıb, dayanıb baxsa, onda deyərlər ki: sükut mövcibi riza əst*. Amma kadetlər burada cümlə aləmdən ayrılıb deyirlər ki, Stolıpin çalar biz də bəm tutarıq. Elə ki, o qurtardı, biz dururuq oynamağa, onda biz bu danışmamazlığımızla qeyri məsələlərin həllinə keçib, qeyri müstəqim bir yol ilə ona bildiririk ki, biz sənə inanmadıq. Deməli, kadetcə «sükunət möcibi-təərrüz əst», yəni molçanie znak protesta.

* * *

Bəli, hökumət də özgə bir yol ilə Dumanın vəkillər oturan kürsülərinin xalis palıd ağacından qayrılmasını iddia edib, hər kürsüyə 180 ma-

[1] **nüktədan** – incə və dəqiq mənə

* Susmaq razılıq əlamətidir

nət xərcim çıxıb, deyir idi. Lakin təzə remont olunmuş səqf uçdu. Özünün kökündən təmir olunmamağı ilə bərabər, kürsüləri də sındırıb göstərdi ki, kürsülər xalis palıd olmayıb fəqət üzündə bir nazik palıd ağacı yarpağı varmış. İçərisi isə şam ağacıdır.

* * *

Axır ki, neçə ildən bəridir ki, hökumətin işi heç yaxşı gətirmiyor. Rus-yapon davasına bir zorba dəstə qurulu, bütünlü flot göndərdi, iş məqamında vurdu müqəvva çıxdı. Ac kəndçilərə buğda almaq üçün bir nəfər xaricə əllafinə[1] pul verdi, əllaf vurdu mən nə bilim nə çıxdı. Müsəlmanları öz adamı hesab elədi, olar da vurdular inqilabçı oldular. Hətta o əndazədə də «həyasız»dırlar ki, durub Dumada hökumətin yalanını çıxardırlar. Duma uçdu, vəkillərə bir zərər yetirmək əvəzində vurdu dağıtdı, «yazıq» vəzirlərin yalanlarını çıxartdı.

* * *

Bu Dumanın uçmağı mənə heç bir elə əsər eləməzdi, hərgah Bakı vəkili yola düşsəydi. Heç olmasa bir arzu-gurzu ilə öz vəkilimizi yola salardıq. Amma nə eləyəsən ki, bədbəxtlik gündən-günə artmaqdadır. Dumanın polu yandı xəbəri gələndə bizim vəkil bir az gözlədi ki, görsün daxi nə xəbər olar. Xəbər gəldi ki, söndürdülər. Hazırlaşırdı ki, yola düşsün bu yandan xəbər çıxdı ki, Duma uçdu. Budur, o da ayağın yerə dirəyib deyir ki, daxi mən Dumaya-zada getmirəm...

**Mərzadə**
*«Təkamül», № 12, 12 mart 1907*

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

### QARAGÜRUHÇULAR

Qabaqkı Bakı qələbəyisi İ.A.Dimanski ki, indi Bakı «Rus camaatinin ittifaqının» rəisidir, Peterburq ittifaqlarına yazıbdır ki, hərgah onlardan bunlara inaət olmasa ittifaqı dağıdacaqdır. Və həmin göndərdiyi kağız ilə bərabər Bakı ittifaqının tarixini də göndərib yazır ki, guya, rus fəhlələri və bəzi müsəlman fəhlələri də bu ittifaqa girmək istiyorlar. Amma üzvlər pul ilə kömək etmirlər.

Təzə qradonaçalnik də bunların firqələrinə kömək etməyə hazırdır.

Dimanski yəqin etmiş ki, Bakıda inqilab salanlar cuhudlar, ermənilər və gürcülərdir. Müsəlmanlara isə xatircəmdir. «Baku» və «Kaspi» qəzetlərinin məsləkindən narazılıq edib «Yakor»dan da öz mətbu alətini «bədəfkar»lara satmağından narazılıq göstərir. Fevral erməni-müsəlman hadisəsi həmin firqənin murada yetməyinə çox kömək edibdir. Polisənin bir hərəkəti-xainanəsi iğtişaşa səbəb olurmuş isə də bunların da polisəyə çox köməyi dəyirmiş. Amma o vaxtlar polisədən başqa həmin xuliqanların bu işlərə şərik olmaqları onların gizlin hərəkət etməklərindən zühura çıxmıyor imiş.

Dimanski öz məktubunda «rus firqəsi»nin binasını 17 oktyabrdan hesab edirsə də, lakin belə məlum olur ki, 1904-cü ildə rus-yapon davası başlananda olan nümayiş həmin «həqiqi rus» xuliqanlarının işi imiş. Sonradan bunlar 17 oktyabrçılara qoşulub qüvvətlənmişlər.

### «REÇ»

*İdarədən:* Nə qədər acı və gülünc bir istehzadır ki, biz müsəlman milləti öz dostumuz ilə düşmənimizi tanımayıb millət xainlərinə, öz insaf və mürüvvətlərini hər bir müqəddəs və pak şeylərini qara pula, bir əl verişinə, bir maladesə satan vücudlara öylə bir vüsət vermişik ki, onların vücudu ilə xuliqan dimanskilər öz qara fikirlərinin rəvacına bizi alət göstərib özümüz-özümüzü puç etməyə qabil bir vicdansız olmamıza işarə ediyor. Lakin biz çox yaxşı biliriz ki, dimanskilərin «müsəlmanları» hansılar, hansı boynu və cibi yoğunlardır!

*«Təkamül», № 12, 12 mart 1907*

## BAKI, 17 MART

Məlum olduğu vəchlə Rusiya hökuməti inqilab seylabının qabağını saxlamaq zəhabilə hər bir dəni fikirlərə düşüb, hətta iki milləti biri-birinə qırdırmaq dərəcəsində də vardır. Rusiyada ruslar ilə cuhudları saldırıb, Qafqazda da erməni və müsəlman vaqiəyi-dəhşətzasini yaratdı ki, bu yol ilə inqilabın tərəqqi və təkamülünə az deyil, çoxlu zərbələr vurdu.

Üsuli-keyfəmayəşə ilə ömür sürənlər üçün öz hökmlərini yetirməkdən müqəddəs, öz istibdadlarını qayimləşdirməkdən uca, küll camaati öz həva və həvəslərinə tabe etməkdən əla bir məqsəd, bir amal yoxdur.

Onların fikirləri özləri, məqsədləri, nəfsləri, amalları, həvəsləri keyf və işrətləridir. Hərgah bir kəs öz istirahəti üçün öz ailəsinin, öz əşirətinin,[1] öz qövm və millətinin istirahəti üçün öylə bir təşəbbüslər etsə ki, o cənabın, yaxud o cənabların keyfini pozub, onların işrətlərini bir azca

[1] əllaf – taxıl satan

[1] əşirət – qəbilə, tayfa

ləğv edə filfor[1] bu əhrimənlər əllərindən gələn hər bir qüvvə və gücü işlədərlər ki, üstlərinə gələn «həlakəti» rəf etsinlər.

Rusiyanın qüvvətli bürokratiyası kazakların, saldatların gülləsi, top və pulemyotların gurultusu ilə bəslik etməyib fitnəəngiz müqatillərə əl atdığı bir halda İran kimi zaif bir hökumət, təbiidir ki, gərək bir hiylə başlaya idi ki, «tüğyan» edən milləti, mənkub[2] və sərkub[3] edə idi.

İştə bu hiylə də ərzi-vücud eylədi. İran camaəti hər bir hərəkati-qəhrəmanəsində mürəbbisi olan Rusiya camaatinə təqlid elədiyi kimi, İran hökuməti də öz ustadı olan Rusiya bürokratiyasından təhər götürüb millətin arasına fitnə salmaq qəsdixainanəsinə düşmüşdür. Lakin Rusiya kimi müxtəlif millətli olmayıb, milləti-vahidə kimi olan iranlıları bir-birinin üstünə salmaq mümkün olmadığını bilən ərbabi hökumət başqa bir tədbirə əl atmışlar ki, o da xaricilərin üzərinə olan iğtişaş və üsyandan ibarətdir.

İran müfəttinləri əhalini iğva[4] edib xaricə məmləkətlərin əhalisi və sahib mənsəblərinin üstünə qalxızmaqla istiyorlar ki, özgə dövlətləri İranın daxili işlərinə müdaxilə etməyə məcbur edib, onların qüvveyi-hərbiyyələri ilə əsarət zəncirini yenicə qırıb özünə bir səadət axtaran camaəti təzədən zəncirləsinlər. Onlar istiyorlar ki, Rusiyanın «sakit»edici kazakları, ingilisin «tədibçi» dəstələri İrana daxil olub üsyançı camaəti aram eləsinlər ki, bəlkə, bu təriq ilə iradeyi-məşrutə camaət nəzərində ləkələnib, inqilabçıların nüfuzu kəsilsin. Məhəmmədəli şahlar, əmirbahadurlar, əminəlsultanlar və kampaniyaları isə yenə də qabaqki rütbələrində durub, yenə də camaətin qanını şişəyə tutub, biçarə rəiyyəti bu xandan o xana, o xandan bu bəyə satsınlar.

Əcəba, xaricə məmləkətlər belə cinayətkar işə müdaxilə edərlərmi?!

Bəli, edərlər! Budur, hal-hazırda həmi Rusiyadan, həmi ingilis tərəfindən tədibçi dəstələri İrana azim olmuşlar. Xaricə məmləkətlərin mənafeyi, istəyi, yəni xaricə məmləkətlərin hökumətlərinin mənafeyi və istəyi ki, o hökumətlərin başında duran bir taqım burjuaziyadan ibarətdir ki, öz füqərə camaətlərin də dərəcəyi-müntəhadə cəbr və zülm altında saxlayırlar – hələ bundan ibarətdir ki, nə qədər olsa, Asiya məmləkətlərinin tərəqqi və təaliyinə bacardıqca mümaniət etsinlər. Çünki indiki Avropa özünün fabrikalarından çıxan artıq mallardan Asiyada satıb oranı öz mətaini işə verməkdən ötrü bir bazar açmış. Əgər Asiya da tərəqqi edib avropalılar dərəcəsinə gəlirsə, onda malüt-ticarəni satmağa yer tapılmaz. Həmin bu nöqteyi-nəzərdən olaraq biz deyiriz ki, Avropa burjuaziyası (yəni sərmayədar və sərvətdarları) İran müstəbidlərinin bu

[1] filfor – o an, o dəqiqə
[2] mənkub – bədbəxt
[3] sərkub – başıbəlalı
[4] iğva etmək – yoldan çıxarmaq



hiylələrinə müsaidə göstərib hürriyyət uğrunda can fəda edən binəva camaəti «tədib» etməkdən çəkinməzlər. Bunlar həman biinsaf, bimürüvvət sərmayədarın hökumətləridir ki, öz ölkələrində bir parça çörəyə möhtac qalıb məişətinin islahından ötrü tətil edən Avropa fəhlələrini qurşuna tutdurub, onlara hər bir təcavüz etməkdən çəkinmiyorlar. Bunlar həman o avropalılardır ki, öz məmləkətləri dairəsində də hürriyyət axtaran camaəti növbənöv bəlalara giriftar edib, onların üstünə olmazın bəlalar açıyorlar.

Xülasə, İran hökuməti – məlunəsi özünün axırıncı nəfəsində böylə bir şeytanətkaranə fikrə düşüb də Avropanın «mədəniyyətli» hökumətlərindən özünə kömək gözləyir. Bu kömək gücü ilə İran hökuməti hər ayinə camaəti məğlub etsə də, özü üçün nə qədər vaxim nəticələr verdiyini əcəba anlayırmı? Bu gün məşrutəli bir dövlətin hökmdari-biliftixarı olmaqdan imtina edən Məhəmmədəli şah öylə mi xəyal ediyor ki, əcnəbi vasitəsilə camaət qiyamını yatırdıb, sonra özü rahətcəsinə qabaqdakı müstəbid babaları kimi hökm sürəcəkdir?..

Belə bir səhv fikirlər ancaq hökmdarlar, istibdad və mütləqiyyət ilə tərbiyələnən vücudlar başında yerləşər!..

İran cavan müstəbidi və onun müavinləri bunu yaxşı bilsinlər ki, böylə şədid binagüzarlıqlar, xəyanət və cinayətlər ilə camaət qiyamının qabağını saxlamaq olmaz. Bu qisim cəbrlər hər ayinə millətin hücumunu dəf edər isə, o da müvəqqəti olub millət özünün yeni qüvvələrini yığıb ikinci dəfə fəthə və zəfərə müvəffəq olmayınca ölkə bir hələti-hərcmərcdə qalıb nə hakimlərə və nə məhkumlara rahətgüzəran etmək mümkün olmayacaq!

Ölkəni bu gələcək hərc-mərc təhlükəsindən qurtarmaq, onu səadət və rəfahət caddəsinə[1] salmaq millət məclisi və millət mücahidlərinin qeyrət və hümmətlərinə bağlıdır. Mücahidini-hürriyyət gərək bu zamanda kəməri hümmətlərini bağlayıb var qüvvələr ilə çalışsınlar ki, hökumətin bu fitnə və fəsadının qabağını alıb, camaəti qoymasınlar ki, özləri özlərinə quyu qazıyıb evlərini yıxalar. Hər bir millət dostu, camaət xeyirxahına lazım və vacibdir ki, bu vaxtlarda fürsəti əldən verməyib, qara camaəti fitnəkarların cəngəlindən çıxarsınlar!

Böylə bir tarixi vaxtda fürsəti fövt eyləmək, dayanıb baxmaq böyük bir günah, böyük bir cinayətdir!!

**Məhəmməd Əmin**

*«Təkamül», № 13, 17 mart 1907*

[1] cadda – baş küçə, geniş yol

## HƏR YANDAN

A kişi, adam nə eləsin, zabastovkanın da bir vaxtı olar, saəti olar. Yoxsa ki, hələ gündə zabastovka!.. Belədəmi şey olar?.. İndi de görək ki, a, kimlər işləmiyor xozeynə acıqları var? Pəs bizim bu yazıq Xorasan zəvvarlarının nə günahı ki, onları da aparmıyorlar.

* * *

Bu axır zamanda müsəlman fəhlələri də lap başdan çıxıblar. A kişi, qeyrilər zabastovka edir, qoy eləsinlər, sənə nə var axı! Sən niyə belə atılıb düşürsən, atan-baban həmişə zabastovka eləmişdi, – deyə bir nəfər qarasaqqal kişi tətilçi bir müsəlman muzdurunu məzəmmətliyordu.

İndi ki, belə ata-baba yolu gedənsən, sənin rəhmətlik atovun qırmızı və uzun saqqalı vardır, bəs niyə qara saqqal qoymusan. Gündə bir kərə də rəngləyirsən, – deyə fəhlə cavab verdi.

– Ax, hələ bu ağıl ilə zabastovka eləyirsən?

– Pəs sən hələ bu ağıl ilə qara saqqal qoyursan?

– Adə, gör sənin yoldaşın kimdir!.. Adə, İvandan da adama yoldaş olar?

– Elə ki, İvandan adama yoldaş olar, heç ağadan, bəydən eləsi olmaz!

* * *

Yoldaş dedim yadıma katedlər ilə Stolıpinin yoldaşlığı düşdü. Heç bilirsiniz nə var? Rudiçev aclıq barəsində bir komissiya təşkili təklif edib. Stolıpin də onun ağzından öpüb deyib ki, can, canım sənə qurban, bax belə əqilli bəsərli[1] gərək iş görmək.

* * *

Amma bəzi fəsadçılar deyirlər ki, Stolıpinin bu dostluğu qarın ağrısıdır, burada da pul məsələsi var. Deməli ki, millət vəkilləri dəllallığa getmişlər.

Teleqraf xəbər verir ki, Stolıpin duma rəisi Qolovindən incimiş, səbəbi də bu olubdur ki, Stolıpin öz növbəsindən xaric olaraq danışmaq istəmiş, Duma rəisi ona söz verməyib, növbəsini gözləməyi təklif eləmişdir. Amma Stolıpin orada nədən isə iddiasına boğulub, yainki, pərt olub, nə olub bir söz deməyib, gedib evindən kağız yollamışdır ki, bax bu dəfə elədin keçirəm, gələn səfər belə işlər eləmə ki...

* * *

Burada bir sürü nöqtə qoyuram. Heç bilirsiniz ki, bu nöqtələrin mənası nədir?! Bunların mənası odur ki, mən vəzirəm, hər vaxtda hər kəsi öldürtməyə qüvvəm, qüdrətim olduğu kimi, hər vaxt danışıb qalmaqal, şuluqluq salmağa da ixtiyarım vardır. Olmasa təşrif aparın! Gedin hardan ki gəlmisiniz!..

[1] **bəsər** – uzaqgörən, anlayan



* * *

Məşhuri-məlum Pobedonovsev də təşrif apardı. Pobedonovsevin nə tövr adam olmasını mən təfsilə keçməyəcəm, ancaq bunu deyəcəm ki, o ölən gündə rusların qaidəsinə görə hamı kilsələrdə məlunlara, qatillərə, cinayətkarlara, xəyanətkarlara lənət oxuyub amin deyirdilər.

**Mərzadə**

*«Təkamül», № 13, 17 mart 1907*

## BAKI, 26 MART

Avropa məmləkətlərində qaidədir ki, hər ildə hökumət tərəfindən gələcək ilin mədaxil və məxaric büdcəsi tərtib edilib keçən ilin hesabı ilə smeta camaat vəkilləri heyəti, parlament tərəfindən təsdiq edilib, əsasən, qərar veriliyor ki, məmləkətin hansı bir ehtiyacına nə andazədə pul buraxılsın. Və belə bir qərardan sonra bu əsas bir ilin müddətinə qanun olub hökuməti-icraiyyə bu dairədə iş görüb, öz vəzifəsindən kənara çıxdığı halda hökuməti-qanuniyyənin qarşısında cavabdeh olub millət vəkillərinin qəti səyi ilə cəzaya düçar olurlar.

Hər bir məmləkətin ümdə məsaili-həyatiyyə və siyasiyyəsindən biri, birincisi bu maliyyə və büdcə məsələsidir. Hər bir yanda, hər bir insanca idarə edilən ölkədə, hər bir müəssisə və idareyi-ticariyyədə, hər şüubatdan, hər qisimdən əvvəl ümdə diqqət, başlıca fikri həman bu maliyyə məsələsinə verilir. Bizim hökumətimizin də fikir-zikri həmin bu məsələnin üstündə olub və olmaqdadır. Lakin bunun qeyrilərə oxşarı olmadığından fikrinin, tədbirinin də özgələrin fikir və tədbirlərinə oxşayışı yoxdur.

Özgələr camaatin təlim və tərbiyəsi üçün milyonlarca xərc eylərlər. Bunlar isə təlim və tərbiyəyə dair nə ki, müəssisə və idarələr var, qənaət edib hamısını bağlarlar. Onun əvəzində isə şpiyonlara, jandarmlara iki o qədər xərc eylərlər. Camaati piyan edib onunla gücünü, hissini, insaniyyətini aldıqları kimi, özünü əsir və dəstigir etmək üçün də əlində olan var-yoxunu alarlar.

Mədaxilləri camaat iğfalı[1], məxaricləri məxluqin izmihlalı[2] – budur Rusiya bürokratiyasının maliyyə büdcəsi. Bu indi köhnə idarənin bu vaxta kimi tutduğu əsas iqtisad!

Zənnimizcə, bürokratiyanın bu dairədə gördüyü xəyanətləri saymaq ilə tükənməz, yazmaq ilə qurtarmaz hallardan tərifə.

[1] **iğfal** – qəflətdən saxlama

[2] **izmihlal** – tədricən məhv olma

tövsifə[1] gələsi işlərdən deyildir. Bizim hakimlərin nə kimi vücudlar olduğunu, camaat pulunun nələrə sərf olunduğunu bilməyən rusiyalı bir nəfər yoxdur!

İştə bu günlərdə hökumətin mədaxili və məxaric məsələsi Dumada müzakirəyə qoyulub maliyyə təhqiq və tədqiq edilir.

Martın 22-də olan Duma iclasında hökumətin bu barədə də tərtib verdiyi qanun layihəsini maliyyə naziri Kokovsev uzun bir nitq deyərək Dumaya izhar elədi. Məzkur Kokovsev özünün nitqində keçən illərdə edilən bir çox israf xərcləri boynuna alıb onların güzəşt ediləcək bir iş olduqlarını hökumətin məcburən verməli olduğu xəbərləri göstərdi. Vəzir diyor ki, rus-yapon davasına məmləkətin hər bir mədaxil və səadəti qurban edildiyi kimi ondan sonra daxildə zühura gələn ixtilal və iğtişaş da ondan geri qalmayıb xəzinəyə az zərərlər vurmadı.

Bəli, Kokovsev və stolıpinlərin xud[2] özlərinə lazım gələn davaya camaatin yadından inqilab hissini çıxarıb «vətənpərəstlik» hissi-cələsini qalxızmaq üçün qurulan qanlı meydana, ondan sonra da əziyyət və məşəqqət altında tabavər olmayıb özünə «iş və çörək», «yer və ixtiyar» axtaran camaati toplara bağlamaq, güllələrə tutdurmaq, dar ağaclarından asmaq üçün şpiyonlar, xəfiyyələr, jandarmlar, cəllad və xunxarlar[3] saxlamağa, məhbəslərin tedad[4] və artırılmasına, camaat həyəcanını yatırdıb bürokratiyanın bilatəhdid imrari-həyat[5] eləməsinə keçən dörd ilin müddətində çox pullar sərf olunub, çox camaat dövlət və sərvəti işlənmişdir. Ona görə də cənab Kokovsev bir nümunə imtisal olmaq üçün 1903-cü ilin büdcəsini götürüb bu xüsusda bəzi hesablar təqdim etmişdir.

Cənab Kokovsevin köhnə illərin büdcəsi kimi, bu il üçün də bir büdcə tərtib etməyin lazım gəldiyini təklif eləməsi, nə qədər onun müdəqqiq bir maliyyəçi və diqqətli bir iqtisadiyyun olmasına dəlalət etsə də, lakin onun millət məclisinə etdiyi iztehza, camaat vəkillərinə və bundan naşi camaatə güldüyü də bir o qədər mütəəssirdir. Biz buna etimad ediyoruz ki, Duma tərəfindən seçilən komisyon öz bildiyi kimi məsələni həll edib 1903-cü ilin büdcəsinə təqlid etməyəcəkdir. Duma komisyonu, yəqin ki, camaatin füqəra qismindən yığılan məbləğin həman o füqəranın əsarətinə işlənməsinə razı olmayacaqdır. Yəqin ki, Duma komissiyası camaatin təlim və tərbiyəsini ayaq altına salıb, qatilləri, cəlladları xoşbəxt etməyəcəkdir. Biz bilirik ki, bu dairədə Dumanın qərarı bivəfa kadetlərin bərəkətindən «Dumanı saxlamaq» niyyəti ilə nə qədər sağ və mühafizəkar olsa da, yenə

[1] **tövsifə** – vəsfə, təsvirə
[2] **xud** – məhz
[3] **xunxar** – qaniçən, zülmkar
[4] **tedad** – sayma, hesablama
[5] **imrari-həyat** – yaşama, həyat sürmə



də bürokratların camaat sərvətini yiyən gödənbulların qərarından nəfəli və mənfəətdar olacaqdır. Lakin böylə bir qərarı qövldən felə gətirmək üçün Dumanın əlində qüdrət və qüvvəti varmıdır? Duma bacaracaqmı ki, qoyduğu qanun və nizamlara hökuməti, hökuməti-icraiyyəni müti eyləsin?!

İştə məsələ: bu məsələ araya gələndə iki yoldan birini tutmalıdır: ya gərək «Dumanı saxlamaq» üçün hökumət əmirlərinin, xəzinə oğrularının yox olan insaflarına inanasan, yainki hökuməti-icraiyyənin hökuməti-qanuniyyəyə tabe olmasını istəyib onu ələ alasan ki, ancaq belə bir hökumətə dara[1] olan Duma ilə camaatin dərdlərinə çatmaq, onun hər bir yarasına məlhəm qoymaq olar! Bu da fəqət onda mümkün olar ki, camaat hazırlaşıb öz vəkillərinin dalında Səddi-İsgəndər kimi durub onlardan istəsin ki, hökuməti-icraiyyənin hökuməti-qanuniyyəyə tabe olmasını tələb eləsinlər.

Nə qədər ki, hökuməti-icraiyyə öz işlərində hökuməti-qanuniyyəyə tabe deyildir, heç bir məsələ barəsində danışıb baş sındırmaq, məmləkətin səadəti yolunda əməlli bir nəf verməz.

Gərək hökuməti-icraiyyə hökuməti-qanuniyyəyə tabe olsun!!

Bu isə illər uzunu istibdad altında əzilib özbaşına olaraq hökuməti-icraiyyənin mənsəbinə keçib Allah tərəfindən olduğunu iddia edən hökumətin pənceyi-zülm və əsarətindən cana doyan camaat ürəyinin ən dərin guşəsindən gələn qəhrəmanana bir səda, məcdanə[2] bir tələbdir!

**Məhəmməd Əmin**
*«Təkamül», № 14, 26 mart 1907*

## İSLAM MƏTBUATI

Möhtərəm «Füyuzat»ın axırıncı nömrəsində ədiblərimizdən mühərriri-şahir[3] Həsən Səbri Eyvazovun «Nədən bu hala qaldıq» ünvanlı bir əsəri göründü ki, məzkur əsər drama qaidəsi ilə yazılıb üç məclisdə qurtaracaqdır. Əsərin bu əvvəlinci hissəsində bizim nəzərimizə çarpan böyük bir nəqs[4] vardır ki, o da müsənnif[5] cənablarının sosialistlərlə yəqin əlaqədar olmadığına bir dəlili-vazehdir. Bu əsərdə «sosialist» vəzifəsinə qoyulan bir qəhrəmanın hərgiz sosialistlik məramnaməsi və taktikasına (xətti-hərəkəti) müvafiq olmayan sözlər, nitqlər və hərəkətlər veriliyor ki, bu da ya müsənnifin xəbərsizliyinə və yainki, yazının, əsərin başqa bir fikir ilə yazılmasına istidlal[6] ediyor.

[1] **dara** – bacarıqlı
[2] **məcdanə** – şərəfli
[3] **şahir** – məşhur
[4] **nəqs** – nöqsan, əskiklik
[5] **müsənnif** – yazıçı, müəllif
[6] **istidlal** – isbat etmə, dəlil gətirmə

Həmişə camaatin arasına girib hisli-paslı fəhlələrin dairələrində nəşri-əfkar etmək sənəti olan bir heyəti camaatdən qaçmaq, onun ədəb[1] və dəbindən[2] hürkmək kimi naqabil surətlərlə müttəhim etmək, öz ana dilini bilməyən bir çox millətçilər olduğunu fəramuş edib gözə görünən sosialisti camaat nəzərində öz millətindən bixəbərlər kimi cilvələndirmək bitərəf bir müsənnifə yaraşıyor hallardan deyildir. Hərgah sosialist olmayan müsəlmanların «Tərcümanları», «Vətən xadimləri», «Ülfət»ləri və qeyriləri var isə sosialist olanların da «Əl əsrül-cədidləri», «Tan yulduz»ları, «Ural»ları, «Təkamül»ləri və qeyriləri vardır.

Bizi heyrətləndirən böylə bir əsərin «Həsən Səbri» qələminə mütəlliq olmasıdır. Çünki Həsən Səbri sosialistliyə zidd deyil, bəlkə, ona maildir ki, bu da bizə yazdığı bir məktubdan anlaşılınır ki, bizim sosialist olduğumuz halda bizləri təbşir və təbrik qılır:

İştə müşarün ileyhin bizə yolladığı məktubi-bəradəranə: Bakıda möhtərəm «Təkamül» idarəxanəsinə!

«Əfəndimiz həzrətləri!

Mətlubi[3]-acizanəm olan bir nüsxə «Təkamül» gəldi. Təşəkkürlər edirəm. Təkrar-təkrar oxudum. Məslək və lisanını çox iyi buldum. Lisani bir dərəcə daha türkləşdiriliyorsa daha iyi olur idi fikrindəyəm. Fəqət şurasını da dərxatir ediyoram ki, «Təkamül»müzün əsl məqsədi əsasi fəhlə (əmələ) qardaşlarımızın gərək əhvali-pərişaniyəsini baxüsus ictimai və iqtisadi hallarının islah olduğu və müsəlman əmələlərinin ən tulu bulunduğu məhəlli Qafqaz qitəsi bulunduğundan Qafqasiya, yəni Azərbaycan şiyvəsi üzrə çıxması daha faidəli və münasib görülmüşdür, zənn edərim. Hər halda təkamülümüzün gərək şəxsi-xariciyyəsi və gərək təqib etdiyi məsləki-ictimaiyyə və hürriyyət-pəsəndanəsi zəif vücudumdakı ən ziyadə can alacaq damarlarımı təhrik və uyuşmuş qanlarımı ğələyanə gətirdi.

Yaşasın «Təkamül»! Var olsun müdir və mühərrirləri.

Baqi ən səmimil-qəlb ərzi-ehtiram edərək təqib etdiyiniz məqsədi-əqsayə tizdən nailiyyətinizi təmənna edərəm əziz qardaşlarım!

Məsləkdaşınız:

*Həsən Səbri Eyvazov».*

Biz şu məktubui-bəradəranəyə qarşı ürəyimizin ən dərin guşəsindən gələn rizayət və məmnuniyyətimizi izhar etməklə bərabər, məsləkdaşımızın əsərində görülən nəqsin insandan uzaq olmayan bir səhvdən naşi olduğunu zənn ediyoruz.

*«Təkamül», № 14, 26 mart 1907*

[1] **ədəb** – ədiblər
[2] **dəbindən** – xəstəlik
[3] **mətlub** – istənilən, arzu olunan



## İKİNCİ MÜƏLLİMLƏR İCTİMAİ

Keçən il Bakıda vaqe olan əvvəlinci müsəlman müəllimlər ictimaində qərar qoyulduğu üzrə lazım idi ki, bu günlərdə qurulacaq 2-ci müəllimlər ictimai Gəncə şəhərində olsun.

Xatırımıza gələn budur ki, bu qətnaməyə atidəki mülahizələr səbəb olmuşdu: Əvvələ, Gəncə şəhəri ətrafda olan kənd müəllimlərinə mərkəz hesab olunub, bir çox cəhətdən ucuzluq və rahatlığı vardır. Saniyən – Gəncədən gələn müəllimin həzəratı gəldikləri şəhər ayan və ürəfası tərəfindən bilvükalə bu xüsusda rica edib, syezdin Gəncə əhalisinə mənəvi bir əsərbəxş olmasından nəfbərdar olmaq istəyirdilər. Salisən – məclisdə baş verən «Hacı Nəriman» münaqişəsi, guya, bunu andırdı ki, Bakıda bəzi pulları ilə fəxarətlənib özlərini vacibülitaə[1] bilənlərin nüfuzundan hürriyyəti-kəlam olmayıb, syezd müzakiratı səmimi olmayacaq və bu cəhətdən bir çox nəvaqisatın səbəbləri örtülü qalıb, açılmayacaqdır ki, işə əvvəlinci zərbə vuran şeylərdən birisi, bəlkə də, birincisi budur.

Zənnimizcə, ictimain 2-ci dəfə Gəncədə qurulmasına bu mülahizələr səbəb oldu. Bunun da sərəncamı və hökumətdən izin alması Gəncə müəllimini-giramindən[2] mütəşəkkil bir heyətə tapşırıldı ki, bu heyət hər bir tədarükatı hazırlamalı və syezdi vaxtı-təyinində çağırmalıdır.

Lakin heyhat! İşlər bir özgə qisim oldu. Müəllimlər ictimai səhv etmiş göründü. Gəncə də «sahibi-nüfuz»lardan xali olmalıdı! Burada Bakı kimi də deyil. Daha da bərk mümaniətdə olanlar oldu. Bakıda ictimaidə danışılanın məsələlər barəsində hürriyyəti-əfkar verilmiyordusa, Gəncədə bilmərrə ictimai belə məhv eləməyə başladılar. Buradakı manelər ərbabi-sərvətdən isə, oradakılar yalxu sərvətdar deyil, axundlar, mollalar da oldular.

Əvvəlinci müəllimlər ictimai necə ki, gözlənirdi, səmərəsiz qalmamışdır. Bu il ətraf kənd və uyezdləri səyahət etmiş bəzi rüfəqalarımızın və bəzi müəllimlərin təbliğatına baxılırsa, müəllimlər, ictimai camaat arasında böyük əhəmiyyət ilə tələqqi[3] olunur. Camaat yavaş-yavaş ayılıb özünə kimin yavuq olduğunu və nəyin gərəkliyini qanmağa başlıyor. Burası isə camaati öz sağmal qoyunu dərəcəsində bilənlərə yaramıyor. «Müəllimlər sahibi-nüfuz olarsa, bizim dövrümüz getdi, hörmətdən düşdük», – deyib çarə aramaq fikrinə düşürlər. Bu barədə çox da fikir etməyib, danosbazlığa, köhnə adətləri olan təkfirə[4] əl atırlar. Müəllimlərin syezdə dair yazdıqları proqramdan türk əlifbasına və müəllimlərə dair bir-iki fəsli götürüb, camaat arasında fitnəbazlığa başlayırlar. Tamam ət-

[1] **vacibülitaə** – itaəti vacib olan (adam)
[2] **giram** – hörmətli
[3] **tələqqi** – qarşılanma
[4] **təkfir** – kafir adlandırma

raf şəhərlərin mollalarına yazıb müəllimlər ilə müharibəyə hazırlamalarını iltica ediyorlar. Bunlar ilə də kifayətlənmiyorlar. Hökumətə rücu ediyorlar. Nə eliyor-eləmiyorlar, nəhayət, syezdi kökündən mən etdirmiyorlarsa da, öylə bir halə salıyorlar ki, müəllimlər özləri öylə komediyadan imtina etməyə məcbur oluyorlar.

«Müəllimlər ictimai öldü», – deyə müftinlər sevinirlər, bayram ediyorlar! Müəllimlərin də bir hissəsi sevinib, bir hissəsi «mağıl» canımız rahat oldu», – deyib, digər hissəsi düşmənin qələbəsini görüb və dilgir oluyor. Bu dilgirlik isə, naümidlik sürətini almayıb, təzədən meydana girməyə səbəb olur. «Nicat» cəmiyyəti-xeyriyyəsi çalışıb, ikinci müəllimlər ictimainin Bakı güşadına izin alıyor.

İştə bu günlər avqustun 25-dən açılıb ictima iclas edəcəkdir. İctimain iclası 10 gündə tamam olacaqdır. Gümanımız budur ki, bir dairəyədək hürriyyətəfkara bu dəfə rəayət olunacaqdır. Bu xəyaldayıq ki, bu dəfə müzakirələr boş-boşuna qışqırıqlara sərf olunmuyub, müsəlmanların təcdidi[1] həyatlarına səbəb olan başlıca məsələlərin həllinə işlənəcəkdir.

Qoy mütərəqqi müəllimlər millətin təmini-istiqbalına binaye-əsl olan ünas məsələsini müzakirə edib, arvadların üsəra[2] tərci məişətindən qurtarıb, insanlıq çərgəsinə daxil olmaq yoluna əvvəlincə yol olan təlimi-nisvanə bir sərəncam qoysunlar, bu xüsusda müttəhidül-qövl olub, taifeyi-nisvanın hürriyyəti və mərifəti uğrunda fədakarlığa girişib, ictimain qətnaməsi ilə hər bir müəllimin mənəvi borcu olsun ki, bu fikri təslim və nəşr eləsin. Müsəlman qızlarına məxsus məktəblərin güşadına çalışsın.

İştə müəllimin həzəratı, qeyrət ediniz! Gələcəkdə mədərliyə layiq olan müslimələr yetişdirmək üçün müəyyən bir qətnamə qəbul ediniz! Siz bunu bilsəniz ki, sizin Bakıda etdiyiniz müzakirələr burada dörd divar arasında qalamaz. O müzakirələr, o qətnamələr zəmanə iqtizası[3], əsrin xahişi, tərəqqi və mədəniyyətin əsası ilə tövəm[4] olsa, şəkk yoxdur ki, gec-tez, Qafqazın ən dərin künc-bucaqlarına əksəndaz olacaq və onlardan sizə cavabən ləbbeyk didirdəcəkdir.

Haydı müəllim qardaşlar! Hümmət ediniz, burası cəmaət işidir, səmimiyyət istər, qeyrət tələb edər. Cəmaətimizin ehtiyacatı çoxdur. Bu çox ehtiyacatın da fəqət neçə illətin rəf olması ilə izaləsi mühəqqəqdir.

Hər bir cəmaət üçün, hər bir taifə və millət üçün mədəni bir əhəmiyyəti olan milli ibtidai məktəblərin idarəsi və tədrisini öylə bir surətə qoymağa çalışın ki, oralardan çıxan mütəallimin həman kəsb elədiyi elmlər bərəkətindən zəmanəmizdə mövcud üsuli-məişətdən

[1] təcdid – təzələnmə
[2] üsarə – əsrlər
[3] iqtiza – tələb etmə
[4] tövəm – əkiz



bəhrədar ola bilsin. Çalışın ki, cəmaət məktəblərini aldığı ada layiq edəsiniz! Çalışın ki, cəmaəti təhlükəyə salan bəzi hissiyyat, onu qəflətdə saxlayan mövhumat və bunlara meydan açan üsuli-tədris və təlim bilmərrə məktəblərdən qovulsun!

Buyurunuz, bismillah! Tovfiqlər[1] dilər, təbriklər ediriz!

Məhəmməd Əmin
*«Yoldaş», № 1, 22 avqust 1907*

## BAKI, 29 AVQUST

Zavallı, bəlalı Qafqaz!..

Rusiyada iğtişaş və hərəkət başlandığı gündən bu günə kimi olmazın cəfaları çəkib, görülməyən fəlakətlərə düçar olan Qafqaz, yenə də nahaq qanlara bulaşır, yenə də zülm və təəddinin[2] meydanı olmağa başlayır!

İgid hürrüstanın dağılmağı, erməni-müsəlman kənd və mahallarının darbadağın olduğu, gözəl şəhərlərin davadan çıxmış surətə düşdüyü az olduğu kimi, bir də təzədən Gəncə vaqieyi-vəhşətfəzası çıxdı!

Yenə də qoca Qafqaz öz övladlarının fəlakət və zillətinə soyuq-soyuq baxmağa məcbur oldu. Yenə də müftinlərə, şeytanlara fürsət düşüb əl-ayağa düşdülər. Bir nəfər koloniyalı nemsənin şikayəti üzərinə onu mühafizə üçün verilən kazaklardan bir nəfərinin kimin tərəfindən isə öldürülməsi böyük bir cəmaətin, arvad-uşaq, qoca-cavan, heç birinə fərq qoymayaraq, tamam bir şəhərin qətli-amminə səbəb oluyor; məzlumənın naləsi, bigünah qurbanların ah və fəryadı, cəmaətin aynası yerində olan mətbuata keçmək istiyor. Lakin keçə bilmiyor, ayna sındırılır.

Biz istərdik ki, lazım olan yerinə bir neçə sual ilə rücu[3] edib, deyəydik ki:

Bu nahaq qanlar kimə lazımdır?..

Kimdir bu ki, Qafqaz övladının qanına təşnələnmiş[4], hərarəti heç vəch ilə yatmıyor?!

Havaxta kimi cəmaət mühafizəsiz olub, təmini-həyat etməyəcəkdir?..

.................................................................................

Heyfa ki, ürəyimizdə olan sözləri, dağidar sinəmizdə olan fəryadı çox da ucalda bilmiyoruq!.. Mətbuata qoyulan şərtlərdən naşi artıq bəyanat vermək mümkün olmadığından bir ayrı mətləbə rücu ediyoruz.

Həmin Gəncənin qara xəbərləri gələn zamanlar Tiflisdə çıxan «Zaqafqaziya» qəzetəsində «Bakı xüsusi müxbiri» tərəfindən böylə bir tele-

[1] tovfiq – müvəffəqiyyət
[2] təəddi – zülm
[3] rücu etmək – müraciət etmək
[4] təşnə – susamış

qram oxunmuş: «Bakıda ermәni vә müsәlmanların arasında qorxu görünür. Bu әlaqәnin böyük bir fәlakәtә mübәddәl olmasından ehtiyat etmәlidir!»

Nә әndazәdә böhtan, nә dәrәcәdә yalan! Əcәba, bu «xüsusi müxbir»in fikri nә imiş!?.

Bakıda heç bir soyuqluq olmuyub, bәrәks, iki qonşu arasında böyük bir mәvәddәt[1] olduğu halda, böylә fitnәkarlıq etmәnin nә mәnası!?.

«Zaqafqaziya» qәzetәsinin bu dәrәcәdә ehtiyatsızlığı hәr şeydәn әcәbraqdır. Biz hәman Bakı «müxbir»inә ürәkdәn nifrәtlәr izhar edib, «Zaqafqaziya»nın da ehtiyatsızlığından vә böylә «müxbir»lәrә «xüsusi müxbirimiz» – deyә etimad etdiyindәn dilgiriz.

Ermәni-müsәlman qonşuları öylә barışmıyorlar ki, bu barışığı bir dә qırsınlar. Keçәn illәrin cahilanә surәtdә edilәn davaları, fitnә vә şeytanәtә alәt olmaları vә bu kimi «müxbir»lәrin intriqalarına uymaları onlara yaxşı dәrslәr vermiş, gözәlcә timsallar göstәrmişdir!!

İştә burasını axırıncı Gәncә faciәsi dә tәsdiq ediyor. Bu faciәnin icrası vaxtında müsәlmanlar fitnәkarlara uymaq deyil, onların burnunu ovaraq öz vәtәndaşları ermәnilәrә mümkün olduqca müavinәtdә bulunmuş vә himayәt etmişlәrdir. Bunu Gәncә arximandriti «Bakinskiye izvestiya» qәzetәsinә yazdığı mәktubunda aşkarca diyor vә ermәni camaәti tәrәfindәn müsәlmanlardan razılıq ediyor...

İndi dәxi hәr iki tәrәfin ammeyi-camaәti öz mәnfәәt vә zәrәrini qanmış, öz dost vә düşmәnlәrini tanımışdır. Bundan sonra onları aldadıb әldә kor alәt etmәk çox çәtin, bәlkә dә, namümkün olacaqdır!!.

Axır gәlәr bir gün ki, onda camaәt öz hәqq vә ixtiyarına malik olub, bugünkü ara vuruşduranları camaәt mәhkәmәsinә çağırıb deyәr ki, «nahaq yerә tökdürdüyünüz qanlara cavab veriniz!!.»

**Rәsulzadә**
*«Yoldaş», № 2, 29 avqust 1907*

## OSMANLI ƏHRARI

Türkiyә camaәtinin hökumәt başında duran müstәbidlәrdәn çәkdiyi azar, әziyyәtin nә dәrәcәdә mühlik[2] bir mәrәz olduğunu bilmәyәn kimsә yoxdur. Əbdülhәmidin idareyi-mütlәqәsi ucundan Türkiyә bir halә düşmüşdür ki, «Türkiyә» adı gәldikdә qaranlıq bir mәhbәs tәsәvvürә gәlir ki, burada möhnәtkeş olan övladi-vәtәni «xәfiyyә» deyilәn hәşәratlar bir an rahәt qoymuyorlar.

[1] **mәvәddәt** – dostluq
[2] **mühlik** – hәlakedici



Bu idareyi-zalimәnin cәngindәn qurtarmaq, Türkiyәdә sakin olan müxtәlif millәtlәr qaib etdiklәri istiqlaliyyәtlәrini әlә salmaq fikrinә düşmәyә mәcbur oldular. Türkiyәnin sahibi hesab olunan türk millәti isә bir çox zaman bu «yağılar» vә «asilәr» ilә mübarizә edib, müdam qital vә cidalda olmağa mәcbur oldu. İşin әsl künhündәn[1] ğafil olan Türkiyә tәbәәsi, türklәr vә qeyri türklәr, bir çox zaman ümumi düşmәnlәrini sevindirәcәk dәrәcәdә bir-birlәrinә düşmәn oldular. Bu sayәdә bir çox әyalәtlәr Türkiyә dairәsindәn çıxdı. Serbiya, Qaradağ, Bolğar vә qeyri kimi imarәtlәr[2] istiqbal tapıb, ölkәnin içәrisindә dә hәmişәlik bir qırğın vә әdavәt bәrpa olub, camaәtin asayişi, ölkәnin tәrәqqi vә ticarәti yox dәrәcәsinә endirildi.

Bunu görәn türkiyәlilәr bu bәlayi-әzimdәn qurtarmağa çarәlәr arayırdılar. Hәr kәs dә bu çarәni başqa cürә başa düşür, öz bildiyi kimi anlıyordu. Hәr bir millәt öz tәrәfinә çәkib, nәticәdә isә hәman zәlalәt, hәman istibdad vә hәman hәrc-mәrc baqi qalır vә daha doğrusu, gündәngünә şiddәtlәnirdi.

Millәtlәrin böylә bir xәtti-hәrәkәtdә olmaları nә qәdәr fәnasә dә, lakin bir dәrәcәyәdәk tәbiidir. Çünki dәrәceyi-tәkamülә yetişmәyәn bir millәt, müstәbidlәrin bir digәr millәt әfradına mәnsub olduğunu görәrsә, başına gәlәn bәlanın sәbәbini hәman müstәbidlәrdәn deyil, o millәtdәn bilәr. İştә bu nöqteyi-nәzәrdәn sәhv vә nisyanә düçar olub da Türkiyә milәli-mәhkumu cәrgәsindә olan ermәnilәr öz azadlıqlarını millәtlәrinin müstәqil bir hökumәtә ayrılmasında görüb, millәtçi daşnaksütyun firqәsinin rәhbәrliyi ilә bir çox zaman çalışdılar. Amma nә edәsәn ki, bu Türkiyә ermәnilәrinә zәrәrdәn başqa bir şey vermәdi. Çox mücahidәtdә bulundularsa da, Türkiyә hökumәtinin qәzәbindәn başqa bir şeyә nail olmadılar. Sultan isә istibdadını daha da çoxlaşdırıb ermәnilәrә nisbәtәn zülmünü bir az da artırdı.

Çoxlu bir mәşәqqәt vә әzabdan sonra cümlә Türkiyә millәti arasında olduğu kimi, ermәni millәtinin arasında da böylә bir xәtti-hәrәkәtin bimәnfәәt olduğunu hiss edәnlәr çoxlaşmağa başlayıb, hәmi türklәr, hәm dә ermәnilәr bildilәr ki, hürriyyәt ayrı-ayrı olub, hәrә bir tәrәfә çәkmәk ilә deyil, ittifaq, ittihad ilә başa gәlәcәk bir işdir. Odur ki, ermәnilәr arasında kök salan istiqlaliyyәt fikri yavaş-yavaş süstlәşib, әvәzinә beynәlmilәlik hissi gәlmәyә başladı. Türklәrin dә tәәssübi-cahilanәdәn әri olan cavan türklәri ermәnilәr arasında olan әfradilә kәsbi-әlaqә edib әl-әlә verdilәr. Bunların bu bir-birlәri ilә yavuqlaşmasından «Şurayi-Osmani» rәayәsını[3] mütlәqiyyәtdәn qurtarıb idareyi-mәşrutә ilә azad

[1] **künh** – mahiyyәt, mәğz
[2] **imarәt** – әmirliklәr
[3] **rәaya** – rәiyyәtlәr

etməkdir. Bu məqsədini əmələ çıxarmaq, tutduğu əmələ vasil olmaq üçün hamı Türkiyə təbəələrinin hər millət və məzhəbdən olursa-olsun arvadını, kişimi, – bilatəfavüt – öz səflərinə çağırır və bu yol ilə osmanlını düşdüyü girdabi-həlakətdən çıxarmaq istiyor. Bu firqeyi-möhtərəməyə mənsub ermənilər hal-hazırda Tiflisdə bir «Yergiri-dzayn» namində jurnal nəşrinə məşğuldurlar ki, bu jurnalın məsləki həman zikr etdiyimiz «Şurayi-Osmani» firqəsinin eyni məsləkini təqib edib, türklər ilə ermənilər arasında mövəddət və irtibatı artırmağa çalışır. Yeni türklər də bu yolda qafil oturmamışlar, onların da bu barədə xüsusi vasiteyi-nəşriyyatları olmasa da, ümumi nəşriyyatda buranı fəramuş etmiyorlar. Nümunə üçün şəhərimizdə çıxan «Füyuzat» məcmueyi-möhtərəməsinin 25-ci nömrəsində Türkiyə qanuni-əsasisinin banisi şəhidi-millət Midhət Paşanın xələfi Əli Heydərin bu xüsusda yazdığı məqaləsinin bəzi yerlərini eynilə nəql ediyoruz.

Mühərriri-möhtərəm məqaləsinin zimnində[1] bilcümlə bu fikri bəyan ediyor:

«Bu gün türklərin çəkdiyi zülm və istibdadı ermənilər, rumlar da çəkiyor... bir ermənininin, bir ruminin hüquqi-müqəddəseyi-məşruəsinə nasıl təcavüz ediliyorsa, bir türkün, bir islamın hüquqi-müqəddəsəsi öylecə pamal, həqarət edilir... ermənilər bu nöqtədə biz ilə müttəhid və müttəfiq ola bilirlərsə, onlar ilə nə üçün ittihad etməyəcəkiz və beş-on ermənininin istiqlal sövdası ilə məst olub, xəyalpərəstanə nəşr etdikləri fikirlər üçün bir millətin nə üçün ümum əfradını ittiham edəcəgiz...»

Hürriyyətin, səadətin varlığı insanların istiqbal və övzai-ictimaiyyələri fəqət millətlərin ittihadına, millətlərin qabili-ittihad olan siniflərinin ittifaqına bağlıdır. Burası bir həqiqətdir ki, bunu hamı məmləkətlərin tarixi isbat etməyə şahiddir.

Osmanlı erməniləri ilə türkləri bu həqiqəti anladılar, indi isə bu həqiqətin nəşri ilə məşğuldurlar. Biz rusiyalı, biz qafqazlı ermәni və türklərə də lazımdır ki, bu həqiqəti düşünək, əməlımıza fəqət birlik ilə çata bilməmizi anlayaq!

**Məhəmməd Əmin**
*«Yoldaş», № 2, 29 avqust 1907*

[1] zimnində – içərisində



## SKVOZNYAK

Rusiya tarixini oxuyanlara məlumdur ki, məşhur Pyotri-Kəbir Peterburqun binasını qoymaq istədikdə Neva çayının kənarında kol-kosluq və bataqlıq yerdə durub dedi ki, «mən buradan Qərbə pəncərə açacağam». Sözünə əməl eləyən və dediyində sabitqədəm olan imperator dediyini elədi və Qərbə pəncərə açaraq Peterburqu bina elədib, onun əhəmiyyəti-siyasiyyə və ticariyyəsi münasibətilə bəzi Avropa nizamını rusiyalılara göstərib öyrətdi...

Pyotri-Kəbirin bu pəncərə açması bizim hakimlərin rəyasət və pul keyfəmayəşə başlarında olub pəncərədə şöhrət gördükləri üçün və camaat tərəfindən özlərinə bir «etibar» qazanmaq üçün, Qərbdə işləyə bilməyib «Şərqə» pəncərə açmaq istədilər...

İstədilər də pəncərəni açmağa. Şərqin divarını yıxmağa başladılar...

Pəncərəni açdılar...

Lakin bu pəncərəni açmaqda böyük səhvə düçar olub, böyük bədbəxtliyə giriftar olduqlarını gördülər.

Qərbdə bu pəncərə varkən, Şərqdə də bir pəncərə açıldı. Pəncərə açıldı, nə açıldı... hürriyyət «skvoznyak»ı bu başdan vurub o tərəfdən çıxdı. Tufan eləyib bu vaxta kimi yığışan «nizam və qayda»ları vurub dağıtdı. Camaati də Avropadan götürdüyü «azarlara» mübtəla edib, böyük-böyük iddialara saldı.

Bürokratlar səhvlərini anladılar. Pəncərəni açmalarına peşman olub küləyin qabağına sədlər qurmağa başladılar...

*«Yoldaş», № 3, 1 sentyabr 1907*

## HƏFTƏ MƏKTƏBİ

Yekşənbə məktəbinin (telefonnu küçədə Mixayliyevski şkolanın məkanında) məşğulati bu yekşənbə günü sentyabrın 2-də başlanacaq, pəncşənbə avqustun 30-da axşam saat 5-də şkolanın mənzilində iclas olacaqdır. Bu iclasa keçən illərdə dərs verən kişilər və arvadlar dəvət olunmaq ilə bərabər, təzə dərs vermək istəyənlər də çağırılır.

Bu ildən əvvəlinci dörd kursun dərslərinin ana dilində olunması ehtimalından yerli əhli-maarifin iclasda olmaları artıq rica olunur.

*İdarədən:* müsəlman cavan əhli-maariflərinə tövsiyə ediriz ki, bu xəbəri və dəvəti bidiqqət buraxmasınlar, keçən il yadınızdadır ki, həmin həftə məktəbində müsəlman ürəfalarının bətalətinə adamın utanmağı gəlir, xəcalət çəkir idi. Dərs oxumaq istəyən müsəlman cavanlar lazım

qədərində məktəbə gəlir, dərs oxumaq istiyorlar idi. Amma dərs verənlərə böyük ehtiyac görünüb, demək olar ki, bir kəs belə gəlmiyor idi. Buradan ibrət almalı, kiçik qardaşımıza öz yaxınlarımıza kömək etməliyiz.

*«Yoldaş», № 3, 1 sentyabr 1907*

## HƏSBİ-HAL*

Şəxsimə aid bir bədbəxtliklə qara fikirlər edib, düşündüyüm zaman müğləq[1] və qeyri-müəyyən əhvalımı təsvir üçün bilaixtiyar qələmə aldığım şu bir neçə bəndləri dərci-stuni-«Füyuzat» edərək, bir növ sakitləşmək arzusundayam. Çünki demişlər: nəql etdikcə dərd azalar.

Qaranlıqdır bana dünya,
Bütün dünyavü-mafiha[2].
Diyorlar cümləsi guya:
Çəkil bir yanə sakitləş!

Daralı qəlb vasekən[3],
Qaraldı şəms laməkən[4],
Eşitmir guş saməkən[5]:
Çəkil bir yanə sakitləş!

Təhəmmül, səbr mümkünmü?!
Həyatə cəbr mümkünmü?!
Zəvali-qəhr mümkünmü?!
Çəkil bir yanə sakitləş!

Çıxıb əldən cilov gəlməz,
Mənə yarı ədu[6] gəlməz,
Bu dərdə çarəcu gəlməz.
Çəkil bir yanə sakitləş!

Dolu heyrətlə hər yanım,
Toxunmuş daşa peykanım.
Ədu insarə ixvanım[7].
Çəkil bir yanə sakitləş!

* **həsbi-hal** – söhbət, ürəyini boşaltma
[1] **müğləq** – bağlı
[2] **dünyavü-mafiha** – dünya və onun içindəkilər
[3] **vase** – geniş
[4] **lame** – işıqlı, parlaq
[5] **same** – eşidən, dinləyən
[6] **ədu** – düşmən
[7] **ixvan** – qardaşlar



Nə vəhşidir bəni adəm!
Mücəssəm zülmdür aləm!
Diyorlar cümləsi yekdəm:
Çəkil bir yanə sakitləş!

Çəkildim, ey hərifan, bən
Bu meydani şücaətdən!
Bütün dünya bənə derkən:
«Çəkil bir yanə sakitləş!»

Məhəmməd Əmin
*«Füyuzat», № 30, 12 oktyabr 1907*

## TƏSƏVVÜRATİ-ƏHRARANƏ*

Görüncə ixtilafi bən cahanda,
Həqiqət yox təsavi[1] bu zamanda,
Bütün ərbabi-zümü kəhkaşanda,
Fəqiri daima iczü fəğanda,
Olub aludeyi vəhmi təfəkkür,
Bu yolda eylərəm bir çox təsəvvür.

Düşündüm ki, nədir ədli-mürüvvət?
Kimi pürrəncü xüsranü məşəqqət,
Kimi insanların bir seyri nemət,
Bu nüktə artırar qəlbimdə heyrət,
Olub aludeyi-vəhmi-təhəyyür[2],
Bu yolda eylərəm bir çox təsəvvür.

Görüncə hər tərəfdə həqqi zail,
Gəlir əfkarimə yəzdani[3]-adil,
Ki guya rəhmdir məxluqa şamil...
Nə həqq ilə bən olmam küfrə mail?..
Edərsəm ədlinə həmdü təşəkkür,
Şu asarında müşküldür təsəvvür.

Diyorlar ki, xuda qadir və qəhhar,
Verən məzlumə əl, qəddarə cəbbar!
Bütün zülm ilə dolmuş çərxi-dəvvar[4]

* **azadlıq təsəvvürləri**
[1] **təsavi** – bərabərlik
[2] **təhəyyür** – heyrət
[3] **yəzdanı** – adil, adil Allah
[4] **çərxi-dəvvar** – fırlanan çərx, fələk, zəmanə

Təzəllümdə[1] bütün daşlarla dağlar!
Yenə bən eylərəm səbrin təfəkkür
Qalır ol qəhridən bir tək təsəvvür.

Əya qare, dayan bir etmə tüğyan!
Demə bu şeirimə asari-küfran!
Dərunimdir[2] bənim ləbrizi[3]-iman.
Bəni etməz əxafə[4] nari-niran[5].
Və lakin eylərəm bir çox təhəssür[6]
Ki ixvanim deyil sahib təsəvvür.

Gərək insan ola azadi-mütləq,
Bu insandan alınmaz həqqi-bərhəqq.
Qəvanin olmalı bu nöqtədən şəqq[7]
Bütün dünya buna olsun müvəffəq;
Bu surətlə olunsun hər tədəbbür[8]
Ki bimane edə hər kəs təsəvvür.

Siyasətcə nə rütbə olsaq azad,
Tamamilə olunmaz rəfi əfsad[9]
Camaat malı olsa ərzi-abad,
Olur məsud o anda cümlə ahad[10].
Gedər ol dəmdə dünyadən təəvvür,
Şu bəndi dinlə qare, et təzəvvür[11]!

**Məhəmməd Əmin Rəsulzadə**
*«Füyuzat», № 32, 24 oktyabr 1907*

## M.Ə.RƏSULZADƏNİN H.ZƏRDABİNİN DƏFN MƏRASİMİNDƏKİ NİTQİ

Həzərat! İndicə keçən natiq Əbülhəsən gördünüz ki, nə ürəkdən, ürəyinin ən dərin guşəsindən bugünkü hali-övzamızdən, şəhrimizin bir zülm-mücəssəm və qədr dəhşətnakə giriftar olmasından şikayət etdi.

Bu bəlayi-əzimdən qurtarmaq, bu dəhşətli zülm və qəddarlar əlindən xilas olmaq üçün o təklif ediyordu ki, rəislərimizə yalvaraq, yaxaraq, taki onlar bizə rəhm edib yazıqlansınlar, bizim halımıza yanıb əhvalımıza çarəsaz olsunlar.

[1] **təzəllüm** – zülm və təcavüzdən şikayətlənmə
[2] **dərun** – ürək, qəlb, batin
[3] **ləbriz** – dolub-daşan
[4] **əxafə** – qorxutmaq
[5] **nari-niran** – cəhənnəm odu
[6] **təhəssür** – həsrət çəkmə
[7] **şəqq** – parçalanma
[8] **tədəbbür** – tədbir, düşünmə
[9] **əfsad** – fəsadlar
[10] **ahad** – tək-tək adamlar
[11] **təzəvvür** – hiylə, yalan



Heyhat! Möhtərəm natiq səhvdədir. Bizdə rəis yoxdur. Bizim rəislərimiz camaatimizin başına cəlladlar olmuşlar. Biçarə camaati bu cəlladların əlindən qurtarmalıdır. Bu xilaslıq da camaatin öz əli ilə gərək olsun. Başqa bir yol yoxdur. Camaat özü-öz azadlığına gərək çalışsın. Rəislərə yalvarmaq, onlardan mərhəmət istəməklə onun halına heç bir fayda olamaz. Çün həmişə qoyun nə qədər xırıldasa, nə qədər nalə iltica etsə də, qəssab onun bu naləsinə baxmaz. Ancaq öz işinə məşğul olar, başın kəsib dərisin soymağa, ətin çəkib taraş etməyə çalışar.

İştə camaati bu dərəcəyə çatdırmaq, öz həqqini alacaq mərtəbəyə yetirmək üçün onun gözlərini açmaq, həqqi və batili ona bildirmək lazımdır. Dəyər ki, camaat öz həqq və ixtiyarını, öz bacarıq və gücünü bilsin, o zaman heç kəs onu sıxıntı altında saxlaya bilməz.

Camaati ayıltmaq, onu dərrakəli etmək üçün nə lazımdır? – maarif, maarif, maarif! Ancaq elm və bilik ilə camaat özünün nə olduğunu və nə edə biləcəyini qana bilər.

İştə bu yolda da təşyiinə yığışdığımız bu mərhum işləyib ömrünü keçirmişdir. İştə bu qoca ədib də həman camaatin hər dərdinə dərman olan ürfan toxumlarını səpmişdir ki, bu barələrdə çox danışıldı və vaxt müsaidət etmədiyindən nitqimi uzun etməyib qurtarıram.

Həmin bu maarif mücahidi olan piri-rövşənzəmirə xitabən camaatin maarifmənd və mütərəqqi olduğunu özünə məslək tutan «Nicat» maarif cəmiyyəti tərəfindən deyirəm ki, yat, Allah sənə rəhmət eyləsin!!

*«İrşad», № 122, 2 dekabr 1907*

## ŞEİR

## MƏZALİYYƏT İÇİNDƏ MÜBHƏMİYYƏT*

Dünya nədir, ey qare?
– Bir zülm mücəssəməsidir!
Varlıq nədir ey fani?
– Bir dərd ki, mübərrəmdir![1]

Diyorlar ki, ədalət var!
Guya ki, mürüvvət var!
Bəs harda bu varlıqlar?
Ətraf ki, müzlümdür![2]

* Zülm içində anlaşılmazlıq
[1] **mübərrə** – aydın, aşkar
[2] **müzlüm** – zülm edən

Diyorlar ki, onun zilli
Fərmandehi dövrandır.
Bu doğruya filvaqe[1]
Doğru özü mücrümdür![2]

Dünyada olan asar
Əmr ilə olurmuş yad
Asarə səbəb lazım
– Bu fikir müsəlləmdir.[3]

Asar deyil yek rəng
Ənvai firavandır.
Oldur ki, üluhiyyət[4],
Mahiyyəti mübhəmdir[5].

**Məhəmməd Əmin Rəsulzadə**
*«İrşad», № 124, 6 dekabr 1907*

## DÖVLƏT DUMASI

Dövlət duması mövludi-məsihi bayramı münasibətilə etdiyi tətili qurtarıb, iclasa şüru etdi.

«İş görməyi hər bir danışıq və sözdən əfzəl hesab edən» üçüncü Duma tətilləri qurtarıb, millət ehtiyacının rəfinə çarələr aramağa «ciddi» surətdə şüru etdi.

Möhtərəm qare nə xəyal ediyorsan? İyun üçünün qanunu ilə* yığılan Dumadan nə gözlüyorsan?..

Ac və yersiz kəndçilərin hifzi-hüququnumu?..

Biçarə fəhlələrin zəhmətlərini təmin edən qanunlarımı?..

Məhkum millətlərin ixtiyari-millilərini təsviyəmi?..

Camaat vəkillərinin bu vəkalətə layiq bir ixtiyara sahib olmalarınımı?..

Gözlə, qare, gözlə, gözlədikcə gözləyəcəksən...

Duma nəinki zikr olunan bu məsələləri həll edəcək, bəlkə, rəisi Xomyakov vasitəsilə elan etdiyi üzrə ayrı-ayrı ittifaqlarda belə verilən ərizələrə, şikayətlərə də baxmayacaqdır...

---

[1] filvaqe – həqiqətən
[2] mücrüm – günahkar
[3] müsəlləm – aydın
[4] üluhiyyət – ilahiyyət
[5] mübhəm – anlaşılmaz

* «İyun üçünün qanunu» keçən sənə iyunun 3-də sadir olub. İkinci Dumanın dağıdılması ilə barabər, 17 oktyabrda verilən fərmanın təbdilindən ibarət olub qanuni-əvamiyyəni pozan bir fərmana işarədir *(Qeyd müəllifindir – Ş.H.)*.



Deməli ki, Duma millət pənahgahı deyil, hökumət işlərinə bir pərdə olacaqdır...

Mətləbdən uzaq düşdük: Dumanın tətilindən sonra etdiyi müzakirətdən göründüyü mühüm işlərdən danışmaq istəyirdik.

Bəli, «iş görücü» Duma böyük bir məsələ həllinə girişdi. Dumaya məxsus bir dəllək tapmaq, yaxud dəlləkxana açdırmaq məsələsi üçün xüsusi komisyon seçib işi ona həvalə etmişdir.

Bəh-bəh! Daha nə lazımdır? Millətin hər bir ehtiyacı düzəldi... «millət vəkillərinin» xüsusi dəlləyi olacaq!..

Dövlət dumasının bu qərardadı dedikcə şayani «təqdir»dir, çünki millətin dəlləyi olan vəkillərə xüsusi bir dəllək lazım idi...

Buna heç kəsin iradı ola bilməz və vaximdir[1] də!

Şad ol, millət vəkillərüvün xüsusi dəlləyi var, daxi həlakətdən qurtardıq!..

**Rəsulzadə**
*«İrşad», № 7, 15 yanvar 1908*

## ŞEYXÜLİSLAMLIĞA DAİR

Dünən «Nicat» maarif cəmiyyəti tərəfindən üzvü Mehdi bəy Hacınski adına Tiflisə böylə bir teleqram göndərilmişdir:

«Müsəlman maarif məclisi «Nicat» cənabınızı vəkil edir ki, «Nicat» tərəfindən canişin həzrətlərindən şeyxülislamlığın seçki üzrə olmağını vəsatət edən komisyonda nümayəndə olasınız.

**Sədr: Rəsulzadə**
**katib: Hacıbababəyov»**
*«İrşad», № 7, 15 yanvar 1908*

## MÜFTİNLƏR İŞLƏYİR

Hardan olduğu məlum olmayan bir kağızdan müftinlər mənfəətbərdar olmaq istiyorlar. Bulanlıq suda balıqçılıq edənlər suyu bulandırmaq təşəbbüsündədirlər. İki qonşu millətin böylə rahət və istirahətə üz qoyduqlarında özlərinin şəxsi zərərlərini görüb, öpkə[2] ediyorlar. Xuliqanlar işliyorlar. Cənab Hacı Zeynalabdin Tağıyevin müsəlman əhalisinə etdiyi xitabi, cibinin soyulduğunu gördükdə elədiyi fəryadı bəzi ana südü əmmiyənlərə mayeyi-fitnə və fəsad olmuşdur. Hacının məktubunda işarə edilən «bu dəstənin içində müsəlmanlar da vardır» kəlamın dərəvərdə-

---

[1] vaxim – qorxulu
[2] öpkə və ya əfkə etmək – əsəbiləşmək

sini əldə dəstavuz edib, bəzi möhtərəm ərbabi-qələmimizin və işləyən cavanlarımızın adını çəkirlər. Bundan başqa da bir ayrı, daha vəxim bir tədbirdə bulunmaq istiyorlar. Bəzi şəxslərdən eşitdiyimizə binaən bir təqım cuhələ bu vəqəəni əldə sərmayə edib, bəzi növ bəd vədələrə uyub dənaətkarana bir para hərəkətdə bulunmaq niyyətində imişlər.

Bunların hamısı ara sözlərinə oxşuyur. Biz hərgiz millətimizin o qədər cəhl və qəflətinə inanmıyoruz ki, bir də böylə müftinlərə uyub özünü həlakətə salsın. Biz heç bir vaxt buna qail ola bilməriz ki, bir-iki dəni xasiyyətlərin iğvası ilə millət öz nükbət və bədbəxtliyinə səbəb olsun...

Bu xüsusda millətin lazım qədər hazır olduğuna dəlillərimiz var. Bu məsələ xüsusunda Hacının öz məktubundan başqa digər məktublar da məzmunca daha səqim[1] olaraq intişar etdi. Lakin bir çox oxucuların bu yazılardan izhari-nifrət edib, bunların qeyri-səmimi olduğunu təsdiq edənləri görüb, inandıq ki, bu yazılar əsərsiz qalacaqdır. Hacının məktubunu oxumuş bir qaredən təsəvvürünü xəbər aldıqda böylə cavab verdi:

«Əşi, qoysana getsin, daha o vaxtlar keçdi. Cibinə əl atırlar, – deyə dad fəryad ediyor. Niyə bəs özgələrdən istəyəndə heç cınqırını da çıxartmıyordu?» Bu cavabı verən qare ən sadə oxuculardan biri idi.

İştə bu da bir fərəh yetirici vəqəə! Görünür ki, müsəlmanlar da yavaş-yavaş oxuduqlarını, eşitdiklərini tənqid etməyə başlıyorlar. «Səmina və ətəna»[2] dövrü keçiyor. Görün nə itaət etmək, özünün dürüşt[3] imtahanları ilə millətimizi tərbiyə edir, getdiyi yola açıq göz ilə baxmaq, tutduğu işi tənqid üzrə görmək, itaət etdiyi əmrə dərki-mənfəət ilə razı olmağa başlayır.

Doğru, hənuz millətimiz arasında köhnə və köhnəçilər, müqəllid sərflər çox olub faili-əmabəstlər[4] payidardırlar. Lakin bu qədər var ki, o köhnə binanı yıxan tənqid şüası çırtlamış, cəhalətin inhidamına bünövrə qoyulmuşdur.

Bu məqaləni yazmaqda məqsədimiz əhalini müstəhzər[5] edib, fövqdə zikr etdiyimiz xuliqanların dağıtdığı yalanlardan, ixtira etdikləri böhtanlardan törənə biləcək fəsadın qabağını almaqdır.

Millətə hər bir fitnə və fəsadın mənbəyini göstər, onun nə tərəfdən və nə cür gədiyini bildir, o zaman əminiz ki, millət nə edəcəyini bilər.

İştə, camaatimizin pişröv əhli-maariflərinə lazım və vacibdir ki, hər belə ittifaqlarda səhlənkarlıq etməyib, vəqəənin əlacını vüquundan qabaq eləsinlər. Yoxsa sonrakı peşmançılıq fayda verməz, «daldan atılan daş topuğa dəyər», – demişlər.

[1] **səqim** – saxta, düzgün olmayan
[2] **səmina və ətəna** – eşitdik və itaət etdik.
[3] **dürüşt** – sərt, qatı, qaba
[4] **əmabəst** – nadanlığa bağlı
[5] **müstəhzər** – agah etmək



Bir az açıq olalım: «əsl rus firqəsi» qanadlanır. Ümumrusiyada qalxan reaksiya Bakı Dimanskilərinin də qol-qanadını açır. «Bu firqə Bakıda heç nə edə bilməz», – deyib oturmaq həman cərəyan edən vaqiata bilatənqid nəzər etmək deməkdir.

«Əsil rus firqəsi» bizim fəhm etdiyimizcə işsiz deyildir, işliyor. Əgər qəflət edərsək, işində müvəffəq də olar.

Aramızda cahillər, baş alladan, «imtiyazlar»a uyuyanlar hələ çoxdur. Hərəsinə bir medal navidi, bir tapança bağlamaq izninaməsinin alınması ilə rus firqəsi artıq işlər görə bilir. Əmin olunuz ki, bu tədbirlər istifadə olunmaqdadır.

Müsəlman qəbristanlıqda oturub da «rus firqəsi» müsəlmanlara qəbir qazımaqdadır... Güman etməyiniz ki, qəbri öz əli ilə qazıyor. Xeyr, müsəlmanlar arasında öylə dənilər tapılır ki, onların əli ilə bu qəbir qazılır. Və «əsl ruslar»ın məramnaməsində yazıldığı üzrə pravoslavnılardan başqa cümlə millətlərlə bərabər müsəlmanların da hər bir hüquqi-milliyyələri bu qəbirdə basdırılır.

İştə fövqdə işarə etdiyimiz müftinlər bu qəbir qazıyan həriflərdəndirlər.

Ey hüquqi-milliyyəsini mühafizə edən millət hamiləri, camaat didəbanları[1], hüquqi-milliyyə nigahbanları, çalışmalı, yuxudan oyanmalı, övzai-kardan müxbir olmalı, dövrəmizi bürüyən mübarizeyi-həyati tənqid etməlidir! Tənqid etməli də millətin dostu ilə düşmənini ona bildirməlidir. Tainki, millət özü ayılıb ona qəbir qazımaqda olan pəzəvəngləri qazdıqları qəbrə yummaladıb, diri-diri basdırsın!..

İndiki zaman – reaksiyanın qüvvət tapdığı bir həngam, bəlaların hər yandan gəldiyi bir vaxt, hər bir hüquqi-bəşəriyyə və heysiyyəti-milliyyənin qarovulunda durulacaq bir əyyamdır! Bu vaxt qəflətlə keçəcək olursa, izmehlal[2] və sərnigünluq bəratına[3] qol çəkib, təslim olunmalıdır. Qazılan qəbrə girib də istirahəti-ruh üçün təlqinçi istəməlidir...

Həyatımıza baxalım da ibrət edəlim, qardaşlar!..

**Rəsulzadə**
*«İrşad», № 8, 17 yanvar 1908*

[1] **didəban** – gözətçi
[2] **izmehlal** – puç olma, məhv olma
[3] **bərat** – təhvil kağızı

## XIRDA-MIRDA

Yevropanı səyahət etmiş bir nəfər mənə inanılmayan bir şeyi nəql ediyordu. Diyordi ki, mən Germaniya paytaxtında idim. İmperator elan vermişdi ki, naxoş olduğundan hər papaq açana cavab olaraq papaq aça bilmiyor və ona görə də əhalidən təvəqqe ediyor ki, küçə və parklarda gəzdiyi zaman ona papaq açmasınlar...

Mən bu sözü eşidən kimi səyyahın ağzından vurub dedim ki, bura sənin üçün Quba meydanı deyil ki, dərvişlik ediyorsan, get bu sözləri avam adamlara de ki, heç nə bilmiyorlar. Qəzetə mühərririni aldada bilməzsən! Tanrının qoçusuna, torbaboyun hacısına, qotur bəyinə salam verməyəndə adamı çarmıxa çəkirlər. Necə olar ki, padşaha təzim eləməsinlər?..

Başladı ki, axı ora bura deyil, orada elm var, mərifət var...

Dedim ki, qoy qalsın, elmli, mərifətli upravlyayuşçiləri də çox görmüşük!..

Dedi ki, axı orada azadlıqdır, məşrutə vardır...

Sözünü kəsdim ki, qoy qalsın, azadlığı, məşrutəni də gördük, belə sözləri biz çox eşitmişik...

Xülasə, ha çalışdı ki, məni aldatsın, aldanmadım. Axı, canım, necə mən buna inanım ki, a... padşah diyor ki, mənə təzim eyləmiyin. Halonki burada bir nəfər «saqqala» salam verməsən əlli iki min bəlaya gələrsən... Böylə şeyi insan gözü ilə görsə də, inanmaz...

* * *

Keçən nömrəmizdə oxudunuz ki, millət vəkilləri Dövlət dumasına xüsusi dəllək hazırlamaq təlaşındadırlar. Lazımdır ki, Dumanın müsəlman fraksiyası da bu xüsusda geri qalmasın.

Belə mühüm ixtiyarlarımızı da bərqərar etməsək, pəs dəxi bizim nə müsəlmanlığımız.

Müsəlman fraksiyasına tövsiyə edirəm ki, məsələ qalxızıb özlərinə xüsusi Duma hənafüruş[1] hazırlasınlar...

* * *

«Rus millətinin ittifaqı»nda olan dava gün-gündən böyükləşir. Purişkeviç ilə Dubrovin vuruşub qurtarıblar. İndi də Dubrovinin oğlu çıxıb diyor ki:

«Purişkeviç həpənd oğlu,
Gəl vuruşaq, duel quraq,
baxaq ki, kimdir axmaq».

[1] **hənafüruş** – hənə satışı



Deyirlər ki, Dubrovinin oğlu Purişkeviçi duelə çağırdığının səbəbi Purişkeviçin məzkurun atasına «axmaq» dediyidir. Doğrusu ki, Dubrovinin oğlu nə qədər dalıbaş olsa da, biz demək istəyirik ki, Dubrovin, doğrudan da, axmaqdır, hərgah o axmaq olmasaydı, onun oğlu belə sarsaq olmaz idi.

* * *

Bu günlərdə Samara müsəlmanlarının cəmiyyəti bir übudiyyət[1] teleqramı edib, cavabında «spasibaya» nail olmuşlar.

Burada artıq danışmaq yaramaz. Müsəlman cəmiyyətləri və sahib nüfuzları teleqrambazlıqdan başqa nə şeyi edə bilərlər?..Teleqram para töhfeyi..... N.

* * *

Şəhərdə bəzi işi-gücü qurtarmışlar, söz buraxıblar ki, guya, Əli bəy Hüseynzadə Şeyxülislam olacaq... Ey Dubrovindən də axmaqlar, belə xəbərə də inanmaq olar? Əli bəy həman o Əli bəy deyil ki, a... diyordu «Avropa qiyafətli olmalı», indi necə olar ki, həman Avropa qiyafəsini dəyişib, götürüb başına zorba bir əmmamə qoysun? Belə iş beynimə girmiyor.

* * *

«Leyli-Məcnun» operasından
İranın atası – ey balam rahət ol.
İranın anası – İran, İran!..
İran – əbəveyn[2], hürlük həvası məni azad edəcəkdir, məni azad edəcəkdir.

* * *

Mollalar şikayət ediyorlar ki, məscidlərin ağzı bağlanıb teatrlar dolur. Bunun təqsirini tulluyurlar teatırçıların üstünə. Bir bunlara diyən gərək canım sənin dükanına gələn yoxdur, mən dükanımı bağlıyımmı? Müştərinin bir dükana o birindən çox gəlməyi o dükanda satılan mətaə bağlıdır. Məscidlərin boş qalmasının səbəbi teatr deyil, məscidlərdir. Yəni məscid rəisi olan mollalardır.

**Mərzadə**
*«İrşad», № 8, 17 yanvar 1908*

[1] **übudiyyət** – qulluq
[2] **əbəveyn** – ata-ana, valideyn

## ŞAYİAT

Reaksiya günü-gündən artıyor. 3-cü Dumanın buraxılması barəsində də şayiat dövran ediyor.

Stolıpinin politikası o qədər «sob» imiş ki, sağlar belə «kənar olsun «kadet»lik edən vüzarət», – deyə etdiyi indiki kabinədən narazılıq izhar ediyorlar.

Dumada sükançılıq vəzifəsini icra edən «oktyabrist» firqəsi də nə qədər ehtiyat etsə, nə qədər hökumətin ləpiri ilə gedirsə də, yenə də bir həlakətə məhkum olmuş kimi görünür. «Oktyabrist» firqəsini nam və şöhrətsiz bir həlakət gözliyor.

«Amerika ilə ittifaq etməyimizə lüzum görüldüyündən» yenidən flot hazırlamaq üçün Duma təxsisat buraxmaq dərəceyi-bəlayanəsinə kimi gəlib hökumətin ürəyini ələ almadadırsa da, bununla belə, yenə də özünün varlığından şəkdədir.

İştə «oktyabrist» dəvairini böyük bir təşvişə salan bu şayiədir ki, «Qolos Moskvı» qəzetəsi belə bundan vahimə ediyor.

İrtica hər qisim olsa da, «oktyabrist»ləri də «müttəhim» etmək təşəbbüsündədir. Bu şayiələrin nə qədər doğru olması məlum olmasa da, lazım gələn məhafildən bunun təkzib edilməsi də hənuz intişar etməmişdir.

Görək ki, üfüqümüzü bürüyən bu qaranlıqların nəticəsi nə olacaq?!.

**Rəsulzadə**
*«İrşad», № 9, 19 yanvar 1908*

## XIRDA-MIRDA

Sovet syezdən şəhər idarəsinə böylə bir məktub gəlmişdir:

«Siz çalışdınız ki, bizə çatasınız, mümkün olmadı, indi biz sizə çatmaq istiyoruz.

Aşna, bilirsiniz nə var, camaat işində olan adamlar gərək ya göydən ensinlər, ya da ki yerdən çıxsınlar, yainki, qövm-qardaşları olmasın. Bu qövm-qardaşın ucundan bizim kassamıza da siçanlar yol tapdı. Siz allah, bizə bir məsləhət görün, siz belə işlər çox görmüsünüz dünyadidəsiniz. Öz gördüyünüz işlərdən bizə də bir çarə göstəriniz.

*Dastakyan».*

Şəhər idarəsindən də bu məktuba aşağıda dərc olunan cavab getmişdir:

*«Möhtərəm Dastakyan!*

Məktubunuzu alıb, mütaliə etdik. Artıqcasına sevindik. Sizin də bizim günümüzə düşməyinizi təbrik ediyoruz. Nə çarə, qövmü-əqrəbə gözləməkdən labüd gərək xərclər azalsın. Bu xüsusda gördüyümüz təcrübədən sizə məsləhət görərik ki, əvvəl başlayın fəhlələr üçün açdığınız gecə kurslarından, sonra bolnitsalardan, gündüz məktəblərindən, yavaş-yavaş durun bağlamağa. Allah kərimdir, bəlkə, bir təhər ilə başınızı dolandırasınız. İki ayın məvacibini birdən də verməmək olar. Bələləri var ki, üç-dörd ay da gözləyə bilərlər. Bunlar da baxır sizin zirəkliyinizə. Xülasə, lazım olmayan şeyləri yığışdırın! Nəyə lazım ki, fəhlələr oxusunlar?! Onlar onsuz da bilirlər. Amma qövm-qardaşı gözdən salmaq olmaz. İnsanın bir yıxılacaq günü də var, onu da gözləməlidir.

Şəhər rəisi əvəzi *Səfər Əlizadə»*



## FƏLSƏFƏ

Dünya bir karvansaradır. Heç kəs burada qalacaq deyildir. Ona görə də dünyanın abadlığına çalışanlar axmaqdırlar. Özgə üçün çalışırlar, kişi sərmənzil fikrində olsun gərək, həmişəlik məkanını təmir eləsin, qəbristanlıqlar gərək abad olsun. Odur ki, mən müsəlmanların biri-birlərini öldürüb tələf etdiklərini həmişə təhsin edirəm. Çünki bu adamlar həqiqəti-ümura layiqincə bələd olub, dünyadan əl çəkmiş, qəbristan təmirinə girişmişlər.

İştə axirətpərəst, qəbristanabad olmaq istəyirsənsə qoçu ol!..

## SƏFSƏTƏ*

Hər nə varsa, dünyadadır. Dünyanın həyatındadır. Səadət də, nükubət də, sərvət də, zillət də – hamısı buradadır – anladınmı. Topraq olacaqsan, səndən baqi qalacaq bir tük belə olmayacaq. Əsərindən dünyada gördüyün xeyir və ya şərlər qalıb ya rəhmətə, ya lənətə giriftar olacaqsan.

İştə çalış dünyanı abad elə. Bu abadlıqda di gəl öz nəfsini, gələcəyi nəzərdə tutub bərpa et!

**Mərzadə**
*«İrşad», № 9, 19 yanvar 1908*

## KEŞİŞLƏR DÖVRANI

Rusiyanın indiki övzai-siyasiyyəsi bir hala gəlmişdir ki, buna «keşişlər dövranı» deyilsə rəvadır.

Əvət! Reaksiyanın qalxdığı ilə siyasi bir qaranlıq Rusiya üfüqünü örtüyor. Qaranlıq düşdükcə də «şəbpərələr»ə[1] meydan açılır.

* səfsətə – həqiqət ilə bəzədilmiş yalan

[1] şəbpərə – yarasa

Həmişə Rusiyanın səadətini «pravoslaviya» dininin hakimiyyətində və özgə dinlərin «müqəddəs sinod»a tabe olmasında görən siyahpuş keşişlər öz təəssübü-ruhaniyyələri ilə Rusiyanın müsavil-hüquq olan vətəndaşlarını biri-birinə məsnu[1]-i bir yol ilə düşmən etməkdə olub. «Rusiya kimi qəviyyüş-şəkimə bir xristian dövlətin paytaxtında məscid minarəsi ucalıb, əzani-Məhəmmədi deyilərsə, bu xristian aləmi üçün təkdir olur», – deyə tarix səhifələrini istibdad və qəddarlıqları ilə təzyin edən qruni-vüsta[2] papaslarına yaqışar bir hərəkəti-istibdadkaranə ilə vətənimizin inhidamına çalışır, müxtəlif millətlərin arasında məmul[3] olunan mizani-etidalı pozmağa səy ediyorlar.

Bunlardan bir paraları tapılır ki, tinətcə «Rusiya» qəzetəsində oturub, pula sitayiş edən «müsəlman» Məhəmməd Ağa Şahtaxtinskidən ibarət olacaq dərəcə rəzil olub, qəzetə stunlarında müsəlmanlardan danosbaz məqalə «kömək edək» çığıraraq, bütün «həqiqi rusları» və «pravoslaviya tərəfdarlarını» haraylayıb hökumət amirlərinin «səhvindən», müsəlmanların «üsyanından» bizarlıq ediyor və bu yol ilə mövqeyi lüzumuna bildiriyor ki, bu «üsyançılar»a tənbeh olunsun gərək.

Bu xüsusda artıq təfsilata ehtiyac görməyib, keçən nömrəmizdə dərc olunan keşiş «Andrey»in «Russkiye vedomosti» qəzetəsində çap etdiyi məqaləsinin tərcümə və cavabına cəlbi-diqqət etməklə iktifa[4] ediyoruz.

Keşişlər dövranı bununla da məhdud deyil. Onların daireyi-nüfuzu o yerə çatmışdır ki, Stolıpin kabinəsi belə onlardan ehtiyat edib, müqəddəs sinodun təhdidatı altında yaşamaqdadır.

Bütün heyəti-idarəsi sahibnüfuz pravoslavnı keşişlərindən olan «müqəddəs sinodun» Rusiyada məşrutiyyət elan edilməsindən irəli hökumət dəvairinə artıq bir əsəri olub, hər bir qanunun nəşində, xüsusən edilən müxtəlifə sahiblərinə dair olan qanunlar barəsində onun rəyi əsas olaraq qəbul edilirdi. O cəhətdən də Rusiyanın «məhkum» millətləri, vətəndaşları pravoslavnıların mənfəətbərdar olduqları həman bir çox adi hüquq və ixtiyaratdan məhrum tutuluyorlardı. Bu barədə vaxtilə çox yazılmışdır (Az oxuduğunu bilmiyoram).

Bu aralıqda keçən dövri-inqilab, sol firqələrin zəmanii-müvəffəqiyyəti keşişləri o məqamdan salmış, qarafikirlilərin qara «libas»lar (keşişlərin geydiyi qara xələt) altında gizlənməsinə səbəb olmuş idi.

Hökumət isə hər bir vəsiləyə dəstandaz olaraq, solunda duranları sakit olmağa var qüvvəsi ilə çalışıb, onları zəifləşdirdi. Stolıpinin «hürriyyətpərvər» kabinəsi bu xüsusda fövqəladə tədbirlər görüb, ciddi surətdə çalışdı. Sol tərəf əleyhdarları – müvəqqəti də olsa gerilədi.

[1] məsnu – süni
[2] qruni-vüsta – orta əsrlər
[3] məmul – arzu edilən
[4] iktifa – kifayətlənmə



Sol tərəf geriləndi, iştə qanuni-təbii olaraq, gerilənən sol tərəf yerini doldurmaq üçün Stolıpindən sağda duran «sağ xilafdarlar «hərəkətə gəldilər». «Əsl rus firqəsi» – kənar olsun inqilabçı «kadet» kabinəsi təşkil edən Stolıpin heyəti-vüzarəsi, – deyə fəryad və fəqan etməyə başladı. Bu azdır. Boş qışqırıqdır. Dövranı özlərinə müsaid görən keşişlər sinodu isə Dumada olan vəkil keşişlər ilə bərabər fel[1] – protestda bulunub, vüzarətin Dumaya verdiyi «hürriyyət və vicdan» qanun layihəsində cüzi bir «hürriyyətcik» hissi gördüklərindən rəsmi surətdə Stolıpindən tələb ediyorlar ki: ya gərək bu layihə geri alınıb, müqəddəs sinodda təshih edilsin, yainki, bu xüsusda sinod tərəfindən tərtib verilən «əlavənamə» qəbul olunub layihəyə ilhaq olunsun.

«Novoye vremya» qəzetəsinə inanmaq olursa, – hərgah kabinə bu dəfə tərəddüd etməmişsə də, gələcək dəfə səbatına[2] da güman yoxdur.

«Sağ xilafdarlar» necə ki, görürük kəmali-sürətlə işləməkdədirlər.

Dövran dəyişir. Rusiya günü-gündən geri gedib, qaranlıq artır. Keçmişdə olduğu kimi keşişlər meydan ediyorlar.

İştə Rusiyanın indiki zamanı «keşişlər dövranı» olmağa üz qoyur.

Lakin dəryayi-mühitin hər cəzrinə[3] müqabil bir məddi[4] də vardır.

Bu da qanuni-təbiidir.

**Rəsulzadə**
*«İrşad», № 10, 22 yanvar 1908*

## XIRDA-MIRDA

– «İxtilafi-ümməti-rəhmət»
– Bu sözün mənası bilirsiniz nədir?
– Bilmiyorsan xəbər al deyim:
– De görək də nə xəbər alım:
– Namiq Kamal bəy bunu belə məna ediyor:
– «Çıxar əsəri-rəhmət ixtilafi-rəyi ümmətdən».
– Yoxsa türkcə olmadı?..
– Türkcəsini dinlə söyləyim:
– «Yəni bir camaatin fikrinin ayrılığından rəhmət (Allah atasına rəhmət eləsin) əsərləri çıxar».

[1] fel – fitnə
[2] səbat – sözündən dönməmək
[3] cəzr – qabarma
[4] mədd – çəkilmə

– Heç bilirsiz bu sözü kim deyib?

– Kim olduğunu bir de görək.

– Bu peyğəmbərimiz səllallahu əleyhi və səlləm həzrətlərinin buyurduğu hədisi-şərifdir.

– Bilirsinizmi ki, biz müsəlmanlar bu hədisdən qorxub deyirik ki, islamda ixtilafi-fikir ola bilməz?..

– Kim qorxduğun xəbər al deyim:

– De görək o axmaq kimdir.

– Cinli Əli Abbas Tağızadə.

* * *

– Nə yazmısan, ay cocuq?

– Bir nəfər «adsız»a tovbixnamə.[1]

– Nə üçün, a balam!

– Mənim adımı götürüb öz məqaləsinə ünvan yazmış.

– Bundan niyə dəxi acıqlanırsan. Axtardığın elə bu deyilmi ki, adın hər yerdə deyilsin?..

* * *

Oturub yazı yazırdım. Birdən gördüm ki, bir küy-kələk qopdu, təbil, sənc[2] səsi asimana bülənd oldu. Məni bəht[3] apardı. Özü-özümə dedim ki, Allah, ...görəsən, bu nədir!.. Bu vaxt gözüm divardan asılı olan təqvimə düşdü! Məhərrəm yaxınlaşdığını anladım. Sakit olub, işimə məşğul oldum. Bir-iki sətir yazmışdım ki, bir də gördüm tapançalar gurhagur işlədi. Dəhşətli yerimdən qalxıb, qapıya yüyürdüm, gördüm ki, müsəlmanlar dəstənin dalınca gedirlər, amma qeyri müsəlmanlar atışma gələn tərəfə qaçırlar. Bir nəfər müsəlmanı yüyürdüyü yerində saxladım.

– Qardaş, o yandan gəlirsən, indi orda atışma vardı, nə olmuşdu?

– Heç, iki dəstə müsəlmanlar atışdılar, bekar işdir!

– Bəs bu tərəfə hara gedirsən?

– Bah! Görmüyorsan məhərrəmlik dəstəsi gəlir!

– Orada nə təəccüblü iş var ki, hər il gördüyümüz şeydir da!

– Bu yanda nə var, hər gün gördüyün şey deyilmi!

[1] **tovbix** – məzəmmət etmə, danlama

[2] **sənc** – dəfə bənzər musiqi aləti

[3] **bəht** – heyrət



## PEŞİMANDIR

Deyirlər ki, guya, Stolıpin solları Dumadan qovmağına peşimandır. Çünki sağlar ona güc eliyor... Amma mən belə bilirəm ki, ...nə deyim hazırda baxırsan elədi ki, var. Bu vaxtacan o, keşişlərə diyordu ki, belə edək, indi keşişlər ona deyirlər...

**Mərzadə**

*«İrşad», № 10, 22 yanvar 1908*

## ƏHVALİ-ZAMAN

Məlum olduğu üzrə, Osmanlı ilə İran arasında baş verən sərhəd məsələsi qanlı müsadimələrlə nəticələnməkdədir.

Fəqir-füqəranın nahaq və məsum qanları zamanə müstəbidlərinin keyf və istəklərinə, politika dedikləri şeytanətlərinə qurban edilməkdədir.

Urmiyədən əllərində möhürlü ianə dəftərləri olaraq səfil bir surətdə «sərhəd» hücumlarından adamları qırılıb, bisarü pa[1] qalan yetim və dul övrətlərə ianə yığmağa gələn asurilərin üzlərində müşahidə olunan əcz[2], danışıqlarında görünən biçarəliyi vicdanlı bir kəs görürsə, bir dəfə dövrisərmayənin yaratdığı üsuli-əskəriyyəyə nifrət oxur və böylə insaniyyət ədusi vəba və taundan daha bəttər bəlayi-cansiparın[3] əleyhinə müsəmməm[4] olub, «kənar olsun əskərdarlıq, yaşasın sülhi-ümumi», – deyə fəryadi-səmimanə və insaniyyətpərvəranədə bulunar.

Nə edərsən ki, yazdığımız şu həqiqəti insanların hamısı hənuz qanmaq dərəcəsinə gəlməmiş, o cəhətdən də hirs və təmah atəşlərini insan qanı ilə yatıranların xunalud olan əlləri işləməkdən qalmamışdır.

Təbiidir ki, bu qəsd istibdadkaranəsi ilə Osmanlı hökuməti İrana mənəvi bir qorxu və dəhşət vermək qəsdi ilə qoşunlarını yığıb münazi[5] olan tərəfə yollayır.

Xəyal edirsən ki, bu bir əmri-təbiidir.

Lakin rus maziparəstlərinin ələmdarı olan «Novoye vremya» qəhrəmanı Menşikov ayrı cürə başa düşür. Xəbərdarlıq naqusunu[6] çalıb elan ediyor ki, Osmanlı dövləti Rusiyaya hücum etmək qəsdi ilə tədarükat görməkdə və bu qəsd ilə də Kiçik Asiyaya rədif[7] qoşunları yeritməkdədir.

[1] **bisarü pa** – səfil

[2] **əcz** – taqətsizlik

[3] **cansipar** – can çəkişən

[4] **müsəmməm** – qət edilmiş

[5] **münazi** – burada düşmən

[6] **naqus** – zəng

[7] **rədif** – nizami

Bu «təhlükəni» görüb də «Novoye vremya» Qafqaz qoşunlarının hazırsızlıqlarına işarə edib, Qafqaz hökuməti-aliyəsinin «boşağızlığından» və qeyri millətlərə meydan verməyindən «şikayətlənərək», sərhədlərin təhkimi və qoşunun tənzimi üçün müəkkəd təkliflər ediyor.

Biz heç təsəvvürə gətirə bilmiyoruq ki, mütləqiyyət idarə cəhətindən bütün əzası biri-birindən ayrılıb, ərəb üsyançıları ilə iş bacara bilməyən Osmanlı hökuməti bir belə qəsdi-hücumkaranəyə düşsün. Gümanımızca, Menşikovun ürəyi də bu gümandadır. Lakin mərqum[1] havaxt bildi ki, həqiqəti fitnəkarlığa tərcih vermişdir ki, bu dəfə də versin.

«Novoye vremya» qəzetəsinin qəsdi Qafqazda qüvayi-əskəriyyəni artırmaq və Qafqaz canişini Voronsov-Daşkov əleyhinə açdıqları kampaniyanı başa vurmaqdır.

İştə Osmanlı hücumu da bu qəsd ilə ixtira edilən bir vahiməli heykəldir ki, onun nümayişi ilə dəvairi[2] hökuməti qorxudub, Qafqazı bir idareyi-əskəriyyə altına aldırıb bu yol ilə Qafqazda qalmış «inqilab» köklərini bütün-bütünə qırdırıb, «keşişlər və qoca suvorinlər dövranı» təmin etdirsinlər.

**Rəsulzadə**
*«İrşad», № 11, 24 yanvar 1908*

## ÖZÜMLÜ BİR İŞ

Zirdə Mirzə Ağa Əliyev cənablarının xitabnaməsini çap ediyoruz. Mirzə Ağa Əliyev bir «şirkəti nəşriyyə» bina edib, o vasitə ilə axır zamanda millətimiz arasında görünən həvəskar mühərrirlərə bir ümidgah olub, onların «toz basmış» əsərlərini meydana gətirməklə şövqi-ədibələrini artırmaq istiyor.

Əvət, böylə bir şirkətə ədəbiyyatın qədrini bilib, onu qiymətə mindirən bir cəmiyyətə çoxdan bəri külli bir ehtiyac hiss edilməkdədir.

Təbiidir ki, böyük bir istedadi-ədəbiyyəyə malik olan bir şəxs məhsuli-təbi olan bir əsər güzinindən[3] təmini-maaş gözləyəcək olmazsa, yazıçılıqdan daha mənfəətli olan dəftərdarlığı, yaxud başqa bir sənəti qoyub, axmaq deyil ki, ac siçanlara yem olmaq üçün sərfi-ovqat edərək əsərlər yazsın? Hələ bu ikinci məsələdir. Bir çoxları var ki, təmini-maaş deyil, əsərin meydani-mütaliməyə çıxmasına çalışırsa da, bu qəsd həmiyyətməndanəsinə çatmaq üçün əli heç bir vəsiləyə çatmıyor, ərbabisərvət və samanımız isə üç qismə bölünüb, hər üç qisminin ianətdən də

[1] **mərqum** – adı yuxarıda çəkilən
[2] **dəvair** – dairələr
[3] **güzin** – bəyənən



vicdani bir mühərrir qələminin və özünün heysiyyətini hər qızıl və gümüşdən, ya bir tazim və təkrimdən[1], iltica və təməllüqdən[2] fövq tutan yazıçı məhrumdur.

Bu qisim ərbabi-samanın bu qismi ədəbiyyat nə olduğunu belə qanmadığından tanıyıb bilmədiyi şeyə, təbiidir ki, vəq[3] və heysiyyət qoymuyub, alçaq bir nəzər ilə baxır.

İkinci qisim isə elm və mərifətdə, nəşri ədəbiyyatda öz dövriguşəguşunun inqrazını gördüyündən dolayı həmişə ədəbiyyati-cədidənin xilafında və ziddində olub, onun əhyasına[4] deyil, imhasına[5] çalışıyor.

Üçüncü qisim, maarifpərvər dövlətlilər isə onların da nöqteyi-nəzərləri öz mənafei-şəxsiyyə və sinfiyyələrindən o tərəfə keçmədiyindən millətin tərəqqi və təalisinə bir rəhbəri-həqiqi olmaq istəyən ədəbiyyat bunlara da ümid bağlaya bilməz.

İştə burada yeganə bir ümid yeri varsa, o da bəhreyi-ürfandan müstəfiz[6] olan qeyrətli və hümmətli ürfanpərvər cavanlarımızdır. Cavanlarımıza vacibdir ki, bu xeyirli işin fikrində olub, Mirzə Ağa cənablarının dəvəti-həmiyyətpərvəranəsinə ləbbeyk deyərək, biri-birlərinə dəsti-üxüvvət[7] verib, şu niyyəti-müqəddəsəyə iqdam etsinlər.

«Şirkəti-nəşriyyə»dən gələcək mənafei-ümumiyyənin mühəssənatını[8] saymaqla qurtaran deyildir. Türk dilində zəmanəyə dair siyasi, iqtisadi və qeyri-məsaili-elmiyyə və fənniyyəyə aid nəfili kitabçalar meydani-intişara qoyulmaqla millətimizin çeşmi-bəsirəti açılar, yaxşı ilə yamanı fərq etmək dərəcəsinə gələr.

Təmini-maaş edə bilmədikləri cəhətdən qələmlərini ədəbiyyat uğrunda deyil, bir sərmayədarın hifzi-mənafei uğrunda rəqəm və hesablarla məşğul edən mühərrirlər, vasitəsiz vəzifələri olan mühərrirliyə üdul[9] edib, meydani-ədəbiyyatımızı rövnəqdar edərlər. Və həkəza zənni-acizanəmcə cavanlarımızda bir qədər hümmət və qeyrət olursa, əvvəl karidə lazım olan bir-iki min manatı yığmaq Bakı kimi dövlətli bir şəhərdə çox da çətin olmasın gərək. Hələ ki, sərmayə yığıldı, işə ibtidai qoyuldu, o vaxt şirkət özünün nə dərəcə lazım və vacib olduğunu rəyüleyn göstərib, bir çox əzalar cəlb edəcəyinə şəkkimiz yoxdur.

Fəqət burada bircə mühüm bir nüktə vardır ki, o da işin bünövrəsini möhkəm qoymaqdan ibarətdir. Zənnimcə, bu bünövrə də şirkətin üsuli-

[1] **təkrim** – təzim etmə
[2] **təməllüq** – yaltaqlıq
[3] **vəq** – ciddi əhəmiyyət verən
[4] **əhya** – dirilmə, yeniləşmə
[5] **imha** – məhv etmə
[6] **müstəfiz** – istifadə edən
[7] **dəsti-üxüvvət** – qardaşlıq
[8] **mühəssənat** – gözəl işlər
[9] **üdul** – meyil

ticarət üzrə qurulmasından ibarətdir ki, ancaq bu üsul gözlənərsə, səhmdarlar tərəfindən bir il sonra belə olsa qoyduğu pullara müqabil bir müəyyən tənzili-mənfəət[1] müşahidə edilər, həvəs ilə əzə olunar, tapılıb işdə bərqərar olar.

Mən öz tərəfimdən bu niyyəti-alini alqışlayıb, vədə veriyoram ki, şirkətə istedad və imkanım dairəsində kömək etməyə hazıram.

Baxaq ki, bu dəvətə möhtərəm Bakı cavanları nə əlaqədə bulunacaq, bu təşəbbüsi-xeyriyyəyə nə nisbətlə baxacaqlar?

İştə cavan arkadaşlarım hümmət, qeyrət zamanı, fədakarlıq və həmiyyət dəmidir, bismillah!..

**Məhəmməd Əmin Rəsulzadə**
*«İrşad», №12, 26 yanvar 1908*

## XIRDA-MIRDA

### ÇƏRƏNÇİYƏ

Biğərzə çərənçi, bivicdanın birisi! Nə qədər çalışdım, nə qədər qələmimi geri çəkdim ki, sənin çərəndiyatına cavab verməyim, lakin yenə də özümü alamadım.

Sənin ancaq yazdığın qəzetə deyilən ovraqparəyə[2] layiq söyüş və cəfəngiyatına cavab verməyəcəyəm. Çünki mən qəzetədə bir sətir belə şəxsi-qərəzlərə, küçə söyüşlərinə yer verməyi hüquqi-ammiyəyə xəyanət etmək hesab ediyoram. Və belə cəfəngiyata o qəbildə olaraq cavab verməyə tənəzzül etmərəm. O cəhətdən ancaq mühərrirliyinə layiq olan müzəxrəfatınıza[3] cavab verməyib, məsələnin layiqi-tənqid cəhətinə keçirəm.

Balam! Axır bir şey yazanda – müftə buraxılan pulu belə korlamaq da olsa, elə gərək yazasan ki, heç olmasa ciddi demiyorum, səthi bir tənqidə belə layiq olsun, yoxsa ki, mürəttibi razı salmaq, vaxtında mətbəəyə yazı vermək üçün mətbuat heysiyyətdən salınmasın.

Heyhat, nə bəhs ediyoram, sən ki, çoxdan bəri mətbuata tüpürübsən!..

İştə «ixtilafi-ümməti rəhmətə» məsələsi: bu hədisə qayırma diyorsunuz.

Lakin keyfinə yarayan bir hədisə doğru deyib, qeyrisinə cəli[4] demək də ancaq «birisi» kimilərin məntiqinə yarar.

Qayırma hədis ilə doğru hədisi fərqləmək üçün şəriət özü əql ilə Quranı mizan qoymuşdur. «Əqli-müsadimeyi əfkardan bariqeyi-həqiqət

[1] **tənzili-mənfəət** – mənfəətin aşağı düşməsi
[2] **ovraqpara** –kağız parçası
[3] **müzəxrəfat** – cəfəngiyat
[4] **cəli** – saxta



çıxar» – əsasi-mümtazəsi üzrə bu hədisin doğruluğuna şəhadət verdiyi kimi Qurani-şərifdə peyğəmbərə xitabən «mən istəsəydim ümmətlərin hamısını bir yaradardım», – deyə bunu təsdiq ediyor.

«Vəətəsimu bihəblillahi cəmiən»* ayeyi kərimosi də bu həqiqəti nəqz edəməz. Çünki əvvəlinci ümumi bir qanun olduğundan ikincidə xüsusi bir təbliğat cümləsindəndir.

Məsələn, bir sosial-demokratın fikrincə, cəmaətin müxtəlif firqələrə bölünməsi təbii bir əmr isə də sosial-demokratın hamıya öz əfkarını təbliğ etməsi də təbiətdən xaric olamaz və əvvəlki həqiqəti fəsx edəməz. Hər biri öz yerində səhihdir.

Lakin «keyflilərin» qorxmaqlarına səbəb ixtilafi-rəy ilə qoçubazlığa təfavüt qoymamaqlarıdır.

**Mərzadə**
*«İrşad», № 12, 26 yanvar 1908*

## SAİLLƏRƏ**

Bu hal nədir, nədir bu şivən?!
Əflaka[1] ucalmış ahu-nalən.
Bəsdir bu fəğan, bul bir aram,
Dinlə şu həqiqəti ol eymən.[2]
Heyhat!.. İnanma, kəs ümidin,
Çün səbrinə hədd yox vəhidin[3]!

Məzlumi-xuda*** nə dinliyorsan?
Göydən yenəcək nə bəkliyorsan?[4]
Əczilə[5] baxıb müdami-məbhut,[6]
Ol səbrə nəhayəmi gəziyorsan?
Heyhat!.. İnanma, kəs ümidin,
Çün səbrinə hədd yox vəhidin!

Dünyaya girib də qəhrəman ol!
Əczi tələf et də, pəhləvan ol!

* **«vəətəsimu bihəblillahi cəmiən»** *(Ali İmran surəsi, 103-cü ayə)* – «hamınız Allahın ipindən yapışın»
** **sail** – dilənçi, soruşan, sual edən
[1] **əflak** – fələklər
[2] **eyman** – xatircəm, arxayın
[3] **vahid** – tək, misilsiz (burada Allah mənasında)
*** Bu tərkib «ey Allahın məzlumu» mənasında oxunmalıdır – *(Qeyd qəzetindir – Ş.H.)*
[4] **bəkləmək** – gözləmək
[5] **əcz** – acizlik
[6] **məbhut** – mat, heyran

Səy et də, çalış da, olma möhtac!
Sailliyə sən əduvvi[1] can ol!
Bilmərrə inanma, kəs ümidin,
Çün səbrinə hədd yox vəhidin!

M.Ə.Rəsulzadə
*«İrşad», № 21, 19 fevral 1908*

## QAFQAZI «UNUTMAYIN!»

«Həqiqi rus» firqəsinə mənsub olan «Veçe» qəzetəsində bu ünvan ilə bir məqalə dərc edilib ki, tərcüməsində bizim «Həqiqi rus müsəlmanlarımız»a bir ayineyi-ibrət gördüyümüzdən dərcini lazım bildik.

İştə «Veçe»nin müzəxrəfatı[2]:

«Bir öylə vaxtda ki, Tavriçeski sarayda Dövlət duması bəzi «mühüm» məsələlərin həllinə, o cümlədən xüdanaşünasi-kəbir Tolstoyun mərasimi-ehtiramına məşğuldur, bir öylə vaxta ki, hökumət cənab «millət vəkilləri» qarşısında onların mütaliə və müzakirələrinə qanun layihələri verməklə təzim və təkrimdədir, gözəl Qafqazın rus camaəti həyəcanlı və dəhşətli günlər keçirməkdədirlər.

Qafqazda, xüsusilə Zaqafqaziyada dirilik rus camaətinə nəhayət dərəcə müşkül olmuşdur. Qəzanın köməyindən düşmüş, hakimlərin fikrindən çıxmış, qeyri millətlərin qısqısına uğramış rus qafqazlısı məhəlli hakimlərdən ümidini üzmüş, özünün xilas olmasını Peterburqdan gözlüyor: amma heyhat! Oradan da nə bir təsəlli və nə də bir fərəh yoxdur! Rusiya əlində bir əyalət, özü də təbiətin fövqəladə dərəcədə bəxş etdiyi bir sərvətə dara olan əyalət surətində qalması lüzumdan əlzəmdir.[3] Gərəkdir hər bir tövr ilə olursa-olsun, tezliklə orada olan cuhud inqilab başayaq durmasını qurtarmaq. Qafqaz dərə və dağlarını isladan rus qanlarının nəhrini saxlamalıdır.

Məhəlli hakimlər çoxdan bəri öz istedadsızlıqlarını göstərdilər. Onlar ancaq dövlət mənafei ilə oynayıb, rus adını batırırlar. Buna binaən də onlara inanmaq mümkün deyil. Dövlət duması isə dörd ayın müddətində özünün bütün «işgüzarlığı ilə» və hesabsız olan komissiyaları və komissiya şöbələri ilə belə üç ildən bəri daxili hərbin hamı ağırlıqlarını üstündə çəkən Qafqazın dəhşətli bir hal kəsb eləməsinə cüzi belə olsun diqqət eləməmişdir.

[1] **ədu** – düşmən
[2] **müzəxrəfat** – yalan, uydurma şeylər
[3] **lüzumdan əlzəmdir** – lazımdan da lazımdır



Doğrudur, «işgüzar» Duma Qafqaz barəsində məsələlər qalxızdı, lakin nə tövr?.. Bir az bundan irəli Qafqazda olan hökuməti-aliyədən Dumaya, əyalətə istirahət vermək üçün bir layihə verildi. Bu layihə inqilabı yatırmaq və ölkəni aram etmək üçün deyil, bəlkə, «pulka[1], polisə pristavlığında iki nəfər müvəzzi[2] mənsəbi təyin etmək» barəsində idi və bədə Dumada olan hesabsız komissiyaların birisinə bir ildən artıq duran «müvəqqət» Bakı şəhər hakimliyinin təsdiqi barəsində olan layihə və qeyrilərdir.

Halbuki Qafqaz işləri, lazıməli işlər səbir edəmiyorlar. Axır burada təkcə Qafqaz üsuluni dəyişdirmək məsələsi deyil. Burada Qafqazı böyük Rusiyanın ayrılmaz bir əyaləti sürətində saxlamaq məsələsi böyük bir sərvətli rus ölkəsini gözlənən fəlakət və inqirazdan qurtarmaq bəhsi babalarımızın qanı, canı və insan məsaisi fövqündə olan zəhmətləri sayəsində fəth edilən bu qitəni əldən çıxartmaq qorxusundan irəli gəliyor.

Neçə illərdir ki, Qafqazda iğtişaş davam ediyor. Amma əlahəzrət imperatorun canişini dövrəsini alan siyasiyyunların təhti nüfuzlarında olaraq, xaricilərin (ruslardan başqaları), hətta ən az nüfuzlusunun belə törətdikləri ədəbsizliklərə barmaqları arasından baxmaqda və hətta onlar ilə müdara[3] etməkdədir.

Ümumpadşahlıq mənafeyi görüldüyü üzrə, cənab Voronsov-Daşkov yanında qiymətsiz bir şeydir, əhəmiyyəti belə yoxdur. Xaricilərin pişrovları[4] canişinin böylə bir kəmetinalığını görüb, fürsətdən istifadə edib, Qafqazı «federasiya» deyilən xırda-xırda ittifaqlara bölüb, öz nüfuzları altına almışlar və bu yol ilə Zaqafqaziyada süni olaraq bir düşmən düşəngahı yaratmışlar.

Nəhayət, vaxtıdır ki, Zaqafqaziyada dəhşətli işlər törəndiyi qanılsın. Qafqaz iğtişaşlarının əvvəllərində (1905–1906 sənələr) biz bir dərəcəyədək mümkün edə bilərdik ki, məhəmmədi əhalisinə etimad edəydik, amma indi heç bir vəchlə onlara etimad etmək olmaz. Cuhud inqilabləhəsi Şərqi Qafqazda müsəlmanları da hərəkətə gətirdi.

1906-cı sənənin axırında və keçən 1907-ci ildə «yoldaşlar», füqərayi-kasibələr müsəlman cavanlarını bilmərrə yolundan çıxartdılar.

Erməni-müsəlman qırğınının ən qızğın bir zamanında gürcü «füqərayi-kasibəsi» «nizam bərpa etmək üzrə» qiyam etdi, inqilab dəstələrinin rəislərinə isə rus imperatorunun canişini xəzinə tüfənglərini verib, onları «mücahidin» firqələri təşkil etməyə müraxxəs elədi. Xəzinə tüfəngi ilə müsəlləh olan quldur-inqilabçılar yaxın bir zamanda özlərini bütün hüviyyətləri[5] ilə bildirib, az qaldı ki, tamam Qafqazı qarət eləsinlər.

[1] **pulka** – preferans, bir əl oynama
[2] **müvəzzi** – yayan, dağıdan
[3] **müdara** – üzə gülmə, zahiri dostluq göstərmə
[4] **pişrov** – qabaqcıl
[5] **hüviyyət** – şəxsiyyət

Bu günlərdə Bakıda vaqe olan bir həqiqəti nəql etmək nəfisiz olamaz. Səyahət edən bir dəstə artistlər truppası teatroda «Məhəmmədin behişti» adında bir oyun oynuyacağını şəhərdə elan elədi. İctimaiyyun-ammiyyunlar bu gözəl fürsətdən istifadə edib, müsəlmanları inandırdılar ki, bu pyesdə məhəmmədilərin dinləri məsxərə edilir.

İnqilabçılar tərəfindən əqildən çıxarılmış müsəlman cavanları böyük bir mərəkə qopardılar: bütün mağaza və dükanlar o saat bağlandı. Məhəlli hökumətə «həyasız» pyesənin mən[1] edilməsi babında tələbnamə təqdim edilib, əks surətdə küçə nizamsızlıqları göstərməklə təhdidat edildi. Məlumdur ki, hər yerdə və hər vaxt olduğu kimi, bu dəfə də hökumət özünü itirdi və «əhalinin» istədiyini, nəhayət, bir mehribanlıq ilə əmələ gətirməyə tələsdi ki, o saət intibahnamələr paylanıb hökumətin zəfi qeyd edildi.

Allah saxlasın, hərgah biz ilə Osmanlı arasında dava baş versə! Bu təhlükə isə hənuz bərtərəf olmamışdır. Bizi nə dərəcə bir «müxabirat» və «təkzibat» ilə inandırsalar da, bu təhlükənin mövcudiyyəti baqidir. Dava olursa, Qafqaz müsəlmanlarının gözəçarpacaq bir halda artan əhvali-inqilabiyyələri ilə hesablaşmaq gərəkdir.

Hətta 30 il bundan qabaq rus-Osmanlı müharibəsi əsnasında Zaqafqaz millətlərindən bəzisinin əhval və hərəkatı Rusiya hökumətini xoflandırır idi. Amma onda inqilabdan xəbər belə yox idi.

Osmanlı sərhədində pozğunluq və şiddət olursa, bütün Qafqaz inqilab svoloçi[2] ki, indi orada ağalıq ediyor, başını qalxızar və öylə bir qarışıqlıq olar ki, bayır düşmənlə dava etməkdən daha da müşkül olar.

Qafqaz canişinliyi xüsusunda təzə qanun düzəlmədiyindən naşi yaxşı və müvafiq əqli-səlim olardı ki, ölkəni inqirazdan qurtarmaq qəsdi ilə canişinlik yerindən belə məhv edilib, qabaqkı kimi idarə olunaydı. Bundan əlavə də Zaqafqaziyada hal-hazırda olan general-qubernatorluqlar indiki vəziyyətdə olan canişinlik bilmərrə bivücud olmasına hökm ediyorlar. Halənki bu idarə üçün böyük-böyük xərclər edilir ki, bu xərclər də haman hissəsiz rus qara kəndçisinin cibindən çıxır ki, yazıq özünə ali və dövlətli mərhəmətlər gözliyor.

Cənab hakimlər! Rusiyanın bu sərvətli əyaləti Qafqazı yaddan çıxartmayın!»

«Həqiqi ruslar»ın nə dərəcədə müsəlmanlara dost olduqlarını aşkar surətdə təsvir edən bu həyasız məqalənin tərcüməsini dərc edib də gələcək nömrəmizdə bu xüsusda olan mütaliatımızı bəyan edəcəyiz.

**M.Ə.Rəsulzadə**
*«İrşad», № 33, 15 mart 1908*

[1] **mən** – qadağan
[2] **«svoloç»** – rus dilində öylə bir küçə söyüşlərindəndir ki, ona layiq türkcə tapmadığımızdan bu kəlmənin ədəbiyyat aləmində ancaq «Veçe»yə və «həqiqi ruslara» layiq olduğundan tərcüməsinə səy etmədik. Qeyd M.Ə.Rəsulzadənindir.



## QAFQAZI «UNUTMAYIN!»

Keçən nömrəmizdə rus xuliqanlarından ən təfritdə[1] bulunanlarının fikirlərinə tərvic[2] verən «Veçe» fəsadnaməsinin fitnəkaranə, cinayətşüarana tərzdə yazıb, bütün qafqazlılara və xüsusilə müsəlmanlara elədiyi hücumları ənzari-qariinə verib, vədə vermişdik ki, bu xüsusda öz mütaliatımızı[3] bəyan edək.

«Veçe» Dumanın, oktyabrist Dumasının «solluğundan» və «həqiqi ruslar» kimi bütün qeyri millətləri bir dində tutmamaqlarından gileylənərək, «Qafqazda olan rus camaətinin böyük bir fəlakət altında qalıb, özgələrin ayaqaltı olmasına və yaxın bir zamanda gözəl Qafqazın Rusiya dövləti-əliyyəsinin daireyi-məhsurəsindən[4] çıxıb, ayrı dövlət surətini kəsb etmək qorxusuna diqqət və fikir» verməyib işsizlik büruzə verməsindən acıqlanıb, böylə bir lisani-tətavül[5] ilə Qafqaz ruslarının məzlumiyyətin təsvir ediyor:

«Qafqazda, xüsusilə Zaqafqaziyada dirilik rus camaətinə nəhayət dərəcə müşkül olmuşdur. Qəzanın köməyindən düşmüş, hakimlərin fikrindən çıxmış, qeyri millətlərin qısqısına uğramış rus qafqazlısı məhəlli hakimlərdən ümidini üzmüş, özünün xilas olmasını Peterburqdan gözlüyor!»

Əcaba, hansı rus əhalisidir ki, böylə bir səfalətə giriftar olub?..

Qafqaz ruslarının çoxusu əmir və hakimlərdən ibarət olduğundan heç bir məntiq ilə demək olmaz ki, «hakimlərin fikrindən çıxmış olsunlar». Rusiyanın geniş və münbit yerlərini mülkədarlara təxsis edib, zahirdə isə «yersizlikdən», ya batində isə «Veçe»lərin fikri üzərinə ruslaşdırmaq qəsdi ilə məhəlli kəndlərin cəbr ilə qovulan əhalisi əvəzinə iskan[6] etdirilən füqərai və Rusiya məsakini barəsində söz gediyorsa, doğrudan da, demək olar ki, onlar pis keçinirlər. Lakin bunların «səadəti» üçün ata-baba yerlərindən əl çəkənlərin madəri-mehriban mənziləsində olan vətənindən dərbədər düşənlərin, dərbədər düşüb də «Veçe» fikirli hökumət kişiləri kimi «hamiləri» olmayanların övzai daha da fəna olsun gərək. Qafqaz camaəti bütün müxtəliful-lisan vəl-lon[7] millətlər ilə barabər hamısı bir dərəcə rəzalət və səfalətə girifdardırlar ki, hamısı «həqiqi ruslar»ın sayəsində «qəzanın köməyindən düşüb, hakimlərin fikrindən çıxıb» «müftinlərin» qısqısına uğramışdılar...» Hərgah Qafqaz rusu qey-

[1] **təfrit** – ifratçılıq
[2] **tərvic** – rəvac vermə
[3] **mütaliat** – bir iş haqqında dərindən düşünülüb, oxunulub əmələ gələn rəy
[4] **məhsur** – hasarlanmış
[5] **tətavül** – zülm, təcavüz
[6] **iskan** – məskunlaşdırma
[7] **müxtəliful-lisan vəl-lon** – müxtəlif dilli və rəngli

rilərə nisbətən bir az artıq məşəqqət çəkirsə, ona səbəb olan qafqazlılar deyil, bir millətin səadətini o biri millətin fəlakətində görən həqiqi ruslardır ki, mövhumi və məlunanə politikalarını icra etmək üçün cahili-sırf olan əvamünnası[1] əllərində alət edib, böylə rəzalətə atmışlar və onları özləri kimi səfil olan Qafqaz əvamının hədəfi-həsəd və buğz[2] etmişlər.

Böylə bir nizamın təsvirindən sonra «Veçe» Rusiya hökumətini qorxudur ki, «təbiətin fövqəladə dərəcə bəxş etdiyi bir sərvətə dara olan» Qafqaz əyalətinin əldən getmək qorxusu vardır. Buna görə də lazımdır ki, orada baş verən və daima cuşda olan «cuhud inqilab»ını yatırmaq «Qafqazın dərələrini, dağlarını boyayan rus qanının nəhrini saxlamaq!..» Bu xüsusda insaniyyət düşməni olan bu qəzetə Qafqaz hökumətindən də narazıdır. Qraf Voronsov-Daşkovu inqilabı yatırtmaq yolunda işsizlik və süstlükdə müttəhim edib diyor ki, «dövlət mənafei rus imperatoru canişininin vecinə deyil... Əlahəzrət imperatorun canişini dövrəsini alan siyasiyyunların təhti-nüfuzlarında olaraq, xaricilərin, hətta az nüfuslusunun[3] böylə (yəqin ki, gürcülərə işarədir) törətdikləri ədəbsizliklərə barmaqları arasından baxmaqda və hətta onlar ilə müdara etməkdədir».

Doğrusu, canişinin Qafqazda törənən «ədəbsizliklərə» barmaqları arasından baxmasına inana bilmiyoruz. Burada canişinin bir qəbahəti varsa, o da yerli qafqazlıların bilmərrə yer üzündən götürülməyib baqi qalmalarıdır. Zənn olunursa, «Veçe»nin nə demək istədiyini anlamaq olur. Lakin canişin cənablarının böylə şiddətə gəlməməyi həman dövlət mənafeyi nöqteyi-nəzərindəndir». Çünki dövlətin səadəti, mənfəəti əyalətlərinin xarabazar şəklinə düşməsində deyil, onun abad və gülüzar olmasındadır.

Bu qədər bilməlidir ki, zülmi-təəddi artdıqca, əhalinin qəzəbi və nifrəti də bir o qədər artır.

İştə hər kəs Qafqazı Rusiyanın «dövləti-sərvəti» bir əyaləti surətində saxlamaq istiyorsa, onu təzyiq, sıxıntıya tutmaq, Rusiya çinovniklərinə qurban etmək, «həqiqi ruslar»ın keyfinə buraxmaq deyil, haqq və ixtiyarca, heysiyyət və qədərcə bütün Rusiya ilə müsavi və bərabər etməlidir.

Həman bu qəsd ilə də canişin «tərəqqipərvərlik» büruzə verib, Qafqazda Rusiyada olan zəmindarlıq imtiyazlarını və qeyri bir çox imtiyazları verməklə vilayəti rahət etmək fikrinə düşüb, bu xüsusda Dumaya layiheyi-qanun göndərmişdir ki, «Veçe»nin bundan artıq dərəcə acığı tutmuşdur...

Bu provokator Voronsov cənablarına ünvanən yazdığı sətirlərdə diyor ki, canişin öz idarəsizliyi sayəsində Qafqazı xırda-xırda «federasiya»lara bölüb, bir düşmən ordugahı şəklinə salmışdır.

[1] əvamünnas – avam camaat
[2] buğz – ədavət
[3] nüfus – əhali



Buna deməlidir ki, Qafqazda hazırlanan «düşmən ordugahını» düzəldirən Voronsov-Daşkov cənabları deyil, bu vilayətlərdə açılan «rus ittifaqi-milliyyə»sinin şöbələri və bu ittifaq məsləkində olan adamlardır.

Hər kəs bu federasiyaları məhv etmək istiyorsa, o federasiyalara göyərmək üçün yer hazırlayan şərtlərin məhvinə çalışsın, yoxsa çəkic zindana nə gücla vurularsa, öylə də bir müqabilə görər. Bu isə qanuni-təbiidir!..

Axırda qəzetə dərdini bütün vərəmlər ilə kəşf ediyor: müsəlmanların ayılıb, bir az da olsun öz hüquqi-milliyyə, bəşəriyyətlərini düşünmələrinə övkələr ediyor. Baxınız ki, necə bir təhər ilə Qafqaz iğtişaşlarının müsəlmanlarına hücum ediyor.

«...Qafqaz iğtişaşlarının əvvəllərində (1904-1905) biz bir dərəcəyədək mümkün edə bilərdik ki, məhəmmədi əhalisinə etimad edərdik. Amma indi heç bir vəchlə onlara etimad etmək olmaz. Cuhud inqilab ləpəsi Qafqaz müsəlmanlarını da hərəkətə gətirdi. 1906-cı sənənin axırında və keçən 1907-ci ildə «yoldaşlar» füqərayi-kasibələr müsəlman cavanlarını bilmərrə başdan çıxartdılar».

Bu cümlədən sonra müsəlmanların «inqilabçı və üsyançı» olmalarını layiqincə təsvir etmək üçün bu axır zamanlarda Bakıda vaqe teatro vəqəəsini nəhayət bir dilgirlik ilə yazıb diyor ki, «səyahət edən bir truppa «Məhəmmədin behişti» adında bir oyun oynayacağını şəhərdə elan etdi. İctimaiyyun-əmmiyyunlar bu gözəl fürsətdən istifadə edib, müsəlmanları inandırdılar ki, bu pyesdə məhəmmədilərin dinləri məsxərə edilir. İnqilabçılar tərəfindən əqildən çıxarılmış müsəlman cavanları böyük bir mərəkə çıxartdılar. Bütün mağaza və dükanlar o saat bağlandı. Məhəlli hökumətə «həyasız» pyesin mən edilməsi babında tələbnamə təqdim edilib, əks surətdə küçə nizamsızlıqları göstərməklə təhdidat edildi. Məlumdur ki, hər yerdə və hər vaxt olduğu kimi, bu dəfə də hökumət özünü itirdi və «əhali»nin istədiyini, nəhayət, bir mehribanlıq ilə əmələ gətirməyə tələsdi ki, o saat intibahnamələr paylanıb, hökumətin zəfi qeyd edildi.

Görürsünüz ki, «Peterburqda məscid tikib, minarəsində azan demək – xristianlığı təkdirdir», – deyən bu xuliqanlar nə dərəcədə cəsarət bəhəm ediblər ki, 70 min müsəlman əhalisi olan bir şəhərdə «Məhəmmədin behişti» kimi hissiyyati-diniyyəyə toxunacaq və beynəlmiləl qanuna zidd olan bir pyesin oynanmasını rəva görüyor. Və bu xüsusda müsəlmanlarda bir əsəri-fərəh olaraq görünən həvəsi-hüquqşünasanəyi dağıtdırmaq xəyalına daxi düşüb. Baxınız ki, məhəlli hökumətə nə töv-bixlər ediyor: «Hər yerdə olduğu kimi, bu dəfə də hökumət «əhali»yə güzəşt etdi», – diyor. Bu cümlədə «əhali» sözünün qavıçqaya alınmasına

diqqət edilsin. 70 minə baliğ[1] müsəlmanlar «Veçe»yə görə hənuz əhali adını almağa layiq deyilmişlər, çünki həqiqi rus deyil, başqa din, başqa məsləkdədirlər. «Hər yerdə əhaliyə güzəşt edən» hökumətdən dəxi rəncidəxatir oluyor. Guya, hökumət böylə bir haqlı olan tələbə vəq qoyub,[2] gözlənilən bir fitnəni gərək yatırtmaya imiş. Lazım gəliyormuş ki, müsəlmanları öldürüb, qırıb-çatıb «Məhəmmədin behişti»ni oynatdıra imiş və «Veçe»çilərin ürəyindən tikan çıxarda imiş. Qoy bütün şəhər dağılsın, aləm fənaya getsin! Təki Rusiyada olan qeyri millət və məzhəb sahibləri təhqir və təkdir olunsunlar. Böylədir həqiqi rusların məntiqləri! Axırda bütün rusları və hökuməti təzəcə hərəkətə gələn, yenicə öz həqqini görməyə başlayan müsəlmanları qırıb-çatmağa və olmazın təzyiqat altına almağa hazırlamaq qəsdi ilə onları özünün və həmməsləki «Novoye vremya»nın xülyası olan «Osmanlı-rus» davası ilə qorxudur.

Diyor ki, «hərgah bu dava başlanarsa, o zaman Qafqaz müsəlmanlarının gözəçarpacaq bir halda artan əhvali-inqilabiləri ilə hesablaşmaq gərək».

Bu «bəlanın» önünü almaq üçün baxınız ki, bu fitnənamə nə təklif ediyor. Bunun təklifincə Qafqaza təzə ixtiyarat, yeni üsuli-idarə deyil, köhnə zamanın idarəsini qaytarmalıdır!

Bilirsinizmi, bu köhnə zaman idarəsi nədən ibarətdir? Bu idarə, Qafqaz tarixində bir qara ləkə ilə qeyd edilən Qalitsin dövrüdür!.. Qalitsin idarəsi isə təzə açılan bütün cəmiyyətlər, mədrəsələr və qəzetələrin bağlanması deməkdir. Məktəblərdən ana dilinin qovulması və ruslaşdırmaq politikasının yerləşdirilməsindən ibarətdir!

Lakin bu politika dedikləri səfahətlər ilə Rusiyanı həlakətdən qurtarmaq istəyən anlamazlar özlərinin bu siyasəti-bacinayətləri ilə Rusiyanı bərbad ediyorlar... Rusiyaya ayı xidməti ediyorlar ki, ağalarının üzündən milçəyi qovmaq istədikdə vurub başını əziyorlar...

Qalitsin üsuli özünün nə əndazədə müxərrib[3] və müzürr[4] olduğunu bütün əraminə taifəsini başdan ayağa inqilabçı etməyə vadar etdiyi ilə isbat etdi.

Ey təəssübi-milli ilə gözləri örtülü olan «siyasiyyun»lar! Hərgah Qafqazı unutmamaq, onun ibdalüddəhr[5] Rusiya dövlətinə mülhəq bir əyalət olmasını istiyorsunuzsa, onu təzyiq, təhdid deyil, haqli, ixtiyarlı bütün Rusiya camaəti bir dərd və bir mənfəətli etməyə çalışız!

Tökdüyünüz qanların, təzyiq etdirdiyiniz hüquqların səmərəsiz olduğunu yəhudilər, ermənilər ilə etdiyiniz müamılədən[6] anlayınız! Görrdüyünüz bu şeytanət və dargözlülüklə bir vətənin övladı olan millətləri öz vətənlərinə, vətəndaşlarına düşmən etməyiniz!!.

[1] **baliğ** – yetişmiş
[2] **vəq qoymaq** – qol qoymaq
[3] **müxərrib** – yıxıb dağıdan, məhv edən
[4] **müzürr** – zərərli, ziyan verən
[5] **ibdalüddəhr** – zamanı dəyişən
[6] **müamələ** – rəftar



Bir adam özünü o vaxt bir külfət və ailəyə mənsub bilər ki, o külfət, o ailədə onun heysiyyət və qədrinə[1] toxunulmasın və həmçinin bir millət, bir qövm o vaxt dövlət və ölkəni özünə əziz dost, vətən hesab edər ki, orada onun hüquqi-milliyyəsinə təcavüz olunmayıb, onun heysiyyətinə toxunulmasın.

İştə baxınız... həqiqi rusları və həqiqi rusların yoldaşları olan müsəlmanları tanıyınız!.. Cümlə millətlərin mütərəqqiləri ilə və həmçinin rus millətinin əqli səlim sahibləri ilə birləşiniz də bu bayquşları qoymayınız ki, öz kərih[2] sövtləri[3] ilə nəf və zərərində şərik olduğumuz vətəni darmadağın edib, bizləri səfil qoysunlar. Birləşiniz, buna əminiz ki, rus millətinin əksəriyyətini təşkil edən tərəqqiyyunlar arasında bu bayquşların əhəmiyyəti yoxdur!..

M.Ə.Rəsulzadə
*«İrşad», № 34, 17 mart 1908*

## CÜMƏ MƏKTƏBİ

Dördüncü rus-müsəlman məktəbində olan cümə məktəbi neçə vaxtdır ki, idarə edilməkdə və bəzi həmiyyətli cavan müəllimlərimizin qeyrət və cəhdi sayəsində irəli gəlməkdədir.

Burada 150 nəfərə baliğ mütəəllimlərə rusca, türkcə dərs verilib, elmi-hesabdan dəxi məlumat verilməklə bərabər haləlik Əhməd bəy Ağayev cənabları tərəfindən hamı qruplara bir yerdə olaraq tarixi-islama dair xütbələr oxunmaqda və bu vəchlə samenin[4] daireyi-nəzər və məlumatı genişlənməkdədir.

Xülasə, cümə məktəbi, bilik və savad nemətindən bəhrəsiz qalan sinli zəhmətkeş füqəra camaət üçün açılan bir müəssisədir. Qeyri millətlər arasında öz camaətini, öz millətini bəşəriyyət və insaniyyət sevən cavanlar, əhli-maariflər «camaət darülfünuni» adına olan bu cümə məktəblərində və gecə kurslarında böyük səylər, fədakarlıqlar edirlər.

Bu məktəblərdə deyil, yalnız yazı-pozu, məişəti-insaniyyədə ən lazım olan elmlərdən dəxi məlumat verirlər. Bu yolda artıq pullar, artıq fədakarlıqlar, artıq həmiyyətlər xərcə verilir.

İştə bizim də şəhərimizdə olan «camaət darülfünunları»ına müqabil «voskresenye» şkola qabağına çıxaracaq cümə məktəbimiz vardır. O da «cümə məktəbi», bu da «cümə məktəbi!» – İndi baxaq ki, bunların təfavütü nədir!..

[1] **qədr** – hörmət
[2] **kərih** – mənfur
[3] **sövt** – səs
[4] **same** – dinləyən, qulaq asan

Təfavütü, müsəlman məhəlləsi ilə Avropa məhəlləsinin fərqi nə isə, öylecədir.

Səbəbi?..

Səbəbi çoxdur. Bir neçələrini zikr edib, bu xüsusda təsilata girişəcəyik:

Əvvəlinci əsaslı səbəb «voskresenye» şkolada olduğu kimi müftə dərs verən edadiyyə məktəblərinin cümə günləri məşğul olduqlarıdır.

İkinci səbəb, cümə günləri tətildə olan müsəlman müəllimlərinin kəmhimmətsizliyidir. Doğru, müəllimlər diyorlar ki, onların bekar vaxtları yoxdur, maişət, dirilik bahadır. Amma hər halda həftədə ikicə saat olsun ümumiyyət işinə bilə ücrət qurban etmək mümkündür, zənnindəyiz!

Hal-hazırda cümə məktəbində dərs verən müəllimlərin bütün-bütünə dördüncü rus-müsəlman məktəbinin müəllimləri olduqlarını görəndə, insan xəyal ediyor ki, yəqin, bu məktəb müəllimlərinə cümə günlərində də dərs demək fəzci-vacib edilmişdir, guya, onların borcu imiş ki, bu artıq zəhməti daha öhdələrinə götürsünlər.

Üçüncü səbəb, 6 gün müddətində keyfləri istədiyi tövr rəzilanə bir surətdə zəhmətlərindən istifadə edib, vəzifələrindən xaric işlər, dükan şagirdi, yaxud kontor qulluqçusu olduğu halda, su daşımaq, evdən hamama boğça aparmaq kimi qulluqları icra etməyə vadar etdikdən sonra həftədə bir gün də olsun prikaşşik[1] dedikləri və qul nəzəri ilə baxdıqları bədbəxtləri azad buraxmayanlardır. Bir çox cümə məktəbinə gələn şagirdlərə müəllim: «Niyə belə gec gəliyorsan?» – sualını verdikdə: «Xozeyn bizi cümələr qapı bağlı olduğu halda, dükan içərisində əşyanı yığışdırmaq, dükanı silib-süpürmək, təzə alınmış bəzi yeşikləri açıb, sabaha hazırlamaq kimi vəzifəmizdən xaric işlərə vadar ediyor» – cavabını veriyorlar.

Bir digər cümə məktəbinə gəlib səy və qeyrət ilə oxumaq həvəsində olan və çox dəfə dərsə vaxtında gəlməyən şagird böylə bəyanat vermişdir ki, onun xozeyni onu cümələr də işləməyə məcbur edib, qoymayır ki, bu günü özü üçün sərf eləsin. «Saçın-saqqalın çıxıb, bu vaxta kimi bir şey bilməmisən, bundan sonra oxuyub səndən nə olacaq, nahaq yerə vaxtını sərf etmə, dükanı yığışdır ki, sabah təzədən alış-veriş qaidəsində olsun», – deyə onu nə tövr isə də saat on-on birə, bəzən günortaya tək vəzifəsindən xaric işlər görməyə məcbur ediyor.

Bu tövr qanunsuzluqların həddi-həsri yoxdur. Daxi onu demiyoruq ki, dükançılar müştərinin olmadığı vaxtında prikaşşiklərini qəzetə oxumağa, yaxud vaxtı-vaxtında nahara çıxmağa qoymuyorlar. Çünki bu məsələ ayrı bir məqalənin malıdır, bu dəfə isə bu zülmkarların cümə məktəbi şagirdlərinə zərər vuran və məktəbin vəzifeyi-müstəqiməsə sədd çəkən hirslərindən[2] yazıyoruz.

[1] **prikaşşik** – xidmətçi

[2] **hirs** – həvəs, istək



Bu qədər izahat bədində bir neçə sözlə müəllimlərə xitabda bulunub, «dükançılara da bir qədər olsun hirslərini azaltmalarını tövsiyə edəcəyiz:

Ey müəllimin həzəratı! Ey maarifmənd cavanlar! Bütün millətlərin səadəti və istiqbalını təmin edənlər, o millətin müəllim və maarifməndləri olduğunu bir qədər diqqətə alınız, gərçi erməni və qeyri qonşu millətlərin müəllimlərinin gördükləri mücahidəti bir ləhzə olsun təsəvvürə gətiriniz də onlar qədər demiyorum, kiçik bir cümə məktəbini layiqli vəch ilə bərpa etmək üçün həftədə ikicə saat olsun fəda ediniz! Müəllimlər, hümmət edin! Göstərin ki, siz camaatin uşaqlarını deyil, özlərini də tərbiyə etməyə müstəidsiniz! Bildirin ki, sizi həvəsə gətirən, mənafeləndirən təkcə qarın ehtiyacı, güzəran, maişət mülahizatı deyil, camaat qeydi, yaxın qardaşlara mənəvi kömək etmək fikri daha vardır!

Ey bazar əhli, ey həyat və diriliyi ancaq tərəzinin taqqa-tuqqunda görən sahibi-hirslər! Ehtiyac və fəqr[1] ucundan sizin əlli iki min cəbr və məşəqqətinizə qatlaşan biçarəgani həftə tətilindən məhrum qılmayınız! Altı gün müddətində öz ixtiyarından, öz keyfindən, öz külfət və ailəsindən, öz xahiş və təmənnasından, öz hürriyyət və azadlığından əl çəkib, bu məşəqqətli dünyada özünə bir qüvvəti-layəmut[2] qazanmaq dərdindən sizə qul olanları bir gün olsun, öz ixtiyarlarına buraxınız! Nə olur, ki, sizin xidmətkarlarınız həftədə bir gün özlərini özlərinki hiss etsinlər! Nə olur ki, həftədə bir gün öz ailələrinin, öz külfətlərinin, öz xüsusi işlərinin qeydinə qalsınlar?!

Altı gün müttəsil[3] özgənin xidmətini edənə məgər bir gün özünə qulluq etməyə imkan vermək xilafdır?!!

Ey sahibi qüdrət olan sərmayədar, ağalar! Haqqınız olmasın ki, islamiyyət üzrə qərar qoyulan həftə tətili cümə günündə öz əlaltılarımızı elm təhsil etmək kimi nəticəsi xüsusi deyil, ümumi olan təşəbbüsatdan mən[4] edəsiniz!!.

Hümmətə gəlin, ey cümə günü bir-iki saat ilə cümə məktəbinə kömək eləməyə imkanı olan ərbabi-elm və mərifət! Təlimdə bulunun!

İnsafa gəlin, ey ixtiyar və keyfini pozmamaq üçün özgələrin haqq və ixtiyarına təcavüz edən dükançılar! Öz prikaşşiklərinizi cümə günləri vəzifələrindən artıq işlətməklə təlimdən mən etməyiniz!!.

Burasını biliniz ki, elmli və yazı bilən prikaşşik sizin hər bir keyfinizə tabe olmasa da, vəzifəsi dairəsində görəcəyi işlər indikindən daha nəfli, daha faydalı olar!!.

Fətəbiru!..[5]

M.Ə.Rəsulzadə

[1] **fəqr** – yoxsulluq

[2] **layəmut** – ölməz, əbədi

[3] **müttəsil** – ara vermədən

[4] **mən** – məhrum etmək

[5] **fətəbiru** – ibrət götürün

**B.T:** «Nicat» maarif cəmiyyəti tərəfindən cümə məktəbində müftə dərs verən müəllimlərə və böyük bir hümmət ibraz edib, məktəbdə nəzarət etməkdə olan Əli Tanrıquliyevə səmimanə rizaiyyət deməyə mühəvvəl[1] olduğumuzu da bəyan ediyoruz.

*«İrşad», № 40, 27 mart 1908*

## MƏRKƏZ FİRQƏSİ

Rusiyanın «tamamiyyətini» ayrılmaz, parçalanmaz bir cismi-tammə olduğunu özlərinə əsas məslək tutan və bu «tamamiyyəti» dilcə – rusluqda, dincə – pravoslavnılıqda, məsləkcə müxtəlif surətlərlə cilvədar olan pruşkeviçlikdə görən bütün həqiqi ruslar «bugün-sabah ayrılıb, özbaşına müstəqil bir hökumət şəklini ala biləcək Qafqaza hücumlar etmədə və onu Rusiyaya «bənd edə biləcək» üsuli-dəhşət və təzyiq ilə bərabər» «hökm etmək istərsən, ayır» əsasına məhkum etməyə çalışırlar.

Bu xüsusda «Novoye vremya» Menşikovun fəsadəmiz məqalələri ilə «Veçe»nin fitnənaməsini qarelərimizin nəzəri-mütaliələrinə verrnişdik.

İndi də ümuri-dövlətdə ən nüfuzlu olan və Dövlət dumasında əksəriyyət təşkil edib, mərkəzdə oturan oktyabristlərə gələk, görək ki, onlar bu məsələyə nisbət nə fikir bəsliyor, necə bir təsəvvürdə bulunuyorlar.

Bundan ötrü də həmin firqənin rəsmi mürəvvici-əfkarı olan Moskva qəzetəsi «Qolos Moskva»nın martın 22-də çıxan nömrəsində «Novoye vremya»nın «zateryannı», «storoyni»lərının misli olan «umerenni» cənabın Menşikov ruhu ilə yazılmış məqaləsinə baxalım. Baxalım ki, «Qolos Moskva»nın Qafqaz canişini qraf Vorontsov-Daşkov cənablarının yubileyinə münasibətlə yazdığı məqaləsinin «həqiqi ruslar» fikrindən nə fərqi vardır?

«Okyabrist» firqəsi qəzetəsinin dərəceyi-cəhalətini görünüz bir nə dərəcədədir ki, onun mürəvvici-əfkarı olan bir qəzetə əyalət məsələsini böylə bir axmaqca surətdə şərh ediyor. Məsələn, erməni-müsəlman vəqəeyi-əsəfəngizinin[2] illəti[3] asan bir vəchlə bəyan edilir:

Müsəlmanlar «Qafqaz qafqazlılarındır» tərazını[4] qəbul edib, xəyal etdilər ki, keçmiş zaman gəlmiş ermənilərı qırıb dağıtmaq olar, odur ki, şəhərlərdə və kəndlərdə mənasız və vəhşiyanə erməni-müsəlman qırğını başlandı. Gürcüstan vəqəəsi və Türkiyə ermənilərinin yollanılmasına gəldikdə, böylə şərh edilir:

«Gürcülər böylə xəyal etdilər ki, gərək tövci verilməsin, yerlər əkilməsin və xəzinəni, poçtu qarət edərək, gözəl surətdə dolanmaq ola bilər

[1] **mühəvvəl** – tapşırılmış, həvalə edilmiş
[2] **vəqəeyi-əsəfəngiz** – təəssüf doğuran hadisə
[3] **illət** – səbəb
[4] **təraz** – növ, nümunə, sistem



və əqillərinin sadəliyindən elə bilirdilər ki, bu pullar xəzinədə bitir və həmişə çöldə «qarğıdalı» bitən kimi bitəcəkdir.

Ermənilər isə əhalinin ən fəali və sahibi-təsəvvürləri olduqlarından «Qafqaz qafqazlılarındır» tərazından istefa edib öz qaçaqlarına kömək edib, Kars və İravan qubemiyalarında boş qalan yerləri tutmağa başladılar. Rusların qismətinə isə öz əziz canlarını Qafqaz anarxiyasını yatırtmaq yolunda qoymaqdan başqa ayrı hissə qalmadı. Böylə bir hiyləkarənə surətdə yazılan və axmaqcasına şərh verilən yazılardan sonra «Q.M.» «Qolos Moskvı» qəzetəsi bu təsəvvürə gəliyor ki, bu işlərin, bu qəbahətlərin hamısının səbəbi Qafqaz canişini qraf Vorontsov-Daşkovun hürriyyətpərvərliyi və onun üsuli-idarəsidir. Guya, Qafqaz canişini «kadetlik ediyor və kadetlər təhti-nüfuzuna düşürmüş və Qafqaza «avtonomiya» almaq, avtonomiya olmasa da, ona yaxın bir imtiyaz çırpmaq istiyormuş! Halənki Dumanın əksəriyyəti Rusiyanın bölünməməsi tərəfdarıdır!

Böylə bir təqsirnamə bəndində qəzetə öz nəticeyi-mühakiməsini icra edib, dad ediyor ki:

«Bəsdir ki, bu qədər bizim əyalətlər ilə kadetlik imtahanı edildi!

Türküstandan sübutçuluğu, Finlandiyadan hərarəti götürdülər, indi də növbə Qafqaza çatmışdır!

«Əyalətlər ilə edilən bu qisim idarə və yerli əhalinin nazları ilə oynamaq və bəzi para cümhuriyyətlər hazırlamaq politikası Mərkəzi Rusiyaya çox bahadır! Bir vaxtda ki, Dövlət dumasında əksəriyyət ara ilə Rusiya bölünməməsinə səs verir, öylə bir zamanda bu qisim üsul-idarələrin baqı qalıb da əyalətlərimizin əlimizdən getməsinə zəmin hazırlanması hərgiz təhəmmül ediləməz, vaxtıdır ki, bu tövr idarələrə xitam verilsin!..»

Rusiyanın parçalanmasından qorxan ağaların nə istədiklərini biz hərgiz qana bilmiyoruz.

Bunlar nə istiyorlar, Rusiyanın ümumiyyətinimi? Çox əcəb, əyalətləri Mərkəzi Rusiya həmhüquq edəndə bu tamamiyyətə xələl yetişmir. Bir dəfə bunu bilmək lazımdır ki, dövlət işlərində firqə, millət, məzhəb deyil, mülkiyyət, dövlət və padşahlıq cəhətləri gərək nəzərdə olsun. Əyalətləri mərkəzə müttəsil etmək üçün, mənəvi və maddi ittisal üçün, ancaq ayırmağa, qaçırtmağa və qeyri-məzun[1] fikri-təşəbbüslərə sövq etməyə mövcib qüvveyi-qəhriyyə deyil, ittihadə, birliyə müvafiqətə səbəb olan qüvveyi-mənəviyyeyi hüquqiyyə gərək meydana gəlsin.

Hüquq və ixtiyarca müsavi olmayanların yoldaşlığı ola bilməz, olsa da, həqiqi deyil, ancaq zahiri olar və fürsət düşdükcə nəticəsini bildirər!

[1] **qeyri-məzun** – burada layiq olmayan

Burasını həmi «Veçe», həmi «Novoye vremya», həmi onlardan ayrılmayan mərkəz firqəsi qəzetəsi «Qolos Moskva»lar gərək ki, anlasınlar!

Qafqaz canişininə gəldikdə isə görünür ki, əleyhinə qalxan bütün sağların danosları hənuz bu cənabə rəxnə vuramuyorlar. Bu qədər kuykələk və töhmətlər içində yenə də o zatın naminə fərmani-hümayuni sadir olunması buna bir dəlili-vazehdir!..[1]

Fəqət hər nə tövr olsa da, Qafqazın üstündə bayquşlar ulayır...

Baxalım ki, bu ulaşmanın nəticəsi nə olur...

M.Ə.Rəsulzadə

*«İrşad», № 42, 31 mart 1908*

## MƏDƏNÇİLƏR İLƏ FƏHLƏLƏRİN MƏSLƏHƏTİ

Bakı mədənlərində işləyən fəhlələr ilə neft mədənçilərinin arasında indi üçüncü ildir ki, müəyyən ümumi bir şərtnaməyə gəlmək üçün bir məsləhət hazırlanmadadır.

Bu məsləhətə fəhlələri çağırıyorlar. Çağıranlar da nə qədər təəccüb olunsa da, mədənçilər ilə hökumətdir.

Doğrudan da, Bakı neft işinə, neft ticarətinə bələd olmayanlar indiki halda, Rusiyanın bu halında, bu dərəceyi-təməddününda fəhlələri məsləhətə çağırmağa, onlar ilə fikirləşməyə verilən vaxtdan təəccüb edər. Deyər ki: Necə olur ki, bütün şəhərlərdə, məsələn, Lodzda, Moskvada və qeyri böyük sənaət olan yerlərdə fəhlələrin heç bir tələbnamələrini qəbul etmiyorlar, amma Bakıdakı fəhlələri əziz qonaqlar kimi məsləhətə çağırırlar, onlar ilə öz ehtiyac və güzəranları xüsusunda fikirləşmək istiyorlar?

Məsləhətin sərmayədarlarca nə cəhətdən mətlub olmağını bilmək və nədən ötrü Bakıda ümumi «lokaut» elan olunmuyoru anlamaq üçün ötəri Bakı neft işini öyrənmək və onda işləyən fəhlələrin dərəceyi-tərəqqilərini anlamaq lazımdır.

Əvvələ, neft işi, neft ticarəti öylə bir mətin mühərriki-iqtisadiyyədir ki, onun birce gün olsun tətili dayanmasa, bütün Rusiyaya təsir ediyor. Bütün Rusiya ticarət və sanayesinə əksəndaz oluyor. Neft ticarəti Rusiyada olan sənaət bədənindəki şah damardır və qırılarsa, yerdə qalan bütün damarlar hərəkətdən qalar.

Bakı tətili bir az uzun çəkəndə görürsən ki, Volqa nəhrində işləyən gəmilər dəxi seyrlərindən qalmağa məcbur oluyorlar. Bir çox fabrika və zavodlar yanacaqsız qalıyor. Vaqon yolları ləngliyə düşüyor. Xülasə bütün sənaət ləngiyor və bu cəhətdən ölkənin ticarətinə böyük uyğunsuzluq, intizamsızlıq üz veriyor.

[1] vazeh – açıq, aydın



Saniyən, neft mədənlərində olan çoxlu tətillər dövlət xəzinəsinə bilavasitə olaraq külli zərərlər yetirir. Aktsız pulları azalıyor.

Salisən, böylə bir uyğunsuzluq, neftin vaxtlı vaxtında alınmaması Rusiya gəmiçi və fabrikaçılarını və dəmir yollarını vadar ediyor ki, neftdən əl çəkib də daş kömür işlətsinlər. Bu məsələ də neft istiqbalına bir zərbə olur, qorxusundan naşi mədənçiləri titrədir.

İştə odur ki, həmi hökumət, həmi də mədənçilər Bakıda adət hökmünə keçmiş tətillərə bir intiha qoymaq üçün ümumi bir məsləhət yapmaqla, ümumi bir şərtnamə bağlamaq və bu yol ilə neft sərmayəsi ilə neft zəhmətinin arasında bir qaideyi-ümumiyyə qoymaq istiyorlar.

Neft ticarətində müxtəs bu xassi-mühümməni nəzərə alıb, onu ətraflıca tədqiq etdikdə, birtərəfli olmayanda, aşkarca məlum olur ki, Bakı işlərini qeyri sənaət işlərinə qiyas edənlər artıq səhvə düşürlər. Zatən burasını Bakıda olan indiki fəhlə məişəti dəxi isbat ediyor. Qeyri yerlərdən üç fəhlənin bir yerə yığılması mümkün olmadığı halda, Bakıda gündəki-gündə müxtəlif yerlərdə fəhlə yığınaqları, ictimaları, seçkiləri və şuraları olmadadır. Özü də bu yığınaqlar, ictimalar gizli deyil, qanun üzərinə, hökumət izni ilə yığılıb, fəhlə ittifaqları nümayəndələrinin yol aparması ilə düzlənməkdədirlər. Məsləhət barəsində bir çox imtiyazlar fəhlələrə verilmişdir ki, ayrı bir yerdə bu imtiyazların heç birinə nə iş və nə də hökumət sahibləri razı olmazdılar. Onları bu qədər «cilo verməyə» vadar edən ancaq neft mədənlərinin əhvali-xüsusiyyəsidir.

İndi baxaq ki, mədənçilərin böylə bir əhəmiyyətlə araya atdıqları məsləhətə fəhlələr nə yolda əlaqə ediyorlar.

Fəhlələr arasında məsləhətə dair üç qisim hərəkət vardır. Onlardan bir qismi hər dəfə məsləhəti lazım gördüyü kimi, bu dəfə də gərəkli biliyorlar. İkinci qismi isə keçəndə ki, məsləhətləri mümkünsüz və vaxtsız olduqlarından bir neçə şərtlərin mədənçilər və hökumət tərəfindən təmin edildiyi halda, məsləhəti lazım görüyorlar. Və məsləhət xüsusunda olan məsələlər dairəsində hürriyyəti-kəlam, hürriyyəti-mətbuat, vəkillər şurası və məsləhət vaxtının fəhlələr tərəfindən intixabı və fəhlə ittifaqlarının şərakəti kimi tələblərin qəbul və təmini halda məsləhətə qətiyyən oturacaqlarını elan ediyorlar. Üçüncü qisim isə heç bir şərt və şürutı[1] gözləməyərək, baltanı kökündən vurur və qorxaqlara məxsus olan bir surətlə «mədənçilər bizi aldatmaq istəyirlər», – deyə məsləhəti boykot ediyorlar. Onlar diyorlar ki, tə məmləkətdə hürriyyətnamə olmasa, böylə məsləhətlərdən şey çıxmaz, hətta məsləhətə görə fəhlələrin fikrini bəyan etmək qəsdi ilə də məsləhətə getməli olsalar, öz aralarından 16 nəfər heyəti-vükəla seçmək üçün keçən yekşənbə günü martın 30-da

[1] şüruti – şərtlər

fəhlə vəkilləri şurasının əvvəlinci ictimaində bu məsləkin nümayəndəsi olan bir natiq böylə fikir söylədi ki, «ta bizə ana dilində məktəb, hürriyyəti-mətbuat, nə bilim nə, nə... verilməyincə, biz məsləhət, filan bilmirik, nə qədər ki, Rusiyada əmniyyəti-şəxsiyyə yoxdur, biz məsləhətə adam seçə bilmərik. Yoldaşlarımızı tutub həbs edərlər».

Bu üç məsləkin əvvəlincisi nə dərəcə bir nikbinliyə düşüb və Qərbi Avropa əmələlərinin güzəranlarından naşi səhvə düşürsə, axırıncı da bir o qədər, bəlkə, daha çox ziştbinliyə[1] düşüb, dikbaşlığına salır və işin nə yolda olduğunu layiqincə bilmədiyindən uca və parlaq sözlər ilə diqqət və təəmmül[2] istəyən bir mətləbi həll etmək istiyor.

Doğrudur, hürriyyəti-siyasiyyə olmayınca əhvali-iqtisadiyyənin islahı mümkün deyildir. Lakin bunu hər yerdə əsas tutub «boykot»u qaideyi-külliyyə hesab edib, ətrafa göz örtmək, dövrəmizi bürüyən həqiqətlərə və şərtlərə baxmamaq da olmaz.

Dövlətlilər, mədənçilər məsləhəti yaxşı qanırlar və onunla mənfəərbətdar olmaq istiyorlar. Fəhlələrin də bu məsələdən dərs almaları mətlubdur. Sərmayədarlar məsləhəti məqsəd hesab ediyorlarsa, fəhlələrə də məsləhəti vasitə edilmək lazımdır. Yəni məsləhət yolu ilə mübarizeyiümumiyyəyi-iqtisadiyyəyə hazırlanmalıdırlar.

Sərmayə ilə zəhmət nümayəndələri arasında olan mübarizə iki dövlət arasında edilən davaya təşbih ediliyor. Elani-hərb olunmamışdan əvvəl hər iki dövlət arasında müxabirat və diplomatik müsahibələri olduğu aşkardır. Heç vaxt, heç bir məntiq ilə denilməz ki, bir heyəti-etilafiyyəyə daxil olub, münasibəti-düvəliyə danışıqlarına girişən iki dövlət dava qüvvətlərinin hazırlanmasından gərək vaz keçsinlər. Məsələn, bu gün Rusiya ilə Osmanlı davası xəbəri araya atılmış. Hər gün, hər saat hər iki tərəfdən müxtəlif yollar ilə müxabirat alınmaqda və diplomatik dairələrində bu məsələ həll edilməkdə və təkrarən olaraq hər iki tərəfdən davanın olacağı rədd və cərh[3] edilməkdə ikən, yenə görürsən ki, hər iki tərəf qüvveyi-hərbiyyəsini hazırlamaqdadırlar. İştə siyasəti-düvəliyyə nöqteyi-nəzərindən böylə də olmalıdır. Çünki «cəngə hazırlaş, əgər sülhi-səlah istərsən», – demişlər.

Boykotçular öz nöqteyi-nəzərlərini isbat üçün keçmiş məsləhətlərin baş tutmamalarını şahid götürürlər və diyorlar ki, indiki halda mərkəzdə duran «yarım boykotçu» məslək sahibləri özləri belə 1905 və 1906-cı sənələrdə məsləhəti boykot elədilər. İndi isə boykot eləmiyorlarsa, təzada (özlərinə əks getməyə) giriftar oluyarlar.

[1] **zişbin** – pis görmə
[2] **təəmmül** – mülahizə, diqqət
[3] **cərh** – sancma, biabır etmə



İştə bu da yenə həman boykotçuluğu mədamül-həyat bir əsasikülliyyə tutub, zəmanənin iqtizasına və ətrafda olan şərti-şürutə barmaq arasından baxmaqdan naşidir. Bu adamlar bir o qədər təəmmül, təfəkkür, təəqqül etmiyorlar ki, 1905–1906-cı sənələrinin məsləhətində nə fəhlə ittifaqı, nə fəhlə qəzetəsi, nə də bu günlərdə məzunən ictima etməkdə olan fəhlə vəkillər şurası heç biri yox idi. O zaman fəhlələrin bir çoxu məsləhət nədir bilmiyordu. O vaxtdan məsləhəti fəhlələrdən xaric bir dəstə adamların təsəvvürü ilə ediliyordu. İndi isə hamı fəhlələr də olmasa, çox yarısı işdən baxəbərdir. Hamı zavodlarda, mədənlərdə neçə aydan bəridir ki, bu məsələ müzakirə olunur, bu xüsusda kitablar, məqalələr yazılır. Müxtəlif məsləkli heyətlər öz rəylərini, bu məsələyə olan münasibət və əlaqələrini təbliğ ediyorlar. Fəhlələr də onlara münəqqidanə surətdə baxıyor, bu məsləklərə mümэyyiz[1] (təmyiz verən) oluyorlar.

Bir də fəhlələrin indiki hal üzrə qalmaları özlərinə də zərərdir. Bir gün olmuyor ki, mədənlərdə ayrı-ayrı tətillər olmasın. Ən cüzi şeylərin üstündə, ən kiçik bir tələbnamə üzərinə görürsən ki, tətil kimi yeganə fəhlə vasiteyi-mübarizəsi olan alət ilə dolanmağını hənuz layiqincə qanmayan fəhlə əvami başdan çıxdı, «naqradnoy» kimi səfeh «trebovaniya» üstündə bir ay işdən qaldı və bununla gərəkli vaxtlarda işlətməyə lazım olan qüvvədən düşdü, əlinə bir şey gəlmədi. Tutulan statistik üzərincə böylə xüsusi sürətdə edilən tətillərin çoxusu – yüzdə yetmişi – fəhlələrin zərəri ilə tamam oluyor. Mədənlərdə olan bu xüsusi tətillər mədənçilərə nə dərəcə zərər, sənaətə nə əndazə zərbədar isə, fəhlələrin öz mənafeyinə bir o qədər, bəlkə, daha da artıq müzürrüdür. Buna bir çarə aramaq, bir intiha qoyub, parça-parça olduğu sürətdə edilən nəticəsiz mübarizəni mənfəətli və zərbli ümumi mübarizə surətinə salmalıdır. Qanmalıdır ki, bütün Bakı fəhlələrinin istirahəti, hamı Bakı fəhlələrinin mübarizəsi ilə ələ gəlir. Parçalanmaq, ixtilaf isə həmişə basılmaq və izmehlal[2] mövcib oluyor. «Bir çubuğu ayrı-ayrı qırmaq asansa da, 7 çubuğu bir dəstə olduğu halda sındırmaq qeyri-mümkündür». Bu danılmaz bir həqiqətdir.

İştə məsləhəti boykot edənlər gərək bunu qansınlar ki, fəhlələrə burasını bildirmək lazımdır. Bu lüzum qəbul edilərsə, o zaman məsləhət kimi bir fürsəti əldən buraxmaq və «mədənçilərdən hürriyyəti-siyasiyyə istəmək» kimi səfsətələrə binalanmaqla məsləhətə göz örtmək və ondan istifadə etmək istəmiyib, baş-ayaq atmaq hərgiz caiz deyildir, səhlənkarlıqdır.

Hər bir əqilli fəhləyə lazımdır ki, nə şərtsiz məsləhətçilər kimi təfritdə,[3] nə də boykotçular kimi ifratda olmayıb, işə açıq göz ilə baxıb,

[1] **mümeyyiz** – yaxşını pisdən seçən, ayıran
[2] **izmehlal** – puç olma, məhv olma
[3] **təfrit** – israf etmə, səhv

səlim əql ilə təsəvvür edib, «Bakı neft mədənlərində işləyən əmələlərin ittifaqı» ittixaz edən şərtli məsləhət tərəfdarı olsun və bu məsləhət yolunda bütün fəhlə yoldaşları sərmayədarlar ilə ediləcək müsalihədə, nüfuz və təsir yetirmək və sülhü paydar etmək üçün «cəngə hazır olmalarına» çalışsın.

Yəni məsləhəti nə məqsəd bilsin, nə də fəhlə hüququnun ticarətxanəsi, bəlkə, məsləhəti fəhlələri tərbiyə edici və həqlərini öyrədici bir müəssisə bilib, orada olan müzakiratı da biri-birinə dava elan etmək istəyən iki müxalif hökumətin danışığı kimi bilsin.

Bu məqaləmizi xülasə edərək, fəhlələrə müəyyən və müxtəsər surətdə böylə bir tövsiyədə bulunuruz: «Şərtsiz məsləhətçi olmadığınız kimi, şərtsiz boykotçu da olmayınız».

**M.Ə.Rəsulzadə**
*«İrşad», № 46, 7 aprel 1908*

## NƏ BÖYÜK TƏHQİR!

«Həqiqi ruslar»ın kim olduğunu «İrşad» oxucuları arasında bilməyən yoxdur, zənn ediyoruz. Bu «adam»lardan o qədər yazılıb-oxutdurulmuşdur ki, onların məsləkləri məlum olduğu kimi görkəmli üzvləri dəxi Dubrovindən, Purişkeviçdən tutub, «rəşadət və qeyrəti» ilə məşhur olan Məhəmmədağa Şahtaxtinskiyə kimi – hamısı tanışdır. Zatən bunları tanımayan bir nəfər rusiyalı qare tapamazsınız...

Bu axır zamanda əllərinə düşən fürsətdən istifadə edərək «həqiqi»lər nəhayət dərəcə bir şiddət ilə öz «həqiqət»lərini göstərməyə başlayırlar. Vəhşilik, dərrəndəlik,[1] insanxorluq[2] və istibdadi-məhz olan bu «həqiqətlər» cəhənnəm fironları kimi «Rusiya ruslar üçündür» və «hökm etmək istəyirsən, ayır» əsas təəssübi-cahilanəsi fikri ilə tərtiblənən müxtəlif suallar və qanun layihələri şəklində olaraq «inorodislərin» (pravoslavniyalardan xaric olanların) başlarına yağdırılmaqdadır.

«Dəmir yollarında olan bütün qeyri millətlər qulluqdan qovulsun», «camaat idarələrində olan özgələr ixrac edilsinlər», «Qafqaz əyaləti ruslar ilə doldurulsun» və qeyrə kimi layihələrin müəllifləri olan bu şeytan fikirlilərin, bir dərəcəyədək təəccüblü olsa da, qərara aldıqları bu atidəki, qətnaməleri qayətdə maraqlıdır:

«Həqiqi ruslar» axırıncı iclaslarının birində qət etmişdilər ki, öz əzalıqlarına xarici millətlərdən məhəmmədiləri də qəbul eləsinlər.

Əcəba, bundan da böyük bir təhqir olurmu? Bundan da artıq təkdir olurmu ki, Purişkeviçlər özlərinə həmməslək tapmaq istəyəndə bizə ümid etsinlər?

[1] **dərrəndəlik** – yırtıcılıq    [2] **insanxorluq** – adam yemək



Burası, doğrudan da, böyük müsəlman millətini olduqca təhqir ediyor!..

Lakin nə edərsən ki, bu təhqirə səbəb olan yenə də bizim aramızda olan «müsəlmanlar»dır, məhəmmədağalardır. Məhəmmədağa qəlibli filan ağalardır!..

Burasını «həqiqi ruslar» bilməlidir ki, onların bu qətnaməsi müsəlman camaatinə hərgiz təsir eləməz! Müsəlman camaati əgər «çörəyi qulağına deyil, ağzına yeyirsə» bütün camaat idarələrindən çıxıb, «həqiqi ruslar»ın kontorunda oturmağı özünə rəva görməz!

Bu «qətnamə» ancaq o şəxsləri cəlb edər ki, müsəlmanlar arasından təbid[1] edilmişlər, hər yerdən qovulmuşlar, özlərinə məsləklərini, dinlərini, əqidələrini satmaq üçün bir ticarətxanə axtarıyorlar!..

Böylələrini də nə qədər istiyorlarsa, qoy aparsınlar: çünki zibilin yeri zibillikdir, qarğalar gülüstanda dayanamazlar, onlara iyimiş cəmdək lazımdır!

Müsəlmanlar! Çalışın ki, aramızda olan zibilləri özümüz təmizləyək ki, böylə təhqirli qətnamələri də eşitməyək!

**M.Ə.Rəsulzadə**
*«İrşad», № 47, 8 aprel 1908*

## DUMA NƏ ELƏMİŞ?

Üçüncü Dumanın yığılmasından altıncı aydır keçir!..

Bu altı ayın ərzində Duma nə eləmiş, əhaliyə nə vermiş?..

Dumanın barəsində yazılan qəzet xəbərlərini oxuyan və dövlət işləri, camaat ehtiyacatı fikrinə qalıb, ölkənin həyati-siyasiyyəsindən müttəle[2] olmaq istəyən və zülmi-təəddi altında inləyən Rusiya camaatinin dərdinə qalmaq qəsdi ilə Tavriçeski sarayda «baş sındırıb», vaqtlər işlədib, qanun nəşr etməkdə olan «millət vəkillərinin» məhsuli-səylərindən xəbər tutmaq arzusunda olanlar bu sualı verib, cavabını istəyirlər.

Suya qərq olan kimsə, çör-çöpdən pənah və kömək gözlədiyi kimi, Rusiya həqiqətlərindən təngə gəlmiş və təsəvvüri, təfəkküri-səlimdən düşmüş əhali sağ-oktyabrist Dumasından gözlədiyi «cüzi məşrutə»yə belə nail olmadığından, nəhayət dərəcə bir ümidsizliklə «Heyhat! Duma əhaliyə nə vermiş?» – deyə sual ediyor. Böylə bir sualın cavabı iyunun üçünün qanununda müəyyən və aşkar surətdə bayan edilmişsə də, bu sualı verənlərə qəti və müəyyən surətdə bir cavab vermək üçün «Rus» qəzetəsinin bu məsələ barəsində verdiyi cavab və mütaliatı biz də təkrar ediyoruz:

Heç bir şey!

[1] **təbid** – uzaqlaşdırma    [2] **müttəle** – xəbərdar olma, bilmək

Bəli, Dumanın bütün qışı sərasər elədiyi «fikrindən» camaat heç bir şey almadı! Bürokratiya isə bu qədər zamanda bir çox müvəffəqiyyətlərə nail oldu!

Bundan irəli Rusiya bürokratiyası nəşr elədiyi qanun və nizamların məsuliyyətini özü bəröhdə ediyordu. İndi isə həman qanun nizam və fikirlərini icra ediyor, məsuliyyəti isə Dövlət duması çəkiyor, çünki vəzirlər tərəfindən fikir və həll edilən qanun layihələri Duma tərəfindən təqdir edilir.

Üçüncü Duma özü camaata heç bir şey verməmiş, verməyəcəkdir də! O ancaq bürokratiyanın əlində onların işlərini pərdələmək üçün bir alət olmuşdur!

Qabaqkı dumalar onları təşkil edən ayrı-ayrı vəkillər və firqələrdən naşi «fikir» mənasına olan «duma» adını almağa layiq idilər. Çünki bu dumalarda fikir var idi. Fikirlərini icraya qüvvələri olmadısa da, fikir özü var idi. İndiki Duma vəkillərinə və onun böyük firqəsi olan okyabristlərə baxılır və onun gördüyü təşəbbüslərə diqqət ediliyorsa, buna heyəti-vüzəra şurasının möhürü (peçatı) demək pək yaraşır.

İştə dövlət bu sayaqla bizim Dövlət duması deyilən millət məclisimiz, qanun nəşr edən fikirli, təsəvvürlü parlamentimiz yoxdur. Özümüzü aldatmayalım. Bizim ancaq üstündə «Dövlət duması» yazısı hakk edilən bir möhürümüz vardır ki, ona da bizim demək səhvdir. Çünki o möhr bizim deyil, bürokratiyanınkıdır.

Varlığı böylə bir məsxərəli hal olan «Duma»dan nə gözləmək olar?

– Heç şey!

– Əvət, heç şey! Zira bürokratlar divanxanəsində olan möhür, camaat istədiyi qanun layihələrini möhürliyəməz!

**M.Ə.Rəsulzadə**
*«İrşad», № 48, 10 aprel 1908*

## MÜTALİƏLƏRİMDƏN

Əlimə düşmüş qələmi[1] bir nüsxədən bu gün tərəqqipərvanəmiz ilə ehtiyatkaran və mazipərəstanımız arasında təsadüf və mübarizədə olmaqda olan bir məsələyə dair müsadiməyi-əfkarı burada nəql etmək istiyoram.

İştə o kitabda oxuduqlarım:

M i r z ə Y u s i f: – Balam, tamam şəhərdə sənin sözünü danışırlar. Bir məclis olmayır ki, orada səndən deməsinlər. Heç adam tapılmaz ki, yaxşılığın desin, hamı səni pisliyor. Kimi diyor ki, heyif o kişidən ki,

[1] qələmi – əl ilə yazılmış kitab



onun oğlu böylə veyl çıxdı. Kimi diyor ki, babi olub, kimi diyor ki, sosialist olub, hərə ağzına gələni diyor. Heç bir nəfər adam mənə rast gəlmədi ki, desin: «filankəsin oğlu acəb oğlandır». Canım, niyə özünü dillərə salmısan? Nə üçün öylə olasan ki, camaatin dilinə düşəsən? Atan sakit bir adamdır, dolanacağı camaatdəndir. Sən belə eləyəndən sonra atan nə eləsin, kim ona əl tutar? İndi mən bir çox adam biliram ki, sənin acığına atova bihörmətlik ediyorlar. Sən necə rəva görürsən ki, o bu vaxtında rüsvayi-cahan olsun. Deyirlər, guya, orada-burada gəzib, diyorsan ki, camaat gərək haqqini alsın, nə bilim dövlətlilər camaata düşməndirlər, belədirlər, helədirlər. Axı sənin bular nəyinə lazım, kasıb babasan çəkil bir yana, bu zibildə, sənin bu işlərdə nə işin var?..

Q ə h r ə m a n: – Dayı, bircə dayan, buracan ki danışmısan ey... hamısı doğrudur. Mən gəzib, öz əqidəmi, öz fikrimi deyəcəyəm. Həmin fikrimi demək üstündə bu az ömrümdə az bəlalar görməmişəm: ata ilə aramız dəyib, bəzi camaat hesab olunanların nəzərindən düşmüşəm, uşkoldan qovulmuşam, lakin bunların hamısını qəbul eləyib, bildiyimdən geri qalmayacağam. Mən öz fikrimi deməsəm, özümü günahkar biliram. İnsan gərək camaat yolunda hər bir şeydən keçsin.

M i r z ə Y u s i f: – Ədə, nə danışırsan. Görünür ki, doğrudan da, cavansan! Mən elə bilirdim ki, sən cavan olsan da, təsəvvüratın pirənədir. Amma indi gördüm ki, özünü həlak etmək istəyirsən.

Yaxşı, deyirsən ki, kişi gərək camaat üçün hər bir şeyindən keçsin.

Q ə h r ə m a n: – Hətta canından da.

M i r z ə Y u s i f *(təəccüblü)*: – Canından da?.. Adə canı nə ucuzlaşdırdın?

Q ə h r ə m a n: – Camaatdan də artıq şey varmı?

M i r z ə Yu s i f: – Səbir elə, səbir elə, sən deyən camaat hələ burada yoxdur. Adə, hansı camaata özünü qurban ediyorsan? Bu Kufə məxluqunamı? Bu öz xeyri ilə şərini bilmiyənlərəmi? Əzizim, sən bizim bu camaəti tanımıyorsan, bunlar sözə baxmazlar, sənin sözün nə qədər haqq, nə qədər düz, doğru olsa da, çiynində bürünc, başında əmmamə, belində tapança, cibində pul olmayınca, sənə qulaq asmazlar. Bu üç nişanələrdən birinə dara olsa hər nə desən qulaq asarlar. Görürsən? Hələ cavansan, bu məxluqu tanımıyorsan. Mən biliram bunlar necə taifədir. Beş-altı nəfər sənin kimi cavanlara, qanı istilərə nə allanırsan? O tövr yoldaş sən ancaq beş-altı nəfər taparsan, onların da bərk gündə kömək etmələrinə çox da güman yoxdur.

Q ə h r ə m a n: – Dayı, mən bilən siz səhvdəsiniz. Doğrusu, camaətimiz cahildir, avamdır, xeyrini-şərini bilmiyor, əmmamələrə, medallara,

tapançalara, pula itaət ediyor, həqq və həqiqətə səbir eləmiyor. Bunlar hamısı düzdür. Hərgah bunlar olmayaydı, hər bir şey yeri-yerində olaydı, onda daha bizə nə ehtiyac, onda daha nə lazım gəliyordu ki, camaati öz həqqini bilməyə, qara qüvvələrə itaət etməməyə çağırasan.

Sizin dediklərinizdə bilmərrə məntiq yoxdur. Siz diyorsunuz ki, «camaat bilmiyor, bildirmə, biləndə deyərsən». Bunu bir nəfər müsəbidin dilindən eşitsəydim, bir o qədər təəccüb etməzdim. Çünki böylə məntiq ilə ancaq onlar razı olarlar. Camaatin ziyalı, mərifətli bir üzvü isə gərək desin ki: «Camaat bilmiyor, bildir, deməsən bilməz». Qoy əvvəl dəfə səni döysünlər, vursunlar, sözünü eşitməsinlər, eybi yoxdur. Axırda bilərlər, haqq hər halda qələbə edər. Əgər ki, sən bir toxum əkərsən, müruri-zaman ilə o toxum göyərib sünbül olacaq, nəticəsindən isə un və sonra çörək olacaq. Toxum səpən bir kəndçi toxum əkdiyi bir ani-vahiddə o saat dönüb çörək olduğunu istəməyə həqli deyil, çünki bu təbiətdən xaricdir.

Bundan əlavə, biz müsəlman camaatinin övzai lap da öylə deyil ki, siz təsəvvür ediyorsunuz. Sizin gördüyünüz, dolandığınız tacirlər, mollalar və bəzi əhvali-güzərani vüsətlə[1] keçənlər ilə olduğundan təbiidir ki, ətrafınızda olanları öz məişətindən razı görüb, siyasi işlərdə mühafizəkar görürsünüz. Camaat mücahidlərinə nisbətən onlarda ədavət müşahidə qılırsınız. Bundan da belə nəticə çıxarırsınız ki, azad fikirlər hələ müsəlman arasında yerimaz. Lakin bu əbəs fikirdir. Hərgah siz əsl camaat hesab olunan fəqir-füqəra, əmələ və fəhlə sinfinin arasında gəzeydiniz, hərgah siz məişətin bütün ağırlığını arxasında çəkənlər arasında olsaydınız, hərgah siz onların əzab və məşəqqətlərindən xəbərdar olsaydınız, onda bilərdiniz ki, müsəlman arasında işləmək üçün necə hazırlanmış yerlər var. Mədəniyyət əkmək üçün müsəlman camaati necə münbit bir torpaqdır.

Ancaq müdəbbir[2] əkinçi lazımdır ki, bu yerləri şum eyləyib əksin. O əkinçilər də biz millət cavanlarıyıq. Bizə vacibdir ki, heç bir mümaniət və çətinliyə baxmayıb, var gücümüz ilə çalışaq ki, camaatimizi düçar olduğu fəlakətdən xilas edək.

Hər sahibi-vicdan olan kimsə guşi[3]-ibrət ilə qulaq assa, məzlumların naləsini, yetim uşaqların fəryadını, zülm altında əzilən əhalinin istimdadını eşitməyə bilməz! Bunları eşitməmək üçün kar olmalıdır, gözümüzün önündə aclıq və fəlakətləri görməmək üçün kor olmalıdır, mənəvi kar və mənəvi kor olmalıdır. Hər kəs ki kar deyil, hər kəs ki kor deyil, hər kəsin ki, bədənində gizlətdiyi qəlb daş parçası deyil, dövrəmizi tutan bu dəhşətli mənzərə içində sakit otura bilməz. Ona lazım və vacibdir ki, öz camaatinin əlindən tutub, ona kömək etsin...

[1] **vüsət** – bolluq, rifah
[2] **müdəbbir** – tədbirli
[3] **guş** – qulaq



Dayı, məgər qonşumuz gürcüləri, ermənilərı, yəhudi və rusları görmüyorsunuzmu ki, necə camaat yolunda qurban olurlar?..

M i r z ə Y u s i f: – Bax, yenə mən deyənə gəldin ha... erməniləri, gürcüləri və qeyrilərini mənə göstərirsən, niyə baxmıyorsan ki, onların camaati necə öz mücahidlərinin qədrini bilirlər. Bizimkilər də bilərlərmi?..

Q ə h r ə m a n: – Ah... nə vaxt bir mücahid özünü fəda etdi ki, camaat onun qədrini bilmədi? Camaata qədr bilməyi fədakarlığın ilə gərək öyrədəsən. Əvəzsiz heç nə alınmaz. Fəda ol, qədr gör! *(Əvət: «fəda ol, qədr gör!»)*

M i r z ə Y u s i f *(hiddətlənmiş)*: – Adə, axı sən nə diyorsan!?

Q ə h r ə m a n: – Dayıcığım, mən çox söz diyoram, ancaq müxtəsəri budur ki, hamının dirilik etməyə ixtiyarı olmalıdır.

M i r z ə Y u s i f: – İnan ki, qınamıyoram.

Q ə h r ə m a n: – Ən açıq sözlərdən biridir. Dünya gərək hamı üçün bir olsun. Bir ovuc insanların səadət və rahatlığı üçün milyonlarca insanlara cəbr olunmasın.

M i r z ə Y u s i f: – Budurmu sizin istədiyiniz? Ax, xülyapərəstlər! O hansı axmaqdır ki, buna razı olsun? O hansı sarsaqdır ki, öz qulluqçusu ilə bərabər olmağı istəsin?!

Q ə h r ə m a n: – Düzdür, dayı, düzdür! Dünyada elə axmaq tapılmaz. Yer üzündə öylə səfeh yoxdur. Amma onları, o axmaqlığa, o səfahətə vadar edərlər.

Onların xoşuna qalsa, əlbət ki, rıza verməzlər, əlbət ki, razı olmazlar. Amma camaat yığışıb birləşmə, müttəfiq olub öz həqqini qansa və bu həqq dalınca düşsə, onda tez razı olarlar.

«Kafər becəhənnəm nə mirəvəd, kəşan-kəşan mibərənd».*

**Məhəmməd Əmin**
*«İrşad», № 51, 15 aprel 1908*

## İRANA DAİR

### TƏBRİZ ƏHVALATI

*(xüsusi müxbirimizdən)*

Bir həftədir dava olmuyubdur, ancaq iki gecə bir neçə saat şiddətli atışma oldu da Dəvəçi məhəlləsinin adamları irəliləyə bilmədilər və geri oturdular. Və bu günlərdə məşrutəçilər nəhayət dərəcədə qüvvətləndilər. On min nəfərdən ziyadə millət tüfənglisi şəhərin tamam ətrafında səngərlərdə gecə-gündüz hazır və amadədirlər. Və şəhərin çox yerlərində

* Kafir cəhənnəmə getməz, onu çəkə-çəkə apararlar.

toplar qoyublar. Hansı bir tərəfdən hökumət qoşunu hücumavər olursa, qabağını saxlasınlar.

«Ərk»in ətrafında təzə səngərlər qayırıb, milli sərbazlar mühafizə edirlər. Ləştihar etdiyinə görə «Ərk»də o qədər dava tədarükü vardır ki, illər ilə millət dava edərsə, tədarük qurtarmaz. Gün-gündən milli sərbazlarının ədədləri artmaqdadır.

Pişnamazlar, tüccarlar məşrutəçilərin tərəfinə keçiblər, minlərcə adamlar hər gün əncümən əyalətinə gedib, təbrik və əncüməni-əyalətidə millətpərəst ürəfalardan on iki nəfər vəkil intixab olunubdur, neçəsi köhnə vəkillərin fədakarlarındandır. Şəhərin cami-umuratı əncüməni-əyaləti də tərtib olunur. Və əncamə götürürlər və əlavə Təbrizdə təzə təyin olunmuş Eynüddövlə neçə gündür gəlibdir şəhərin iki-üç verstliyində sahibi-divan bağında mənzil edibdir və əyalət əhlindən atlı cəm edib, orada ordu qurubdur. Neçə dəfə şəhər vəkillərindən və əyanlarından və tüccarlarından hüzuruna istəyibdir, şəhəri nə yolda islah olmağın söhbət edibdir və şəhərə gəlməyə ona mane olmamağı tələb edibdir. Məşrutəçilərin tələbinə qarşı deyibdi: «Mən gəlmişəm şəhəri və ətrafı əmniyyət edim, məşrutə barəsində mən danışa bilmənəm!» Dünən əhali hər məhlədən əncüməni-əyalətidə cəm olduqdan sonra, vükəlalar tərəfindən Hacı Şeyx Əli Əsgər, Mühacir Qarabaği əhaliyə xəbər verdi ki, hakim tüccarları hüzuruna istəyibdir. Ancaq vükəlaların qərarı budur ki, bu gün iki nəfər heyəti-millət tərəfindən Eynüddövlə hüzuruna qanuni-əsasidən neçə fəsl yazıb, aparsınlar və qanunların bir fəslinin məzmunu budur ki, hakimi-şəhər darüşşura təsdiqi ilə gərək olsun və hakimə təklif etsinlər. Əgər hakim müvafiq qanuni-məşrutə rəftar edəcəksə, əvvəl gərək Rəhim xanı atlıları ilə və qeyri atlı və sərbazları şəhərdən kənar etsin. İslamiyyədəki, irticaiyyun rəişlərini şəhərdən təbid[1] etsin və özü də tək gəlmək istəsə, qəbul edərik, vallah, qeyri təriq ilə gəlmək istəsə, qəbul etməyib və şahı da tanımarıq. Və əhvali öz rizayətləri[2] ilə «İclalülmülk» «cənab Şərifzadəni» heyət qərar verdilər. Və hakim tərəfindən heyət gətirdiyi məktubu bu gün Samsunxan məscidində əhaliyə oxuduqda, əhali hakim tərəfindən bizə hiylələr olur! – deyə qərar qoydular və dübarə heyət göndərib, axırıncı sual-cavab olaraq öz tələblərinə qəti cavab istəsinlər və məsciddə olan ülamalar tüfənglər götürüb, Nəcəf ülamalarının fitvasına görə özlərinin istibdad əleyhinə cihad etməklərinə hazır olduqlarını xəbər verdilər. Əhali, tüccarlar da bunlar ilə bərabər tüfəng götürməklərini xahiş etdilər. Və əlavə əncümən qərar etdi: gərək hakimin yanına əncüməni-əyalətindən və sərdari-milli Səttarxandan biizin getsə, mane olsunlar və əlavə iki gün bundan əqdəm bazarda olan hər iki tərəfin tüfəngliləri bir-biri ilə görüşüb, öpüşüb bir-birilərinin

[1] təbid – uzaqlaşdırma [2] riza – razılıq



səngərini gəzib, çay içirlər və qərar qoyurlar barışıq eləsinlər. Dəvəçi tüfəngçiləri məşrutəçilərə diyorlar: «islamiyyə» rəisləri bizləri yoldan çıxarıblar, şimdi biz istəyirik əncüməni-əyalətiyə gedib qardaşlarımız ilə barışaq və oradaca iyirmi nəfərə qədər tüfəngli öz tərəflərindən əncüməni-əyalətiyə göndərirlər və onların içində imam cümə nökəri Hacı Seyid Hüseyn Dəşgər də bərabər var imiş.

Və əlavə diyorlar sabah cəmi Dəvəçidə olan tüfənglilər də əncümənə gəlib sülh edirik.

Bu işə məşrutəçilər əhəmiyyət verməyib, Eynüddövlə tərəfindən olan hiylə hesab edib, əhaliyə bu barədə huşyar olmaq lüzumunu xəbər verdilər. Guya, hakim hiylə ilə məşrutəçilərin içinə dəvəçiləri qarışdırıb, Ərkə yol tapmaq istiyormuş.

Və əlavə dünən Rastə küçə məhləsində bir nəfər Hacı Cəlil nam Marəndi məşhur fərş-füruş ki, sabiq əncüməni-əyaləti vükəlalarından idi, tüfəng ilə öldürüblər. Bu adam millətpərəst olmuyub, irticaçərəstlər ilə əlaqəsi var imiş. Bəziləri də deyirlər ki, şəxsi ədavətə görə öldürüblər.

Bir həftə bundan əvvəl Əhrab məhləsinin naibi məşhur Kərbəlayi Məhəmməd Əlvat ki, irticaiyyun tərəfdarı idi və Əhrab məhləsinin mücahidlərinə mane olurdu, tüfənglərini alırdı və milli ianələrinin Əhrab məhləsində cəm olmağına mane olurdu.

O səbəbə haman məhlənin əhli və qeyri məşrutəçiləri ilə Kərbəlayi Məhəmmədi və qardaşını və nökərini öldürdülər və evini yandırdılar.

M.Ə.

*«Tərəqqi», № 32, 19 avqust 1908*

## TƏBRİZDƏN

*(xüsusi müxbirlərimizdən)*

Hakim Eynüddövlə axır Təbriz əncüməni-əyalətiyə xəbər vermişdi ta ki, Tehranda darüşşura yoxdur, qanuni-əsasiyyə müvafiq rəftar edə biləcəkdir. Ona görə bir həftə bundan əvvəl məşrutəçilər öz tərəfdarlarından cənab İclalülmülkü Təbrizə hakim qərar verdilər. Bu adamın millətpərəst olduğu və tamam iki ildir fədakaranə millətə xidmət etdiyi tamam Təbriz əhlinə məlumdur. O səbəbdən məşrutəçilər qüvvəti-qəlb hasil edib, keçən həftə başladılar hər bir tərəfdən hücumavər olmağa və tez bir vaxtda xiyabanilər Pərsəngi və Şişgilan məhləsindən dövlət atlılarını çıxardıb, məhəllə əhlini təslimə götürdülər və «əmrəxiz» tərəfindən Dəvəçiyə yeriyib, Dəvəçi bazarçasını yandırdılar və imam cümə evindəki səngəri alıb, tamam bazarı ələ götürdülər.

Nəhayət, haman gün məşrutəçilərə kömək edən tüfənglilər bir yerdə qarətə məşğul olduqlarına görə və imam cümənin evini qarət edib apardıqdan sonra təzə alınan səngərlərdə tüfəngli az olduğuna səbəb məcbur oldular geri oturmağa, sabahı gün Səttarxan elan etdi qarət olan şeyləri yığsınlar və bundan sonra hər kəs dava vaxtı qarət eləsə, mücahidlər güllə ilə vuracaqlardır. Əlavə də məşrutəçilərinin geri oturmağına bir səbəb də bu oldu ki, haman gün Səttarxanın üstünə dalı tərəfdən Maku atlılarından üç yüz əhli İqbalüssəltənə atlısı şəhərə gəlmək istəyirmiş. Səttarxan bunların qabağını kəsmək üçün şəhərdən üç ağac kənarda olan Savalan kəndinə bir qədri mücahid göndərib, haman kəndin qonşu kəndlərinin mücahidləri ilə köməklikdə İqbalüssəltənə atlılarını dağıdıb, otuz nəfərini öldürüb, geri qaytarıblar. Dünən ki, yekşənbə günü idi, Eynüddövlə tamam qüvvəsini şəhərə cəm etmişdi.

Bu gecəsi dəvəçilərin əlində olan məşhur Fərzilər timgəsini ki, burada mötəbər istanbulçu və qeyrə tüccarların dükan və anbarlarıdır. Dəvəçidən on iki nəfər tüfəngli gəlib, timgəni mühafizə edən hambalları oradan kənar edib, tamam timgədə olan malı və nəqdi dəvəçilər tamam daşıyıb aparıblar. Bundan savayı üç nəfər dəvəçi öz sakin tüccariyyənin dükanına əl vurmuyublar. Xülasə ehtimal olunur ki, Eynüddövlə tərəfindən izin vardır ki, bu qədər mötəbər karvansaranın malını asudəlik ilə daşıyıb aparırlar.

Və ehtimal olur ki, cənab Eynüddövlə bu malları atlılara və dəvəçilərə bığyağı veribdir ki, qeyrət ilə dava etsinlər. Çünki dövlətin pulu yoxdur ki, pul versin.

Əlhasil, bu iş Təbriz tüccarlarına çox pis təsir etdi və Eynüddövləyə olan ümidlərini kəsdi. Dünən ki, bu əhvalat aşkar oldu, zöhrdən[1] axşamadək məşrutəçilər başladılar hər bir tərəfdən Dəvəçini böyük toplar ilə odlamağa, gecədən iki saat keçəndə Təbrizin başından ayağınadək 10 verst qədər uzaqlıqda olan tamam səngərlərdən dəvəçilər başladılar hücumavər olmağa. Bütün hücumları şəhərin orta tərəfində İstanbul qapısı və xiyaban bazarçısı olan məhlədən idi, tamam iki saat atışma davam etdi.

Şimdiyədək Təbrizdə bu qədər şiddətli atışma olmamışdı. Məşrutəçilərin bəzi səngərlərinə 3–4 yüz nəfər birdən hücumavər olurdular. Bunların müqabilində 5–10 nəfər məşrutəçi qəhrəmanları dayanıb 15–20 dəqiqə qədər bunların qabağını saxlayıb ta mərkəzlərdən kömək gələnədək bir səngəri buraxmamışlar. Hüququnu anlayan adam qəhrəman olarmış.

Həqiqət bu gecənin davası dövləti davalar kimi bir dava idi. Müttəsil Ərkdən, Əmrəxizdən və Xiyabandan bütün toplar atılırdı və məşrutə

[1] zöhr – günorta



qəhrəmanları hücumavər olan atlıların içinə bimbalar atırdılar. Rubəru gələn düşmənə onaçılan ilə atırdılar. Ta ki, yarım saatdan sonra məşrutəçilərin köməkləri çoxalıb, başladılar atlıları geri oturtmağa, gecəyarısı hava çox atif[1] idi və ay işığı idi, atışma sakit oldu. Əlan[2] ki, zöhr vaxtıdır, məşrutəçilərin topları başladı Dəvəçiyə doğru atılmağa. Bu davaların nəticəsi 3–4 günədək səmərəbəxş olar. Bəndənin təsəvvürünə görə, Eynüddövlənin başındakı qoşun bu yaxın vaxtlarda başlar dağılmağa.

10 şəban, şəhəri Təbriz

**M.Ə.**

*«Tərəqqi», № 43, 3 sentyabr 1908*

## CÜMƏ MƏKTƏBİ

Bu cümə günü sentyabr ayının 19-da «Cümə məktəbi» açılacaqdır. Cümə məktəbi açılır. Təlim vaxtları küçə tozların arasında ötən növcavanani-millət üçün bir babi-rəhmətdir açılır. Əvət babi-rəhmətdir. Çünki zülümati-cəhalətdə olduğunu bilib işığa çıxmaq istəyənə, istəyib giriftar olduğu üsrətdən naşi bir az «qara-qura» da olsa belə öyrənmək özünə mümkün edə bilməyənlərə, cümə məktəbi işıqlı bir rövzənədir.

Cümə məktəbi. İdarə heyəti daireyi-hümmətini böyütmək istər. İstər ki, bu cümə məktəbi «bir camaət darülfünunun» şəklini almaq olmasa da, heç olmasa şəhərimizdə olan «Yekşənbə məktəbi» kimi olsun. Yekşənbə məktəbi, doğrudan da, zində səy və hümmət ibraz edən qeyrətli maarifmənd, hümmətli cavanlar ilə iftixar edə bilər.

İştə «Cümə məktəbi» də istər ki, maarifməndkar günləri, qeyrətli, millətini istəyən, yaxınını sevən cavanlar ilə fəxr eləsin. Arkadaşı olan «Yekşənbə məktəbi»nə desin ki: «Bax meydani-mücahidə də səni yalqız qoymadım, sən yekşənbə günləri sərmayə istifadəsindən azad ola bilənləri tərbiyə etdiyində, o günü işdən azad ola bilməyənləri tərbiyə edə bilmədiyindən, mən də sənə yardımçı çıxdım. Şükür edirəm ki, öz vəzifəmi layiqincə yerinə yetirdim».

Cümə məktəbi bu lisani-halə dara olmaq istəyir. Ancaq bu lisani-halə onu müvəffəq edəcək kimlərdir? Onu da cümə məktəbi öz lisani-halında bəyan ediyor, diyor: «Əziz məsləkdaşım «yekşənbə məktəbi» yoldaşım! Mən ümid ediyoram ki, evlər dağıdan o cəhalət zülməti ilə etdiyimiz mübarizədə səninlə bərabər bir mücahid olam, əgərçi mənə bir daha da artıq mücahid olmaq lazım gəlir, çünki tərbiyəsini öhdəmə aldığım qismin işığa olan ehtiyacı səninkindən daha artıq, daha itidir.

[1] atif – mülayim, xoş [2] əlan – indi

Səndə üç yüz oxuyan, qırx nəfər oxudan varsa, məndə 500 oxuyan, 60 nəfər oxudan az olar».

Bəli, müsəlmanlar arasında olan qaranlıq, cümə günü tətil edən zəhmətkeşlər arasında olan savadsızlığın həddi dərəcəsi yoxdur. Bu qaranlıq və savadsızlıqdan olaraq bütün aləmi-islami bürüyən fəlakət, səfalət, rəzalətin intihası, qurtaracağı təsəvvür olunmayan bir halətdədir.

Məktəbsizlik, tərbiyəsizlik, savadsızlıq – durub saysaq artıq baş ağrısından qeyri bir şey olamaz. Qəzetələrimizin zatən yazdıqları bütün bu qisim ağlamalardan, göynəmələrdən oxşayıb göz qorası sıxmaqdan ibarət deyilmi? Hansı qare bilinməzi dindirsək, cəhalətdən şikayət edər, hansı arifimizdən xəbər alsan elmsizlikdən bəhs edər, hansı müəllimimizi görsən məktəbsizlikdən ağlar, hansı cavanımızla danışsan qəflətimizdən dəm vurar. Bütünlüsü ağız-ağıza verib, vay, millət dalda qaldı, ay camaat qafildir, vay cəhalətdəyiz – nə bilim müzməhil olmaqda, dağılmaqda, qırılmaqda, tələf olub getməkdəyiz, bələyiz, hələyiz. – deyə dad-fəryad edəriz.

Ancaq «sözdən o tərəfə getdi» bizdə çox az tapılır. Hər yana baxırsan lənglik, hər tərəfə dönürsən bütün durğunluqdur ki var. Ürəklə bağıran, qəlbdən nalə edən çox az tapılır. Zatən qəlbən bağıranların bağırtıları da azdır, çünki işə məşğul olduqda bağırmağa vaxt qalmıyor.

İştə sentyabr ayı daxil olmuşdur. Bu aya ürfan ayı deməklə bərabər bağırtı və iş ayı daxi demək olar.

Ürfan ayı nə üçün olduğu aşkardır. Bütün məktəblər, maarifxanələr bu ayda açılır. Bağırtı ayı olduqda tədris mövsümünün ibtidası olduğu ilə bəyan olunur ki, quru boğazlara meydan açılır.

İş ayı olduğu da mətlubi-təbiisinə görədir.

İndi bizi keçən möhtaci-ürfan bir millətin ürəfalarına, hümmətli münəvvər cavanlarına, müəllimlərinə də lazım və vacibdir ki, adətimiz olan quru boğazlıqdan əl götürüb də sentyabr ayını, doğrudan da, «işli» «sentyabr» edək.

Hər sinfin, hər qismin, hər taifə və millətin ürəfaya olduğu dərəceyi-ehtiyaca qarşı tədabiri sentyabr ayında aşkar və məlum olduğu kimi heç bir vaxt aşkar olmayır.

Budur bu gün şəhər möhtacini-mərifət ilə dolub daşmaqdadır. Baxınız nə qədər füqəra uşaqları gəzib özlərinə bir vasilə axtarırlar ki, mümkün edib dərs oxusunlar. «Nicat»a ricuda bulunan təşnəgani mərifətin ehtiyacını gündə-gündə görüyoram da, ürəkdən çıxan ilhah[1] və iltimasları ciyərim dağdar olaraq səm ediyorum.

Lakin lüzuminin yarısınca olsun güc eləmək imkanından kənarda olduğumdan özümü və yoldaşlarımı və bütün işləyənlərimizi, onlar ilə

[1] İlhah – israr



bərabər, bütün camaatimizi nifrətləmək dərəcəsinə gəliyoram da, öz-özümə diyoram ki, «ah, nə çətindir ki, ehtiyacı görəsən də rəf etməyə qadir olmayasan!..» Nə edəsən, hər halda geri çəkilmək olmaz. Beş nəfər suya qərq olanı qurtarmağa qadir olmasan da bir nəfəri saxlamağın da qənimətdir.

İndi cavanani-millətimizə, müəllimlərimizə, ürəfalarımıza lazım və vacibdir ki, öz yaxınları olan avam qardaşlarının köməyinə çalışsınlar. Həmişə gördükləri işləri də, öhdələrinə götürdükləri vəzifə də, mənafeyi-şəxsiyyəti, cib hesabını qabağa salmaq, qara pulu amal etmək olmaz!!. Bir az da vicdan saflığı, camaatə qarşı olan vəzifeyi-mənəviyyə ədası[1] gərək!! Bu gələn cümə günü dördüncü müsəlman məktəbi (altı qatında Təzəpir və Çadrovı küçələrinin küncündə) «cümə məktəbi» açılıb həm oxumaq, həm də oxutmaq istəyənlər artıq məmnuniyyət ilə yazılacaqdırlar. İştə sentyabrın 19-u cümə günü bildirir ki, sentyabr ayı bizlərdən ötrü hansıdır:

İş ayı, yainki bağırtı!..

**«Nicat» sədri Məhəmməd Əmin Rəsulzadə**
*«Tərəqqi», № 53, 16 sentyabr 1908*

## TƏŞƏKKÜR

Müdir əfəndi!

Təvəqqi edirəm ki, qəzetənizin bir guşəsində zeyldəki[2] təşəkkürümüzə yer verəsiniz.

«Nicat» maarif cəmiyyəti adından, cəmiyyətin fəqirü-biçiz mütəllimlərə mənzil vermək məqsədilə açdığı pansiyona ianə məsərrəti olmaq üzrə hümməti-cavanmərdanə bəzl həmiyyətməndanə də bulunub ayda 25 manat (ildə 300 manat) verən cənab Dadaş Məhəmmədov kantoruna təşəkkürati-səmimanələr edərək, əmin oluyoram ki, o cənabın bu timsali-xeyrətməndanəsi qeyri-ərbabi-səxavətlərimizdə daxi bir hiss ianət oyadar.

**«Nicat» maarif cəmiyyəti sədri:**
**Məhəmməd Əmin Rəsulzadə**
*«Tərəqqi», № 56, 19 sentyabr 1908*

## KOOPERATİV CƏMİYYƏTLƏRİ

«Tərəqqi»də felyeton şəkli ilə şərh və bəst verəcəyimiz bu məqaləmiz bir-iki dəfə fəhlələrə xütbə olaraq oxunmuş və fəhlələrin xahiş və arzularına görə ilərində yenə də oxunacaqdır.

Məsələnin bu gün bütün Rusiyada, o cümlədən Bakıda artıq rəvacda olub fəhlə qismini, fəhlə orqanizasiyalarını məşğul etdiyindən məlumdur

[1] ədə – yerinə yetirmək
[2] zeyldəki – burada aşağıdakıları deməkdir

ki, bizim müsəlman fəhlələri də gərək ki, bu barədə bilik və məlumat sahibi olsunlar. Əvvələ, leksiyaya fəhlələrin hamısına qulaq asmaq mümkün olmadığından və saniyən bu tövr şeylərə alışmayıb lazımi məlumatı birinci dəfə eşitməklə kəmalınca dərk etmək təbii bir yolda olaraq, mümkün ola bilmədiyindən, biz o leksiyamızı çap etmək istəyiriz. Təinki fəhlələrimizin savadlıları və fəhlə deyilsələr də cavanlarımızdan camaət və cəmiyyət işlərinə həvəskar olanları lazımeyi-məvaddi buradan əxz edə bilsinlər.

## MÜQƏDDİMƏ

«Kooperativ» rus sözü deyil, əcnəbi bir ləfzdir. İki sözdən tərkiblənir «kooperasiya» və «koo» sözlərindən «operasiya» – «icra» demək olub, «koo»da fars «həm ilə müvafiq gəlir ki, bu vəchlə «kooperasiya»ya türkcə «bir yerdə icra etmək», yaxud «əlbirliklə işləmək» mənası vermək və mənanı ifadə edəcək ərəbcə, farsca bir istilah axtarmaq mümkün olursa da, biz onu etmədik. Nəzərimizcə buna artıq ehtiyac yoxdur. Çünki o istilah da belə əhalini andırmayacaq bir halda olmayacaqmı? Öylə isə niyə artıq zəhmət çəkilib bihudə vaxt sərf olunsun. Bundan belə bu qisim istilahlara ehtiyac artıq olacaq və ən gözəli də odur ki, Yevropada işləndiyi kimi əlahiddə öz dilimizə daxil edək, necə ki, ruslar və bir dərəcəyədək türklər ediyorlar. Mən əminəm ki, qanuni-əsasinin təhti himayəsində vüsət tapan osmanlı ədəbiyyatı işlənməyə məcbur olacağı bir çox siyasi, iqtisadi və ictimai istilahları Yevropada beynəlmiləl bir istemala müvəffəq olan surətlər ilə işlədəcəkdə «ictimaiyyət» deyil, «sosializm», «iştirakiyyət» deyil, «kommunizm» istemal edəcəkdir.

İstemalının yevropacasına eyni qəbul edəcəyimiz sözlərdən biri də «kooperativ» sözüdür.

## «KOOPERATİV» NƏDİR?

«Kooperasiyon»* – bir iş üstündə, köməklə, əlbirliklə, yoldaşlıqla görülən səyə və edilən zəhmətə deyilir.

Ağır bir dəyirman daşını bir nəfər, iki nəfər, üç nəfərlə də qalxızmaq mümkün deyil, yainki nataraz par qazanını 4–5 fəhlə arabaya mindirə bilməz. Bundan ötrü lazımdır ki, bir xeyli adamlar yığışıb əl-ələ versinlər. Köməkləşsinlər ki, ta bu ağır iş görülsün, dəyirman daşı götürülsün, par qazanı da arabaya mindirilsin.

İndi şəriklik ilə görülən böylə bir ağır işin görülməsinə kooperasiyon deyirlər.

* rusca tələffüzü – qeyd M.Ə.Rəsulzadənindir



Lap müxtəsər və açıq deyək: üç nəfər fəhlə köməklik edib birlikdə bir ağır daşı yerindən aldılar.

Burada nə oldu? Burada «kooperasyon», yaxud «kooperativ» əmələ gəldi.

Bəli, «kooperasiya» deyilən söz insanların biri-birinə kömək edərək birlikdə gördükləri işə deyirlər. İş ancaq insanların kooperativlərinə, yaxud birlikdə işlədiklərinə cəhət mənfəətli olur, xeyir verib bir çox insanların bir yerdə məhəbbətlə gördükləri işləri ayrı-ayrı insanların hissəsini, payını artırmaqla bərabər zəhmətlərini də azaldır. Nə qədər insanlar zəhmətlərini öz aralarında bölüşüb yoldaşlıqda işləsələr, bir o qədər tərəqqi artar, insanlar irəli gedərlər. Bizim, yəni insanların dərəcədərəcə qalxıb bu hala gələn dolanacaqlarına bir nəzər edilsin. Heyatiictimaiyyənin dəyişməsinə diqqət verilsin: bütün diriliklər ancaq ovçuluğa bağlı olan camaatlar şərikli olub birlikdə zəhmət çəkməyə möhtac deyildirlər. Afrikanın qara vəhşiləri hər kəs öz başını saxlayan kimidir. Çünki çoxdan heyvanları tutub öldürüb yemək üçün artıq bir kömək lazım deyildir. Köməksiz də dolanmaq mümkün olur.

Ovçuluq ilə məşğul olan taifələrin külfətləri və şəxsləri ümumi kömək olmasa da, keçinə bilirlər. Lakin heyvandarlıq və əkinçilik ilə məşğul olan taifələr zəhmət bölgüsü olmamış iş görə bilməzlər.

Bir sürü qoyunu olan bir kəndçi hərgiz bacarmaz ki, ona lazım olan işlərin hamısını özü aparsın. Əkini, buğdanı əkib göyərdib çörək halına gətirənə kimi bir xeyli insanların köməyinə möhtacdır. Yoxsa heç vəch ilə onun əkinçiliyindən gözlənən fayda hasil olmaz.

İnsanların tərəqqisi bu sayaq ilə gəlmişdir. Əvvəldə olan insanlar bu gün əsrimizdə mədəniyyət əsərinin bugünkü alət və kərəstilərin heç birindən xəbərləri olmamışdır. Əvvəlcə insanlar vəhşilər kimi dənizdən balıq, çöldən heyvanat tutub yeməklə dolanıb, sonralar sürü saxlamaq, əkinçilik etmək kimi sənətlərə keçmişlər. İnsanların tərəqqisi əkinçiliyə keçməklə bərabər onların mədəniyyətləri, yəni kənd, şəhər bina edib oturaq olduqları da başlanılır. Bu vaxtdan kənd və əkinəcək kərəstilərinə ehtiyac görünür. Dəmirçi, xərrat, səbət toxuyan və qeyri bu kimi insanlara (ustalara) meydan açılır.

Bu sənətkarlar camaatə lazım olan işlərinin bir hissəsini, deməli, üstlərinə götürürlər. Və bu zəhmətlərinin əvəzində əkinçilikdən hasil olan mətaın bir hissəsini alırlar. Zəhmət bölgüsü əmələ gəlir. Bir çox insanlar ümumi olan bir işdə bərabərlikdə işləməyə başlayırlar.

Aralıq qərinələrdə (Qryunderstvo*) iqtisad dairəsi genişlənir. İnsanların tərəqqisi çoxlaşır. Adamların zəhmət şərikləri böyüyür. Sənətkarlar şəhərlərə yığışıb, ziraətkarlar da kəndlərə çəkilirlər.

* Qryunderstvo – ehtikarlıq məqsədilə təşkil olunan şirkət

Ziraət işi vüsətlənib şəhərləri əhatə ediyor, aralığa alır və onları özündə hasilə gətirdiyi müxtəlif mətalar ilə doldurmağa başlıyor. Kənd ilə şəhər arasında mübadilə əmələ gəlir. Şəhərlərin öz aralarında isə mədədkarda mübadilə çox çətinliklə əmələ gəliyor. Çünki rahət və qorxusuz yollar olmadığından alış-verişçilər buradan-oraya getməyə qorxurlar, mümkün edə bilmiyorlar. Çox çətinlik və dəhşət ilə ipək və qeyri bahalı malları tacirlər bu şəhərdən o birinə aparmağa başlıyorlar.

Bu surətdə biz görürük ki, tərəqqi, zəhmət bölgüsü, insanların bir yerdə köməklə işlədikləri və mədəniyyət biri-birinə yoldaşdırlar.

Axırən Yevropada böyük inqilab əmələ gəliyor.

XVIII qərinə axırında par maşinası ixtira olunur. İştə indiki dünyanın təşəkkülünün də əvvəli aradan götürülür. Maşina olmayana kimi sənətkarlar mətai ayrı şərti-şürut ilə hazırlıyordular.

O zaman hər bir sənətkar sifariş üzrə nə buyrulursa, kimə xoş gəlirsə, öylə də hazırlıyordu. Özü də bir o qədər böyük «kooperasiya»ya, yəni zəhmət şərikliyinə möhtac deyildi.

Maşın isə özgə şeydir. Maşın artıq hazırlıyor. O qədər hazırlıyor ki, bir şəhər və onun ətrafında olan ehtiyacı ötüb keçir. Bundan ötrü sərmayədar məcbur olur ki, mətaını yeritmək üçün uzaq yerlərdə bazar tapsın.

İrəli sənətkar necə ki dedik sifarişə görə hazırlıyor idi. Sifariş olmasa da, hazırladığı şeylərin rəvac olacağına inanır idi. Fabrikaçı isə böylə deyil. Fabrikaçının imkanı olduğundan maşın vasitəsilə müdam işləyib məta hazırlıyor. Mətai hazırlıyor da satılacağını heç bilmiyor. Buna görə ona lazımdır ki, ticarət azad olsun, yollar rahət olsun, insanların biri-birilə rəftarı və əşyanın hüsulu asan vəchə düşsün, tainki maşınlarını işlətmək üçün mətə və fəhlə tapa bilsin. Ona gərəkdir ki, hər yerdə müəyyən bir qanun mühafizəsi görsün. Ona gərəkdir ki, hər bir yeri yaxşı öyrənib bilsin; məlumatlı olsun, hər yanda, hər tərəfdə nizam, qanun ona kömək olsun.

İnsanların səfləri, zəhmətləri ayrı-ayrı əyalətdən keçib milli şəklə düşür. Yəni ümum camaat ümum dövlətin olur.

Buradan da ötüb beynəlmiləllik şəklini alır. Burasına isbat istərsiniz: millətlər və dövlətlər arasında bağlanan müqavilənamələr və ittifaqlara baxa bilərsiniz. Bütün dünya əhalisinin bəzilərinin mənfəətləri (interesləri) birləşir. Bunu bilmək üçün ancaq bir neçə dəqiqə qeyri fikir və xəyallardan ayrılıb insan öz güzəranına diqqət edərsə, həqiqəti-hal məlum olar. Fikir aləmində bir ani özünüzə baxın, görün ki, siz aləmyanə necə bir surətdə borclusunuz. Görün bir ki, necə sizin varlığınız bütün aləmin varlığına bağlıdır. Bir baxın ki, əyninizə geydiyiniz kətan köynək haradan hasil olmuş, Amerikada göyərdiyini düşünürsünüzmü? Bu kətan Yevropaya ingilis fəhlələri tərəfindən gətirilib, Fransa fəhlələri tərəfindən toxunmuşdur. Ayağınızdakı çəkmələr rus öküzünün dərilərindir. Qışda geydiyiniz kürk türkmən qoyununun arxasından alınmışdır. Çikaqodan gətirilən yağ ilə Almaniyadan gələn kartoşka qızardırlar. Berlin farforunda içdiyiniz çay, xətadan gəlmiş böylə bir həvəslə özünüzü zəhərlədiyiniz, artıq damağla dartdığınız tənbəki osmanlıdan alınmışdır. Hərdən bir təfənnün[1] üçün içdiyiniz qəhvə Ərəbistanda hüsulə gəlir. Xülaseyi-kəlam, bütün aləm, tamam dünya siz üçün işliyor, siz də bütün aləm üçün zəhmət çəkirsiniz. Özgə zəhmətlərinin meyvələri hər bir tərəfdən axıb siz üçün gəlir. Sizin də səylərinizin əsəri özgələr üçün aparılır. İnsanlar köməkləşir və tərəqqiləri də köməkləşilmədədir. Bu köməkləşmək olmasa idi, insanların tərəqqi və mədəniyyətləri də olmazdı. Mədəniyyət ancaq orada ola bilər ki, orada zəhmət bölgüsü olsun. Bu, köməkləşmə ilə zəhmət çəkməyin ölçüsü xudmədəniyyət və tərəqqinin ölçüsüdür. İnsanların arasında zəhmət bölgüsü və birlikdə zəhmət çəkmək nə dərəcə vüsətli isə o dərəcə də tərəqqi və mədəniyyətləri vüsətlidir!..

İndiki dövrü-sərmayənin iştə elə yaxşı tərəfi odur ki, o insanları biri-birinə bağlıyor, zəhməti onların arasında elə bölür ki, biri hamısına, hamısı birinə bağlı olubda yekdigərləri üçün işləməkdədirlər. İnsanlar biri hamı üçün, hamısı biri üçün işliyor. Əlbirliklə dünyanı dolandırırlar. Təklikdə hərəkət verilməsi müşkül və namümkün olan dünya imran və əmarını (sivilizasiyanı) «kooperasiya» ilə irəli aparıyorlar.

Bu surətlə bir az diqqət verəndə aşkar görünür ki, dünyanın bu varlığı böyük bir kooperativdən ibarətdir.

Dünya böyük bir kooperativdir!

* * *

İnsanları bu dərəcə biri-birinə rəbt edən tərəqqini bu əndazə sevən və icbari edən sərmayədarlığın qəsdi nə olduğunu da bir ləhzə düşünməlidir. Maşınlar ixtirai fikrinə düşüb bu qədər təlaş və səy ilə mal hazırlayan fabrikaçıların, sərmayədarların əcəba hazırladıqları mal, gördükləri tədbirlər camaatin ehtiyacı üçündürmü?!.

Əcəba, malüt-ticarəsini işə vermək və bu qəsd ilə – Krupptopları ilə olsa da, gedib Asiyanın künc-bucaqlarında müstəmləkələr ələ salıb, orada olan əhaliyə birə on qiymətinə mal satan Yevropa sərmayədarı asiyalının qumaş paltar geyinməsi fikrindəmidir? Çəkmə hazırlayan fabrikanın qəsdi insanların ayaqyalın gəzməməsidirmi? Xeyr, bu deyil!

Müxtəlif rəng və şəkildə olan zərif ayaqqabılarını sərgisinə düzən mağazaçı qapısında ayaqyalın durub həsrətlə ah çəkən biçarəni görmüyormu? Anbarları, dükanları, mağazaları isti paltar ilə dolu olanlar so-

---

[1] təfənnün – könül açma, əylənmə

yuqdan ölənlər barəsində eşitmiyorlarmı? Qisim-qisim laziz taamlar, müxtəlif xörəklər, içkilər hazırlayıb satan ağalar bir çox fəlakətzadələrin quru çörək belə tapmayıb acından ölməklərini eşitməmişlərmi?..

Əlbəttə ki, bilirlər, əlbət ki, bu ehtiyacların hamısını bilib, hamısını görür, hamısı barəsində məlumat alırlar. Bunların hamısını bilə-bilə, görə-görə, ehtiyacı rəf etmiyorlar, etməzlər də. Çünki onların açdıqları işlərdə, gördükləri ticarətdə qəsdləri əhalinin ehtiyacını rəf etmək deyil, özlərinin alacağı mənfəətlərdir. Əhali qəhəti-gəlayə[1] düçar olub qırıldığı bir zamanda möhtəkirlərin buğdanı anbarlarda saxlayıb qiymətini artırması müsəlmanların hamısına bəllidir. Bəli, hər bir sərmayədar öz pulunu bir işə qoymamışdan əvvəl təsəvvür və fikir ediyor ki, görən bu iş ona nə qədər mənfəət verər. Və qoyduğu pula nə qədər faiz götürər. Hərgah təsəvvüründə görə ki, o işdən ona az mənfəət gələcəkdir, o halda camaat o işə nə qədər möhtac olursa da olsun, onu buraxıb başqa idarə başlayacaqdır, yoxsa pulları sandığa qoyub üstündə oturmağı daha da əfsəl hesab edəcəkdir.

Qoy bizim iqtisaddan, sərmayədarlıqdan, ülumi müxtəlifədən xəbəri olmayan dövlətlilərimiz desinlər ki, onlar fabrikalarını, zavodlarını, ticarətlərini millət üçün açmışlar, «millət papirosu» qayırırlar, «millət kətanı» toxuyurlar, millət üçün bu işi, yainki digər ticarəti görüyorlar. Onlar bu sözlərlə ancaq özləri kimi üsuli-iqtisaddan, sərmayədarlığın əsasından və içində yaşadığımız əsrin nəliyindən xəbərsiz olan avam əhalini aldada bilərlər. Qəsdləri olan mənfəəti çox almaq üçün məhsulatlarını satmağa milləti inhisara alarlar da, bu yol ilə qeyri sərmayədarlar ilə rəqabət edib, millət cibinin zərərinə olaraq, öz ciblərini doldurarlar. Əsri təməddünün təcrübəsi, iqtisad elminin kəşfi isə diyor ki, ticarət və sinaət milliyyət bilməz, özünün hüsula gəlməsi ilə heç bir kəsin, heç bir firqə və ya millətin ehtiyacına deyil, hüsuli üçün sərmayə qoyan şəxsin mənfəətinə xidmət edər.

Bir millətin ticarət və sinaəti ancaq elm və təcrübə ilə göstərilən yollar ilə getdiyində tərəqqi edəcək, irəliləyəcək olduğundan bizim təklifimiz odur ki, müsəlman satıcı və alıcıları iqtisad elminə namüvafiq olan «millət malı» sözündən vaz keçib də özləri, daha doğrusu, «millət»lərini aldatmasınlar. Çünki «millət malı» deyilən şey yoxdur. Ancaq «mənfəət malı» vardır.

Xülasə, dünyada edilən hər ticarət, qurulan hər bir kargah, açılan hər bir mağaza rafi-ehtiyac üçün deyil, cəlbi-mənafe üçündür.

Cəlbi-mənafe üçün zavodlar, fabrikalar və qeyri məhsulat hazırlatdıran sərmayədarlar, tutduqları qəsdlərindən naşi müştəri fikrinə düşürlər. Bu fikrə düşərək hər qisim tədbirlərə əl atırlar.

[1] qəhəti-gəla – yoxluq, bahalıq



Maşına vasitəsilə ölçüsüz və qədərsiz hasilə gətirdiyi malını işə vermək və başqa onunla bərabər mənfəət axtaran rəqiblərinə üstün gəlmək üçün sərmayədarlar bazar axtarıb müştəri dalınca gəzməyə başlıyorlar. Bir ayrı söz ilə alıcı ovuna çıxırlar.

Məlum işdir ki, sərmayədar özlüyündə, bütün məmləkətə, bütün dünyaya paylayacağı malına özü müştəri tapmaq imkanından məhrumdur. Bu hərgiz mümkün olan şey deyildir. Odur ki, özgə adamların köməyinə ehtiyac zühur ediyor.

İştə vasitəçi də buradan nəşət ediyor ki, müəllimi-kəbir Marksın dediyi üzrə, camaat işlərinin hər cəhətində olursa-olsun, mənfəətin şir payısı da ona çatır.

Lakin nə tövr olmuş olsa da, vasitəkarlar indiki halda lazımdırlar. Çünki onlar sərmayədarın mətaına rəvac verdirməyə müstəqiddirlər. Mətaın harada yaxşı satıla biləcəyini bilməklə bərabər, bu adamlarda müəyyən bir nəqd vardır ki, onun səbəbi ilə mümkün edə bilirlər ki, fabrikaçılardan çox qədərdə mətə alıb aparsınlar, müxtəlif yerlərdə bazarlar tapıb onları işə versinlər. Bu sürətlə tacirlərə, dəllallara ehtiyac gəliyor ki, bunlar da artıq hiylələr işə verməyə başlıyorlar. «OPT»* ilə mal alıb satan tacir də fabrikaçı kimi öz mənfəətinə çalışıyor. O da öz cibini özünə mühərrik[1] qərar vermişdir. Bu cəhətdən satmaq qəsdi ilə aldığı mətaın üstünə bir qədər də (optçi) tacir əlavə ediyor. Bu da məlumdur ki, optçunun, başqa sözlə, «partiyaçının» müştəriləri xırda füruşlardır ki, bunlar da öz mənfəətlərini malüt-ticarənin üstünə gələndən sonra başqa bir müştəriyə satırlar və bu surətlə fabrikadan çıxmış mətaın hər bir fərd əhali əlinə gəlincəyədək əldən-ələ keçdiyi münasibəti ilə qiyməti də üstüstə olaraq heyrətli bir dərəcədə böyüyür. Fabrikada işləyən bir nəfər fəhlənin əlindən çıxdığı mətaın qiyməti – əvvəlisi, bir çox təsadüflərdə, yenə də haman fəhlənin öz əlinə gəlincəyə qədər dəfələrlə artır. Bir çəkmə fabrikasının fəhləsi, deyək ki, gündə bir manat müqabilinə hazırladığı 3–4 ədəd çəkmənin, zərurət vaxtında mağazaya gedib, birini 5 manata almağa məcburdur. Doğrudan da, gündə 5 yüz min çəkmə hazırlayan fabrikaçı hər çəkmədən o qədər mənfəət götürmüyor, nə qədər ki, ildə ancaq min ədəd çəkmə sata bilən xırda füruş mağazası istiyor. Qiymət diyirlənən qar qumbarası kimi artır. Mətə müştəriyə uzaq olduğu dərəcə də bahalaşır.

* * *

Bazari-füruşa çıxan mətaın qiyməti bir əldən o biri ələ keçdikcə artır. Əvvəlinci 1 faiz (prosent), ikincisi 5 faiz, üçüncüsü 10 faiz, xırda füruş[2]

* **OPT** – partiya ilə (çoxlu qədərdə) alqı və satqı üsuluna deyirlər. Xırda füruşluğa müqabil. Qeyd müəllifindir.

[1] **mühərrik** – hərəkətverici qüvvə

[2] **füruş** – satan

isə həddsiz olan mağazalar və məhdud olan müştərilərdən naşi azı gərək 20 faiz artırsın ki, ta «gözü bir şey görsün». Bu surətlə mata işə vermək üçün tacir, dəllal, dükançı, xırda füruş və qeyri müxtəlif adlarla böyük bir vasitəkarlar silki əmələ gəliyor ki, bunları və bunların ailəsini saxlayıb dolandırmaq, bunların vasitəsilə özünə lazım olan mata alıb işlədənlərin öhdəsinə düşüyor. Məsələn: Fransada hesab olunub ki, hər bir 9 adama bir nəfər satıcı vardır. Bu 9 adam il başına kimi işlətdiyi matalarda görün nə qədər adi qiymətdən artıq faiz gərək verə ki, bir adamın illik maaşını təmin eləsin. Halonki vasitəkarlar yalqız bir maaş ilə deyil, bəzək və rövnəq dəxi axtarıyorlar? Hədd və dərəcəni keçən bu rəqabət ucundan bahalanan qiymətlər özünə cürbəcür inhisar və dəllal hiylələrindən gələn izafi xərcləri də əlavə etsəniz, təsvir daha da vazeh[1] olar!

Burada professor Gedin vasitəkarəni-ticarət olan alış-verişçilərə dediyi, irad etdiyi sualı biz də təkrar ediyoruz.

Professor Ged diyor ki, qabaqda kəndistan yerlərində vaqe olan yanğını söndürmək üçün çəlləklər saxlanırdı ki, yanğı vaxtında su olan yerdən bu çəlləklərdə su götürülüb əldən-ələ ötürülərək yanğının üstünə tökülməklə ataşi söndürməyə çalışınılırdı. Məlumdur ki, yerindən alınıb yanğı yerinə gəlincəyə qədər çəlləkdə olan suyun əvvəlki miqdarından çahar yegidə qalmıyordu. Çünki əldən-ələ ötürüldükdə tökülüb dağılırdı. Sonra sənayeni qayət namüvafiq olan çəlləkləri nasos turbası əvəz etdi ki, suyu vasitəsiz olaraq yerindən alıb birbaş yanğı olan məhlə vurmaqla məramına çatıb odu söndürməklə bir çox zərərlərdən əhalini xilas etməyə müvəffəq oldu.

İndi olmazmı ki, çəlləklərə oxşar bir silsileyi-vasitəkaran təşkil edən bu alış-verişçiləri öylə bir şeyə dəyişmək ki, onun vasitəsilə məhl xüsulundan çıxan mata vasitəsiz olaraq birbaş möhtaci olan müştərinin əlinə keçsin də daha bir bu qədər nahaq xərclər olunmasın?..

Əsrimizdə olan məhsulat qayət bir nizamsızlıqla əmələ gəlib və müştərinin xahişinə müvafiq deyil.

İndiki məhsuldarlar öz hazırladığı şeyləri xoş oldu, naxoş oldu bir özgəsinə gərək yeritsin. Çünki özündə saxlaya bilməz. Bu üsulda matai işlədən və onun müştərisi olanlar tərəfindən deyil, mata hazırlayıb və satan sərmayədarın tərəfindən təqviyə olunub, saxlanılır. Bu üsul, guya, haman ondan ötrü əmələ gəlmişdir ki, insanları nə qədər mümkünsə artıq pul və vaxt sərf etməyə, özü də mənasız və bihudə bir yerə sərf etməyə məcbur etsin.

Bu günə üsuli-məhsulatın nöqsani, ədəd və hesabi saysız olan dükanlardan belə aşkardır. Çox da böyük olmayan şəhərlərin küçələrindən

[1] vazeh – aşkar, aydın



belə keçsəniz qatar ilə açılmış dükanlar görəcəksiniz ki, hamısı bir qisim mata yığıb müştəri gözləyirlər.

Qoltuq füruşluq və xırda füruşluq sənətinə çox adamlar o vaxt girişirlər ki, qeyri-işlərdən əlləri çıxmış, artıq bir sənət və ya məsuliyyətli bir iş görməyə istedad və səlahiyyətlərini itirmişlərdir. Bir çoxlarına, ələlxüsus bizim müsəlman baqqal və qeyri dükançılarımıza asan və mənfəətli görünür ki, bir qədər mal alıb qabağına düzüb dəxil dalında otura da, müştəri gözləyə. xırda füruşluq edənlərdən və dükançılardan bir çox xüsusi sənətlərdən qalmış olan insanları görmək mümkündür ki, bunu şəhər idarəsi tərəfindən məmur olduğum bir vəzifənin icrası əsnasında özüm təcrübədən daha çıxartdım. Şəhərdə olan bütün «bekar»ları təhqiqə məmur olduğumda lazım olan məlumatdan əlavə alış-verişçilərlə əhvallarına dair başqa söhbətlər edib məlumat almağa həvəslənərdim. İştə bir çoxlarının bu təhqiqat nəticəsi bir vergi və yaxud başqa bir xərc olacağı ehtiyatı üzrə əhvalının fəlakətli olduğunu bildirməklə «gözlənilən» xərci əsgiltmək, daha belə bəyan halda bulunduqlarından əksəriyyətlə: «Əlimiz hər bir şeydən çıxdı, indi də bununla baş saxlamaq istəyirik», «nə edək, bizimki indi buna qalıb əlimizdən bir şey ki, gəlmiyor», «böyük bir külfət yiyəsiyəm, oğruluq ki, etməyəcəyəm, bununla baş dolandırıram» kimi sözləri eşidirdim. Bunların çoxusu yeyinti şeyləri satanlardır.

Dükanların, mağazaların bilməmum vasitəkar olan alış-verişçilərin çoxluğu müştəriləri – mal işlədənləri bölüşür. Bir neçə yüz və yainki bir neçə min manatlıq şey satmaq üçün lazım gəliyor ki, ayrı mənzil kirayəsi, mağazanı qızdırmaq, işıqlandırmaq və qeyri-lavazimata xərclər olunsun, bu dükanların hər birinin mənfəətinə gərək ki, mağazaların elədiyi bu xərclər də əlavə olunsun, hələ bundan əlavə mağazaçının ailəsinin xərci də gərək buraya artırılsın. Bütün bu xərcləri hardan almalıdır? Əlbəttə ki, gərək matanın qiyməti üstünə gətirilsin. Bu surətlə mağazaların və dükanların çoxluğu matanın qiymətini əhəmiyyətli bir dərəcədə artırır.

Təbiidir ki, hər bir dükançı öz qonşusu və həmnövü olan digər dükançı ilə rəqabət edəcəkdir.

İştə bu cəhətdən müştəri cəlb eləmək qəsdi ilə lövhələr, yazılar, rənglər və qeyri-yollar ilə mağazaları, dükanları məclə və cəlbedici bir rövnəq və səliqəyə salmağa, elanlar verməyə artıq-artıq xərclər ediyorlar ki, bunların hamısı da axırdan-axıra müştərinin cibindən gedir. Bunların da ağırlığını müştərilər çəkirlər.

Hələ bu bəs deyil. Bir nəfər dəllalı güdəndə görün ki, o dükanları qapı-qapı gəzib nələr qayırır? Baxınız ki, o nə yollar ilə mağazalara girib vəkil olduğu ticarətxanənin, yainki fabrikanın matanı nə dillərlə tərif edib, nə üsullar ilə işə verir. Dükançının yanında oturub olmazın dillər

tökür, tarixlər açır, nağıllar söyliyor, məzhəkələr danışır, axır ki, nə tövr olsa da, malını işə verir. Bu qədər ciddi-cəhd, hiylə və dəsisə ilə çalışan bu adamı kim saxlıyor, kim buna məvacib veriyor? Buna həmən müştərimələlən. Bir tək balaca Şvetsariyada 70.000-ə kimi dəllallar vardırlar ki, 18.000-i ancaq məta işə veriyorlar. Bu dəllal qoşununu saxlamaq ildə əhaliyə 120 milyon franka tamam oluyor. Amerika Cəmahiri Müttəfiqəsində isə, xırda füruşlar orada olan «trestlər»* cəhətindən az olduğuna görə – bunların ədədi bilmünasibə azdır, orada 750.000-ə kimi vardırlar. Karl Kautski deyir ki, Amerikada «trestlər» təşkil olunduqdan bəri dəllalların ədədi əsgilməkdədir.

Bunlardan əlavə, tüccarlar, mağazalar, ticarətxanələr, öz aralarında rəqabətdə olduqlarından müdam fikirləri budur ki, biri-birlərindən müştəriləri alsınlar. Bu qəsd ilə də xüsusi vasitəkarlar tutulub artıq xərclər olunur. Elanlar verilir, hazır paltar satan amerikalı özünəməxsus elan yazan mühərrirləri vardır ki, ildə onlara 33.000 manat xərc edilir. Tsürix şəhərinin 150.000 əhalisi var, ancaq bir qəzetə elanına azı ildə 380.000 manat xərclənir. Bir o qədər də başqa elanlara xərc olunur. Bu 760.000 manat məbləği Tsürixdə olan 30 min ailəyə təqsim olunsa, hər ailə ildə 25 manata qədər «iqtisad vergisi» verməyə məcbur oluyor.

* * *

Əsrimizin təqsimi məta üsulunun başqa bir nöqsanı da vardır. Məlumdur ki, böyük bir rəqabət meydanından ibarət olan satqı bazarında mətа artıq işə vermək və özgələrə faiq gəlmək üçün qiymət ucuzluğu ən böyük bir rol oynayır.

Burası da bir az fikir edilsə məlum olar ki, mətaın qiyməti əskildikdə lazımdır ki, onun dəyəri, ləyaqəti və maddəsinin heysiyyəti də gərək dəyişilsin.

İştə bu cəhətdən qəlp mal işə vermək, böyük adlar, cürbəcür təriflər ilə saxtakarlıqlar edilib və əsl və sağ mallar müqabili olaraq bədəl və çürük mətalar meydana qoyulur və qiymətlərinin azlığı və zahirlərinin müşabəhət[1] ilə müştərilər aldadılırlar.

Saxtakarlıq, qəlp mal satmaq rəvac tapıb olmazın hiyləkarlıqla rəhi-təvəssül[2] edilir. Cürbəcür bicliklər əmələ gətirilir. Bir alış-verişçi səy ediyor ki, özünün hiylə və dəsisəsi ilə öz rəqibini keçsin və bu yolda nə edilirsə, hamısının zərəri axırda yenə də müştəri talesizin öhdəsinə gəlir.

* **trest** – hər növ olan tüccar və ya fabrikantların bir qayda üzrə işləyib, bir dərəcəyədək rəqabəti əsgiltmək üzrə təşkil olunan ittifaqlarına deyilir. – *Qeyd müəllifindir.*

[1] **müşabəhət** – oxşarlıq

[2] **rəhi-təvəssül** – nail olma



Lüzumsuz xərclər və saxtakarlıqlardan başqa indiki üsuli-mübadilə və məhsulatın bir yaramaz tərəfi də məşhuri-təəbir ilə «məhsulat anarxiyası» kimi dəhşətli bir vəqəəyi-iqtisadi, icbari etdiyidir. Müştərinin xahişi ilə heç bir rabitə və əlaqəsi olmayan üsuli-məhsulat bu işini görməkdədir.

Böyük bir ədədlə hazırlanan qisim-qisim mətalar bazarı sındırmaq qəsdilə müdam axıb satqı meydanına qoyulur, nə qədər ki, bazar qaytarmıyorsa müdam gəliyor.

Axırda kasadlıq zühur ediyor. Görüyorsan ki, mağazalar, dükanlar, bazarlar, meydanlar bütün mala mal olub müxtəlif lövi və surətdə olan mallar tökülüb qalmışdır. İşsiz qalmış ac əhali görürsən fabrikaçıları, dükançıları artıqlığı cəhətdən zərə və təngə gətirən müxtəlif mətaların, cürbəcürə şeylərin üzünə həsrətlə baxıb da heyran-heyran dolaşır, nəzərlərini qabarlaşdıran şeylərin heç birinə əl vura bilmiyor.

Bu qədər sadaladığımız maddi zərər və uyğunsuzluqlardan savayı bu üsul təqsimin mənəvi ziyanları da çoxdur.

Bundan nəşət edən rəqabət insanları bir-birinə salıyor. Daima biri-birini aldatmaq, biri-birinə pusqu qurmaq dərəcəsinə vardırıyor. İnsanlar biri-birilərinə rəqib kəsilirlər. Xeyirxahanlıq havası gedib yerinə nəfspərəstlik qaim oluyor.

Ümumiyyət nəzərindən gedib şəxsiyyət elani-zəfəriyyət ediyor.

Əlbət ki, bir bu qədər maddi və mənəvi zərərləri və nöqsanları icab etdirən fabrikaçılar, tacir, alış-verişçilər olmuyub əsl səbəb o üsuldadır ki, zəmani-haliyyə də hər bir ticarət və sinaətin mühərrikidir.

İllət və səbəb o iqtisadi-halətdədir ki, onun yeganə qəsdi, tənha əməlı ancaq mənfəət və yenə də mənfəətdir.

Mənfəət güdmək əsası üzərində qaim olan dövri-iqtisadda məhsulatın bu şəklə düşməsi bir qanuni-iqtisaddır ki, həmən o qanun hər bir sahibi-bəsirətə, hər bir tədqiq və təhqiqçiyə aşkar sürətdə bəyan ediyor ki, bu əsas özü nə qədər varsa, ona məxsus olan bu nöqsanlar və onlardan hasilə gələn bu zərər və haqsızlıqlar da daim olacaqdır. Alış-verişçi hərgah öz ticarətinin paydar olmasını istəyirsə, gərək ki, yalan və hiyləyə təbəssül etsin.

Cənab Bruno öz risaləsində bir xırda füruşun dilindən olaraq nəql ediyor ki, o həmişə məzkura şikayət edirmiş ki, nə qədər çalışır, nə qədər vicdanı ilə mübarizə ediyormuş ki, yalan deməsin, yenə də keçmiyormuş və böyük bir kədər ilə boynuna alıyormuş ki, o müştəriləri aldatmağa məhbur oluyor. Zatən burası bədihətdəndir. Hər bir müsəlman alış-verişçisini dindirsən «yalansız iş keçməz» diyər. Hər bir ticarəti axtarsan

axırda şu həqiqəti təsdiq etməlisən ki, deyər: «ki xırda alış-verişçilərin davam etmələri müştərilərin əllənmələrinə bağlıdır».

Buraya kimi yazdığımızla biz indiki üsuli-ticarətin nə əndazədə maddi və mənəvi nöqsanlara sahib və məzhər olduğunu təsvir elədik. Füyuzati-mədəniyyənin nə tövr bir uyğunsuzluğa təqsim olduğunu mümkün olduğu bir dərəcədə bəyan qıldıq. Kooperativ-müştərilər cəmiyyətləri istiyorlar ki, bu nöqsanları rəf eləsinlər. Lakin nə tövr?

Bu suala Tatamyans cənabları atidəki surətlə gözəl və aydın bir vəchlə cavab veriyor.

– Onların xahişi budur ki, ümum camaatın mənafeyinə olaraq ammeyi-camaəti sahibkar-məhsuldar eləsinlər.

Onlar diyorlar ki, gərək məhsulat məmulata tabe olsun. Yəni məhsulat ehtiyacatdan nə artıq, nə əskik olmasın. Onların səyi bunadır ki, hər bir müştəri bu sözü deyə bilsin: «Mən filan və filan şeyi filan və filan qədər də istiyorəm».

«Mən istiyoram ki, gərəyim olan şeyləri almada heç bir kəsə artıq bədə vermiyim».

«Mən istiyoram ki, malları mənim boynuma qoymasınlar. Mən özüm nəyə möhtac olduğumu diyərəm».

Haman ki, müştəri rəyasət və hökuməti-iqtisadiyyəni öz əlinə saldı, nə istiyorsa, ehtiyacı nəyə isə onu da qayıracaq, hüsulə yetirəcəkdir. Böylə olduqda hazırlanan hər bir mətaə müştəri tapılar və vəhşiyanə və təmahkaranə bir surətdə mənfəət dalınca qaçmaqdan zühur edən kasadlıq da olmaz. Kasadlıq olmadığı halda bu gün ondan nəşət edən hədsiz-hesabsız nizamsızlıqlara da, ehtiyaclara da, yer qalmaz. İndiki zamanda tacirlər, alış-verişçilər və hətta fabrikaçılar tərəfindən işə verilən saxtakarlıq qaldırılar.

Hörmətli qare! Diyorsan ki, bunlar hamısı yaxşı, təammül, təfəkkür edirsən, səni bir şey dayandırır, ona təəccüb ediyorsan, diyorsan xub, bu qədər bir fəlakət və səfalətə uğramış olan biçarə müştəri nə qayıra biləcəkdir? Bu qədər tox bir sərmayə sahibi olan iqtisad ağaları ilə nizamsızlıqla nə tövr mübarizə edəcəkdir! Bir qarın çörəyi güc ilə tapan, maişətini darlıqla keçirən adam göstərdiyin məqsədə hansı məbləğlə çata biləcəkdir. Hansı sərmayə ilə işə girəcəkdir?

Əvət, əzizim qare, mülahizələrin qayətdə təbiidir. Fəqət bir az səbir eləsən səni həvəsləndirən suala cavab alarsan. Mən sənin üçün «Roçdel pişrovlarının» tarixini nəql edərəm ki, o nəql səni bu əndazədə bir təşviş və təfkirə salan suallara cavab verər.

O halda əzizim qare, sən görərsən ki, bundan ötrü artıq bir qüvvət filan lazım deyil, ancaq dərrakəli bir kardanlıqdan başqa özgə şey lazım deyil. Pul ehtiyacı isə ikinci məsələlərdəndir.



* * *

Hər bir ingilis fəhləsindən kooperativlərin haradan gəldiyini xəbər alsanız o sizə çox da böyük olmayan bir fabrikalı şəhər nişan verəcəkdir ki, adı Roçdeldir. Roçdel haman o yerdir ki, orada zühur edən himmətli kooperativ pişrovlarının tutduqları bina və əsas indiki bütün kooperativ cəmiyyətlərində «Roçdel əsası» və haman bir firqə qeyrətli fəhlələrin adları timsalən «Roçdel pişrovları» deyə yad olunur.

1843-cü səneyi-miladidə bütün İngilistanı almış olan bir sinaət kasadlığından irəli gələn üsrətə[1] həmin bizim nişan verdiyimiz Roçdel şəhəri də giriftar olmuş idi. Fabrikaların bir çoxu bağlanıb fəhlələri küçələrdə qalmışdılar. Aclığa düçar olan Roçdel mənsucat[2] fabrikasının əmələləri üzərlərinə gələn bəla ilə artıq bir mübarizə edirdilər.

Lokautdan naşi olaraq minlərcə fəhlələri gələcəkdə soyuq və şiddətli bir qış gözliyordu və bilmiyordular ki, bu kimi müşkül bir haldan necə qurtarsınlar. İştə noyabr ayının soyuq gecələrindən birində bu fəlakətzədə olan fəhlələrdən bir neçə nəfəri öz yoldaşlarının mənzilində iclas edib bu məsələni müzakirə etdilər. Sailliyə[3] getmək onların namusuna müvafiq gəlmiyordu. Özgə məmləkətlərə qaçmaq fikrinə düşdülər. Bundan da vaz keçdilər. Bir çox artıq-əskik təkliflər oldu. Heç birindən fayda görünmədi.

Bizim iclasa yığılan bu fəhlələrimiz arasında məşhur kooperator Robert Ouenin bir neçə nəfər şagirdi vardı. Robertin fikrincə, fəhlə ona görə bədbəxtdir ki, əvvələ, onun zəhmətinə az muzd verirlər və saniyən fəhlə aldığı maehtiyacə: xörəyə, çörəyə və geyməyə artıq pul verir. Bu da ona görədir ki, şu məhsulatı vasitəçilərdən alıyorlar. Əgər fəhlələr özləri məhsulat cəmiyyətləri təşkil etsələr, özləri «işlədənləri «cəmiyyəti-potrebitelnı obşestvaları» qayırsalar, gərəkləri olan şeyləri vasitəsiz olaraq məhsula gətirənlərin özlərindən alsalar, o halda hər bir kasadlığa, ehtiyaca və qeyrilərinə intiha qoyular».

İştə böyük Robertin bu sözləri onun şagirdlərinin xatirinə gəldi. Onlar öz müəllimlərinin öyrətdiyi həqiqəti ortalığa saldılar – fəhlələrə kooperativ cəmiyyətləri qayırmağı təklif etdilər.

Bu fikir qeyri-fəhlələr tərəfindən də təsvib[4] olundu. Bu fikirdə fəhlələrin birləşməsini və ittihadını görən fəhlələr qət etdilər ki, bir potrebitel dükanı (işlədənlər dükanı) açsınlar.

Haman burada səhmnamə (aksiyalar) hazırlanıb meydana buraxıldı, əlləri gəzməyə başladı və hamısı söz verdilər ki, nə tövr olsa boğazlarından kəssinlər, girlənsinlər, adama həftədə 8 qəpik yığsınlar. Cümlətanı

[1] üsrət – çətinlik
[2] mənsucat – toxucu
[3] sail – dilənçi
[4] təsvib – bəyənmə

28 adam yazıldı. Bu sayaq ilə bir ildən sonra toxucular 280 manat yığdılar. Onlar istədilər ki, işə başlasınlar. Şəhərin kənar küçələrinin birində yarımpodval bir mərtəbədə 90 manata bir mənzil kirayə edib uşaqların və küçə gəzintiləri və heyvərələrinin gülməsi və töhməti altında olaraq əvvəlinci Roçdel fəhlə mağazasını açdılar. Bu vaqeə 1844-cü sənənin dekabrının 21-də olmuşdu. Əvvəlinci gecə dükanın şeyləri bir neçə girvəngə yağdan, buğda və darı unundan ibarət idi. Satqı işin əvvəlində düşənbə və şənbə günləri olunurdu. Kooperatorlardan biri xəzinədar, digəri satıcı olub növbə ilə işliyordular və bu qisim ilə qeyri-işlər. Poterbitellər dükanı aşağıdakı əsaslar üzərinə bina olunmuşdu:

1. Satqı nisyə deyil nəqd olunur.

2. Məta, adətən, bazar nırxına satılır. Galən mənfəət yığılır və ilin axırında dükanın hesabına baxıldıqda nə qalırsa dükanın özünü böyütməyə, maarif qəsdlərinə işlətmək və ehtiyati-sərmayəsinə hissələr ayrılandan sonra artıq qalan hissəsi müştərilərin mənfəətinə gediyor ki, onlar da bu pulu dükandan il başına kimi aldıqları malın qədərinə görə öz aralarında bölürlər.

3. Kooperasiyanın idarə olunması bütün üzvlərinin öhdəsində olub hamı işlərdə ictimaiyyət əsasları mülahizəyə alınıb onlara artıq diqqət verilir: «Bir adamın bir də səsi var» Roçdel əsası denilən bu binalar sonralıqda bina olunan bütün kooperasiyaların özülünə qoyulmuş bünövrə daşları olmuşdurlar.

Təzə başladıqları bu işə artıq himmətlə girişib fəhlənin istixlasını bununla əla mərtəbəyə aparmağı görüyor idilər. Onların məramnaməsində deyilir ki: «Cəmiyyət mədaxilinin bir hissəsini məktəblərə, qiraətxanalara və kitabxanalara sərf ediyor. – Zira, mərifəti-mədəniyyət də həqiqi tərəqqinin yeganə mühərrikidir». Bu qəsd ilə də qət olunmuşdu ki, hasil olan mənfəətin 21,2 prosenti bu fikrə xərclənsin. Podvalda açdıqları dükan ilə bərabər həmən gündən etibarən bir qiraətxana daxi hazırlandı.

Fəqir toxucular artıq-artıq xəyallara düşdülər. Onlar güman edirdilər ki, əvvəl məhsulatdan başlayıb əvvəlinci lazım olan şeyləri əmələ gətirib, sonra bütün mətaları özləri hazırlayacaqdırlar. Onlar xəyal eliyordular ki, yerlər alıb, evlər salıb imarətlər tikdirərlər. Fəhlələr daha əsarətdən xilas olarlar, işsizlər daha olmazlar. Fabrika onların olduqda artıq əmələni sui-istifadə etmək olmaz. Onların xəyalı axırda o dərəcələrə uyurdu ki, kooperativlər sayəsində onlar indiki şəxsi mənafe üzərinə vurulan övzai-iqtisadini ləğv edib, əvəzinə ümumin mənafeyi üzərinə qurulan ictimaiyyət qaideyi-iqtisadiyyəsini bərpa edərlər. Həqiqət isə göstərdi ki, bir tək kooperasiya ilə bu qəsdə hənuz çatmaq olmaz. Bun-



dan ötrü başqa bir şərtlər dəxi lazımdır. Kooperativlər isə qəsdə çatmaq üçün müxtəlif vasitələrdən biridir.

Bu sayaq ilə Roçdel kooperativinin əsası quruldu. Binası düz qurulduğuna görə iş ağır bir yol ilə olsa da, doğru bir müvəffəqiyyətə çata bildi. Pay 10 manata qərar verildi. Hər üzvün 4 paydan artıq hissə götürməyə ixtiyarı yox idi. Üzvlüyə girəndə ancaq lazım idi ki, 5 qəpik verilsin. Qalan məbləğ isə aybaay apardığı malın mənfəəti hesabından çıxarılırdı.

İş bu sürətlə böyüməkdə idi. Üç aydan sonra şurayi-ümumiyyənin qərarına görə çay və tənbəki də satılmağa başlandı. İki ildən sonra isə ət də satılmağa başlandı. Üzvlərin hesabı get-gedə artırdı. Bir bulkaçı dəstgahı dəxi açıldı.

1850-ci ildə Roçdellilər öz potrebitel cəmiyyətləri cuvarında bir də kooperativ dəyirmanı bina etdilər. Əvvəl xırda dəyirman zərər etdi və bəzi üzvlər qorxub paylarını geri aldılarsa da, qeyri cürətli üzvlərin himməti sayəsində dayanıb axırda özünü bərkitdi. Bundan 10 il keçəndən sonra bir də toxucu kargahı açdılar.

Bir az sonra cəmiyyət üzvləri üçün oturacaq evlər tikilməyə başladı ki, bunlar «yemək ilə tikilən evlərdir». Bu qəsd ilə hər il hal-hazırda 13.000 manat təxsis olundu. Cəmiyyət evlər bina ediyor, üzvləri də adi kirayə ilə əyləşirlər və 15–20 ildən sonra evlərə edilən bütün xərclər çıxır. Qabaqki dükanın əvəzinə, şəhərin ən mərkəzi küçələrindən birində 140.000 manata dəyən ali bir mərkəzi imarət və şəhərin müxtəlif guşələrində 24-ə kimi mütəəddid[1] şöbələr yapılmışdır. Cəmiyyətdə bir silsilə pensiya kassası, üzvlərin sığortası (straxovoyu), məktəblər və qeyri müəssisələr qayrılmışdılar. Kooperativ gündən-günə böyüyürdü. Bir ovuc, ədədləri 28-ə çatan fəhlələr indi 13.000 nəfərli bir orqanizasiyaya dönmüşlər ki, 128 manat əvəzinə olan 2.200.000 manat sərmayələri vardır ki, bundan ildə 320.000 manat mənfəət götürüyorlar. Böyük mağaza və skladlarından başqa cəmiyyətin müntəzəm buloçniyası, paravoy dəyirmanı və parça fabrikası vardır. Maarif məqsədinə kooperativ ildə 10 min manata kimi xərc ediyor. Cəmiyyətin özünün məktəbi vardır ki, orada 75 nəfər şagird dərs oxuyurlar. Kurslar, leksiyalar, qiraətlər və qeyri bu kimi şeylər bina olunur. Kooperativin mərkəzi imarətində 18.000 kitabı olan kitabxana və böyük bir qiraət zalı vardır. Bundan əlavə, 19 ədəd də kiçik oxumaq odaları vardır ki, hətta bunlarda teleskop, mikroskop və qeyri bu kimi imtahandan ötrü olan elmi və fənni alət və ədavat da hazırdır.

Cəmiyyət universitetlərdə bir çox stependiyalar açmışdır ki, öz üzvlərinə ali məktəblərdə oxumağa imkan versin ki, burası İngiltərədə məlum olduğu vəchlə – çox ağır bahaya tamam olur.

[1] mütəəddid – çoxlu

* * *

Roçdel banilərinin qoyduqları binayi-xeyrin parlaq nəticələri böylədir. Qara məxluqun, izdihamın istehzasına, xırda dükançıların ədavət yolvuranlıqlarına baxmayaraq, Roçdel fəhlələri öz işlərini apardılar. Doğru, bunlar sərmayədarların istifadələrindən bilmərrə qurtarmadılar, doğru, onların böyük xəyallanələri əmələ gəlmədi, lakin yenə də bir çox şeylərə nail oldular. Öz daireyi-mərifətlərini genişləndirməyə, öz maaş və xörəklərinin bilmünasibə bolluğuna müvəffəq oldular. Və hamıdan ümdəsi bu ki, nə qisim ilə kooperativ cəmiyyətləri gərək təşkil olunsun məsələsini hamıya bildirib bir dərs və ibrət oldular. Onların bu işləri, bu binakarlıqları fəhlə tarixinin gözəl səhifələrində yazılacaqdır. Beljik kooperatoru Bertran doğru demişdir ki, «Əvvəlinci Roçdel kooperator cəmiyyəti bina edən fəhlələrin adları layiqdir ki, nəsildən-nəslə ötürülsün, nəinki, krallar və hökmdarların adları ki, onların vücudi bir halda insaniyyətə bədbəxtliklər verərək gəlmişdir».

Roçdel fəhlələri ingilisin əvvəlinci kooperatorları deyildirlər. Onlardan qabaqda koopertativ bina edənlər var idi. Ta XVIII əsrin axırından başlayıb bir çox kooperativlərin İngilisdə bina olunmuş və bir az müddət ərzindən sonra batıb getmişlərdir. Bunların böylecə müvəffəqiyyətsizliklərlə, böyləcə səbat etməmələrinə bir çox səbəblər vardı. Payların baha edilməsi, əzaların müdaxiləsizliyi, dividend almaq qəsdi ilə bina edilmələri və qeyri səbəblər bunların məhv olmalarını icab ediyordular. Bir çox kooperativlər paylarının bahalığı və əzalarının məhdudluğu ucundan axırda dönüb aksioner (səhmdaran) şirkətləri oluyordular. Çox vaxt oluyordu ki, kooperativlərin pərişan olmasına o vaxtın parlamentorları səbəb oluyordular. Hüquqca kooperativlərə imtiyazi-rəsmi verilmiyordu. Əlavə çox cəmiyyətlər həlakətə gediyordular. Məhz ondan ötrü ki, alış-verişi nisyə ediyordular. Keçən əsrin əvvəlinci nəsfində bir çox istehsal kooperativləri təşkil olundu. Bir dəstə fəhlə bir yerə balaca bir məbləğ cəmləyib ku-karasti alıb masterskoylar qayırdılar və artel binası üzrə işləməyə başladılar. Bu artellər, adətən, davam eləyə bilmiyordular. Zatən indiki sərmayə dövrü əsrində istehsaldan başlayan kooperativlərin, adətən, cəzaları budur. İştə Roçdel banilərinin böyük bir xidmətləri də həmin buradadır ki, onlar əvvəlinci olaraq kooperativin düzgün bir əsası və bina üzrə qurulduğunu bilməməyini göstərib bildirdilər ki, əvvəl bazarın tərəddüdünə və rəqabətə bağlı olan istehsalat (proizvodstva) kooperativindən deyil, məmulat (potrebitel) kooperativ cəmiyyətlərdən başlamalıdır ki, hazır elədiyi mətai hər halda müəyyən olan üzvlərinə satmaqla, həmin bu cəmiyyət yanında özünə lazım olduqca istehsal şöbələri də açmaq olar. Bunun ilə Roçdel baniləri kooperativ cəmiyyətlərini düzgün bir əsas və bina üzərinə təşkil edib, aləmə bildirdilər ki, kooperativin mümkün olduqca əzalarının müdaxiləkarlıqlarında və bütün fəhlələrin bilafərq millət, məzhəb, firqə və dərəcə kəsb olaraq bu cəmiyyətlərə qəbulundadır.



Roçdellilərin müvəffəqiyyəti onların tutduqları əsasın səlim və müvafiq olduğuna bir dəlil idi. Odur ki, bunlara təqlid edənlər meydana düşdülər.

Kooperativ dairə hərəkətini böyütdü. Bütün İngilistana yayıldı. Buna 1863-cü ildə hüquqca kooperativlərin rəsmiyyətlərini mümtaz edən qanunun nəşr olunması dəxi artıq kömək elədi.

Bu sayaqla İngiltərə kooperativ cəmiyyətləri ilə dolmağa başladı. Bunların artdığı və böyüdükləri nisbətlə bir yerdə mal almaq fikri dəxi bunların nəzərini də cilvələndirdi. Bunlar istiyordular ki, bir mərkəzi cəmiyyət qayırsınlar, bütün kooperativ cəmiyyətləri öz nümayəndələri vasitəsilə o cəmiyyətə daxil olub bir yerdə mətalar alsınlar. Bu fikirdən irəli hər bir kooperativ özünə lazım olan şeyləri bilrabitə özü alıyor və lazım olan məhsulatı biləlaqə özü hasil ediyor idi.

Burası məlumdur ki, bir şeyi ucuz və mənbəindən almaq üçün çoxlu surətdə almalıdır ki, bu da ancaq böyük sərmayə ilə ələ gəliyor. Hər bir kooperativ təkliyində lazım olan sərmayəyə dara olmadığı üçün mərkəzi cəmiyyətin vasitəsilə ayrı-ayrı olan xırda məbləğləri yığıb gərəkləri olan malları şəriklikdə ucuz qiymətlə alıb sonra öz aralarında bölüşüyorlar.

İştə mərkəzi cəmiyyəti bundan ötrü təşkil etmək istəyirlərdi.

Kooperativlərin dərəcə tərəqi və təkamülü bunu tələb ediyordu. İştə ingilis kooperativlərinin ikinci dərəceyi-cərəyanı nəşət ediyor ki, bütün kooperativ cəmiyyətləri ayrı-ayrılıqda olan mütəfərriq qüvvətlərini yığıb böyük bir güc və qüvvət təşkil ediyorlar.

1864-cü sənədə ingilis, 5 ildən sonra isə Şotland mərkəzi kooperativləri bina olunmuşdur. Xırda kooperativ cəmiyyətlərinin qəsdi xırda tacirləri, dükançıları xırda vasitəkarları rəf və dəf etmək isə, mərkəzi kooperativlərin qəsdi də böyük tacir və alış-verişçiləri dəf və rəf etməkdir. Xırda kooperativ əzaları ayrı-ayrı fəhlə-məmulatçı olduğu halda, mərkəzi kooperativin əzaları ayrı-ayrı məmulat kooperativ cəmiyyətləridir. Məmulat kooperativ cəmiyyəti hər 80 üzvünə müqabil 150 manatlıq bir pay götürüyor. Lakin əvvəlcə tək bir nəfər kooperativə üzv götürülən kimi 5 qəpik verilib, qalan pullar isə kooperativin alacağı mənfəətlərindən tədric ilə çıxılır. Mənfəətin bir hissəsi xırda kooperativlərin arasında onların apardıqları mətə münasibətincə bölünür, qeyri hissəsi isə üzv olmayan qeyri-müştərilərin nəfinə verilir. Üçüncü hissəsi isə kooperativ işinin tərvicinə[1] xərclənir. Hər kooperativ öz əzalarının miqdarı

[1] tərvic – işə salma, rəvac vermə

münasibətinə, müxtəlif səsə malik oluyor. Məsələ, hər 500 üzvə bir səs veriliyor. Buradan görünür ki, mərkəzi kooperativdə həman o qaidə, əsas və binalar üzərinə qurulur, necə ki, xırda kooperativlər qurulmuşdur. Yəni Roçdel əsasları üzərinə.

Mərkəzi kooperativ bütün kooperativləri müttəhid edərək qəsdini o yerə veriyor ki, alınacaq mətaları lap yerində alsın ki, olduqca ucuz düşsün. Bu qəsd ilə istər İngiltərənin özündə, istər xaric məmləkətlərdə birər şöbələr bina etdi. Hindistanda, İrlanda da süddən əmələ gələn şeyləri, Amerikada (Kanadada) Teri, Hamburq və Rotanda Almaniya və Fransa mətalarını alıyor, bir azdan sonra bir çox şeyləri bu xüsusi kargah və fabrikalarında məmul etməyə başlayır.

İndiki halda yuxarıda dediyimiz bu iki mərkəzi kooperativlərin 57-yə kimi paraxodları vardır. Seylon (Serandit) cəzirəsində özlərinə məxsus çay əkinləri, öz bankları, başmaq, paltar, konsuru və tütün, tənbəki fabrikaları, ləbəniyyatxanələri[1] və qeyriləri vardır. Bu cəmiyyətlərin 100 milyondan yuxarı sərmayələri vardır. Onların illik dəratları[2] 262 milyon manata bəliğ oluyur.

1864-cü ildən bəri onlar bir milyard yarımlıq məta satmışlar. Bundan 30 milyon manat təmiz mənfəət almışdılar.

İndiki zamanda İngiltərədə 2.000-dən yuxarı kooperativ cəmiyyətləri vardır. Bunlarda 2 milyondan çox üzvlər vardır. Bu cəmiyyətlərin 264 milyon sərmayələri vardır. Və ildə 30 milyondan artıq xalis mənfəət götürürlər. Bütün kooperativlərin hərəkəti və iş görmələri «kooperativlər ittifaqı» deyilən bir cəmiyyət vasitəsilə müttəhid oluyor ki, bu cəmiyyət kooperativlərin tərvic əfkarını biri-birilə yaxın əlaqə və rabitə bağlamasını təminə çalışıyor, parlaman iş görənləri «tred-yunion» – deyilən fəhlə üzviyyəti ilə görüşür. Onlar ilə kooperativlərin nəfinə və rəf ehtiyaclarına olaraq münasibətdə bulunur. İngilis kooperativləri üçün mərkəzi bir qəzetə nəşr ediyor. Bu qəzetə 50.000 nüsxədən artıq olaraq nəşr olunur. Kooperativlər ittifaqı hər il kooperativlər syezdi dəvət ediyor.

Burayadək saydığımız misallardan İngiltərə kooperativlərinin nə dərəcə bir tərəqqi elədikləri bəyan olundu. Bunların fəhlə hərəkatında və məişətdə olan faidə və əhəmiyyətləri hədd təqdirdən belə fövqdür. Bunlar bir çox vaxt fəhlə tətillərinə də kömək də bulunmuşlar. Məsələn, 1893-cü sənədə Cənubi Yorkşirdə tətilçilərə kömək etmək üçün kooperativ 20.000 manat, qeyri bir Yorkşir cəmiyyəti 15.000 manat, Mançester cəmiyyəti 50.000 manat sərf etmişdir. Üzvlərinin tövsi-məlumatı uğrunda bunlar xeyli xərclər edib, xeyli səylər qılmışlar. Bunların maddi tərəfdən artıq-artıq xeyir və nəfləri olmaqla bərabər, bir dərəcəyədək

[1] **ləbəniyyat** – süd məhsulları, ağartı [2] **dəratları** – sahib olduqları



mənəvi səyədarlıqları da olmuşdur ki, ingilis kooperativlərinin bu çağacan saydığımız müvəffəqiyyətlərinə valeh olanlara demək, bu tərəfinə də bələd olmaq gərəkdir ki, ingilis fəhlələrinin özləri kimi, onlar da düçari-səhv və xəta olmasınlar. İngilis kooperativ cəmiyyətlərinin eyibli cəhəti onların artıq dərəcə bir mənfəətpərəst olub dividendə hərisli olduqlarıdır. Həmin bu hirs[1] və uymaqlıq sayəsindədir ki, ingilisdə qüvvətli bir fəhlə firqəsi hənuz da yoxdur. Dövlət idareyi-siyasisi hənuz burjualar əlində durub, parlamentoda fəhlələrin artıq nüfuz və təsirləri yoxdur.

İngilis kooperativlərindən bir çoxu öz mənfəətlərindən bəzi dəmiryol səhmdaran cəmiyyətlərinə qoyurlar ki, bu yol ilə dəmiryol idarələrində işləyən yoldaşları fəhlələri sui-istifadədə onlar özləri də şirakət ediyorlar. Özləri bu cəmiyyətləri bina etdikdə sərmayədarların istifadələrinə mübarizə olmaq üçün acıdıqları halda mənfəətə uyub özləri belə o haldan xilas olmuyorlar.

İngilis kooperativ hərəkatı bizə iki tərəfdən təlimat veriyor. Bir tərəfdən nə tövr və nə əsas ilə kooperativ bina etməlidir ki, maddi müvəffəqiyyət hasil olsun və bir tərəfdən nə səhvlər gərək olunmasın ki, fəhlələr uymuyub nöqsanati-mənəviyyəyə düçar olmasınlar. Sinfi mübarizə kölgələnməsini bir nəzəri-ehraz ilə biliyoruz.

İştə Beljikin kooperativ tarixi bizə göstərir ki, bu nöqsandan dəxi nə tövr qaçmaq olar.

**M.Ə.Rəsulzadə**

*«Tərəqqi», № 58, 65, 68, 77, 84, 102,*
*22, 30 sentyabr, 3, 16, 24 oktyabr, 14 noyabr 1908*

## REALNİ MƏKTƏBİNDƏ MÜSƏLMAN ƏLİFBA SİNFİ

Musa Nağıyev cənablarının xərci ilə Qafqaz nahiyə müdirinin izni ilə Bakı realni məktəbində müsəlman uşaqlarına məxsus bir əlifba sinfi açıldığı qəzetə oxucularına məlumdur. Müsəlman uşaqlarının ev tərbiyələri olmadığından edadi məktəbin ibtidai siniflərinə daxil olmaq sinləri qəflətlə ötür, o cəhətdən də müsəlman uşaqlarını edadi məktəblərə vermək çətin olur. Özgə millətlər isə uşaqlarını üsuli-idareyi beytiyyə və ictimaiyyələrindən naşi-evdə hazırlamaq mümkün olduğundan edadi məktəblərə girmək, müsəlmanlara nisbətən neçə qat asandır.

[1] **hirs** – təməh

İştə bu cəhətdən müsəlmanlara bir kömək olmaq üzrə yuxarıda zikr olunan sinfin açılmasına səy edilmişdir.

Zahirən işin səbəbi və məntiqi nəzərə alınıb baxılırsa, burada artıq mövcibi-bəhs və etiraz bir şey yoxdur.

Lakin bu məsələ əvvəl dəfə realni məktəbinin valideyn şurasında qalxızıldığı vaxt bəzi şura əzaları[1] tərəfindən mövcibi-etiraz olması ilə bərabər, indi də sinfin açılması münasibətilə Bakı qəzetələri səhaifində böyük bir mübahisəyə səbəb olmuşdur.

Mübahisələrdən birisi «Baku» qəzetəsinin stunlarında cövlan edib isbat ediyor ki, icra olunan bu qədəm ümumiyyət və beynəlmiləllik nöqteyi-nəzərindən xilafdır.

Məzkur fikrini bu növ bəyan ediyor ki, bu müsəlman sinfi qəbul olunduqda, qeyri özündən irəlidəki sinifləri ibtida olduğundan, bu sinifdən qurtarmışları o biri siniflərə qəbul edə-edə bir qədər zamandan sonra realni məktəbi bütün-bütünə müsəlmanların təsərrüfünə keçər, halonki bütün şəhər əhalisi xərcinə saxlanan məktəb gərək ki, hamı əhalidən ötrü olub, bir millətə müxtəss[2] olmasın.

Deməli ki, bu mühərrir bütün insaniyyət naminə hifzi-hüquq edir də, əhali arasına ayrılıq salacaq bu «müzürr» qədəmdən ehtiraz[3] ediyor.

Bu xüsusda biz də öz nöqteyi-nəzərimizi bildirmək istəriz:

Əvvələn məsələ bir o qədər «dəhşətli» deyil ki, realni məktəbini döndərib vaxtilə «müsəlman» məktəbi eləsin. Lakin burasını gərək qəbul eləmək ki, bu vəchlə realni məktəbində müsəlmanların hesabı artar, lakin bu hesab nə qədər artsa da, 70 min müsəlman əhalisinin realni məktəbində binnisbə[4] hissəsinə düşən vakansiyaları doldurmaq dərəcədən hər halda artıq olmayacaqdır. Hərgah Bakı uyezdi və quberniyasını da bura daxil eləsəniz, onda məsələ bir az da aşkar olar.

Mən, əsasən, «Baku» qəzetəsi ilə razı olardım, hərgah müsəlman camaəti ilə qeyri müsəlman camaətinin dərəceyi-mədəniyyətləri, üsuli-məişətləri bir dərəceyi-təsavidə olmasa da, yaxın bir nisbətdə heç olmasa – olaydı.

Lakin nə edərsən ki, bir çox siyasi və tarixi səbəblərə görə qonşuluqla yaşamaqda olan millətlərin biri tərəqqi və təməddünün övci-əlasında[5] olduğu halda, o birisi hənuz indi hərəkətə gəlməkdədir. Erməni qonşularımız bizdən ədədcə 5 dəfə az olduqları bir halda bir nəfər oxumuş sahibi-mərifət müsəlmana, üğraq olmazsa, 30–40 nəfər erməni çıxardarlar. Qeyri həm sahələrimiz də, həmçinin.

[1] əza – üzvlər
[2] müxtəss – xas olma, aid olma
[3] ehtiraz – çəkinmə
[4] binnisbə – faizlə
[5] övci-əla – ən yüksək mərhələ



İştə həqiqətin bu cəhətini nəzərə alıb da mən ümumi işin xatirəsinə əhali arasında millət fərqi qoymamaq tərəfdarı olduğumun şərəfinə olaraq «Baku» mühərriri ilə əsasən razı olduğum nöqteyi-nəzərdən, yenə də ümum Qafqaz xatirəsi və ümuməhali səadəti naminə güzəşt ediyoram. Bu güzəşti edib də özümü hər bir cəhətdən haqlı və məntiq görüyoram.

Məntiq diyor ki, bir ölkənin, bir əyalətin tərəqqi və təməddünü bağlıdır o əyalətdə olan müxtəlifülcins millətlərin təvafüq qədəm ilə tərəqqi etmələrinə.

Hərgah bu təvafüq[1] qədəm Qafqazda bu vaxtadək olsaydı, onda Qafqaz başına gələn bu qədər bəlaları çəkməzdi. Hərgah realni məktəbində xüsusi sinif açmaq kimi tədbirlərə bir on il bundan qabaq, «təvafüq qədəm» xatirəsinə diqqət yetirilsəydi, axırıncı illərdə edilən «şikayətlərə» yer qalmaz idi.

Qafqaz islam əhalisinin «cəhaləti» həmişə mövcibi-şikayət olmamışdır?..

Hərgah müxtəlif pərdələr altında gizlədilən kor-koranə millətçilik olmasa idi indiki «millətçilərə» də yer qalmazdı. Qafqazın mütərəqqi və mütəməddin millətlərinə lazım və vacibdir ki, mərifətcə dalda olan qardaşlarına kəsb-ümum yolunda olaraq hər növ köməkdə olub, camaət işlərində, ümumvətən uğrunda lazım və vacib olan «təvafüq qədəmə» müvəffəq edən «təvafüq üqulə»[2] çalışsınlar.

Bu məramnamə ayrı-ayrı millətlərin sərmayədarlarınca xoş olmasa da, əminiz ki, yoldaşlığa, bərabərliyə, təvafüq qədəmə daha artıq möhtac olan əvamünnasə gərək və lazımdır.

İştə bu surətlə realni məktəbində açılmış olan müsəlman sinfi qəsd və fikrində biz heç bir sui-niyyət və zərər görmüyoruz.

Ancaq təəssüf ediləcək bir hal varsa, o da bu sinfin hənuz lazım olan qərarda şagird tapmamasıdır.

«Baku» qəzetəsinin bu məsələni qalxızmaqda, guya, «erməni mənafeini» mühafizə etməyinə, «Kaspi»nin də müsəlman ehtiyacına «göz-qulaq» olmağına, onların erməni millətindən və müsəlman camaətindən uzaq bir məsafədə durduqlarından naşi nə qədər gülməyimiz gəlirsə də, əhəmiyyətli bir məsələyə qayət səthi, kutahbinanə[3], səbük-fəhmanə, nəhayət, dəni bir vasitə ilə cavab verib hər bir məsələ bəhsi üstündə ağzına gələn hədyanat ilə mətbuat səhifələrini qaralayan bir qəzetənin təşəbbüsatına da göz örtə bilmiyorum.

«Baku» qəzetəsi mühərriri «Brovin» Bakı realni barəsində yazdığı zaman Şuşa realni məktəbini yaddan çıxardığı kimi, bu qəzetəçilik üsulundan xəbərsiz olan «qəzetə» də güşə məşğul olub hər bir hədd və dərəcəni itirib də erməni camaətinə rəğbəti olmayıb, ancaq bir taqım

[1] təvafüq – bir-birinə uyğun gəlmə, müvafiq olma
[2] üqul – ağıllar
[3] kutahbinanə – dar görüşlü

erməni sərmayədarlarının mürəvvici-əfkarı olan qəzetə mühərririnin «mütaliəsizliyi» səbəbilə bütün erməniləri qəbahətli etmək dərəcədə bir cəsarət və qəbahətə giriftar oluyor.

Məlum olsun ki, bu qəzetə elədiyi təşəbbüsatını islam adı ilə etmək xəyalındadır.

Lakin müsəlmanların mütərəqqi qismi camaat və cəmiyyət nöqteyi-nəzərindən əhəmiyyəti olan məsələni o tövr uşaq yollu söyüşlərlə «mühafiz» etməkdən artıq dərəcə tənəffür[1] edib, qayət sakitanə və ədübanə olaraq mətbuata yaraşar və əqillərə sabitlik verər yollar ilə isbat etməyə qadir və buna tərəfdar olub, heç bir vaxtda bir firqənin, bir şəxsin qəbahətini bir millətə bir camaətə isnad vermək fikri-xainanəsinə düşməz!

Mütərəqqi müsəlmanlar bu qəbahəti üstlərinə alacaq deyildirlər, zənnindəyiz!

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 59, 23 sentyabr 1908*

## ŞEYTAN BAĞLIDIR

Camaat əqidəsində, hədis kitablarında ramazanül-mübarək ayı barəsində tühəf[2] bir şey vardır.

Bu ay xudavəndi-təbarəkə və təalanın rəhmət ayı olduğundan, insanları günah və cinayətlərə uyduran şeytan, bu otuz günü qırılmaz zəncirlərə çəkilib əldən-ayaqdan kənar, insan üzü görməyən, təməddün səsi eşitməyən bir qeyri məlum cəzirəyə buraxılıb ta orucluq bayramınadək ona oradan çıxmağa imkan verməzlər.

Şeytan orada qalar da əllərini bir-birinə sürtərək müsəlmanların bu bir ay içində təhzibi-əxlaq etmələrinə və bu ibadət ayının tərbiyəbəxş nəticələrinə qibtələr edər, heyiflər deyər.

Neçə vaxt idi ki, mən bu fikrə aludə olub məhbəsi-şeytan olan o vadiyi-qeyri-zizər olan cəzirəni axtarıb bilmək fikrində idim.

Bütün coğrafiya kitablarını axtardım, bütün səyyahların əsərlərini təftiş etdim, tarix səhifələrini vuruşdurdum, axırı yenə də məyus oldum – şeytanın bağlandığı yeri tapa bilmədim.

Amma şeytan bağlanan yer var, burası doğrudur. Buna şəkk edə bilməzdim. Çünki əfradi-islamın bütün də olmasa, qismi-əzimi buna etiqad etmişdir. Yəqin ki, bunun əsli vardır.

Özüm tədqiqat fikrinə düşdüm. Zol[3] təqlid edib, müdam özgələrin məlumatı ilə dolanmaq olmaz ki, a!.. İnsan özü də gərək axtarsın!..

[1] tənəffür – nifrət
[2] tühəf – maraqlı, diqqətəlayiq
[3] zol – həmişə



«Axtaran tapar» həqiqətinə ümid bağlayıb axtarmağa başladım.

Nə xəyal ediyorsunuz? Axtarmağım boşa çıxdımı? Xeyr! İki il təcrübədən sonra şeytanın bağlı olduğu yeri tapdım və artıq şəkkim də qalmayıb ki, səhv etmiş olam...

Şeytanın Ramazan ayında məhbus olduğu yer Bakı imiş!.. Təəccübmü ediyorsunuz? İnanmağınız gəlmiyormu?! İnanınız!.. Sübutmu istiyorsunuz?!..

İştə sübut...

İki il təcrübəmdə mən gördüm ki, orucluq düşəli müsəlmanlar daha da bədəxlaq oluyorlar. Bir çox biri-biri ilə ədavəti olanlar özlərini saxlayıb-saxlayıb ancaq orucluqda küçələrə part-part salırlar. Orucluq ayında axundların, vaizlərin, mənbərlərdə behişt vədləri ilə, cəhənnəm təhdidlərinə heç kəs qulaq asmayıb ayrı vaxtlardan daha da şiddətli olaraq cinayətə, qətli-qarətə məşğul oluyorlar...

Diqqət veriniz! Orucluğun bu gün on birinci günüdür. Bu on bir günün ərzində neçə nəfər müsəlman qanı tökülmüşdür. Neçə dəfə küçə atışmaları qurulmuşdur!.. Nəzərə gətirilsin!..

Orucluq ayında şeytan bir vadiyi-qeyiri-dizərdən, övladi-bəşərdən xali olan bir cəzirəyə atılarmış... O cəzirə, görünür ki, Bakı imiş! Onda da müsəlman hissəsi. Bakının övladi-bəşərdən, insandan xali olduğuna da dəlilimiz vardır ki, burası iddiamızı isbata kafidir...

Yetmiş mini təcavüz edən bu qədər məxluq arasında madam ki, bir neçə dəstələr ilə mübarizə etmək qüvvəti olmadı, o nə cəmiyyətdir?! Madam ki, insanlar dövrələrində, aralarında baş verən vəhşi işlərə sadəcə bir nəzərlə baxırlarsa, insan deyildirlər!!.

Bir nəfər vaxtilə yazdığı bir məqaləsində adam öldürənləri «dərunda[1] vəhşi», – deyə adlandırmışdır.

Vəhşilərin gəzdiyi yerlər – meşələr, vadiyi-qeyri zizərlər deyildirmi?..

İştə kəşfiyyatım üzrə səyyahların, coğrafiyunların, tarixnəvislərin əsərlərində tapa bilmədiyim o cəzirə, içində təhqiqat və tədqiqata məşğul olduğum Bakı özü imiş!..

İştə şeytan Bakıda olub öz əfali-şəniələrini icra etməkdədir!..

Ey bakılılar, bir dəm heyvaniyyətdən ayılıb da tutun bu şeytanı, birdəfəlik öldürüb, özünüzü bəladan qurtarmaqla bərabər bütün aləmi-islama da minnət qoyun!..

Cəhalətlə mübarizəyə gəlin!..

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 60, 24 sentyabr 1908*

[1] dərunda – daxilən

## MƏHƏMMƏDƏLİ ŞAHIN FƏRMANI

İranlı tanışlarımız vasitəsilə əlimizə keçən Tehranda paylanmış olan fərmani-şahının mali-qəddaranəsini türkcəyə tərcümə edərək İran tarixinin ikinci «Zöhhakı» olan bu zatın təbiətini göstərmək istəriz.

Hüquqi-milliyyəni qəsb, heysiyyət və əzəməti-dövliyəyi nəhb[1] edən bu İran Zöhhakı dəfələrlə şəriətə and içib andını sındırmaqla həkkihörmətində zərrə qədər müsamihə[2] eləməyən, Qurani-əzimuş-şəni və onun qoyduğu vədiəti-islamiyyəni, guya, mühafizə və himayə edənlər kimi bir lisan alaraq bütün dünya durduqca kəramətlə yadigar olunacaqsa, bir halda dağıtdığı məclisi-milli əvəzinə, məclisi-fikriyyəyə bir dəfə uymuş olan üquli-əmməni oydurmaq qəsdi ilə yığmaq istədiyi «Surəti-məclis» barəsində xainlərin sədri-əzəmi olan sədri əzəmə verdiyi bir dəsti-xəttində böylə diyor:

«Məclisi qovandan sonra nəzmi məmləkət iqtizası ilə rəiyyətin ədəmi asayişinə səbəb olan müfsidlər[3], əncümənlər və bidin şəxslərin dəfinə dövlət iqdam elədiyində vədə vermişdik ki, iadeyi-nəzm[4] edib hərci-mərcin, əncümənlərin dəfindən əmniyyəti-məmləkət və asudənin olandan sonra qəvanini məmləkətin məzacı ilə həzrət xətmi mürəttibin şəriətinə müvafiq olub ədalət qanunlarının hafizi və ədl vidadin naşiri olan bu məclis münəqid eyləyəcək ki, ümumi millət və təbəqati rəiyyəti ki həzrəti əhədinin vədiələridirlər, rahat və aludə eliyib əşrar və müfsidlərin əllərini gödəldən və bu beyzəyi müqəddəsi-islamı ki əvvəlinci fəraiz və əqidələrimizdəndir hifz eyləyək. Necə ki, bizdə həmcüvar dövlətlərin vəziri muxtarlarına və səfrayi-kübəralarına bu yolu elan və elam buyurmuşduq.

İndiki məclisi-məzburun vəd olunan vaxtı caiz cənab Əşrəfə müqərrər buyururuz məzaci-məmləkətə müvafiq olan hüdur və şərtlərlə və qanunları şəriəti-mütəhhərə ilə düzdüşən və hərci-mərcin tövlidinə mane olan bir tərəfdə olan məclisi-məzburun iniqadını şəvvalın on doqquzunda mərhəmət buyuracayıq.

İndi isə ümumi əhaleyi-məmləkətə və təbəqati-rəiyyətə elan edək ki, nə üçün həzrəti-əhədiyyət bizim vücudu-müqəddəsimizi mülk və millətin hafizi, tac və təxtinin gözətçisi, dini-mibini islamın hamisi qərar vermişdir. Və bundan ibadullahın rifah və asayişindən və ədli-vidad qanunlarının icrasından başqa məqsudi olmamışdır. Və Seyidül-Mürsəlinin şüarına iqtida edərək və asari-rəsuli rəbbül-aləminə iqtiza edərək öz fərizələrimizdən sayırıq ki, bu dəsti-xətti mədiləti-nümutun süduru ilə ümum əhalinin mütməin və ümidvar edib müqərrər buyururam ki, şəvval

[1] nəhb – qarət
[2] müsamihə – bağışlamaq
[3] müfsidlər – fitnə-fəsadçılar
[4] iadeyi-nəzm – yenidənqurma



ayının 19-da həzrəti əhədiyyətin təfəzzülatı, imami-əsri-Həzrəti Hüccət ibnil-Həsən Əccəlallahu Fərəcəhunun tövcihatı ilə məclisi-müəyyəni əşxasi mütəmədddindən olaraq ittiqad edək ki, bu məclisi-məşrui ədalətnəmud vasiləsi ilə əhaleyi-rəfahidə, həsrəti Seyidül-Mürsəlinin qəvanini mühafizətində və icrada hərc-mərclik, binəzmlik və əncümənlərin iniqadı belə mətruq və mədum bizim qüdsi-ayət mənzuratımız mücbiri turuq və şəvarii münəzzəm, ümum əhali bizim rəfət və mərhəmətimiz sayəsində, mütənəim, əhalinin irz və namusu məhvuz, millətin asayişinə lazım olan səbəblər hər cəhətdən fərahim, tərəqqi və sərvəti-məmləkətin münqəziyən izdiyadda olub inşallah təala allahın istəyi və imami əsrin tövcihatı ilə xoşbəxtlik qapısı əhali üzünə açılıb rifahda olsunlar. Və indidən müqərər buyururuq ki, seçkilərin nizamnamələri və məmləkətin qanunları ki, gərək həzrəti nəvəbi səllallahu əleyhin şərinə müvafiq olsun yazıb tərtib verəsiniz. Və şəvvalın 19-u üçün hazır və elan edəsiniz ki, hər iki məclisə şürü edilib və hər kəs öz təklifini bilib, öz həddindən təcavüz eləməyib və ümum mərdom hər bir cəhətdən nəhayət asayişlə zindəganlıq edələr. Vəli üçün Təbriz əşrar və müfsidini o qədər hərzəlik, şərarət və qan tökdü itmiş və şəhri-məğşuş və münqəlib etmişlər ki, dövlət bir dəxi əşrar və müfsidləri tənbeh etməkdən sərfi-nəzər edə biliyor. Budur dəsti-xətt olunur ki, ta Təbriz şəhəri münəzzəm və onun əşrarı qəl və qəm və oranın məzlum əhalisi asudə olmasalar və əmniyyətini iadə etməsələr, Təbriz şəhəri bu hökmdən müstəsna olacaqdır».

*Sentyabrın 27-də 1326*

Məhəmmədəli Şah Qacar

Yuxarıda yazdığımız müqəddəmə ilə bu dəfəlik də kifayətlənib bu xüsusda olan müfəssəl tənqid və mülahizətları qəzetəmizdə qoncayeş olmadığından gələcək nömrəyə təxir ediyoruz.

* * *

Keçən nömrədə İran Zöhhaki-sanisinin «Surəti-məclis» iniqadı barəsində nəşr etdirdiyi fərmani-təbiətnüması dərc edib vədə vermişdik ki, bu xüsusda öz tənqid və mülahizatımızı bəyan edək.

Nəzərimizcə kifayət edər ki, şah dilində yazılmış olan bu fərmanı insan dilinə tərcümə edəsən. Bu tərcümə edilirsə başqa tənqid və mülahizat özü-özünə anlaşılacaqdır.

*İştə tərcümə:*

«Məmləkətin ümranına əhalinin əmniyyət və səlamətinə nəzmi məmləkətə çalışan məclisi qovdurduğumuz, məscidi gülləbaran eyləyib məsum uşaqları qanına qəltan edərək bizə təzim etmək istəməyən dindar şəxsləri dəf edib şəxsimizə rahatlıq verməyən əncümənləri qovduqda

vədə vermişdik ki, qanunları məcazımıza və xahişi-tələbimizə müvafiq olub əhaliyə təbəiyyət və inqiyad[1] öyrədən bir məclis münəqid edək ki, ümummillət və təbəqati-rəiyyət ki bizim dilibağlı qoyunlarımızdır rahat və asudə eyləyib, pişrovları olan ərbabi-təməddün və elmin təşviq və tərciblərindən uzaqlaşdırıb və bezeyi-islami ki əvvəlinci görmək istəmədiyimiz fəraiz və əqidələrimizdəndir sındıraq. Necə ki, bu xüsusda bütün həmcüvar dövlətlərin səfirlərinə qayda üçün xəbər verib cənab Lyaxov ilə yaxşıca məsləhətləşmişik.

İndi ki, vədə verdiyimiz vaxt yaxınlaşır sədri-əzəmə müqərrər edirik ki, məzacımıza və Lyaxov ilə Əmirbahadurun məsləhətinə müvafiq qanunlar ilə yığılmalı məclisin nizamnaməsini tərtib eləsin ki, şəvvalın on doqquzunda olaraq başı qapaza öyrəşmiş olan alçaq rəiyyətlərimin başına şərki olaraq vurub özümün rəiyyətkub bir padşah olduğumu bildirəcəyəm. İndi isə ümumi qulamani həlqəbəguşlərimizə[2] elan edirik ki, çün iblis Sürüşnaf həzrətləri bizim vücudi-nəhsimizi mülk və millətin taciri, tac və təxtin sahibi-mütləqi, dini-mibini-islamın məzhəbi qərar vermişdir və dünyada ibadullahın zillət və rəzalətindən, zülm və istibdad qanunlarının icrasından başqa məqsudi olmamışdır və qonşularımızın şüarına iqtida edərək öz borclarımızdan sayırıq ki, bu dəsti-xətti məzləməti lutun süduriylə ümum əhalini mütməin[3] və ümidvar edib müqərrər buyururam İranın təzələnməsinə və mənim cəngimdən qurtarmasına inanmasınlar.

İblisi-isəqinin təfəzzülatı Şeyx Fəzlillahın təvəccühatı ilə məclisi-müəyyəni xunxar olduğum halda Allah kölgəsi bilən şəxslərdən olaraq iniqad edin ki qəbulum və xahişim olan bu məclis vasitəsilə əhali rəzalətdə, həzrət Seyidül Mürsəlinin qanunları zicrətdə hərci-mərclik rövnəqində binəzmlik qaydada olub camaət dərdinə qalan əncümənlər bilmərrə mətruk[4] və mədüm[5]; bizim dənaətşüar olan mənzurətımız mücri, türuq və şəvari dağınıq, ümum əhali bizim bətalət və kəsalətimiz sayəsində başı qapazlı, həddən artıq alınan biddə vergilərimizin cəhətindən ac və yalavac əhalinin irz və namusu təminsiz, millətin asayişinə lazım olan yollar hamısı bağlı, tərəqqi və sərvəti-məmləkət tənəzzüldə olub inşaüş-şeytan iblisin istədiyi və Şeyx Fəzlillahın kömәyi ilə bədbəxtlıq qapısı rəiyyətimiz üzünə açılıb da səfalətdə olsunlar.

Vəli çün Təbrizin üzünə ağ olan qəhrəman və igidləri o qədər fədakar əşrar və müfsidləri o qədər şərarət və qan tökdü etmişlər ki, mənim başımda yığışan heyəti-dövlət bu xainlərə tənbeh etməyə bilməz.

---

[1] **inqiyad** – bağlılıq
[2] **qulamani həlqəbəguşlar** – qulağı həlqəli qullar
[3] **mütməin** – arxayın
[4] **mətruk** – tərk olunmuş
[5] **mədüm** – məhrum



Budur dəsti-xətt olunur ki, tə Təbriz məşhəri xidmətində bulunub rəşadəti sayəsində ruhlanıb mənə ağru olmalarına bais olan Səttarxanı qolu bağlı mənim hüzuruma göndərməsələr onlara açılacaq «məclisi-ədəbimdə» yer olmayacaq. Və iblisin lənəti onların üstündən götürülməyəcəkdir.

**Məhəmmədəli Şah Qacar**

Bəli, Məhəmmədəli şahın verdiyi fərmanı bu surətdən başqa ayrı tövrdə qanmaq mümkün deyildir.

Çünki bu adamın tutduğu əməlləri dediyi sözlərə müqabil qoyanda ancaq bu mənanı vermək olar.

Böylə mənə ilə fərman verməyə Məhəmmədəli şaha cürət verən halın səbəbini də dünən qəzetəmizdə dərc olunan Tiflis teleqramlarında aramalıdır.

Görünür ki, Məhəmmədəli şah çox da iblisi sevindirəcək dərəcədə yerini bərkitməmişdir. Tehrandan gələn axırıncı xəbərlər buna işarədir. Görən gələcək nə verir!

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 63, 64, 28 və 29 sentyabr 1908*

## NEFT MƏDƏNLƏRİ

Bu axır zamanda neftin kasadlığı və mədənlər ilə mədənçilərin müşkül bir hala düşdüyü barəsində artıq söhbətlər olunur. Di gəl bir söhbət bu barədə nəzərə gələn vəqələr də bir növ şəhadət ediyorlar. Bu şahidlərin (yəni vəqələrin surəti-zahirisi) həqiqətə yavuq olması, nə qədər şəkli və möhtacibəyan və istidlal isə də əvvəl görünüşdə əsərbəxş bəyanda bulunmaları şəkdən xali və danışıqsızdır.

Məsələ nədədir?..

Mədən zəhməti ilə sərmayəsi arasında olan əlaqədə qabaq ki, tarixinə nisbətən böyük bir irtica (dönüklük) görünür. Dünən baydaqi-zəfəri əllərində yüksək tutan fəhlələr bu gün sərnigüni-baydaq olaraq bir haləti-icz ilə üstlərinə edilən zərbə və həmlələri etirazsız və müqabiləsiz qəbul ediyorlar.

Fəhlə komisyonu xəbəri olmamış bir nəfər fəhləni çıxarda bilməyən zavod idarəsi indi dəstə-dəstə, firqə-firqə olaraq bütün dərrakəli və bilikli pişrov fəhlələri rasçet edir də, bu xüsusda özünə müqabil etinaya layiq bir hiss və hərəkət görmüyor. Masterskoylar bağlanır, yüzlərcə fəhlələr işsiz olaraq küçələrə tökülür, zəhmət və məşəqqətlər üzrə hasilə gətirilən şəraiti-zəhmət və qaidələr biri-birinin dalısınca olaraq təərüfsüz bu yolda

birə-bir geri alınır. Nə qədər baxırsan hələ qəsbi-hüquqdur ki, gediyor. Ayrı vaxtda indiki şiddətlərin dörddə birinə qatlaşmayıb ümumi bir tətil ilə bütün mədənçiləri təhdid edən Bakı mazut qoşunu, bu tədbirlərin hamısını görür, dövrəsini alan işsizlərin heyrətli bir dərəcədə artan qədərini və ehtiyacını bilir də tən qəzayə verir, «heç bir şey olmaz» deyir.

«Heç bir şey olmaz!» – işta Rusiyanı əhatə edən qara buludlar pərvəriş verdiyi bədbinlik!

Burasını məlum etməlidir ki, Avropa fəhlələrinin illər müddətincə, böyük zəhmətlər, mübarizələr, əziyyətlər, həmiyyətlər əvəzi olaraq hasil etdikləri şeyləri, tələbləri Rusiya fəhlələri 3–4 ilin ərzində almağa müvəffəq oldular. Avropanın hənuz bir çox böyük mövqelərində, mərkəzi ticarət və sinaətlərində belə olmayan «səkkiz saat iş günü» və qeyri bir çox fəhlə tələbləri Rusiyada mövcud oldu. Bunun səbəbi nə idi?

Rusiyada olan hərəkati-hürriyyətpərvərana da Rusiya füqərayi-kasibəsi müqəddimətül-ceyş olduğundan bir az müddətdə özünə siyasətcə böyük bir əhəmiyyət kəsb elədiyindən bu əzəmət və səlabəti-iqtisad cəhətinə də sirayət edib sərmayədarları «güzəştli» olmağa məcbur ediyordu. Möhkəm və layiqli dərəcədə üzviyyətlənmiş və dərrakəli bir firqəyə, dərəceyi-əql və ümrani sayəsində sahib olmadığından fəhlə dostları adı ilə adlanan bir çoxlarına sadədilanə inandığından, fəhlə sinfi irtica ilə elədiyi mübarizəsində tabavər olmayıb sındı. Təbii ki, bu sınıqlığı görən o «kazatnı»[1] sərmayədarların əlinə fürsət keçdi.

İştə indi neft mədənlərində mədənçilər tərəfindən fəhlələrə nisbətən edilən hər nə təcavüzat və hüquqsuzluqlar varsa, hamısı haman «fürsəti» istifadə etməkdən ibarətdir.

Lakin burada bir ayrı məsələ də var ki, o da «neft kasadlığından» edilən şikayətlərə dairdir.

Mədənçilər elədikləri bu qədər təcavüzat və hüquqsuzluqları, fəryad etdikləri və hər yerdə dedikləri və yazdıqları «neftdə kasadlıq vardır» – əsası ilə haqlı etmək istiyorlar. Onlar diyorlar ki, etdikləri bu tədbirlərin hamısını mədənlərin təmamiyyəti və həlakətə uğramadığı üçün ediyorlar. Mədənçilər, guya ki, neftin qiyməti aşağı düşdüyündən onlar zərər çəkir və qabaqkı qaidə və şərtlər üzrə idarə etməli olsalar neft ticarəti həlakətə uğrayıb bütün mədənlər sınıq çıxar.

Mədənçilərin meydana buraxdıqları bu məsələ fəhlələr arasında və fəhlə qəzetələrində və həmçinin qeyri qəzetələrdə müzakirə olunmaqdadır. Kimisi diyor ki, Bakı neft mədənlərində heç bir kasadlıq yoxdur. Biləks mədənçilər daha da artıq mənfəət götürürlər. Ancaq fəhlələri bil-

[1] **kazat** – gözə görünməyən



ümum almış olan bir bətalətdən və yorğunluqdan istifadə ediyorlar. Bəzisi diyor ki, xeyr, mədənçilər necə ki, diyorlar, kasadlıq çəkiyorlar və elədikləri təcavüzatda Bakı neft ticarətinin salaməti naminə olaraq haqlıdırlar. Fəhlələrə isə bu xüsusda artıq səbir eləməkdən başqa bir çarə yoxdur. Bizim nöqteyi-nəzərimiz isə bunların hər ikisinə müxalif olub başqa bir dairədə dayanır ki, bunu da bilümum neft mədənlərinin işini və ticarətinin əzaini lazım olan bəzi ədəd və məlumat ilə əyan edəndən sonra nəticə olaraq bəyan etmək istəyiriz.

Bu xüsusda gələn dəfə.

* * *

Dünənki nömrəmizdə neft mədənlərini almış olan bir irticai-iqtisadiyyədən bəhs edib, hədd və dərəcəni, keçmiş və iləridə daha mühib bir surət almağı ilə təhdiddə olan işsizlik və rasçotlara fəhlələrin keçirdiyimiz dövri irticaya məxsusi bir bətalət ilə ümidsiz və köməksizlər kimi baxıb durmalarını təsvir etdikdən sonra vədə vermişdik ki, «neft mədənlərində kasadlıq varmı, yoxmu?» – məsələsini həll edib də bu dairədə öz nöqteyi-nəzərimizi bəyan edib, neft mədənlərinə gələcəkdə nə məslək tutmaq mənfəətli olacağını əyan edək.

İndiki zamanda neft mədənlərinin nə halda olduğunu bilmək üçün bu axırıncı illərdə onun başına gələn tarixini müxtəsər vəchlə olsa da, lazım olan ədədə üzərinə bilmək gərək.

1905-ci sənədən bəri neft mədənləri öz adi tərəqqisindən çıxıb qeyri-adi yollar ilə getməkdədir.

Həmin bu sənənin fevral və avqust aylarının erməni-müsəlman qitalları, sonradan baş verən zabastovkalar neftin çıxarılmasını 410 milyon puta kimi əskildirlər, bir halda ki, 1904-cü sənədə çıxarılan neftin miqdarı 615 milyon put idi.

1904-cü ilin dekabrında neftin qiyməti 14 qəpik, 1905-ci ilin iyununda isə 20 qəpik, avqustunda 23 qəpik, sentyabrında isə 36 qəpik yarım idi. Ancaq dekabra 17 qəpiyə düşdü. Amma hər halda olsa da hesabi-övsət[1] ilə neftin illik qiyməti 20,5 qəpik qərarında hesaba gəlirdi.

1906-cı ildə hasil olan neftin miqdarı 448 milyon put, 1907-ci ildə isə 475 milyon put olmuşdur.

1905-ci ildən buyana hasil olan neftin miqdarı bilmünasibə artmışsa da, 1904-cü ildəkindən artıq bir dərəcədə əskik olmuşdur. Qiymətlər isə bu illərdə daha da artmışdır. 1905-ci ildə 20,5 qəpik, 1906-cı ildə 26,2 qəpik, 1907-ci ildə 28 qəpik.

Bu surətlə 1905-ci ildən ta bütün mövcibi-bəhsimiz olan dövri-irticayə kimi neftin qiyməti artharttda idi. Hasil olan neftin miqdarı-

[1] **hesabi-övsət** – orta hesabla

ümumisi nə qədər əskik olsa da, mədənçilərin halına təfavüt eləməyib qiymətin artması ilə təsəlliyab oluyorlardı. Qiymətin bu dərəcə bir tərəqqi ilə artmasını da bu illər ərzində neft mədənlərinə dəyən zərərlərdən bilməlidir.

Ticarət və sinaət vəziri Bakı mədənlərini söylədiyi bir təqriri-mücəssəm ilə tərif edib diyor ki: «Bakı elektrik düyməsi kimi bir şeydir ki, onun üzərinə basıldıqca bütün Rusiyaya zəngülə salıb sədalanır».

İştə vəzirin təsvir etdiyi bu elektrik düyməsi budur tamam üç ildən yuxarıdır ki, peydərpey neftin düyməsi basılır və 1905-ci ildən bəri neftin qiyməti müttəsil[1] artırdı.

Lakin qeyri təbii olan bu əhval davam edə bilməzdi. Edə bilmədi də. Mədənçilər bir vaxt mültəfid oldular ki, üstündə oturduqları şaxı öz əlləri ilə kəsməkdədirlər. Yəni neftin qiymətini həddən artıq bir dərəcədə artırdıqlarından İçəri Rusiyada olan müştərilərdən əlləri çıxmağa üz qoydu. Fabrikalarında, zavodlarında yanacaq olaraq neft işlədən sərmayədarlar daş kömür işlətməyi məsləhət görüb nefti daş kömürə təviz etməyə başladılar. Dəmir yollarından bəziləri də bunlara təqlid etməyə üz qoydular. Neftin qiyməti Bakıda 1905, 1906 və 1907-ci illərin qiyməti üzrə 25 qəpik, 26,2 qəpik, 28 qəpik olduqda, Pribaltiyski krayda 52–55 qəpiyə çıxırdı ki, daş kömür ilə bunun arasında böyük təfavüt vardı. Pribaltik krayın müştərisi 1905-ci ildə neftin hər bir putunda 4–5 qəpik itirirdi.

1906, 1907-ci illərdə isə daha 9–10 qəpik itirməyə başladı. Buna görə də ingilis kömürü nefti meydandan çıxartmağa başlayıb, neftin istemalı ihraz etdiyi mövqeindən düşdü.

Bu sayaqla 1904-cü sənədə işlənmişdi 20,7 milyon put neft, 1905-ci sənədə 8,3 milyon put, 1907-ci ildə 7,4 milyon put.

1904-cü ildə Pribaltik mahalına aparılan neftin 1907-ci ildə ancaq bir sülsü[2] aparılmışdır.

Mərkəzi Rusiyada da həmçinin neftə antrasit və torf kimi yanacaq maddələri rəqib çıxıb, neftin bazarını sındırdı. Çünki neftin putu orada 45–46 qəpiyə olduğu halda, antrasitin hər putuna 36–37 qəpik xərc çıxırdı. Yəni neftdən 9 qəpik ucuz. Torfla bu qaidə ilə Moskvada, ələlxüsus Orexovo-Zuyev manufaktur zavodlarında qiyməti dərəcəsiz halda qalxan nefti təhdidə başladılar. Adətdən kənar olan bu qiymətin nəticini vəxim görən mədənçilər, gələcəyi dəhşətli olan bu vaqeni düşündülər. Bu 3 ilin ərzində mişarladıqları şaxın üstündə oturduqları bir şax olduğunu gördülər. Çarəsinə başladılar. Çarəsi nədir?

Neftin qiymətini o dərəcədə aşağı salmaq ki, İçəri Rusiyada daş kömür, torf və antrasit kimi məvaddi-ihraqiyyə[1] ilə rəqabət etmək mümkün olsun.

[1] müttəsil – ara vermədən, daim
[2] süls – üçdə biri
[1] məvaddi-ihraqiyyə – yanacaq materialları



* * *

67-ci nömrəmizdə dedik ki, mədənçilər əllərindən getməkdə olan bazarımətai saxlamaq üçün məcbur oldular ki, neftin qiymətini aşağı salsınlar.

Neftin qiyməti aşağı salındı. Gərək öylə də olaydı. «Sovet syezd»in statistikası ilə (ehsası ilə) aşkar edilmişdir ki, torf, antrasit və ələlxüsus daş kömür kimi neftə rəqabət edən məvadd ilə mübarizə etmək və neftin İçəri Rusiyada itirməkdə olan müştərilərini geri qaytarmaq üçün lazımdır ki, neftin Bakı füruşi 20–21 qəpikdən yuxarı olmasın.

İndi görək ki, 35–37 qəpikdən 20–21 qəpiyə tənəzzül edən qiymət mədənçiləri zərərlə işləməyə vadar ediyor, ya yox?..

Bunu bilməkdən ötrü lazım gəliyor ki, neftin mədənçilərin üstlərinə tamam olduğu qiyməti bilmək, bunu isə «Neftyanoye delo» və qeyri statistik məlumatdan anlaşıldığı üzrə 10 qəpikdən artıq güman etmək olmaz.

Hər vaxt və zamanı istərsəniz götürün neftin putu olmayıb ki, 10 qəpikdən artıq mədənçilərə tamam olsun.

Burasını təhəqqüq edəndən sonra mədənçilər və «Sovet syezd»in «Neft mədənçiləri həlakəti» və «dəhşətli kasadlıq» barəsində çıxardıqları dad-fəryad elədiklərinin bilmərrə nahaq olduğu aşkar olar. Neft mədənləri indiki qiymət əskiltisindən bilmərrə «həlakətə uğramaq dərəcə»də zərər görmüyorlar. Hərgah mədənçiləri qışqırdan bir «zərər» və səbəb varsa, o da qabaqda qazandıqları və aldıqları həddsiz mənfəət prosentinin adi bir surətə keçməsidir. Çünki yuxarıda göstərilən hesablar üzərinə neftin indiki qiyməti olan 20 və 21 qəpiklə belə mədənçilər 50 prosent və daha artıq mənfəət götürməkdədirlər.

Söz yox ki, bəzi xüsusi firmalar bu cərgədən kənardırlar. Həqiqətülhal zərər edən bir neçə mədənlər də var. Lakin onların səbəbini ayrıca, xüsusi şeylərdə və öz idarəsizliklərində aramalıdır. Bizim dediyimiz isə neft mədənlərinin bilümum hamısı barəsindədir. Zatən ümumən bir mədəniyyət və ya bir promışlennostun övzai-iqtisadisini təyin edəndə tək-tək idarələri götürmüyüb bərhəmrəftə[1] hamı idarələri alarlar da, tədqiq edərlər: yoxsa zərər edən bir neçə idarələrə müqabil artıq-artıq mənfəətlər götürən firmaları da yaddan çıxarmamalıdır.

Mədənçilərin fəhlələrə nisbət büruzə verdikləri şiddət isə məlumdur. Keçmiş müsaidət günlərində fəhlələr işğal etdikləri bir mövqeyi-siyasidən nə dərəcədə istifadə edir idisələr mədənçilər də indi həman surətlə hazırdakı əhvali-ictimaiyyə və siyasiyyədən istifadə etməyi təxirə qoymuyorlar.

Bu qədərəcən bəyanatdan sonra və mümkün dərəcə tedadi[2]-edad[3] bədində əvvəlki məqaləmizdə vədə verdiyimiz neft mədənlərinə dair nöqteyi-nəzərimizi bəyan edək:

[1] bərhəmrəftə – birlikdə
[2] tedad – sayma, sadalama
[3] edad – hazırlama

Neft mədənləri – ümumən, mədənçilər mənabeindən əxs olunan hesablar üzərinə olaraq hökm etmək olar ki, hərgiz həlakətə uğramıyor və həmçinin neft keçən sənələrə nisbətən hiss ediləcək bir dərəcədə qiymət tənəzülünə məcbur olduğundan naşi «neft mədənlərinin irəlikindən daha artıq mənfəətdə olduğu» barəsində irad olunan təsəvvüründə vahi[1] və əsassız bir şey olduğuna fitva verilir.

Pəs neft mədənlərini bugünkü ğalğəli bir hala salan nədir?

– Neft mədənləri bir dövrü-təbəddüldədir. İrəliki haqsız, hesabsız, əsas və üsulsuz bir yolda həm sərmayədarlar və həm fəhlələr tərəfindən qayət tamahkaranə edilən surəti-idareyi-rəftari qeyri-adi olan caddeyi-tərəqqisindən çıxıb adi əsası və üsulu bir halə düşmək üzrədir. Neft mədənləri ümum Avropa üsuli-iqtisadisi üzrə məişət sürməyə yürümək-dədir. Bu qədər ğələyanlar, bu qədər binagüzarlıqlar, bu qədər küy-kələk və mərəkələr də hər bir dövrü təbəddülə müxtəss[2] – xavassi-təbiilərdəndir.

Bu təbii təbəddülün qurbanı olaraq keçmişdə tamahkarlığı və üsulsuzluğu adət edilmiş «və eninə-uzununa» baxmayıb «şələ bağlamış» olan firmalar adətdən kənar bir haldan, adətli bir hala keçmək yolunda olan bu «təsfiyeyi iqtisad» nəhrində qərq olmağa məhkumdurlar ki, gördüyümüz məğruqlar da bu qəbildəndirlər.

Müxtəsəri bu ki, neft mədənləri adi bir surətdə keçməkdə olub, kasadlıq, həlakət, fəlakət kimi müdhiş şeylər olmadığı kimi keçmişdə olan tamahkaranə mənfəətlərə qayıtdı da yoxdur.

* * *

Neft mədənləri adi bir surətə keçdikdə Avropa üsuli və tərzini qəbul etdikdə mədənlərdə işləyən zəhmətkeşlərin sərmayədaran ilə etdikləri mübarizə də gərək şəklini dəyişdirib Avropa üsul mübarizəsini qəbul eləsin.

Köhnə tamahkaranə mənfəətlərə bir də qayıtdı olmadığı kimi, köhnə üsuli-mübarizəyə təvəssül etmək də qeyri-mümkündür. Bundan belə, neft mədənlərində başqa bir məişət başlanır ki, bu məişətə də fəhlələr gərək özlərini hazırlasınlar.

Bundan sonra gələcəkdə olan zəhmət və sərmayə mübarizəsi böyük təcrübələr, biliklər, ittifaqlar istəyəcəkdir. Keçdi o vaxtlar ki, fəhlə qismi cüzi bir hərəkət və nümayişlə külli şeylərə və tələblərə müvəffəq olurdu. İndi başqa bir zaman gəldi. Başqa da bir üsul götürməlidir.

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 66, 67, 74;*
*1, 2 və 12 oktyabr 1908*

[1] **vahi** – mənasız

[2] **müxtəss** – maxsus



## YERLİ MƏKTƏBLƏR

Yerli qəzetələr vasitəsilə nahiyə maarif müdirinin (Qafqaz popeçitelinin) sirkulyarı elan olunmuşdur.

Sirkulyar xəzinə xərcinə oxuyan uşaqlara məhəlli dillərdən birini öyrətməyi vacib edib və bu vacibliyin əncamə götürülməsini, şagirdlərin xəzinə xərcindən qalması hədəsi ilə təmin ediyor.

Bundan bu yana, bu sirkulyar mövcibilə bütün xəzinə xərcinə oxuyan mütəəllimlər nə ki varsa – hansı millətdən olursa-olsun gərək yerli olan türk, erməni və ya gürcü dillərindən birinin öyrənməyini bilatəxəllüf qəbul eləsin. Bu qaidəyə riayət eləmək istəməyən şagirdə artıq xəzinə xərci verilməyəcəkdir.

Bu sirkulyarı bir tərəfdən baxanda alqışlamaq lazım gəlir. Çünki bu həman tələbatın cüzidir ki, müdam Qafqaz tərəqqiyunları bunu diləyib axtarmaqdadırlar.

Qafqaz məktəblərinə lazımdır ki, öz tərbiyəsinə aldığı övladi-vətəni özünün işlərinə yarayacaq bir bilik və məlumat ilə tərbiyələndirsin.

Buna görə artıq səylər, artıq ciddi-cəhdlər lazım gəldi ki, rəsmi məkatibədə türk dili və yaxud erməni dili, xülasə, ana dili də verilsin. Fəqət indiyə kimi ana dili dərsi məzbut[1] bir qaidə altına alınmamışdır. Məktəblərin çoxusunda ana dili dərsi varsa da, dərsin özü və müəllimlərinin qədr və heysiyyəti yox dərəcəsindədir. Ana dili dərsi o dərəcə bir əhəmiyyətsizliyə düçar olmuşdur ki, hər mütəəllim bilatənbih dərsindən qaçdığı kimi bir çox müəllimlər də artıq bir qeydsizlik büruzə verirdilər və indi də çoxları qabaqkı surətlə davam etməkdə və müəllimliklərini ləng etməkdədirlər.

Nə maarif idarəsi tərəfindən bir himayə, nə müəllimlər tərəfindən bir həmiyyəti-kamalə, nə camaat tərəfindən bir qeydkeşlik görən ana dilinin rəsmi varlığı həqiqi yoxluq dərəcəsinə gəlmişdi. Demək olar ki, hənuz indi də bu haldadır. Qaidədən xaric bəzi məktəblər olsa-olsa bilmiyorum, bilümum ki, bu cürədir.

Böylə bir hamisiz, mühafizəsiz və özbaşına Allaha qalmış yerin dili birdən-birə əhəmiyyət kəsb ediyor. Xüsusi sirkulyar ilə hələ yerli uşaqları deyil, rus uşaqlarına da belə oxudurulması vacib olunur.

Biz deyirik ki, rus uşaqlarına. Çünki yuxarıdakı sirkulyarın surəti-rəsmisi bütün xəzinə xərcinə oxuyanlara aid isə də, tərəfi-həqiqisi ancaq rus mütəəllimlərinədir. Zira, yerli xəzinə xərcinə oxuyanlar onsuz da «yerli dillərdən birini» yerli olduqları üçün oxumağa məcbur idilər.

[1] **məzbut** – tutulmuş, zəbt olunmuş

Bunun səbəbi nədir? Bu qədər bir qeydsizliyə məzhər olan «ana dili» birdən nə oldu ki, bu dərəcədə əziz oldu?

İştə sual.

Maraqlı olan bu sualın cavabını axırıncı vaxtlarda yerli əhalisi arasında oyanmış olan həvəsi-tərəqqiyi-milliyyədə aramalıdır. Axırki vaxtlarda bütün Qafqaz pişrovlarının[1] – erməni olsun, müsəlman olsun, gürcü və digəri olsun, həmının istədikləri əhalinin milli ehtiyaclarına etina olunmaq tələbləri deyilmidir? Həmişə «bizə dilimizi qanan hakimlər verin», «bizi bizim dilimizi, adətimizi, rəftar və kirdarımızı bilən amillər vasitəsilə idarə edin», «camaat üçün açılan mərizxanə, əczaxana və qeyri bu kimi müəssisələrdə camaatin dərdini çox dəfə bisavad olan mütərcimlər vasitəsilə deyil, vasitəsiz anlayıb bilən məmurlar təyin edək» kimi tələblər virdi-zəbanımız[2] olmuyubmu?..

Hökumət bir xeyli zaman bu tələblərə, bu ərizuye-həqiqiyə qulaq vermədi. Daima özünü eşitməməyə qoydu. Əyalət məsələsində, milliyyət bəhsində menşikovlar təhti-nüfuz və məsləkində olan bürokratlar «təmamiyyəti-mülkiyyə» nöqteyi-nəzərindən olaraq, idarəni cahil mütərcimlərə tapşırmağı aqil və qadir yerliyə verməkdən daha əfzəl hesab etdilər.

Yerli əhalidən nə dərəcə qabil olsa da, bir kəsə olduğu yerində, dilini, adətini, rəviş və rəftarını, xasiyyət və təbiətini qandığı əhali arasında məmurluq etmək ixtiyarı verməyib onu özgə bir nabələd yerə təyin etmək kimi, onun vətəninə də qeyri bir nabələd şəxsi təyin ediyorlar. Odur ki, daima Qafqazın məmurları bilümum Qafqaz və qafqazlığından yerli əhalinin dilindən, adətindən, süluk və rəvişindən xəbəri olmayan İçəri Rusiya çinovnikləri olmuşdurlar.

İttifaqən qafqazlı məmur olduqda da öylə etmişlər ki, müsəlman çox olan yerə erməni, erməni çox olan yerə müsəlman təyin etsinlər.

Şərh verdiyimiz bu politikanın nümayəndələri, görünür ki, vaxtı mizanə vurub təqazası[3] ilə iş görmək istiyorlar.

Görünür ki, camaatin daha dərəceyi-kəmalə yetməkdə olan idrak ehtiyacına «güzəşt» etmək istiyorlar. Odur ki, Qafqaz dillərinə dara olan ruslar hazırlaşdırmaq fikrinə düşürlər. Çünki bundan belə yerli dil bilən rus çinovnikləri lazımdır. Böylələri tapılmazsa, yerli əhalinin özündən məmur təyin etməyə məcburiyyət olar. Bu da ki, məlum olduğu üzrə, hənuz padşahlıq fikrinə alışmayıb idareyi-məmləkətə, dara bir millətçi gözü ilə baxan idarəçilərin proqramında yoxdur.

Bizə qalırsa yerli dillərinə maarif nahiyə müdirinin verdiyi əhəmiyyət ehtiyacı rəf etmiyor. Daha artıq nafi və lüzumlu olardı ki, yerli dillərindən biri məktəbin olduğu yerin əhalisinin miqdarına nisbətlə bütün şagirdlər üçün hər kəs olursa-olsun məcburi dərslərdən olub, rus dili dərəcəsində olaydı.

[1] **pişrov** – qabaqda gedən, qabaqcıl
[2] **virdi-zəban** – dilinin əzbəri
[3] **təqazası** – tələbi



Lakin şu məsələ hələlik də həll olunası deyil. Əqəllən[1] bir çox zamandan bəri qanun hökmü ilə yerli uşaqlarına təlim olunan ana dili dərsləri mərtəbeyi-ləyaqətə çatdırılsın. Ən diqqət verməli məsələlərdən biri budur.

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 70, 7 oktyabr 1908*

## TƏLƏBƏLƏR İĞTİŞAŞI

İdarə edən məhafilin[2] trezviləri, virdi-zəbanları olan «əvvəl əmniyyət, sonra islahat» əsas indi özünü göstəriyor.

Universitetlərə verilmiş olan imtiyazat və ixtiyarat geri alındı. Könüllü qız tələbələrin darülfünundan qovulmalarına hökm çıxdı. Rusiyanın neyyiri[3]-ülumi olan professorlara ya «hürriyyəti-milliyyə» firqəsindən çıxmaq, ya da ki, darülfünun kürsüsündən imtina etmək qayeyi-təklifi olundu.

Təbii ki, bu «islahatı» darülfünun və digər məkatibi-aliyyə tələbələri xoşluq və ürək ilə qəbul etmədilər.

Odur ki, tələbələr arasında ğələyan başlanıb, bütün Rusiyada olan universitetlər tətil etdilər.

Maarif vəziri cənab Şvars məkatibi-aliyyə dərslərinin davam olunmasına dair hökm verdi və professorlar bu hökmü müzakirə edib də qət etmişlər ki, vəzir hökmünə baxmayaraq darülfünunlar (universitetlər) bağlı qalsın. İstədikləri odur ki, onların imtiyazatına əl dəyilməsin.

Bu yaxında açılacaq Duma görək ki, bu məsələ xüsusunda nə edəcək. Görək ki, 3 ay tətil ərzində vilayətdə olub əhali ehtiyac və xahişini, rəyül-eyn[4] görüb bilən oktyabristlər hankı tərəfə meyil edəcəklər? Firqələrindən daha solda qalan 17 oktyabr manifestinə, yəni ki, sərmənzili-məntiqiyyələri olan Pleve dövrünə?..

Burasını gələcək özü bildirər. İndi isə biz ancaq deyə bilərik ki, Rusiyanı almış ətalət, deyəsən, bir qədər gücdən düşüyor.

Əvət İran və Osmanlı hərəkatı Rusiya hərəkati-kübrasının təsiri olduğundan, o təsirin əks sədasını eşitmək qanuni-təbiidir!

**M.Əmin**
*«Tərəqqi», № 71, 8 oktyabr 1908*

[1] **əqəllən** – ən azı
[2] **məhafil (məhfil)** – yığıncaq yeri, məclis, dərnək
[3] **neyyir** – işıqlı, parlaq
[4] **rəyül-eyn** – öz gözü ilə görmək

## NƏ ETMƏLİDİR?

«Məclisi-milli»nin talana gedib, vükəlayi-millət qəhr və qəzəbi-zöhhakiyə giriftar olduqlarından İranın səadətinə bağlanan bir çox ümidlər pozuldu. O qisim tarixdə misli görünməyən bir zülm və ğədrə[1] müqabil İranın sakitanə baxması və bir az sonra Təbrizdə baş verən etirazi-milliyyəyə özgə vilayətlərin xamuşana bir hal ilə əlaqədə bulunmalarını, böyük bir dəhşət sayəsində ətaləti-qəhriyyəyə uyumuş olan əhaliyi-İranı görən mücahidini-məşrutə batdı. «Bu yaxında artıq bir şey etmək olmaz», – deyə böyük bir ziştbinə uyub İranı tərk edib və Avropaya gedib oradan yeni türklər kimi təşəbbüsatda bulunmaq fikrinə düşdülər. Tağızadələr, Mirzə Əbülhüseyn xanlar və qeyrilər, bu yavuqlarda da durmayıb Londona (!) mülahizat diplomatikasından naşi (!) hürriyyətə, ələlxüsus islam məmalikinin hürriyyətinə müsaid olan Temza sahilinə ezam olub ordan İrana kömək etmək fikrinə düşdülər.

Mücahidini-millət və fazilini-vətənin yaxın bir vaxtda İrana xilas olmaq mümkün olmadığını zənn edən böylə bir ziştbinliyə giriftar olduqları halda, Təbriz ərseyi-həmiyyət-məndanəyə qədəm-əndazə oldu. Qədəməndaz oldu da namе İrani səfheyi tarixləkədar etməkdən mühafizə edib bütün aləmi-mədəniyyətə bildirdi ki, iranlılar kəmalınca qədri-hürriyyəti bilib, camaat hüququ yolunda can belə qoymağa hazırdırlar. Bütün ziştbinlərə müzəffərانə bir sürətdə bildirdi ki, onlar böyük səhv etmişlər.

Təbriz vaqiatını oxuyanlara və bu vaqiatı-müzəffəranə və məqtəhənənin[2] sayəsində İranın Mazandaran, Girman və bu kimi əyalətlərində və hətta Tehranın özündə zöhhaki-əsrin paytaxtində belə camaat həyəcanı meydana çıxdı. Bir o qədər giclik və qəddarlıq göstərən şahın özünün – verilən xəbərlərə inanılarsa – verdiyi axırıncı fərmanından üdul[3] edib təcrübədidə bir müəllim təbliği ilə fəsx[4] etmiş qanuni-əsası və üsuli-intixabı iadə etməyə əmr verməyə məcbur etdi.

Surəti-kar bütün bütünə dəyişdi!

Bu vaxtadək bir taqım əcəlaflar tərəfində olan qüvveyi-zahirini, necə ki, gözləmək lazım idi, qüvveyi-milliyyə basdı. İqbali-zəfər millət tərəfinə keçdi!

İndi nə etməlidir? İndi övci[5]-qələbəyə qalxmaqda olan millət hərəkatına rəhbərlik etmək gərək. Fəth və qələbəyə məğrur olub üsuli-mübarizə və tələbati əldən buraxmamalıdır.

İndi bir hücumi-nagəhani saiqəsi ilə bədbinliyə giriftar olaraq vətəndən uzaq düşmüş olan əhrari-millət və mücahidini-hürriyyət hər yerdə varsalar «əllərində su da olsa» qoyub İrana kömək etmək üçün tələsməlidirlər. İran üzünə açılmış olan bu babi-zəfərə çatmağı yalxu bir Səttarxani-salar biliqtidarın mücahidə və şücaəti və Təbriz əhalisinin qüvveyi-qeyrət və həmiyyətməndanəsinə tapşırmaq onlardan ötrü ağır və müşkül olar. Bu saətdə meydani-mücahidə də cangüdaz olan bu qəhrəmanlara mənəvi köməkçilər lazımdır ki, bu vəzifəni də Avropaya qaçmış olan Tağızadə kimi vükəlayi-millət gərək dəröhdə edələr.

Onlar gərək öz fəzail və bilikləri İran övzaına[1] olduqları bələdiyyət və idrakları və qeyri millət və dövlətlərin tarixlərinə olduqları aşnalıqları ilə və millətin bugünkü mübarizəsində rəhdar olsunlar.

«İndi nə etməlidir?» məsələsinin başqa cəhətlərdə cavabı nə olacağını bir ayrı vaxta buraxaraq indi ancaq bunu deyə bilərik ki, hərgah tarac və yağmayə getmiş məclisi-milli vükəlası İrana kömək etmək, İran millətini müzəffər görmək istəyirlərsə, Temza kənarlarını buraxıb Kaspi sahilinə azim olmalıdırlar!

**M.Ə.Rəsulzadə**

*«Tərəqqi», № 72, 9 oktyabr 1908*

## VƏHŞƏTİMİZƏ PAYAN GƏRƏK

Bakı müsəlmanları arasında nəahlkəslər əlinə düşən dövlətdən naşı büruz edib «tarixi bir adət» şəklinə düşən, əslində isə qara mazutun yer altından fəvvarəvar bir surətlə çıxıb dənilərin[2] cibini pul ilə doldurduğu bir anda, beyinlərini də kibrü[3]-qürur, dəhşət və vəhşətlə doldurmadan hasilə gələn qoçubazlıq təsəvvür olunmayacaq bir dərəcəyə yetişmədədir ki, Bakıda müsəlmanların diriliyini dəhşətli bir şəklə salıb qan dəryasını təsvir etməkdədir!

Rus müsəlmanlarının mərkəzi olan Bakıda cəhl və qürur nəticəsi olan xunxarlıq o dərəcə tərəqqi etmiş ki, Bakıya səyahətə gələn özgələr öylə xəyal edə bilərlər ki, bu qədər səffaklıq[4] bizim ruhumuzda və təbiətimizdə qoyulub etiqad etdiyimiz islamdan nəşət ediyor. Halonki bu qədər bir qəddarlıq və bu qədər zalımlıq və qanunsuzluq özgə islam məmləkətlərində olmuyub, ancaq Bakıya müxtəss olan bir barbarlıq məfövqi təsəvvür olunmayan bir vəhşətdir!

İştə bu sətirləri qaralayarkən düşünüyoruz. Lakin küçədə qalxmağı möhtəməl ola bilən bir dəhşət və küy-kələk sayəsində düşüncəmizin, təfəkkürümüzün pərişanlığa mübəddəl olub fikirsiz qalmayacağımızı, biçarə

[1] ğədr – dönüklük
[2] məqtə – qəzəlin təxəllüs olan beytdən qabaqkı beyti
[3] üdul – üz çevirmə
[4] fəsx – pozma
[5] övc – ən yüksək nöqtə

[1] övza – vəziyyətlər
[2] dəni – alçaq, rəzil
[3] kibr – lovğalanma
[4] səffak – qan tökən

müsəlman övrətinin nəvazişlə bəslədiyi balasının cənazəsi üstündə ürək parçalayan bir səyhəyi-əlimə[1] ilə «oğul vay» naleyi-məzlumanəsindən təsəvvürsüz qalmayacağımızı hansı təşəbbüs, hansı iqdamat təmin ediyor?!

Bu vaxtadək gördüyümüz, qeydsizlik bizi böyük bir yasa düçar ediyor, naümid buraxıyordu!!.

Lakin cənab qradonaçalnikin bu nömrəmizdə dərc etdiyimiz qərardadı bizə bir növ təsəlli verdi.

Qradonaçalnik həzrətləri oktyabrın 10-da verdiyi xüsusi elamnaməsilə Bakı müsəlmanlarının bu axırıncı günlərdə Bakıda və yay vaxtı ətrafı-seyfiyyələrində göstərdikləri asari cəhalət olan qan tökmələrə işarə edərək, o cümlədə buyururlar ki, «... müsəlmanlardan başqa bir çox xristian və qeyri millət əhalisi olan bir rus şəhərində, bütün əhali gərək rus dövlətinin qoyduğu qanunlara tabe olub xudsərlik etmək və özgə rus vilayətlərinin bilmədiyi adətləri icra etmək yaramaz. Yüz minlərcə zəhmətkeş əhali və onların ailəsi olan bir yerdə müqatilə, atışma və quldurluq ola bilməz».

Doğrudan da, biz rus dövlətinin vətəndaşları olub da Rusiya qanunlarına əhəmiyyət verməliyik. Bizdə bir hissi-qanuniyyət olduğu hər vaxt nəzərdə tutulub, camaatimiz bu yolda tərbiyə olsun gərək.

Əcəba, biz eləyə bilərmiyik ki, az vəhşət və başpozuqluğumuzla bütün ətrafımızı bezar edək!!.

Əcəba, vaxt gəlmədi ki, etdiyimiz bu həqarətamiz «intiqamlara» bir intiha qoyaq!!.

Bir baxınız, ey əhaleyi-müslimin! Bir baxınız, görünüz ki, bizim cəhalətimiz və «intiqam» adı verdiyimiz dərəndəliyimiz nə dərəcəyə çatıb ki, hətta hökumət kişiləri belə o gümanə düşürlər ki, guya, bu adət bizə ata-babamızın adəti olaraq yüz il irəlidən qalan bir irsdir. Halonki bizlərə yaxşıca məlumdur ki, yüz il bundan irəli bizim ata-babalarımız bu qədər cinayətlərə heç bir halda məzhər olmamışdır. Məişətimizi qanlı bir dərəcəyə vardıran səbəblər isə ədna təbili əfradımızın bir təsadüfi-iqtisad olaraq əllərinə keçdikləri pullardır ki, gərəkli mövqeinə xərc edəcəkləri əvəzinə, biri-birlərini puç etmək, bir-birlərinə təşəxxüs satmaq, biri-birlərinə «təfəvvüq[2] etmək» qəsdilə qoçubazlığa, qan tökməyə sərf etməyə başladılar.

Qradonaçalnik həzrətləri bütün müəllimlərə, ürəfaya, üləmaya bu qanunsuzluqları rəf etməkdə kəndilərinə kömək etməyi və bu yolda əhaliyə lazım olan məvaiz və nəsihətlərdə bulunmalarını tövsiyə və təbliğ etdikdən sonra canilərin və onlara hər bir surətlə olursa kömək edənlərin hərbi məhkəməyə verilmək, nəfyi-bələd[3] etdirilmək və bilümum şiddətli cəzalara alınmaq ilə tənbeh olunacaqlarını elan ediyor.

---

[1] səyhəyi-əlimə – dəhşətli qışqırıq

[2] təfəvvüq – üstün olma

[3] nəfyi-bələd – ölkədən sürgün etmə



Əvət, bu tənbihat lazımdır. Caniləri mükafatsız buraxmaq olmaz. Bu dərəcədə artmış olan qoçubazlığın bir səbəbi də həman canilərin və cinayətlə məşğul olanların tənbehsiz qalmalarıdır.

Bu gün bir neçə nökəri hədəf güllə edib, sabahı bulvarda, pasajda, bağda gəzməyinə bir dərəcə əmniyyət kəsb edən qoçu, təbiidir ki, öz «asan» sənətindən və cəzasız günahından əl çəkməz.

Hərgah qradonaçalnik həzrətlərinin indi etdiyi bu iqdamatına bir on il bundan qabaq iqdam olunsaydı, söz yoxdur ki, şahidi olduğumuz bu cinayətlərin onda doqquzundan təmin olunardıq!..

İştə şəhərimizin əmniyyət və salaməti, əhalimizin rəfahət və səadəti adına olaraq qradonaçalnik Fulbaum həzrətlərinin bu elanını alqışlayaraq bütün əfradi-millətimizə, ələlxüsus üləma və ürəfamıza tövsiyə və təklif ediyoruq ki, bunsuz da borcları olan vəzifələrini icra etmək həmiyyətinə gəlsinlər!..

Əvət! Bütün var qüvvəmizlə müttəhid, müttəfiq olub bizi istila etmiş olan hər qisim vəbadan, taundan daha müdhiş olan bu bəla ilə mübarizə etməliyik!!

Haydı vətəndaşlar, haydı qardaşlar iqdam edək! Bir daha bu surətlə yaşamaq yaramaz.

Həddü-dərəcəni ötmüş vəhşətimizə payan gərək!!

**M.Əmin**

*«Tərəqqi», № 73, 10 oktyabr 1908*

## EYDİ-FİTR* MÜNASİBƏTİLƏ

### İŞSİZ

Bayram günüdür...

Müsəlmanlar namazdan qayıdıb hərə bir tərəfə gediyor idilər. Məşədilər, hacılar, kərbəlayılar kimisi evinə, ailəsinin yanına gedib onlar ilə birlikdə bayram etməyə çalışır. Kimisi də konka olan küçələrə enib Bayıl vaqonun gözliyordular. Fayton çağıranları da az deyildi. Bibiheybətə tələsirdilər. Bir dəstə cavan müsəlmanlar öz aralarında məsləhətləşirdilər, kimisi deyirdi ki, «Qrivkaya»[1] gedək, kimisi: «bu gün «Nicat» teatro qoyur, sürün oraya» deyərək yönəlirdi.

Hamısının simasından bu günün bayramı olduğunu açıq anlamaq olardı. Müsəlman məhəllələrində nüdrətlə[2] görünən bir həyat var idi...

Hamı özünü bu gün birər məsud hesab ediyordu. Bəzi üstü-başı bəzəkli olan ərbabi-dövlətin sifətlərindən məlum olurdu ki, bu gün üçün artıq tədarüklər görmüşlər!..

---

* eydi-fitr – orucluq bayramı

[1] «Qrivka» (Qriva) – mənası uzun saç. Bakıda əyləncə yerlərindən biri

[2] nüdrətlə – nadir hallarda

– Bizə gedək, yaxşı süfrəmiz var.

– Yox, buyurun, bizə, sizə bir gözəl qonaqlıq verəcəyəm!

Bu minvalda söhbətdə olanların ürəkdən şad olub ehtiyacsız olduqlarına, dünyada möhtaclar olmadığına inandıqlarına, daha doğrusu, yadlarından çıxartdıqlarına laqeydanə qəhqəhələri şəhadət ediyordu.

Qapılar ağzında allı-bəzəkli, irili-xırdalı uşaqlar idi ki, çıxıb qapıda atalarını gözliyordular. Bir az irəlidə əlində pay və bəxşeş olan atanın üstünə, pərvanə şam üstə yığışan kimi götürülərdi.

Xülasə, böyükdən kiçiyə kimi hər kəs özünü məsud hesab ediyor, hər kəs dünyadan razı kimi görünürdü.

Bu arada ancaq Məşədi Qulam qəriqi-fikir idi, yol ilə gediyordu... Amma hara getdiyini, deyəsən, özü də bilmiyordu...

Bu adama bayram təsir etmiyor kimi görünürdü. Daha doğrusu, qeyrilərə olan bayram təsiri buna əks halda əsərbəxş oluyor, onlarda olan şadlıq, fərəh, bunda birə on qədər artıq olan kədər və qəmə, qüssə və ələmə mübəddəl olub, onlar bütün aləmə sənaxan[1] bayram münasibətilə xəndan görünürkən bütün aləm və mafihayə[2] nifrətxan və bu gündən nalan idi...

Səbəb nə idisə dövrəsində olan başaşətə[3], zərafət və xoşhallığa Məşədi Qulam şərakət etmiyordu. Şərakət etmiyordu səhlidir. Hərdənbir göz qiyqacı ilə ətrafına olan qəhr-alud[4] baxışı dövrəsindəkilərdən acıqlı olduğuna işarə edirdi.

Məşədi Qulam başın aşağı salıb qayət mükəssəranə[5], təfkiranə bir hal ilə yol gediyor və hərdənbir qeyzli və qəmgin gözlərini qalxızıb ətrafındakı laqeydanəliyə bir nəzəri-qəhr ilə baxıb qüvvətsizlik əlaməti olan dərin-dərin, soyuq-soyuq ahlar çəkirdi...

Məşədinin qiyafəsindən görünürdü ki, o hər nə isə yalqız öz dərdini çəkməyib müdrikanə bir yolda özü kimi bir çox düçari-fəlakət olanların, özü kimi böyük bir qisim özgələri bayramlı edib də özləri bayramsız deyil, çörəksiz belə qalanların fikrin ediyordu...

* * *

Soyuqdan əfil-əfil əsən iki xırda uşaq və bir 9 yaşında qız qapıda durub yol gözləyirdilər... Uşaqların ən kiçiyi o birilərinin üzünə baxıb şadlanaraq dedi:

– Bax, bu gün bayramdır, keçən illər kimi indi dədə gələcək, bizə pay gətirəcək.

– Hə, mən istərdim keçən bayramda bacıma gətirdiyi gəlindən bir dənə də mənə gətirəydi.

[1] **sənaxan** – duaçı
[2] **mafiha** – anda olanlara
[3] **başaşət** – sevinc, şadlıq
[4] **qəhr-alud** – kədərli, qəhərli
[5] **mükəssəranə** – sınıqlıqla



– Nh, mənim yazmağa qarandaşım yoxdur, mənə qarandaş gətirəcək!..

– Qardaşlarım, anamız evdə acdır, hələ bu çağacan iftar açmamışdır. Siz istiyin ki, atamız yeməli bir şey gətirmiş olsun...

– Aha, dədə gəlir, – deyə balaca bala uzaqdan görünən Məşədi Qulama sarı yüyürdü. O biriləri də onun dalınca yüyürüşdülər. Çatıb atalarına sarıldılar.

– Dədə, hanı mənim qarandaşım?

– Mənə nə aldın?

– Anama çörək gətirmisənmi? – deyə biçarəni bu tövr suallar ilə araya aldılar...

Məşədi Qulam bir tövr ilə xuddarlıq eyləyib ağlamadı. Qorxdu ki, ağlasa balaca uşaqlara həddən ziyadə zülm etmiş olar. Özünü şad göstərməyə artıq zor eyləyib dedi ki:

– Balalarım, hamısı olar, ancaq indi işsizəm. İş taparsam sizə yaxşı bayramlıqlar alaram.

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 76, 14 oktyabr 1908*

## İRANDAN BİZƏ YAZIRLAR

Eynüddövlənin müvafiqlərindən olan Şücai-Nizam Mərəndi işğal etmişdir. Culfa yolu onun nəzarətinə düşüb heç kəsi əvvəldən rüsxət olmamış buraxmıyorlar. Mərqum[1] başına quldurlar cəm edib kəndləri talan, məxluqı yağma ediyor. Onun bir ədəd topu və yüzə kimi müsəlləh quldurları vardır.

Təbriz altından qaçdığı zaman Şücə bir nəfər gürcünü tutmuş və bir çox cəfa və əziyyətdən sonra məzkuri öldürmüşdür. Mərqum qafqazlılara artıq dərəcə intiqam ediyor. Gürcülər ilə ədavəti dərəceyi-xüsusidədir. Diyor ki, «onlar bizə bomba atırlar, gərək onları hər yerdə varsalar həlak edək». Bu günlərdə Şücai-Nizam tərəfindən bir nəfər Triadze adlı gürcü tutuldu.

Şücə onu öldürmək istədi. Amerika konsulu burada ikən məzkurə mühafizədə bulunmadı... Şücə onu öldürmək istəmişsə də, müşar ileyhi qəhrəmananə surətdə qaçıb özünü o vəhşinin cəngali-ğədrindən xilas etmişdir.

Təbrizlilərə və Səttarxana xəbər verilibdir ki, bu xüsusda konsulun rəftarına protesto edilsin. Aldığımız xəbərlərdən anlaşılır ki, təbrizlilər konsulun bu hərəkətindən mütəhəyyic olmuşdurlar.

Rus konsulu Şücai-Nizama tərəfdar kimi görünür. Şayələr var ki, şah İngiltərəyə qaçmaq istəyir.

**M.Ə.**
*«Tərəqqi», № 76, 14 oktyabr 1908*

[1] **mərqum** – adı yuxarıda çəkilmiş

## XEYRİYYƏ VƏ MAARİF CƏMİYYƏTLƏRİMİZ

«Tərəqqi»nin keçmiş nömrələrinin birində erməni mədəni ittifaqının görmüş olduğu ali təşəbbüsatlarının fədakaranə işlərinin müxtəsərən hesabı və ehsası göstərilib idarədən yerində olaraq acı həqiqətlə məmzuc[1] bir sual verilmişdir.

İdarə bütün Qafqaziya erməniləri arasında olan qüvayi-mənəviyyə və maddiyyəni cəmləyib xeyratkarlığa əvvəlinci lazım olan ittihadi əmələ gətirib, o ittihadi-qavibünyad əsasi üzrə qurulan erməni mədəni ittifaqının, maarif, teatro, zəmindarlıq, ziraət, mətbuat, tədbiri-səhiyyə və müavinəti-tibbiyyəyə camaəti zəlami-cəhldən qurtaran ümumi qiraət və xitabələrə dair və sənayeyi-nəfiseyi-ələsinə münhəsir müxtəlif və kəsirül-misal şüubatının gördüyü fədakarlığın bizlərdən ötrü bir dərəcə heyrətdə olaraq tərəqqi etmiş olduğunu tedad edib də müsəlman əhalisinin tək bir Bakıda ədədi dövrdə varmış olan maarif məclislərini, «Nicat», «Cəmiyyəti-xeyriyyə», «Nəşri-maarif» və «Səadət»i nəzəri-tənqidə alıb hamısının bərabərlikdə erməni mədəni ittifaqının çərəyicə iş görəmədiklərini mülahizə edib də «əcəba, bizim cəmiyyəti-xeyriyyələrimiz nə etmişlər?» – sualibicasını veriyor.

Bizim cəmiyyəti-xeyriyyə və maarifkaranələrimiz nə etmişlər?!.

Bu suala cavab olaraq, başqa bir sual ilə ibtidai-məqal etmək daha yerli olar.

Zira, məncə, bizim cəmiyyətimizin gördükləri işlər meydanda, zatən bayram günü şəhərin müxtəlif yerlərində, müxtəlif zallarda, teatrolarda açılan məclisi-təşrif və rautlar qurulan teatr və bufetlər bu karkünanlara bir işarə deyilmidi?

Əvət, bu işarət aşkar surətdə göstərir ki, camaat üçün işləyən erməni mədəni cəmiyyətinin işlərini görmək istəyənlərimiz yox deyildir.

Lakin səbəb nə isə bu işləri bir yerə mərkəzləşdirib bunlarda parça-parça olunan qüvayi-maddiyyə və mənəviyyələri bir yerə bitişdirmək əvəzində xırda-xırda olunur və bu cəhətdən də qonşularımızın bütün, böyük və görkəmli əsərlərinə müqabil bizim işlərimiz hamısı xırda-xırda kimi nəzərə gəlir. Həqiqətən də, xırda-mırdadır. Çünki bir çox xırda və kiçik qüvvələr madam ki, cəmləşməyib, madam ki, nəşri-maarif və mədəniyyəti-əvam və imrani-vətən kimi böyük işləri görməyə bizdə kooperasyonluq əlbirliyi ilə iş görmək yox, ancaq tərəf-tərəf çəkilib parçalanmaq vardır, madam ki, Krılovun hekayəsində olduğu timsal kimi hərəmiz bir yana çəkəcəyik, o halda – dövri-çərxeyi-mədəniyyətimiz həman yerində qalacaq, hərəkətə gəlməyəcəkdir.

[1] **məmzuc** – qarışıq



Mən məsaili-iqtisadi və siyasidə nə qədər tərəfdari «ixtilaf» və «mübayinət»[1] olsam da, maarif və mədəniyyət işində bu ixtilafa və «mübayinətə» müsəlmanların indiki övzaından haşa[2] tərəfdar deyiləm. Zira, cəmiyyəti-mədəniyyənin qəsdi bir sinfi-müəyyənə xidmət etmək deyil, bilümum bütün möhtacini-mərifəti milləti nail bekam etməkdən ibarətdir.

«Nəşri-maarif», «Nicat», «Səadət» – hamısının məqsədi nəşri-savad və maarif etmək deyilmi? Hamısı çalışmıyormu ki, «milləti qabağa» aparsınlar?

Madam ki, öylədir, bəs niyə aralarında ittihal yoxdur, bəs niyə bir yerə cəmləşib «müsəlman mədəni ittifaqı» əmələ gətirmiyorlar?

Camaatimizin maarifə olan ehtiyacı günü-gündən artır. Mədəniyyət kəsb etmək və qonşulara çatmaqda olunan sürəti-qədəm get-gedə çoxlaşır. Bu günlər ehtiyac o dərəceyi-təkəllümə çatmışdır ki, ayrı-ayrı olmuş mövcud cəmiyyətlərimiz o ehtiyacın öhdəsindən gəlmək imkanından xaricdirlər.

Yetim və səfilani-cəhalət olan xırda uşaqları görür, bizi kabus müdhişlə əhatə edən cəhalətin səmərəyi-canəndazı olan küçə qitallarına şahid olaraq da, bütün qüvvəsi ilə üstümüzə şığıyan bu bəlanın dəfi üçün bütün qüvvəmizlə də müqabilə etmək əvəzində firqə-firqə olub ayrı-ayrı meydana çıxarız.

Bütün müsəlman xeyriyyə və maarif cəmiyyətlərinə ümummillət maarifi və tərəqqisi naminə lazımdır ki, saheyi-ittifaqa qədəməndaz olub, ayrı-ayrı işləməyi buraxıb birləşsinlər!

Məsələnin əsası olan bu cəhətini meydani-müzakireyi-mətbuata atıb təfriqat və təfsilatını bəyan etmək üzrə sonradan qələm sürəcəyimi elan ilə, bütün ərbabi-qələmdən, ələlxüsus Bakıda olan müsəlman cəmiyyəti nümayəndələrindən xahiş ediyoram ki, bu məsələyi-əsası barəsində öz nöqteyi-nəzərlərini bəyan buyurub, bu məsələnin həllinə girişsinlər.

Mənim nəzərimcə, atidə başa gəlməsi möhtəməl olan «islam mədəni cəmiyyətinin» əsası gərək aşağıdakı əsas üzərində qurulsun:

1. Ümumbəşəriyyət nöqteyi-nəzərindən nəşət edən və mümənnəyihaliyə, əsri-mədəniyyəyə müştəməl olan tərəqqiyə müvafiqət;

2. Bir idarə və ya bir kassa olduğu ilə bərabər cəmiyyətin müxtəlif şüubatı olmalı və bu şüubata gördükləri işlərinə imtiyaz verməkdə ədəmi-mərkəziyyəti əsas ittixaz etməli;

3. Ol kərdə «nəqdiyyə», «məkatib», «mətbuat», «sənayei-nəfisə» (teatro, rəssamlıq və qeyrə) şüubatının təşkili vücubatdan ədd edilməlidir.

Mən «Nicat» maarif cəmiyyətinin sədri olduğum halda bu fikrimi qeyri-rəsmi surətdə mənimlə işləməkdə olan yoldaşlarıma nəql və fikrimin nə yol ilə əmələ gətiriləcəyini təfsilən bəyan etdikdə onların bir çoxu mənim bu fikrimə şərik olur və təhsin ediyordular. Nəşri-maarif əzalarından bir neçəsi ilə bu xüsusda müsahibədə bulunduq cavabi-məmul aldıq.

[1] **mübayinət** – uyğunsuzluq, ziddiyyət [2] **haşa** – qətiyyən, üzdəniraq

İndi baxalım ki, qeyri-ərbabi-həmiyyətməndanımız cavanani-karvanımız və pirani-cavan fikrimiz bu təklifə nə yolla baxacaqlar?! İştə gəlin də müzakirə edəlim. Müxalifəti-əfkarımızdan qorxmamalı, təsəvvürümüzü açıq söyləməlidir.

Çünki

Çıxar asari-rəhmət ixtilafi rəyi ümmətdən. Və «təsadüfi əfkardan bariqeyi-həqiqət doğar».

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 78, 17 oktyabr 1908*

## HARDA QALDILAR?

İranın əhvalı bir ayrı surət aldı.

Təbriz indiki fəthindən sonra səngərlərini möhkəmləndirməkdə və səflərini düzəltməkdə, sürsət hazırlamaqda bir an qəflət etmiyor...

Ətrafi-cəvanib və həvalidən İranın qeyri inqilabçı əyalətlərindən müttəsil köməkdir ki, Səttarxana gəliyor!..

Hələ Qafqazdan axıb gələn köməyin təbrizlilərə nə dərəcədə bir müsaidət verdiklərindən danışmaq istəmiyoruz.

Bu köməklərə üstəlik olaraq bir də Nəcəfül Əşrəf müctəhidin giraminin müqəddəs və ruhanilərə layiq olan fitvalarını əlavə edək ki, bu fitvalar hər bir top, tüfəng və bombadan daha müdhiş, daha qorxuludur. Bir icbariyyəti-fövqəladə ilə Təbriz üstünə göndərilən Lyaxov tərbiyəkərdələri olan İran kazakları yoldan özlərini qaçırdıb görün nə diyorlar:

«Müctəhidlər» onların tüfənginə xeyir-dua vermişlər. Nəcəfdən onlara ismi-əzəm duası göndərilibdir. Ora bir karur[1] da qoşun göndərilsə geri qayıtmaz!»

Təbriz bu sayaq ilə hazırlaşmada və üzərinə gəlməkdə olan hücumları gözləməkdədir!..

O biri tərəfdən şah öz büğz[2] və kinindən əl çəkmək istəmiyor. Axırıncı pənahgahı olan Lyaxov tərbiyəkərdələrini Təbriz üstünə göndərib onlara da «əcsi-bidin-babilari» kimi ədəb əmr veriyor və diyor ki, «axırıncı ümidimiz sizədir. Siz gərək öz rəşadətiniz sayəsində olaraq taxt və tacımı qabaq ki, rövnəq və təntənəsilə bərdəvam edəsiniz!..»

Briqada kazakları nə yola, tövr ilə düşüb necə bir həvəslə Tehrandan çıxıb, nə səmimiyyəti ilə Təbrizə azim olduqlarını bilmək istəyənlər dünənki nömrəmizdə «İrana dair» qismində «Təbrizə səfər» ünvanı altında «Novaya rus»dan tərcümə elədiyimiz məqaləni oxusun, görsün necə ki, bir şeyin, necə bir təhqiri-nəzər və məyusiyyət təsiri altında

[1] **karur** – bölük
[2] **büğz** – qəzəb, kin



olaraq kazaklar yola düşmüşlərdir. Tamaşa etsinlər ki, bütün kazaklar xəcalətdən başlarını yuxarı qozaya bilməyirlərmiş. Əlbəttə, camaatın qəzəbi səttarxanlıların məharəti biyar ilə davaya göndərilənləri böylə hala salmayıb bəs nə olacaqdır?

Hər bir hal ilə olsa da, bir azdan sonra Təbriz başında təzə qovğa açılacağı şübhədən xalidir. Hərgah bu dəfə də Səttarxan qalib gəldi, hərgah məscidi və məclisi dağıtmaqda, mücahidini-millət vükəlayi-camaatı talan və qətl etməkdə şöhrət qazanan Lyaxovlular da təbrizlilərlə bacarmadılar, o halda şah daxi həyatından göz çəksin, taxtından, hökmündən, diriliyindən, hər bir şeydən əl çəksin!

Lyaxovlular bu sürətlə Təbrizə getməkdədirlər. Onlar ilə bərabər pulemyot, neçə batareya top və bir çox patronlar da aparılıbdır. Hökumət əmirliyindən savayı böyük bir mülkədar olub öz əmlakını mühafizəyə məcbur olan Eynüddövlə nə qədər qorxaq olsa da, böylə bir hücumu gördükdə yenə də qələbə tamahına düşüb intiqam qəsdinə gələcək və rəhimxanlıları, bəxtiyarları və bu kimi həşəratı dübarədən başına yığacaqdır. Bu xüsusda teleqraf və xüsusi xəbərlər daxi məlumat verməkdədirlər.

Hər iki qüvə böyüyür, heybətlənir. İrəlidə bu iki qüvvə biri-birinə toqquşub vaxim[1] bir iştial[2] əmələ gətirəcəkdir!..

İranın əhvalı daireyi-Təbrizdə bu surətlə idarələnərkən başqa diplomatiya xəbərləri daxi dövran etməkdədir. Osmanlı, guya, Azərbaycanı istila edəcəkmiş. Bu cəhətdən Rusiyanın İngiltərə ilə elədiyi müahidəsinə görə Osmanlının diş qıcadığı yerlər Rusiyanın təhti-nüfuz və himayəsində olduğundan naşi, Rusiya bu qəsdə mümaniət edəcək və aralarında müsadimə olacaq və İranın daxili işlərinə müdaxilə ediləcək kimi müştəbeh xəbərlər dağılıb, qəzetlərdə görünür ki, bu cəhət İran işlərinə bir daha çətinlik verir, bir daha məsələni qarışdırır.

Böylə bir mühüm məsələnin həlli üçün təbrizlilərə lazımdır ki, qüvveyi-hərbiyyeyi-nariyyəyə dara olduqları kimi, bu dolam-dolaşıq siyasət və diplomatiya məsələlərinə aşina olub onlara etilaf verə bilən qüvveyi-mənəviyyəyə də dara olsunlar ki, vətəni ikitərəfli mühafizə qılsınlar: həmi daxili düşmənlərdən, həmi də xarici tənələrdən.

İştə, görünür ki, səttarxanlılar bu cəhəti düşünmüşlər, düşünmüşlər ki, xaricdə olan alim və fazil iranlı mühacirlərinə Səttarxan tel vurmuşdur ki, vətənin bugünkü ehtiyaclı günlərində öz əql və təcrübələri ilə, bilik və fazilləri ilə ona kömək etməyə tələssinlər.

Bu məsələ xüsusində «Tərəqqi»nin keçmiş nömrələrinin birində «Nə etməlidir?» sərlövhəsi altında yazdığımız bir məqalədə biz Londona, Parisə və qeyri Avropa paytaxtlarına qaçmış olan iranlıları həmin bu

[1] **vaxim** – güclü
[2] **iştial** – şölə, alovlanma

qəsd üçün çağırmışdıq və bunu da bilirdik ki, bizim bu səsimizə İran məhafili-siyasiyyələri həmsədə edilər. Lakin bu vaxta kimi bir şey, bir əsər çıxmamış, harda qaldıqlarından bir xəbər alınmamışdır...

Səttarxan, İran istiqbalının təmsali-mütəcəssimi olan o Səttarxan mənəvi köməklər istiyor, xaricdəki inqilab üqəla və ülaməsını dəvət ediyor.

Pəs məduvvinlər[1] harada qaldılar?!

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 80, 20 oktyabr 1908*

## BAKI BƏNDƏRİ

Bakı bəndəri malüt-ticarənin ümdə nöqtələrindən biridir. Bu rahi[2] fabrika mallarının və həmi də işlənməmiş xam mətaın cərəyanı və rəvacı üçün bir mərkəzi mühümdür.

Düyü, xoşgibar, yun, pambıq və bu kimi şeylər İrandan və Zakaspiyski kraydan gəlib burada işə verilir və İçəri Rusiyaya göndərilir. Fabrika, zavod məhsulatı, qənd, manufaktura malı, taxta, şalban, züruf[3], un və qeyri bu kimi şeylər Mərkəzi Rusiyadan alınıb baş su yolu olan Volqa çayı vasitə və Kaspi dəryası ilə buraya gəliyor və buradan da İrana və Qafqazın qeyri içəri şəhərlərinə satılmaq üçün ötürülür.

Bakı bəndərində iki qisim gəmiçilər işləməkdə və bu malüt-ticarəni daşımaqdadırlar. Bunlardan əvvəlincisi yaxşı surətdə tərtib olunmuş və bu dərəceyi-mühümmədə olaraq malüt-ticarənin qaidə üzrə aparılmasını təmin edən vasitə dara və əsbabi-mühəyya[4] olan böyük gəmiçi şirkətləridir ki, bunların cümləsindən «Qafqaz merkuri», «Vostoçnoye obşestvo», «Nadejda» və bir dərəcəyədək də «Kurinsko-kaspiyskoye tovarişestvo»lardır.

İkincilər isə müxtəlif xırda gəmiçilərdir ki, hərəsinin bir ya iki gəmiləri olub bir növ sürünürlər. Bunlardan bir azca əsəri-həyat göstərən «Bəradərani Rəsulov» idarəsidir ki, bunun təhti-idarəsində 8 paraxod və bir körpü və bir sklad vardır. Qalanlarından çoxunun özünəməxsus körpüləri yoxdur ki, bu cəhət də onları artıq müşkülata düçar ediyor.

Əvvəlincilərin özlərinə məxsus neçə yerdə körpüləri, hər bir bəndərdə kontor və bargahları, vəkil və agentləri olub göndərilən malüt-ticarəni bilatəxir vaxtında yerinə yetirib artıq bir diqqətlə mala nəzər yetirməkləri ikincilərə rəqabət etməyi müşkül edib, gün-gündən əllərində olan işləri alıb, onları çətin bir kasadlığa düçar qılıyor.

Hər bir mal göndərən öz malını qiymətcə birə-iki dərəcə bahalığına baxmayıb böyük şirkətlərin vasitəsilə göndərməyi bilnisbə çox ucuz

[1] **məduvvinlər** – dəvət olunmuşlar
[2] **rahi** – yol
[3] **züruf** – qablar, paketlər
[4] **mühəyya** – hazırlanmış, tədarük olunmuş



qiymətlə aparmağa minnət çəkən xırda gəmiçiyə verməkdən faydalı hesab ediyor.

İş bu surətdə olduqda kiçik gəmiçilərə müştəri tapa bilmək üçün bircə şey qalır ki, o da qiyməti ucuzlaşdırmaqdır. Məlum işdir ki, qiymətdə intihasız olaraq gödələ-gödələ gedib bir hədd və dayanacaq bilməyə bilməz. Hər bir iş üçün sərhəd olduğu kimi, kirayə də öz sərhəddin keçdikdə zərər edəcək, artıq gəmi saxlamaq sərf etməyəcəkdir.

Odur ki, xırda gəmiçilərin bir çoxunun gəmilərini satmaq axırıncı ovqatın göstərdiyi həqayiqdəndir.

Xırda gəmiçilər böylə bir müşkül halda ikən keçən ildə ticarət vüzəratı tərəfindən sadir olan bir hökm ilə İrana gedən tranzit qənd həmlini[1] böyük firmalardan təşəkkül etmiş gəmiçilər sindiqatı bürosundan başqa qeyrisinə verilməməyə dair etdiyi qərardan və sirkulyar onları bir daha artıq olaraq həlakətə düçar etdi.

İrəlidə xırda gəmiçilər çox vaxt Bakıdan qənd yükü götürüb İrana gedir və oradan da yük alıb Bakıya qayıdar idi. Və bu vəzilə heç olmasa ayda bir-iki dəfə gediş-gəliş edir idi. Halbuki indi çox vaxt yarım yük və bəzən olur ki, lap yüksüz gedən gəmi məcbur olur ki, artıq gözləməməkdən ötrü o başdan bu tərəfə yük tapmaq üçün qiyməti daha ucuzlatsın ki, heç olmasa bu yandan o tərəfə getdiyi boş pulluluğa əvəz olsun. Bu başdan dolu gedirsə iş ayrı cür surət alıb artıq kirayə ayağa salmiyordu.

Xırda gəmiçiləri bir üsrətli[2] halətdən çıxardacaq nə ola bilər? Nə vasitə ilə bunlar bir kasadlıq vərtəsindən[3] qurtara bilər?

Burada onlara lazımdır ki, bir az təəmmül edib onları bir rəqabəti-iqtisadi ilə batırmaq istəyən qüvvətli rəqibdən ibrət alsınlar, görsünlər «Nadejda», «Qafqaz merkuri» və «Vostoçnoye tovarişestvo» kimi qüvvətli obşestvalar ittihad yapıyorlar. Sindiqat, büro əmələ[4] gətiriyorlar da bir növ öz aralarından rəqabəti qaldırıyorlar da bir növ xırda gəmiçilərə nisbətən onsuz da işlərini daha da yaxşılaşdırmağa çalışırlar.

İştə xırda gəmiçilərə də lazımdır ki, ittihad edib birləşib bir xırda gəmiçilər ittihadi əmələ gətirib işləri təhti-nizam və qaidəyə gətirib, birlikdə səy və ehtimam edib fövqdə adları zikr olunan cəmiyyətlər ilə rəqabət edə biləcək, onlar kimi mal göndərənin hər bir xahiş və arzusuna müvafiq malü-ticarə yola verə biləcək və hər bir malı vaxtlı-vaxtında, yerli-yerində kamali-nizam və qaidə ilə olaraq sahibinə çatdıracaq və alış-verişçinin və miniklərin hər bir cəhətdən əmniyyəti-istirahətini mühəyya[5] edəcək dərəcə bir rəqabət qüvvəsinə və bacarığına dara olan «Xırda gəmiçilər sindiqatı» təşkil etsinlər.

[1] **həml** – yük
[2] **üsrət** – ağır vəziyyət
[3] **vərtə** – çətin vəziyyət
[4] **əmələ** – düzəlmə, yaranma
[5] **mühəyya** – hazırlanmış

Bu sindiqat təşkil olunarsa, o vaxt xırda gəmiçilərin indi heç bir yerdə eşidinilməyən səsi eşidiləcək olur və tranzit məsələsi kimi çətinliklərə, hərgiz məyusluq və bacarıqsızlıq nəzəri ilə baxıb heyran və sərgərdan qalmazlar. Hamısı onları nəzərə alar. Həmi tacir, həmi minik, həmi əhali, həmi hökumət, həmi vüzarət, həmi də böyük gəmiçilər onları mühüm bir qüvvə hesab edib də arxalı bir ticarətxanə kimi görərlər.

Nə qədər ki, bu sindiqat təşkil olunmamışdır, nə qədər ki, bu ittihad əmələ gəlməmişdir, nə qədər ki, xırda gəmiçilər köhnə əsasi-ticarətdən əl çəkməmişlər, nə qədər ki, şərikliyi ancaq biri-birinə paça vurmaq və aldatmaqdan başqa bir şey kimi görmiyəcəklər, nə qədər ki, xırda gəmiçilər indiki fikirlərində qalacaq və ümumiyyətlə, əlbirliyi ilə iş görməyə meyil göstərməyəcəklər, haman indiki hali-səfalətlər ilə qalıb bilaxirə həlakətə məhkum olub əzraili-ticarət olan iflasa giriftar olacaqdır.

Avropada bütün həmnöv olan sinaət və ticarətxanələr arasında sindiqatlar əmələ gətirilib bu sürətlə davam və tərəqqeyi-ticarət və sinaətə çalışılmaqdadır. Bizlərdə isə böyləcə şeyləri qanıb bilməyə hənuz istedad yoxdur.

Əksəriyyəti müsəlman olan xırda gəmiçilər çətin ki, böylə müəzzəm işə iqdam eləsinlər. Çətin ki, onlarda bu qədər bir durbinlik[1] və hər bir ittihadın əsası ola bilən etibari-mütəqabilə[2] ola bilsinlər.

İdareyi-bələdiyyə tərəfindən olan bir məmuriyyətim əsasında idarəsinin əhvali-iqtisadiyyəsini bilmək üzrə görüşdüyüm gəmiçilərdə öylə adamlara rast gəlmişəm ki, doğrusu onlardan heç bir halda etibari-müstəqabilə, sindiqat-mindiqat fikri olmaq yaramaz şeylər cümləsindəndir.

Olsun ki, bizim bu məqalə haman işarə elədiyim adamlara gülməli bir şey gəlsin. Fəqət mən əminəm ki, iyirminci əsrə aşna olan və sərmayədarlığın əsasına bələd olan və iqtisad dəstgahından xəbəri olan gəmiçilər, bizim təklifimizi başa düşüb öz həmkarları arasında bu məsələni qalxızıb lazimeyi-iqdamata girişsinlər.

Xırda gəmiçilər arasında böylə açıq fikirliləri, yəqin ki, yox deyildir. İştə bunlara lazımdır ki, özləri az da olsalar hümmətlərini, səylərini çoxlaşdırsınlar.

Hümmət olursa, müvəffəqiyyət də olar!

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 81, 21 oktyabr 1908*

[1] **durbinlik** – uzaqgörənlik
[2] **etibari-mütəqabilə** – qarşılıqlı inam, etibar



## XATİRƏ

Hər gün Nikolayevski küçə ilə Dumun qabağı ilə, sonra da bizim «Flankəsi»* qorxudan «Cinli» küçə ilə idarəyə gəlib gediyoram.

* * *

İnsan hər şeyə adət ediyor. Çox şeyləri künhünə[1] baxırsan, görürsən ki, insanlıq hissinə malik olan bir şəxs, şeylər var ki, ona bir dəqiqə, bir saniyə olsun təbavər[2] ola bilməz! Amma nə edirsən ki, biz insanlar o qisim şeylərin ən dəhşətlisinə haman bu vecə gəlmiyən əlamətlərdən adət edirik, heç vecimizə də gəlmiyor!.. Ya da yuxanda saydığımız küçələr uzunu indi içində olduğumuz oktyabr günlərinin 1905-ci ilki misallarını yada gətirən yanıq binaları da!..

Mən dünən Dumu enib Mirzəbəyovun yanmış evinə çatanda birdən oktyabrın 21-i yadıma düşdü...

Və bir az təəmmüldən sonra bu gün ayın 21-i olduğu nəzərimə gəldi...

Bilaixtiyar qədəmlərim dayandı. Zəbani-hal ilə bir çox mübhəmat[3] imaedən[4] bu ali xərabə məzlum-məzlum üzümə baxırdı, hələ sanki qulağıma nalələr, fəryadlar «aman insanlara», «vay zalımlər» səsi gəliyordu...

Əvət, oktyabr günləri xatirələrdə silinməz əsərlər qoymuş, getmişdir...

Tamam üç ildir ki, Rusiya vətəndaşlarının qəlbi kimi yanmış olan bu evlər durub hər gəlib ötənə məzlum-məzlum tamaşa ediyor, yazıq-yazıq baxıyorlar!..

İnsan bu xarabazarlara baxdıqca, bunları bu günə qoyan günləri yad etdikcə bir yandan insanlığı sevir, digər tərəfdən ona nifrət ediyor.

Sevir! Çünki oktyabrın 21-ci gününə bir əlaməti-müdhiş, bir yadigari-mənfur olan bu mənzəreyi-kədərəngiz qəhri olaraq oktyabrın 17 və 18-ci günlərini dəxi yada salıyor ki, o günlər böyük ümid günləri idi.

Nifrət edir: çünki haman mənaziri-mənfurəni özlərindən bir yadigari-iblisanə qoyan cəhlü-danilər ölkəni bir məqamə yetirdilər ki, nəzərimizdə təsəvvür olunan bu məxrubələr Rusiyanın indiki, vəziyyəti-ictimaiyyə və hüquqiyyəsinə bir timsalı-mücəssəm oluyor-duruyor!..

Bütün üç ildir ki, oktyabr günlərinin nəzəri-əlamət və nişanələri belə qurtarmayıbdır.

Bu səhldir. Bu nədir ki!.. O günlər öylə bir əsər bəxş zəbanlar, öylə bir vəqai hazırlayan vaxtlar, öylə bir tarixi günlər idi ki, onların asari-nüfuzu dünyalar durduqca duracaq, qərinələr süründükcə sürünəcək və hər vaxt özünü bildirəcək, özünü yad etdirəcəkdir!..

* **«Flankəsi»** – Üzeyir Hacıbəylinin təxəllüslərindən biridir. «Tərəqqi» qəzetində onun «Ordan-burdan» seriyalı yazıları bu imza ilə dərc olunurdu. – *Ş.H.*

[1] **künh** – mahiyyət
[2] **təbavər** – davamlı, gücü çatan
[3] **mübhəmat** – gizli
[4] **ima etmək** – işarə etmək

Rusiya camaəti o günləri bir ayrı məişətə, bir ayrı ruzigara girmək istəyirlərdi.

Rusiya övzai-ictimaiyyəsi köhnə qəvaiddən qurtarıb təzə əsrülgüzaran və raftara keçmək istəyirdi.

Bu təşəbbüs ona əl verməsaid isə ürəklərdə, ağıllarda, evlərdə, binalarda, havada belə məhv olunmaz əsərlər buraxdı...

**Rəsulzadə**
*«Tərəqqi», № 82, 22 oktyabr 1908*

## QAFQAZ YADDAN ÇIXMIŞ

Vaxtilə Peterburqun köhnə qaidələri tərəfdarı olan siyasi məhafil[1], «Novoye vremya» və «Rus milləti ittifaqı» kimi dairələr Qafqaza hücum etməkdə və qafqazlıları bir xaini-dövlət, Rusiya camaətinə verilən qeyri-hüquq və ixtiyardan salb[2] olunması lüzumu barəsində əllərindən gələn səy və mücahidəni əsirgəmiyorlardı...

Mərqumlar[3] bu qəsdlərinə çatmaq üçün olmazın bəhanələr və həddindən ziyadə istinadlar və müftinliyə əl atıb islah və intizami güc və qədər ilə deyil, hüquq və mülayimətlə daha da tez bərpa etmək mümkün və əlverişli olduğunu bilib və Qafqaza da Rusiyada olan ixtiyaratı vermək tərəfdarı olan Voronsov-Daşkov cənablarına ağızlarından çıxan hədyanatı vüreyqə[4] məzalələrini dərc etməkdən utanmayıb, onu istefaya məcbur etməyə var qüvvələri ilə çalışdılar...

Bununla da kifayət etməyib qafqazlıların Türkiyəyə meyli, İran inqilabına həvəsi və bunlardan nəşət edən ruhi-etiraz ilə pərvərdələnib Rusiya hökumətinə ağ olub üsyana hazırlaşmaları kimi, Rusiyadan ayrılmaq xəyalları kimi əsli olmayan xəyanətlərə istinad verib, köhnələnmiş və ravac bir şeydən ibarət olduğu bütün aləmi-mədəniyyətə sabit olmuş «hökm etmək istərsən ayır» Makiavelli* əsasına uyub əllərindən gəldiyini müzayiqə etmədilər!.. «İstefaya» və Voronsov-Daşkovun əzl olunub, yerinə onlar sevən bir kəsin təyin olunmasına nail olmadılar...

Canişin həzrətləri nəinki mənsəbdən ixrac edilmədi, nəinki istefa vermədi, bəlkə, bərəks olaraq yerində möhkəm durmaq və bu ittihamat üzərinə bir müfəttiş göndərilməsini təklif etməklə bərabər özünün Qafqaza dair tərtib verdiyi islahat layihəsinin Duma müzakirəsinə qoyulmasına da bir hüsn qəbul göstərdi.

[1] **məhafil (məhfil)** – yığıncaq yeri, məclis, toplanmış heyət
[2] **salb** – zorla əldən alma, rədd etmə, inkar etmə
[3] **mərqum** – adı yuxarıda çəkilən
[4] **vüreyqə** – qəzetçə (istehza ilə)
* **Makiavelli** – (1469–1527) florensiyalı siyasi xadim, yazıçı. Makiavellizm – öz məqsədinə nail olmaq üçün hər şeyə – hiylə və böhtana əl atmaq



Dumanın iftitahı ilə bütün qafqazlılar gözlərini Tavriçeski saraya dikmişdilər ki, görək oradan nə çıxacaq və Qafqaz islahatı barəsində havaxt müzakirə olunacaqdır!..

Heyhat ümidlər bütün bütünə getdi!..

Dumanın müzakirə edəcəyi qanun layihələri siyahısını havi olan vüzərat bəyannaməsinin xülasəsini agentə teleqrafı idarəmizə gətirdi. İştə bu nömrəmizdə dərc ediyoruz.

Diqqət verilsin! Bütün gözlənən qanun layihələri yad olunub, bircə Qafqaz yaddan çıxarılmışdır!..

Əcəba, buna səbəb nə olmuş? Əcəba, Qafqaz «mədəni müəssisələri qəbul edəcəyin dərəcə tərəqqi etməmişdir» – fikri isbati-həqiqət etdimi?!.

Qafqaza verilən asi, inqilabçı, vəhşi ittihamatı nəzərə alındımı?!.

Hər nə isə Qafqaz yenə də yaddan çıxdı?!.

Əcəba, Oktyabrist Duması buna bir söz deyəcəkmi?!.

**M.Ə.**
*«Tərəqqi», № 83, 23 oktyabr 1908*

## KÖRPÜ HƏMMALLARI*

Bakı fəhlələri arasında ən məşəqqətli, ən dargünlü, ən yazıq, ən məzlum bir heyət varsa, o da körpü hamballarıdır.

Bu yaddan çıxmış, gözdən düşmüş yazıqlar və talesizlər barəsində bir parça məlumat vermək istəyiriz.

Bütün körpülərdə işləyənləri əgər 5 yüz hesab eləsək, bunların arasında bir nəfər qeyri yerli tapmazsınız, hamısı İranın zavallı, nikbətli[1] oğlanlarıdırlar.

İran xanlarının möhtəkir və ərbabi-hökumət deyilən vəhşilərin zülmündən, işsizlik və qanunsuzluğun cəngindən qurtarıb özünü saxlamaq və İranda böyük bir fəlakətlə ömür keçirməkdə olan külfətinə bir az maaş qazanıb yollamaq qəsdilə «həmşəhəri» Bakıya gəliyor... körpü hambalığına girir. Qeyri fəhlələrin bircə gün davam edə bilməyən məşəqqətlərə səssiz-səmirsiz qatlaşıb, gündə 12, 13 saat arxasında yük daşımaqla ömür keçirdir. Və bu qədər bir zəhmətin əvəzində gündə 50–60 qəpik, yainki, ayda 15–20 manat məvacib alıyor, elə bilir ki, dünya və aləmi qazanmışdır. Halbuki mədən fəhlələrinin ən ucuz və məşəqqətli bir üsul ilə işləyən qara fəhləsi 20–25 manat aldığı halda 9–10 saatdan artıq işləmiyor, hələ 8 saat işləyənləri də vardır. Mədən fəhlələri 20–25 manat aldıqlarında da mənzil, mənzil olmasa mənzil pulu, neft kimi, su

* **həmmal** – hambal (mətndə belə verdik)
[1] **nikbət** – talesiz, bədbəxt

kimi məvacibdən başqa şeylər də alıyorlar ki, körpü hambalları belə şeyləri ağıllarına belə gətirmiyor. Bunların onu, onbeşi bir olub şəhərin kənar bucaqlarında adı ev, özü tövlədən seçilməyən mənzillər kirayə edib adam başına ayda 50 qəpik, 1 manat kirayə veriyorlar.

Qeyri fəhlələrə ümumi fabrika qanunu üzrə rasçot dəftərçələri verilir ki, fəhlə işdən çıxarılanda, yainki şikəst olduqda karına gəlib qanun üzrə qoyulan qaidələrə görə mükafat alır. Ona nisbətən edilən qanunsuzluqları dəf eləmək üçün bu gün haqqını kasib vermək istəməsələr şikayət etmək, məhkəməyi-ədliyyələrə rücu etmək vaxtlarda artıq lazım olur. Ancaq bu qaidə körpülərdən kənar yerlərdə var, körpü hamballarından başqalarına aiddir. Heç bir hambalın rasçot dəftərçəsi yoxdur.

Körpü hamballarından ötrü heç bir qəbul və ixrac qaydası mövcud deyildir. Podratçı hər vaxt istəsə işə qəbul edər, hər vaxt istəsə işdən qovar.

Fəhlələrin muzdlarını, işlədiklərini bəzi yerdə ayda bir, bəzi yerdə həftədə bir və çox yerlərdə iki həftədə bir hesablayıb özlərinə vermək bir adət və qaidədir. Körpülərdə siz bunu görməzsiniz. Körpüdə olan başqa prikazçik, ya gəmi əmələsi və qeyrilərə görə bu qaidə varsa da, körpü hambalları bundan da məhrumdurlar. O qədər bir məşəqqət və zəhmətlə işlədiyi muzdunu almaq üçün hambala bir çox rəzalətlər, söyüşlər çəkmək lazımdır ki, özünün haqqini alsın. Hələ çox vaxt olur ki, haqq-muzd yerində kötək alıb qulluqdan da ixrac edilir.

Bunların bu halətlərinə səbəb nədir? Yoxsa körpü işindən o qədər mənfəət yoxdur ki, qeyri işlərdə olan qaidə və nizam burada da olsun?

Xeyr, səbəb burada deyil. Bu işdə mənfəət var. Lakin mənfəəti aparan podratçılardır. Podratçılar hər bir hambaldan gündə 50 prosent qazanc götürüyorlar. Yəni bir hambal gündə podratçı vasitəsilə 50–60 qəpik qazanırsa, podratçı olmuyub bilavasitə körpü idarəsinə işləməli olsa gündə 1 manat, 1 manat 20 qəpik qazana bilər.

Bu süratlə podratçıların ən az qazananı gündə 5–10 manatdan dəm vurur. Bu az qazananıdır. Kiçik körpülərdir. Öylələri var ki, 20–30 manata pul demiyorlar!..

Körpü hambalları eləyə bilməzlərmi ki, özləri artellər qayırıb podratçılardan xilas olalar?!. İştə məsələ!..

Burası yəqindir ki, fövqdə bəyan etdiyimiz və təriflərinə qaldığımız cahil və məzlum hamballar bu fikri meydana çıxarmağa qabil deyildirlər.

Onlara bu yolda müavinət eləmək, yol göstərmək lazımdır!..

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 88, 29 oktyabr 1908*



## QORXUDURLAR!

Dövlət dumasının iclasında yer və torpaq məsələsini həll etmək üçün hökumət tərəfindən tərtib olunmuş 9 noyabr qanunu müzakirə olunmalıdır.

Bu məsələ üstündə böyük bir mübahisə olubdur. Duma əksərini təşkil edən oktyabrist firqəsi gözləmədiyi bir sınıqlığa düçar olmuşdur.

İş burasındadır ki, üçüncü Dövlət dumasının ikinci dəfə yığılmasında hökumət tərəfindən bir məramnamə təqdim olunmuşdur. Bu məramnamədə məhəlli idarələr, məhkəmələr, yer və torpaq islahatı, maarif, məktəb işləri, dillər məsələsi, vergilərin islahı sənətın təbdili-üzviyyəti və qeyri bu kimi məsələlərin müzakirə olunacağı vəd olunmuşdur.

Zikr olunan bu məsələlər hamısı mühüm məsələlərdir və ölkənin müxtəlif heyət və firqələrinin diqqətlərini ələddəvam cəlb ediyorlar. Vaqiədə məmləkətin asayişi, istirahəti və tərəqqisi həlakət və ya səadəti bu məsələlərin nə surətdə həll və fəsl olunmasına bağlıdır. Lakin bunların cümləsində yer və torpaq məsələsi əxəss[1] əhəmmdir[2]. Zatən Rusiya inqilabını donduran səbəblərdən birincisi də haman bu yer və torpaq uyğunsuzluğu olmadımı?

Odur ki, əvvəlinci dəfə yığılmasında bütün xırda-xuruş məsələlər ilə heyəti-vüzəranın ürəyini ələ götürüb saxlayıb hökumətin düdüyünə müvafiq oynamağa sərfi-vaxt və qeyrət edən Dumaya indi vədənin təqazasınca çar-naçar çoxdan həllinin vaxtı gəlmiş yer və torpaq məsələsini müzakirə etmək lazım gəliyor.

Odur ki, məsələ meydana atılır. Torpaq məsələsi həll olunsun – deyə Duma idarəsinə təklif olunur. Lakin Duma sədri təklif edir ki, heyəti-vüzəranın xahişinə görə bu məsələ bir az təxirə qoyulsun. Çünki hökumət tərəfindən noyabrın 9-u qanununa əlavə olaraq bir kaç təshihat və islahat əlavə eyləyəcəkdir. Sədrin bu təklifi müzakirə olunduqda bir təsadüf olaraq sağlar ilə solların ittifaqı ilə bu xahiş rədd edilir. Və məsələnin bilatəxir həll olunmasına qərar verilir. Yəni hökumət xahişinə əməl olunmuyor. Yəni Duma əksəriyyətinə dara olan və həmvarə dövlətin xahişini əncamə gətirmək fikrində olan oktyabrist firqəsi şikəstləyir.

İştə heysiyyətinə bu qismlə bir zərbə dəymiş olan oktyabrist firqəsi indi özünü kəndçilərin nəzərində safa çıxarmaq və mətbuatda kəndçilər işini təxirə salmaq fikri ilə müttəhim olub üzərinə edilən hücumlara müqabilə olmaq ünvanı ilə hədələr başlayır.

«Xoxu gəldi» – diyor...

Oktyabristlərin mürəvvici-əfkarı olan «Qolos Moskvı» qəzetəsi bu xüsusa dair yazdığı baş məqaləsində məsələnin əhəmiyyəti cəhətindən

[1] əxəss – daha xüsusi
[2] əhəmm – daha mühüm

hökumətin təklif etdiyi təshihat və islahat əlavəsi olununcaya qədər gözlənilməsini vacibatdan hesab edərək qeyri firqələrin fürsətindən istifadə edib politika oyunçuluğu elədiklərini şiddətlə müaxazələyərək[1] diyor ki:

«... Bu işin əvvəli görün gələcəkdə nə olacaq, özlərinə camaət qəmxarı və kəndçilər qeydkeşi deyənlərin ağızlarından seylan-seylan nitqlər töküləcək... – bunlar da neçə qisimdir – Milyukov, Çxeidze, Keqeçkori və Bulat və ikinci Markov kimilər... boşboğazlıq etməkdə davam edəcəklər, məsələ isə haman yerində qalıb hərəkət etməyəcək. Solda ifrat, sağda təfrit[2] olub Duma da özünün işə yaramazlığını göstərəcək. İş görmək əvəzində dönüb inqilab ocağı olacaq və camaət həyəcanına səbəb olacaq. İyunun 3-ü Dumasından narazı olanlar daxi böhran salacaqlar meydana ki, bu səbəblə qalxan ləpələr ilə düşmüş olduqları dibdən üzə çıxa bilsinlər...»

Görüyorsunuzmu 17 oktyabr firqəsinin rəsmi orqanı necə qızışıb, nə acığı tutubdur? Burasını bilirik ki, yer və torpaq məsələsi artıq danışıq aparan məsələ, artıq hisləri yerindən oynadan bir nöqtədir. Yəqin ki, bunu nəzərə alıb da məsələni məhdudlamaq istiyormuş..., əgər ki, qəzetənin bu xüsusda bəhanəsi ayrıdır ki, yuxarıda zikr olundu...

Gələcəkdə Dumanı «inqilab tribunası və mitinq olmaqdan mühafizə etmək üçün» qəzetə təklif ediyor ki, Duma barəsində olan dəstrul-əməlin 127-ci fəsli dəyişilsin. Hərgah bu fəsil dəyişməzsə o halda «iş aparan əksəriyyət» Dumanı iş görəcək bir halda idarə edə biləcək qüdrətindən düşüyor.

Əcəba, 127-ci fəsil nə imiş ki, onun vücudu oktyabristləri həlakətə salıyor və oktyabristlərin qəzetəsinin baş məqaləsi sətirləri arasında oxunan «Duma buraxılması» hədəsinə səbəb oluyor.

127-ci fəslin təqazasınca 50 vəkil bir məsələnin müzakirəsini Dumadan tələb etsə, məsələ gərək labüddən müzakirə olunsun.

İştə oktyabristlərin əhvalını qarışdıran burasıdır. Onlar istəyəcəklər ki, Duma minbərindən çox da kəndçi-məntçi, həqq və ixtiyar və qeyri bu kimi sözlər az işlədilsin. Onlar istəyəcəklər ki, nə tövr olsa da, dvoryanlara, bürokratlara xoş olmayan nitqlər az söylənsin, onlar istəyəcəklər ki, bir çox şeylərin üstü örtülü qalsın. Bunları istədikdə bu yandan haman fəslə istinad edərək bir əlli nəfər qeyri-vəkillər cəm olub səs verəcəklər ki, yox, biz həm danışmaq istəyiriz. Bunu deyib də 127-ci fəslə söykənəcəklər.

Yaxşısı budur ki, onların ağzını lap bağlamaqdan ötrü Duma nizamatı və qaidəsi barəsində olan nakazın bu fəsli təbdil olunsun.

İştə baxınız, oktyabristlər qorxuyorlar?.. Duma batacaq diyorlar. Batacaq, çünki «danışıq çox olur. Artıq təsəvvürlər olunur».

[1] müaxazə – danlaq

[2] təfrit – səhlənkarlıq, boş yerə sərf etmə



İndi hər kəs Dumanın qalmasını və iş görməsini istiyorsa oktyabristlərə tabe olub, oktyabrist olmayan Duma vəkillərinin ağzını bağlatmağa çalışmalı imiş!..

Oktyabristlər bu arzularına nail ola bilməzlərmi? Bu dəfə xüsusi bir təsadüf olaraq sollarla səsləşən sağlar sabah həmin fəslin təbdilini istəməkdə oktyabristlərə ittihad eləməzlərmi?!.

M.Ə.Rəsulzadə

*«Tərəqqi», № 89, 30 oktyabr 1908*

## «HESAB MƏSƏLƏLƏRİ»

Rəsmi məktəblərdə mükəmməl olmasa da, türk dili dərsi verilmək və ibtidai məktəblərdə əvvəlinci və ikinci illər hesab dərsi daxi türkcə verilmək qanun oldu. Bundan başqa da bir çox təzə camaət məktəbləri açılmağa başladı. Köhnə məscid məktəblərinə daxi üsuli-cədid girdi. İndi hər yandan üsuli-cədid xəbəridir ki, gəliyor. Hər tərəfdə milli məktəblər açılır. Hər yanda məktəb fikrinədir ki, düşülünür...

Məlumdur ki, bu təzə məktəblərə təzə kitablar lazımdır. Türkcəni təlim üçün bir neçə qisim kitablar nəşr olunmuşdur. Köhnədən tərtib olunmuş kitabçalara, onların bir çox nöqsanlarına cəhət kifayət olunmuyub, keçən ildən bəri heyəti müəllimin tərəfindən «Əvvəlinci il» və «İkinci il» kitabları nəşr edilmişdir. Deməli ki, türkcə dərsini demək üçün bir dərəcəyədək olsun təlimnamələr hazırlanmışdır.

Bütün rəsmi və qeyri-rəsmi olan məktəblərdə lisan dərsindən sonra ikinci yer tutan hesab dərsi böyük bir ehtiyacda idi. Uşaqlara bir dərs maddəsi olmaq üçün əvvəlinci dərəcədə lazım olan hesab məsələlərini came'[1] bir kitab yox idi. Bu yoxluq hər anda, hər saatda özünü bildirir, hiss etdirir idi.

Bu arada Ağəli Qasımov cənablarının nəşr etdiyi «Elmi-hesabi» dərdə dərman olmuyordu. Çünki o kitabın qəsdi başqa, məktəblərin daha artıq ehtiyac göstərdiyi başqa idi. Ağəlinin bu kitabı şagirdlərdən çox müəllimlərə gərəkdi. Halbuki müəllimlər Ağəlinin kitabından ala biləcəkləri məlumatı özgə rus və türk mənbələrindən daha yaxşıca ala bilərlərdi.

Hər halda bu kitabın mənfəətsiz olmadığını iqrar ilə deyiriz ki, «hesab məsələləri» kitabı su kimi gərək və lazım olduğunu hər bir vaxtda bildirməkdə idi. Bu lüzumiyyəti cənab Kərim bəy İsmayılovun müxtəsər və naqis «hesab məsələləri» də iqnə edə bilmiyordu.

İştə bu ehtiyacı dəf eləmək üçün əvvəlinci iqdam edilmişdir. 104 səhifədən ibarət təmiz və aydın surətdə asan Azərbaycan sadə türkcəsi ilə tərtib olunmuş «Hesab məsələləri» adında bir kitab nəşr olunmuşdur.

[1] came – toplayan, cəm edən

Mühərrirlərimizdən müəllim Üzeyir Hacıbəyov cənablarının bu əsəri ibtidai məktəblərin birinci və ikinci şöbələri şagirdlərindən ötrü lüzumlu bir dərs kitabıdır.

Bu əsərin nə üsul və nə qaidə ilə tərtib olunduğunu bildirmək üçün kitabın başında müəllif tərəfindən yazılmış olan müqəddəməni nəql eləməkdən yaxşı tərif ola bilməz. İştə müqəddəmə:

«Bu kitabın tərtibində rus kitablarından istifadə edib cənab Komarovun hesab məsələləri kitabını özüm üçün ümdə rəhbər ittixaz etdim. Müəllimlərdən Komarovun kitabçası ilə aşna olanlarına məlumdur ki, bu pedaqoqun kitabçası ən asan üsul ilə mübtədiləri[1] hesab əməllərinə və məsələlər həllini öyrədiyor».

«İştə Komarovun kitabçasın özüm üçün dəstürül-əməl yerinə qəbul elədimsə də, bəzi yerlərində öz təcrübəm ilə əxz etdiyim xüsusi qaidələrin tətbiqini də lazım gördüm. Böylə ki, təklik hesablara dair məsələləri bir neçə tip qismlərə böldüm ki, əvvələ, şagirdlər və saniyən müəllim üçün anlamaq və anlatmaq işi asan olub az vaxt sərf olunsun. Bundan maəda[2] mənim ümdə qəsdim şagirdlərimizi məsələ həllində müzakirə və mübahisəyə adət etdirməkdir: çünki çox vaxt müsəlman şagirdləri hesab məsələlərini «neçin» və «çünki» siz həll edib dəlil və sübutlar gətirməyə aciz olurlar».

«Məsələlər intixabında orasına daxi səy etdim ki, öz məişətimizdən əxz edilmiş məsələlər ilə bərabər rus maişətinə dair məsələlərdən də məzmuni cəhətincə təqdir və təqlidə layiq məsələlər daxi olsun».

«Dil cəhətinə gəlincə məsələlərin sırf türk dili ilə yazılıb dilimizin təbiətinə müğayir cümlə və ibarələrdən, baxüsus rus dilinə mənsub idareyi-kəlamdan azad olmasına artıq səy etdim».

Hesab məsələləri kitabının hamısında kitabın içində həll olunmaq üçün təyin olunmuş məsələləri həll edəndən sonra, həllinin doğru olduğunu təhqiq edib xatircəmlik hasil etmək üçün hamı hesab məsələləri kitablarının axırında məsələlərin öz nömrələri ilə cavablarını yazmaq bir qaidədir.

Bəzi kitablarda diqqətsizlik olaraq bu cavablarda bir çox yanlışlıqlar oluyor. Bu yanlışlıqlar pək əhf olunmaz nöqsandır. Çünki müəllifin bu səhvi şagirdin böyük bir dilxorluğuna, vaxt itirib diltəng olmağına səbəb oluyor. Bu da ki, pedaqoji nöqteyi-nəzərindən olaraq əlalxüsus mübtədilərdən ötrü qayət zərərli şeydir.

İştə burası xatirimizdə olduğundan Üzeyir bəy əfəndi tərtib etdiyi kitabın cavab qismini imtahanə çəkdik. İmtahandan yaxşı çıxdı. Səhv və yanlışlıqlara rast olmadıq.

[1] **mübtədi** – ibtidai, başlayıcı    [2] **maəda** – başqa, qeyri



Əvət, məktəblərimizdə, məktəbdarlığımızda gözəçarpacaq dərəcədə görülməkdə olan nöqsanların şu mühüm qismi Üzeyir əfəndinin bu əsəri ilə örtülmüş, təsviyə edilmiş oluyor.

Bəzi səbəblərə görə kitab öz vaxtında meydana çıxa bilməyib, bir az gecikmişdir. Bütün Qafqaz məkatib və müəllimlərinin diqqətlərini cəlb eləyib kitabın tətbiqini tövsiyə ediyoruz*.

M.Ə.Rəsulzadə
*«Tərəqqi», № 91, 2 noyabr 1908*

## ZEMSTVO İSLAHATI XÜSUSUNDA**

Bu gün olmasa sabah, sabah olmasa o biri gün – 40 ildən bəri İçəri Rusiyada olduğu kimi, Qafqazda da milli zemstvo idarələri qoyulacaqdır.

Zatən Qafqaz canişini Voronsov-Daşkov həzrətlərinin Qafqaza dair verdiyi islahat layihəsində əvvəlinci yer tutan fəsillərdən biri də bu zemstvo bəhsidir.

Zemstvo idarəsi nə olduğu barəsində qəzetəmizin keçmiş nüsxələrində yazılmış, gələcəkdə bu xüsusda təfsilən yazacağımızı vədə veririk. İndi isə Qafqaz mətbuatında bu məsələyə dair görülən əhəmiyyətli bir mülahizə və bu barədə verilən bəzi lüzumlu məlumat barəsində bəyanat vermək istəyiriz:

Zemstvolar, hazırda tanış olduğumuz Şəhər dumaları misalında olacaq. Dumaların iş gördükləri dairələr şəhərlərin daxilində və onların elədiyi qərar və binagüzarlıqlarda şəhər və şəhərlilərə aid isə, zemstvoların kargərlikləri bütün qubemiyaya, uyezdlərə, kəndlərə, qəsəbələrə rayic[1] olub, onların binagüzarlığı və gördüyü tədbirlərdə bütün quberniya, uyezd, kəndlərə və əhalisinə aiddir. Şəhər idarələrinin vergiləri şəhər mülkədarlarından, şəhər əhalisindən yığılır, zemstvoların da mədaxili zemstvo vergisi adı ilə zemstvonun hökmünafiz olan yerlər dairəsindəki mülkdarlardan və əhalidən alınır...

Bizim Qafqazın təbayün-fərqlərindən biri də bu vaxta kimi hamın bu olmuşdur ki, bizdə zemstvolar özləri olmuyubsa da, zemstvo vergiləri alınmışdır.

* Nəfis bir surətdə çap edilmiş bu kitabın qiyməti 60 qəpikdir. Naşirləri Q.Şərifzadə və A.Kazımzadələrdir. İstəyənlər məzkurların Bakıda Nikolayevski küçədə müsəlman ünas məktəbinin qabağında olan mərkəzi mağazalarından və Parapetdə olan şöbələrindən ala bilərlər – *M.Ə.*

** Bu məqalədə tədad etdiyimiz hesabları «Baku» qəzetəsinin felyetonundan iqtibas etdik. Qeyd M.Ə.Rəsulzadənindir – *Ş.H.*

[1] **rayic** – aid olmaq

Qanunən məhəlli və yerli ehtiyaclara sərf olunmaq üzrə bu vaxta kimi bizdən alınan zemstvo vergilərinin miqdarı ildə 4 milyon 670 min manat olmuşdur. Bu hesabdan hər adambaşına 78 qəpik düşüyor.

Halonki İçəri Rusiyada adambaşına 1 manat 15 qəpik alınmaqdadır. Hərgah Qafqaz zemski vergisi büdcəsinə daxil olmuş olan 61 prosent, yəni 2 milyon 60 min manat polisə strajnikləri və başqa məcburi idarə xərclərinə sərf olunan məbləğ çıxılsa, o halda gələcək zemstvo idarəsinin təsərrüfünə ancaq 2 milyon manat qalasıdır ki, bu hesabdan hər adam başına 34 qəpiklə gərək ki, Qafqaz zemstvosu öhdəsində olan böyük-böyük vəzifələri icraya qədəm qoysun.

Hal-hazırda isə bu 4 milyon 670 min manat bu qismətlə xərclənir:

Yollara – 933 min manat ya 20 faiz
Səhhəti-ümumiyyə – 607 min manat 13 faiz
Maarifi-ammayə – 154 min manat 3,3 faiz
Başqa məsarifə – 150 min manat 2,7 faiz

İş bu qaidə ilə olduqda məlum işdir ki, zemstvolardan gözlənilən mədəni işlərin bir o qədər qədri, bacarığı və əhəmiyyəti olmayacaqdır. Hələ gərək bu məbləğin 10 prosenti də zemstvo idarələrinin özlərinin düzəlmələri məsarüfinə çıxılsın.

Məlum işdir ki, bu mədaxil ilə Qafqaz zemstvosu paydar ola bilməz. Məlum işdir ki, bu qədər bir mədəni islahata möhtac olan Zaqafqaziya vadilərini, vilayətlərini, kəndlərini böylə bilmünasibə, cüzi olan maddələr ilə islah etmək olmaz. Kəndlərdə məktəblər açmaq, yollar çəkmək, aran zəmin yerlərə su gətirmək, zəxirə[1] və ehtiyac ambarları təşkil etmək və qeyri-qeyri mədəni və mütərəqqi işlər icra etməkdən ötrü külli mədaxil lazımdır. Bütün-bütünə qərqi-cəhl və qəflətdə olan əhalini iqaz[2] etmək üçün maarifə 154 min m. sərf etməklə haraya çatmaq olar. Təbibsizlikdən, dərmansızlıqdan mur, məlex[3] kimi qırılan kəndistana 607 min manatla köməkmi etmək olar? Dağ və daşlıqlar arasında rahi[4]-rusuz qalmış olan Qafqaz qəsəbələrinin, şəhərlərinin, kəndlərinin rahi-rularını islah etmək və təzə yollar salmaq üçün 933 min manat kifayətdirmi?..

Məlumdur ki, gələcək Zaqafqaziya zemstvosu bu mədaxillə kifayət edə bilməz, gərək özünə mədaxil yolları axtarsın.

Əcəba, bu mədaxillər haradan və nə yollar ilə alınacaqmış? İştə hal-hazırda Qafqaz mətbuatını məşğul edən məsələ bu məsələdir.

**M.Əmin**
*«Tərəqqi», № 103, 16 noyabr 1908*

[1] **zəxirə** – azuqə
[2] **iqaz** – oyatma, qəflətən ayılma
[3] **məlex** – çəyirtkə
[4] **rah** – yol



## ZEMSTVO İSLAHATI BARƏSİNDƏ

Keçən nömrəmizdə dedik ki, indi Qafqaz mətbuatı zemstvoya lazım olacaq mədaxillərin haradan və nə yollar ilə alınacağı bəhsinə məşğuldur.

Bu məsələyə cavab vermək üçün «zemstvo idarələrinin Qafqaza tətbiqi barəsində» yazılan rəsmi zapiskadan «U–S» cənablarının iqtibas etdiyi bəzi mütaliatı qareinə bildirək:

Bəyannamənin dediyinə görə, bu vaxta kimi zemski vergidən ötəri ümumi bir qismətnamə olub hər il 4.692.304 manat yığılmışdır.

Bu mədaxil və məxaric ölkənin ayrı-ayrı əyalətlərində münasibət üzrə olmamışdır. Bir vilayətdə, qubemiyada mədaxil az olsa da, məxaric çox olmuşdur. O birisində məxaric az olsa da, mədaxil çox olmuşdur. Yəni bir vilayətin xərci, o birinin hesabına olunub getməkdə olmuşdur. Zaqatala okruqu və Bakı qubemiyasından başqa hamı əyalətlərə mədaxillərindən çox məxaric olunur. Yəni Bakı qubemiyası və Zaqatala okruqundan başqa heç yerdə əhalidən yığılan zemstvo xərcləri əhalinin ehtiyacını rəf eləmiyor. Hərgah bu yerlərdə o ehtiyaclar rəf olunursa o da Bakı qubemiyası və Zaqatala okruqlarının ehtiyaclarından artıq qalan vergilərin hesabına və yainki xəzinədən hər ildə buraxılan 282.227 manat təxsisatın hesabına olunur.

Zemstvo idarələri təşkil olunduqda mədaxil məxaricin bu qisim ilə təqsimi mümkün ola bilməz. Onda mədaxil pulları axtarmaq məsələsi özünü qəti surətdə hiss etdirəcəkdir.

Bu məsələni həll etdikdə əvvəlinci və ümdə yollardan biri – bəyannamə müəllifinin fikrincə – zemstvo vergilərinin polisiyə xərc olunan hissəsini dövlət xəzinəsinin öhdəsinə verməkdir. Bu mətləbə hər il iki milyon 490 min 800 manat xərclənir ki, ümumi məxaricin 53 prosentini təşkil ediyor.

Polisə strajniklərinə və qeyri hökuməti-zabitəyə olunan xərclər zemstvo mədaxillərinin böyük bir hissəsini udub ya qeyri ehtiyacların rəfinə artıq müşgüllük veriyor və əyalətlər, mədəni müəssisələr cəhətindən artıq çətinliklər çəkiyorlar. Burası bundan sonra səbir ediləcək deyildir. Lazımdır ki, bu xərc hökumət öhdəsinə verilsin.

1902-ci sənədə sabiq daxiliyyə naziri Pleve, Qalitsinə yazdığı 1903-cü ilin iyunun 20-də zemstvo idarələrini hər qubemiyada xüsusiyyətə qoymaq barəsində sadir olar fərmanı xəttar ilə bərabər, öz tərəfindən polisə xərclərinin dərəcə ilə dövlət xəzinəsinin öhdəsinə verilmək barəsində məhəlli hökumətin iltimas eləməsini tövsiyə etmişdir. Buna görə də 1904-cü ildən 3 il irəliyə tərtib verilən zemstvo xərclərindən polisəyə olunanın bir xümsünü xəzinə hesabına olunmağa qərar verilmişdir. Bu qərara müvafiq gərək idi ki, 1909-cu ilin əvvəlinə kimi zemstvo məxarici bilmərrə polisə xərclərindən xilas ola idi.

Lakin bu mülahizə əmələ gəlməyib, 1904-cü ildən bütün zemski xərclərini örtməkdən ötrü xəzinədən 282.227 manat təxsis ediliyor.

Bundan əlavə də zemstvo barəsində olan qərardad polisə xərclərini hərgiz zemstvo idarələrinə həvalə etmiyor. Onlar bu xərci etməyə məcbur deyildirlər. Və hal-hazırda zemstvo idarələri olan yerlərdə də bu xərci edən zemstvolar deyildir.

Həmin bu mülahizələr ilə məhkəmə müfəttişləri və polisə əzalarının maaş və məkan xərcləri ki, Zaqafqaziyada ildə 51.000 manata çatmaqdadır, dəxi zemstvonun borcu deyildir. Həmçinin indiki halda zemstvo işlərinə baxan bəzi hökumət müəssisələrinə verilməkdə olan 93.000 manat dəxi verilməyəcəkdir.

Bu sayaq ilə gərək xəzinə öhdəsinə 2 milyon 237 min 200 manat xərc köçürülsün və zemstvo mədaxillərini yuxarıda göstərilən (2.237.200 manat) xərcdən azad etməklə bərabər xəzinənin illik təxsisi olan 282.227 manatdan da imtina etməlidir.

Bu surətlə Zaqafqaziya zemstvosunun ümumi mədaxili ümumi məxaricindən 2 milyon 379 min 872 manat qərarında artır.

Bundan əlavə, bəyanat müəllifi zemstvo mədaxillərini artırmaqdan ötrü indi kənd camaatləri eyləyən xərcləri dəxi zemstvoların idarəsinə alınmağı təklif edir.

Qubernatorlardan südur[1] edən məlumata görə kənd camaatlərinin tərəfindən müxtəlif ehtiyaclara bütün Zaqafqaziyada ildə 1 milyon 16 min 86 manata qədər xərc olunurmuş.

Bu mədaxillər də zemstvo idarəsi müdaxillərinə artırılsa, o surətdə zemstvo idarələrinin büdcəsi indikinə nisbətən 1 milyon manat artar. Bir milyon manat artar da təzə bədə[2] ağırlığı da verməz. Camaatı artıq vergi verməyə vadar eləməz. Çünki bu artıq vergi indiki halda kəndistan camaatindən çıxmaqdadır. Özü də hesabsız, yersiz surətdə xərc olunmaqda və hər bir nizam və qaidədən xaric bir halda xərclənməkdədir.

Lakin yuxarıda göstərilən 5 milyon yarım manat gələcək Zaqafqaziya zemstvosu xərclərini ödəməz. Bundan ötrü lazımdır ki, onun bilavasitə olan vergi mədaxili artırılsın.

Necə ki məlumdur, Dövlət dumasının 1908-ci il fevralın 12-də olan qərardadına görə canişin soveti yer bədəsinin yeni üsulunu təyin etmişdir. Bundan naşı bilümum yer bədəsi hesabına olaraq zemski vergisi də gərək ki, 4 milyon 470 min manatdan, təxminən 6 milyon manata qədər artırılsın. Bu surətlə Zaqafqaziya zemstvosu vücudunun əvvəlinci ilində 7 milyon manat qərarında bir mədaxilə dara oluyor ki, bu bizim əhalimizə təqsim olunsa, hər adam başına 1 manat 20 qəpik düşüyor.

[1] **südur** – sadir olma, hasil olma

[2] **bədə** – vergi



Hərgah Rusiya zemstvoları ilə bunu qiyas eləsək – əvvəl kərdə bu qədər bir mədaxilin zemstvo öhdəsinə həvalə olunan mədəni işlərin icrası üçün kifayət edə bilməsinə qənaət etmək olar.

Zaqafqaziya islahatı düşmənlərinin əllərində olan bəhanələrdən biri də budur ki, Zaqafqaziya zemstvolarına lazım olan mədaxil yoxdur. İştə bu bəyanat bu qisim əşxasə bir növ cavabi-şafi[1] olsun gərəkdir.

**M.Əmin**

*«Tərəqqi», № 104, 17 noyabr 1908*

## İBTİDAİ YERLİ MƏKTƏBLƏR

İbtidai məktəb gərək ki, milli olsun. İbtidai məktəb gərək ki, yerli camaata doğma olsun. Burada təlim ana dilində olsun. Bu məktəblər gərək camaatin məişətinə uyğun olsun...

İştə bu nəzərlər həmişə maarifi politika aləti deyil, camaat ümidgahı etmək istəyənlərin xahişi idi. Hər kəs ki, məktəbi azad bir maarif idarəsi bilirdisə, hər kəs buraya farsların dediyi kimi «kargahi adəm sazi» nəzəri ilə baxırdısa – mütləq onun fikri yerli məktəbləri yerli etmək idi. Mütləq onun çalışdığı ibtidai məktəbi daireyi-mədəniyyətə girə bilməyə müqtədir mübtədilər yetişdirmək üçün idi...

Ancaq bəzi surətnümalar bəzi məktəblərə məktəblikdən irəli bürokratizm idarəsi və misyonerxanalar nəzəri ilə baxanlar bu fikirlərin əleyhində idilər...

Nə qədər ki bu əleyhdarlıq hökmfərma idi, nə qədər ki bu ürfanpərvəran surəti ilə nümayişdə olan iğfalkalar meydanda idilər və nə qədər ki bunların fikri məzlumların təşəbbüsati-nuraniyyəni buludlar altına almaq qüvvət və qüdrətində idilər, iştə bu yerli məktəblər də bir haləti-səfalət və fəlakət ilə dolanmaqda, dirilik etməkdə idilər.

Camaat bu məktəblərə inanmıyordu. Onlar da «təlim» pərdəsi altında gizlənmiş olan politikanı dərk də olmasa, avama müxtəss bir fəhmi-təbii ilə deyəsən ki, qanmış idi...

Əvət, rus-müsəlman adı ilə müsəlmanlar üçün açılmış olan yerli məktəblərin 17 oktyabr günlərindən qabaqkı halı böylə bir dairədə idi. Müsəlman və yerli məktəbi hesab olunur idisələr də müsəlmanlıq və yerlilikdən fəqət bir ad var idi... Həftədə 25–30 dərs arasında 3 saat türk dili və 2 saat şəriət dərsinə vaxt ayrılması bunu türk və müsəlman məktəbi ediyormuş. Buraya türk və şəriət dərslərinin «qaidə və nizam» təhtindən xaric olunduğunu əlavə etsəniz onda dəxi bu məktəblərin «milli» olduğuna şəkkiniz qalmaz idi...

[1] **şafi** – kafi, şəfa verən

17 oktyabrda bütün Rusiya maişəti alt-üst oldu. Rusiyanın binayi-həyat və əsasi-davamında bir şikəsti-tarixi əmələ gəldi. Məktəb və maarif dairəsində də bu hal özünü bildirdi. İlminskilər, çerevanskilər və kompaniyaları bir zərbeyi-mənəvi yedilər...

Əsl maarif tərəfdarı, yerli məktəblərin ciddi xeyirxahlarına meydan açıldı.

İbtidai məktəbləri milli olmaq surətinə salmaq istəyən fikri-səlim[1] zəfəriyyət qazandı.

1907-ci sənənin noyabrının əvvəli gəldi. Canişin həzrətləri Qolitsin dövründən qabaq Qafqazda indiki kimi canişinin olduğu vaxtlarda qərar verilib sonra rədd edilən 1881-ci ilin təlim layihəsini yenidən elan və təsdiq etdi... Bu proqram möcibincə yerli məktəblər hər bir şeydən əvvəl milli olmalıdır. Əvvəlinci il müddət tədrisdə bütün təlimat ana dilində olub sonrakı illərdə də rus dili məcburi bir dərs kimi təlim edilməlidir.

Canişini-aliyə həzrətləri Qalitsin məzalimine giriftar olmuş olan bu proqramı yenidən elan etdikdə verdiyi iradənaməsində diyor ki, «Yerli məktəblər mənən və maddən əhaliyə köməkçi olub və gələcək maişətlərində onlara rəhbər olmaq üçün tədrisi ana dilində etməli və onları rus milləti ilə birləşdirib aralarında ittihad vermək üçün rus dilini öyrətməlidir».

Lakin Rusiyanın o ballı sənələri, o şirin ayları, o ruhnəvaz günləri keçdi. Afaq[2] qaranlıqlaşdı. Rusiya məişəti ricətə[3] başladı. Aşkar işdir ki, ümumi olan bu qaidədən milli məktəblər dəxi xaric ola bilməzlərdi. Odur ki, bir təbliği-vüzarət olaraq milli məkatib müdriyyəti Qafqaz nahiyə maarif müdiriyyəti zərfində tətbiq üçün göndərilmiş olan dərs proqramı bütün rus-müsəlman məktəblərinə dəxi göndərilmişdir.

Bu proqram üzrə milli və yerli məktəbi hesab olunan rus-müsəlman məktəblərində dərslər atidəki qərar üzrə oxunmalıdır:

Birklaslı məktəblərdə oxunan dərslərin miqdarı:

**Dərslər 1 və 2-ci, 3 və 4-cü səneyi-tədrisdə**

| Dərslər: | Səneyi-tədrisdə | |
|---|---|---|
| 1) Elmi ilahi dərsi | 4 | 4 |
| 2) Rus dili | 12 | 12 |
| 3) Ana dili | 6 | 6 |
| 4) Hesab dərsi | 6 | 6 |
| 5) Nəğmə | 2 | 2 |
| | **30** | **30** |

Görüyorsunuzmu? Əvvəlinci illərin türkcə təlim edilməsi getmiş. Yerli dilə əhəmiyyət verilməsindən bir nişan qalmamışdır. «Mənən və maddən əhaliyə köməkçi olmaq və gələcək maişətlərində onlara rəhbər

[1] **fikri-səlim** – sağlam fikir
[2] **afaq** – üfüqlər
[3] **ricət** – geriyə dönmə



olmaq üçün «ana dilinə həftədə 6-ca saat verilir». «Rus milləti ilə tanış olub birləşmək üçün» rus dilinə tamam iki dəfə artıq olaraq həftədə 12 saat veriliyor. Böylə proqramın nə dərəcədə mənfəətsiz və kifayətsiz olduğu hər kəscə məlum olduğu kimi görünüyor ki, məkatib müdiriyyətinə belə sabitdir. Eşitdiyimizə görə bu xüsusda Bakı və Dağıstan müdiriyyəti tərəfindən bəzi iqdamat edilmişdir ki, Fon Koxmanın bu qanılmaz hərəkətinə bir surət təsviyə verilsin. İştə baxalım!

**M.Əmin**
*«Tərəqqi», № 107, 20 noyabr 1908*

## MƏTBUAT XÜSUSUNDA

Rusiya mətbuatı olmazın təvyiqatı çəkmiş 17 oktyabr manifestindən bəri bir «hürriyyəti-mətbuat» xülyasına göz dikmiş olan Rusiya qəzetələri budur 3 ildir hələ sıxıntıdadırlar!..

Mətbuat bu qədər bir təzyiqi, bu qədər bir sıxıntını çəkiyor, olmazın cərimələr veriyor, mühərrirlərinin mənfi[1] və məhbus olduğuna qatlaşıyor, bunların hamısına davam ediyordu!..

Fəqət bu davama bir təsliyət, bir gözləmə vardı ki, o da bu təzyiqatın müvəqqəti olub bir az sonra bunlara bir intiha qoyulacaq və mətbuatdan ötrü bir nizam, bir qaidə düzələcək ki, onda daha nə tövr olsa da, bu cəbrlər olmayacaqdır. Mətbuatda qəbahət olsa da, hurası keyfə mayəşau deyil, məhkəmə (sud) ilə təyin ediləcək və lazım olan cəzalar dəxi məhkəmə əmri ilə olunacaq ümidi idi.

İndi bu ümid də nəhayətə çatdı. Nəhayətə çatmamışsa da bir dərəcəyədək özünü göstərmişdir. İşin nə tövr ilə qurtara bilməsini anlamaq çox da çətin deyildir!..

Vüzarət komissiyası tərəfindən Dumaya həll olunmaq üçün verilmək üzrə mətbuat barəsində olan qanun layihəsi hazırlanmışdır.

Bu xüsusda Peterburq qəzetələri layihənin üzünü dərc etməklə bərabər, müxtəlif yollu tənqidatda bulunurlar.

Təzə qanun üzrə mətbuatın qəbahətli və müqəssir olması bilümum məhkəmələrə aid isə də qanun ilə bir çox «xüsusi» hallar dəxi təyin edilmişdir ki, bu surətdə idareyi-zabitənin özü də icrahatda bulunmağa möhtacdır.

Təzə qanun üzrə mətbuat qəbahətli olduğu halda cərimeyi-nəqdiyyəyə giriftar olacaqdır. Özü də bu şərtlə ki, cərimə qəzetə müdirindən qəzetənin müdiri istitaətsiz[2] olsa, naşirdən, naşir istitaətsiz olsa, qəzetəni çap edən çapxana sahibindən alınacaqdır.

[1] **mənfi** – sürgün olunmuş
[2] **istitaətsiz** – iqtidarsız

Məlum işdir, iş böylə olduqda heç bir mətbəə qabaqca müəyyən bir girov almamış və naşir ilə mühərririn müstəti[1] olduğunu təmin etməmiş qəzetə çap eləməsini öhdəsinə almayacaqdır.

Bu nədir?.. Həman köhnədən qalmış və əsası çürümüş qanun deyilmi?..

Nə tövr olur? Hansı ədalət buna yol veriyor ki, bir özgəsinin günahı əvəzində ikincisi məsul olsun?..

Bizim vüzarət nəqdiyyə cəriməsi üsulunu Qərbi Avropadan qəbul edirsə də, əsas məsuliyyət məsələsində köhnə Şərqdən hənuz ayrıla bilmiyor. Ancaq köhnə Rusiyada gözləmək olardı ki, birinin günahı əvəzində başqası cəza edilsin. Qanun və ədalət yoluna düşmək istəyən Rusiyada böylə hallara səbir etmək müşküldür. Əcəba, bu layihəni düzəldən vüzarət komissiyası burasına diqqət verməyibmi?!.

Bundan əlavə, layihənin hüquqi-şəxsiyyəni hifz etmək uğrunda qərar verdiyi nöqtəsi daha təəccüblüdür.

Bir nəfərin şəxsini təkdir etmiş bir qəzetə maddeyi-təkdiri mündəric olan nömrəsinin nəşr etdiyi miqdarı münasibətilə hər nömrəsinə bir manat cərimə verilməlidir ki, burası minlərə, on minlərə baliğ olur ki, heç bir qəzetə bunu təhəmmül edə bilməz.

Hürriyyəti-mətbuata riayət etmək üçün düzlənən bu qərardarlar hamıdan əvvəl mətbuatı tərk edəcək və onların tərəqqisinə manc olacaqdır. Çünki fövqdəki şərtləri qəbul edib nəşr etməyə özünü razı edən idarə çox az tapılar.

Guya, mətbuatın azadlığını təmin üçün qərara alınan qanun işte mətbuatı kökündən yaraliyor və onun vücudunu belə təhlükəyə salıyor!..

Mətbuatın qədrini, əhəmiyyətini Rusiya ərbabi-hökuməti bu dərəcədə təqdir ediyorlar!

Bu, hakimlərimizin təsəvvürü!.. İştə baxalım «vəkillərimiz» nə deyəcəkdir?..

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 108, 21 noyabr 1908*

## TƏDRİSMİ, TİCARƏTMİ?

Bakıda bir nəfər fəqirə, acizə müsəlman övrəti var...

Bu zəifənin ümid və pənahı olan oğlu Məhəmməd Qori darülmüəllimində dərs oxuyur... bunun xərcini və dərs haqqını bir möhtərəmə xanım bərəhdə etmiş və noyabrın 22-sinə kimi olan 105 manat tədris haqqını vermişdir...

İndi isə biçarə övrət oğlundan kağız almışdır ki, hərgah bu günlərdə ona 180 manat yollanmazsa, bədbəxt olacaq, dərsdən qalacaqdır...

Bu 180 manat nə puldur?

[1] müstəti – imkanlı



Biz bu xüsusda darülmüəlliminə yaxın olan bir nəfərdən əhval bildik. Onun bizə verdiyi bəyanatdan məlum oldu ki, Məhəmməd dərsində zəif olduğundan şurayi-müəllimin qətnaməsi ilə dərsdən çıxarılıb və ona ixtiyar verilmişdir ki, təzədən imtahan tutsun. Görünür ki, məzkur indi imtahan tutmaq istəyir və qeyri darülmüəlliminə şagird hesab olmayıb təzədən imtahan verənlər kimi gərək ki, 180 manat versin... Olsun ki, möhtərəmə xanım həzrətləri də Məhəmmədin keçən ildə bir sinifdə iki il qaldığını və bu dəfə də təzədən imtahan tutduğunu nəzərə alıb «istedadsızdır» xəyalı ilə dəxi pul verməK istəməmişdir.

Adətən, qaidə hər yerdə, hər məktəbdə bunadır ki, dərsdən zəif olan şagirdə ikinci dəfə bir imtahan verməyə fürsət verirlər. Hərgiz məktəbdən xaric etməzlər. Zaif, şagird hesabında qalar da və təzədən imtahan verir və heç bir vaxt təzə bir imtahan tutanlarla bir cərgəyə qoyulmaz...

Nə isə darülmüəllimin heyəti-müəllimini ümumi olan bu qaidəyə riayət etmiyor. Şagird zəif oldumu, bilmərrə məktəbdən ixrac ediliyor. Sonra şagird məktəbdə oxumaq istəyirsə, təzədən ərizə verib imtahan tutmasını təklif ediyor...

Bunun illəti və səbəbi nədir?..

Biz burasını fövqdə zikr etdiyimiz darülmüəlliminə yaxın və bələd olan şəxsdən təhqiq etdikdə məlum oldu ki, bu cəfaya giriftar olan bir Məhəmməd deyil, bunun kimi 6 nəfər başqa müsəlmanlar da varmışlar.

Görünür ki, darülmüəllimin heyəti-müəlliminin burada qəsdi tədris deyil. Böylə bir qətnamə və böylə qaidə və nizamın məğzi nə təlim fikri, nə pedaqoji nümayişi, heç biri deyil, bunun əsl səbəbi ticarətdir!..

– Ticarətdir?.. Darülmüəllimin ticarətxanəmi?..

– Bilirmisiniz, iş nə yerdədir? Təzə ərizə verib darülmüəlliminə girmək istəyən şəxsə lazımdır ki, həqqi-təlimdən əlavə 30 manat da məktəbin xırda xərcləri üçün versin ki, bu pul məktəbin öz idarəsində qalıb xəzinəyə verilmiyor. Həqqi-təlim isə xəzinəyə verilib sonra oradan məktəbə təxsis olunan məbləğ surətində darülmüəllimin idarəsinə qaytarılır. Bu pulun hesabı möhkəmdir. Xırda məxaric üçün alınan 30 manat isə müdir həzrətləri Miropevin öz idarəsinə həvalə olunur. Bunun hesabı bir o qədər müşkül və möhkəm deyildir. İndi ikinci imtahan vermək əvəzinə bilmərrə məktəbdən xaric etmək politikasının nərədən gəldiyi aşkar oluyormu?..

Ancaq ondan ötrü ki, hər şagirddən 30 manat məktəbin «xırda mal ehtiyacına» alınsın – deyə Kazan misyonerxanasından çıxıb müəllim mündirinə geyinmiş kişilərin şurası böylə qətnamələr elər və özgənin ehsanı və köməyi ilə oxumaqda olan biçarəgəni böylə ehtiyaclara salə bilər.

Bunlara nə deyiləcək, nə yollu intiqadlara[1], nifrətlərə məzhər olacaqları aşkardır!..

Biz ancaq buna təəccüb ediyoruz ki, bir nəfərdən savayı o şurada olan başqa müəllimlərin (keşişlərdən başqalarıdı) insafı necə rəva görmüş ki, ancaq Miropevin xatirxahı olan bu xilafi-üsul və qaidə qətnaməni imzalamışlar!.. Olmaya məclis qurtarandan sonra «yaman bir iş gördük» – sözü ilə tövbə edib vicdanlarının daha rahət olduğuna və hər bir məsuliyyətdən qurtardıqlarına inanıyorlar?..

Əvət, Qori seminariyasında (darülməlliminində) bu qisim «qanunlara», «qətnamələrə» çox tez-tez təsadüf etmək olar!..

Bu barələrdə bir ayrı vaxt. İndi isə seminariya qanunlarına, daha doğrusu, ticarətinə qurban olan Məhəmmədə kömək etmək lazımdır!

Bizim indiki, övzaımızın, məişətimizin artıq dərəcədə olan ehtiyacı məlumdur. Bu saətdə biz Qafqaz müsəlmanlarına incinerdən, doktordan, texnikdən – hər qisim intelligentlərdən daha əvvəl camaat müəllimi lazımdır!..

İştə burasını nəzərə alıb da Məhəmmədə kömək etməlidir!..

Əminiz ki, bizim bu dəvətimizə ləbbeyk deyən tapılıb Məhəmmədi milli məkatiblərimiz naminə bu müşgüldən qurtarar!..

Himmət, yahu Himmət!!

**M.Əmin**

*«Tərəqqi», № 108, 21 noyabr 1908*

## MÜƏLLİMLƏR GƏRƏK

Məktəb qədri bilindikcə, elm və mərifətə olan meyil artdıqca müəllim yoxluğu özünü bildirir!..

Müəllim yoxdur!..

Budur müsəlmanların tərəqqi və mədəniyyətə tərəf getdiklərində yollarına sədd olub onları çətinliyə salan səbəblərin birisi; budur rəfi vacib olan ehtiyacların birincisi!..

İndi camaəti elmə, dərsə rəğbətsiz, meyilsizdir – deyə ittiham etmək olmaz. Hər yerdə məktəblər açılmağa başladı. Hər yerdə məktəbsizlik özünün nə dərəcədə bir mühlik[2] olduğunu bildirdi. İndi məktəb açılır. Xalq uşaqlarını mədrəsələrə yollayırlar...

Lakin müəllim tapılmıyor!

Bu vaxtadək mütəəllimlər tapılmıyordusa, indi də, demək olar ki, müəllimlər tapılmıyor.

Əvət, ana dilini tədris etməyə müqtədir olub və qanunca haqqi-tədrisə malik olan və pedaqoji nöqteyi-nəzərdən hazırlığı olan müəllim

[1] **intiqad** – tənqid

[2] **mühlik** – məhvedici



tapılmıyor... Nə etməlidir? Haradan müəllim almalıdır?.. İndiki məktəblərin vücudu ilə müəllim qəhətliyi varsa, ümumi təlim layihəsi tətbiq olunanda nə olacaq!..

Əcəba, bütün Qafqaza müəllim yetişdirməkdən ötrü bir Qori seminariyası bəsdirmi?

Müsəlmanlara məxsusi darülmüəllimin açmaq lüzumu çoxdan özünü bildirməkdədir. Zatən bu xüsusda artıq danışıqlar olunur və vaxtında bu danışıqlar, bu layihələrin qayətdə iti bir surət aldığı dəxi məlumumuzdur. Lakin bizim hər işimizdə olduğu kimi, bu məsələdə də bütün danışıqlarımız, layihələrimiz, təsəvvürlərimiz hələ danışıq, layihə, təsəvvür oluyor, qalıyor, ondan o tərəfə keçilmiyor!..

Müsəlmanlara məxsus darülmüəlliminin binası əsasını təqdir etməmiz və bu yolda ediləcək hər bir qədəmi alqışlamağımızla bu fikrin fele gəlməsini arzu və xahiş etməklə bərabər Qori seminariyasından dəxi iğmazi-eyn[1] etməmiz rəva deyil, zənnindəyiz!..

Doğru, Qori seminariyasının əsasları, üsulları «ticarətdən», «misyonerlikdən» ibarətdir. Lakin bununla belə, madam ki, ayrı bir darülmüəllimimiz yoxdur, buradan beqədri-imkan istifadə etməliyik.

Hökumət bu məktəbin müsəlman şöbəsinə ildə 20 min manat xərc ediyor. Hərgah müsəlmanlar da öz mənfəətləri üçün bu xüsusda ildə 1500, 2000 manat sərf eləsələr, hər il 5–6 müəllim fəzlinə olaraq hazırlaya bilərlər.

İştə burasını nəzərə alıb bir az hümmət etməlidir. İldə 2 min manat artıq pul deyildir, bunu bir Bakı yığıb verə bilər və bu yol ilə bu qədər möhtaci olduğumuz müəllimlərin təksirinə[2] nail olmaq olar!..

O biri cəhətdən seminariya üsulu ilə mübarizə etmək üçün bir mülahizəni də nəzərdən buraxmamalıdır. Müsəlman şöbəsinin inspektor yeri hənuz açıq qalmaqdadır. Buranı uzun bir müddət açıq saxlamaqdan, olsun ki, məqsəd miropevlərin xatirxahı və məsləkdaşı bir nəfəri təyin etməkdir. Burasına dəxi diqqət verməli və hər vasitə ilə olsa öylə eləməlidir ki, bu mənsəbə təyin olunacaq şəxs müsəlmanların razılığını təmin etsin. İş böylə olursa o halda oraya veriləcək 1500 və ya 2000 manatın yerinə düşməsinə bir dərəcə əmniyyət hasil və oradan gözlənəcək mənfəəti almaq olar!!.

Fəqət iqdam lazım!..

**M.Əmin**

*«Tərəqqi», № 109, 23 noyabr 1908*

[1] **iğmazi-eyn** – göz yumma

[2] **təksir** – çoxaltma

## İCMALİ-SİYASİ

### İRAN

İrandan hökumət qərardadlarına dair biri-birinə nəqz və fəsx edərək həm gülməli və həm ağlamalı xəbərlər gəlməkdədir.

Bunlara gülməli diyoruz, çünki öylə dirayətsizlik[1] və istiqamətsizlik[2], cübn[3] və süstlük, bunların hamısından bədtəri cəhl sərf ilə böyük bir camaata, bütün bir ölkəyə hakim olmaq iddiasında olanların halı gülməlidir. Ağlamalı diyoruz, çünki böyük bir millətin, bütün bir ölkənin böylə bir bikifayətlər[4] əlində qalıb illər müddətincə giriftar və əsir düşüb, indi də onların cəngəllərindən qurtarmaq istədiklərində böyük girdablara, qanlı faciələrə düşüb izmihlala yaxın olduqları – ağlamalıdır.

İştə bu gülünc və ağlar xəbərlərin axırıncısı teleqrafın axırıncı xəbəri olan İran «Dövlət şurası» xəbəri idi.

Guya, «Dövlət şurası» ondan ötrü düzəlirmiş ki, yığılacaq məclisin üsuli-intixabını hazırlasın. Öylə üsul ki, onun vasitəsilə yığılacaq məclis keçənki kimi olmayıb ölkənin üqəlaları və üləmalarına məzhər olsun.

Biz bu barədə öz fikrimizi deyib, bu xüsusda naümidliyimizi bildirmişdik. Və bunun da təzə bir şəbədəbazlıqdan ibarət olduğuna işarə etmişdik. Zatən şah özü dəxi «Röyter» müxbiri ilə elədiyi söhbətində bu şəbədəbazlığını bir daha isbat etmiş və demiş ki, guya, o (şah), əsasən, fikri-məşrutiyyəti təqdir ediyor və camaatın tərəqqisin onda görüyor. Lakin bu qədər var ki, İran üçün bu hənuz tezdir, camaat ona hazırlaşmamışdır.

İş böylə olduqda görünür ki, «Dövlət şurası» dəxi göz örtmək üçün düvəli-müəzzəmə qabağında bir surət göstərmək nə qədər səbükfəhmanə[5] olsa da, Rusiya və ingilis dövlətlərini allatmaq qəsdi ilə qurulmuşdur.

Bu şuranın sədrinin Monte-Karloya getdiyi xəbəri bunu daha müəyyən qılıyor. Məclis paydar etmək üçün şura bina olunur. Lakin bu şuranın sədri məşhur qumarbazların klubu hökmündə olan «Monte-Karlo»ya səyahətə gediyor!..

İran ərbabi-hökumətindən bu təəccübmidir?..

Onlar qumar ilə idareyi-məmləkətin bir o qədər də fərqində deyildirlər! Onlar öz cəhalətləri, nəxvətləri[6] saiqəsi ilə böylə bir mütəzadd və münafiyi[7]-qaidə işləri fərq etməzlərsə də, əbləhanə aldatmaq istədikləri Avropa diplomatları onu təşxis edirlər.

Onlar eyləyə bilərlər ki, doğru söz ilə iğfal[8] və yalanın həqiqətnəvazlıq ilə şəbədəbazlığın fövqünə varsınlar. Onlar səbir eləməzlər ki, Əmirbahadır kimi səfyələrin kabinələri onların nümayəndələrinin gözlərinə üfürməklə şan və heysiyyəti-millilərini təkdir etsin. Bu gün məşrutənin bərqərar olduğunu təmin etməyə, onlara söz verib sabah fəsxinə fərman versinlər. Hərgah bu xüsus İran hökumətinin arı olmadığından vecinə deyilsə, öylə xəyal etməsin ki, Avropa dövlətləri də onlar kimi biar və bihəmiyyətdirlər!..

[1] **dirayətsizlik** – savadsızlıq
[2] **istiqamətsizlik** – vicdansızlıq
[3] **cübn** – qorxaqlıq
[4] **bikifayət** – səriştəsiz
[5] **səbükfəhmanə** – yüngül düşüncəli
[6] **nəxvət** – xudbin
[7] **münafi** – biri-birini rədd edən
[8] **iğfal** – aldatma



İştə baxınız rəsmi «Rossiya» və nimrəsmi «Novoye vremya» qəzetələri dəxi artıq səbir edəmiyorlar: İran hökumətinin iğfalkarlığına şiddətli surətdə etiraz ediyorlar. Həmişə İran məşrutəçilərinə ittihamat istinad verməkdə bir növ İran hökuməti tərəfdarı olan «Novoye vremya» dəxi «cana gəlmişdir». Böylə şey olamaz, axır ki, bu Avropa dövlətlərinə gülmək, ona istehza etməkdir!.. İran hökuməti gərək vədə verdiyi işi əncamə gətirsin diyor!..

İran hökuməti, əcəba, bundan sonradamı inad edəcək, əcəba, bundan sonradamı iğfalkarlığından, dənaətindən, səfahət və biirzəliyindən əl götürməyəcək?!

İnsan bu həşəratın bir şeyə müstəid olmadığını təcrübələrlə gördüyündən bir haləti-məyusiyyətdə qalıb, İran camaatinin qələbəsi ilə İranın izmihlal fikri arasında mütərəddid qalıyor!..

İştə görəlim sabah nə gətirəcək!..

### TÜRKİYƏ

İran işləri böylə bir vəxim surət aldığı halda Türkiyə işləri təsbiyələnir. Oradakı müharibə xəbərləri, müharibə qorxuları yavaş-yavaş zail oluyor. Bolqariya ilə Türkiyə müqavilələrinin etilafə yaxın olduğunu xəbər vermişdik. Avstriya təhdidatı, boykot məsələsi də bu gün Avstriyanın daxilində baş vermiş millət davası səbəbindən ruyi-salah almaqda və Avstriya–Osmanlı müharibəsi olan şayiatı ikinci səthəyə atılmaqdadır.

Avstriya daxilində indiki zaman çexlər ilə nemsələr vuruşmada, biri-birilərini kəsməkdədirlər. Bu fəlakət Avstriyanın Bosna-Hersoku zəbt etməyindən nəşət etmişdir ki, slavyan olan çexlər bundan narazıdırlar və bu zəmində onlar ilə nemeslərin arasında ataşi-təəssüb fövran etmişdir.

Avstriyanın daxilində olan bu iğtişaş iştə Avstriya dövlətini Türkiyəyə nisbət ittixaz etdiyi xətti-hərəkətindən inhiraf etməyə məcbur ediyor. Bu vaxta kimi heç bir vəchlə araya qoymadığı, qoymaq istəmədiyi Bosna-Hersok təvizatı barəsində indi ruzi-riza göstəriyor. Zəbt etmiş olduğu Bosna-Hersok xüsusunda Türkiyəyə təvizatı-nəqdiyyə verməyə can atıyor. Hələ bu axır vaxtlarda boykot məsələsindən dolayı qalxızdığı tələbatını belə yaddan çıxardıyor. Artıq bu xüsusda Türkiyə hökumətinə elədiyi təklifdən vaz keçiyor.

Əvət, səri-hökumətdə millətin əmanətini müzhir[1] olan əşxas olursa, məmləkəti hər bir təhlükədən qurtara bilmək ümidi mövcud olacaqdır!

İştə bu surətlə Türkiyə xarici təhlükəsindən bir dərəcəyədək əmin olub daxili işlərinin intizamına çalışa biləcəkdir ki, burası təcəddüd etmiş osmanlılar üçün hər bir müvəffəqiyyəti-sairədən daha əfzəl, daha qiymətlidir!..

## RUSİYA

Rusiya əhval-siyasiyyəsində dəxi bir təhəvvül görünməkdədir. Bu vaxta kimi davairi-aliyyənin imtiyazına, təqdirinə məzhər olan «Rus milləti ittifaqı»nın hörməti, deyəsən, intihayə çatır... Daha doğrusu, «eşşək çulunu düzəltməyə» məmur olan «həqiqilər» çulu qarınaltına salıyorlar!..

«Novoye vremya» rus milləti ittifaqından şikayət ediyor: qubernatorların verdikləri dokladlardan görünürmüş ki, həqiqi ruslar camaəti, milləti iğva ediyorlarmış?..

Bunu deyən biz deyilik, «yəhudi» mətbuatı da deyil, «Novoye vremya»nın özü, «Suvorin baba»nın qəzetəsidir. Doklad verən qubernatorların «yəhudidən dönmə» olduqlarına da, görünür ki, «Novoye vremya» güman etmiyor...

Bəs onda nərədədir ki, «Novoye vremya» böylə məqalə yazmış?..

Əvət, görünür ki, «həqiqi ruslar» duzu artıq işlətmişlər!..

Həqiqi ruslar Rusiyanın əqilsiz və dəli dostları isələr, «Novoye vremya»çılar onlara nisbətən ağıllı düşmənləridirlər! Odur ki, camaətin «iğva» olunduğuna razı olmuyorlar!

Fəqət bu da İran şəbədəsindən geri qalmaz bir şəbədəbazlıqdan və gözlərə pərdə salmaqdan, iğfarkarlıqdan başqa bir şey deyildir!..

Rusiya camaəti istər o ağılsız dostlar, istərsə bu ağıllı düşmənləri – hər ikisini çox yaxşı tanıyor!..

**M.Ə.Rəsulzadə**

*«Tərəqqi», № 110, 24 noyabr 1908*

## FİTNƏ VƏ PROVAKASİYA

«Nicat» maarif cəmiyyətinin drama heyəti tərəfindən üzümüzə gələn cümə gecəsi məşhur artist Ərəblinskinin şərəfinə «benefisə» olaraq «Qəzavat» dramasının oynanılması elan olundu.

«Qəzavat» bir nəfər tərəqqipərvər rus aktyoru tərəfindən yazılıb məşhur dramaturq Əbdürrəhim bəy Haqverdiyev tərəfindən türkcəyə tərcümə edilmişdir.

Bu əsər Dağıstanın öz istiqlal və hürriyyəti uğrunda etdiyi mücahidatı, Şeyx Şamil əfəndi həzrətlərinin zamani-fədakarasını təsvir ediyor!.. Bu pyesə dağıstanlıların şücaət və fədakarlıqlarını meydani-ənzarə[2] qoyur...

[1] **müzhir** – zahirə çıxaran, aşkar edən
[2] **ənzar** – nəzərlər, baxışlar



Burasını da deməliyiz ki, bu əsərdə Şeyx Şamil həzrətlərinin özü səhnəyə qonulmuyor. Ancaq o zati-ali miqdarın bir tərzi ədibanə ilə adı çəkilməyə başlık olunur.

Böylə bir dramanı məlum işdir ki, müsəlman səhnəsi dörd gözlə gözlər və dörd əli ilə qucaqlar. Bu tövr gözəl bir əsəri mən etdirmək[1] üçün heç bir müsəlmanın qiyam edəcəyinə, ələlxüsus ləzgi qardaşların etirazını kimsə güman etməz, biləks bunun ləzgilər tərəfindən artıq bir hüsnü-təvəccöh və qəbulə məzhər[2] olacağına ümid edilir idi!..

Lakin, görünür ki, müftinlər böylə təsəvvür etmiyorlarmış, görünür ki, onlar fürsət axtarırmışlar ki, ləzgi qardaşlar ilə Bakı camaəti arasına bir iğtişaş salsınlar. Onlar istəyirlərmiş ki, şəxsi qərəzləri üçün «Nicat» adı ilə sui-istifadə də bulunsunlar!..

İki gün irəli «Nicat»da həmin bu dramanın hazırlığı gedirkən bir dəstə ləzgi «Nicat»a gəlir. Bunlar ilə bərabər ləzgi qardaşların hörmətli və sahib-nüfuz şəxsləri də olurlar. Ləzgi mollası əfəndi həzrətləri dəxi hazırda oluyorlar...

– Eşitdik ki, «Nicat» Şeyx Şamil həzrətlərinin oyununu çıxardır, onu teatroya qoyur!.. Belə şey qardaşlıqda yaxşı deyil...» – diyorlar.

– Əfəndilər, görünür ki, siz müştəbeh olmuşsunuz!.. Şeyx Şamil həzrətləri sizə nə dərəcədə yaxınsa, bizə də o dərəcə yaxındır. Şeyx Şamil əfəndinin fədakarlığı sizdən ötrü nə əndazədə əziz və girami[3] isə, bizdən ötrü də o dərəcədə əziz və giramidir!..

Nəuzu-billah[4]. Şeyx həzrətlərini təkdir[5] edəcək şeyi gərək siz özünüz xəyalınıza belə gətirməyəydiniz ki, – «Nicat» teatroya qoysun!.. Mədam ki, böylə xəbər buraxmışlar, yaxşı olub ki, özünüz gəlmisiniz, buyurunuz, drama hazırlanır, qulaq asınız onda bilərsiniz ki, sizi iğfal[6] etmişlər!..

Ləzgi qardaşların nümayəndələri «repetisiya» otağına daxil olub, oyuna axırına kimi tamaşa etdilər və mütəəssir yerlərində ağlayıb, böyük bir razılıq ibraz etdilər.

Bir nəfər ləzgi nümayəndəsi ləzgi əfəndisi cənablarından üç dəfə təkrar ilə xəbər aldığı: «Burada Şeyx Şamil həzrətlərinə toxunan bir şey yoxdurmu??.» – sualına hər dəfə qəti və bilatərəddüd – «yoxdur, yoxdur!» – cavabını aldıqda, bir haləti-məsrurənə ilə yerindən durub «Nicat»çılara xitabən:

– Qardaşlar, indi ki, siz bizim şücaətimizi, fədakarlığımızı, mühəssənati[7]-milliyyəmizi üzə çıxarıb, aləmə göstərməklə bizə xidmət ediyorsunuz, var olunuz qardaşlar!.. İndi deyiniz biz sizə nə bağışlayaq!!.

[1] **mən etdirmək** – qadağan etdirmək
[2] **məzhər** – nail olma
[3] **girami** – hörmətli
[4] **nəuzu-billah** – üzdən iraq
[5] **təkdir** – pisləmə
[6] **iğfal** – aldatma
[7] **mühəssənat** – gözəl xasiyyətlər

Məzkurun böylə sadə, sadiqanə, səmimanə söylədiyi sözləri insanda artıq hissi-bəradəri oyadır. Artıq məhəbbət artırdığı kimi, bu qisim sadədilləri, saf ürəkləri öz şəxsi mənfəətlərindən ötrü əl dəyməmiş bir zəmin hesab edən iğvakarlara[1], müftinlərə insanın qeyzi, acığı tutub nifrətini artırır idi ki, bu bivicdanlar necə qıyırlar ki, böylə bir səmimiyyət və sadəliyə məzhər olan ürəyi öz şəxsi mənfəətlərinə yetişmək üçün ləkələyib, iştibaha[2] salıyorlar!..

Xülasə, qara qüvvələrin pərvərdə etdikləri fitnə keçmədi!.. Ləzgi qardaşlar artıq dərəcədə razı qalıb getdilər. Vədə verdilər ki, bütün ləzgilərə xəbər edəcəklər ki, cümə günü «Qazavat»ın tamaşasına gəlsinlər!

Ümid ediyoruz ki, cümə günü ləzgi qardaşlar Tağıyev teatrosuna gəlib oradan artıq razı olarlar.

* * *

Böylə bir provakasiyanın hardan gəldiyi «Nicat» cəmiyyətini qara-qara fikirlər və sui-zənlərə[3] salıyor idi. Kim böylə şeyə müstəiddir? Kimdir ki, bu tövr dolablar quruyor? – fikri «Nicat»ın bütün üzvlərini alarkən, cəmiyyət adına cənab Mustafa bəy Əlibəyov tərəfindən bir kağız gəldi ki, bu kağız işin mahiyyətinə bir dərəcəyədək işıq salıyor və işi açmaq üçün sərì kələfi göstəriyor.

Görünür ki, müvəffəqiyyətsizliklə qurtaran bu fitnənin hazırlandığından xəbərdar imiş ki, cənab Əlibəyov həman təsvir etdiyimiz əhvalat günü bu ixtarnaməsini[4] yollamışdır. Rusca yazılmış olan bu kağızın eynilə tərcüməsi işte bu:

«Maarif cəmiyyəti «Nicata»

Mühüm bir səbəb və başqa bir çox illətlərə[5] görə sizə məsləhət görüyoram ki, «Şamil» oyununu təxir edəsiniz. Naxoş olduğumdan mən özüm gələ bilmədim.

Mustafa bəy Əlibəyov».

Biz cənab Əlibəyovdan xahiş və tələb ediyoruz ki, işarə etdiyi «mühüm bir səbəb və başqa bir çox illətlər» barəsində lazimeyi-bəyanat və izahatı bilatəxir versin ki, fitnənin hardan gəldiyini bilək, yoxsa məcbur oluyoruz ki, Əlibəyov cənablarının özlərinin dəxi bu qaranlıq işdə şərik olduğunu güman edək!

**«Nicat» sədri M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 112, 26 noyabr 1908*

[1] **iğvakarlar** – yoldan, başdan çıxaranlar
[2] **iştibah** – şübhə
[3] **sui-zənn** – pis xəyal
[4] **ixtarnamə** – xəbərdarlıq məktubu
[5] **illət** – səbəb, məqsəd



## MİLLİYYƏT VƏ ƏYALƏT MƏSƏLƏSİ

Milliyyət və ya əyalət məsələsi; işte Rusiya həyatının, həyati-siyasiyyəsinin ən azarlı, ən ağrılı yeri!..

Rusiyanın hər bir əyaləti, Rusiyada sakin olan hər bir millət, hökumət başında olan heyətə və ya Dumada olan əksəriyyətə öz əlaqə və münasibətini bu məsələnin surəti-həllinə nisbətlə müəyyən edir...

Hərgah bir heyəti-idarə və yaxud Duma firqələrindən birisi təklif elədiyi bir layihə və əsas ittixaz etdiyi bir məsələ əyaləti-məmləkətin və müxtəlif millətlərin təzyiq olunmağa adətkərdə olan hüquq və ixtiyarlarının mühafizəsinə durarsa, onlardan bir hüsnü-təvəccöh görməyə ümid elər.

Rusiyanın indiki övzai öylə bir vəziyyətlə binalaşmışdır ki, nə bir heyəti-hakimiyə, nə də Duma əksəriyyətinə malik olan oktyabristlərə, bunların heç birinə zikr etdiyimiz miləl və əyalət tərəfindən bir hüsnü-təvəccöh yeri yoxdur.

Lakin bununla belə, oktyabrist firqəsinin başçısı Quçkov bar-bar bağırır, məclislərdə, yığıncaqlarda öz firqələrinin böyüməsindən danışanda ümdə nəzərə aldığı həmin bu hüsnü-təvəccöh məsələsidir. «Bizim taktikamızın səlahiyyətini görən müsəlmanlar da bizlə həmsəda oluyorlar» – deyə Quçkov Moskva iclasında ələnən[1] elan ediyor...

Bu elan ilə bərabər Quçkovun bu siyasət ticarətinə məşğul olduğu ilə bahəm bir də bu firqənin digər nümayəndəsi Fon Anrepə baxınız.

Maarif komisyonunda yerli dillər barəsində olan müzakirə xüsusunda qəzetəmizdə xəbər vermişdik.

Okyabrist olan Fon Anrep bu məsələ barəsində doklad etdikdə diyor ki, «əhalisinin çox hissəsi yerli əhalidən ibarət olan əyalətlərdə *eləmək olar ki*, tədris milli ana dilində olsun». Komissiyanın sol tərəfini *eləmək olar ki*, sözünün *lazımdır ki*, sözünə təbdil olunmasını israr etdikdə Fon Anrep bilirmisiniz nə bəyanat veriyor? O diyor ki, «bu məsələni şərtsiz qoymaq olmaz, zira öylə əyalətlər var ki, oralarda bəzi əhvali-xüsusi və mülahizati-dövləti və siyasidən nəşi ana dilini tətbiq etmək olmaz!..»

İşte bu *xüsusi mülahizat və siyasiyyati* nəzərə alıb da Fon Anreplə bərabər hər bir komissiyada əksəriyyət təşkil edən oktyabristlər burada da öz çoxluqlarından sui-istifadə edib həqq və insafyanə irad edilən bir təshihi əsas və binasız olaraq bir mülahizəyə qurban edib Fon Anrepin təklifini bilatəshih qəbul etdilər.

Bu layihənin *eləmək olar* sözünün baqi qalmasının nəyə lazım olduğu əvvəl nəzərdə aşkar oluyor. Bu ifadə gələcəkdə ediləcək bir çox

[1] **ələnən** – açıq, aşkar

təcavüzata əsas olacaqdır. Bir əyaləti götürüb orada təlim barəsində bəhs açıldıqda yuxarıda işarə etdiyimiz məzhəri hüsnü-təvəccöh olmayan heyəti-hakimələr və idareyi-zabitələr isbat edəcəklər ki, burada ana dilini tətbiq etmək olmaz, zira bir çox *xüsusi mülahizat və siyasət* nöqteyi-nəzərindən buna mümaniət görünür. Onda qoy təcavüzə uğramış o əyalət, o millət Dumaya şikayət etsin, rəfi-iştibahda bulsun, hər nə bilirsə, eyləsin. Məsələ komisyona gələndə isə məlumdur ki, «ağa durub, ağacan da durmuşdur».

Oktyabrist firqəsinin invest* məsələsində daima dad-fəryad etdiyi bu idi ki, «məktəb gərək hər bir siyasətdən ayrılıb xalis bir darülelm olsun». Əcəba, bu xalisiyyət əyalət məktəblərinə şamil deyilmi?..

Əvət, niyyəti xalis olmayıb bütün məqsədi əğrazi-növiyyə və politikanlıqla müləvvəs[1] olan bir firqənin bu tövr fikri-tənaquzi[2] və məsləki-tənasüxnə[3] düşdüyü təbii olduğundan buna artıq təəccüb edilməz!..

Ancaq təəccüb ediləcək orasıdır ki, böylə kəc niyyətliklə oktyabristlər o qədər bir *cürətə* malik oluyorlar ki, çıxıb qəhrkərdələri olan millətlərdən hüsnü-təvəccöh və müvafiqət[4] məchər olduqlarını ələnən elan etməkdən utanmıyorlar.

Qəzetəmizdə müsəlman fraksiyasının naminə olaraq məbus Təvəkkülov cənablarının bu xüsusda «Novoye vremya» qəzetəsində Quçkova yazdığı rəddiyyəni oxuyanlara bu cürətin nədən ibarət olduğu məlumdur.

Öylə bir əyalətlərdən və təlimi-ibtidaisi ana dilində «ola bilənlərdən» biri də məlum olduğu üzrə Qafqazdır. Əcəba, Qafqazda mümkün olacaqmı ki, tədrisi-ibtidai ana dilində olsun? Əcəba, Fon Anreplərin *xüsusi mülahizat və siyasiyyatı* bu zavallı əyalətə aid olmayacaqmı?..

İştə burasını təmin edən bir şey yoxdur. Biləks hələ indidən nümayişdə olan hərəkat onu göstəriyor ki, gələcəkdə Qafqaz haman «xüsusi mülahizatdan» qurtara bilməyəcəkdir.

Qafqaza, qafqazlılara, Qafqaz idarəsinə, Qafqaz canişininə bu vaxtadək edilən ittihamat, sui-təvəhhümat, təcavüzat və lətailat[5] kimin zərərində deyil?!.

Hələ təzəlikcə Qafqaz başına yenə də dolablar qurulur. Fon Anreplər mülahizəsində olan «Qolos pravdı» qəzetəsində general Batyanov təklif ediyor ki, Qafqaz məsələsi həlli barəsində müzakirə etmək üçün «dövlət kişilərindən» bir komissiya təşkil olunub Qafqaz canişinliyinin islahı və yaxud bilmərrə götürülməsi, Qafqazın general-qubernatorluqlara təqsimi, vəzifeyi-əskəri və Qafqaz «əyalət şurası» təşkili barəsində müzakirə olunub bir layihə hazırlansın. Cənab general burasını da yadından çıxartmayıb əlavə ediyor ki, «əyalət şurası» əvəzində Qafqaz Dövlət duması vəkillərinin qədəri gərək son dərəcəyə kimi azaldılsın.

* **invest (investiya)** – kapital (maya) qoyuluşu
[1] **müləvvəs** – bulaşmış
[2] **tənaquz** – bir-birinə zidd olan
[3] **tənasüx** – ruhun keçməsi
[4] **müvafiqət** – razılıq
[5] **lətailat** – boş, faydasızlıq



On milyon əhalisi olan bütün Qafqazdan Pimoşkini çıxdıqdan sonra cəmi 7 nəfər olan vəkilin bir qismini də hənuz mahiyyəti məchul olan bir «şuraya» qurban etmək, əcəba haman Fon Anreplərin «mülahizə»lərindən nəşət etmiyormu?..

Dövlət dumasının bir qərara gələ bilməsini yəqin duymuş ki, maarif vüzarəti Qafqaz yerli məktəblərinə bilimtiyaz verilmiş proqrama özünün bu axırda göndərdiyi məşhur fehristnaməsilə[1] əvvəlinci zərbeyi-mühlikəni[2] vurmuşdur!..

Əvət, oktyabr fərmanı surəti-təsviyə almaqda və oktyabristlər vətəni «islah» edib, «izmihlaldan» qurtarmaqdadırlar!..

M.Ə.Rəsulzadə
*«Tərəqqi», № 113, 27 noyabr 1908*

## DÖVLƏT DUMASI. YƏHUDİ MƏSƏLƏSİ

9 noyabr qanunu hənuz Duma müzakiratından düşməmişdir. Bu xüsusda danışıqlar olunur. Məsələ əsasi tərəfdən qurtarıb, indi fəsil-fəsil müzakirə olunmaqdadır. Duma iclasında bu məsələnin ailə, yaxud şəxs xüsusiyyətinə verilməyinə dair olan fəsli müzakirə edilirdi.

Bu fəslə görə nadel yerləri gərək bulunub əkinçilərin öz xüsusiyyətinə verilsin.

Kəndçi vəkillərinə bu fəsil bir az çətin gəliyor. Diyorlar ki, iş bu cür olanda yerlər bütün yəhudilər əlinə keçər, kəndçiləri aldadıb bütün yerlərini əllərindən alarlar. Bu xüsusda şiddətli nitqlər deyən məbusları vəzir sakit etmək üçün bəyanat vermiş və demişdir: böylə ola bilməz. Çünki qanunən kəndçilərə yeri başqasına satmaq ixtiyarı verilmiyor, ancaq irsən öz əqrəbalarına tərk etməsi qərara alınmışdır ki, bu da yəhudi qorxusunu məhv ediyor! Burasını hökumət nəzərə almışdır...

Bu cəhət nə qədər acı bir həqiqət, nə qədər dilgir bir vəqədir!..

Əvvəla, yerlərin yəhudilər əlinə keçə biləcəyi qorxusu rus əkinçisinin nə dərəcə mədəniyyətsiz, ğafil, cahil olmasından və dolanmağa, məişətə hazır olmamasından nəşət ediyor ki, buna da haman obşinanı dağıdanlar özləri səbəb olub onları bu dərəcə bir səfalətdə və əczdə saxlamışlar.

İkincisinə qaldıqda madam ki, yəhudilər Rusiyada oluyorlar Rusiya təbəəsidirlər, Rusiya qanunlarının hifz və himayəsi altında dolanırlar.

[1] **fehrist** – müqəddimə, siyahı, cədvəl
[2] **mühlik** – öldürücü

niyə gərək ki, onlar qeyrilər malik olduğu hüquqdan mən[1] edilsinlər. Nə əsasla yerlərin yəhudilərin əlinə keçilməsindən qorxulunur? Nə cəhətlə rus mülkədarları əkib-biçib istifadə edə bilərlər, amma yəhudilər yox?!..

Qeyri Avropa yerlərində, əcəba, həmin bu yəhudilərin mülk və yer almağa haqq və ixtiyarları yoxmudur?

Əcəba, bu ixtiyar və haqqa malik olmaları hansı Avropa dövlətini zərər və ziyanlara salmış, hansı məmləkəti inqiraza məhkum etmiş, hansı milləti-hakiməni məğlub edib, hansı heysiyyəti milliyyəni həlakətə vermişdir?..

Əvət, yəhudilərdən qorxan kəndçilərə böylə bir cavab verilmək, onları böylə dost tutmaq və məmləkətpərvər fikirləri ilə tərbiyə etmək əvəzində vəzir cənabları «qorxmayınız biz sizi yəhudilərdən saxlamaq üçün hər bir tədbir görmüşük, biz razı olmarıq ki, bizim sadiq olan kəndçi qullarımızı hiyləgər yəhudilər aldatsınlar», misalında ikimənalı və müftinanə tövzihat verirlər.

Bundan görünür ki, yerin başqasına satıla bilməməsini təyin edən qanunçular da bu məsələni həll edəndə yəhudilərin «tamahkarlıqlarını» nəzərə almışlar. Ancaq kəndçilərdən durbin[2] olduqları üçün «yəhudi» ləfzi işlətməyib, ancaq bir təbiri «hüquqşünasanə» ilə bəyani-hal edib keçmişlər.

Odur ki, vəzir qanunun kəndçilər xüsusiyyətlərinə verilən yerləri heç kəsə sata bilməyəcəklər cümləsini yəhudilər yerləri ala bilməzlər misalında olaraq şərh və bəyan ediyor. Yəni «yəhudilər qorxusu» olmasa imiş «kəndçilər yerləri sata biləcəklərmiş...»

İştə vəzirin bəyanatından anlaşılan budur!..

M.Ə.

*«Tərəqqi», № 118, 4 dekabr 1908*

## EHTİYAC NƏYƏDİR?

Həyat hər bir ehtiyacı təyin ediyor: məşəqqəti-həyat isə bu təyinatı iti bir surətə qoyub hər an, hər dəqiqə, hər saniyə də özünü bildirtdirmək, hiss etdirtdirmək dərəcəsinə vardırıyor...

Camaatimiz, xüsusilə avam dediyimiz fəhlə və işçi əhalimizin nə dərəcədə böyük bir fanatik olub bilümum təzə elmlərə, xüsusən rus dili təliminə düşmən olduğu, rus dərsinə gedən və rusca oxuyanları tən[3] və lən[4] daşı ilə daşqalaq etdiyi hamımıza məlumdur!..

Madam ki, camaatimiz əsl həyat və diriliyin, insanca ruzigar və məişət keçirtməyin nədən ibarət olduğunu bilmiyor, nə də ki, dövrəsini almış olan elm-mədəniyyət və məfihasından xəbərsiz idi, bu təəssüb, bu cəhlində qaim durub həmişə «küfr-süvar»[5] idi.

[1] **mən** – qadağan etmə
[2] **durbin** – uzaqgörən
[3] **tən** – söymə, vurma
[4] **lən** – qarğış, lənətləmə
[5] **küfr-süvar** – kafirlikdə qalma



İndi isə övzayi-aləm dəyişib, müsəlman aləminin «təkfir»[1] – dövrünün izmehlalı[2] yaxşılaşıb, o təəssübü[3]-cahilanə, o kor-koranə təqlid günləri meydandan çəkilib, guşeyi-nisyanə atılmağa başlamışdır.

Hər bir ehsasi-qələbəiyyə, əqliyyə və ruhiyyəsi yatmış, korlaşmış olan cəsədi-islam dövrümüzün qulaq yırtan, ürək qalxızan, gözlər açan təbəddülati-siyasiyyə və ictimaiyyəsinin gurultu, partıltısı təhtində olaraq hərəkətə gəliyor.

Əsəri-həyat göstəriyor, istiyor ki, bu aləmdə təəyyüş[4] eləsin, ayıq olsun, yuxusundan ayılsın.

Bu vaxtadək dünyanı, öz-özünə və dünyaya müxtəs[5] və məxsus hər bir şeyi fani – deyə gəlmişdir. Bu vaxtadək buranı fani hesab etmişdir. Adətən, yuxulu olduğundan bütün ömrünü təvəhhümat içində keçirmişdir. İndi isə ayılmış bir təbliği-məchulə təsiri altında fəna və bir puç hesab etdiyi şeyin bir bəqayi[6]-cavidaniyə çatmaq üçün fənapəzir deyil, təkamül-məzhər olan bir meydan olduğuna inanmışdır. Baxmış ki, bu meydan bu vaxtadək qulağına vurulduğu fəna meydanı olduğu kimi bəqa meydanıdır da ki, nədən isə orasını bu vaxtadək ondan gizləmişlər. Görmüş ki, burası bir meydani-mübarizədir ki, hər kəs yatıb qalarsa fani, hər kəs oyanıb cəhd və səy edərsə baqi[7] olacaqdır.

Bu həqiqəti görər-görməz, keçmişdə onu iğfal[8] edənlərə lənətxan olduğu bir hal ilə meydanə atılır və bu meydanda mübarizə etməyə əvvəlinci dərəcə lazım olan elm əsləhəsinə dara olmaq istəyir. Məktəblər, mədrəsələr açmaqla öz övladını təəyyüş və həyati-meydanda baqi olanlardan etmək üzrə silahlandırmağa başlayır. Fəqət bununla da kifayət etmiyor, çünki o vaxtadək keçirdiyi kimi artıq bir daha ömür eləməyin mümkün olmadığını bilən şəxsə artıq köhnə qayda üzrə qalmaq çətindir. Böylə bir hiss ilə əhalimiz, avamımız keçindiyi halda onun hər bir qədəmdə silahsız olduğu gözünün qabağında duracaq və özünü bu ehtiyacdan qurtarmağa çalışacaqdır.

İştə bu çalışqanlıq, bu həvəs isə özünü göstəriyor. Sovet syezdin açmış olduğu gecə dərslərinə gələnlərin çoxusu müsəlman fəhlələridir. Hələ bunların hesabının keçən ilə nisbətən qeyri millətlərə nisbət ilə artması bir daha məsələni aşkar qılıyor. Bunların gecə dərslərinə gəlməkləri rusca öyrənib və hesabdan bir qədər məlumat almaq üçündür.

Əvət, nə qədər ki, bunlar bir vadiyi-qeyri-zi-zər[9] misalında olan sənət və ticarət mərkəzlərindən uzaq yerlərdə idilər, onlara rus dili və

[1] **təkfir** – kafirlikdə təqsirləndir
[2] **izmehlal** – puç olma, məhv olma
[3] **təəssüb** – fanatizm
[4] **təəyyüş** – yaşama, məişət
[5] **müxtəs** – məxsus
[6] **bəqa** – varlıq, dəyişməzlik, davam etmə
[7] **baqi** – əbədi, daimi
[8] **iğfal** – aldatma, qəflətə salma
[9] **vadiyi-qeyri-zi-zar** – əkinsiz vadi

hesab dərsi gərək deyil idi. Və bu gərəksizlikdən naşı da cəhalət tərəfdarlarının təklifləri meydangir və nəticəpəzir idi. İndiki, Bakı mədənləri kimi bir meydani-həyata düşmüş, həyati icbari olaraq onu buraya atmışdır, odur ki, bu meydanın sıxıntısı ilə səadətinin nərədə olduğunu və buna çatmaq üçün nəyə möhtac olduğunu anlamışdır ki, gecə dərslərinə üz qoymuşdur!..

Böylə dirilik etmək olmaz!.. Bu qanılmış. İndi ehtiyac nəyədir?.. İştə müsəlman avamını təəmmülə[1] salan məsələ.

İndi böyük ehtiyac, uşaqlıqda təlim vaxtı ötüb müxtəlif cəhətlərlə «əsləhəsiz» qalmış olanları elmi əvvəliyyə və ibtidaiyyə ilə müsəlləh etməyədir.

Burasını nəzərə alaraq «Nicat» maarif cəmiyyəti hüququnu və nə edəcəyini qanmış olan avam camaatımızə bir mənəvi kömək olmaq üzrə ona ricu edib istimdad çağıran mübarizani-həyatın dəvətlərinə ləbbeyk deyib şəhərimizdə bir gecə dərsləri açmağa qərar vermişdir. Gecə dərsləri Şamaxı yolunda, Konka dayanandakı şəhər məktəbinin məkanında bu günlərin içində olaraq açılacaqdır.

Bu dərslərin üsuli-qəbul və şəraiti barəsində sonra.

Gecə dərsinə getmək istəyənlər indidən özlərini «Nicat»da yazdıra bilərlər.

**Məhəmməd Əmin**
***«Tərəqqi», № 119, 5 dekabr 1908***

## MÜSƏLMANLAR ÜÇÜN GECƏ KURSLARI AÇILDI

Çoxdan bəri müsəlmanların gec də olsa maarif, elm qədrini bilən cavanları müştağında bulunduqları gecə kurslarına izin alınıb bu gün axşam saat 6-dan Şamaxı yolunda 6 klass şəhər məktəbinin mənzilində samiin[2] qəbul olunacaqdır. Necə ki, sabiqdə yazmışdıq kursların əvvəlinci və ikinci klaslarında həqqi-təlim 1 manat 50 qəpik olub, yuxarı klaslarında 2 manat olacaqdır. Həlalik daxil olduqda 3 ayın, yəni dekabr, yanvar, fevral aylarının həqqi-təlimləri alınacaqdır.

Dərslər, yəqin ki, ayın 10-da həmin məktəbdə başlanacaqdır.

***«Tərəqqi», № 120, 7 dekabr 1908***

[1] **təəmmül** – dərin düşüncə
[2] **samiin** – dinləyicilər



## İRAN İŞLƏRİNƏ DAİR

TƏBRİZ, 5 dekabr – Culfadan əncümənə vasil olan xəbərlərə görə oradakı rus təbəələri Dövlət dumasına müraciət edib konsulun heç bir müavinətdə bulunmadığından dolayı haman məhv olacaq dərəcədə mütəzərrir[1] olduqlarından şikayət etmişlərdir.

Bu münasibətlə bu gün əncüməndə müzakirata cərəyan etməkdədir. Müzakiratda qafqaziyalılar dəxi iştirak edirlər.

Təbriz – 5 dekabr – Dünən bütün gün Rəhim xanın Təbriz yaxınındakı Basmənceiyə gəldiyi söylənməkdə idi. Dəmavənd alayının Eynüddövlə ordugahına gəldiyi və bu günlərdə ikinci Qəzvin alayının dəxi gələcəyi xəbəri şaye olduğundan əhali xof və dəhşət içindədir.

Axırıncı qatar ilə Culfaya bir çox erməni, gürcü və sair inqilabçılar gəlmişlərdir. Bunların cümləsi Təbrizə gedirlər.

## ÜRƏK DAĞLANIR

Qarşımda bir məktub və üç konvert duruyor. İranca yazılmış bu məktub və konvertlər məni dərin düşüncələrə salıyorlar, huşa gediyoram. İran nəzərimdə təcəssüm ediyor.

Burada insanlar tələf oluyorlar, uşaqlar mələyirlər, qanlar axır, zülm və istibdad əlindən asimanlara çıxmaqda olan nalələr ürək parçalıyor...

Kağızı oxuyuram, yazıyorlar.

«Azərbaycanın soyuq qışı gəldiyindən füqəra və züəfa[2]-əhali küllən əldən gediyorlar. Hücəci-islamın fitvaları olduğu bir halda təsəvvür edə bilmiyoruz ki, aləmi-islam necə bu əhvalatı eşidiyor da, sakit və rahat əyləşib əhli-əyalı ilə ləzzətlə tənavül[3] etməkdə və ruzigar keçirməkdədirlər.

Bir cəm fəqir və biçarələr qarlar arasında ac və çılpaq qalıb, çılpaq cücə kimi əsməkdədirlər, qut-layəmut[4] yoxlardır. Söz iranlı və qeyri olmaqda deyil, hər bir insan olan kimsəyə, hər bir müsəlman olan şəxsə lazım və vacibdir ki, həqqi-məşrutələrini almaq yolunda böylə bir səfalətə giriftar olanlara dəsti-ianətini uzadıb onlara yardım etsin. Hərgah bu biçarələrin əhvali-pərişanələrini təsvir edəcək olursam heç kəsdə taqi-taqət qalmaz!..

Ey müsəlman qardaşlar, təcil ediniz! Böylə bir həmm və ğəmangiz olan məktubun qiraətindən sonra konvertləri alıb açıyoram. Üstlərində yazılan əlamətlərdən anlıyoram ki, surətən tanımadığım, təsəvvür belə edəmədiyim, nə olduğunu bir çox fikir və təəmmüldən sonra belə anlaya bilmədiyim kəsək və qara palçıq malasının qurusu, demə, Təbriz bazarında müxtəlif vaxtlarda əhaliyə satılmaqda olan çörək imiş...

[1] **mütəzərrir** – zərərçəkən
[2] **züəfa** – zəiflər
[3] **tənavül** – yemək yə içmə
[4] **qut-layəmut** – ölməmək üçün ruzilər

Hərgah konvertlərin üstlərinə yazılan bu məlumat olmasaydı, mən bu daş talaşalar, inan kəsək parçalarının, malə sınıqlarının hərgiz çörək olub, yeyinti şeyi olduqlarına inanmazdım. İnanmazdım, çünki bir hissəsi arpa qılı, bir hissəsi duz, çox hissəsi isə topraq olan bu «çörək»ləri mən əvvəlinci dəfə görüb və heç xəyalıma belə gətirməzdim ki, əsrihaliyəmizdə insanların yeyəcəyi şey topraq ola bilsin.

Bu konvertlərin ikisi cofində[1] olan «çörək»lərin ki, rəngləri saman ilə yoğrulmuş olan şirə palçığa oxşuyur, biri 1322-ci sənəyə, digəri də 1326-cı sənə cəmadilaxirinin bazarına mənsubdur ki, bu vaxt Təbriz düşməni – din və ədayi-islam tərəfindən əhatə olunub heç yandan şəhərə azuqə buraxılmıyordu. Üçüncü konvertdə olan çörək Təbrizin fəthindən sonra şəvval ayında bazarda satqıda olan «çörəyi» müəyinə ediyor. Bu dəxi çörək yeməyə adətkərdə olanları heyrətə salacaq dərəcədə isə də qabaqkılara nisbətən bir dərəcə yaxşıdır. Yəni şirə palçığa deyil, əhəng malasına oxşuyor...

İndi bir ləhzə diqqət edilirsə biçarə iranlıların nələr çəkdiklərini anlamaq çətin deyildir!..

Bu «çörəklər»dən İran maişətinin başqa cəhətlərinə pay aparmaq dəxi müşkül deyildir...

Bu «çörəklərə» baxdıqca insanı təfəkkür, təəmmüq düşüncələr alıyor. Bu düşüncələrlə aludə olduğun bir halda və görürsən ki, həyati-İraniyyə bütün həqayiqi ilə nəzərində mücəssəm oldu. Görürsən ki, bir tərəfdə yetim qalmış xırda balalar, «nənə mənə çörək» – deyə soyuqdan göyərmiş dodaqlarını ahəstə tərpədərək, gözlərindən qan-yaş axıdaraq cındıra geyinib, soyuqdan, aclıqdan, çılpaqlıqdan başını itirmiş biçarə bir dul övrətin ətəyindən yapışıb zar-zar ağlayırlar. Acdırlar, çörək istiyorlar. Mənim daş parçası, kəsək xırdası təsəvvür etdiyim «çörəyi» biçarə övrət axtarır, ancaq o da əlinə düşmiyor...

Görürsən digər tərəfdən səf çəkib özünü fədayi-hürriyyət edən vətən igidləri əzimi-cihaddırlar. Fəqət onlar mühitləri olan fəlakət və səfalətdən, nə aclıq və çılpaqlıqdan utanırlar. Fəqət ürəklərində yanmaqda olan o atəşi-ələvi-məcaz onları yoldan saxlamıyor. Əzmi-rahi-cihad oluyor da, daimi olan fəlakət mühitlərinə ancaq eləyəcəkləri bu əzm və səbat ilə bir nəhayə qoya biləcəklərinə inanırlar. İnanırlar da bu xüsusda səfalətdən tənglik dərəcəsinə gələnlərə bir təsəlliyyəti-qəhrəmanənə və mərdanə olaraq «həmişə zillətdə qalmaqdansa, birdəfəlik ölmək yaxşıdır» tərəzini təkid ediyorlar!..

İran zülmi, istibdadi, aclığı və qəhətliyi ilə mübarizədə olan qəhrəmanların rəfi-fəlakət etmək üçün bundan artıq çarələri ola bilməz. İştə bu çarə də nəhayətdə təbii və haqlıdır!..

[1] **cofində** – içərisində



Ancaq burada dəvət ediləcək, kömayə çağrılacaq həman yuxarıda nəql etdiyimiz məktubda göstərildiyi kimi bütün islam həmiyyətməndanı, bütün aləmi-bəşəriyyət, bütün mühibbani-məşrutətdir.

Əvət, kömək lazımdır. İanət gərəkdir, islamiyyət naminə kömək, bəşəriyyət xatirəsinə ianət, hücəci-islam fitvaları üzərinə yardım etmək gərəkdir.

Məlum olduğu üzrə, Bakıda bu qəsd ilə bir vaxt komitə təşkil olunub İran xəsarətzədələri üçün ianələr yığılırdı. O komitəçilərə gərəkdir ki, öz elədiyi işləri və göstərdikləri himmətləri barəsində əhaliyə məlumat verib, onları yığılan pulların yerinə gedib çatmasına mütməin etməklə iləridə dəxi hümmət və qeyrətlərindən geri qalmayıb daima işdə olsunlar!..

İslamiyyət, bəşəriyyət, məşrutiyyət və müzəffəriyyət naminə işdə olsunlar!..

Fətəbiru, ya ulu-l-əbsarı![*]

**M.Ə.Rəsulzadə**

*«Tərəqqi», № 124, 11 dekabr 1908*

## QAFQAZ BARƏSİNDƏ

Sağların hazırladıqları müftinanə suallarına canişin həzrətlərinin nümayəndəsi Noldenin verdiyi izahatın ixtisarını yazmışdıq. Bu dəfə Duma iclası həman izahatın müzakirəsini etdiyi zaman Purişkeviç və qeyri Duma vəkilləri tərəfindən deyilən mülahizat və iradatdan müxtəsər məlumat verərək Baron ilə Purişkeviç arasında olan bir münaqişədən bəhs edəcəyiz.

Necə ki, gözləmək olardı Baron Noldenin nitqinə cavab vermək üzrə sağların tərəfindən Purişkeviç çıxmışdır. Purişkeviç nə qədər məzhək və kloun olsa da, yenə də sağların arasında ondan savadlı, ondan natiqpərdaz bir başqası yoxdur. Odur ki, hər bir məsələdə sağların tərcümanhali həmişə bu hoqqabaz oluyor.

Purişkeviçin fikrincə, bütün Qafqaz millətləri hamısı Rusiyadan ayrılmaq üzrə olub özlərinə xüsusi idarələr hazırlamaq fikrindədirlərmiş. Ermənilərin mədəni ittifaqları, daşnaksütyun firqələrin hamısı bu fikir ilə işliyorlar. Və gürcülər də bu qəsddə olduqlarını ikrahrəsan öldürməkləri və qeyri inqilabcuyanə hərəkətləri ilə isbat etmişdirlərmiş. Qafqaz millətlərindən hökumətə və Rusiyaya sadiq, doğru qalan ancaq bir müsəlman milləti imiş ki, bunlar da Qafqaz hökuməti tərəfindən daima təqib olunmaqda imişlər. Böylə bir politikada da təqsir canişin həzrətlərinin üzərində deyil, zira o qədər qocalmış və işdən düşmüşdür ki, ağzında konfet olduğu halda iş üstündə yatırmış, bu işlərin müqəssirləri onu əhatə etmiş olan ermənipərəst rüşvətxor amirlər imiş. Ermənilərin və

[*] **fətəbiru, ya ulu-l-əbsari** – ibrət götürün ey görənlər

gürcülərin ayrılmaq fikirləri əgər dərəceyi-şədidə də zahir olmayıb gizlində qalarsa, onda səbəbi jandarma idarəsinin canişindən ayrı olmasındadır. Əgər jandarmaların ixtiyarı da canişində olsaydı, o halda ayrılmaq məsələsi bütün-bütünə aşkar olardı. Bütün Qafqaz hökuməti-aliyəsində olan məmurlar isə kimisi səhlənkarlıq mərəzinə mübtəla olub, kimisi də özləri bir inqilab üzviyyətinə mənsubdurlarmış. Bütün ləyaqətli rus kişiləri Qafqazdan qovulub onların yerinə öylə adamlar qalırlar ki, onların yeri bir başqa yerdə imiş. Rus mənafeyinin ziddi olan vücudlar Qafqaza düşürlərmiş. Çunkovski, rotmister Davidov və qeyri canişinə yaxın olan məmurlar kadet firqəsinə mənsub imişlər.

Purişkeviçin bu tənqidat və böhtanlarından, yalan və iftiralarından həyəcana gəlib şiddətlənmiş və hiddətlənmiş olan Baron Nolde təzədən mövqe izahata gəlib canişin həzrətlərini və Qafqaz idarəsini mühafizə etdiyində qraf Voronsov-Daşkovun əziz və möhtərəm bir vücud olduğunu qeyd edərək diyor ki, canişinin şəxsiyyətinə toxunub onu tənqid edən natiq canişinin çəkməsinin bağını açmağa belə layiq deyildir (Burada soldan alqış, sağdan qalmaqal qalxır. Purişkeviç yerindən çığırır. Sədr zəng çalır. Təvəqqe ediyor ki, qalmaqal olunmasın. Səslər eşidilir ki, «tənəffüs elan edilsin». Sədr diyor ki «tənəffüsü mən özüm gərək elan edəm». Mərkəzdən və soldan alqışlar. Sədr diyor ki, «əziz olub qalmaqal etməyiniz»).

Sosial-demokrat vəkili Çxeidze Purişkeviçin Qafqazı tanımadığını bəyan edib diyor ki, Qafqaz idarəsi bir o dərəcədə fəna deyildir ki, bunu canişinin nümayəndəsi bəyan etdi. Sağların verdikləri zapros özünün hər bir kəlmə və mətləbi ilə qraf Voronsov-Daşkovun şəxsiyyətini ləkədar edib, onu müttəhim etmək istiyor. Halonki hərəkəti-hürriyyətpərvanənin Qafqazda inqilab surəti kəsb etdiyi qrafın təyinindən daha iləridi. Qafqazda sağların anladıqları, daha doğrusu, anlamağa sərfələri olduğu ayrılmaq fikri bu mənə ilə elə ki, Rusiya millət və dövlətindən ayrılıb xüsusi idarə təşkil etsinlər, yoxdur. Köhnə qaidə və nizamlardan ayrılıb Rusiya milləti ilə bir yerdə ittihad edib hərəkəti-hürriyyətpərvərənə ilə meydana qoyulan tələbləri saxlamaq və onları almaq mənasına olan «ayrılıq» isə Qafqazda mövcuddur. Və bu ittihad və ittifaq fikri nəzərimizcə qafqazlılar ilə rus milləti arasında heç bir vaxt pozulmayıbdır. Biz özümüzü bir tək gürcü füqərayi-kasibəsinin məzhəri-hissi-təvəccöhi deyil, rus füqərayi-kasibəsinin dəxi etimadgahi hesab ediyoruz». Bədə natiq Qafqazın qeyri-adi məişətini iqrar edib onun islahını da iqtisadi hüquq və siyasi islahatda görüyor (Tənəffüs elan edilir).

Tənəffüsdən sonra Baron Nolde mövqeyi-xitabəyə gəlib etizar[1] istiyor və diyor ki, hiddətlənmiş bir surətdə dediyi nalayiq sözlər Dumaya

[1] **etizar** – üzr istəmək



deyil, Purişkeviçə məxsus idi. Dumanı isə möhtərəm tutub onun hüzurunda bəyanat verməyi özünə fəxr hesab ediyor. (Sağ tərəfdən qışqırırlar ki, «bu da təhqirdir»). Sonra Çxeidze nitqini xitamə verərək Baron Noldenin nitqinin surətini nəql ilə zirdəki[1] ünvan ilə Dumanın etirazını bəyan ediyor: Əvvəla, Baron Nolde fövqəlzikr sözlərində Dumanın təhqir olunduğunu və saniyən böylə bir təhqirin Duma sədrinin rəyasətinə nisbətən xüsusi bir əlaqədə qoyulan hökumət nümayəndəsindən nəşət etdiyini nəzərə alıb Duma öz üzvlərindən birisinin hökumət nümayəndəsi tərəfindən təhqir olunması əleyhinə protest izhar edib, Duma sədrindən xahiş ediyor ki, bugünkü iclası bağlasın (alqış).

Duma sədri böyük bir izhari-təəssüf edərək iniqadı[2] bağlıyor.

* * *

Əvət, Baron Noldenin öylə bir surətdə şiddətli olması, Duma üzvlərindən Purişkeviçi də olsa təhqir etməsi parlament üsulu ilə məqbul deyildir. Çxeidzenin bu xüsusda «Purişkeviçi mühafizə etməsi» işte bu nöqteyi-nəzərdən anlaşılır.

İndi gələk Purişkeviçin Qafqaz müsəlmanları barəsində söylədiklərinə: müsəlmanların «qayğısına qalmaqda» Purişkeviçin müftinanə bir mülahizəsi vardır. Bu mülahizə də müsəlmanlar ilə qeyri Qafqaz vətəndaşlarını bir-birinə zidd və düşmən surətində göstərib canişin həzrətlərinin də tərəfdar bir hakim olduğunu isbat etməyə çalışmaqdır. Guya, canişin müsəlmanları hökumətə sadiq olduqları üçün təqib ediyormuş. Onlar (yəni müsəlmanlar) Rusiyadan ayrılmaq istəmədikləri və hürriyyətpərəst və ziddi-hökumət olmadıqları üçün qrafın nəzərindən düşüb onlara diqqət verilmiyormuş.

Bunların bütün-bütünə bir iğfal və fitnədən, axmaqcasına bir fitnədən ibarət olduğuna nəzərimizcə Purişkeviçin dilindən deyildiyi özü böyük bir dəlildir.

Qafqaz canişini qraf Voronsov-Daşkov bizim nəzərimizcə bütün Qafqaz millətlərinin hamısına bir gözlə baxıb, hamısını bir dərəcədə tutuyor. Hərgah qrafın təsəvvürati-xeyirxahanəsindən qeyri millətlər artıq nəf aparıb müsəlmanlar geridə qalırlarsa, bunda dəxi müqəssir canişin həzrətləri deyil, bəlkə, Purişkeviçlərin təqdir elədikləri bir üsuldur ki, onun bərəkətindən müsəlmanlar böylə bir dərəcəyə gəlmişlər. Elə düşmüş fürsətdən də istifadə edə bilmiyorlar. Böylə bir müftinanə hərəkətləri ilə sağlar heç vaxt eyləyə bilməzlər ki, ittihadi-ittifaq və birlik ilə ümum tələblərə nail olub rəfi-ehtiyaca mail olan Qafqaz millətlərini biri-birindən ayırmaqla öz şeytanətkaranə fikirlərini icra eləsinlər.

**M.Ə.**

*«Tərəqqi», № 126, 14 dekabr 1908*

[1] **zirdəki** – altdakı

[2] **iniqad** – açılış

## ÇARƏSİ NƏDİR?

«Terror» Rusiyaya bir adət olmuşdur. Hər tərəfdə elə vurdu, apardı, aldı, gətirdilər ki, eşidiliniyor. Hədələr ilə pul almaq, hökumət məmurlarına hücum etmək, Rusiyanın adi işlərindən biri olmuşdur.

Məlum işdir ki, qaidə və nizamı saxlamaq istəyən bir ölkənin idarəsi bu qisim qanunsuzluqlara səbir edə bilməz.

Aşkar şeydir ki, rahəti-ümumiyyəni xələldar edən bu vəqələrə vəzifəsi ümum və ümumiyyəti mühafizə etmək olan hökumət barmaq arasından baxa bilməz. Müəyyəndir ki, hərc-mərc deyil, bir qanun üzrə dolanmaq vacib olduğunu dərk edən heyəti-ictimaiyyə və firqəyi-siyasiyyələr bu məsələdə sakit dura bilməzlər!

Əvət, burası səbir ediləcək deyildir. Buna bir çarə etməlidir. Bunun çarəsini axtarmaq hər bir şəxsə vacib və lazımdır.

Fəqət bunun çarəsi nədir?

İştə məsələ ki, hər kəs onu öz fikri, öz təsəvvürüncə qanır və bütün ixtilaflar da bu qanmaqdan nəşət ediyor və nəzərimcə bu məsələnin surəti-təsviyyəsi əsasını həqiqətdən uzaq bir yerdən götürülərək əksəriyyət təşkil etdiklərindəndir ki, nə qədər şiddətli üsullar ilə çalışılırsa, həyati-ictimaiyyəmizi mühlik[1] bir intiha ilə təmamə yetirə biləcək bu mərəzi sağaltmağa müvəffəq ola bilməyib, onun daha da şiddətlənməsinə, daha doğrusu, kök və rişə salmasına səbəb oluyor.

Teleqrafın verdiyi bugünkü xəbərlərinə görə bu məsələ Dumada müzakirə edilmişdir. Jandarmalara, polislərə məvacib artırmaq üçün müəyyən bir məbləğ təxsis[2] olunması təklif olunmuşdur. Bu təklifçilərin və onların həməfkarı olanların fikrincə, «terror» və qeyri namüvafiq hərəkətləri güc və «terror» ilə sakit etmək olurmuş.

«Qanı qan ilə yumaq» üsulunun tərəfdarı olan bu politikanın biəsas və biмənfəət olduğunu isbat etməyə gümanımızca artıq ehtiyac yoxdur. Zira bu tədbirlərlə işin surəti nə qədər təsviyə oluna bilsə də, batini hərgiz düzəlməz. Nə qədər ki, bu hadiseyi-müsifələri[3] doğuran səbəblər mövcuddur, nə qədər ki, bu vəqəələri bəsləyən, bu mərəzi tərbiyə edən şəraiti-həyat mövcuddur, bu illətlərin izaləsini kənarda qoyub qeyri vəsilələrə əl atmaq heç bir mənfəət verə bilməz.

İştə trudoviq firqəsinin nümayəndəsi də Dumada bu fikri bəyan etmiş, demişdir ki:

«Terror ilə mübarizə etmək üçün jandarmaları, xəfiyyələri artırmaq, onları müsəlləh etmək gərək deyil, bunları törədən səbəbləri aradan götürməlidir».

[1] mühlik – qorxulu
[2] təxsis – ayırma (pul)
[3] müsif – təəssüf doğuran



Bəli, o səbəbləri aradan götürməlidir.

Əcəba, o səbəblər nə imiş? O səbəblər çoxdur. Fəqət ən ümdəsi əhali ilə məmurunini-hökumət arasında olan qovuşmaz bir fəzanın var olmasıdır!

Bu təzad və təbayünü, bu biri-birindən bəid və uzaq olmanı yaradanlar, 17 oktyabr manifestini quru bir kağız şəklinə salanlar isə o təbayün və uzaqlığı saxlayanda əbədən üçüncü Duma əksəriyyətini təşkil edən oktyabrist firqəsinin heyəti vüzəraları ilə gedən taktikasıdır.

Terroru yatırtmağın çarəsi, iştə bunu törətməkdə olan illətlərin izaləsi ilədir!..

Əvət, hər bir təbibi-haziq[1] müalicə etmək istədiyi hər bir mərizi bu tövr saxlatmalıdır!..

Ayrı cürə hər qisim müalicə olunarsa, müvəqqətidir, gözlənəcək mənfəəti verə bilməz!

M.Ə.Rəsulzadə

*«Tərəqqi», № 127, 15 dekabr 1908*

## ZAQAFQAZ ZEMSTVO SMETİ*

Bu ünvana dair yazdığımız qabaqkı məqalələrimizdə bizim Zaqafqaziyada zemstvo idarələri olmasa da, zemstvo xərclərinin bizdən alınması və bu məxaricatın bütünü hökumət idarələrinin yədi-təsərrüfündə olub onların mülahizələri ilə istədikləri kimi xərc və təqsim olunmasını yazmışdıq.

Bu dəfə 1909–1911-ci illər üçün həman bu zemstvo mədaxil və məxaricindən ötrü təzə bir smet tərtib olunub ki, Dövlət duması gərək bu smeti təsdiq və ya rədd eləsin.

Bu smetin Bakı quberniyasına aid qismini tənqid edərək məsaili-iqtisadiyyəyi-ümumiyyədə məlumati kafiyə sahibi olan Orest Syominin şəhərimizdə çıxmaqda olan «Vestnik Baku» qəzetəsində yazdığı bir məqaləsindən iqtibas edərək atidəki mülahizatı qareilərimizə bildirməyi lazım bildik.

Zemski idarələri olan quberniyalarda qaidə bundadır ki, hər quberniyaya olunan məsarifat həman quberniyadan alınan gəlirdən verilir. Zaqafqaziyada isə qaidə bütün-bütünə əksinədir. Burada bir quberniyanın çıxarı o biri quberniyanın gəlirindən örtülüb getməkdədir. Bu üsulsuzluqdan ən çox cəfa çəkən quberniyalardan isə Bakı quberniyasıdır. İştə təzə smetada bu uyğunsuzluq, nizam və qaydasızlıq şərh edilməz məntiqsizlik üzərinə tərtib olunmuşdur. Bu cəhətdən də Orest Syomin cənablarının fikrincə, Dövlət duması mülahizəsini gözləməkdə olan Zaqafqaziya zemstvo smeti hamıdan artıq gərək ki, Bakı quberniyası əhalisini düşündürsün, onları təlaşa salsın.

[1] haziq – mahir
* smet – smeta

1904–1906 – üç sənələrindən ötrü tərtib verilən varidat smetini tərtib verəndə zemstvo bedeh[1] vergilərinin təqsimində böyük bir ədalətsizlik edilmişdi. Məsələn, Bakı quberniyasından o illərdə 1.080.976 manat varidat alındığı halda, quberniyanın ehtiyacına sərf olunmaq üzrə 637.516 manat təxsis olunmuşdu ki, o təxsisdən də 327.219 manatı zemski straja xərci olub, əhalinin ehtiyacati-mədəniyyəsinə isə 298.109 manat təyin edilmişdi. Qalan 343.460 manat isə qeyri quberniyaların ehtiyacına sərf olunmaq üçün getdi. Təzə smetada isə bu ədalətsizlik qabaqkına nisbətən bir az daha artıq surətdə görülmüş bedehin artırılması ilə Bakı quberniyası öhdəsinə qondarılmışdır.

1909-cu ildən başlayan 3 illik zemstvo smeti möcibi ilə Bakı quberniyasından alınan varidatın surəti-yekunu bir vechiatidir:

| | |
|---|---|
| 1) Promısla şəhadətnamələrindən alınan – | 90.000 manata kimi |
| 2) Traktirxanalardan | 1500 « » « |
| 3) Müəssisatı xeyriyyədən ötrü alınan vergilərdən | 5000 « » « |
| 4) Cərimə sərmayəsindən | 3000 « » « |
| 5) Fabrika və zavod məkanlarından yığılan prosent vergidən (keçən illərinkindən 303.000 manat artıq) | 715.000 « » « |
| 6) Şəhər əmlakı qeyri-mənquləsindən[2] (keçən ilkindən timsalən 150.000 manat artıq) | 260.000 « » « |
| 7) Xəzinə yerləri, meşələri və balıqçılıqdan | 60.000 « » « |
| 9) Vergilərin təxiri-vürudi ucundan alınan cərimələrdən | 20.000 « » « |
| 12) Ödüli-xüsusi və kəndçi yerləri və meşələrindən (keçən ilkindən 312.000 manat artıq) | 739.000 « » « |
| Hamısı sərhəm rəflə[3] (keçən ilkindən timsalən 820.000 manat artıq) | 1.900.000 manata kimi |

Bu dərəcə artılmış olan zemski vergisinin üzərinə bir də padşahlıq kəndçi yerlərinin vergisi üstünə artırılan 300 min manatı və padşahlıq yer vergisinə artırılan 143.000 manatı da gəlsəniz, bu surətlə zemski varidatı məbləği-külliyyəsi torpaq bedehləri ilə bərabər təzə smeta üzərinə bütün zemstvo varidatı 2.658.000 manata qalxacaqdır ki, keçən ilə nisbətən artıq alınan bedehin miqdarı isə 1.011.000 manat elər ki, ədədi tam olmaq üçün bir milyon manat deyəcəyik ki, bu da 60 prosent eliyor.

Burasını da qeyd etməlidir ki, alınan vergilərin çox hissəsi torpaq və yer bedehlərinin üstünə qoyulmuşdur ki, bu vergilər də onsuz da Bakı quberniyasında ağırdı ki, bunu da 1906-cı ilə verilməyib nedoimka[4] surəti ilə

[1] **bedeh** – vergi
[2] **mənqulə** – köçürülmə, daşınma
[3] **sərhəm-rəftə** – cəmi
[4] **nedoimka** – vergi borcu, vergi qalığı



qalmaqda olan verginin miqdarından daha gözəl anlamaq olur. Bu vaxtadək qalmış olan bütün nedoimkaların miqdarı isə 436.000 manata baliğ idi.

Böylə bir nedoimkaçılıq gərək ki, vergini artıran cənabların nəzərini cəlb edəydi də, vergini azaltmasalar da, əhalinin əhvali-mədəniyyə və iqtisadiyyəsi üçün bir taləş edəydilər.

İndi baxaq ki, gələcək 3 il üçün hazırlanan smetin məsarif qismi nə diyor?

| | |
|---|---|
| 1) Hökumət idarələri xərcinə şərakət etmək və zemski straja saxlamaq üçün – | 400.000 manata kimi |
| 2) Zemski upravleniya xərci – | 2.000 « » « |
| 3) Həbsxanə təmir və binası – | 15.000 « » « |
| 4) Türuq[1] və məabir[2] məxaricatı – | 170.000 « » « |
| 5) Maarifi-ümumi – | 40.000 « » « |
| 6) Müəssisati-xeyriyyə – | 1.000 « » « |
| 7) Hisseyi-tibbiyyə – | 100.000 « » « |
| 8) Hisseyi-baytariyyə – | 3.000 « » « |
| 9) Müxtəlif məxaricat – | 3.000 « » « |
| 10) Naməlum xərclər – | 5.000 « » « |
| Hamısı – | 730.000 manata kimi |

Polisə və hökumət ləvazimatına xərc olunmaqda olan 417 min manatı buradan çıxandan sonra quberniyanın ehtiyacati-mədəniyyəsinə xərc olunmaq üzrə ancaq 322 min manat qalıyor. Bu məbləğ keçən ilki xərcə nisbətən 24 min manat artıqdır.

Vergilər bir milyon manat miqdarında artırıldığı bir halda məxaricin 24 min qərarında artması olduqca cüzidir. Əgər məxaric hesabında səhv etməyimizi bizə qeyd etsələr belə, bunu iki, üç dəfə artırsaq da yenə də cüzidir.

Cüzidir, zira, əvvələ, Bakı quberniyasından alınan varidatın böyük qismi olan 1.161.000 manat özgə quberniələrə xərc olunur və saniyən ki, ən ümdəsi də budur. Bakı quberniyası özü islahati-mədəniyyəyə o dərəcədə möhtacdır ki, bunun hesabına qeyri yerləri təmir etmək heç bir halda qəbula keçməz.

Götürün, məsələn, məktəb işini: məktəbsizlikdə Bakı quberniyasından kasıbı, Bakı əhalisindən məhrumu olamaz. Burada bir çox kəndlər var ki, məktəb adı belə eşitməmişlər. Bakı kimi mədəniyyətli bir şəhərin uyezd kəndlərində belə məktəb filan tapılmaz. Burasını statistika hesabı da bəyan ediyor. Zaqafqaziyanın qeyri quberniyalarında hər mərtəbə 620-dən tutub 5000-nə kimi nəfsi[3]-əhali düşdükdə Bakıda hər məktəbə 8 min 500-ə kimi nüfus düşüyor.

Götürünüz türuq və məabir qismini: bu xüsusda Bakı qubernatoru Alişevski canişin şurasında zemski smet tərtib olunan vaxt demişdir ki,

[1] **türuq** – yollar
[2] **məabir** – körpülər, keçidlər
[3] **nəfs** – əhali

«Bakı qubemiyası Zaqafqaziyanın ümdə mənbəi-mədaxili olduğu halda, ondan artıq türuq və məabirə möhtac olan bir quberniya yoxdur». Əvət, qubernatorun bu sözü olduqca doğrudur.

Hər halda bu qisim bir çox mülahizələr nəzərə alınmayıb fövqdə zikr olunan ədalətsizcə bu surətlə smeta tərtib verilib və Bakı əhalisinin hüququ təhti-təzyiqə alınmışdır!..

Əcəba, böylə bir haqsızlığı nəyə istinadən etmişlər?..

Heyrəti əfza[1] olan böylə bir suala möhtərəm Orest Syomin cənabları «intəhasız bir mülahizəyə istinadən» – deyə cəvab veriyor. Əvət, bunun səbəbini bilümum məntiqsiz, əsassız mülahizələr ilə tərtib verməyə məşğul olan qanunçular və layihəçilər ancaq özləri biliyorlar, bəlkə, heç özləri də bu qarma-qarışıq işlərindən baş çıxartmiyorlar...

Əcəba, bunu niyə Bakı şəhər Duması və mədənçilərin Sovet syezdi vaxtında görüb çarəsini etmədilər? Bu sualın cavabında daxi biz mühərriri fövqüzzikr[2] ilə müvafiqət edib deyiriz ki, bəli, madam ki, Duma bu heyəti və üsuli-tərzi-hərəkəti ilə var onda böylə şeylər, əhalinin bu qisim ehtiyaclarına qalmaq təşəbbüsünü gözləmək baiddir.

Bizim qlasnılar böylə şeylərə yaramazlar. Onlar ancaq bunu bilirlər ki, bacardıqca öz ciblərini dolduran işləri, layihələri icra etdirsinlər və şəhər idarəsini öylə hala qoysunlar ki, bilamüməniət keyfləri istədiyi kimi hökmranlıq eləyib öz qövm və əqvamlarının keyf və səadətlərini təmin eləsinlər!..

Bütün fikir və təsəvvürləri neft və mazutdan ibarət olan mədənçilər daxi bu qisim mücahidatdan baiddirlər, onların böylə işlərlə işləri yoxdur.

İştə bu surətlə Bakı əhalisinə ancaq bircə şey qalıyor ki, o da camaatin özünə bağlıdır. Camaat özü gərək öz hifsi-hüququna girişsin. Bu xüsusda Dumadakı Qafqaz vəkillərinə müstədiyat[3] göndərsin də, tələb etsin ki, smet layihəsi Dumada baxıldıqda Bakı quberniyası əhalisi tərəfindən bilvükalə etiraz edib ədalətcəsinə bir surətlə smeti təshih etdirsinlər!..

Lakin...

Ah, əgər bu lakin olmasaydı... Bakı quberniyasının əksər əhalisi olan müsəlmanlar bu təşəbbüsə iqdam edəcəklərmi? Onlar aludə olduqları vəhim, xurafat, xəyalat və ətalətdən fürsət tapacaqlarmı?..

Hərgah zemski idarələri Qafqazda açılsa o surətdə bu düyün özü-özünə həll edilər, gedər...

Amma nə edərsən ki, oktyabrist Duması bizim şəhər Dumasından qalmaz!..

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 136, 26 dekabr 1908*

[1] **afza** – artıran
[2] **fövqüzzikr** – yuxarıda söylənən
[3] **müstəd** – rica, xahiş



## GƏNC TÜRKLƏRİN SON QƏLƏBƏSİ HAQQINDA

Gənc türklərin «İttihad və tərəqqi» partiyası konstitusiyanın düşmənləri ilə mübarizədə dalbadal qələbələr qazanır, konstitusiyanı müdafiə etməklə, Türkiyənin yeni üsul-idarəsinə qarşı hər cür qəsdlərin qabağını vaxtında almaqla vəziyyəti düzgün anladığını büruzə verir.

Məlumdur ki, gənc türklərin xarici siyasətinin məqsədi ölkə daxilində həyatın təzələnməsi və konstitusiya əsaslarının möhkəmlənməsi ilə rahat məşğul ola bilmək üçün ölkəni hər cür təcavüzlərdən qorumaqdan ibarət idi.

Onlar öz işlərinin bu sahəsində fövqəladə qabiliyyət sahibi olduqlarını göstərdilər. Gənc türklər zəruri saydıqları islahatları həyata keçirərkən ölkənin bütün dövlət qüvvələrini öz əllərində cəmləşdirir, sultanı etibarsız favoritlərdən təcrid edir, yeni üsul-idarənin hansı bəd əməldəsə açıq-aşkar təqsirli olan bütün düşmənlərini məsuliyyətə cəlb edir, nazirlərin hamısının fəaliyyətini nəzarət altına alır və başlıcası, Türkiyədə azad idarə tərzinə və 300 milyon müsəlmanın müqəddəs xəlifəsinin hüquqlarının məhdudlaşdırılmasına qarşı təşkilatlanmış qaragüruhçu ictimai qüvvələri gözdən qoymurdular.

Gənc türklər «Fədakarani-ümmət» (Xalqın qurbanları) adı altında birləşən, partiyanın bir sıra görkəmli xadimlərinə sui-qəsdlər etmək və bərqərar olmuş üsul-idarəyə qarşı təşviqata başlamaq niyyətində olan irticaçıların məxfi təşkilatını sayıqlıq, təmkin və sağlam düşüncə sayəsində vaxtında aşkara çıxartdılar. Qaragüruhçu təşkilatın başçıları dərhal məhkəməyə verildilər və onların bütün cəhdləri alt-üst edildi.

«İttihad və tərəqqi» partiyası parlament seçkilərində parlaq zəfər çalmışdır və məlum olduğu kimi, indi parlamentdə rəhbər rol oynayır.

Elə bu günlərdə gənc türklər yeni dövlət çevrilişi cəhdinə qarşı mübarizə aparmalı olmuşlar. Qəsdin başında bu dəfə sultanın birinci naziri Kamil paşa dururdu. Çoxdandı ki, gənc türklər ona etibar etmirdilər. Məsələ burasındadır ki, hələ parlamentin açılışından əvvəl Kamil paşa nəzakətsiz hərəkətləri ilə konstitusiyaçılarda şübhə oyatmışdı və qəzetlərdə onun əleyhinə güclü kampaniya aparılırdı. Onu günahlandırırdılar ki, xarici ölkələrlə münasibətləri gərginləşdirmək və Türkiyənin vaxtilə məhv edilmiş birinci konstitusiyası kimi, onun yeni konstitusiyasını beynəlxalq anlaşılmazlıqlar hay-küyü içərisində dəfn etmək istəyir. Bu ittihamın irəli sürülməsini əsaslandırmaq üçün belə bir dəlil gətirilmişdi ki, Kamil paşa bütün dövlətlərin səfirlərinin və nümayəndələrinin iştirak etdiyi təntənəli ziyafətə Bolqarıstan nümayəndəsini dəvət etməmiş, bununla da Bolqarıstan ilə Türkiyə arasında münasibətlərin kəskinləşməsinə bais olmuşdur.

Bu dəfə Kamil paşa çox qəti hərəkət etməyə başlamışdı. Gənc türklərin tərəfdarı olan iki naziri – hərbiyyə və dəniz nazirlərini istefaya çıxartmış, qoşunun konstitusiyaya və yeni quruluşa ən sadiq olan hissəsini – Makedoniya atıcılarını Konstantinopoldan uzaqlaşdırmağa cəhd etmişdi. Lakin gənc türklər bu cəhdə vaxtında son qoydular. Onlar parlament qarşısında cavab vermək üçün Kamil paşanı qoşunla mühafizə olunan parlamentə çağırdılar, zirehli gəmilərin toplarını sultan sarayına tuşladılar. Kamil paşa parlamentə gəlməkdən boyun qaçıranda palata ona etimadsızlığını bildirdi və onun dərhal istefaya çıxarılmasını sultandan tələb etdi. Sultan Kamil paşanı uzaqlaşdırmağa və onun yerinə gənc türklərin tərəfdarı Hilmi paşanı təyin etməyə məcbur oldu.

Ə.N.*

*«Volna», № 1, 1909, səh. 11–12, rus dilindən tərcümə*

## NƏ DƏHŞƏTLİ BİR GÜLÜŞ! NƏ ACI BİR İSTEHZA!!

İnsan təbiət və qüvayi-ünsüriyyə ilə etdiyi mübarizə ilə, mübarizə eyləyə bilməsi ilə dəhrin[1] təcavüzatına müxtəlif alət və ixtiraat qayırmaqla müqabilə edə bilməsilə, bir kəlmə təbiətə, dəhrə qalib gəlməsilə qeyri heyvanatdan bu dərəcə fərqlənmiş, əşrəfi-məxluqat namini almağa nail olmuşdur.

Əvət, insan əşrəfi-məxluqatdır[2]. Zira, bütün məxluqat içindən ancaq budur ki, təbiətin hər bir ünsürünü müsəxxər[3] edib özünə tabe etmiş və sərkeşlikdə olanları dəxi təsxir[4] etmək üzrədir. Ab, ataş, xak, bad hamısı fərmanda fəzl və tədbiri-bəşəriyyət olmaqdadırlar.

Təbiətin böylə bir təsxirə düşməsi xudbəxud öz xoşuna olmamışdır. Aləmi-insaniyyət bu yolda böyük-böyük rəyasətlər, ali fədakarlıqlar, mühüm kəşflər və ixtiraat etmiş də bu dərəcəyədək naili-kəlam olmuşdur. Bu qədər bir fütuhatilə ki, indiki əsri-təməddündə gördüyümüz və necə tərəqqiyyati-sənayecə, ixtiraiyyə onun bir şahidi-güvahidir. Həman bəşəriyyətin heyvaniyyətə etdiyi qələbəsinə mədəniyyətin bu bütə qarşı göstərdiyi fəth və qələbəsinə bir dəlil və bürhan[1] olmazmı?

Kiçik bir nəhrdən keçə bilməyən insan indi mühitlərin altını da, üstünü də seyr etməyi bəs deyil, hələ onlarda dəhşətli müqatilələr[2], mücadilələr də açır. Dağların, daşların, qar və yağışların arasında büzüşüb donmağa məhkum olan bəşər təyyülərz[3] adına layiq olan dəmir yollar vasitəsilə bilmünasibə, demək olar ki, bir türfətüleyndə[4] hara desən gedər.

Yüz çağırımdan səni güclə eşitdirməyə müqtədir olan bəni-adəm indi ixtira etdiyi telefonlar, teleqraflar ilə dünyanın hər yeri ilə istəsə müxabirə[5] edə bilməzmi?

Bir qədər yerdən yuxarı qalxmağa qadir olmayan bu vücud indi havada bir aləm açmaq fikri-alisinə düşüb bir dərəcəyətəkin də müvəffəq olmamışmı?

Can yandırıb, evlər yıxan ildırımları rədd etmək üçün çarəsi yoxmu? İstədiyi vaxt yağmur hasil etmiyormu? XIX və XX əsrin mədyuni[6] olan elektrik qüvvəsi ilə bəşəriyyət, mədəniyyət hansı müvəffəqiyyətə nail olmayıbdır, nələr zühura gətirmiyübdür?

Əvət, insanın qüvvətinə, qüdrətinə, cəsarət və rəşadətinə heç bir söz deyilməz, insaniyyət müttəfiq, müttəhid olursa, bütün bacarıqlı düşməni-ümumisi olan qüvvətli ənasiriyyə[7] ilə mübarizə etməyə həsr edərsə, daha artıq müvəffəqiyyətə nail olub, daha ali fütuhata məzhər olar.

Fəqət nə edərsən ki, bəşəriyyət, mədəniyyət hənuz bunu layiqincə dərk etməmişdir. Bu idraksızlıqdandır ki, bütün qüvayi-inşaiyyə və ixtiraiyyəsini təbiət və ənasir ilə mübarizə və müqabilə etmək əvəzində vəqtinin, təbinin, qüvvətinin çox hissəsini öz əzası arasında olan layəqalanə[8] mübarizələrə, müharibələrə, rəqabətlərə tərk ediyor.

Dəryaları fəth ediyor, suyu məğlub ediyor, fəqət bu vasitə ilə qitəati-xəmsəyi zəmində cəzairi-müxtəlifədə olan insanları bir-birilə rabitə və bənd edib dəhr ilə elədiyi mübarizədə müttəhid etmək əvəzində bir-birilərinə hücum edib, yek digərlərini nurlandırmaq, mərifətləndirmək üçün bilik, mərifət, hissi-bəradəri aparmaqları yerində, bir-birini təlaf və məhv etmək məqsədilə aləti-nariyə və təxribiyyə daşıyorlar.

Yerlərin damarlarını əllərinə alıb az bir fürsətlə çox yerləri, məsafələri təyy[9] etməyə nail oluyorlar. Bu vasitə ilə bir-birinə dəsti-müavinət

---

• Kobanın (Stalinin) xahişi ilə M.Ə.Rəsulzadənin «Gənc türklərin qələbəsi haqqında» yazdığı məqalə onun «Stalinlə ixtilal xatirələri» əsərində (Bakı, 1991, s. 16–17) göstərildiyi kimi «Qudok» qəzetində deyil, «Qudok» və «Bakinski raboçi» qəzetlərinin əvəzinə, 1909-cu ilin fevralında nəşrə başlayan və cəmisi 2 nömrəsi çıxan «Volna» jurnalının 1-ci nömrəsində dərc olunmuşdur. Məqalə yuxarıda göstərildiyi kimi «Ə. N.» (Əmin) imzası ilə çıxmışdır. «Qudok»da bu mövzuda yazı yoxdur – *Ş.H.*

[1] **dəhr** – dünya, dövr

[2] **əşrəfi-məxluqat** – yaranmışların ən şərəflisi – insan

[3] **müsəxxər** – fəth edilmiş

[4] **təsxir** – fəth etmə

---

[1] **bürhan** – dəlil, sübut

[2] **müqatilə** – vuruşma

[3] **təyyülərz** – sürətlə getmə

[4] **türfətüleyn** – bir göz qırpımında

[5] **müxabirə** – xəbərləşmə, məktublaşma

[6] **mədyun** – minnətdar

[7] **ənasir** – ünsürlər, elementlər

[8] **layəqalanə** – ağılsız

[9] **təyy** – yol getmə

uzadıb yek digərlərinin ehtiyacatını rəf etmək əvəzində, yek digərini təsxir etmək, öldürmək, təmlik[1] etmək, rəqabət və ədavət açmaq əməli ilə qoşun sövq edib alat və ədavati-hərbə yollayırlar.

Teleqraf, telefonlar dəxi fitnə və fəsadə vasitə oluyor. Məhəbbət və məvəddət[2] əvəzində bu alətlər insanlar arasında olan ədavət və rəqabətin mürəvvici və tərcümani oluyorlar!

Havaya çıxmaq, havada dolanmaq şu fəzai-lamütəhanidə yeni bir aləm icad etmək xəyalında olanlar dəxi bu xəyaldadırlar ki, «düşməni» necə tələf edib nə qisim insanların başına od yağdırsınlar!..

Elektrik qüvveyi-bərqiyyəsi dəxi hamıdan çox insanların nükbətinə[3] işlənir gediyor...

Xülasə, insanlar əllərinə saldıqları aləti-mübarizə ilə təbiətdən çox özləri ilə dalaşıyorlar. Öz aralarında olan mübarizəyə uyub, ümumi düşmənləri olan o soyuq qəlbli, hay-küy anlamayan, dərdi-dil bilməyən mühib[4] və dəhşətli qəbiəti-qüvayi-ünsüriyyəni yaddan çıxarıyorlar.

Deməli, bir dərəcə etdikləri bu fütuhata qürrələnib, gülüv[5] ediyorlar, zindan keçirirlər, dəhri məğlub və sərkub etmiş kimi cilvələnirlər. Bu vaxt hərdənbir öz müdhiş və cangüdaz nümayişlər ilə aləmi-bəşəriyyəti mütənəbbih[6] etməkdə olan təbiət öz qüvvəsini göstəriyor.

İnsanların bunca qəflətləri ilə müdhiş xəndələri[7] gülüyor. Bunun bir gülüşündən nami-qəhqəhə etməkdə olan bu atəşin dodaqlarının hərəkətindən İtaliyanın, o gözəl İtaliyanın böyük bir qismi xak ilə yeksan olub gediyor. Qafqaz boyda olan Qalabra əyaləti ilə Siciliya cəzirəsi darbadağın olub, bir çox qeyri şəhərlər, qəsəbələr və kəndlərlə bərabər məşhur Məsinə şəhəri dəxi xak ilə yeksan oluyor.

İştə, budur İtaliya. Aləmi-mədəniyyətə, bəşəriyyətə, bu qədər xidmət etmiş, sənayei-nəfsiyə qiymətdar yadigarlar vermiş olan İtaliya bu gün böyük bir yas və matəm içindədir. Bütün aləmə, aləmi-nəfis mədəniyyətə gözəl təsəvvürlər, şairanə, rəsmanə-heykəllər yadigar verib təsəvvürati-nəfisəsi və mədəniyyəti-tarixiyyəsi ilə XX əsrin mövcibi-heyrət və istimrarı olan İtaliya bu gün bir darülhüzn və matəmsəra şəklini almış və matəm libası geymişdir. Musiqi aləmində böyük inşaat və müəzzəm ixtiraat etmiş olan İtaliyanın səfəhatid arasında indi yer gurultuları, vulkan nəriltiləri xəsarətzədəganın ahı-nalələri olayıq, əzəm olan musiqar[8] və kompozitorların bədiənnəvaz tərənnümləri yerini tutmuşdur. Daş, torpaq və uçurumlar altında qalan meyitlərin üfunəti İtaliyanın o

[1] **təmlik** – mülk sahibi etmək
[2] **məvəddət** – sevgi
[3] **nükbət** – fəlakət
[4] **mühib** – qorxunc
[5] **gülüv** – tüğyan
[6] **mütənəbbih** – oyanan, xəbərdar olan
[7] **xəndə** – istehza, gülüş
[8] **musiqar** – yel əsdikdə musiqi səsi kimi



gözəl və şairanə mənzərələrinə yalnız nə istehzalar ediyor. Görünüz, min illərdən qalmış olan böyük memar və heykəltəraşların tökülüb xırda-xırda olmuş asari-bədiələri bəşəriyyətə nə andırıyor!!.

Əvət, təbiət insanların mədəniyyətinə gülüyor. Atəşin və müdhiş bir surətdə gülüyor. Və bu nümayişi inhidamkaranə[1] səni rəyüleyn[2] bütün cahaniyanə bildirmək üzrə odur ki, Asiyayi-suğradə[3], Fillipani cəzirələrində və Amerikada zəlzələlər zühur ediyor.

Böylə bəlayi-üzməyə[4] giriftar olan aləmi-bəşəriyyət, əcəba, yenədəmi anlamayacaqdır, yenədəmi özlərinə gəlib bir fikir etməyəcəkdir, yenədəmi qüvayi-ixtiraiyyəsinin çoxunu biri-birləri ilə olan mübarizəyə həsr edəcəkdir. Düşməni-ümumini ümumi-bəşəriyyət olan təbiətdən qəflət edəcəkdir.

İştə bu qədər fəlakətlərə səbəb olub, misli tarixdə görülməmiş İtaliya zəlzələsi mədəniyyətin dərəceyi-tərəqqiyatı tarixlərdə görülməmiş bir əsrdə hadis oluyor. Diqqət edilsin, insanların arasındakı təzad, təbayün[5], rəqabət rəf edilsin də. Bütün qəlblər, bütün fikirlər, bütün səylər, bütün amallar, bütün mücahidələr, mübarizələr təbiətin əleyhinə qaytarılıb, onun ilə olunan mübarizə və mücadiləyə həsr olunsun.

Bəsdir ki, insanlar bu qədər qəflətə uydular. Artıq qəflət yaramaz!!! Təbiətin müdhiş xəndələrindən ibrət almalı!!.

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 9, 12 yanvar 1909*

## İRAN İŞLƏRİNƏ DAİR

### BƏXTİYAR ELİ NƏ POLİTİKA TUTUYOR?!

İran hökumətinin aşıb-daşıb üstünə gəlməkdə olan selin qabağına çıxartmaq üçün necə ki, məlumdur, lüzumi qədərində nizamlı, qaidəli qoşunu yoxdur. Məhəmmədəli şahın və qeyri hökumət başında duranların böyük ümidləri Bəxtiyar elinə idi. Bəxtiyar elini işə salmaq, onları məşrutəçilərin əksinə durğuzmaq, inqilabçılara yağı etmək Tehran yoğmagərləri amalının müntəhası[6] idi.

Hökumət kişiləri ümidlərini bəxtiyarilərə dikdikləri kimi, məşrutəçiləri dəxi bəxtiyarilərin hansı tərəfə meyil edəcəkləri düşündürürdü.

Bəxtiyar kimi rəşid və cürətli elatı düşmən surətində görmək canlarını fədayi-hürriyyət edən, Allah yolunun mücahidlərini qorxutmazsa

[1] **inhidam** – yıxılma
[2] **rəyüleyn** – öz gözü ilə görərək
[3] **Asiyayi-suğra** – Kiçik Asiya
[4] **üzmə** – çox böyük
[5] **təbayün** – ziddiyyət
[6] **müntəha** – son, axır

da, o qisim bir tayfanı öz səhflərində görməyi qəlbən arzu edir. Burası nəyahətdə təbiidir.

Bu surətlə İranda cinbazlıq meydanında müqabilə edən hər iki qüvvət Bəxtiyar elinin nə politika tutacağına artıq əhəmiyyət veriyorlar. Mətbuati-iraniyyə, yəni məmaliki əcnəbidə nəşr olunan İran qəzetələri (daxilədə isə səyeyi-zülmət, vəyeyi Məhəmmədəlidə qəzet çıxmıyor) bu məsələ barəsində artıq gözətçidirlər. Bir neçə vaxt bundan əqdəm bir nəfər Bəxtiyar sərkərdəsinin şahın əmrinə baxmayaraq, Təbriz üstünə getməkdən cavab eləməsi vəchindən o zatın xanlıq ilə oldir tədbirləməsini qəzetimizlə xəbər vermişik. Bu kimi xəbərlərin üstəliyi olaraq «Həblülmətin» qəzetəsi bəxtiyarilərin nə hərəkətdə olacaqlarını bəyan edən bir təfsilat dərc ediyor. Bu təfsilatdan anlaşıldığı üzrə bəxtiyarilərdən olan Sərdari-Əsəd və qardaşı Sərdari-Hikmət Parisdən çağrılmış Əmirtumanlıq ləqəbi nəvid[1] verilmiş və bir çox qeyri vədlər edilməklə bərabər sərih[2] söz vermişlər ki, Azərbaycanı fəth edəndən sonra İsfahan da onlara veriləcəkdir. Səhih xəbərlər vardır ki, Sərdar belə bir tarixi biarlığı[3] qəbul etməyib, rədd etmişdir. İş belə bir surət aldıqda, dövlətlilərin başları gicəllənib, başqa Bəxtiyar rəislərinə müraciət etmişlərsə də, onlardan da onlara təsliyət[4] və ümid verəcək bir söz ala bilməmişlər.

Bu axır günlərdə bəxtiyarilərdə məhrəmanə[5] bir iclas olub, bu iclasda Bəxtiyar ağsaqqalları Azərbaycan üstünə getmək barəsində şahdan olan təklifi müzakirə etmişlər.

O əncüməndə «Həblülmətin» idarəsinə qüvveyi-təhrir və səhribəyan ilə məlum olan bir natiq müfəssəl bir nitq söyləmiş və xitabeyi-münsifanəsində bir cümlə demişdir ki, «Həzərat, bu gün biz qayət çətin bir məqamə düçar olmuşuq, bir çox diqqəti-təfəkkür ilə bu məqamdan özümüzü xilas etməliyik. Bir ayrı sözlə işə tədbir və əql üzrə feysəl[6] verməliyik. Tainki, axırda nədamət[7] və peşimançılığımıza səbəb olmasın. Biz gərək özümüzün nami-tariximizi mülahizə edək ki, gələcəkdə xalqdan xəcalət olub, bədnamlıqla şöhrət tapmayaq. Öz növümüzün adını zail etməyək. Bu da elə ola bilər ki, sizə olunan təklifi ətraflıca mülahizə və müzakirə edək.

Yaxşı olar ki, biz bilək hökumət bizdən nə istəyir, dövlət təklifinə ki, bizim canımızı fəda edəcəyimizin nami nədir? Və zərər hansıdır?

1) Dövlət istiyor ki, biz sinəmizi ona gələn bəlalara qalxan edək, məhz bir şəxsin həvayi-nəfsaniyyəsi, şöhrətranlığı və keyfi istədiyi üçün

[1] **nəvid** – vədə
[2] **sərih** – açıq, aydın
[3] **biar** – arı olmayan, abırsız
[4] **təsliyət** – təsəlli vermə
[5] **məhrəmanə** – məxfi, gizli
[6] **feysəl** – qərar, hökm
[7] **nədamət** – peşmançılıq



«qət qılaq və təyyi-mənazil» edib də Azərbaycan tərəfə hərəkət edib, öz islam qardaşlarımızın qabağında duraq. Halbuki onların istədiyi millət və vətən haqqıdır ki, onun xeyri və mənafei bizim hamımıza gələcəkdir. Bəli, dövlət istəyir ki, biz gedək bizim mənfəətimizə çalışan qardaşlarımızı öldürək.

2) Bizdən ötəri mənfəəti nədir? Nafi-şahın və bəzi dərbarilərin xoşnudluğu ilə bizim bəzi böyüklərimizə sərhəng, sərtib, əmirtuman, əmirnöyan və bir neçə qırmızı, yaşıl, həmayil medal, nişan və əgər tərəqqi eləyə bir neçə tümən də ənam verilib və bir-iki nəfər rüəsalarımıza[1] məhəlli-hökumət veriləcəkdir. Bu bizim axırıncı dərəcə mənfəətlərimizdən olacaqdır. Halonki saydığımızdan olsun ki, daha əskik olsun.

Zərəri isə – bu zərər həm növi, həm şəxsi, həm dini və həm dünyəvidir. Növə zərərdir, zira o dərəcə bir tarixi bədnamlıqdır. O vaxtadək İran səadətinə xidmət edə-edə gəlməkdə olan bəxtiyarilər indi bədnamlıqla səfəhati-tarixə yazılacaqlar.

Şəxsən zərərdir, çünki bu vaxtadək məlum olmuşdur ki, millət, hüquqdan ötrü çalışan o qəyur[2] taifəyə baxan olmuyor. Allah özü onlara müindir[3]. Hər halda bizim şikəst olmamıza ehtimal çoxdur.

Dünya zərəridir. Ondan ötrü ki, müctəhidini-Nəcəfi-Əşrəf hüccətül-islama təqlid olduğumuz halda, onların fitvalarına qulaq asmamaqla dindən xaric olmuş olarıq.

Dünyaca zərərdir, bu cəhətə ki, əgər millət qələbə etsə, iş məlum. Bərfərz[4] biz Təbrizə gedib, qələbə etsək, bu qövmi-layüflihunun[5] Qacardan nə gözləyəcəyik. Məgər bizim keçmiş rəislərimizdən böyük adamlar qacarlara xidmət etdikləri halda, düçari-qəza olmadılarmı? (burada bir çox cəzalanmış məşahiri[6] bəxtiyarilərdən sayır) Bu mülahizələrin bədində dövləti-məşrutənin faydalarını sayıb o hali-idarədə bəxtiyarilərin mənfəəti olduğunu andırıb, bu sözlərlə xətmi-kəlam ediyor.

«Hala bu bəyanatdan istimaat[7] edə bilərsiniz ki, biz gərək hansı tərəfdə olaq, məşrutədəmi? İstibdaddamı? Aya biz gərək məşrutəçilər ilə davaya gedək, yain ki, müstəbidlərlə?»

Bunu xəbər verən müxbir məclisin qətnaməsini xəbər veriyor. İş nə ilə qurtardığı naməlum qalıyor. Fəqət əfkari-ümumi buna qane edir ki, bəxtiyarilər məşrutəyə kömək etməsələr də, qarşı da durmayacaqlar.

İştə bu da məşrutədən ötrü bir qüvvə daha!..

**M.Ə.**

*«Tərəqqi», № 12, 15 yanvar 1909*

[1] **rüəsa** – rəislər
[2] **qəyur** – qeyrət çəkən
[3] **müin** – kömək, arxa
[4] **bərfərz** – fərz edək ki
[5] **layüflihun** – nicat tapmayanlar
[6] **məşahir** – məşhurlar
[7] **istima** – dinləmə, eşitmə

## BİR QOCANIN MÜSİBƏTİ

İdarə xidmətçisi ərz ediyor:

– Bir nəfər qoca kişinin idarəyə ərzi var.

– De gəlsin.

Qapı açılır. Cındır kürklü, şikəst gözlü, həzin qiyafəli, 80 yaşlı bir qoca kişi içəri daxil olur. Görünür ki, bu kişinin söykənəcəyi pənahi əlindəki bir ağacı qalmışdır ki, ona təkiyə edərək gəziyor.

– Əmi əyləş, nə işiniz var, əmi?

– Mən bir fəqir adamam. Güzəranım çox pis keçir. Altı baş külfətim var, xırda uşaqlarım, üç qızım, bircə oğlum var: oğlum 9 yaşındadır, palçıqçılığa gediyor, gündə iki abbası gətiriyor, o da hər gün olmuyor, mənim də bir eşşəyim var idi, onunla gedirdim dərya kənarında bostanlarda odun laşəsi yığırdım. Bəzən kəndimizə gedirdim, orada mənə əl tuturdular. Ondan-bundan, buğdadan, arpadan-zaddan verirdilər, gətirirdim. İndi bundan da əlim çıxdı.

Burada qoca müsahibimin boğazı qəhərləndi, doluxsundu, böyük bir bəlayə düçar olan bu zəif insan sözünə belə davam etdi:

– Dünən dəniz qırağından talaşa yığdım, eşşəyin üstünə qoydum. Köhnə veçəmi yanından gedirdim, mən səki üstü ilə, eşşək də küçə ilə. Birdən kim isə məni itələyib küçənin aralığına yıxdı, mən durmaq istədim, məni vurub burnumu qanatdılar. Bir azdan sonra ölə-dura ayağa qalxdım. Gördüm iki nəfər müsəlman bir başqa iki nəfəri məzəmmətliyirlər. Onlar bir-biri ilə söyüşdülər, getdilər. Mən baxdım ki, eşşəyim yoxdur.

Burada biçarənin çeşmək arxasından baxmaqda olan kirpiyi tökülmüş korhal gözlərindən qocalıq və acizlik yaşları tökülməyə başladı. Mənim ürəyim qısıldı.

Ah! Mən eşşəksiz nə edəcəyəm, yazıq mənim halıma! Altı baş külfətim o eşşəyə baxırdıq. İndi nə edəcəyik!..

Artıq mənim də bu qocanın tökülən göz yaşlarına taqətim qalmadı. Bu eşşəyi oğurlanıb mafövqi təsəvvürə gətirilməyən bir qüssəyə düçar olan qocanı bilaixtiyar böyük məbləğ almaq tamahı ilə tutulub soyulan ərbabi-dövlətlərlə müqayisə etdim.

Əcəba, bunların hansı böyük bir bəlaya düçar olmuş? Bu xüsusda qocanın öz fikrini bilmək üzrə böylə bir sual verdim:

– Necə bilirsən, əmi, Musa Nağıyevin zərəri, yoxsa səninki – hansı çoxdur?

– A... nə deyirsən ağa, Musadan yüz min manat alsalar da, heç olmasa 50 manatı qalar ki, dolansın. Amma mən... mən biçarənin eşşəyini apardıqda daxi dolanmaq mümkün olmayır. Altı baş külfət o eşşəyə, o ac eşşəyə göz dikmişdi.



– Bəli, qoca əmi, sənin dərdin hamısından artıqdır.

– Hə, balam! Mən eşşəksiz nə edəcəyəm. Hələ mən eşşək üçün ağlayıram. Amma arvadım xəvarici üçün ağlayır. Deyir ki, mən çalışıb göz işığı qoymuşam, yun xərcləmişəm, xurcun toxumuşam, mən eşşəkdən ötrü ağlayıram, o xurcunu oxşuyur... Amma bilmiyor ki, iki kisəni biri-birinə tikərsən, xurcun yerini görər. Amma gözünün qorasını sıxır, eşşək olmayandan sonra xurcun nə iş görəcək.

Nə qədər təzad!

Ah dünyamızın əsasları! Çoxlarının maddeyi-kərahəti, zəhləsi getdiyi eşşək, o həqir heyvan, yalqız insana nə qədər əzizdir. Baxınız XX əsr mədəniyyətdə mədəniyyəti, qüdrəti və sənətilə fəxr edən insanların əfradı, nə qisim aciz qalmış ki, bütün həyatı və məyeyi-nəcatı bir ac eşşəyə bağlıdır.

Bir baxınız insanların dənaətinə ki, öz aciz, zəif üzvləri əlindən belə bir vasiteyi-maişəti daxi qəsb ediyorlar.

Ah qəsidlər, həyasız dəni hasiblər!!. Əclaflar. Bu qocanın acizliyindən, sinnindən, saçından, saqqalından utanmıyordunuz, barı öz boy-buxununuzdan, qüvvətli, qüdrətli qolunuzdan utanaydınız!..

– Ah... Mən də gör sizdən nə istiyoram!.. Sizlərdən həya istiyoram!

Heyhat, həya, insaf sizdə nə gəziyor, camaat laqeydliyindən siz bu hissiyyatı itirib, insanlığı fəramuş etmiş, getmişsiniz!

Ey ciblərinə hücum edildikdə özünə gəlib dad-fəryad edən ağalar, siz də diqqət veriniz! Cavanlığını, ərbabi-miknət və sərvətin qulluğunda zail etmiş bütün qüvvət və bacarığını ağalara satmış olan bu qoca, bu zəif insan nə gündə ruzigar keçiriyor. Bunu da biliniz ki, bu tövr eşşəklərə möhtac olub, qalan züəfa bir tək Rəcəb Əli oğlu Səfərəli deyil: bu qisim fəlakətzədələr hədsiz, sansızdır. Bunlardan elələri vardır ki, dərdini belə bir yerə, bir idarəyə desin, onu da bilmiyordunuz görək bir dəfə, bir an olsun bu acizlərin qeydinə qaldınızmı? Bu xüsusda elədiyiniz bir təşəbbüsü göstərə bilərsinizmi?!

Yox! Əvət, yox!

Hərgah sizdə o dərəcə bir insanpərvərlik, o dərəcə bir təşəbbüs və həssaslıq olsaydı, bugünkü cibinizə hücum edən qəsiblərdən də əminəm ki, xatircəm olub qalardınız!..

* * *

Əziz oğlu ölmüş ata kimi eşşəyinin fərağında göz yaşı töküb, qırışıq rüxsarını islatmaqda olan bu qocaya, qoca Səfərəliyə nəhayət dərəcədə yazığımız gəldi. Ona təskinlik olmaq, onun dərdinə şərakət etmək üzrə vədə verdik ki, ianə vərəqi açıb ondan ötrü bir eşşək pulu yığaq. Bundan ötrü də ona bir 15–20 manat lazımdır.

İndi ey ürəyində rəhm olan qareini-giram, bu xüsusda bizə yardım ediniz də, bu qoca kişiyə kömək edək. Ona eşşək almaq üçün bu cüzi məbləği cəmləyək. Biz ona vədə verdik ki, rus cüməsi gəlsin pulu aparsın.

İştə hörmətli qareimiz hümmət edin, bildirək ki, aramızda dəni təbilər məəttəəssüf mövcud isə bunlara etiraz edən sahibi-vicdanlar da yox deyildir!!. İanə etmək istəyənlər «Tərəqqi» idarəsinə verə bilərlər.

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 23, 30 yanvar 1909*

## GECƏ DƏRSLƏRİNDƏN TƏƏSSÜRATIM

Keçən gün «Nicat» cəmiyyətinin açmış olduğu gecə dərslərinə getmiş idim.

Dərslərində bulundum.

Müəllimlərdə olan həvəs, iqtidar, səy fərəhimi artırdı. İbraz etdirdikləri hümmət mövcibi-şükranım oldu.

Bir ayın ərzində türkcədə bir kəlmə bilməyən bisavadlar, indi rəvan-rəvan oxuyub gediyor, yazıyorlar. Ruscadan 16 hərf keçmiş və keçdiklərini tam qanmışlardır. Hesabdan əməli-ərbəədən üçüncüsü olan zərb də edilir. Bu, əvvəlinci sinifdir.

İkinci sinif türkcədən oxuyub yazır. Sərf və nəhv məlumati-ibtidaiyyə alıyor. Hesabdan ədədi-müşbəeyə dair məsələlər həll ediyorlar. Ruscada oxuyub yazıyorlar. Lisanın qəvaidindən məlumati-əvvəliyyə alıyorlar.

Üçüncü sinif türkcə dərsində coğrafiyadan, təbiətdən və qeyri ümumi nafiədən parça-parça məlumat alıyorlar. Bu məlumat onları olduqca maraqlandırır. Rusca gözəl diktant yazıyor, hesabdan ədədi-müşbəeyi-mürəkkəbə dair dairəsində hər qisim məsələləri həll ediyorlar.

Xülasə, müəllimlərin səyi qulaq asanları öyrətməkdə ibraz etdikləri diqqətləri layiqi-təhsindir. İnsana gözəl bir əsər baxş ediyor.

Amma... boş qalmaqda olan skamya mənzərəsini korlayır, insanı naümid ediyor. Hərgah bu boş qalmış olan yerlər tutulaydı, şagirdlər lazımınca olaydı, ondan müəllimlərin hümməti neçə qat artardı.

Müstəme sahib o xanra bər sare karavərd*.

Dərslərin heyəti-müəlliminin dediyindən anlaşılıyor ki, məhərrəmlikdən iləri samiin[1] indikindən çox imiş. Güman ediyorlar ki, gələn sənə daxi çox olsun.

Əmin olmalıdır, bu əmniyyətlə bərabər bir az da bizim ərbabi-hümmət və qeyrətimiz çalışmalıdır. Bir aydan yuxarıdır bu dərslər açılmış, fəqət bir nəfər maarifdost tapılmamış ki, buraya gəlib dərslərin övzaindən maraqlansın, görsün ki, burada nə ediyorlar, nə öyrədiyorlar, işlər necə gediyor. Burası mövridi-təəssüfdür!..

* Dinləyən danışanı həvəsləndirər

[1] samiin – dinləyicilər



Müəllimlər istiyorlar ki, bundan belə həftədə bir dəfə bütün dərsə gələnlər üçün müxtəlif elmlərdən və bəhslərdən ümumi leksiyalar oxusunlar. Bu fikir xeyli gözəldir, layiqi-təhsin və təqdirdir.

Millətini sevən ərbabi-həmiyyətdən bu gözəl binaya maddən və mənən yardım etməklə davamına səbəb olmaları rica olunur.

Böylə bir dərslərin verə biləcək mənfəətlərini ayrı-ayrı saymaq nəzərimizcə bicadır...

Günəşin nur saçdığını kim bilmiyor?

**M.Əmin**
*«Tərəqqi», № 24, 1 fevral 1909*

## AÇIQ TERROR

Kim olması məlum olmayan bir şəxs tərəfindən Nobel firmasının injineri cənab Maksimova atılan bir güllə böyük küy-kələklərə səbəb oldu. Bu bəhanə ilə Nobel firması iləridə etdiyi elamnaməsinə görə 200 nəfərə kimi fəhləni qulluqdan ixrac edib. Canini verməyincə işə qəbul olunmayacaqlarında israr etdi. Firmanın ilərində elan etdiyi bu idi ki, hərgah bir nəfər zavod idarəsi adamlarına təcavüz və təərrüz edilsə, bircə kontor adamlarından güc olunsa, qatil canini fəhlələr tutub verməsələr işə düşən zavod bağlanacaq və bütün əmələləri rasçet olunacaqdır.

Vaxtında fəhlələr Nobel idarəsinin bu qisim təhdidnaməsinə etiraz etdilər. Onlar etirazlarında dedilər ki, fəhlə üzviyyətinin dərrakəli fəhlə cəmiyyətinin mübarizə etdiyi, çalışdığı bir nəfər, iki nəfər, əleyhinə deyil, bütün bir sinif və üsul əleyhinə olduğundan onlar hər bir halda istər iqtisadi, istər siyasi olsun terror ilə iş görməyi təqbih[1] ediyorlar. Onlar bilirlər ki, onları bugünkü fəlakətli və ağır maişətlərindən qurtaran bu qisim yüngülağıllı vasitələr deyil, birlik, birlikdə öz ehtiyaclarını qanıb ittifaqən iş görməkdir.

Doğrudan da, fəhlələrin axırıncı məqsədləri olan yeni bir üsuli-məişətə çatmaq, səadətlə ömür keçirib, gözəl gələcəyə nail olmaq üçün müəyyən bir yol, məlum bir vasitə vardır ki, o da ümum camaatı bir yerə yığıb, müttəhid edib, o hər bir gülədən, bombadan və tüfəngdən qorxuludur. Bu da ittihaddan ibarətdir.

«Ari, be ittihad cəhan mitəvan gereft»*.

[1] təqbih – pisləmə

* Bəli, birlik ilə dünyanı tutmaq olar

Yəqindir ki, Nobel firması özü də bunu bilir ki, fəhlə cəmiyyətinin ayrı-ayrı şarlatanlardan həgiz xəbəri yoxdur. Və o nəfər ilə ələqədar deyildir. Lakin bununla belə, ildə Sovet syezdin büdcəsinə milyonlar artırıb, artıq xərclər edərək xahişlərincə qoydurduqları qradonaçalstvadan istəməkləri əvəzinə fəhlələrdən tələb ediyorlar ki, onlar bu qədər istifadə olunduqları azmış kimi, bir də onların bədən mühafizəliklərini edib, polisə xidmətini aparsınlar. Və bu qəsdilə də işlərin etdiyi övzaindən mənfəətbərdar olan Nobel firması yuxarıdakı elanı düşmüş olan Maksimov vəqəsindən naşı əmələ gətirir.

Fevralın 2-də Nobelin Balaxanı mədənindən kənarda, yolda injenerə güllə atılır, sui-qəsd olunur. Bunun əleyhində verdiyi elana vəfa edən zavod idarəsi bütün zavodu bağlayır. 200 nəfərə kimi fəhləni küçəyə töküyor. O saat yubatmayıb fəhlə komissiyonu yığışıb bütün fəhlələrlə bərabər qətnamə çıxarırlar ki, onların bu cinayətdən həgiz xəbərləri yoxdur. Və istəyirlər ki, idarə onları çölə tökməsin. Çünki fəhlələrin bu işdən xəbərləri yoxdur. Fəhlə soyuzu qəzetə vasitəsilə fəhlələrin mühafizəsinə qalxıb zavod idarəsindən tələb ediyor ki, o injenerə sui-qəsdin firma fəhlələri tərəfindən olduğunu isbat edəcəyi sənədlər və sübutlar göstərsin. İdarə isə bu tələblərə, bu məktublara, bu etirazlara baxmayaraq, heç bir məlumat verməк və sübut göstərmək istəməyib, ancaq təklif edir ki, fəhlələr müqəssiri versinlər və bu təklifində israr ediyor.

Bu vəqəə Bakı qanunsuzluqlarından, Rusiya hərc-mərcindən bir nişanədir. Kim olduğu məlum olmayan bir nəfər ağılsız canidən ötrü 200 nəfər məsum aclığa məhkum ediliyor.

Əvət, sərmayədarlar naməlum şəxslər tərəfindən özlərinə olunan bir hücumu əllərində beğeri-haqq dəstavüz edib, fürsəti fövtə vermiyorlar. İki yüz insanı birdən-birə çıxarıb küçəyə, aclığa atmaqdan həya etmiyorlar.

Görünür ki, bu tədbir də fəhləlləri tədhişdə saxlamaqdan ötrü təzə bir üsuldur. Daima aclıq qorxusu altında saxlanılan fəhlələrin arasına təbiidir ki, bu bir bulanlıq düşəcəkdir. İştə bu bulanlıqda balıq tutmaq asan oluyor.

Fəqət bu dəfə məsələ yaxşılıqla qurtarmışdır. İnjenerə sui-qəsd edənlər polis tərəfindən tutulub, firma fəhlələrinə dəxli olmadıqları aşkar edilmiş və beşinci promısla fəhlələrinin protestləri fəhlə soyuzunun firma tərəfindən olunan haqsız və ixtiyarsız üsulu təqbih edən qətnamələrin və fəhlələrin israr və tələbinin əsəri ilə Nobel təzədən bağlanmış promısları açıb, fəhlələrin bekar qalan günlərinin muzdunu da verməyi vəd etmişdir.

Yaxşı ki, canilər polis əlinə keçmiş və məsələ də bu yolla qət olunmuşdur. Əslində isə məsələnin əsas cəhəti xeyli haqsızlıq və bidət bir işdir. Tutaq ki, ikinci dəfə belə bir iş düşdü. Polis caniləri tutmağa müvəffəq ola bilmədi. Bu qisim təsadüflər azmıdır?! O surətdə əcəba bütün promısla əmələləri cəzaya giriftar olub, aclığa məhkum olsunlarmı?



İştə fəhlələri həyəcana gətirən məsələ!

İştə bir bidət ki, Nobel firması qoymaq istəyir. Məsələnin bu cəhəti fəhlələri rahət qoymuyor. Əlbəttə, qoymaz da. Fəhlələr gərək bu xüsusda yekdil və yekcəhət olub, bu qisim binagüzarlıqlara protest etsinlər. Onlar gərək əfkari-ümumiyyeyi qanc etdirsinlər ki, bu cürə bidətkaranəliklərə lənətxan olsunlar.

Doğrudan da, bu iş olduqca mənfurdur, qəbahətlidir. Bir nəfər özü işi, sənəti, hüviyyəti məlum olmayan şarlatandan ötəri yüzlərlə camaatı cəzalandırmaq nə qədər inad!..

Böylə bir iş heç vəch ilə rəva olmuyub, hər bir mülahizə ilə baxılsa, fənadır, qəbihdir, etiraz və protest etməli bir işdir, qanunsuzluqdur, insanlığa toxunar. Qanun olan yerdə bu qisim tədbirlər qanuna gülməkdir.

Bir nəfər caniyə qisas etmək üçün iki yüz nəfərə cani olmaq nə böyük istibdad! Haqsızlıq!

Fəqət nə edərsən ki, Rusiyanın haləti bilümum bizim Bakı məişəti isə bilxüsus bu qisim haqsızlıq və hərc-mərcdən ibarət olmuş, qalmışdır da. Haqq və ixtiyar yaddan çıxıb, meydan güc ilə qalmışdır. Meydan güc ilə qaldığındandır ki, hər qisim zəlil, xəfi və qara terrorları icab edən böylə açıq terrorlar meydana qoyulunur!!.

M.Ə.

*«Tərəqqi», № 37, 16 fevral 1909*

## İRAN MƏKTUBLARI

### RƏŞT

### Cəşni eydiyyə

Rəbiələvvəlin qürrəsində[1] Novruz eydi münasibəti ilə darül-hökumət salonunda rəsmi-səlam məclisi təşkil olundu. Əvvəlcə məktəb uşaqları dəstə ilə gəlib Sipəhdarın hüzurunda layihələr oxudular. Sipəhdari-əzəm cənabları da bunları təcdid edərək, bir nitq söyləyib zimnində buyurublar ki, vətənin istiqbalı onlara bağlı və millətin ümidləri onlardan asılıdır. Nəticədə isə uşaqlara Sipəhdar eydiyyə olaraq hədiyeyi-nəqdi buyurdular. İstiqbali-millətə əlhəqq böyük ümidlər verən bu mücahid balalar iltifati-Sipəhdarını qəbul etdikdən sonra bir surəti-qeyrətgüstaranə ibraz edərək, onlara verilən vicuhatın vəchi-iianeyi-milli xəzinəsinə verilməsini xahiş və bəyan etdilər.

Əvət, bu qisim ibrazi-qeyrət edən balaları millətə xidmət etmək üçün inşallah millət dəxi təhsili-müvəffəqiyyəi tamə etdikdən sonra layiqincə

[1] qürrə – ayın birinci günü

tərbiyə etmək üzrə onların bu gün bir halati-səfalət üzrə tartibsiz, qaidəsiz Nuh əyyamından qalma məktəblərini (əgər məktəb demək olursa) islah edər və onlar, doğrudan da, millət balaları olmağa müvəffəq olar və bu surətlə öz istiqbalını daxi təmin etmiş olar.

Bu nöbəvəgani-vətəndən sonra mücahidini rahi-hürriyyət fədaiyani-məzlumini-millət həzəratı dəstə-dəstə fövc-fövc olaraq musiqi tərənnümü ilə təmamən məclisi-rəsmi-səlamda hazır oldular.

Hüzzar tərəfindən bilvükalə təhniyət və təbrik nitqləri irad edildi. Nitqlər qayətdə səmimi, atəşin və mütəəssir idi. Hər bir natiqin nitqi hazıranın alqışları ilə qurtarır. Cümlə mücahidin tərəfindən təqdir edilirdi.

Bu xitab və bu təhniyət və təbriklərin məzhəri olan Sipəhdar cənabları eşitdiyi nitqlərdən, qəbul etdiyi təhniyət və təbriklərdən qayətdə mütəəssir olduqları bir halda ğərra[1] bir nitqi-cavabi irad buyurdular.

Müşar ileyh cənabları rəşid bir sərbaz və cəngi olduqları kimi hərraf bir natiq olduqlarını daxi bu nitqləri ilə aşkar buyurdular. Bu nitqi-ğərralarında Sipəhdar həzrətləri ittihad, ittifaq, üxüvvət və müsavat xüsusunda danışıb, ancaq bu surətlə iş irəli aparmaq ola biləcəyini isbat ediyor və həzərati-mücahidini təmkini-qanuniyyətə və müraati[2]-nəzmiyyəyə dəvət edərək, şəhərin, əhalinin nəzm və nizaminin bərqərar edilməsini əmniyyət və asayişin mütləqən gözlənilməsini bilisrar tövsiyə ediyordu.

Məzkur nitqinin zimnində elan etdi ki, şəxsən özləri daxi bu günlərdə səngərə gedəcək ki, orada qardaşları məsabəsində[3] olan mücahidin ilə dəstbədəst olub onlar ilə bərabər mədəri-mehribani-ümumiləri olan vətən yolunda canfəşanlıq etsinlər.

Artıq bir diqqət və ləzzətlə dinləməkdə olan bu nitq mücahidlər və qeyri hazır olanların asimanfərsa[4] olan «zindəbad-Sipəhdar» sədaları ilə alqışlar və gurultular arasında xatiməpəzir oldu. Nitqindən sonra Sipəhdar həzrətləri bütün mücahidlər ilə fərdən görüşüb öpüşdülər və böyük bir məsərrət və nəvaziş ilə vidalaşdılar. Bu surətlə məclisi-səlam böyük bir təmtəraq və cəlal ilə qurtardı.

* * *

Bir gün cəşndən[5] irəli və bu gecə şəhərdə teatro zalında konsert müsamirəsi daxi təşkil verilmişdi ki, burada nəcəmati-milliyyə sürud[6] edilir, bir fütuhati-milliyyə nafei-şadmani olunurdu. Teatro zalı müstəmiin ilə məmlüv idi. Buradan gələn varidat vücuhati-ianeyi-milli sandığına varid oluyor.

[1] **ğərra** – parlaq, işıqlı
[2] **müraat** – riayət etmə
[3] **məsabə** – oxşar, bənzər
[4] **asimanfərsa** – göyə ucalan
[5] **cəşn** – bayram şadlığı
[6] **sürud** – mahnı, səs, avaz



**Rus kazakları**

İləridən xəbərini verdiyimiz rus kazakları indi Rəştdədirlər. Bunlar dəstə ilə şəhərin küçələrində gəzib dolanmaqda və nümayişkaranə hərəkətləri ilə əhalini mütəvəhhiş etməkdədirlər.

Kazakların Ənzəliyə çıxmaqları xəbəri çatdıqda, məclisi-əyaləti və Sipəhdar tərəfindən bütün düvəli-xaricə konsullarına rəsmi kağız yazılıb, onlardan cavab istənilmişdir. Aya məşrutəçilər tərəfindən bu vaxta kimi təbəeyi-xariciyyə bir şey, cüzi bir zərər və kəmehtiramlıq olubmudur?

Bu suali-rəsmiyə hamı konsulxanalar cavabi-qəti olaraq bəyan vermişlər ki, heç kəs inciməmişdir. Rus konsulu daxi bu tövr bir cavab verib, lakin axırında bir müxtəsər imah əlavə etmişdir ki, bu da poçtun zəbt olunmasından ibarətdir.

Halbuki zəbt olunan bu sənədə, ruslara məxsus neveştəcat və bağlılara bilmərrə təərrüz edilməmişdir.

Rus konsulundan kazakların nədən ötrü varid edilmələri soruldaqda, cavab vermiş: onlar fərmani-hümayuni-imperatori mövcibincə gəlmişdilər.

Bu kazakların bir çoxu türkcə və rusca laqqırtı ediyorlar. Bundan görünür ki, bunlar məxsusən İrana göndərilmək və bir qəsdi-müəyyənə xidmət etmək üzrə göndərilmişlər.

Kazakların vürudu ümumən şəhər içində bir tövr qeyri-məmul surətdə gəzmələri isə xüsusən əhalinin mövcibi-təşviş və iztirabi oluyor və bu cəhətdən naşi məşrutəxahların etirazi-ümumisini, həyəcan meyillərini gözləmək müşkül deyil.

**Ərdəbildən xəbər**

Astaradan buraya bateleqraf xəbər verirlər ki, Ərdəbilin ərkani-istibdadi mütəzəlzil[1] olmuşdur. Nəticə bu yaxında inşallah hazır olacaqdır. Şahsevən və Meşkin elləri Rəhim xanın Qaracadağda olan əlaqəcatını çapıb talan etməyə məşğuldurlar.

Rəsulzadə
*«Tərəqqi», № 57, 18 mart 1909*

## İRAN MƏKTUBLARI

### RƏŞTDƏN

Bu günlərdə burada bir neçə dəfə qara fikirlər büruzə verilməkdədir. Rus kazaklarının vürudini mütəaqib burada bəzi fikirlər nəşr olunuyor. İrəlicə söz gəziyordu ki, guya, burada irticaiyyunları istəyirlərmiş ki, rus konsulxanasına hücum eləsinlər, tainki əsbabi-müdaxilə mühəyya olsun.

[1] **mütəzəlzil** – sarsıdılan

Lakin məzəli burasıdır ki, bu xəbər konsulxanə mənabeindən nəşət ediyordu. Rus konsulxanası məmurlarından birisi bir nəfərə məhrəmanə demişdir ki, kazakların buraya vürudi ondan ötrüdür ki, irticaiyyunların inqilabi bərhəm vurmaq qəsdi ilə konsulxanaya hücum etmək qəsdində imişlər. Bundan xəbər tutmuş konsulxana, guya, kazakları bərayi-ehtiyat istəmişdir. Layiqi-təvəccöh burasıdır ki, bu qisim xəbərlər həman bu məntiq üzərə tərəqqi etməkdə və şaiyatı artırmaqdadır. Bir nəfər Qafqazdan gəlmiş cani nə tövr isə özünü mücahid sifətinə salmağa müvəffəq olmuşdur. Nobel firmasının müdirinə və kontorun bəzi əmələlərinə suiqəsd hazırlayırmış ki, bunun fikri-səqimi sezilib filhal komisiyoni-cəng tərəfindən həbs olunub, təhti-istintaqa verilmiş və onilə məslək olanlardan bir neçəsi dəxi tovqif olunmuşdur. Bundan başqa bir çox iştibahamiz xəbərlər qəsdən nəşr olunur ki, əfkari-ümumini iğfal etsin. Məsələn, bu günlərdə xəbər buraxmışlardı ki, guya, rus bankı rəisinə adsız bir məktub yazıb, ondan pul tələb etmişlər. Və halonki bunun heç əsli belə yoxdur. Bu tövr qara fikirlərin kim tərəfindən nəşr olunduğu hamısını düşündürməkdədir. Lakin bu düşüncələrin nəticeyi-məntiqiyyəsini rus kazaklarını nümayişkaranə rus postasına aparıb-gətirmələri bir dərəcəyədək təyin ediyorsa da, sabiqdəki əmali-şüniə və əfkari-fitnəkəranəsi ilə bütün qareinikiramımizə məlum olan Səmədxan tacirbaşı dəxi əfkari-ümumiyyəni narahat etməkdədir. Bu adam Qafqazdan buraya qaçmış olan caniləri, qoçuları başına yığıb da qonaqlıqlar veriyor və cürbəcür qara səylərdə bulunur. Nobel müdirinin işi barəsində həbsə alınmış olan Əbdülhəsəni-mərqumun dəxi ələrəvayət buna mənsubiyyəti, yəni bunun dairəsinə mədxəliyyəti vardır.

Hər nə isə, Səmədxan tacirbaşılıqdan başqa digər bir «baş» qazanmaq istəyir. Ümuri-xeyriyyəyə keçmiş sayəsində müstəid olmadığından naümid olmayır. «Əbrarbaşı[1] müşkül isə əşrarbaşı[2] olaram» – deyir. Bir dərəcəyədək bu şöhrətə müvəffəq də oluyor.

Məhərrəmin 17-sində, Rəştin fəth olunan gününün sabahı bir-iki ədəd tüfəngdən ötəri, bu adam hazırmış ki, böyük bir qovğa çıxardıb, başında olan əşrarı iğva etsin, şuriş salsın. Hərgah bunun müqabilində Rəhimxan Xəlilov və Əliş bəy Əliyev cənabları olmasa imiş, böyük bir fəsad çıxaracaymış. O vaxt damağı yanmış olan bu müfsid daima fikri səinimi icra etmək xəyalındadır ki, indi də bu qisim əlaltı cinayətləri əskiltməyir.

Lakin bu adam nahaq yerə bu qədər səy ediyor. Çünki nə o, nə onu, nə sən və nə səni təhrik edib «araba ilə dovşan tutmaq» istəyənlər məqsudlarına çata bilmiyorlar.

Qafqazlılar Məhəmməd xan əfsadatı əleyhinə elədikləri iqdamatılazimədən necə ki, bu vaxtadək təkamül etməyiblər, bundan sonra belə qəflət etməyəcəklərinə müsəmməm olmuşlar.

[1] əbrar – doğurçu, nəcib adamlar [2] əşrar – şər adamlar



**Kirkan və dəlillər**

Bu gün əlli nəfərə kimi səvarə talışın Kirkan rudindən buraya gəldilər. Yerli mücahidin tərəfindən bunlar kəmali-ehtiram ilə istiqbal olundular. Bunların sərkərdəsi Seyid Əşrəf həzrətləridir.

**Sipəhdarın hərəkəti**

Bu günlər Qəzvin səfərinə kəmali-ciddiyyətlə hazırlanmaqdadır. Komisyonu-cəngdə tədarükati-lazimə icra olunur. Bir üç gün sonra Sipəhdar cəmiyyəti-kafiyə ilə Qəzvin tərəfə hərəkət edəcəkdir.

**Tərtibati-şəhriyyə**

Şəhərlərin tərtibati-nəzmiyyəsi uğrunda lazımeyi-mücahidat olunmaqdadır. Ədliyyə-nəzmiyyə idarələri qaidə üzrə tənzim və islah olunmaqdadır.

Novruza kimi maliyyat köhnə hökumət tərəfindən alınmış idi. Yenidən təzə ilin maliyyatını yığmaq və bilümum mədaxil və məxarici məzbut surətdə saxlamaq üçün təzə üsul ilə bir idareyi-maliyyə təşkil olunmuşdur.

Şəhərin nizami iki qismə bölünmüşdür. Bir qismi mücahidlərə dairdir ki, bunların qanunsuzluq edənlərinin mücazatı komisyonu cəng ilədir. Bu günlərdə bir mücahid nədən ötrü isə başqa bir nəfər öz həmkəndlisini öldürmüş idi. Fövri tutulub mücazat olundu. Əhalinin nəzarəti isə nəzmiyyə idarəsinə mühəvvəldir ki, bu idarə 80 nəfər fərraşdan, 8 nəfər məhəllə rəisi (kəndxuda) və bir nəfər bazarnikdən, 2 nəfər müavin, bir nəfər də rəisi-küllidən ibarətdir. Rəisi-külli mənsəbinə mücahidin, mühacirin arasında etibar və etimad sahibi olan Sədiqihərəm cənabları təyin olunmuşdur.

**Ətraf xəbərləri**

Təbrizdən gələn xəbərlər təsginamizdir. Ərdəbildən layiqi-təqdir xəbər alınmaqdadır. Guya, şahsevənlər arasında fikri-məşrutiyyət artmaqda və özünə tərəfdar tapmaqdadır. Qəzvindən xəbər verirlər ki, orada mücahid firqəsinin sirri komitəsi təşkil olunmuşdur.

Astarayi-İranda Hüseynəli xanın atlılarına kömək olmaq üzrə buradan top, bomba və adam göndərilmişdir. Orada dəxi mücahid firqəsinin şöbəsi təşkil olunmuş və işləməkdədir.

**Təfrihi-ümumi**

Məhərrəmin 26-dan müqatilədə dövlətyan kütləsi ilə şəhid olan student Paşaxan öz bombası ilə həlak olan gürcü Mexonun ailələrinə bir ianə yığmaq qəsdi ilə burada bir teatr verdilər. Teatrda rusca və türkcə oyunlar keçdi. Türkcə Soltan Məcid Qənizadənin «Dursunəli və Ballıbadı»sı oynandı. Məclis yaxşı keçdi. Bu qisim şeylər burada təzədir, əvvəlidir. Hazirin kamalınca var idi. Teatr dolu idi. Yığılan vücuhat mövqei-lüzumuna göndərildi.

Rəşt

**M.Ə.**

*«Tərəqqi», № 59, 20 mart 1909*

## İRAN MƏKTUBLARI

### RƏŞTDƏN
*(xüsusi müxbirimizdən)*

#### Rus kazakları

Rus kazaklarının Rəştə gəlmələri münasibətilə hökuməti-müvəqqəteyi-məşrutə ilə düvəli-xarici konsulları arasında böyləcə sual və cavablar olundular.

Əncüməni-əyalətiyi-Gilan və Sipəhdari-əzəm tərəfindən ingilis, osmanlı, alman, ötriş* və rus konsullarına verilən sual:

Bütün süfəra həzəratı və düvəli mütəməddinə təbəəsinin xatiri-mübarəklərindədir ki, İran milləti özünün qəsb olunmuş hüququnu alıb da hürriyyət yolunda mücahidə etdiyindən səhhəti-əməli özlərinə əsas etmiş və ediyorlar və İranın bütün nüqatında bu imtahanları vermişlərdir. Və xüsusən Gilanda bu vaxta qədər heç bir xarici təbəəsinin malına, canına, heysiyyət və şərəfinə Gilan milləti tərəfindən bir təcavüz olunmamış və gecə-gündüz səy və ehtimamları həm budur ki, böylə bir şey olmasın və düvəli-xaricənin ticarət işləri müttəl olmasın. Və Rəştdə olan bütün düvəli-xariciyyə konsullarından, hətta dövləti-bəhiyyeyi-rus konsulundan belə razılıq olduğu halda, Rus dövləti tərəfindən 40 nəfər kazak, 2 ədəd pulemyot ilə bərabər biduni-ittila və icazə Gilana daxil olmuşlardır. Halbuki məhərrəmin 16-dan bu vaxtadək bir nəfər rus təbəəsinin hüququna əbədən təcavüz edilməmişdir. Hər bir dövlətin üsul və hüququ xaricində olan bu hərəkət böylə bir mövqedə millətlərin səbəbi-həyəcani olub fövqəladə zəhmətlər törədə bilir.

Lihaza təmənna ediyoruq ki, bu növ zəhəmati-fövqəladə ola bilən iqdamat və hərəkatdan cilovgirlik edib, milləti-İrani səbəb və anat özlərindən rəncidə etməsinlər.

### «GİLAN ƏNCÜMƏNİ-ƏYALƏTİSİ»

#### Osmanlı şəhbəndərinin cavabı

Gilan əncüməni-əyalətisi ümənasının hüzuri-damətbərəkatü-hümlərinə, ümənayi-əncüməni[1]-müqəddəsi-Gilani, Gilan millətinin öz hüquqi-mənsubəsinin hifzi xüsusunda ibraz etdiyi həyəcani-millisi barəsindəki məhərrəmül-həramın 16-dan bəri vaqe olmuşdur, osmanlı təbəələrinin dediyi budur ki, Rəştdə müqim[2] olan osmanlı təbəələri ibtidadan ta hala kimi kamali-rahət və əmniyyətdə olub və onlara heç bir zərəri-şəxsi və ticarəti yetməmişdir. Bəlkə, hər vaxt öz haqq və hüquqlarını kəmali-ehtiram ilə ümənayi-əncüməni-əyaləti tərəfindən mühafizə olunduğunu görmüşlər və görürlər.

Ümidvaram ki, cəmeiyyəti-islamiyyəyə məzhər olan və əşxasi möhtərəmlərin iqdamati-kamilanələri sayəsində bu vaxta kimi göründüyü kimi, bundan sonra daxi heç bircə təərrüz olunmayacaqdır. Ümumi-təbəəyi-osmani naminə həzəratın bu şiyveyi-mərziyyələrinə qarşı bil-imtinai səmimi qəlb ilə izhari-təşəkkür edirəm.

*Vəkili-şəhbəndəri-Osmani*

#### Rus general konsulunun cavabı

*Sipəhdar hüzuruna*

Fədayət şəvəm, iki tuğra mərqumeyi-şərif ki, əncümən paketləri möhtəvisi idi, vasil oldu. Və kəmali-ehtiram ilə mülahizə olundu. Kazaklar və iki ərradə[1] topun vürudu barədəsində tövzihat istəmişdiniz, zəhmət veriyoram ki, kazakların vürudi dustdarın dövləti-mətbuəsinin əvliyayi-dövləti əmri ilə buraya varid olub. Gərək müvafiq dəstürüləməl Əlahəzrət imperatori-konsulxanasında mütəvəffiq olsunlar. Vali dustdar öz tərəfindən təsdiq ediyoram ki, bu müddətdə həzarati-məşrutətələblər rus dövləti-bəhiyyəsinin hifzi-hüdud və hüququ darında sai və cahid olmuşlar. Və bəlkə, onların barəsində həmə növ müraati-lazimənı mənzur etmişlərdir. Amma əfsus ki, şose yolunda etidal yolu ilə hərəkət etməyib və etməməkdədirlər. Necə ki, Bəsiri Xaqani özü ilə hər qisim sifarişati-məxsusə əncümənin təminnaməsi olduğu halda, Tehrana hərəkət etməyi əsnadə onu yolda tutub, təərrüzatda bulunmuşlar. Və hərgah konsul fərraşı onunla olmasaymış onun barəsində sui-qəsd icra olunacaqmış. Əlavə rus postu və konsulgəri-abirini qanunə xilafən təfəhhüz və təcəssüs ediyorlar. Halonkı şose yolunun imtiyazları dövləti-bəhiyyeyi rus kargüzarlarının vəzifəsidir. Heç bir vəch ilə bu günə iqdamat etməyə haqları yoxdur. Və hərgah bu məsələni moquf və mətruk etməsələr, ehtimal var ki, kazak və qeyrənin iddəsi daha da artırılsın. Hər surətdə kazakların vürudı ümurati-daxiliyyəyə müdaxilə etməyə mərbut deyildir. Və əbədən baisi-iztirab və təzəlzül olmamalıdır.

*Məhəlli-möhr general konsul*

#### Alman vis konsulunun cavabı

Əncüməni-Gilan, xatiri-möhtərəmləriniz müsəxxər olsun! Cavab nömrə 529. Məhərrəmin 16-dan ta bu günə kimi dövləti-fəximeyi-alman rəiyyətlərinə heç bir zərər və ğəramət olmayıbdır.

*Alman və ötriş dövlətlərinin vəkili konsulgərisi*

---

* **ötriş** – Avstriya
[1] **ümənayi-əncüməni** – əncümənin yüksək rütbəli adamları
[2] **müqim** – oturan

[1] **ərradə** – araba

**İngilis konsulunun cavabı**

Gilan əncüməni-əyaləti-müqəddəsəsinin ümənası, xidmətizi kərimə-ti-damətbərəkatühüm, əncüməni-möhtərəmin barəsində sübut olan o mətalibdən müstəhzər oldum. Dövləti-fəximeyi konsulgərisi, dövləti-mətbuəsi ətibbainin hifzi-hüquq barəsində əncüməni-müqəddəsin ibraz etdiyi məsaidən kamali-imtinan və rizaiyyəti olmuş dəvairdir. Məgər iki məsələdə ki, biri məhərrəmin 17-sində sübh konsulgəri fərraşı olan birinin öldürülməsi və digəri cənabi-vəkilüddövlədən ianə rəsmi ilə 125 tümənin mütalibəsi.

**Məhəlli-imzə**

Bu sual-cavabdan anlaşıldığına görə bütün dövlətlərin nümayəndələri tazə inqilab üsuli-idarəsindən izhari-rizayətdən başqa bir şey ibraz etməmişlər və edə də bilməzlər əbədi. Fəqət bu cavablarda mövcibi-qeyd və təzəkkür bir şey varsa, o da əvvəla, rus general konsulunun yazdığı cavabı qeyri-rəsmi surətdə dustanə yazmış və fədayətşəvən ünvanı ilə başlamışdır. Yəni hanuz bu hökuməti-müvəqqətəni konsul cənabları rəsmən tanımamışdır.

Fəqət qeyri-rəsmiliyi rəsmiyyətə döndərməyə müşar ileyh konsul cənabları əncümən və Sipəhdarın izharatından sonra məcbur olmuşdur. Saniyən, rus və ingilis konsulları izhari-mənəviyyətləri ilə bərabər hərə bir-iki qeydi-etiraz dəxi etmişlər. Lakin «əz bərayi-xali nəbudəni ərizə» qeyd etdikləri bu etirazlar səthi bir mülahizə ilə görünür ki, etiraz maddəsi əsla olmadığı üçün surətən bir nümayiş etmək istəmişlər. Etirazın biri Bəsiri Xaqan barəsindədir. Halbuki Bəsiri Xaqanın rus dövlətinə əslən dəxli yoxdur. Zira İran təbəəsidir. Onun rus konsuluna mədxəliyyəti ancaq konsulxana fərraşına həmrah olduğu dərəcəsindədir, artıq bir şey deyildir. Şose yolu məsələsi yalqız bir iştibahkarlıqdan ibarətdir. Zira, heç bir vaxt rus postası təfəhhüs və təcəssüs edilməmişdir. Təcəssüs olunsa rus qırması altında rus işi görülməsin nöqteyi-nəzərindən olmuşdur. Yəni rus fərraşı axtarılmışdır ki, İran kağızları həml edilməsin. Məlumdur ki, belə bir diqqətdən rus malüt-ticarəsinə şose yolunun əmniyyət və asayişinə heç bir rəxnə toxunmaz və hüdud hüququ mühafizə etmək üzrə 40 kazak və 2 pulemyotun vürudu icab edəməz!.. Yox, əgər bu iqdamat (keçi suyu bulandırma) qəbildən isə o bir başqa məsələdir. Gələk ingilis konsulunun etirazlarına. İngilis konsulu dəxi bu etirazlarında haqsızdır. Çünki nişan verdiyi hər iki nəfər İran təbəəsidir, ingilislərə dəxli yoxdur. Dəxilləri varsa, ancaq o dərəcəyədəkdir ki, bu adamlar ingilis konsulxanasının müstəxdimləridir. Əcəba, başqa bir dövlətə müstəxdim olmaq əsas dövləti-mətbuəsinin daireyi-nüfuz və təhkimindən xaric



edərmi?.. Zatən düvəli-müəzzəmə nümayəndələri istibdad dövründə öylə başlanmışlar. Onlar ümuri-daxiliyyənin hər bir cüziyyatına varıncaya qədər müdaxilə etməyə alışmışlar.

İştə bu etirazlar da o ruhun tətimməsidir. Xub, varsın öylə olsun.

Aya bundan ötrü lazım gəlirmi ki, dəsturüləməl üzrə konsulxanada saxlanıb dayanmalı olan kazaklar şəhərin küçələrində nümayişkarana surətdə gərdiş edib xalqın həyəcana və fəsad fövqüzzəhmə törətməsinə səbəb olsunlar?!.

Həman bu cəhətlərdən illətsiz və səbəbsiz nümayişlərdən bizar olan əhali, bugünkü martın 13-üdür, axşamüstü Sizə meydana cəm olub kazakların vürudunu mətrəhi-müzakirə elədi.

Natiqlər atəşin və kəskin nitqlər ilə milləti-İraniyyənin istiqlali-milli uğrunda fədayi-can etdiklərinin bütün düvəli-xariciyyə tərəfindən qəbul olunmasını qeyd edərək, hürriyyəti-milliyyə istehsalı qəsdilə mücahidə etməkdə olan İran inqilabçılarının bilümum təbəəyi-xaricə hüququna və hüduduna məvazib olduqlarını və xüsusən Rəştdə müqim bütün konsulat təqrirati-fövqüzzikrlərinə sənahən təbəəyi-xaricənin hər bir təcavüz və təərrüzdən məsun qaldıqlarını müşahidə edərək, rus kazaklarının mühafizeyi-hüquq ünvanı ilə Gilana varid olmalarında iki qonşu millətin münasibəti dustanəsinə bir təkdir surəti görüb, bu qisim hərəkətə cüzi bir əsas və illət olmadığından yekcəhət Rusiya dövlətinin bu hərəkətindən ədəmi-rizayət izhar edib, qərar verdilər ki, bir heyəti-təsnihiyə gedib, bu xüsusda əncüməni-əyaləti ilə iradi-sual və cavabda bulunub, nəticəyi-iqdamati sabah Sizə meydanda camaata elan etsinlər.

Meydana yığılmış olan camaat xeyli dilgir və mütəhəyyic idi. Hər kəsin simasında nəhayət dərəcə bir etiraz və həyəcan müşahidə olunduğu, hər kəsin göftar və rəftarında müşahidə olunan etidal və hədşünaslıq dəxi mövcibi-təhsin və təqdir idi.

Bir çoxları ehtiyat ediyorlardı ki, bu mitinqdə bəzi əşxas camaatin həyəcani-təbindən istifadə fikrinə düşər də, bir fəsad çıxarar. Amma mitinqin kəmali-sükut və nizam üzərə qurtarması bildirdi ki, həqqini-mütalibə etməyə istihqaq ibraz etmiş olan milləti-iraniyyə bu qəbil fəsadlara məzhər olmağa artıq müstəid deyildir.

**Müdaxilə məsələsi**

Burada rus, ingilis və Türkiyə dövlətlərinin İran işlərinin uzanmasından naşi artıq ticarətə yetməkdə olan zərərlərə qətlaşmayıb, işə müdaxilə etmələri barəsində nəşr olunmuş olan xəbərlər, nəhayət dərəcədə təsir etməkdədir. Lakin bu şayiələr mücahidini-rahi-hürriyyəti ruhdan salmıyor, onlar buna etiqad etmişlərdir ki, ihqaqi-həqq etmək üzrə qiyam

etmiş olan bir milləti artıq məhkəmeyi-zənciri-əsarətə çəkəməz. Onlar ya bilmərrə ölüb qurtararlar, yainki məqsədi-müqəddəslərinə nail olarlar. Bu iki mətləbin arasında üçüncü bir məqsəd daha yoxdur.

### Müsye Baranovski

Tehran səfarətinin tərcümani-əvvəli olan müsye Baranovski neçə vaxt bundan əvvəl Peterburqa çağrılmış idi. Bu günlər Peterburqdan Tehrana qayıtmaq üzrə Rəştə daxil olmuş Sipəhdar ilə mülaqatda bulunmuşlardır. Məzkur əsnayi-mülaqatda Sipəhdara demişdir ki, o Tehrana rus səfarətindən ötrü təzə bir dəstürüləməl aparıyor ki, o dəstürüləməl üzrə rus səfarəti iki-üç həftə ərzində şahı sıxışdıracaqdır ki, qanuni-əsasini olduğu kimi elan etsin. Hər ayinə şah istadəlik göstərərsə, o halda ruslar məcbur olacaqlar ki, işə müdaxilə edib, məmləkəti sakit etmək üçün qoşun daxil etsinlər.

Sipəhdarın sualına ki, «ingilislər buna necə razı ola bilərlər», Müsye Baranovski cavab vermiş ki, ingilislər bu vaxta kimi müştəbeh idilər. Biz onları iştibahdan çıxarıb, bizə yetişən ticarəti zərərlərin məfövqündən keçdiyini onlara sübut etdik. Onlar daha artıq müdaxilə məsələsinə müqabilə etməyəcəklərdir.

### Tehran səfəri

Burada kəmali sürət ilə Tehran səfərinə hazırlaşıyorlar. Təbriz ilə bu xüsusda müxabirətdədirlər. Ətrafdan föve-föve kömək dir ki, gəliyor. Qəzvin müstəiddir ki, cüzi bir hərəkət olcağın məşrutəçilərə təslim olsun. Onun təslihi iki-üç günün məsələsidir. Sipəhdar özü hazırlanır ki, Qəzvinə tərəf hərəkət etsin. Karganəruddan iki yüz atlı çıxıb Rəştə gəlməkdədir. Bu gün onların pişvazına adamlar göndərildi. Keçən il dəxi qabaqda xəbər verdiyimiz üzrə boş-boşuna mücahidlərə qoşuldular. Millət qüvvəti günü-gündən artmaqdadır. Dövlət hazırlığından isə hələ bir xəbər yoxdur. Məgər inki bu axır günlərdə bir xəbər var idi ki, 500 nəfərdən artıq piyada və süvari Qəzvinə varid oldu.

### Tehranın halı

Buraya gələn xəbərlərə görə Tehranın halı xeyli məğşuşdur. Qafqazlı adı bura hökumət dairələrindən ötrü Əzrail adından daha müdhiş bir surət almışdır. Hökmi-əkid verilmişdir ki, şəhərə varid olanlar artıq dərəcədə təcəssüs olsunlar. Əgər bir nəfər qafqazlı şəhərə gələrsə, onun əhval və rəftarından nəhayət dərəcədə müvazib olsunlar.

Tehrandan gələn rəmzi nəviştələrdən göründüyünə görə Bağişahi mühafizə etməkdə olan qoşun və kazaklar 250 nəfərdən artıq deyildir.



### Məşrutə xəbərləri

Tehrandan məşrutə elanı xüsusunda verilən xəbərlərə burada artıq bir ziştbinlik ilə baxmaqdadırlar. «Şah məşrutə elan ediyor» sözünün altında İran milləti böyük bir fəlakət hiss ediyor. Çünki şahın məşrutə verməyə müstəid olmağına daha kimsə inanmıyor. «Görəsən, yenə nə hiyləsi var» – diyor.

*«Tərəqqi», № 60, 23 mart 1908*

## İRAN MƏKTUBLARI

### MAZANDARAN VAQİƏSİNİN TƏFSİLATI

Mazandarandan fərar edənlərdən bir neçəsi ilə burada görüşdüm, söhbət etdim. Üç nəfərdən ibarət olan müsahiblərimin hər üçü də gilək[1] idilər. Bunların hər biri vəqənin bir qismini rəyüleyn müşahidə etmiş və hətta şərikkar olduqlarından nəqli-hekayələri nəhayət dərəcədə mürəttəb və münəzzəm idi. Bu söhbətlərdən istinbat[2] olduğu vəchlə Panovun Məşhədsərə vürudı və orada elədiyi iqdamatı bir vəchiatı olmuşdur: Rəbiüləvvəlin ikisində sübh saat səkkizdə paraxod Məşhədsərə vürud ediyor. Paraxoddan 13 nəfər müsəlləh mücahidlər Panovun sərkərdəliyi ilə kənara çıxıb şəhərə varid oluyor. Və «zindəbad məşrutə» – deyə-deyə teleqrafxanaya tərəf gediyor, simləri parallıyorlar. Bədən gömrükxananı zəbt ediyor, rəisi dəstigir ediyor, ondan zeyldə olan varidatı verməsini rəisülmücahidin Panov əmr edir. Gömrük rəisi isə zeyldə olan 1400 tümən məbləği təqdim edərək deyir ki, aybaşı olduğundan müstəxdiminə[3] məvacib verilməlidir. O halda Panovun nəzarəti ilə bütün qulluqçulara məvacib verdikdən sonra baqi qalan 1200 tümənə rəis cənablarına bir qəbzirəsid verir. Və gömrükxanada olan üç qəbzə vərəndil tüfəngi dəxi zəbt edib gömrükxanadan çıxırlar. Əncümən təşkil edir və bu söhbətləri nəql edən Məhəmmədhəsən namı əzə içindən birisini təyin edir. Bədən orada olan dövlətməndlərdən Seyid Zəblüllah adında bir nəfərdən 450 tümən və başqa bir yerdən dəxi 407 tümən zəbt edir. Və Barfüruşda[*] olan müstəbidi-məşhur Şeyx Kəbirin raportçusu Mirzə Əbüqasimi raport yazdığı halda tutub öldürürlər.

Bir surəti-mahiranə ilə bu qədər işləri saat ikiyə kimi görüb, saat ikidə Barfüruşa rəvanə olmuş və Məşhədsər əhalisindən müsahiblərimdən Məşədi Məhəmmədi özlərinə bələd götürüb, Barfüruşa getmişlər.

---

[1] **gilək** – Gilanda yaşayan tayfa adı
[2] **istinbat** – nəticə, xülasə
[3] **müstəxdimin** – qulluqçular
[*] **Barfüruş** – Gilanda yer adıdır

Barfüruşa daxil olduqlarında dəxi bilamühaba «zindəbadi-məşrutə» – deyərək Darxanəyə tərəf hücum etmişlər. Bir dəstə şahzadənin evində səngər edib bir nəfər bələd ilə bərabər teleqrafxanaya tərəf yönəlmiş və yolda rast gələn rus agentini mücahid öldürmək istəmişsə də, bələd məlum etmişdir ki, bu rus agentidir, o halda mücahid üzr istəyib teleqrafxanaya girmiş və müvafiq dəstürüləməl teleqraf simin paralayıb.

Şahzadə evində səngər etmiş olan mücahidin Şeyx Kəbirin mirzələrindən bir nəfərin evini bomba ilə dağıdıb yandırmış və şəhərdə olan kazaklar ilə atışmağa başlamışlardır.

Bu halda Panov qolundan bir yara almışdır. Bədən məlum olmuş ki, Sarı tərəfindən buraya kilidli İran kazakları gəlməkdədirlər ki, mücahidlərin iddəsi bunlara müqabilə etməyə müsaidə etməz. O cəhətdən gecə yarısı Barfüruşu qoyub Məşhədsərə qayıtmış və oradan bir başqa karacəyə minib üç nəfərlikdə iddə tamamları ilə Bəndərcəzə tərəf rəvan olmuş və ələrəvayətə ki, rəvayətəyə sahihdir, Bəndərcəzə çıxmış və Astarabaddan məlum olduğu üzrə orada çoxdan bəri əncüməni təşkil olunub, orduyi-milli amadədir, bunların pişvazına atlı gəlib kəmali-ehtiram ilə onları şəhərə varid etmişlərdir.

Panov Məşhədsərdən geri çəkilәndən sonra buraya üçüncü müsahibim Kərbəlayi Əlinin rəvayətinə nəzərən 70 nəfər kazak gəlmişdir.

Onların dediyinə görə, bir qədər hökumət qüvvəsi mövcuddur. Amma Astarabadda dəxi istedadi-milliyə qədər kafi mövcuddur. Orada olmayan bir şey var idisə, bu da ələzzahir Panov kimi müqtədir bir cəngi imiş. Nə qədər onu da gözləmədikləri bir sürətlə hazır etmişdir.

Buradakı mazandaranşünasların fikrincə, hərgah Panov Astarabad atlı başçılarını müttəhid edə bilib, öz idarəsi altına almağa müvəffəq olar isə böyük müvəffəqiyyətlərə nail ola bilər.

Mazandaran nöqtəsi xeyli mühüm nöqtələrdən biridir. Tehran hər bir tərəfdən əhatə olunmuş və ancaq şaha qaçmaq üçün bir Mazandaran yolu qalmış idi ki, onu da Panovla bu gün ya sabah bütün-bütünə işğal edəcəyinə söz yoxdur.

### Astara vaqiatı

Heyran gədiyində dava başlandığını teleqraf ilə xəbər vermişdim. Dava millət tərəfinə nafe olaraq qurtardı. Rəşidül-mülk oraya cəmlədiyi quldurlar sındılar. 30 nəfər yaralı, 9 nəfər məqtul, 2 nəfər əsir buraxaraq, qaçmağa məcbur oldular. Millətçilərin əlinə bir çox silah keçdi. Bu səngərin vəziyyəti təbiidir. Bir tərəf meşə, bir tərəf çaydır ki, dərin gədikdən axıyor. Buradan keçmək və yol aparmaq üçün bir taxta körpü vardır ki, onu da millətçilər geri çəkildiklərində yandırmış və düşməni məəttəl qoyub, böylə bir israrda sındırmışlardır. Zatən Gilan xudadadi səngərlər tərəfdən xeyli xoşbəxtdir. Tehran yolunun səngərlərini görənlərin dediyinə görə həman Qarabağın Əsgərani kimi keçilməz, ötülməz sıldırım dağlardan ibarətdir ki, buralara qabaqcadan bələdiyyət yetirib gizlənmiş olan 50 nəfər qoçaq mücahid min nəfərə cavab verə bilər. Ərdəbildən Astaraya gələn yol dəxi Heyrandan başqası deyildir. Meşə içindən gələrsə, qabaqcadan meşədə səngər etmiş mücahid atasına od vurar. Çayı ötüb o tərəfə keçə bilməz. Zira, rus kazakları güllələr ki, siz sərhəddi ötdünüz. Naçar qalıb Heyrandakı kimi bəlalara düçar olarlar. Heyran fəthi Rəştdən getmiş olan bir fövc mücahidin dəstəbazlıqları ilə əmələ gəlmişdir.



### Tehranın vəzi

Üç gün irəliki posta ilə gələn bir məktubda deyilir ki, 30 gündür Tehranda tətili-ümumidir. Bütün dükan-bazar bağlıdır. Heç hərəkət və həyat yoxdur. Xalq hamısı heyrət və nigaranlıq ilə biri-birilərinin üzlərinə baxıb bilmiyorlar ki, nə etsinlər. 10 min nəfərə kimi Şahəbdüləzimdə və Osmanlı–ingilis səfarətlərində mütəhəssin olanlar artıq bir heyrətlə gözləməkdədirlər ki, görəsən, havaxt babi-fəth açılacaq və Tehran böylə bir əzabi-ələmdən qurtaracaqdır. Panovun adı Tehranda böyük qorxu salmışdır. Neçə vaxt bundan irəli Lordşir adlı bir ingilis rəiyyətini Panovdur – deyə həbs etdikləri məlumdur. Bu dəfə dəxi bir nəfər firəngi həbs etmişlər. Sonra məlum olub ki, Panov deyil, buraxmışlar. Lyaxov şəxsən bu xüsusda etizar istəmişdir. Əfkari-ümumi bütün fikirdədir ki, şah məşrutəni verməк xəyalindədir. Amma ruslar qoymurlar. Səriri-səltənət dövrəsində olanların halı da ki, aşkardır. «Rus qoymayır» barəsində İran əfkari-ümumiyyəsi ciddən inanmışdır. Bu əqidədən naşıdır ki, İran əvami qəlbində ruslara qarşı bir nifrət hasil oluyor. O saf, dərun, sadiqdil rus camaatinin abrusi bir ovuc bürokratların həvavü-həvəsinə qurban edilir, gediyor.

Sabiq məclisi-milli sədri olub, bədən maliyyə vəziri olan Səniüddövlə və Müxbirülmülk və Sadiq Həzrət gecə ilən özlərini ingilis səfarətinə salmışlar. Bunlar əgər o gecə səfarətə getməsə imişlər, Şahəbdüləzimdə öldürülən İftixarülüləma kimi onlar da öldürüləcəymişlər. Və bilümum sabiq məclis vəkillərindən Tehranda olanların öldürmək qəsdindədirlər. Şeyx Fəzlüllahın evində 16 gecə-gündüz üləma və ərbabi-hökumətdən cəm olub, iclas edib müzakirə etmiş və axırda böylə nəticəyə gəlmişlər ki, bütün İranda 500 nəfərdən artıq məşrutəçi yoxumuş. Bu qədər inqilablara səbəb olan bu 500 nəfər dərdəst[1] edilib qılıncdan keçirilərsə, bütün məmləkət bu kafərlərin iğvasından rahət olub, məzhəbdə salamət qalacaqdır. Bu qissələri icra etmək üzrə bir siyahı tərtib vermişlər ki, o siyahı bu 500 nəfərin 200-ü müəssis, 300-ü isə səf qaralтısıdırlar. İki yüz

[1] **dərdəst olmaq** – tutulmaq

müəssisdən də 50 nəfəri xaricdə, 50 nəfəri Tehranda olub, 100 nəfəri də İranın ayrı şəhərlərinə qismət olunmuşdur. Onların xəyallarınca fövqüzzikr 200 nəfər müəssislər tərk edilərsə, məşrutə bilmərrə götürülər. Bu siyahıya görə Tehranda olan 50 nəfər xəfiyyənin donosu üzərinə Məxafürülmülk tutulub, xeyli əziyyət veriliyor. Tutulanlardan bəzisi kazakxanayə, bəzisi nəzmiyyəyə, bəziləri də Bağişaha aparılır. Və bir qədər izacəfə bədində rüşvət alıb, məşrutəçilikdən dönmələrinə iltizam alaraq, buraxırlar. Beibarəti-uxra[1], quldurluq ediyorlar. Burasına diqqət verməlidir. Əvvələ, məşrutəçilər 500 nəfərdir. Onlardan da 200 nəfəri müəssisdir. O da belə müəssis ki, məşrutəçiliyi tullamağa iltizam veriyor. Amma Şeyx Fəzlüllahın fikri bunların heç biri məşrutəçi deyil. Bu gün bütün-bütünə qiyamda olan İran və iraniyan arasında deyil 500, deyil 200, ancaq 20 nəfər məşrutəçi varmış, istər xaricdə, istərsə daxildə bu 20 nəfərdən savayı başqa şuluq salan yoxdur. Məmləkəti babilik bəlasından və inqirazi-həlakətdən hər kəs qurtarmaq və əmaməli jandarmları rahət buraxmaq istəyirsə, 20 nəfər şəriri tutmalı, öldürməli, yandırmalıdır. Haman bu fitvayi-şeytaniyyənin nəticəsi olmuşdur ki, Mirzə Mustafa İftixarülüləmə 3 nəfər yoldaşları ilə bərabər Şahəbdüləzimdə mütəhəssin olduqları halda öldürülmüşlərdir. Məlum olunmuşdur ki, qatillər Topxana fəqərsindəki cinayətləri ilə məşhur olan Hüseyn Abdin Kamal kor və Nəqibin oğlu Səni Həzrət olmuşlardır ki, şah və şeyxin əmr və təsviyyələrinə müvafiq icrayi-fəsad eyləmişlərdir.

### Rəştin övzai

Komitet tərəfindən nəşr olunan bir elannamədə Sipəhdarın ümurati-mülki və kişvəridə hökmdari-küll olduğu əhaliyə elan edilmişdir. Hökmdarın bütün işləri məcrayi-səhih üzrə olmaq üçün məşrutəçilərin məhəlli etimadları olan bir neçə şəxsdən ibarət bir kabinə təşkil edilmişdir ki, Sipəhdar gördüyü işlərdə onlarla məsləhət ediyor. Naibülhökumə mənsəbinə Sərdar Mümətti̇d təyin olunmuşdur. Ümuri-maliyyəni tənzimə salmaq üçün bir xəzineyi-dövlətin və idareyi-maliyyə təşkil olunub, dəfatir dəxi üsuli-cədid dəftərdari üzrə aparılır. Maliyyə-rəyasətliyinə dəftərdarlıq elmində məharət göstərmiş və dəftərdarlıq üsulunu farscaya tərcümə və tətbiq etmiş olan və Tehran dəftərxanalarında məşrutiyyət dövründə bir dərəcə xidmət etmiş Mir İsmayıl Abdullazadə cənabları təyin olunmuşlardır.

İdareyi-nəzmiyyə dəxi qaidə üzrə təhti-tərtibə alınmış və məşrutiyyət yolunda var-yoxundan çıxmış və məclisi-darüşşurayi-milli vəqəəsindən sonra Tağızadə cənabları ilə bərabər xaricəyə qaçmış mühacirindən

[1] **beibarəti-uxra** – başqa sözlə



Sədiqihərəm cənabları təyin olunmuş və bu neçə gündə etdikləri xidməti-mücahidanələri ilə izhari-istimdad etmişlərdi.

Bir-iki gün iləri bir dəstə mücahidin həbsxanaya gedib, orada asarıətiqeyi-istibdad olan zəncir və gündə, çub və fələqqə nə ki, varsa, aparıb tələf etmişlər.

Talış dolab və Karganəruddan 60 nəfər mücahidin Seyid Əşrəfin rəyasəti təhtində olaraq, Rəştə varid oldular. Əhali bunları istiqbal etdi.

Qeyri yerlərdən gələn bəzi «mücahidlər» burada bəzi müşgülatə səbəb oluyorlar. Bunlar mücahidliyi qoçubazlıqdan fərq etməyərək, artıq əziyyətlər veriyor. Və Səmədxan tacirbaşı kimi müftinlərin ziyafətlərinə oyunda bəzi hərəkati-naşayistədə[1] bulunurlar.

Əlavəvayət komitə tərəfindən bu xüsusda iqdamat mücədidanə olunmuşdur.

Tehrandan rus hökumətinə ixtar edilmişdir ki, Gilandan verilən teleqrafları müstəqimən qəbul eləməsinlər ki, labüddən Tehran vasitəsi ilə müxabirə etməyə məcbur olsunlar. Məlumdur ki, hökumət bu qərardadı ilə müxabiratdan bir şey anlamaq istiyor.

### Tehrandan təzə xəbərlər

Məktubumu qurtarırdım ki, Tehrandan gələn məktubu aldım. Məlum oldu ki, pəncşənbə günü yenə də vüzəra başqa ricaldan ibarət bir məclis təşkil verilmiş, proqram oxunmağa şüru edilmişdir. Üləma və sadatdan[2] bəziləri proqramı axıra kimi dinləməyib və bu suratla məclisi bərhəm vurmuşlar və proqramı dəxi oxumamışlar.

*«Tərəqqi», № 64, 26 mart 1909*

## İRAN MƏKTUBLARI

### QƏZVİN SƏMTİ

### RƏŞTDƏN

Mücahidini-Tehran Ənzəli yolunda Qəzvinin 20 verstliyində vaqe Kuhistanda səngər edib, ordu vurmuşlar. Buradakı məşrutə ordusunun hər bir şeyləri mühəyya və hazırdır. Bollu bombalar vardır. Düşmənin gələn yerlərində minalar, fuqaslar basdırılmışdır. Hökumət qoşunu Qəzvindədir.

Səhih rəvayətə görə bunların ədədi minə baliğdir. Çoxu təzə setir[3] tüfənglərlə müsəlləhdirlər. Bu tüfənglər Rəşt vəqəsindən bir həftə iləri Ənzəli gömrükxanasından aparılan tüfənglərdir. Bir neçə ədəd topları dəxi vardır. Lakin bu tədarükatı işə verəcək cürət isə bunlarda bilmərrə məfquddur[4]. Bun-

[1] **naşayistə** – nalayiq, yaramaz
[2] **sadat** – seyidlər
[3] **setir** – üçatılan
[4] **məfqud** – itirilmiş

lar nəhayət dərəcədə qorxu və hücum etməyə müsəmməm ola[1] bilmiyorlar.

Gözləyirlər ki, ətrafdakı elatı da hərəkətə gətirib sonra hücum etsinlər. Bəzi xəbərlərə görə Əmirbahadır Qəzvin ordusu komandanına yazdığı bir kağızda təkid edirmiş ki, gözləməyib, məşrutəçilərin səngərlərinə yeriş etsin.

Rəisi-ləşgər Sərdari-Müzəffər isə cavab vermiş ki, Astaradan Rəşidülmülk ordusu ilə Namin xanları və bu tərəfdən elati-ətraf tərpənməyənədək hərəkət etmək müşküldür. Zira, bunlarda bütün bombadır, minadır, fuqasdır ki, basdırılmış cəhənnəm maşinasıdır ki, qurulmuşdur. İmkani-əql yoxdur ki, bu heyəti-hazirəmiz ilə qələbə edə bilək.

Qəzvin ordusunu rəyüleyn görüb müşahidə edənlər nəql ediyorlar ki, bunların ürkəkliyi, qorxuları həddi keçmişdir. Bunların bu dərəcə bir röbə giriftar olduqlarını bu günlərdə Həbibüllah nam bir müstəbid qapısında partladılan bombaya birə-yüz daha da artmaqda və hər gecə nəşr olunmaqda olan mücahidi-sirri komitəsinin şəbnamələri təksir etməkdədir.

Mücahid ordusunun rüəsasından Sərdari-Əfxəmi öldürmüş olan Ağayi-Müəzzil Soltan Zəncan rüəsasından olan Ağayi Müzəffər Dövləyə yazdığı bir təşviq və dəvətnaməyə atidəki cavabı almışdır:

«Mən təhti-itaətimdə olan 300 müsəlləh atlı və zəxirəm ilə bu yaxın vaxtda siz islam yolunun mücahidlərinə kömək etmək üzrə lazım olacağam.

Səhih rəvayətlərə görə Zəncan əhalisi dəxi məşrutiyyət tərəfə keçmişdirlər».

### Astara səngəri

Gilanın iki mühüm səngəri vardır. Biri Tehran yolunda, Qəzvin səmtində olub, yuxarıda zikr olunan səngərdir. Digəri isə Astara səngəridir. Gilanı talan etmək qəsdi ilə Tehran hökuməti belə bir nəqşə götürmüşdür ki, Qəzvinə zikr olunduğu üzrə qoşun yeritmiş, o biri tərəfdən dəxi Ərdəbil-Rəşidülmülkünü təhrik və onun vasitəsi ilə Namin xanlarını təşviq edib, Astara üstünə göndərilir ki, iki tərəfdən Gilanı giridara salsın.

Lakin Gilan məşrutəçilərinin Tehran yolunda hazırlıqları nə dərəcədə isə Astara dəxi əhəmiyyətsiz deyildir. Hətta əvvəlinci bir müqabilədə məşrutəçilərin düşmənə qalib gəldikləri məlumdur. Heyran gədiyi deyilən bir səngəri-təbii də Namin Xəvanin adamları ilə astaralılar arasında baş verən bir atışmada hökumət tərəfindən 9 nəfər ölüb, 2 nəfər əsir düşüb, 30 nəfərin dəxi yaralandığı qabaqca xəbər verilmişdi.

Hüseyn Əli xanın atlıları buranı mühafizə edəcək, Rəşidülmülkdən difa edəcək dərəcədə rəşiddirlər.

---

[1] müsəmməm olmaq – qərara gəlmək



Burasını Ərdəbil «rəşidi» hiss etmişdir ki, rus konsulunun vasitəsi ilə binayi-təvəsvüs qoymuş və guya, «itmami-höccət istəmişdir».

Astara rus konsulunun nümayəndəsi Yusif bəy əncümənə gəlib, rus konsulxanası dilindən bəyan etmişdir ki, «siz gələndə Rəşidülmülk sifarişini eşidin». Necə ki, Ərdəbil ləhqatındansınız, öylə də Naibülhökuməni oradan istəyib, təslim olunuz. Namin xanlarının hücumundan məhfuz qalacağınıza biz söz veriyoruz.

Əncümən isə buna cavab demişdir ki, biz heç bir Rəşid-məşid tanımayıb bu vaxta özümüzü Rəştə tabe bilirik. Naibülhökuməni də ancaq Sipəhdardan qəbul edirik. Namin xanlarından da zərrə qədər qorxmuruq. Onlardan difa etmək üçün əlhəmdülillah qüvvətimiz də və qüdrətimiz də vardır.

Yusif bəy cənabları məyus olaraq, naümid getmişlərdir.

### Rəşidülmülklə Sipəhdar

Bu günlərdə Sipəhdar həzrətlərinə Ərdəbildən Rəşidülmülk tərəfindən bir teleqraf çəkilmiş idi. Bu teleqrafın müxtəsər məzmunu bu idi ki, «Siz alicənab məni dəvət ediyorsunuz ki, gəlib məşrutətələb olam. Bainki, məşrutətələb olmasam da bitərəf durub hökumətə də arxa çıxmayam. Bu qədər biliz ki, mən siz deyiləm ki, əvvəl Təbrizə top atam da, sonra gəlib bir-iki nəfər balıqçı gilək ilə rəfaqət salıb, məşrutətələblik iddiasın edəm.

Bu qədər bilirəm və buna etiqadım var ki, İran hənuz üsuli-məşrutə ilə idarə olunmağa hazır deyildir. Ona görə də vətənimdən ötəri müzürr olan bir zavalı dəf etməyə var qüvvəm ilə çalışacağam. Və 12 min qoşun ilə gəlib sizə də bildirəcəyəm ki, Səttarxan komitəsinə üzv olmağın nəşəsi nədir».

Sipəhdar cənabları bu teleqrafa atidəki cavab vermişlər: «Zati-alilərinin teleqrafı yetişdi, mülahizə olundu. Yazırsınız ki, 12 min nəfər ilə Rəştə gəlib mənə nəşeyi-səvadımı bildirəcəksiniz. Fəqət mən bu qədərcik deyə bilərəm ki, 12 min qoşun Gilandan ötrü çoxdur. Sizdən ötrü daha yaxşıdır ki, bu fövciəzimin 8 minini Təbriz ordusuna göndəriniz də, 4 mini ilə bizim tərəfə gəlsəniz kifayət edər. Buyurunuz, biz siz alicənabı qəbul etməkdə bir an təkasül etmərik. Səttarxan komitəsinin üzvü olmağa gəldikdə, mən o məqami-mühümmünün türbəsini qeyrilərin təciiftixarına tərcih veriyoram».

* * *

Rəşidülmülk tərcümeyi-halına bələd olanların dediyinə görə bu adam İranın o qisim ərbab mənsəblərindəndir ki, Şərqə məxsus nökərçilikləri vasitəsilə təclili-məqamə müvəffəq oluyor. Nami-nişan alıyor.

* * *

Məruf olduğu üzrə Rəşidülmülkün teleqrafında təhqir suratilə deyilən «Rəşt balıqçıları» sözündən qəhr etmiş balıqçılar Rəşidülmülkə çəkdikləri bir teleqraflarında deyirlər ki, «cənab Rəşidülmülk biz sənin o məruf keçmişini bildiyimiz kimi, indiki füzulluğunu da gördük. Bunu biliniz ki, təhqir ilə adını aparmış olduğunuz komiteyi-müqəddəseyi-Səttar hökm verərsə, biz Rəşt balıqçıları hazırıq ki, Ərdəbili təsxir edək. Sənin murdar elədiyin məsnədi-hökuməti lüt istibdaddan təmiz edib adil bir balıqçını oraya oturtmaq ilə əhaliyi-müsəlmanı çəngəli-zülmdən qurtaraq».

### Tehran əks-sədaları

Tehran daimən təlatümdədir. Bir an sakit deyildir. Casuslar, xəfiyyələr müttəsil işdədirlər. Maişət əhaliyə təng olmuşdur. Heç kəsdə istirahət yoxdur. Əmniyyət bilmərrə məfquddur. Şah aldığı yaradan bəstəri olmuşdur. Bağişah xeyli dəhşət və vəhşətdədir. Hər gecə sirri komitənin şəbnamələri şəhərə dağıdılır. Hökumət nə qədər çalışırsa da, bu vərəqlərin naşirlərini tuta bilmiyor. Güman ilə bir çox bigünah biçarələrə müvaxizə olunursa da, murad ələ gəlmiyor. Şəbnamə hələ nəşr olunur ki, olunur.

Bu şəbnamələrdə İran övzai-haliyyəsi, İsfəhanın iqdaməti, Təbrizin fütuhatı, Gilanın təhdidatı, Mazandaranın qiyamı, Şirazın istibdadı bir lisani-təşci və təmcid ilə yazılıb, əhali dəvət olunur ki, tətil işində müstəhkəm olub, istiqamət götürsünlər. Hökumət xeyli təlaşdadır. Fəqət səxtiliyindən hənuz əl çəkmək istəmiyormuş.

Təxti-mərmər məclisi bərpa olandan sonra istibdadın şiddəti daha da artmışdır, məlum oluyor ki, şah hökumətinə əlaltı nəvidlər[1] verilir. Şeyx Fəzlüllah və Əmirbahadır partiyası, guya, müsəlləm olmuşlar ki, siyahı etdikləri bütün məşrutəpərəstləri tamamən tələf eləsinlər. Tainki, məmləkət rahət olsun, getsin.

Panov məsələsi hənuz dəvairi-hökuməti təlaşda saxlamaqdadır. Bu günlər Panov dilindən olaraq Tehranda yarı rusca, yarı farsca hökumətə xitabən bir intibahnamə paylanmışdır. Bu intibahnamədə deyilir ki, ey səfeh hökumət məmurları nahaq yerə siz məni tutmaq üzrə təcəssüsdəsiniz. Buna nail olamazsınız. Yaxındır ki, mən Bağişahi bir kuhi-ataşfişan kimi göyə sovuram.

Burada danışıldığına görə Panovun başında bu saat 4–5 yüz nəfər qoçaq atlı vardır. Bu atlılar astarabadlı və məşrutəpərəstlərdir. Yaxşıdır ki, Mazandaran ordusu yaxın bir zamanda hazır olacaqdır. Tehran, Şiraz və İsfəhan tərəflərində olan Sərdari-Əsəd, Sərdari-Ərfə, Seyfüddövlə və qeyriləri ki, şahzadələrdəndirlər, şaha çəkdikləri teleqraflarda şaha tövsiyə edirlər ki, artıq ləcacətdən[2] əl götürüb də bir daha milləti xilas etsin.

[1] nəvid – müjdə, şad xəbər, vəd

[2] ləcacət – tərslik, inad



Müctəhidi-məşhur Hacı Mirzə Hüseyn Aştiyani cənablarının xələfi Ağa Mir Mustafa həzrətlərinin surəti-xainanədə qətlindən sonra mələkeyi-cahan məqtulün ağasına təsliyət vermək üzrə bir taqə şal göndərmişdir. Müşarileyh şalı qəbul etməyib, geri göndərmiş və sifariş etmişdir: Mələkə bu şalı hələ saxlasın, mənim iki oğlum daha vardır. Onları da millətə qurban versəm, o vaxt əlaməti-əza eləni-taqə şalını göndərsin, hənuz tezdir.

Neçə gündür Tehran–Kaşan teleqraf simi işləmiyor. Görünür ki, orada da dəxi qəvi bir əl işləməkdədir.

Damənəsində, kursunda Tehran şəhnaməsinin sözləri doğruya çıxır.

Tehran idarələrinin hamısı tətildədirlər. Xaricə vüzarətindən başqa hamı hökumət məhafili dəxi tətil etmişlərdir. Ancaq müşavirüssəltənə sədarəti ilə hər gün xaricə vüzarətində müşavirə olunub, əhaliyə tövsiyə olunur ki, şəbnamələrin sözlərinə inanılmasın. Bunlarda bir o qədər qüvvət yoxdur. Bu qədər şəbnaməni hazırlayıb atan bir-iki nəfərdən artıq deyildirlər. Və hakəza poçt rəisi Əminüddövlə millətin mükatibat və müxabiratını kəşf etdirir.

### Rəşt övzai

Mücahid komitəsinin qərarı və Sipəhdarın xahişi ilə üç nəfər hürriyyətli zənn olunan acudani-xütur Zəhirüssəltənə və Eynüddövlənin ordusundan gəlmiş olan doktor İbrahimxan 24 saatın zərfində şəhərdən təbid olunub, İrandan xaric olunmaq üzrə təhtül-hifz Ənzəliyə aparılır, oradan dəxi gəmiyə həml olunub, Rusiyaya ezam edilir. Bu cəhət özlərindən çox da əmin olmayan bəzi müstəbid fitrətləri xeyli əndişəyə salmış və qorxutmuşdur. Deyirlər ki, bu günlər bir çox adamlar da tutulacaqdır.

Sabiq məşrutə dövründə bərpa olub da istibdad iadəsi ilə bərçidə[1] olan qiraətxaneyi-milli təzədən açılmışdır. Bu qiraətxanə xeyli münəzzəmdir. Qarein artıq şövq ilə gəlib mütaliə edirlər. Qiraətxananın cünbündə kitabxana dəxi mövcuddur. Əncüməni-əyaləti rus hərbi gəmilərinin belə bir nazik mövqedə İran bəndərlərində nümayiş etmələrinə qarşı bütün konsulatə, səfarətlərə protest etdi. Və surəti-protesti bütün Avropa parlamanları və məşhur qəzetələrinə göndərdi.

Sipəhdar tərəfindən bütün taliş xanlarına məxsusi-adam vasitəsilə kağız göndərilib, bunlar millət tərəfinə dəvət və təşviq olunurlar.

Buradan İsfəhana çapandırılmışdır ki, oradakı mücahidinin fikirlərindən bixəbər olub, birlikdə Tehran səfərinin nəqşəsini hazırlasınlar. Təbriz fütuhatının xəbəri bura əhalisinə və ələlxüsus, təhti-silahda olan mücahidinə artıq ruh veriyor. Və hər kəsin hümmət və qeyrətinin artmağına səbəb olur.

M.Ə.

[1] bərçidə – yığışdırılmış

**Rəşt**

B.T. Bu kağızı qurtarmışdım ki, Qəzvin tərəfində Sipəhdara məxsus olan bir neçə kəndlərin dövlətyan tərəfindən çapılmasını xəbər verdilər. Bu əvvəlinci həmlə və zərbədir ki, Sipəhdar cənablarına şəxsən yetişir.

*«Tərəqqi», № 74, 9 aprel 1909*

## İRAN MƏKTUBLARI

### TEHRAN KOMPANİYAÇILARI

Tehrandan gələn xəbərlərdən və xüsusi mürasilələrdən[1] və bəzi müsafirinin rəvayətlərindən anlaşılır ki, hökumətin işi qurtarıb, nəfəsi «xırxırasında»dır. «Təxti-mərmər» hiyləsindən naümid olan Əmirbahadır, Lyaxov, Şeyx Fəzlüllah və şah kompaniyası bimarlığın dərəceyi-intəhasına çıxmışlar. «Hərçe badabad» politikasının, daha doğrusu, həmaqət[2] və səfahətini vəsileyi-kar və mədar etmişlər.

Məşhur Fransa Luisinin pamyadoru* demiş olan «bizdən sonra istərsə tufan olsun» kəlami-xunxarənəsini təkrar etmək sədədindədirlər.

Yuxarıda dediyimiz həmaqət və səfahət söz adlarını qaraladığımız bütün dörd nəfərə həsr etdik. Amma, doğrusu, Molla Həmzəyə alınırsa, bu söz ancaq axırıncısına ətf olunur. O biri üç nəfər isə bir dərəcəyədək bu əlfazın təbəqinə daxil deyildirlər. Zira, bunlar burasını yaxşı anlamışdır ki, bir bu qədər qanların tökülməsinə bais olan bu bivicdanlara əfv və rəhməti-milliyi olmayacaq.

Hökumət istərsə təslim, istərsə məğlub olsun, bunlar qəzəbi-qəhhari-millidən can qurtaracaq deyildirlər, ona binaən də pamyadorun sözlərini təkrarən məntiqlərincə haqları vardır.

Axmaqlıq dördüncüsünün, yani şahındır ki, təslim olursa, millət şəfaətini tapacaq bir hal mövcud ikən ondan mənfəət aparmıyor.

Mərqumların şeytanlıqlarına uyur da özünü, xanəvadəsini, səltənətini bada verməyə ürək bağlıyor. Oturduğu budağı öz əli ilə özünə qırdırırlar, bütün təxti-tacı ilə səmigün olduğunu görmüyor kimi o iblissurət xainlərə aldanır və axırıncı zərbələrini vurmağında mütənəbbeh olmuyor. Həyasızlığında israr ediyor.

Şah Əbdüləzim və mütəhəssin olan biçarələrə hiylələr, dolablar quruyor, bigünah müctəhidzadəni qətl etdiriyor, xırda və məsum uşaqları zəncirə çəkdirir. Həyasızlıq bir o dərəcəyə çıxır ki, bütün Avropa düvəli-

[1] **mürasilə** – yazışma, məktub
[2] **həmaqət** – axmaqlıq

* Söhbət Fransa kralı XV Lüdovikin məşuqəsi markiza Pompadurdan gedir – *Ş.H.*



mümərzəməsinin süfəraları notalar verib, hökumətin qatili-əkbərinin təcavüzlərinə protest və şahı iğfal, həqqi ibtal[1] edən vəzirlərin, ələlxüsus Əmirbahadır – cəng və daxiliyyə vəziri Müşirüssəltənənin təhti-mühakiməyə verilmələrini tələb edərlər: şah o qədər qəsavət[2] göstərir ki, həmişə qabağında zəlilanə titrədiyi bu notaları belə rədd edər, çünki kompaniyaçılar onu başlarlar ki, bunlara qulaq asma boş hərbədir. Madam bunların adamlarına dəymirik, bütün İranı beləkdəki məsum uşağına kimi qırsaq, heç bir iş eləməzlər, artıq-artıq eləsələr insaniyyətlərini büruzə vermək üçün bir protest edib, bir də olsa nota verərlər. Onlara nə var, biz ki, onların adamlarına toxunmuyoruq, onlara pənahəndə olan bizim heyvanlara da təcavüz etmiyoruq. Məgər bir çobanın ixtiyarı yoxmu ki, öz qoyunlarını boğazlasın, məgər bir ərbab öz sürüsündən qurban kəsdirəndə başqa bir ərbabın həqqi varmı ki, desin niyə öz malında təsərrüf ediyorsan? Şah bu yollar ilə iğfal olunur. Təbən böylə bir iğfala müstəid və mail olduqlarından ciddi sürətdə iğfal olunur, o dərəcə iğfal olunur ki, qoyun hesabına aldığı millət canına çarpırsa da, o halə millətin bir qoyun sürüsü olduğuna inanır, qalır, gönü qalınlaşır, qaniçmə iştahası artır. Mücazza[3] olduqlarından qoyun sürüsü şəklini almış olan camaat rişteyi-ittihadə qısılır, o qaniçən heykəli-istibdadın canına bir bəlayi-nagəhan kəsilir. Dilsiz-ağızsız, imkan-bacarıqsız hesab edildiyi qara məxluq birdən-birə etiraz dili açıb, intiqam və qisas sədədinə gəliyor. Ərsəni təngləşdirir, amma bu səfeh əl çəkmiyor, qan tökmək üsulunu daha da artırır, millət elə ya ölüm, ya həyat, «ya zülm, ya məmat[4]» – deyərək səngərbəndliyə girir, bir Bağişah da olsa qənaət edərəm, istibdadda qalaram. İrana məhdud bir soltan olmaqdan, onu əfsəl hesab edərəm, – deyə Bağişahın dövrəsinə xəndəklər atdırır, səngərlər yapdırır, milləti dəfələrlə indiki iğfaldan bir şey çıxmadığından, bir daha naümid olur. Görək millət istədiyindən keçməyəcəkdir. Hər dəfə gözünün qabağında, yuxusunda, keyfində, mətələyində[5], əgər var isə ayıqlığında daimən Azərbaycanın, İsfəhanın, Gilanın, Mazandaranın mücəssəmələrini görüyor. Səttarxanın rəşadətindən, Səmsamın heybətindən, Sipəhdarın başından keçmiş sipahilərindən, Panovun və ədunavid[6] etdiyi kuhi-ətəşfəşandan divanəlik dərəcəsinə gələn bu adam Tehran əhalisinin canına düşüyor, ərsəni[7] onlara təng ediyor. Onlar da qaçıb Osmanlı səfarətində və Şah Əbdüləzimdə bəstə girirlər. Lakin kabusi-istibdad biçarələri orada da rahat qoymuyor. Şah Əbdüləzim də məşhur Şeyx Mirzə Həsən

[1] **ibtal** – ləğv etmə
[2] **qəsavət** – rəhmsizlik
[3] **mücaz** – qanuni
[4] **məmat** – ölüm
[5] **mətələk** – lağlağı
[6] **ədu** – düşmən
[7] **ərsə** – meydan

müctəhid Aştiyaninin vələdi ərşədini öldürür. Xainanə surətdə öldürtdürür. Osmanlı səfarətində gizlənənlərdən ötrü daxi şahın kompaniyaçıları cümləsindən olan vəziri dərbar Müşirüssəltənə bir hiylə qurur. Cümlə heyəti vüzərə olsun ki, bu tədbirə əhsəntə, barəkallah deməkdən sərxoş başlarını saxlaya bilməmişlər. Təcviz edib, müvəffəqiyyətlərinə göz dikmişlər.

Bir qədər ilan və qeyri müzi[1] cəmləndirib səfarətin içinə saldırmışlar ki, qorxub həyətdən qaçsınlar. Təinki, hökumət cəlladlarının dəstigiri olsunlar. Lakin bu hiylələrlə gözlədikləri nəticəni ala bilməmişlər.

Cəmaəti-mütəhəssin o sər-külfətlərin olsun ki, gözləmədikləri bir rəşadət büruzə verib, ilanları uyudurmuş və Müşirussəltənənin o dərəcə bir dahiyanə qurduğu tədbirini zail etmişlərdir.

Axmaqlar bunu qanmıyorlar ki, insan özünü ilandan qurtarmaq üçün cəhənnəmə qaçmaz. Səfehlər bunu düşünmüyorlar ki, adam əqrəbdən qaçaraq, timsahlara, kaftarlara təslim olmaz. Əvət, bu düşüncələr, bu təəmmül və təfəkkürlər olsaydı, belə bir sadə məntiqlərə diqqət verilsəydi, bu qədər fəlakətə, rəzalətə, pulsuzluğa, başsızlığa, əskərsizliyə və dənaət və səfalətə razı olub, bir millətı-məzlumun hüquqi-şəriyyəsini məhv etməyə, ayaqlar altına salıb tapdalamağa qalxışmazdı!

Bu qədər bigünah qanların tökülməsinə səbəbiyyət verilməzdi.

Misli-təvarixi-dünyada görülməmiş hökuməti-tehraniyyənin (demirəm iraniyyənin, çünki Məhəmmədəli şahın səyyiatına məqhur olub, bu gün ancaq bir Tehrandır ki, o da xaricdən gələcək cüzi təşciə[2] müntəzirdir ki, qiyam baydağını qalxızsın) qüvveyi-nəqdiyyəsi bilmərrə yoxdur. Nə qədər Lyaxov Məhəmmədəli şahın xərcindən götürsə, nə qədər ümərayi-dərbar öz boğazlarından kəsirlərsə, nə qədər ki, millət və səltənətə müxtəspürbəha yadigarlar «dəryanurları» ədna[3] qiymətlərə Avropa dəllallarına satılırsa, yenə də sərbazın hüquqi[4] yetirmiyor.

Məvacibsiz qalmış olan sərbaz öz tüfəngini və fişəngini satmağa məcbur oluyor. Bu surətlə Tehran məşrutəçilərinin bir çoxu həmən sərbazlardan alınmış tüfənglər ilə müsəlləhdirlər.

Qəzvində olan ordu dəxi gərmagərm ilə patronfiruşluq ediyor. Madam ki, məvacib verilmiyor, o halda bu qədər bir həşərati o müzürrlərin başında cəmləyən nədir? Oğurluqlarına, quldurluqlarına verilən icazeyi-sirri-şahanədir.

Bu qədər bir səfalət və rəzalət ilə belə bu zalimlər yenə də naümid olmuyorlar, bir dünya inqilabı yatırtmaq üçün hiylə edib, əfkari-amməni iğfalə çalışırlar. Müxbirüddövlə-teleqraf naziri sabiqdə olan teleqraf xidmətçilərini əzl edib, onların özü istədiyi adamları təyin etmiş və onlara fövrən buyurmuş ki, ətrafa teleqraflar vursunlar.

[1] **müzi** – zərər verən
[2] **təşci** – ürək vermə
[3] **ədna** – alçaq, əksik
[4] **hüquq** – burada maaş mənasındadır



Tətilçilər yorulmuşdur, dükanlar açılır. Əhali təslim olunur, hökumətin qüvvəsi artıqdır, rəşiddir. Böylədir, öylədir və hakəza bu minval iğfalat.

Xülasə, şah, şahçıların bu günlər axırıncı günləridir. Millətı-məzlumənin bigünah qanı zavallı İranı bir qan dəryası şəklinə salmış və o dəryayi-məhib budur təlatümə gəlmiş və zalimləri bir an əvvəl qərq edəcəyində söz yoxdur.

Çün ərbabi-həmiyyət qərq edər zalimləri
Məşəli-əfkari-əhrarənə sönməz xunilə*

### Rəştdən

Rəşt inqilabçıları hücuma başlamışlar. Qəzvinin alınması bir-iki günlük məsələsidir. Qəzvinin ordusunun röbi[1], qorxusu nə dərəcə isə, Rəşt mücahidlərinin cürəti və dəvatələbliyi bir o dərəcə, bəlkə, daha artıqdır. Qəzvinə Tehrandan, şahdan, Əmirbahadırdan vurulan telefon, teleqraflar nə qədər təhris edib «Rəştə get» deyirlərsə, bir o dərəcə olmasa da, mücahidinin hücumu bu vaxta kimi saxlanılmışdır. Hücumdan giləgirlik edilmişdir. Bain həmə Tehranın cavabı «yox, olmaz» olub, Rəştin cavabı isə «buraxın gedək»dən ibarət olmuşdur. Daha hücum növbəti gəldiyi müşahidə olunur. mücahidlər hücum ediyorlar, düçari bir röb və iztirab olan bu ordu onda da məcburiyyətlə gələn bir ordu, məlumdur ki, cani-dildən dəvatələb olub, gedən cannisarların həmlələri qabağında dura bilməz. Burasını isbata yetirmək üzrə bir-birini təqib edən xəbərlər Qəzvin səmtindən və qeyri tərəflərdən alınmaqdadırlar ki, vəchi ixtisari-teleqrafla bildirmiş idim.

Rəbiələvvəlin 14-də Poli-Ənbuh səngərində səngəri müdafiə etmək üzrə Əmidüssultan sərkərdəliyi təhtində cüzi bir mücahid heyəti olduğu halda 400-ə yaxın düşmən hücum edir. Şiddətli müqabilədə hücumavər olanlardan bir nəfəri öləcəyin, dəvadan əl götürüb geri qaçırlar.

Daha sabaha kimi mücahidin tərəfindən məhəlli-məzkurə lüzumunca adam fişəng və bomba göndərilib, işi bu surətlə görən hücumavərlər bir daha irəliləmək fikrindən dönürlər.

Ətraf və cəvanibdə böylə bir müvəffəqiyyət öz təsirini verir. Bir gün sonra 500 nəfərdən ziyadə dəvatələblər müxtəlif tüfənglərlə müsəllah olduqları halda, Poli-Ənbuhə gəlir və mücahidlərə kömək üzrə səngərin müdafiəsinə mülhəq olarlar.

Belə bir təsirbaxş olan vaqeədən sonra digər bir vaqeə daha baş verir ki, o da istibdad xadimlərinin bir çox olduqları daha gözəl olaraq andırır. 20 nəfər mücahid nümayiş etmək üzrə Qəzvinin bir ağaclığına kimi gedirlər.

* Birlik göstərən adamlar zalimləri qərq edər, parlaq fikirlər məşəli-qan ilə sönməz.
[1] **röb** – qorxu, xof

Şəhərdən çıxıb gəlmədə olan 300 nəfər atlı dövlət qoşununa rast gəlirlər. Həmlə edirlər, bir nəfəri öldürüb, atını və tüfəngini zəbt edirlər, işi belə görən qoşun əfradi filhal qaçmağa üz qoyur. Guya ki, şəhərdən çıxdıqlarında, yainki davaya getmək üzrə əllərinə tüfəng aldıqlarında, heç ağıllarına belə qoymamışlar ki, «dava demək ölümə getməkdir».

Məsələni vazeh edib, tərəfeynin qüvayi-mənəviyyə və ruhiyyəsinə, yeni vəqəsəsi daha gözəl bir şahiddir. Yengidə dövlət tərəfi səndən bəndəlik etmişdir. Orada 400 nəfər adam müsəlləh var imiş ki, silahlarının hamısı da 3 tirli Almaniya mauzeridir. Bunları iğfal edərək, 8 nəfər mücahid tərəfin mülahizə etmədikləri bir surətlə qoşunun qəlbinə həmlə edirlər. Bir-iki bomba partlatması ilə bütününü çaşdırır. Və bədən qırmağa başlarlar. Bu tərtib ilə 40-nı öldürüb, bir çoxunu yaralayıb, qalanı da qaçmağa məcbur edirlər.

Əsləhələri, zəxirələri qənimət edib səngərləri dəxi zəbt edirlər.

Bəqiyyətül-Seyfdən isə nümunə belə qalmaz. 8 nəfər mücahidin belə bir rəşidanə hərəkati-inqilab dəvairini qüvvətləndirdiyi dərəcədən daha artıq Qəzvin ordusunun canına lərzə salmışdır. Bütün Qəzvin bir haləti-ehtizardadır. Artıq dövlətlilərdə bir zərrə qüveyi-qəlb deyilən şey qalmamışdır.

Sipəhdar həzrətləri bu gün, ya sabah hərəkət edəcəklər. İşin tezliklə fəsl olmasına səbəb olacaqdır. Qəzvin alınarsa, o vaxt Tehranın nəfəsi kəsilər. Artıq ləcacət edərsə, qisas və intiqamdan başqa bir şeyə nail ola bilməz zənnindədirlər. Astara sərhədləri, hiylə və tədbirlərdən ötüb, indi daha Rəşidülmülk təhdidatı altındadır. Şahsevən ordusu Heyran gədiyinin bir ağaclığında düşərgə etmişdir. Lakin bu təhdidat astaralıları qorxutmadığı kimi məşhur Ərdəbil mücahidi Mirzə Ələkbərin kağızı da onları iğfal etmiyor. Mirzə Ələkbər ki, bir vaxt Heydər və Lağti davasının pişrovlarından olub, bir çox nüfusi-müslimini qətlə verdirmişdir. İndi götürüb astaralılara yazıb ki, nahaqq yerə Allahın bəndələrini, peyğəmbərlərin ümmətlərini, Əlinin şiələrini ölümə verməyiniz. Xilfi-şəri cinayətlərdə bulmayınız.

Qabaqda Astaraya 2 top, bir dəstə mücahid göndərilmişdi. İndi dəxi bir dəstə bombaçı göndərildi ki, ora səngərlərini müdafiədə bulunsunlar. Xəbər verildiyi üzrə Heyranda olan körpü mücahidlər tərəfindən uçurulmuşdur.

Zəncan xüsusunda verilən xəbər bilişibah bir dərəcə mübaliğəlidir. Oranın rüəsasından olan Şahanşah xan özünü millətləri ilə yoldaş olduğunu izhar edərək, Quran vərəqini möhürləyib mücahidlərin səngərinə göndərmişdir. Müvafiqətdə olduğunu bəyan qılmışdır. Ənzəli sərhəddində külli qədərdə posta posılkaları zəbt olunmuşdur ki, bunlar patron qutularından ibarətdir. Qabaqkı müxabirəmizdə dəxi posılka gəldiyini xəbər vermişdik. Bu təkrar dəxi onu andırır ki, sifarişlər qədimdən hökumət tərəfindən edilmişdir ki, hala buraya gəlib çıxmaqda və millətin xərcinə keçməkdədir.



### Rus konsulu

Srağagün rus konsulu 30 nəfər kazak ilə bərabər Tehrana azim oldu. Əz qərari-məlum konsul cənabları Tehran səfarəti tərəfindən rəsmən izhar edilmişdir ki, burası da bir politikayi-mühümmədən xaric deyildir. Konsulun tərzi-səfəri dəxi əhəmiyyətdən xali olmayıb, calibi-diqqətdir. Konsul Qəzvinə kəmali-təəmmül ilə gedib mənzilbəmənzil yol kəsməyə qərar vermiş və özü ilə bərabər bir nəfər mühəndis də götürmüşdür. Anlaşılır ki, konsul cənabları Tehrana əliboş getmək istəmiyor. O, töhfə olmaq üzrə mücahidlərin səngər və qüvvələrinin nəqşəsinin təqdimini istəyir? Bilmirəm, fəqət əfkari-ümumi buna müqərrərdir.

*«Tərəqqi», № 75, 16 aprel 1909*

## İRAN MƏKTUBLARI

## RƏŞT

### Rus iqdamatı

Ənzəli bəndərində olan rus cəngi gəmisinə əlavə olaraq srağagün bir gəmi daha gəldi. Bir gəmi də əfsər və jandarma dəxi vardır. Bunların qəsdi bəndərə gələn və gedən gəmiləri təftiş edib, silah və əslahələri tutmaqdır. Bu cəhət səbəb oluyor gilanlıların səxt əndər səxt[1] inciklikləri̇nə və etirazlarına. Filhəqiqətə rus dövləti öz gəmilərini təftiş etmək istəyirsə, Bakıda, Lənkəranda və Astarayi-rus da edə bilər.

Rəştdə olan rus kazakları dəstə ilə gəzib nəğmə oxuyurdular. Sipəhdar isə bu cəhətə rəsmən etiraz edib, belə bir nümayişə haqsız olduqlarını konsula bildirdi.

### Qəzvinin hal və hissiyyatı

Qəzvin bir röbi-fövqəladə içində itməkdədir. Zikr olunan müvəffəqiyyətlər onların röbəsini bir qat daha artırmışdır. Bunların qorxusu ikitərəflidir. Əvvələ, mücahidlərin rəşadətini layiqincə görüb, imtahanlarını çəkmişlər və saniyən, şəhər içində dəxi xatircəm ola bilmiyorlar.

Hər gün nəşr olunmaqda olan intibahnamələr və bir dəfə partlamış bomba və Osmanlı şəhbəndərində mütəhəssin olan əhali şəhrin əğləbən məşrutəçilərə mail olduğunu göstəriyor. Artıq ehtimal var ki, hücum başlandıqda bunlar da içəridən işə başlayacaqlar.

[1] səxt əndər səxt – çətindən çətin

Mücahidlərin rüəsalarından bəzisi Qəzvinin bağlarına kimi gedib, onların nəqşəsini alıb, səngər bəndlikdən ötrü mövqelər nişanlamışlar. Hakimi-şəhr olan Mirzə Əbülqasımxan Osmanlı şəhbəndərinə adam göndərib əmannamə istəmişdir. Qiyasinizam ki, əvvəlinci sədəmədə oğlunu mücahidlər öldürmüşlər, işdən istefa verib, bəyan etmişdir ki, artıq müdaxilə etməyəcəkdir. Dövlət rəisi olan Müzəffərüssəltənə Tehrana xəbər vermişdir ki, o şəhəri salmaqdan savay heç bir iqdam edə bilməyəcəkdir.

**Sipəhdar çıxır**

Sabah Sipəhdar öz atlıları ilə çıxıb səngər başına gedəcək və oradan səngərdəki qüvayi-mücahidinlə bərabər Qəzvinə hücum ediləcəkdir.

Vicdani-ümumi buna qaildir ki, Sipəhdarın xurcu ilə ətraf vadihatlardan bir çox dövtələb gəlib, məşrutəçilərə mülhəqq olacaqlar.

**Panov**

Varid olan xəbərlərə görə Rəşt mücahidini-rüəsasından olub, Mazandaran tərəfə göndərilən Panov marüf Astarabaddan hərəkət edib, iki ağaclıqda olan Daş qaryəsinə gəlmişdir ki, ordan Tehrana tərəf yerisin.

Panovun dəstəsi Astarabad ilə Mazandaran simini parə etmişlərdir. Tehrana xəbər verildiyinə görə sədri-əzəm Şahrudda olan Əbdülməlik və Şövkətnizamə teleqraf etmişdir ki, buranın səvar və sərbazını cəm edib Panovdan cilovgirlik etsin.

**Tehranın övzai**

Müstəbidlərin hissiyyatı xeyli hissidədir. Millət dəxi bir haləti-intizardadır. Hər iki tərəf intizardadırlar. Təfavüt burasındadır ki, millətin ümidləri qəvi, hökumətinki isə nəhayət zəifdir. Ümidi üzülmüş hökumət ölümünü nəzərə alıb, hər nə bilirsə ediyor. Ölməmişdən qabaq intiqam almaq istiyor. Əhaliyə xeyli səxt və düşvar tutulub, bir gecə və gündüz yoxdur ki, Tehranda adam öldürülməsin. Ələlümum, qatil hökumətdir.

Bu gün Tehranı iki tərəf qorxudur. İki tərəfdən hücum gözliyor. Məlum olduğu üzrə həzrəti-Sipəhdar ilə cənabi-Səmsamın sözləri aprelin əvvəllərində hücuma başlamaqdır. Odur ki, hökumət xeyli əl-ayağa düşmüş və əlimyandı etməkdədir. Keşikxanə süvarilərindən yüz nəfər İsfəhana rəvanə olunmuşdur.

Şose yolunun dəstigahları olan Bağırovlara rus səfarəti tərəfindən hökm olunmuşdur ki, Firəngistan postunu həml etməsin.

Lakin bundan istifadə edən dövlətlilər müfəttişlik etməyə fürsət tapıb, şöhrət vermişlərdir ki, Rəştdə postun hərəkətinə mane oluyorlar. Bunun ilə istiyorlarmış ki, süfərani şikayətə vadar etsinlər.

Sərdari-Əsəd İsfəhana varid olub, bu həftə Tehrana hərəkət edəcəkdir. Sipəhdarın Qəzvində olan əmlakını dövlətlilər çapıbdırlar. Bu xüsusda təhqiqat etmək üçün rus səfarətindən adamlar göndərilmişdir.



Tehrana yetişən xəbərlərə görə Təbrizin azuqəsi dəxi dörd ay kifayət edər.

Naibüssəltənə və qeyri adına olaraq xariciyyə vəziri Sədüddövlə dövlətdən ötrü bir kürur daha borc tədarük eləmişdir.

Şahın mənsubiyyəti yetişdiyi Astarabad türkmənlərindən neçə nəfəri Tehrana istənilib, xələt verilib göndərilmişdir ki, gedib bir iddə səvar ilə Tehrana gəlsinlər.

Şiraz hakimi Asəfüddövlə qəribə bir işə düçar olub, millətə müvafiqət etməyə məcbur olduğundan hala hökumətin məğzubi və məzulu olmuşdur.

Asəfüddövlə Şiraz hakimi olduğundan İsfəhan mücahidləri buna kompani simi vasitəsilə Tehran adına bir teleqraf vurub, təcilən Tehrana istəmiş və bədən teli qırmışlardır.

Asəfüddövlə də dəvətə təbiidir ki, ləbbeyguya olaraq, azim olmuş, yolda İsfəhan tərəfindən müqabilə gördükdə geri qayıtmış, görmüş ki, şəhər mücahidlərin əlindədir. Əncümən qurulub oturmuşdur. Təslim olmaqdan başqa bir çarə tapmamış, götürüb şaha bir nəsihətnamə teleqraf etmişdir ki, bəsdir daha, inadından əl çək! Məsmu olunduğu üzrə Əlaülmülk xaricə və Əmirnizam maliyyə vəzirliyinə qəbul olunacaqdır.

**Hücəcülislamın fitvaları**

Osmanlı səfarətində və Şah Əbdüləzimdə mütəhəssin olan zəvatə xitabən: ağayani-izam, hücəcülislamın qələmə aldıqları fitvayi-cədidin bin az fotoqrafla alınmış əksi Rəştə göndərilmişdir. Ağayani-Abdullah Mazandarani, Məhəmməd Kazım Əlxorasani və qeyri üləmayi-izam tərəfindən nəşr olunan bu xitabnamələrin məali-ələlümum bir vəchə atidir: süfərati-kübradə və zaviyeyi-müqəddəsədə mütəhəssin olan bütün islam qardaşlarımıza xitabən-səlami-vafir bədində təbliğ ediyoruq ki, məclisi-darüşşurayi-milli açılıb, tamamilə tərəfimizdən imza olunan qanuni-əsasi qəbul elan və təmim olunmayana kimi və millət vəkilləri intixab olunub, biladi-müslimini xaraba qoyub, xəlqüllahın qanının nahaq yerə tökülməsinə bir intəha qoyulmayana kimi hər bir müsəlmana lazım və vacibdir ki, hər növ, hər sinif və silkdən olursa-olsun, gərək hökuməti-haliyyənin əvamirinə qulaq asmayıb, onun ilə hər surətlə mümkün isə mübarizəyə qalxsın və hər kəs indiki hökumətə təmkin edər və onun dilxahi ilə rəftar edərsə, Yəzid ibn Müaviyəyə təmkin edib, Şümrün dilxahinə rəvayət etmiş kimidir. Valihaza bütün mütəhəssinninə lazım və vacibdir vaxtın uzanmasından diltəng olmuyub, kəmali-mətanəti-qəlb və səbir ilə başladıqları mübarizələrini iləri aparmağa çalışsınlar. İnşallah həzrəti-Höccətin vəchi sayəsində yaxındır o vaxt, istibdadın rişəsi qırılıb, millət öz istədiyinə nail olsun. Ha-

qiqəti-diniyyə özünü zahir etsin. Allah sizlərə nüsrət verib, qələmlərinizi sabit eləsin. Vəssəlamü əleykum və rəhmətüllah.

M.Ə.
Rəşt

**B.T.** Bu sətirləri qurtardıqdan sonra Ərdəbildən Rəşidülmülk ilə Salar arasında bir münaqişə olmaq xəbəri eşidildi. Bu məclisdə bir nəfər sözləşib, Salarfiruz qəhrən məclisdən çıxmış və adamları götürüb getmişdir. Vəlihaza Rəşidülmülk Heyran ayağında cəm olan adamları əvəzində Rəşidülmülkün vüruduni gözləmələri, naxoş olmaq xəbərini almış və Astara əvəzinə Ərdəbilə rəvan olmuşlar. Panovun məğlubiyyəti məsələsi bura dəvairini xeyli mükəddər etdi. Bu xüsusda Tehran postası ilə gələn kağızlar hökumət mənafeyindən olaraq xəbər verirlər. Guya, Bakı qəzetələrinə də bu xəbər gəlibmiş.

Rəşt isə bu xüsusda müstəqimən bir şey bilmiyor. Rəştlilər bu xəbərə bavər etməməkdədirlər.

M.Ə.
*«Tərəqqi», № 76, 12 aprel 1909*

## İRAN MƏKTUBLARI

### RUS NÜMAYİŞİ

Ənzəli bəndərinə iki ədəd rus hərbi gəmisi varid oldu. Biri «Krasnovodsk», biri geri qayıtdı, digəri «Göy Təpə» Krasnovodskda qaldı.

İran işləri uzandıqca, müdaxilə məsələsi də böyüyür, əhəmiyyət kəsb ediyor. Məhəmmədəli şahın gücü azaldıqca, inqilab hərəkətləri vüsət tapıb, məmləkəti əhatə etdikcə, rus təlaşı da artır. Tehrana yüz kazak, Ənzəliyə iki ədəd cəngi gəmi gəliyor: nümayiş olunur. Bu nümayişlər ilə əhali qorxuya salınmaq istənilir. Lakin bu oyunlar nə üçündür? Kimi aldatmaq üçündür? Kimi dəhşətə salmaq üçündür? Hiss edilir, amma qanmıyor. Bunların səhih bir politika, səlim bir tədbir üzərindən olmamağına insani qane etməkdən səvai başqa bir nəticə vermiyor. Birdəfəlik rus dövləti bunu bilməlidir ki, bu qisim hərəkati-qeyri məşruə və naqabil ilə məqsədə çatmaq olmaz. İranda nüfuz qazanması mənafe Rusiyanı rayic[1] etməlidir. Lakin bu politikanı öylə etməməlidir ki, «qaş qayırdıqda göz çıxartsın». Əgər Rusiya bu hərəkətləri ilə «rus mənafeinə zərbə vuran inqilabi» iskatə[2] çalışır isə səbəbi-inqilab olan Məhəmmədəlini və onun dövri-barində olanları islah etməli, Lyaxova nəsihət verməlidir ki, artıq füzulluq etməsin, yoxsa camaəti qorxudub,

[1] **rayic** – rəğbət qazanan
[2] **iskat** – susdurma, sakitləşdirmə



məşrutiyyət fikrindən daşındırmaq mümkün deyil, onu iğfal edib müdaxiləyə səbəb tapmaq isə heç mümkün deyil.

Ənzəli bəndərinə nümayişdən ötrü gəlmiş olan gəmilərə artıq tədhiş[1] nöqteyi-nəzərindən bir o qədər də əhəmiyyət verilmiyor. Yəni əhali bunu biliyor ki, bunlar hücum edə bilməzlər, zira bundan ötrü əllərində dəstavizləri[2] yoxdur. Lakin gəmilərin vürudi vaxtın əhəmiyyətinə dəlildir: zira, keçən sənə talışlar ilə olunan dava vaxtında dəxi həmin iki gəmi Ənzəliyə gəlib nümayiş etmişlər. İştə bu nöqteyi-nəzərdən camaət arasında bu xüsusda müxtəlif danışıqlar gəziyor: kimi diyor ki, guya, bu gəmilər şahı qaçırtmaq üçün gəlmiş, kimisi diyor ki, xeyir, rus pəhləvani Lyaxov gedəcək. Bəzisi bəyan ediyor ki, xeyir Əmir-bahadıri-cəng sürüşəcəkdir. Əsli olduğuna inanmadığımız şu əfvahi[3] xəbərləri nəql etməyimizdən məqsud bu nümayişlərin bir nəticeyi-əks məmumibəxş etdiyini qeyd etməyimizdir. Deməli, rus təlaşı Məhəmmədəli şah hökumətinin zəfini göstərən bir bariqədir. İnsan rusiyalı olduğunda böylə bir hərəkətdən öz məmləkətinin böylə politika ittixazinə məzhər olmasından doğrusu ki, münfəil[4] oluyor.

İnfial[5] mövcuddur. Zira, o müəzzəm rus bir ovuc ərbabi-hökumətin dost bir milləti-məzluma haqqında rəva gördüyü bunca narəvalıqlara qatlaşmağa məhkum olmaq, doğrudan da, infial gətirir, xəcalət verir.

### Bir komitəçinin təsəvvürü

Bütün əyalətdə olan idarələri və inqilab dəvairi xəfiyyətən və sirrən dolandırmaqda olan Səttar komitəsinin əzalarından biri ilə bir çox təlaş və səydən sonra görüşməyə müvəffəq oldum. Nə qədər səy etdimsə ki, bu adamdan Rəşt mücahidlərinin xətti-hərəkətlərinə və nə surətlə Tehranı almaq fikrində olduqlarına dair bir şey öyrənim, mümkün olmadı. Əfv edirsiniz, o bizim özümüzə məxsus bir sirridirdən başqa qeyri bir cavaba nail ola bilmədim. Fəqət, bu qədərəcən öyrənə bildim ki, aprelin əvvəllərində hərəkət etmək fikrindədirlər. Təxirlərinin səbəbi isə Təbriz, İsfəhan və Mazandaran ilə hərəkətləri bir etmək istəmələridir.

Komitənin sövqülceyşinə[6] dair bu qədərəcən öyrənə bildikdən sonra bura qiyafətli olan müsahibimin ingilis və rus politikasına olan nöqteyi-nəzərini anlamaq istədim. Rus və ingilis politikasına necə baxıyorsunuz deyə, – sordum.

[1] **tədhiş** – dəhşətə salma, hürkütmə
[2] **dəstaviz** – bəhanə
[3] **əfvahi** – aralıq sözləri, boş sözlər
[4] **münfəil** – xəcalətli
[5] **infial** – xəcalət
[6] **sövqülceyş** – qoşunun hərəkəti

– İngilis və Rusiya – bunların ikisinin də xahişi budur ki, İranda iğtişaş o dərəcədə uzansın ki, həm hökumət, həm millət hər ikisi yorğun olsun, əldən düşsün. O vaxt bunlar müahidələri üzərinə sahibi-mülk və millət olsunlar. Bu hər iki dövlətin fikridir. Təb və fitrət cəbəlilərinə görə də bu qəsdi icra üçün bunlardan biri, guya, hökumətə, o biri də millətə pənah çıxır. Birinin generalı, ofseri məşrutətələbləri bombardman edəndə, o birinin səfarət qapıları açıq elani-aman edilir. Biri öldürür, o biri şəfaət ediyor. Biri deyir tut, o biri də deyir qaç.

– Xub, məyər rus və ingilis hökumətləri keyfləri istədiyi vaxt İranı bölməyə qüvvətləri yoxmu zənn ediyorsunuz?..

*«Tərəqqi», № 77, 13 aprel 1909*

## İRAN MƏKTUBLARI

### MİTİNQ

Xarici müdaxiləsi mücahidləri və əhalini düşündürməkdə idi. Rus kazaklarının vürudi, dava gəmilərinin Ənzəli bəndərində manevrə etmələri, Mazandarana rus gəmisi və kazakların göndərilməsi və Şimali İranda olan rus konsullarının Tehrana cəm olmaları, İran başında bir oyun oynayacağına dəlil olmaq surətilə görükub dəvairi-inqilabi düşüncələrə salırdı ki, bu aralıq 4 min nəfər rus qoşununun Gilana varid olub, Ənzəli, İran Astarası və Rəşti istila etmək xəbəri çıxdı. Şəhər olmazın dərəcə həyəcana gəldi. Əncüməni-əyaləti tərəfindən elani-məxsusə ilə əhalidən mübadileyi-əfkar[1] etmək üzrə bir mitinq dəvət olundu.

Nəticeyi-mücmiləsini[2] teleqraf ilə xəbər vermiş olduğumuz bu mitinqdə 8 minə qərib əhali şərakət ediyordu. İki yerdə natiq kürsüsü qurulmuş, camaət məscidvari oturub məclisin iftitahini ürək tappıltısı ilə gözləyir idi. Axşamçağı saat beş radələridi ki, əncüməni-əyaləti sədri olan Hacı Məhəmməd Rza Ağa meydanın bir tərəfində vaqe imarətin balkonunda bir heyəti-külliyyə ilə qərarlaşmış üləma arasından ayağa qalxıb aram və təənni[3] ilə söylədiyi müxtəsər bir nitqində bugünkü məclisin nədən ötrü çağırıldığını bəyan ilə məclisə iftitah[4] verdi və müfəssəl ərzihalın təqdimi kürsü üstündə müntəzir olan Hüseyn Kəsmai cənablarının öhdəsinə olduğunu ixtar edincə, məzkur Kəsmai cənabları nitqə başladılar. Əlhəq bu adam olduqca natiqdir, sözləri aydın, mətləbi kəskin, səsi yüksəkdir. Məlumati-lazimədən dəxi ari deyildir. Sözlərindən ciddiyyət tökülüyor.

[1] **mübadileyi-əfkar** – fikir mübadiləsi
[2] **nəticeyi-mücmilə** – ümumi nəticə
[3] **təənni** – aramla
[4] **iftitah** – açma



Bu adam müfəssəl söylədiyi bir nitqində tarixi-inqilabdan, qələbeyi-milliden, övzai-haliyyədən, nəfəsi-axirini istibdaddan, rus və ingilis politikasından bəhs edərək, mövzuya keçib, rus qoşunlarının Gilanı istila etmək və bilümum ümuri-daxiləyə müdaxilə etmək xəbərinə gəlincə, camaət mütəheyyiciane və mütəhəyyacanə bir surətdə vəlvələ və hərəkətə gəldi. Hər tərəfdən cəstə-cəstə[1] sədalar qalxırdı.

Məclis bir qədər rahat olandan sonra Kəsmai nitqlərini qurtarmaq üzrə davam etdilər, dedilər ki, biz bu vaxtadək heç bir millətin hüquq və ixtiyarına təcavüz etmədik. Bilümum İran inqilabçıları bu barədə lazımeyi-istedad büruzə verməlidir. Gilanlılar dəxi, xüsusən isbati-ləyaqət etmişlər ki, buna Rəştdə olan düvəli müəzzəmənin konsullarının rəsmən verdikləri rizayətnamələri şahiddir. Madam ki, biz bu vaxtadək əsasi ittifaq etdiyimiz politikamızı yenə də əldə edib, bir kəsin haqqını təzyiq etməsək, heç bir dövləti-xaricinin ixtiyarı yoxdur ki, bizim daxili işlərimizə müdaxilə etsin.

Həkəza biz də bütün konsulat vasitəsilə Rusiya dövlətinə elan edirik ki, hərgah xəbəri nəşr olunmuş bir hərəkət rus hökuməti tərəfindən zühur edərsə, biz hazırıq ki, onlara mümaniət edək. Zira, biz vətənimizin hürriyyəti və istiqlalı uğrunda çalışırıq. Bu məqsədimizə çatmaq yolunda qabağımıza şah çıxarsa, şah, digəri gələrsə, onunla mübarizə etməyə məcburuz.

Biz bilirik rus dövlətinin qoşunu müqabilində bizim qüvvəmiz yoxdur. Yalnız burası danılmaz ki, vətənimizin istiqlaliyyəti yolunda qurban olan canımız vardır.

Natiq sözünü qurtaracağın əhali əl çarpıb onu alqışladı. Alqışlar arasında sədalar gəliyordu ki, biz ölməyə hazırız.

Hüseyn Kəsmaidən başqa bir neçə natiq daha danışdılar.

Danışanların cümləsindən biri də erməni idi. Hamı danışanların malı həman Kəsmai cənablarının nitqi malında idi.

İki saat qədəri uzanan bu mitinqin axırı böylə bir qətnamə qəbulu ilə xətm olundu ki:

«Biz Gilan əhalisi, bütün İran əhrarlarından bir qisim olduğumuz halda, vətənimizin istiqlaliyyətindən başqa bir fikrimiz yoxdur. Amalımız qanuni-əsasımızı geri almaqdır.

Biz qan töküyoruz ki, hüququmuzu alaq, böylə bir kəsbi-hüquq yolunda çalışdığımızda məmləkətimizdə məşğuli-kəsb və ticarəti olan heç bir xarici təbəəsinin malına, canına təcavüz olmuyub, onlara məxsus iş gözləməkdə lazım olan məsaiyəsini əmələ gətirmişik. Bu yolda ancaq təkamül etməmişik.

[1] **cəstə** – ciddi hərəkət, sıçrama

Lakin bununla belə, qonşumuz Rusiya hökuməti bila cəhət məmləkətimizə kazak və cəngi gəmiləri sövq etməklə bizim xatirimizə toxunur.

Bu xüsusları biz vaxtilə protest etdik. Bu qədər iqdamata kifayət etməyib, rəsmən lazım olduqda «yenə də kazak gətirəcəyik», – cavabı ilə rus hökuməti əz qərari-məsmu[1]- müsəmməm[2] olmuşdur ki, dörd min soldat bizim əyalətə varid edib də məmləkətimizi istila etsin.

Biz bu xüsusda bütün konsulat vasitəsi ilə rus dövlət imperatorusuna elan ediyoruz ki, əgər bu şayeat doğru isə bizim hüququmuza nahaqcasına ediləcək təzyiqdən vaz keçsin. Böylə bir iqdamata biz var gücümüzlə protest ediyoruz. Yox, əgər böyləcə, həqq və beca olan istidamız[3] səm[4] qəbulə alınmayıb, hüquqi-vətəniyyəmizi güclü bir hökumət tərəfindən zorlanacaq isə, o halda biz hazırız ki, vətənimizi xətərdə elan edib, qüvayi-mövcudumuzla müqabilə edək, əgər bu müqabilə bizim hamımızın qırılmasına da səbəb olsa».

Bu qətnamə ilə bərabər icmaən qəbul olundu ki, bütün parlamanlara və Avropa azadpərəst firqələrinə istidanamələr yazılıb İran haliyəsindən xəbər verilsin də istimdad istənilsin.

Axşam qaranlığı çökmüşdü ki, məclis tamam oldu. Əhali evlərinə tərəf yönəldilər.

Mitinqin sabahı, rus konsulu tərəfindən Sipəhdar həzrətlərinə bir məktub gəlmişdir ki, bu məktub konsulxananın mitinqdən müteəssir olduğuna işarə kimi tələqqi edilir.

Naib konsul cənabları bu məktublarında yazıyorlar ki: bəzi müfsidlərin[5] və kəmittila[6] adamların nəşr etdikləri xəbərdən əhaleyi-Gilan mütəhəyyic olub, öylə xəyal etmişlər ki, dövləti-imperatori İran işlərinə müdaxilə etmək xəyali və Gilana qoşun yeritmək qəsdinə düşmüşdür.

Tehran səfarəti-imperatorusu tərəfindən mən məmuram ki, bu xüsusda Zat alinizi müstəhzər[7] edim ki, bu günə şayeələrin əsli yoxdur. Qoşunun vürudi və İran işlərinə müdaxilə etmək məsələsi başqa bir surətdədir ki, onlar Təbrizə getməlidirlər ki, orada aclığa mübtəla olan biçarə əhaliyə yol açıb onları isrətdən qurtarsında. Əgər hökumət qoşunu ədalətsizlik edərsə, onların cilovunu saxlasın. Siz bu cəhəti bir müjdə olaraq əhaliyə hali edin ki, rus dövlətinin müdaxiləsində İrana zərər vermək və onun istiqlaliyyətinə toxunmaqlıq qəsdi əsla yoxdur. Biləks, bu cəhət mücahidləri sevindirəcək bir hal ilə xitampəzir olacağına ümid etməlidir.

[1] **məsmu** – eşidilmiş
[2] **müsəmməm** – qəti surətdə qərar verilmiş
[3] **istidə** – yalvarıb istəmə, xahiş etmə
[4] **səm** – eşitmə, qulaq asma
[5] **müfsid** – fitnəçi
[6] **kəmittila** – az xəbəri olma
[7] **müstəhzər** – xəbərdar



Sipəhdar həzrətləri dəxi konsulun dostanə yazdığı məktubə ciddən badustanə yazdığı bir məktubunda bunu diyor ki:

«İran milləti rus dövlətinin novpərəst və insaniyyət, dostluq ibraz etməsini istər. Lakin bununla bərabər, xahişi-külli edir ki, əgər İrana xidmət etmək və bu qədər müddət imtidad edən failəni yatırmaq üçün İran milləti-məzluməsinə mənən kömək edib də felən elədiyi hərəkətlərindən vaz keçərsə, İranın halına daha əlverişlidir».

Filhəqiqət rus dövlətinin mənəvi köməyi bəsdir ki, Məhəmmədəli şah təslimə məcbur olsun. Madam ki, bu böylədir, o halda rus qoşunlarının müdaxilə edib, yol açılmasına nə hacət qalıyor?

İştə sual.

«Tərəqqi»nin sabiq nömrələrində xarici müdaxiləsi ünvanı ilə bu mətləbə dair yazılan baş məqalə burada əhəmiyyəti-məxsusə ilə oxunub, tərcümə edilir və dəvaireyi-inqilabın əfkarı ilə təvafüq ediyor idi.

Əncüməni-əyaləti tərəfindən rus imperatoru, ingilis karolu və parlamanlarına təzəllüm[1] teleqrafları çəkilib, istirham edilir[2] ki, İranı müdaxilə bəlasından qurtarmağa lütf buyursunlar.

### Ənzəlidə

İki gün bu mitinqdən sonra Ənzəli bəndərində daha bir mitinq təşkil verilib, həman surətlə protest edilmişdir.

### Biləsuvar

Rus sərhəddi olan Biləsuvar əyalətləri dəxi məşrutə tərəfinə keçmişlərdir. Əncümən təşkil verilmiş və dəvtələb[3] dəstələri təşkil verilib, Ərdəbilə hücum edib orada əncümən qərar vermək sədədindədirlər[4].

Rəşt əncüməni-əyalətisindən və Sipəhdardan onlara təbrik teleqramları göndərilmişdir.

### Rəşidülmülk

Ərdəbildən verilən xəbərlər ki, guya, Rəşidülmülk daha Astaraya gəlməkdən vaz keçmiş, nə bilim nə olmuş xəbərləri belə məlum oluyor ki, hamısı bir politika və hiylə imiş. Məzkur təzə qüvvə yığmaqdadır ki, Astara üzərinə gəlsin. Astara məzkuri pişəvaz etməyə qüvvəsiz deyildir.

[1] **təzəllüm** – zülm və təcavüzdən şikayətlənmə
[2] **istirham etmək** – rəhm olunmasını istəmək
[3] **dəvtələb** – təcili
[4] **sədədində** – fikrində olmaq

**Tüngəbün tərəfi**

Gilanın Tüngəbün tərəfini Sipəhdarın oğlu Sərdar Əsəd saxlamaqdadır. Əz qərari-məlum Mazandaran tərəfindən Gilana gəlmək üzrə qoşun hərəkət etmişdir. Tüngəbün sərgərini möhkəmləşdirmək üçün buradan oraya qüvvə yollanmışdır.

**Qəzvindən**

Buraya yetişən xəbərlərə görə Qəzvin sərkərdəsi Sərdar Müzəffərə Tehranda hökm olunub ki, bir dəstə sərbaz ilə İraqa tərəf getsin. Görünür, orada dəxi bir şuluqluq baş vermişdir.

**Tehran əks-sədaları**

Bu aralıq açılmış olan dükanlar təzədən bağlanmışdır. Görünür ki, azuqə və pulları qurtarmış olan mütəhəssinin bir qədər alış-verişdən sonra özlərinə istibdadi-mühəyya edib, təzədən bəstnişinlik etməyə qərar vermişlər imiş.

Müvəssəq xəbərlərdəndir ki, rus səfiri ilə ingilis səfiri rəsmi libasda olaraq, şah ilə mülaqat edib, məşrutiyyəti iadənin xəsəratından əhvalın bu tövr qalmasının səyaətindən şaha bəhs etmişlər. Və tövsiyə qılmışlar ki, artıq istadəlik etməyib qanun əsasını iadə etməkdə tərəddüd etməsin. Nəticeyi-mülaqat nə isə hənuz məlum deyildir. Ümumən, bu fikirdədirlər ki, bu günlər böyük bir xəbər çıxacaqdır ki, İranın istiqbalı o xəbərə bağlıdır.

Yenə təzə xəbərdəndir ki, bir neçə gün sonra bəxtiyarilər Tehranı mühasirə edəcəklər.

*«Tərəqqi», № 83, 20 aprel 1909*

## İRAN MƏKTUBLARI

### CULFA

Culfa Arazın kənarında boz və qırmızı dağların arasında düşmüş olan bir məhəlldir, qəsəbədir. İləridən gömrükxana olub Həsəbi ilə məlum olan bu vadiy-qeyri-zizər indi üç ildən bəri dəxi vağzal olmaq və dəmiryol çəkmək cəhətdən əhəmiyyətə yetmiş və böyüməyə üz tutmuşdur.

Burada olanlar istər rus, istər İran təbəi olsun, yerli əhalidən olmayıb müxtəlif yerlərdən köç etmiş olan ticarət ərbabından ibarətdir.

Əhli-ticarət isə hər yerdə gözüaçıq olduğundan Culfa gözüaçıq, yeni qafalı bir əhaliyə daradır. Bunlar fanatizm zad bilməz, kamali-qeydsizliklə dolanmaqdadırlar.



Fikirləri açıq, hamısı məşrutə fikrinin tərəfdarıdırlar. Burada bir çox sahibi-zövq və mühübbi maarif cavanlar tapılırlar. Böylə tozlu-torpaqlı, ələfsiz-göyərtisiz bir yerdə boz dağların qırmızı torpaqları arasında ciddi canların, açıq və sərbəst fikirlilərin bulunması sizə təəccüb gəlməsin. Zira, bunları buraya cəmləyən ticarət və sənaətdir. Ticarət və sənaət isə cəhli və cəhalətə zidd və düşmən olduğu məlum və ərbabinin mütərəqqi olduğuna talibdir.

Culfanın İran inqilabında, Təbriz müdafiəsində göstərdiyi xidəmət xeylidir. Xoy, Səlmas, Mərənd iğtişaşları buradan hazırlanmış. Təbrizə vaxtlı-vaxtında silah, patron, fədai və qeyri-ləvazimat, azuqə və sursat buradan göndərilmişdir.

Culfalıların məşrutəçilikləri dərrakə və fəhmi-üzündən olub, başqalar kimi deyildir. Bunlar İran tüccar və sənət nümayəndələri olduqlarından bittəb məşrutənin iqtisadca verəcəyi mənfəətlərini qanıb, ona yalnız şəriət rəngi vermirlər.

Bunların arasında bir çox təhsil görmüş cavanlar vardır ki, məşrutənin mənasını qanmaqdan bəri deyildirlər.

**İngilis çıxışları**

Təbrizdən buraya teleqrafla xəbər vermişlər ki, ingilis qoşunu İranın cənubini tərk edib çıxmışdır.

Ruslardan isə hələ bir əsər yoxdur. Amma burada belə güman ediyorlar ki, ingilislərin çıxması doğru isə, ruslar dəxi qala bilməzlər.

**Sui-təsir etmişdir**

Təbrizə ruslar bir halda gəlmişlər ki, doğrudan da, camaat cana gəlibmiş, azuqə yox, mücahidlər yavanca çörək yeyib dava edirlərmiş.

Aclığa mübtəla olan bəzi mücahidnümaların qabağın saxlamaq dəxi bir dərəcə müşkülləşib imiş ki, rus qoşunu daxil olub, yolları açmış, Eynüddövləni rədd etmiş, şəhərdə əmniyyət hasil olmuşdur.

Ruslar belə bir üsrətli vaxtda gəldikləri təbiidir ki, bir dərəcə əhalini sevindirmiş, nə tövr olsa da, qəlblərdə ruslara qarşı iyi bir hiss oyatmışdır.

Amma soldat yaralanmaq məsələsindən sonra (Sinarskinin) mülahizəsiz və ədalətsizcə tələb etdiyi 10 min tümən fəqərəsi əhaliyə sui-təsir edibdir. İnsaniyyət naminə çalışan rus qoşun böyüklərinin məntiqi dəxi istibdaddır. Və məxsusən xan və hakimlərin məntiqindən bir o qədər də fərqli deyildir.

*«Tərəqqi», № 110, 21 may 1909*

## İRAN MƏKTUBLARI

### CULFADA TƏFTİŞAT VƏ HƏBSLƏR

Bu gün İran Culfasında icra edilən təftiş və həbslərin şəxsən tamaşaçısı olduğumla bərabər, rus Culfasında olunan həbslərin xəbərini dəxi aldım.

Həbslər bir vəqtdə icra olunurmuş ki, həman bu vəqtdə Şücaüddövlənin Culfa yaxınlığında olan bir kəndə dəxi bir iqdamlar olunmuşdur.

Günortadan bir az keçmişdi ki, əncümən yerini dolandırıb mücahidlərin mərkəzi hesab olunan postxana həyətinin əfsərlər ilə bərabər gələn 20–30 nəfər soldat tərəfindən qapısı alınıb, bir neçə soldat dəxi həman dairənin ətrafında qaravulçu qoyulub.

Əncümən sədri çağırılır. Osmanlı təbəəsi olan Əhməd Camal əfəndi hazır olub müsahibə edirlər. Əfsər Təbrizdən alınan hökm üzərinə əncüməndə olan silahları təhvil alıb Təbrizə göndərəcəyini elan edir.

Camal əfəndi isə tezliklə alınıb, gömrükxana idarəsinə təhvil verildiyini bəyan edincə, əfsər oraya verilən tüfənglərin neçə əded və nə sistem olduğunu öyrənmək istəyir. Aldığı cavablar, görünür ki, onu iqna etməz. Bir çox sorğu-sual başlanır. Bu məsələdən keçəndən sonra havayı bir güllə atmaqla müttəhim olan bir mücahidin ki, hazırdadır, tüfəngin harda olduğunu bilmək istəyir. Bilməyə müvəffəq olamaz. Əncümənden ona tüfəng verilməmişdir, – deyirlər.

Bədən əfsər bəyan edir ki, onun rəisi gəlməyincə, əncümən sədri Camal əfəndi və yoldaşı erməni doktor Bijik əfəndinin bir yana hərəkət etmələri və komandirin vürudunu gözləmələri lazımdır.

Komandirə adam gedir. Əfsər ilə məşhur Jarski əncümən qapısında qalıb, xüsusi söhbətlər edirlər.

– Bu biçarə iranlılar bundan belə xarab olacaqlar. Bu hərzəgərçilər və ermənilər Rusiyada öz sui niyyətlərini yeridə bilməyib İrana gəldilər. Bu fəqir, aciz, məzlum və gözəl məxluqu bədəməl etdilər və qudurtdular. Belə bir fəlakətə sövq etdilər ki, sözlərdən deyib, biri irad, o biri təsdiq edirlər. Söhbətin zimnində diqqətlə qulaq asmaqda olan müxbirinizi iranlı xəyal edərək xitabən:

«Siz elə bilirsiniz ki, bu hərzə ermənilər, gürcülər və qafqazlılar sizdən ötrü börkləri yanıb İrana hürriyyət almağa gəlmişlər. Vallahi, İran milləti sonra biləcəkdir ki, kimdir onun dostu və kimdir onun düşməni. Mən İranda olmuşam. İran millətindən əmin bir camaat yoxdur. Bu cürə şeytanlar aralığı pozub öz ciblərini doldurmaq üçün bunların məişətinə zəhər qatıyorlar».

– Cənab əfsər, əvvəlcə sizə bildirim ki, mən iranlı olmayıb, rus mətbuatının nümayəndəsiyəm.



Amma iranlılarla elədiyim söhbətdə sizin fikirlərinizi bildirəcək bir şikayətə rast gəldim. Onlar kəlmeyi-mücahidlərdən xeyli razılıq ibraz ediyorlar. Az-çox şikayətləri varsa, o da özlərinə qafqazlı adı vermiş olan bəzi iranlı mücahidlərdəndir. Təbii ki, onsuz da olamaz. Amma böyük şikayətləri şaha kömək etmək üzrə gələn mühacirlərdəndir.

Mən özümün Rusiya mətbuatı nümayəndəsi olduğumu izhar edincə, «Novoye vremya»çı Jarski artıq bir tələşlə, hansı qəzetin müxbiri və kim olduğumu öyrənməyə səy etdi.

Bu əsnada komandir gəlib, əncümən sədri və doktor cənablarını təzədən ehzar etdilər. Əfəndi bir kürsü götürüb oturdu.

Komandir artıq bir sərtlik və mümahhəd[1] müqəddəmə olmaqsızın dürüşt[2] bir səslə «tüfəngləri ver» – deyə rücu etdi.

– Tüfənglər gömrükxanadadır.

– Neçədir?

– Hamısı doqquzdur.

Amiranə bir tövr alaraq:

– Niyə doqquz olsun? Halonki mən buradan keçən 300 nəfər müsəlləh mücahid özüm görmüşəm.

– Onlar Xoydan gələnlər idi ki, dübarə oraya qayıtdılar.

– Siz haralısınız?

– Türkiyəliyəm!

Bədən doktora rücuən:

– Siz haralısınız?

– Mən də türkiyəliyəm!

Soldatlara işarətən:

– Bunları alınız!..

Məhbuslara:

– Sizlər xüsusunda Təbrizə konsulxanaya yazacağam. Cavabı gəlincəyədək təhti-tövqifdə qalmalısınız.

Bu vaxt Culfanın dolandıranları olub, məhbubi-millət olan bu zavallı soldatlar qabaqlarına salıb apardılar.

Sonra orada hazır olan 4 mücahidi dəxi 6 nəfər soldata qoşub məcburən göndərdilər ki, damların üstündə olan səngərləri pozsunlar.

Xülasə, buradan 3 adam alıb rus tayından dəxi 5 adam tutmuşlar ki, tutulanların adları bunlardır:

1. Rus tamojniyası xəzinədarı Baxşəli ağa cənabi Şahtaxtinski.
2. Məşhur komisyonçu və tacir naxçıvanlı Kərbəlayi Nəsrullah cənabi Şeyxov.
3. Həman Şeyxovun əqvamından maarifpərvər cavan Məşədi Rzaqulu Nəcəfov.

---

[1] mümahhəd – hazırlanmış [2] dürüşt – sərt, qaba

4. Tacirbaşı Ağaməhəmməd Hüseyn Hacıyev.
5. Komisyonçu Kərbəlayi Tağı Yusifov.

Siyahısı verilən bu adamlar hamısı rus təbəəsidirlər.

Bunları və bunlarla bərabər İran tayında tutulan 3 nəfər Osmanlı təbəələrini dəxi həman gün yük qatarı ilə Naxçıvana göndərmişlər.

Bu xüsusda Təbrizə teleqraf çəkilib, əhval xəbər alınmış və dəsturüləməl istənilmişdir. Cavabında belə bir teleqraf çəkmişlər:

«Bu saat teleqrafxanada hazırıq. Bu xüsuslardakı Təbrizdə həmittifaq düşmüşdür. Tehran ilə müzakirə edirik. Ehtimal var ki, bu barədə bu gün, ya sabah səhih bir qərardad olsun».

### Əncüməni-əyaləti

Həbslər icra edən zabit ilə görüşdüyüm zaman ondan ingilislərin İran cənubundan çıxmalarına dair verilmiş xəbərləri eşitdiklərini təhqiq etdiyində «böylə bir xəbər yoxdur» deyə şayiəni rədd etdi.

- Bir daha nə qədər rus qoşunu İranda qalacaq?

– Ta asayiş tam olmayınca, qoşun getməyəcək. Zərafat deyil, rus pulu ilə burada artıq xərclər qoyulub, yol qazılmış, indi bir neçə nəfər erməni və gürcünün intriqasından naşi biz külli zərərlər çəkə bilmərik. Nə qədər ki, yolumuzun əmniyyətinə və ticarətimizin səlamətinə kəmalincə inanmaq mümkün deyil, İrandan çıxmaq olamaz.

- Niyə bəs Ənzəli–Tehran yoluna nisbət bu politikanı tutmuyorsunuz?

– Qəzetələrin yazdığından orada dəxi şuluqluq başlanmış, əgər bir qədər dəxi uzanarsa, yəqindir ki, yolumuzu mühafizə üçün qoşun göndərməyə məcbur olacağız.

*Culfa, 16 may*
*«Tərəqqi», № 112, 24 may 1909*

## İRAN MƏKTUBLARI

*(xüsusi müxbirimizdən)*

### TƏBRİZDƏN

Zavalı Təbriz. Bəlalı mücahid nə qədər korluqlar görmüş, nə qisim mühacimatə[1] düçar olmuş.

Bir il tamam üzərinə yağmaqda olan güllələrə müqabilə edib durmuş olan Təbriz bir o dərəcə vətən yolunda fəda olmağa hazır imiş ki, rus qoşunlarının gəlməsindən iləri öylə bir halda ki, hər bir azuqə şəhərdən qurtarıb, xalq acından tökülüb küçələrdə qalırlarmış, mücahidin yonca yeyib dava ediyorlar və müxalifini şəhərə qoymuyorlarmış.

[1] mühacim – hücum edən



Burada dava da olmamış adam çox az tapılır. Qocasından tutmuş uşaqlarına kimi tüfəng alıb müdafiəyə çıxmışlar. Az adam tapılar ki, güllə yeməmiş olsun.

Nəql ediyorlar ki, əhali öylə hazır imiş ta axırkı damla qanlarına kimi müdafiə etsinlər, belə ki, yonca yeyib canbazlıq etdikləri vəqt kimsənin xatirindən təslim olmaq fikri keçmiyormuş.

Lakin bir çox məşhur təbrizlilər ilə etdiyim söhbətdən məlum oldu ki, hərgah azuqə yolları açılmıyıb, rus qoşunu daxil olmasaymış millət təslimə məcbur imiş.

Yox, əgər ələ azuqə keçəndən sonra hökumət qoşunu getməyib, dava uzansaydı, belə bir müddəti-mütəmadi daha zədixurd etməkdən savayı qəti bir nəticəsi ola bilməz imiş.

İş böylə bir həsrətli halda olduğu bir zaman ingilis və rus müqaviləsi tamam oluyor.

İran barəsində ittixaz etdikləri politikanı icraya başlayırlar.

Ruslar daxil olurlar və daxil olmaları ilə bərabər, elan və bəyan ediyorlar ki, onların gəldiyi başqa bir xəyali-istila və işğal olmuyub, ancaq əhalini vəhşi Rəhim xan atlılarının təcavüzündən qurtarmaqdır. Və Culfa–Təbriz yolunu açıb şəhərə azuqə yetirmək və sakitlik bərpa edib, əgər hökumət qoşunu şəhərə hücum edərsə, müdafiə etmək olacaqdır ki, bu xidmətin əvəzində rus hökumətinin növpərəstlikdən başqa bir mülahizəsi olmuyub, bu xüsusda eylədiyi iqdamatın xərcini də istəməyəcəkdir. Bu bəyannamənin eyni əncüməndə saxlanır.

Nəhayət dərəcə bir üsrətə giriftar olub, yonca yeməklə istibdad fövclərinin vəhşiyanə hücumlarına qatlaşmağa məcbur olub axır nəfəsdə olan camaat təbiidir ki, böylə iqdamə, böylə bir məhəbbət ibrazinə etiraz etməyib, ədavətsizliklə qonaqları qəbul etmiş və əncüməni-əyaləti dəxi onlardan pəziralıq etmişdir.

Bədə, aclara çörək gətirmək və yolları saxlamaq ünvanı ilə gələn qonaqlar məmləkətin ümuri-daxiləsinə əl atmağa başlayıb. Bir soldatın yaralanması səbəbi ilə tələb edirlər ki, mücahidlər təxliyə-silah etsinlər.

Bir soldat yaralanar. Əvəzində 10 min tümən pul alınar. Səngərləri dağıdarlar. Yollarda qarovullar qoyub, gələn-gedən müsafirləri axtararlar.

Nəhayət, mücahidlərə əl atıb həbsə başlarlar. Qafqaz mücahidi adı ilə gələnləri «rəiyyətimdir», – deyə tutmağa başlayıb bir neçələrini həbs edirlər, o cümlədən Mirzə Ələkbər Məhəmmədquluzadə və əncüməni-əyaləti üzvü Şeyx Əli Əsgərdir. Bu həbslər əhaliyə artıq dərəcədə sui-təsir edər. Əncüməni-əyaləti azasının həbsinə etiraz edərlər.

Məlum olar ki, Şeyx həzrətləri özləri bilmiyorlarsa da, rus təbəəsi imişlər.

İşi bu surətdə görən gürcülər, ermənilər şəhəri tərk edib, Səlmas və Xoy tərəfinə qaçarlar. Və başqa rus təbəəsi olan müsəlman mücahidləri dəxi şəhərdən çıxarlar ki, rus əlinə düşməsinlər.

Bununla da kifayət edilməz, həbslərin dairəsi böyüyür. Mücahidlər arasında olan rus təbəələri deyil, başqa dövlətlərin təbəələrini dəxi tutarlar. İran Culfasında tutulan iki nəfər Osmanlı təbəəsinin tutulduqlarını qabaqkı yazımızda xəbər vermişdik.

Bu əndazə bir müdaxilələrdən savayı başqa hərəkətlərə də başlarlar. Salari-milli Bağırxanın səngərlərini dinamit ilə partlatdıqdan sonra Sərdari-Milli-Səttərxan ilə onları qaçaq saldırmaq politikasını işlədirlər ki, bu xüsusi çoxlarından eşidib və Səttərxan həzrətlərinin özləri ilə elədiyim mülaqatda sözlər arasında sızmaq oluyor idi.

Nəhayət, əhalinin get-gedə sui-gümanları artır ki, bu günlər həman bu cəhət şiddətlə tərəqqi ediyor.

O axırda Naib Hüseyn ilə Naib Yusif nam iki nəfərin arasında bir münaqişə baş verir. Naib Yusif Naib Hüseynə bir dəstə ilə evlərinə hücum edərək, güllə atmış olur. Hökumət bunları ehzar edib, aralarında sülh verir. Birinə məzəmmət, digərinə təsliyət verib, hər ikisindən iltizam alar ki, bir daha ədavətlərini tərk etsinlər də, hər ikisi millət nəfəratından olduqları üçün məhəbbət ilə yaşasınlar.

Bunlar da iltizamnamə yazıb, imzalar edər və söz verib, barışıb işlərinə gedərlər ki, bu iltizamnamə hökuməti-məhəlliyyə idarəsində hənuz saxlanmaqdadır.

Sonradan məlum olur ki, burada bir intriqa çövrülmüş. Naib Hüseyn gedər öz məzlumiyyətini izhar ilə rus konsulxanəsinə şikayət edər. Və təhqiq olur. Onlar iadeyi-asayiş üçün gəldiklərindən Naib Yusifin evindən, guya, əhalidən qarət elədiyi malları yiyələrinə verib, evində dinamit qoyub partladar və özünü aparıb orduda məhbus surətilə saxlarlar ki, indiyə kimi orada qalmaqdadır.

Şəhər hakimi İclalülmülkün bəyanına görə kronsulxanəyə verilən rəsmi istizahə konsul cavab belə verməmişdir. Hakimin ifadəsinə görə ruslar məhəlli idarə və hökumətdən bilmərrə iğmaz etməkdə olub hərəkatlarında bir cünbişi-istilacuyanə görünür. Bir nəfər soldatın yaralanması fəqərəsində ruslar 24 saatin içində 10 min tümən əvəz və canın verilməsini israrən tələb etdikləri və hər dəfə bir ricüları olursa, 4 saat sonra məmur göndərib cavab istəmələri məlum olduğu bir halda, bütün şəhər əhlinə məlum olan qoca kişini kazak basıb öldürdü. Və əncümənin bu xüsusda olunan tələbinə bircə qiymət verilməyib, hala əgər dəftərlərimizi açıb baxacaq olursanız, yüzə yaxın neveştələr[1] tapacaqsınız ki, onların heç birinə indiyə kimi cavab verilməmişdir.

[1] neveştə – yazı



Naib Yusifi tutmaqla bərabər, onun 17 nəfər yoldaşını da tutub, orduya aparmışlar ki, onlardan bir qədərini buraxıb qalanları hala orduda tovqifdədirlər.

İştə bu işləri görən Sərdar və Bağırxanlar seziyorlar ki, fikirləri başqadır.

Bunlar məmləkətə asayişi iadə etmək qəsdilə gəlib, hala istilacuyanə bəzi hərəkətlərə düşmüşlər ki, bu nöqteyi-nəzərdən fikirlərincə müzirr hesab olunan ənasirdən özlərini müdafiə etmək fikrinə düşüb, bu adamları təmini-asayişə xələl vuran qələmə verərək, birər-birər dənləməyə başlamışlar ki, bu nöqteyi-nəzərdən bir gün sonra Səttar və Bağırxanların dəxi bir bəhanə ilə tutulacaqları güman edildikdən müşarileyhlər Osmanlı şahbəndərində mütəhəssin olub, dövləti-aliyənin himayəsini istəmişlər və rusların hərəkatlarına protest etmişlərdir.

Məlumdur ki, adları bütün zəmində bir təmcidi-fövqəladə ilə yad olunan bu adamlar Təbrizdə tərəfdarsız olmazlar. Odur ki, bunlarla bərabər, dörd yüz nəfərdən ziyadə əhali dəxi şahbəndərxanəyə savarıb bəstə əyləşir və bəstə gələnlərin sayı gün-gündən artmaqdadır.

Şahbəndərxanə tərəfindən bəstnişinlərə birər biletlər verilmişdir ki, o biletlər onları Osmanlı baydağı altına aman gətirmiş olduqlarına bir əlamət olub, rusların təzyiqinə qarşı təminnamədir.

Osmanlı şahbəndəri tərəfindən Tehranda Osmanlı səfarəti və babialidə xariciyyə vüzarətinə bu xüsusda ibqalat verilib, cavab alınmışdır ki, baydaği-osmaniyyə təhətinə sığınanlar lazımınca himayə olunmalıdır.

Ən əvvəlcə soldatlar ordudan kənara çıxmamaq şərti ilə Acı* şəhər kənarındakı çadırlarından bayıra çıxmıyorlarmış. Bədən şəhərə daxil olub, təxliyeyi-silaha və təxribi-istehkamata məşğul olmuşlar.

Lakin bain həmə özlərini ədəblə aparmağa xeyli güc ediyormuşlar. Lakin bu axır günlərə dəsdirazlıq edirlər. Kiminin qabağına qıç qoymaq, kiminin rübəndini götürüb baxmaq və qeyri bu kimi işlər büruz ediyor ki, bu cəhət əhalini nəhayət dərəcədə nifrətləndirir. Hərgah bir qədər daha bu qayda və bu əxlaq ilə rəftar olunarsa, vəxim nəticələr gözlənilməlidir ki, bu da asayiş məramından xeyli uzaqdır.

*«Tərəqqi», № 116, 28 may 1909*

* Acı – Təbrizin içindən keçən çay adıdır

## XÜSUSİ TELEQRAFLAR

Təbrizə qəzetəmiz tərəfindən göndərilən xüsusi müxbir idarəmizə böylə bir teleqraf göndərmiş:

### Təbriz. Səttərxanla mülaqat

Bütün İrani-təmin yolunda tamam dünyaca şöhrət qazanmış olan, bu qəhrəmani-millinin ziyarətinə nail oldum. Fəqət böylə bir qəhrəman mal və canını təmin üçün bəstidə bulunurdu.

Mülaqatımız Osmanlı konsulxanasında vaqe oldu. Bağırxan ilə Səttarxan bir odada olduqları halda Sərdari-milli bizi qəbul etdi.

Sərdarın zahirini tərif etmək, məncə, əbəsdir. Zira bu surəti-bənami tanımayan bir nəfər tapılmaz. Fotoqraf o əksi-millini eynilə bütün aləmə nəşr etmiş və hər bir kəsə tanıtdırmışdır.

Sərdar qayətdə sadə və safdil bir adam olub, öz qüvvəyi-bazusinə kəmali-əmniyyətlə inan bir adam olduğu hər bir hərəkət və kövtəri ilə aşkar ediyor.

Nə üçün konsulxanada bəstə girdiklərini xəbər aldıqda böyük bir ürək ağrısı və ciddi bir tövr ilə:

– Mən vətənimin istiqlali yolunda bir il tamam çalışdım. Ölüm içində dirildim. Barıt tüstüsü udaraq, işi bu yerə çıxartdım. İndi əziz vətəndə bir işıq ucu göründüyü kimi, o doğma anam başqa bir həlakətə uğrayır. Asayiş hazırlamaq və rahətlik bərdavam etmək üzrə gəlmiş olan ruslar, hala bir hərəkəti-istilacuyanəyə başlamışlar ki, artıq vətənimizin istiqlalından qəti-ümid edir. Elan olunan əvfif-ümumiyyə inana bilmiyoruz. Zira, xaricilər hər kəsi istərlərsə, tutarlar, hər nə istərlərsə, edərlər. Məmləkətin hakimləri vəzifə almaq istiyorlar. İştə böylə bir halda biz nə qayıra bilərik? Artıq canbazlıq meydanına atılıb, müqatilə başlamaq işə keçməz. Çünki burası vətəni daha tez əldən verməyə səbəb ola bilər. Odur ki, biz də burada mütəhəssin olub, sülhə protestimizi bütün dövlətlərə bildirib, xaricilərin tezliklə vilayətimizdən çıxmalarını istəyirik.

«Mən artıq istərdim ki, bizim millət Osmanlı ilə yaxınlaşsın. İndi bu haldan bir dərəcə mütəşəkkirəm ki, bizi birləşdiriyor. Təmin almaq və bəstə girmək üçün doğrusu burasını müvafiq gördük. Zira, İslam məmləkəti və ümdəsi məşrutəli bir məmləkətin nümayəndəsidir.

– Budəfəki elani-məşrutiyyətə inanıyormusunuz?

– Məşrutə verilmişdir. Amma rusların bu hərəkəti bir çox şübhə və gümanlara yol açıyor.

– Rusiya qəzetələrində şahın Sizi Tehrana dəvəti xüsusunda yazılan xəbərlərin əsli varmıdır?

– Bəli, elə ki, məşrutə elan olundu, şəhər şadimanlıq etdi, mən də götürüb şaha bir teleqraf çəkdim. Məzmunu belə ki: bu vaxtadək qılınc çəkib, güllə atıb, var qüvvətlə çalışdım, məqsud ələ gəldi. Hala əgər izni-şahanə sadir olursa, bəndələri məşrutiyyətimizin səlamətinə əmin olaraq gedimdə, yenə öz rəncbərliyimə məşğul olum.



Bunun cavabında isə şah yazdı ki, sənin rəşadətlərin bütün düvəli-müəzzəmə arasında isbat olunub, nam və şöhrətin zihəqq olaraq bütün afaqı basmışdır. Heç rəva deyil sən indi gedib rəncbərlik edəsən. Lazımdır ki, burada millətə və dövlətə xidmət etmək üzrə olub, bizim dəvətimizi qəbul edəsən.

– Sizin evinizi partlatmaq barəsində buraxılan xəbərlərin əsli varmıdır?

– Mənim evimi heç kəs partlatmadı. Bu haman sursat qulluqçusu əlindən bir süstlük nəticəsi olaraq, od almış barıtın odlanmasından başqa bir şey deyildir.

Bu xüsusda mənim imzam ilə «Russkoye slovo» qəzetəsində bir məktub çap olunmuşdur.

Sərdar qayətdə qanı isti bir adam, hərəkəti xeyli cəlddir, danışığı çox ciddidir. Məşrutəpərəstliyi din dərəcəsində qəvidir. Bu adam məşrutə tərəfdarı olmaqda fanatizm ediyor. Bütün hərəkətini, vücudunu, zori-bazusunu millətə sərf etmiş olan bu adam özünün təkrarən bəyan etdiklərinə görə Nəcəf üləması hökmü-müqəddəslərinə tabe olub, onlar nə əmr edirsə, bir an təxir etməsizin icraya hazırdır.

– Rus və ingilis konsulları yanıma gəldiklərində: məşrutə sənin əlindədir – dedilər. Mən isə cavab verdim ki, siz böyük bir səhv edirsiniz, mən məşrutənin iti işli bir pasibaniyəm. Sahibləri isə Nəcəf üləmayi-əlamıdır. Onlar nə əmr edirlərsə, mən o saatdaca icraya hazıram.

**M.Əmin**

*«Tərəqqi», № 116, 28 may 1909*

## İRAN MƏKTUBLARI

### TƏBRİZDƏN

### Səttarxan, Bağırxan nə üçün bəstə getdilər

Keçən məktubumuzda Maku atlıları ilə olan müqatilə vaxtı və qeyri yolda ittifaq düşən davalardan naşi Culfa–Təbriz şose yolu zərərdidə olduğunu və bu zərərin konsulxana vasitəsi ilə istənildiyini xəbər vermişdik.

Yol idarəsinin israrı və rus konsulunun haman israr təhtində etdiyi iqdamata görə gərək bu zərərlərin müqabilində Səttarxanın mənqul və qeyri-mənqul əmlakı siyahı olunub tövqif edilə idi. Və surəti-siyahi daxi konsulxanaya verilə idi ki, bu cəhət iləridə onu ancaq dəvayi-irqini təmin edə biləydi.

Nəyə görə konsulxana ümumə və hökumətə racе olan bir məsələdə Səttarxanın şəxsini məsul tutsun. Burası bir qədər şübhəyə bais olmuyormu? Səttarxan, Bağırxan və qeyriləri artıq dərəcə şübhəyə salıb, onlardan səlbi-əmniyyət edən illət həman ümdəsi bu cəhət olmuşdur. İstiqlali-vətəni həlakətdə və pişvayani-milləti «xətərdə» hesab edərək, Osmanlı konsulxanasına mütəhəssin Türkiyə məclisi-məbusanəsinə ariz olub himayə istəmiş və öz can və mallarına əmniyyət hasil etmək üzrə Osmanlı baydaği-məşrutəsi altına sığınmışlardır.

Qaidеyi-beynəlmiləlа müvafiq olaraq, Osmanlı konsulxanası mütəhəssinlərə himayət edir. İran hökuməti və rus konsulxanasına yazdığı rəsmi bir məktubda ixtar etmişdir ki, Səttarxan, Bağırxan və qeyri şəxslərə məxsus əmlaki-mənqulə və qeyri-mənqulə təhti-təmində olduğu kimi bu adamların canları da Osmanlı baydağının himayətindədir.

Bunlara aid hər bir hesab və mütalibat varsa, gərək müstəqimən Osmanlı konsulxanasına gəlsin də konsulxana vasitəsilə həll olsun.

Rus konsulxanası tərəfindən bu ixtarnaməyə cavabən yazılan kağızda deyilir ki, «biz Osmanlı konsulxanasında mütəhəssin olanları iranlı təbəəsi tanıdığımızdan vəqti-lüzumunda onlara nisbət əlaqəmizi iranlı təbəəsi nöqteyi-nəzərindən icra edəcəyiz».

Məlumdur ki, bu kağız aşkara rəsmi surətdə demirsə də, zəbanihal ilə andırmaq istəyir ki, Osmanlı konsulxanasında ki, icra olunan bəsti, guya, qəbul etmiyormuş.

Bu cavab Osmanlı nümayəndəsi tərəfindən nə yollu tələqqi edilib, iş nə surətlə xitampəzir olacağını gözləməlidir. Hər halda bu cəhət layiqi-əhəmiyyətdir. Zira, Səttərxanın mütəhəssin olmasına da əmdən[1] illət budur.

### Ruslar nə vaxt çıxacaqlar!

İştə məsələ ki, bütün əqilləri işğal ediyor. Hələ bu fikri bir mühüm hesab edib, bilmərrə çıxmayacaqlar fikrində olanlar da vardır. Lakin böylə bir fikirdə olanlar az deyildir. Qayət ziştbin olan ifratpərəstlər və ürəkdən rusların qalmasını sevən bəzi adamlardırlar. Etidali-dəm ilə məsələləri tədqiq edib və İranın səadətini, istiqlaliyyətini ifratda və təfriqətdə deyil, etidal və miyanərövluqda görənlər firqəsi yəqin etmişlər ki, ruslar İranda olmayacaqlar, çıxacaqlar. Lakin bunları təşvişə salan məsələ nə vəqt və nə surətlə çıxacaqlar məsələsidir.

Qoşunun verdiyi vədə və elədiyi şərtə baxılırsa, yaxın bir zamanda çıxmalıdırlar. Zira, rus ordusu Azərbaycanda asayişi-sabiqə övdət edincə qalmalıdır. Hala ki, asayiş bərdəvamdır. Öylə bərdəvamdır ki, bəzi

[1] əmdən – qəsdən, açıqcasına



iranlılar qayətdə fəhimanə dedikləri kimi Rusiyanın özündən daha artıq bərqərardır.

Amma qoşun rəyasətinin etvar, əhval və hissiyyatlarına və elədikləri iqdamata baxılırsa heç köçəri adama oxşamıyorlar. Sükunətə, iqamətə hazırlanan kimi görünüyorlar. Acı çayının kənarında soldatları islah üçün kazarmalar hazırlıyorlar ki, tez ikən getmək fikrində olan bir qoşunun tələşına bənzəməz. Həman bu kazarma məsələsi şəhrə bir küy salmışdı ki, ruslar bizim səngərlərimizi uçururlar. Amma özləri odur çayın qırağında şəhərə qarşı sərgərbəndlik ediyorlar.

### İngilislər niyə dinmiyorlar?

İngilislər Azərbaycan məsələsində rusların müdaxilələrinə kəmali-müvafiqət göstərib, hətta bir dərəcə təşviq edir kimi cilvələnirlər.

Bu cilvələr ingilis konsulunun «heyf ediyoram ki, bizim hökumət Azərbaycana səhl baxır» təbiri kimi politikalara pərdə çəkirlərsə, dinmədiklərini ki, gizlədə bilməzlər. Bu xüsusda müxbirinizin bildiyi və bir dərəcə məhəllində təhqiq edib istinbat etdiyi bir vəchi-atidir:

Məlumdur ki, bütün bu davalar İranı bir bazar qayırıb təhti-nüfuza almaq üstündədir.

Bədbəxtanə bizim üsuli-idarəmizin təbiətindən naşi nüfuz qazanmağı cəngi vasitə və qamçı, kötəklər vasitəsilə anlıyorlar.

Hökumətimiz o yolda hərəkət ediyor.

Azərbaycan məlum rus nüfuzu altındadır. İngilislər burada bir o qədər dövran etməzlər. Onların hissəsi İranın cənub tərəfidir. Şimalda dəxi bir tövr eləməlidir ki, bazar ələ keçsin. Bundan ötrü də rusları Azərbaycana daxil edib, onların hərəkatına hüquqşikənlik ruhu verdirib, bu surətlə xalqın nifrətlərini artırıb, nəticə olaraq, malüt-ticarələrinə qarşı dəxi bir ədavət törətməyə öz mətain yeritməkdir.

Ruslar biçarə və naəlac qalmış və vətən, məşrutə, hüquq, mal kimi şeyləri öylə hissiyyati düşünməyən kəndistan və avam əhaliyə öz vürudi ilə sakitlik verdiyindən nüfuzi-təmmə qazandı. Və bu nüfuz sayəsində bazari-iqtisadda rəqabət edə biləcəymiş. Halonki malüt-ticarəni işə verən tüccar qismidir ki, məşrutənin ən dərrakəli tərəfdarəni bunlardırlar. Bunlar isə həman üç yüz kazak ilə əmələ gələ biləcək bir iş üçün 3 min kazak soldat töküb, bəzi hərəkətlərdə bulunmadan təşvişə düşmüşlər. Və ruslar xüsusunda bəzi fikirlərə düşmüşlər ki, bunu ələyinə dəxi bildirmək üzrə bəstə girib, fəryadlarını Osmanlı məclisi-məbusanına kimi ucaldırlar.

İngilislər isə hələ dayanırlar ki, narazılıq bir az da çoxalsın. Ruslar bir az da bərkitsinlər, tainki, hal-hazırda müşahidə olunan baykoti-xəfi rəsmi bir surət alsın da, rus kursu bilmərrə batıb getsin və bütün dostluq-

ları həman mənafeyi-tüccariyyədən ibarət olan ingilislər də öz etilafla-rının səmərəyi-mənzurələrini görsünlər.

İşin batini qismi böylə ikən, əməli cəhəti dəxi özünü göstərməkdədir.

Hacı Zeynalabdin Tağıyev fabrikasının nümayəndəsi yanıma gəlib, gözünün qorasını sıxar dərəcədə şikayət ediyor, aman evimiz yıxıldı – diyordu.

İranlılar nə isə rus malına baxmıyorlar. İngilislərdən alıyorlar. Arşınına 3 qəpik keçirəmsə də alan yoxdur.

Təbriz tüccarları içində Moskva fabrikalarına borclu olanları təxmin etsəniz borc 3 milyon manata baliğ. Onların bir çoxu bu borcları verməк xəyalində olmayıb, ingilis firmalarına rücu etmək istiyorlar.

Bir neçə nəfər rus tacirləri və rus firmalarının nümayəndələri ilə görüşdüyüm vəqt irəlidə rus malüt-ticarəsinə qarşı bir baykot çıxmaq ehtimalından qorxduqlarını bəyan ediyorlar.

Hərgah bizim üsullu diplomatlarımız buna nail olarlarsa, o vaxt ingilislərin dinmədiklərinin səbəbi daha aşkar olar.

**M.Əmin**

*«Tərəqqi», № 117, 29 may 1909*

## İRAN İŞLƏRİ

### İRAN MƏKTUBLARI

### Vəzi-siyasi

Rus qoşununun hüzuri təbrizliləri o dərəcə aludə etmiş ki, bütün zehnləri bu məsələyə məşğul olub başqa mühüm məsələlər, elə məsələlər ki, onun həlli ilə məmləkətin həyat və məmati təyin edilir, qeyri-məhəll qalıyor da hər dəqiqə, hər anda bir qədər fədakarlıqlarda bulunmuş əhrari-tərəddüddə saxlayır.

Bütün qəzetələr vasitəsilə elan olunmuş rus və ingilis şərtləri ki, bu maddələrdən ibarətdir, neçə gündür ki, bura əncüməni və başqa inqilab dairələrini təlaşa salmışdır. Bu maddələrin cümləsindən olan:

1. Qanunların dövlətin kontor dilində olub, onların təcvizi[1] olmazsa, nəşr edilməməli;
2. Maliyyənin dövlətin kontor dilində olması;
3. İmtiyazatın onların təcvizi ilə verilməsi.

Maddələri əhalini xeyli məyus edib və neçə illik zəhmətlərini bada getmiş kimi görən camaat artıq bir təlaşa düşüyor.

[1] **təcviz** – icazə



İranlılar bu maddələr xüsusunda deyirlər ki, filhəqiqə bu maddələr istiqlali-məmləkətə vurulan bir tökmədir, onun cəbrindən xilas olmaq üçün sənələr lazım, fədakarlıqlar olmalıdır ki, İranın tamamiyyəti-mülkiyyəsi geri qayıtsın.

Əvət, bu maddələrlə bərabər, İran hənuz bütün-bütünə olaraq, daireyi-mülkiyyətini itirməyib, bir İran olaraq qalıyor. Olsun ki, hələ rus və ingilis lələ kimiləri sayəsində bəzi ərbabi-siyasətin fikrincə tərəqqi etsin. Məktəblər, yollar, kompaniyalar təşkilini görsün.

Lakin bunlarla bərabər istiqlalından dəxi gərək göz çəksin.

Zira istiqlali-mülkü təmin edən qoşun İranda yoxdur. Maliyyəsi və nəşri-qəvanin nim müstəqil qalmağını istəyən iki qonşusunun kontrolu altında olan bir millət təbiidir ki, mükəmməl bir qoşun hazırlaya bilməz. Yəni hazırlamağa qoymazlar.

İştə bu xəbəri təhqiq etmək üzrə dünən sübhdən axşama kimi teleqrafxanada oturub, Tehran ilə müxabirədə olan əncüməni-əyaləti bu məsələni həll ediyordu.

Tehrandan cavab vermişlər ki, bu məvaddın[1] əsli yoxdur, hamısı yalandır. Qəzetələrin nəşr etdikləri xəbərlər, guya, əsilsizdir, öylə bir şey yoxdur.

Lakin polismeysteri Lyaxov olan Tehrana inqilabçılar məşrutəçilər kəmalınca inanmıyorlar.

Axtarsanız bir dərəcə məşrutənin özündən dəxi şəklidirlər. Zira, baxınız, məşrutəli bir məmləkətdə Lyaxov polismeysterlik ediyor.

Əmirbahadiri-cəng, Şeyx Fəzlüllah, Müşirüssəltənə, Eynüddövlə, Rəhim xan və qeyriləri azadə gəziyorlar.

Amma Sərdari-milli Səttarxan, Salari-milli Bağırxan və bir çox Təbriz cannisarani-hürriyyəti bəstnişin olub, öz azadlıqlarından mütməin[2] ola bilmiyorlar. İştə bu inanmadıqlarındandır ki, həman bu «təsəlliamiz» cavaba cavab olaraq, bir teleqraf daha çəkmişlərdir ki, bu teleqrafda cavabdan məşkük[3] qaldıqlarını bildirmişlərdir. Bu teleqrafda deyilirdi ki:

«Hərgah məmləkətimizin istiqlalını təhti-həlakətə alıb, üç ildən bəri elədiyimiz mücahidati zaye edib[4], həm millətə və həm dövlətə peşimanlıq verəcək bu məvadd mövcud isə, yaxşıdır ki, birdən gizlətməyib, indidən deyəsiniz, tainki, fürsət etməyincə sizli-bizli əl-ələ verək də çarəsinə çalışaq.

Yoxsa böylə bir şeyi sitr[5] edənlər irəlidəki məsuliyyəti-ümumiyyədən yaxalarını qurtara bilməzlər».

[1] **məvadd** – maddələr
[2] **mütməin** – arxayın, asudə
[3] **məşkük** – şübhəli, şəkkli
[4] **zaye etmək** – korlamaq
[5] **sitr** – pərdəli, örtülü

Sepəhdarın Təbriz əncüməninə çəkdiyi teleqrafdan görünür ki, Rəştdə övzai-haliyyə tərəddüddədir. Bəlkə, daha artıq Tehranın səmimiyyətinə bilmərrə inanmıyor. Teleqrafda Təbrizə xəbər verir ki, bütün əyalətlər teleqraf ayağına cəm olsunlar da hali-hazırı müdafiədə bulunub, mübadileyi-rəydə bulunsunlar ki, bəlkə, müttəhid müttəfiq buraya gəlsinlər. Ciddi bir iqdam etsinlər.

Teleqrafxanalara yığılmaqda nəsə hər əyalət birər vəkil seçib göndərər və inqilab əyalətləri arasında bir mərkəzi-inqilab əmələ gətirirlərsə, daha müvafiq olacağını burada qəbul ediyorlarsa da, məəttəəssüf, İranın bir surəti-əvvəliyyə ilə məişət sürdüyündən, guya, belə orqanizasiyonun təşkilinə vaxt müsaidət etmiyor imiş. Zira, hər nə iqdamat olunmalı isə beş gün sonraya kimi edilib, on gün sonra qurtarmalıdır. Hal böylə ikən heyəti-müttəhidənin bir yerə yığılması heç on beş gün sonraya kimi də mümkün ola bilməyəcəkmiş. Adətən, İranda hər bir iş təbiəti-şərqidən olaraq, nəhayət, bir siqlət ilə görülür.

### İntixabat məsələsi

45 gün sonra darüşşurayi-milli açılmalıdır. Elan olunan dəst-xətt mövcibi ilə rəcəbin əvvəlində məclisin açılacağı bütün İran məmalikinə xəbər verildiyi hər kəscə məlumdur.

Fəqət 45 gün sonra bu məclis felən açıla biləcəkmi?

İştə ümumin zehinlərini məşğul edən məsələ!

Nizamnameyi-intixabat hənuz elan olunmamışdır. Nə vaxt elan olunacaq? Diyorlar ki, bu yavuqda. Fəqət İran yavuqu onda da Tehran malı bir dərəcə şöhrətini qazanmış mətadəndir. Artıq danışıq lüzumi yox.

Tutarıq ki, hələ bu gün nizamnameyi-intixabat elan olundu bitdi. Bu nizamnamələr məmləkətin hər yerində nəşr olunsun, hər yerdə bunu oxusunlar, qansınlar, intixabə başlasınlar, seçsinlər. İrandakı türuq[1] və məabirin[2] çətinliyi, tərtib və tənzimatın bilmərrə füqdani bir ləhzə nəzərə alınırsa, 40 günə bu qədər işin başa gələ bilməməsi hər kəsi düşündürüyor. Güman ediyorlar ki, məclisin intixabatı təxir edilsin.

Təxir!..

Bu qədər şəklərlə, bu əndazə tərəddüdün, bu dərəcə inanmamazlığın üstünə bir də təxir gəliniz o vaxt övzai təsəvvür ediniz!..

Görünür ki, bir bətaləti-tehraniyyəyə qapılmış olan intixabat heyəti buranı heç diqqətə almıyor. Nizamnameyi-intixabati nəşr etmək yolunda heç tələsmiyor, haman qəlyan xorultusu ilə işləməkdən əl çəkmiyor.

[1] türuq – yol

[2] məabir – keçidlər, körpülər



Əvət, intixabat heyəti qələm cızıltısından çox qəlyan xorultusuna alışdığından əzhani[1] – ümumiyyəyi dəxi dumanlaşdırır, hər tərəfdə «bəs hanı nizamnameyi-intixabat» – deyə suallar, iradlar qalxır.

Hələ nizamnamənin əsas və üsulunu bir mülahizə ilə təxmin edən əhali öz narazılığını da büruzə veriyor.

Böylə bir aram və tanı ilə hazırlanmaqda olan nizamnamə mövcibincə intixabat əsasına bir ləyaqəti-maliyyə daxil edilirmiş ki, 300 tümən vergisi olmayanların, guya, seçkidə həqləri olmayacaqmış.

Bu cəhət bir çox məşrutəçiləri məyus ediyor. Zira, həqiqi məşrutəçilərin bir çoxu bu ləyaqətdən məhrumdurlar. Füqərayi-əhaliyə mənsubdurlar. Ona cəhət də parlamanın əksəriyyəti mazipərəstlər ola biləcəyindən təvəhhüş[2] ediyorlar. Və bir çox başqa xəbərlər nəşr ediyorlar ki, bunların həmısına səbəb haman təxir, haman səngirlik, haman ehmalkarlıqdır ki, hər bir işdə: xüsusən cəbr ilə boyunduruğa gedən Tehranda müşahidə olunur.

Nəhayət, əncüməni-əyaləti Tehrana çəkdiyi rəsmi bir teleqrafda «nizamnameyi-intixabat harada qaldı?» – deyə xəbər alıyor. Cavab nə gələcək isə bu gün gözlənir.

### Azərbaycanın vəzi

Ətrafdan gələn xəbərlər Azərbaycanın bəzi nüqatında şuluqluq olduğunu bildirirlər.

Rəhim xan atlılarını götürüb Qaracadağa çəkilmiş və orada adəti olan hərzəliklərdən çəkinmiyor.

Sabiq Təbriz imamcüməsi olan ruhani isə başına bir dəstə cəm edib, Heştərud* tərəflərində qarət ediyor. Təbrizdə kökünə kimi dağılmış olan evinin intiqamını əl-ayaqsız, silahsız, köməksiz biçarə kəndçilərdən almaq istiyor. Rəvayətlərə görə, imam həzrətləri özləri dəxi tüfəng götürüb, qatar salıb «cihad» ediyorlar.

Urmiya tərəfində dəxi bir intizamsızlıq olduğu zənn edilir. Dünən oradakı tüccardan bir teleqraf alınmışdır ki, «nəqli-əmvali mövquf». Bu xəbər oranın şuluq olduğuna bir işarə isə də rəsmi bir xəbər yoxdur.

### Tehran əks-sədaları

Tehrandan buraya yazılan xüsusi məktublardan anlaşıldığına görə Şah köçüb Səltənətabaddadır.

Xaricilərdən aldığı 100 min lirəni yeyib və istirahət ediyormuş. Lakin bu istirahət vəziri-cəngdən bixəbər qurxananın[3] Səltənətabadda gizli olaraq həml və nəqlini icab ediyormuş.

[1] əzhan – zehinlər

[2] təvəhhüş – vahşətə düşmə

* Heştərud – Cənubi Azərbaycanda mahal adıdır – *Ş.H.*

[3] qurxana – cəbbəxana, silah anbarı

Xaricə vəziri Səduddövlə, Müşirüddövlə, Mötəmədülmülk və qardaşı xaricipərəstlik ediyorlarmış.

Şəhərdə bir çox inqilab hazırlıqları mövcuddur. Qəzvin orduyi-hürriyyətinin müqəddəmətül-ceyşi[1] dəxi Tehranın yaxınlığında imiş. Tehranın dövrəsində dəxi inqilabçılar yox deyildirlər.

İştə, Tehran əhatə olunub – deyə teleqrafların verdiyi xəbərlər bu cəhətləri böyüdüb, sensasiya qayırırlar. Yoxsa rəsmi bir əhatə yox və o xəbərlərdə verilən ultimatumlar isə heç yoxdur.

Məmləkət asayiş və əmniyyətə talibdir. Lakin bu asayiş və əmniyyətin öz qüvayi-milliyyəsi sayəsində başa gəlib, istiqlalının məsun[2] qalmasını hər bir şeydən əvvəl istər.

Təbriz
**M.Əmin**
*«Tərəqqi», № 119, 1 iyun 1909*

## İRAN İŞLƏRİ

### İRAN MƏKTUBLARI

### TƏBRİZ

#### Əncümənin ərzi-halı

Təbriz əncüməni rus qoşununun Təbrizə vüsuli və Təbrizdə icra etdiyi işlərə dair 35 fəsildən ibarət bir ərzi-hal tərtib edib, rus konsuluna və cümlə qeyri-dövlətlər nümayəndələrinə təqdim etmiş, ərzi-halın müxtəsəri bundan ibarətdir:

1) Rus qoşununun İrana gəlmək səbəblərini təhqiq etmək və bu xüsusda Tehran ilə müzakirə etmək üzrə bu qədər möhlət almaq üçün əncümən tərəfindən təyin olunan 3 nümayəndə ingilis konsulunun hüzurunda rus konsulundan söz almışdılar ki, 3 günə kimi qoşun şəhərə daxil olmasın. Və halənki haman əvvəlinci gün 200 nəfər soldat biduni-illət və səbəb[3] şəhərə daxil oldular.

2) Rəbiəlsaninin 19-da Bəsirüssəltənə evinin damında duran qarovulçu soldatın əlinə haradan olduğu məlum olmayan bir güllə dəydiyindən haman evdə olan soldatlar mülahizəsiz olaraq hər tərəfə güllə atmağa başlayıb, ətrafı tirbaran etmişlər ki, bu əsnada güllələrdən biri Hacı Sadıq Kərbəlayi Bağır oğluna dəyib, onu oradaca öldürmüşdür.

3) Rəbiəlsaninin 25 və 26-dan bəri soldatlardan bəziləri qeyri-məmul libaslarla tüfəngsiz olaraq jandarm şəklində qəmə və tapança hamil olduqları halda bəzi evlərin qapısında və küçələrdə dururlar.

[1] **müqəddəmətül-ceyş** – ordunun ön dəstələri
[2] **məsun** – qorunmuş
[3] **biduni illət və səbəb** – heç bir əsas və səbəb olmadan



4) Əmir Xosrov və Rasta küçədə soldatlar arvadlara mütəərriz olub, rübəndlərini açıb təkdir ediyorlar.

5) Rəbiəlsaninin 22-də hökumət tərəfindən car çəkildi ki, ta zöhrə[1] kimi hər kəs gərək tərk-silah edib müsəlləh surətdə küçəyə çıxmasınlar.

Lakin zöhrə saat yarım qalmış soldatlar küçə və bazarda kəmali-cəbr və etiramsızlıqla silahları almağa və dükanları gəzməyə başlamışlardır.

6) Haman gün Mərənd, Xoy, Səlmas və Urmiyəyə gedib, əncümən tərəfindən sülh və əmniyyət bərpa etməyə məmul olan heyəti məbusanın məiyyətində[2] olan nəzmiyyə süvariləri əncüməndə vida mərasimi icra olunduğu vaxt konsulxanadan və general Starskidən əllərində olan silahı gəzdirmək barəsində olan icazənamələrə baxmayaraq, haman əncümən həyətində tərk-silah etdirdilər.

7) Haman gündə 100 fişəngə yaxın Ağa Seyid Məhəmmədin malı və bir qəbzə[3] tüfəng Ağa Bozörgün malı və bir qəmə Abidinin malı bazar içində sahiblərindən alınıb onların dükanlarından zəbt olunmuşdur.

Abidin dəllalı, hətta qətl ilə hədələnmişdir.

8) Soldatlar bəzi övqat Avropa məhəllələrinə mərbut olmayan içəri müsəlman məhəllələrində görünürlər.

9) Ermənistanda* şəhərin nəzmiyyəsi olduğuna baxmayaraq, soldatlar elektrik fənərləri ilə bərabər, dəstə-dəstə gecələr oraları gəzirlər.

10) Soldatlar küçələri gəzdikləri vaxt baqqal, xuşkabar[4] yaınki, başqa yeməli dükanlarına çatırlarsa, naxunək vururlar.

11) Rəbiəlsaninin 26-da rus kazakları atlarını elə bir sürətlə sürürlərmişlər Kol qəbiristanlığı tərəfindən bir lal qoca kişini basıb elə əzmişlər ki, biçarəni güc ilə mərizxanaya gətirə bilmişlər.

12) Rəbiəlsaninin 24-də soldatlar generalın hökmünə müvafiq Xiyaban məhəlləsinə gəlib, səf çəkib damların üstə çıxıb və çörəkçi dükanının üstünə bir top çıxarıb Bağırxanın evi ilə rubəru qoymuşlar. Və iki başqa topu dəxi küçə içində qoyub, səngər və istehkamatı dinamit və külüng ilə dağıtmağa başlamışlar. Və səngərləri dağıdan zaman teleqraf simini də qırmışlardı.

13) Polis raportlarına nəzərən soldatlar kəndçilərə mütəərriz olub, onların papaqlarını yırtıb məsxərə ediyorlar.

14) Rus konsulu şəhər hökumətinə rəsmi mürasilə[5] yazıb, İmadülislam və İntizamülmülk nam İran təbəələrinin himayəti-rəsmisini müta-

[1] **zöhr** – günorta
[2] **məiyyət** – yanında olma
[3] **qəbzə** – dəstə, bir az
* Ermənistan – burada Təbrizdəki erməni məhəlləsi nəzərdə tutulur
[4] **xuşkabar** – quru meyvə
[5] **mürasilə** – məktub, göndəriş

libə edir. Bu bəhanə ilə bunlar Peterburq İran səfirinə mənsub olduqlarından müşar ileyh onların himayət olunmalarını xəvaric vüzarətindən istəmişdir. Bir halda ki, onlara heç cani və mali xətər yetişməmişdir. Və səfiri-məzbur[1] özü əncümənin sual-teleqrafına cavab olaraq, belə bir xahişi inkar ediyor. Və deyir ki, belə bir xahişi məhz vaxtında onlara azuqə verməK və quti-layəmut[2] tədarük etmək xüsusundadır.

15) Rəbiəlsaninin 23-də yenə də rus konsulu bir mürasileyi-rəsmi yazıb Nəvidülmülkün adamları və əhli-xanəsindən İran vəziri-xaricəsinin xahişini iddia edərək, riayət etmək istəmişdir. Halonki vəziri-xaricə Səduddövlə əncümənin teleqrafına cavabən bu babda sərahətən[3] deyir ki, belə bir şey olmamışdır. Ancaq bir çox müddət bundan qabaq dava vaxtında belə bir sifariş olmuşdur. Və teleqrafın eyni dəxi vüzarəti-xaricədə saxlanılmaqdadır.

16) Rəbiəlsaninin 24-də general konsuli-rus özünün rəsmi mürasiləsi həsəbinə şəhər hökumətinə izhar ediyor ki, hökuməti-şəhr və rüəsayi-milli gərək Basmınc qəryəsi və Nemətabad və Təbrizdən bu iki qəryəyə gedən mühacir barəsindəki əvvələn rus təbəələridir və saniyən konsulgərinin yaylaq bağı orda vaqedir. Himayət edib, onların hamısını konsulgərinin himayəsində bilib, əbədən olaraq mütəərriz olmasınlar və qoymasınlar ki, bir adam şəhər və ətraf şəhridən olsun, o iki qəryəyə müsəlləh olaraq getsinlər. Və əgər bu iki qərya əhalisindən müsəlləh olanları varsa, onları tərk-silah etsinlər. Və illa bunun məsuliyyəti şəhər işlərinin böyüklərinin öhdəsinə olacaqdır.

17) Rəbiəlsaninin 25-də general konsulgəriyi-rus mürasileyi-rəsmisi mövcibi ilə hökumətin zəxirə və qorxanası mühümmatından xəbər bilmək istəyir. Bu yol ilə ki, tamam şəhər səngərlərini dağıtmaqda təkid etdikdən sonra sual ediyor ki, aya hamı səngərlər xarab olunmuşdur? Yainki tətimməsi qalmışdır. Aya topları Ərkə[*] çəkmişlər? Və Ərkdə neçə top vardır.

18) Pənçşənbə rəbiəlsaninin 22-də soldatlar öz-özlərinə şəhər hökumətindən xəbər olmamış və idareyi-nəzmiyyə bilməmiş konsulgəri-rus Poluacı ordusundan rus konsulxanasına telefon çəkməyə şüru edib xeyli biqaidə hərəkətlər götürüb, nərdivan alıb, müsəlman damlarına çıxmışlar və arvad-uşaqları qorxuzmuşlar. Və xalqın damları üstünə izin alınmamış tel sütunları vurmuşlar.

(mabədi var)

Təbriz
**M.Əmin**
*«Tərəqqi», № 121, 3 iyun 1909*

[1] **məzbur** – adı yuxarıda çəkilmiş
[2] **quti-layəmut** – daimi yemək
[3] **sərahətən** – açıqcasına
[*] **Ərk** – Təbrizin mərkəzində qaladır.



## YOL TƏƏSSÜRATI

Mərənd...

Nə gözəl, nə şairanə bir bucaq!.. Qovaqlar uzanaraq, asimanə baş qalxızmış, meyvədar ağaclar böyük bir vüqar ilə fikrə dalmışlar.

Hər yanda, hər tərəfdə sulardır, axıyor. Nə gözəl sular, nə şirin bulaqlar təbiət burada tamam etmişdir. Bir neçə sənət çatmıyor ki, bura da Qafqazın Kislovodskisi kimi məşhur olsun. Artıq lüzum yoxdur. Bir müxtəsər təmir ilə bura olduqca şöhrət tapa bilər. Zira, İranda cüzi bir şey ilə gələn şöhrət qazanmaq asan şeylərdəndir.

İran məşhurlarının bir çoxu baxarsan ki, heç şöhrətə müvafiq fəzli və ləyaqəti yoxdur. Bu bərbad ölkə, bu biçarə vilayət o dərəcə möhtaci-mədəniyyətdir ki, qeyri məmləkətlərdə ən alçaq və adi hesab olunan bir fəzl burada zəka və düha qələminə keçiyor.

Şose yolu nə şeydir! Rusiyada, Avropada buna kim əhəmiyyət veriyor? Amma baxınız, yolsuz İranda həman şöhrət və nüfuz qəsdi ilə hazırlanmış bu yollar nə rollar oynayır!..

İştə bizi yol uzunu rus əfsərləri və soldatlarının təftişi və təcəssüsünə salan bu yol idi.

İştə bu gün təbrizliləri xarici müdaxiləsi ilə diltəng edən bu yoldur!..

Günəş hənuz batmamış idi ki, Mərəndə çatdıq!..

Poçt gecə qalmalı idi. Səhər durub yola düşmək üzrə poçtxana cünbində vaqe iki mərtəbədə bir nömrə tutub dayandıq.

Nömrənin pəncərəsi qabağında gecə aydınlığında gəl də Mərənddəki bu mənzəreyi-dilgüşayə tamaşa et!

Bax, qabağında asimanə baş çıxartmaqda olan qovaqlar, o aradakı qarlı dağdan gələn nəsimə mülahizə edərək də nə tövr xoşlanıyor.

Ay işığına düşən yapraqlar ipək rəngi çaldıqda o xışıltılarda nazənin bir sənəmin aşiqanə elədiyi mülahizələri zəmani-hərir libasının zərif səsinə bənzəyir. Özgə aləmdir. Ruh veriyor.

Bir də nəzərinizi alın ipək yapraqlarını öz işvəkarlıqlarına buraxın da pəncərəniz altında olan dəryaçaya baxınız. İştə asimanda buraxdığınız ay burada qovaqların saldığı kölgələr arasında olaraq, havadakı mənzərəni qopiyə ediyor!.. Buraya baxdıqca fikrə dalıyorsunuz. Valeh oluyorsunuz. Elə bil ki, Bakı sirkində oturmusunuz da «Leyli Məcnunə» qulaq asırsınız.

Məşhur bir musiqanın nəvaxtından[1] daha artıq həzz verən bir şırıltı eşidiyorsunuz, ruhlanırsınız. Qərib bir şaqqıltı-şırıltı ilə sakitanə dörd ədəb səfləri qurmuş ağaclara əks-səda verən saflı rəngli bir suyun dəryaçaya töküldüyünü görüyorsunuz, valeh oluyorsunuz.

[1] **nəvaxtından** – çalğısından

Burada fikriniz daha da artır, xəyallanıyorsunuz. Ürəyinizdən nə keçiyor? Çox şeylər!

Ah, əgər bu təbiət, bu hava, bu şətarət[1], bu səfa, bu məlahət, bu səda Bakıda olaydı, yaxud Bakı burda olaydı!..

Olsun ki, Samurdakı incinarlar buranı tanımıyorlar. Yoxsa şəhər idarəsinə vermək üçün də bir layihə hazırlamalarını gözləmək olardı!..

Bu surət ilə əslən olmasa da, kağız üzərində Bakıya gözəl bir su aparılmış olar.

Amma Bakını buraya gətirmək üçün iqdam olunmamış deyildir. Məmləkətin hər bir bucağını deyil, Bakını Paris kimi abad etmək istəyən mücahidlərin bombası, həman abadlıq düşməni, sənət ədusi[2] olan Şücai Nizami – reaksiya nümayəndələrindən ən qəddarını, burada dağıtmışdır. Posta ilə gələn bir cəbənin[3] partlayıb, həman təbiətin lətafəti qədər heyrət verən bir təsir buraxmış və tərəqqi müqabilinə durmaq mümkün olduğunu hər kəsə bildirmişdir!..

İnsanı heyrət alıyor, məhbut qalıyor, bu qədər gözəl bir təbiət içrə niyə gərək insanlar bir dərəcə çirkin dolansınlar.

Əcəba, hər bir şeydən mübərra olub, lovğa-lovğa baş qalxızan qovaq ağacı zülm altında əyilən o əsir gərdənləri görmüyormu?

Əcəba, bu camaat həman fikrə dalmış olan meyvə ağacları kimi bir ləhzə öz məişətlərini düşünmüyorlarmı?

Hansı səadəti qoruyor da təbiət bu qədər bir şadlıq ediyor? Olmaya insanların iczindən[4] şadlanıyor, özünü qalib hiss ediyor?! Xeyr! Xeyr! Gözəl təbiət məharətli sənətlə düşmən olamaz. Bunların biri aşiq, biri məşuqdur. İştə bu gözəl məşuqə məharətli bir aşiqi istiyor. Onu da Mərənddə tapmadığı üçün gərdənkeşlik[5] ediyor da sevmədiyi aşiqə, daha doğrusu, qədrini bilməyən zövqsüzə təslim olmaq istəmiyor. Ona məsxərə ediyor. Təkəbbür satıyor. Gözlüyor ki, onlar da vüsalə zihəqq ola biləcək bir məqami-məharət və lətafətə gəlsinlər. Tainki izdivac hər iki tərəfin meyli və rəğbəti ilə olub, tənasüli-şəri əmələ gəlsin. Aradan tövlid edəcək[6] mənafeyi-ümumiyyə naqis və məyub[7] olmasın, tamam və təkmil olsun.

Öylə suyun, o həzin-həzin gələn şırıltı səsi zümrüd yaprakların, o lətif xışıltısı, həmana Mərənd qafillərini daimülövqat çağırırlar ki, artıq qəflətdən ayılıb, bir çox rəqiblərin gözü olan bu nazənin təbiətə ər olmaq ləyaqətinə özlərini irişdirsinlər!..

Fəqət dil anlayan, söz qanan gərək!

**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 122, 4 iyun 1909*

[1] **şətarət** – şənlik
[2] **ədu** – düşmən
[3] **cəbə** – qutu
[4] **icz** – acizlik
[5] **gərdənkeşlik** – inadkarlıq
[6] **tövlid etmək** – doğulmaq
[7] **məyub** – eyibli



## İRAN MƏKTUBLARI

### YOL TƏƏSSÜRATI

#### Təbrizdə...

Qəhrəman Təbriz də bir il tamam mübarizə edib, axırda rus qoşunlarının cövlangahı olub, istiqlalına, istiqbalına həzin-həzin baxan, səadətini şəklər içində, gələcəyini qaranlıqlar arasında, iranlılığını təzəlzüldə[1] görən Təbrizdə seyr edən bir səyyah eşitdiyi rəvayətlərlə gördüyü rəvayətləri müqabilə edərsə, qərib bir müvazinə görünür.

Toplar gurultusu, tüfənglər şaqqıltısı altında qalıb Rəhim xanın vəhşi atlıları, Səməd xanın hücumları Eynüddövlənin qəddarənə hiylələrinə müqabilə edən Təbriz hər qisim məşəqqətlərə, hər növ əziyyətlərə dözüb rəşidanə bir surətdə daxili düşmənin mühacimətinə qarşı müdafiədə bulunur imiş. Öylə bir müdafiə ki, yonca yeməklə hasil olur. Öylə bir müdafiə ki, barıt tüstüsü udmaqla təkmil olunur, öylə bir müdafiə ki, bomba partıltısı, top gurultusu, tüfəng sədası, yetim uşaqların, dul övrətlərin ah və nəvası ilə başa gəliyormuş!

Böylə bir faciənə mühasirənin asari nə əndazədə müdhiş olduğunu həmana göstərməkdədir!..

Şeşgilan məhəlləsinə keçirsiniz. Bir xarabazar görürsünüz. Evlər ta binasına kimi dağıdılıb, daş-daş üstə qalmamışdır. Xiyabandan ötürsünüz. Şəhərin ən gözəl küçələrindən olub, Təbrizin bütün bir rəng və surətlə bombozaran qara palçıq divarlarına bir ibrət və dərs olmaq üzrə köhnəliyə intəha qoymaq istəyən avropaməab bir küçənin büsbütün irtica oduna yandığını insan görüncə, ürəyi yanar.

Şəhərin ən gözəl bir yerini yandırmışlar, gözünü çıxartmışlar.

Şəriətməablıq adını qəsb edən bu güruhi-layüflihun[2] həman firəngiməablıq göstərən bu küçəni yandırmaqla bir dirilik mənbələri olan mədəniyyət müəssisələrini dəxi bərbad etmişlər!..

Təbrizdə mükəmməl surətdə hazırlanmış olan bir mətbəəni bu küçədə dağıtmışlar. Buradan çıxan doğru və haqq sözləri müqabil irticayunlar fürsəti qənimət hesab edərək, həman atəş ilə cavab vermişlər. Bu mətbəə mücahidi-həqiqi, mərhum Səid Səlmasinin təşkil etdiyi mətbəədir...

O yeganə cavan vətəni yolunda bir mətbəəsini deyil, öz canını da fəda etdi!..

Qələmin sındırıb, mətbəəsini dağıtdılar. Amma qeyrət və həmmətini əlindən almaq mümkün deyil idi. Qələmini sındıranları qələm etmək üzrə qılınc aldı, tüfəng götürdü. Gördü ki, azad qələm yürütmək üçün qabaqca bir çox qılınc vurmaq, güllə atmaq lazımdır!..

[1] **təzəlzül** – sarsılma
[2] **layüflihun** – nicat tapmayanlar

İştə hümmət əhlini heç bir mülahizə öz iqdamından saxlamadığı üçün meydani-hürriyyətdə şəhid olmaq dərəcəsinə nail oldu. Səid öldü!..

Amma inanmayınız, səidlər ölməzlər!

Bu məcmeyi-qeyrət və hümmətin yaranışdan olan cavan bir iranlı ilə söhbət edərkən şəhidi-hürriyyət mərhum Səidin mətbəəsinin sözü gəldi. Müsahibim bir ah çəkib dedi:

- Biz həmişə Səid ilə deyərdik ki, bu mətbəədən nuri-mədəniyyət qalxıb da bütün İranı bürüyəcəkdir. Amma həman mətbəənin hürüfatını əridib güllə tökdülər, bizim yoldaşlarımızın sinələrinə vurdular.

İştə bu əndazə bir qeyrət və rəşadətlə, bu dərəcə bir fədakarlıqla cannisar edən Təbrizin qəsdi, məmləkətin istiqlalını millətin əlindən izmehlalə[1] aparan istibdad idarəsini yıxmaq idi. Onun qəsdi o idi ki, öz daxili zalimlərindən xilas olmaqla bərabər, xarici politikalarının təcavüzatından dəxi özünü təmin etsin.

Lakin özünün tədbirsizliyi və kəmbinliyi ilə şah işi o yerə yetirdi ki, həman düşməni olduğu məşrutəni verməyə, həm də məmləkətin istiqlalını məhdud etməyə məcbur edildi.

Öylə bir cəlladın mükafatı olaraq milli bayram gözləyən Təbriz baxın ki, indi nə haldadır.

Küçələrində milli sərbaz nəğmələri yerində rus himni eşidilir. Bir il tamam cannisarlıqda olan fədailər gizlənir də, digər şəhərə ağa oluyor. Təbrizin səbziyyatını xoşluyur da, oradan daha çıxmaq istəmiyor.

Təbrizin indiki halı inqilab ilə məşrutiyyətini almış milli bir şəhər surətini deyil, təzə fəth olunub, idareyi-əsgəri təhətində olan bir rus şəhərinə oxşayır.

Küçələrdə soldatlardır, toplardır ki, gəziyor, nümayişlər ediyor!

Özlərini öylə aparırlar ki, şəhərə əvvəlcə daxil olan bir nabələd bütün divarlarda, qapılarda olan güllə yerlərini görür, xəyal edir ki, bunlar, yəqin, rus güllələrinin əsərləridir ki, bu qədər bir zəhmətlə aldıqları şəhərdə iştə bu qədər fatehanə bir tərz ilə hərəkət ediyorlar.

Daha xəyal etməzlər ki, bu deliklər rusların deyil, müsəlmanların biri-birlərinə atdığı güllələrdəndir.

Təbriz
**M.Ə.Rəsulzadə**
*«Tərəqqi», № 129, 12 iyun 1909*

[1] **İzmehlal** – məhv



## İRAN MƏKTUBLARI

### URMİYƏ

Urmiyə inqilab vaxtında əncümən qurub beydəqi-hürriyyət ucaltmış İran şəhərlərindən biridir.

Bura əhalisi inqilabın o müdhiş fəlakətlərindən bir o qədər əziyyət görməmişlər. Bunlar nə biri-birləri ilə, nə də hökumət qoşunu ilə bir o qədər müdafiə və mücahidədə bulunmamışlar.

Bunların bir çox müdafiə və mücahidləri vəhşi kürd əqvamının talanına, qarətinə qarşı olmuşdur ki, bu qarətgərlərin müdafiələrinin birində öldürülmüş bir erməni fədaisinin təntənəli dəfni hənuz əhalinin xatirindən çıxmamışdır.

Şəhərin daxilində müxtəsər bir şuluq olmuş, inqilabiyyun tərəfindən təyin edilmiş Səidülməmalikin əleyhinə camaat tərəfindən bir qiyam olmuş ki, o qiyam və nümayiş məzkuri şəhərdən çıxmağa məcbur etmişdir. Səidülməmalik xanlardan pul alıyormuş. Bir-iki seyyidi döydürmüş və üçüncüsünü, hətta öldürmüş, alış-verişçilərdən tövcü almağa başlamış imiş. Bu zatın məqasidi səqim[1] olmuyub, müstəqim olsa da, tərzi-hərəkəti xeyli nabəca[2] və dürüşt[3] olduğundan əhalini özünə qarşı durdurmuş və nəhayət, şəhəri qoyub getməyə məcbur olmuşdur.

Məlum olduğu üzrə, Səidülməmalikin getməsinə nail olan camaat ümidsizliyində osmanlı şahbəndərliyinin köməyinə təvəssül etmişlər, yəni əhalidən bir çoxu dövləti-əliyyəyə mültəci olub, özlərinin mühafizəsini istəmişlər.

Urmiyədə, Osmanlı şahbəndəri hesab olunun Petros əfəndinin köməyi və məscidlərdə elədikləri nümayişləri ilə onu – Səidi o yerə yetirmişlər ki, məzkur gecə ikən şəhərdən çıxıb getmişdir.

Petros əfəndinin iqrarına görə əgər Səidülməmalik şəhərdən çıxmayacaq olurmuşsa, böyük bir fitnə südur edib onu öldürəcəkmişlər.

Səidülməmaliki bu surətlə şəhərdən çıxardarlar, müvəqqəti hakimlik mənsəbinə vali Müntəzəmüddövlə çıxar. Bu adam Urmiyə şəhərində daimi bir naibül-hökumədir. Hansı bir hakim çıxarılar, yainki gedərsə, bu adam təzə bir hakim gələnə kimi hökumət yerini dolandırarmış. Bu dəfə dəxi həman vəzifəsini icra ilə «təxti niyabətə culus» etmişlərdir.

Fəqət özünün təbiddə[4] Osmanlı əlinin mühüm bir rol oynadığını görən Səidülməmalik Osmanlı düşməni kəsilir. Buradan gedib Dilmaqanda[5] dayanar. Orada bir nəfər osmanlını casus deyə tutdurar.

[1] **səqim** – xəstə, saxta
[2] **nabəca** – yersiz
[3] **dürüşt** – sərt
[4] **təbid** – uzaqlaşdırılma
[5] **Dilməqan** – Səlmas mahalının mərkəzidir

Osmanlı şahbəndərinin israrına baxmayaraq, tutduğu adamı buraxmaz. O vaxt Xoy hakimi olan Heydərxan cənablarını dəxi Osmanlı şahbəndəri Samibəyi həbs edər. Məzkur: «Mən şəhər hakimiyəm, sənin ixtiyarın yoxdur ki, məni həbs edəsən», – deyirsə də, şahbəndər: «Sən hakim deyil, yabani bir quldursan», – deyə qulaq asmaz. Nəhayət, Səidülməmalik casus deyə tutduğu türkü şahbəndərdə Heydərxanı mübadilə olaraq azad edirlər.

Bir həftə bundan iləri Səidülməmalik bir iş daha törətmiş oluyor. Xətti-hərəkətində müvazinə gözləməyən bu adamın adamları şəhər kənarındakı bir kəndə getmiş olan Osmanlı şahbəndəri və atlılarını axşam olduğundan şəhərə buraxmaq istəməzlər. Şahbəndər adamları ilə fədailər arasında söyüş başlanar. Bədə söyüş atışmaya müncər olub, yeddi nəfər Osmanlı əsgəri tələf oluyor. Biləxərə şahbəndər şəhərə daxil oluyor. Səidülməmalikin böylə bir hərəkətindən həyəcana gələn əhali isə şuriş ediyor. Səidülməmalik öz adamlarını götürüb şəhərdən qaçıyor. İndi harda olduğu, nə yerdə gəzdiyi məlum deyil.

Şəhərin hökuməti isə müvəqqətən şahbəndər əlində olub, Səidülməmalikin adamlarını axtarmaqdadırlar.

Şəhərə gəlincə, Osmanlı əsgərinin keçdiyi və bu tərəflərin Osmanlı əlinə düşdüyü barəsində dağıdılan xəbərlər mübaliğəlidir.

Urmiya və ətrafında üç yüzdən artıq Osmanlı qoşunu yoxdur. Şəhərin öz içində isə 40 nəfərdən ziyadə əsgər olduğu yalandır. Osmanlıların buralara gəlməsi haman rusların Təbrizə gəlmələri qəbilindəndir.

Burada şəhər əhalisi və bir çox ətrafdakı sünni kəndləri və surilər bir qədər də şiə kəndləri kürdlərin talanı qorxusundan Osmanlı təhtiəmanətsinə qalmış və bura istilahınca «dəxaləl» verilmişdir. Bu «dəxaləl» sözü yerli əhalicə bütün-bütünə Osmanlı təbəəsi olmaq mənasına anlaşılırsa da, böylə deyildir. Bu «dəxalət» haman məmləkətdə asayiş bərdəvam oluncaya qədər təhti-əmanda qalmaqdan başqa bir şey deyildir.

Zatən Osmanlı nümayəndəsi Petros əfəndi dəxi burasını, müxbiriniz ilə etdiyi müsahibəsində bəyan etdi.

Osmanlı qoşunu, İran hökuməti rəsmən asayiş bərdəvam oldu, daha əmniyyət hasil oldu – deyincəyə qədər İran torpağında qalacaqmış. İşğal etmək, zəbt etmək fikir və xəbərləri isə büsbütün qayırmadır.

Osmanlı nümayəndəsi ilə rus konsulu arasında bir gərginlik müşahidə olunmaqdadır. Bu gərginliyə səbəb iki dövlətin rəqabətindən artıq nümayəndələrin öz şəxsi əlaqələri səbəb oluyor.

**M.Əmin**

*«Tərəqqi», № 130, 14 iyun 1909*



## İRAN MƏKTUBLARI

*(keçən nömrədən mabədi)*

Doğrusu, Osmanlı dövri-sabiqənin bir nümayəndəsi olan Petros əfəndi indiki yeni türk idarəsinə yaraşar nümayəndə olmağa bir o qədər də layiq deyildir. Məzkur Türkiyə nümayəndəsi olduğu halda türkcə bilmiyor. Katib vasitəsilə iş görüyor. Zatən bu adamın bir neçə vaxt iləriyə kimi naib şahbəndərinin rəsmiyyəti dəxi yox imiş. Bu əhvali tək baş şahbəndərliyi, Dilman şahbəndəri Sami bəy ilə olub. Urmiya nümayəndəsi Petros əfəndi isə naibi-şahbəndər hesab olunurlar.

Bu gün Təbrizdən göndərilən 40 nəfər rus soldatı bir nəfər zabitlə bərabər şəhərə varid oldular. Bu soldatları neçə gündü əhali gözləməkdədir. Fəqət Urmiya dəryasında olan adı paroxod olub, özü bir qan çanağı olan gəminin bərəkətindən haman beş saatlıq yolu üç gündür ki, gəlib çıxa bilmir və rus koloniyasını müntəzir qoyur idi. Bu intizar o dərəcə uzandı ki, hələ şəhərdə soldatların qərq olmaları barəsində xəbər buraxdılar. Soldatlar konsulxanədə durmaq üçün gəlmişlərdir. Güman edilir ki, bu 40 nəfəri mütəaqib yenə də soldat gəlsin.

Petros əfəndinin izharına görə Osmanlılar 50 nəfər soldatdan artıq rus qoşunu gəlməsinə manc olacaqlarmış.

Rus soldatlarının gəlməsi bura rus əhalisinə və rus misyonerxanası bərəkətilə pravoslavlıq qəbul etmiş assurilərə artıq dərəcə bir hüsnitəsir bəxş etmişdir. «Çoxdan lazım» idi mənasını hər bir rus və pravoslavnının simasında oxumaq müşkül deyildir. Zatən İran təbəəsi olan pravoslavni assurilər bu hissiyyatlarını tərgiz gizlətmiyorlar.

Soldatlar ilə bərabər Təbrizə kömək istəmək üzrə gələn Orlov cənabları dəxi qayıdıyorlar.

Orlov Urmiyə əyanından Saların əmlakını və kəndlərini icra edən bir nəfər rusdur ki, onun kəndçiləri olan osmanlıya dəxalət verdiklərindən artıq məzkur Orlova bədəh vermiyib, vergilərini, guya, türklərə veriyorlarmış.

Orlov cənabları Təbrizdə konsuldan himayət istəmişsə də, cavab olunub, konsulxananın bir şey edə bilməyəcəyi izhar bulunmuşdur.

Urmiya bazarındakı fabrika mətalarının çoxu rus malıdır. Qənd, çay, arşın malı, neft, xırdavat şeyləri hamısı Rusiyadan gəliyor.

Bu axırlarda rus malı bazardan qurtarmağa başlayıb, daha dalısı gəlmiyor. Səbəb yolların bağlı olmasıdır.

Səlmas, Xoy yolu bu axırki günlərə kimi qovğaya aludə olduğundan, bu yollar ilə heç bir şey aparmaq mümkün olmuyormuş. Rusiya mətai isə əksərən bu yol ilə gəliyor. Teleqraf müxabirəsi isə ta indiyə kimi yoxdur.

Bura rus konsulu belə öz müxabirati-rəsmisini göndərməkdə müəttəldir.

Urmiyənin vəzi yol və müxabirat heysiyyətindən o dərəcə müşkül imiş ki, buraya düşən tamami-aləmdən qəti-əlaqə etmiş oluyormuş. Böylə ki, rus qoşunlarının Təbrizə gəldiyini bura konsulu iki həftədən sonra xəbər almışdır.

Konsul cənabları bu cəhəti yolsuzluqdan ziyadə üsulsuzluqdan hesab ediyor, diyordu ki:

– Bir mənim vəzimə baxın. Rus qoşunları özgə bir məmləkətə daxil oluyor, amma rus konsulu onların havaxt və nədən ötrü gəlməkliklərini bilmiyoram. Yaxşı ki, Urmiyə əhalisi fəqir və dincdirlər və yaxşı ki, inqilabçılar xoşluqla rusları qəbul etmişlərdir. Əgər böylə olmasaydı, o halda burada bizim əleyhimizə baş verə biləcək üsyana hansı qüvvəmizlə müqabilə edə bilərdik?!

Burada əncümən hala mövcuddur. Hər gün iclas ediyor. Amma bu iclasların da fəaliyyətdə bulunmadığı aşkardır. Hər kəsdən – əncümən vardır? – Xəbər alsanız «həm var, həm yoxdur» – deyər. Doğrudan da, həm var, həm yoxdur.

Həm var, zira, inqilab vaxtında inqilabçılar təyin edən əncümən var, hər gün yığışıb iclas da ediyor.

Həm yoxdur. Zira, əncümənin özünü etirafına görə qanun üzrə əhali tərəfindən seçilmiş əncümən yoxdur. Hal-hazırda özünü müvəqqəti hesab edən əncümən-məhəlli, əncümən intixabatına hazırlanmaqdadır.

İndiki əncümənin sədri Urmiyədə məşhur müctəhid Ağa Şeyx Məsiha ağadırlar. Müxbiriniz ağanın ziyarətinə nail olduqda haman əncümənin halından xəbər aldım. Dedilər ki, hal-hazırda əncümən səy ediyor ki, tazədən darüşşurayi-millinin məhəlli əncümənlər barəsində qərar verdiyi qəvaninə müvafiq əncüməni tazədən seçsin.

Neçə vaxtdır kürdlər artıq qarətlərindən əl götürüb sakitdirlər. Kürdlərin bu sakitlikləri haman kəndlərin Osmanlı dəxalətinə keçdiklərindən bəri baş verdiyindən, kürd hərəkəti bəzi mülahizələrə səbəb oluyor.

Bir paraları bu fikirdədirlər ki, kürdləri təhrik edən haman Osmanlı hökumətidir ki, onların qorxusundan kəndləri öz dəxalətinə alıyor ki, sonra asayiş veriyor.

Digərlərinin fikri budur ki, osmanlıların öylə bir təhrikləri yox. Amma dəxalət olandan sonra beydaqları himayəsinə gələn əhalini mühafizə etməyə mədyun olduqlarından, artıq burasını hiss edən kürdlər təcavüzlərindən sərifdirlər[1]. Zira, iləricə qüvvəsiz, köməksiz hesab etdikləri kəndlərin arxasında osmanlı əsgəri durduğunu gördükdə cürət etmiyorlar. Necə ki, daşnaksakan firqəsi tərəfindən təşkil olunmuş

[1] sərif – burada: əl çəkmiş



müdafieyi-millileri olan erməni kəndləri dəxi kürd təcavüzatından mühafizə olunub, toxunmamış qalıyor.

Bura assurilərinin katolik qismi, o katolik misyonerxanası – hamısı türkpərəstdirlər. Bunun illəti haman Petrosun katolik olduğudur.

Buradakı fədailərin cümləsi müsəlmanlar imiş. Aralarında cüzi ermənilər varmışda, assurilərdən heç kimsə yox imiş. Hal-hazırda fədailər silahlarını yığıb zəxirəyə qoymuşlar. Mücahid başçılarından Urmiyədə Məşədi Bağır cənablarının şöhrətləri vardır. Fədailər ona və onun yoldaşı Məşədi İsmailə təbədirlər. Məşədi Bağır cənablarının səlimünnəfs[1] bir mücahid olduğu barəsində şəhərin fikri müxtəlif deyildir. Hər kəs bu adamın doğru bir mücahid olduğunu tərif edir.

Məşədi Bağır cənabları Qafqazda olub, bir çox zaman Bakıda dolanmış və fikri-hürriyyəti dəxi orada kəsb etmişdir.

Asari-mədəniyyət olaraq burada fədailər tərəfindən hazırlanmış bir məktəbi-milli varmış.

Bu məktəbdən başqa bir çox misyoner məktəbləri vardır ki, bunların barəsində şəhərin ümumi haləti təsvir edəcəyimizdə misyonerxanalar barəsində yazacağımız fəsildə təfsilat verəcəyik.

Şəhərin indiki əhvali-siyasisi işte müxtəsərən yuxarıdakı vəch ilə idi ki, bəyan etdik.

Başqa əhvalına məxsus bir felyeton dərc edəcəyiz.

Urmiyə
**M.Əmin**
*«Tərəqqi», № 131, 15 iyun 1909*

## YOL TƏƏSSÜRATI

### TƏBRİZ-URMİYƏ YOLU

Üç yoldaşdan biri bəşəriyyətin qismi-lətifindən olmaq üzrə Təbrizdən çıxdıq. Üçümüz də mətbuata mənsub olub, müxbir sürətilə səyahət ediyoruz.

Yoldaşlarım ər-arvad olduqları halda səyahət yapıyor. Məsud keçinirlər. Zira, mənsub olduqları qəzetə Rusiyanın ən mühüm və dövlətli qəzetələrindəndir. İranın bugünkü əhvalını kəmalincə öyrənib, eynən qareinlərinə bildirmək üçün şu qədər məxaricə mütəhəmmil oluyor.

* * *

İştə 200.000 müştərisi olan bu qəzetə təbiidir ki, müxbirinə ayda 1500 manatı əsirgəməz.

[1] səlimünnəfs – nəfsi pak

Əvət, «Russkoye slovo» kimi mötəbər biri qəzetədən Tardov kimi məşhur bir yazıçını İrana göndərmək dəxi bəid[1] deyil. Zatən bu qəzetə istər İranda, istər Osmanlıda həmişə müqtədir yazıçılar bulundurub, daima öz qareini müstəhzər ediyor.

Bu qəzetənin məsləkini bilənlər onun nümayəndəsi ilə rəftarımız tutacağına şəkk eləməzlər. Yoldaşlarımızdan razıyıq.

İştə səfərin ən mühüm şərtlərindən biri mövcud.

### Təbrizdən çıxırıq

Təbrizin o bomboz bozaran qara palçıq divarları – deyəndə İran nəzmiyyəsi mincə yaşında, vərəndil tüfənginə təkyələnib fikrə dalmış, soldatlar, əfsərlər isə bir surəti-nümayişkaranə ilə keçirlərdi. Daşlıq, daşlıq-tozluq və topraqlıq yerlərdən ötmək üzrə üçümüz bir faytona minib avropaca üç saətə iki manata gediləcək yolu iki günə və 15 manata getməyə məcburuz!..

Böylə bir şərtlərə faytonçumuzun tənbəlliyi ilə bir az da köhnə bekarlıqdan əlavə etsəniz halımız bu dərəcəyədək təsəvvür olunar, zənn ediyoram...

Hər nə isə başqa çarəmiz yoxdur. Buna da təşəkkür etməliyik, yoxsa qatır dalında getməli idik. Bərəkət versin ki, fayton tapılır!..

Artıq şəhəri vida etmək üzrəyik. Təbrizin mənzərəsi də bir şəkildir. Vəsi bir meydan almış Təbrizin cəhəti – sünisi bozarır, topraq rəngi alıyor. Qara palçıq olduğunu bildiriyor. Sənət, fənn, nəfasət asarı bilmərrə yox...

İştə bu yoxluq İranın şu varlıqlarını məhv edib gediyor.

Şəhərin surəti-xaricisi öylə bir təsir ediyor, birisi burada nəfis bir ev tapamaz. Amma bu kəsafətin arxasında həman bir istedadi-təbii ilə azadə baş qalxızan qovaqların dibində, söyüdlərin ağuşunda naxışlı-nigarlı, altlı-üstlü, əndərunlu-birunli, aynalı-kirəcli, əlvan rəngli imarətlər, qəsrlər mövcud olduğu İranın vəzini bəyanlı kimi bizə də məlum.

Bəs şəhəri bu əndazə məlul surətə salan nədir?

Şəxsi həyatdan, xüsusi xanəsindən zövq almaq istəyən bir iranlı ümumişəhərdən, növi vətəndən həzz etmək istəmiyor. İştə bunu da Şərq istibdadından xəbər alınız, cavabı ondadır.

Zatən İranda hər qisim gözəllik ovrəngi[2] tutulur.

Siyasətcə istibdada, ibadətcə istibdada, məişətcə istibdada və yenə də istibdada məqhur[3] olan bir məmləkətdə, həyati-ictimaiyyənin azad və nəfis bir surətdə olduğunu arzu etmək, qaranlıq bir otaqda aynabəndlik etməyə bənzər.

[1] bəid – uzaq
[2] ovrəng – taxt
[3] məqhur – qəhr olmuş



Fayton gediyor. Təbriz hələ görünüyor.

Fayton gediyor. Təbriz hələ görünüyor.

Sənətilə yox, təbiəti ilə gözəllənir. Uzaqdan bir parça bağ şəklini alıyor.

* * *

Şəhərdən çıxmışdıq. Fəlakətli mənzərələri, bir illik mübarizənin asarından olan xərabələri artıq görmüyoruq. Amma cındırpuş olan dilənçilərdən hənuz qurtarmamışıq. Bir sürü fəlakətzədə uşaqlar kölgə kimi faytonumuzun dalına düşüb zarıldıyorlar. Ürək darıxdıran bir səslə:

– Xanım bir şahı, ərbab bir şahı, – deyərək sual ediyorlar.

Ah bu dilənçilər! İran bir parça dilənçidir.

Zavallı uşaqlar nə haldadırlar! Nə fəlakətdədirlər. Bunların o halıəsəf[1] iştimallarını qələmlə təsvir etmək mümkün deyil.

Qız, uşaq, böyük, kiçik, qoca, qarı, şikəst, kor, küll, keçəl, cüzamlı bir silli[2] hədsiz-hesabsızdır. Bir sailə bir şahı verdikcə artıq gün qaraldı: hər tərəfə getsək, hər nə tövr eləsək bir sürü fəlakət əhatə edib, ürəyini parçalayacaqdır, qanını qaraldacaqdır. Heç kəsin xəyalına belə gəlməz ki, bəlkə, daha pulun yoxdur: olmaz, dalına düşəcək, canlı bir kölgə olub, səni izləyəcəklər. 12 imamı sayacaqlar. Həzrət Abbasa and verəcəklər, Allahı əzimüşşənin özünü, peyğəmbəri – zişanini vəsilə edəcəklər. «Xırda pul yoxdur, daha qalmayıb», «gedin», «qaçın», «rədd olun» kimi sözlərinə, etirazlarına baxan olmayacaq. Səni mənzilinə kimi vida edəcək. Lap darıxdıracaqlar. Əgər kəmhövsələ olub dürüşlük edərsən, o vaxt təkdir oldacaqsan!..

Bunlar rəsmi olan dilənçilərdir. Qeyri-dilənçiləri Allah göstərməsin. Budur faytonumuz: müəyyən şərtimiz var, danışmışıq, mənzil başında pulunu alacaq, xəyal edirsən ki, başqa bir şey yoxdur. Amma, xeyir! Hələ bir ənam məsələsi də durur!

Faytonçu ənam istəyincə, nökəri də əlavə olaraq boynun burub, ərbab deyəcək. Hələ az versən küsəcək. Bir ərbab səni mehman çağıracaq, qapısında olan hədsiz-hesabsız nökərlər hamısı əlinə baxacaq, ənam gözləyəcək.

Qiyafən əcnəbi qiyafəsi olur isə halın daha bətərdir... Xəyal edəcəklər ki, sənin dərin qızıldandır... Əllərindən gəldiyi qədər soyacaqlar. Heç xəyallarından belə keçməyəcəkdir ki, bəlkə, sənin artıq pulun yoxdur. Bunlarda iskilələrdə, çayxanalarda, hər yerdə gözlər cibində, diqqətlər kisəndə, fikirlər əlində olacaqdır.

[1] əsəf – təəssüf etmə
[2] silli – vərəmli

Çayxanada düşəcəksən, bir-iki oymaq çay içəcəksən (oymaq deyirəm, zira stəkanları oymaqdan böyük deyildir) qiymətini xəbər aldıqda eşidəcəksən ki:

– Ərbab hər nə versən qəbuldur.

Xəyal edərsən ki, Rusiyada ən bahalı bir qəhvə də olsaydı bu çayın qiyməti İran pulu ilə iki abbasıdan artıq ola bilməzdi. Səni ərbablıq qələmə verir, dörd abbası verirsən, özün də bu təsəvvürdəsən ki, indi böyük bir razılıq görəcəksən. Fəqət nə qədər təəccüb, qabağına uzadılan əl çəkilmiyor. Qəribə bir halət, elə çayçının gözü bir əlinə, bir də cibinə baxıyor. Bir abbası da əlavə ediyorsan. Halət dəyişmiyor. Bir qran daha veriyorsan, şəkli haman əvvəlki. Övzayə nabələd olsan isə özün xəcalət çəkirsən. Yox, əgər bir-iki dəfə qulağın kəsilib, adət etmişsənsə artıq diqqət verməyib gediyorsan. Fəqət razılıq gözlədiyin bir halda, həmi pulun gediyor, həmi də təkdir oluyorsan. İştə bu da bir qisim dilənçilik. Dilənçilik surəti ilə qarətçilik.

* * *

Şəhər kənarında bağları, yaxın kəndləri keçdik. Gün daha yağlanmışdı. Şüaı xeyli ötkün idi. Günün yandırmağına baxmayaraq, faytonumuz çox da tələsmiyordu. Bu tələsməmənin səbəbi isə yolun xarablığından çox, faytonçumuzun qarovuldan çıxmamağı idi.

Zatən İran sürət bilməz. Burada hər işi kəmali aram və təənni ilə görürlər.

Hətta dava etdikləri zaman belə qəlyandan ayrılmazlar. Əcələ[1] şeytan işidir – əsası ilə rəftar edən iranlı işində o dərəcə yubanar ki, şeytan özü şad olar.

Faytonumuzun hərəkəti kimi, səsi də ağır çıxır, dərin gəlir, xırıldayır. O özü diyor ki, Tehran yolunda Miyanədə «mələ»[2] deyilən gənəyə oxşar bir cücü var ki, insanı sancanda bərk naxoşladır. Guya, bizim bu tənbəli də sancmış, azarlatmış, nəticədə nə isə səsi batmışdır.

Miyanə mələsi xüsusunda biz çox eşitmişik. Tehrana gedəcəyimizdə oradan keçməliyik. Ehtiyat edək. Amma ki, səsin batmasını o heyvandan bilmiyoruq, böhtandır.

Bunun səsini batıran haman əndazəsiz içdiyi kişmiş arağıdır.

Heç təəccüb etməyiniz ki, iranlı bir müsəlman araq içiyor. Azərbaycan yenə də yaxşıdır.

Farslarda içməyən yoxdur. Tağızadə cənabları demiş ki, «iranlılar içkidə firəngləri ötmüşlər». Zatən bizim faytonumuz da farslara mənsubdur. Atası tehranlıdır, özü də Tehrana tez-tez səfər edir.

**M.Əmin**

*«Tərəqqi», № 135, 19 iyun 1909*

[1] əcələ – tələsmək

[2] mələ – taxtabiti



## İRAN İŞLƏRİ

### İRAN MƏKTUBLARI

### Urmiyədən Möhtəşəmüssəltənə

Urmiyə, Səlmas və Xoy hakimliyinə Tehran tərəfindən təyin olunmuş Möhtəşəmüssəltənənin bu həftə içində Urmiyəyə gəlməsi gözlənir.

Məzkur Möhtəşəm sabiqdə dəxi Urmiyə hakimi idi. Bədən inqilab qopub Səidülməmalikin Urmiyədə hökumət etdikləri zaman məhbus surəti ilə Urmiyədə saxlanırmış. Axır vaxtlarda Təbrizə göndərilib, orada qalırmış ki, indi də dübarə olaraq öz məhəlli hökumətinə övdət ediyor.

Böylə bir təyinə camaatin nə nəzərlə baxdığını bilmək üzrə bir neçə nəfərdən sual etdikdə, məlum oldu: böylə bir intixabdan kimsənə narazı olmadığı, qeyri-artıq rizayət göstərən də yoxdur.

Zatən Urmiyə əhli laqeyd əhli-keyflərdən ibarətdir. Bunların əvvəlinci xahişləri rahət olmaq və kəmali-istirahət ilə gündüzləri tövr ilə keçirib, axşam düşən vaxt çay kənarında atbazlıq tamaşasına məşğul olub, gecələri də yatmaqdır. Və haman bu laqeydlik sayəsindədir ki, hər kəs qüvvətli olur isə, buna baş əyər, hər kəs idarə edərsə, ona idarə olunur. Böylə bir laqeydliyi dəxi haman Urmi mahalının təbiətən dövlətliliyə və bir dərəcəyədək az tamahlı hakimlərin əlində olduğu olmuşdur. Burada sabiqən hökumət edən İmamqulu Mirzədən razı olan bir avam urmiyəli öylə xəyal ediyor ki, hər hakim İmamqulu Mirzə olarda, Şahzadə idarəsindən daha gözəl bir idarə olamaz.

### Rus soldatları

Artığı 8 saatlıq Urumi dəryasının yolunda tamam üç gün, üç gecə səyahət edib, küləyə məruz qaldıqdan sonra 40 nəfər rus soldatı bir nəfər əfsərləri ilə bərabər oraya varid oldular.

Soldatların təxiri-vürudlarından naşi bir-iki dəfə istiqbalə gedib, peşiman qayıdan Urmiyədəki ruslar və ruspərəstlər bu dəfə yenə bir heyət tamamilə şəhərdən bir xeyli kənara çıxıb soldatları pişvaz etdilər.

Pişvaza gedənlər rus konsulu ilə bərabər rus bankının əzaları, rus misyonerxanasının bütün keşişləri, misyonerxana məktəbində oxuyan şagirdlər, rus təbəəsi müsəlman tacirləri, şəhərin pravoslavnı olan assuriləri var idilər. Assur keşişlərindən biri əfsərə duz-çörək təqdim etmişdir. Onların vürudunu xristianlardan ötrü bir movhibeyi-asimani[1] olaraq tələqqi etmişdir.

[1] movhibeyi-asimani – ilahi bəxşiş

Şəhər kənarındakı bağların birində isə rus təbəəsi olan müsəlman tacirləri soldatların qüdumini təbrik etmək üzrə onları çay ilə qonaq etmişlər. Və bunlardan keçəndən sonra rus misyonerxanasında oxuyan məktəb uşaqları rus milli marşını yekzəban olaraq oxumuş və böylə bir surətlə şəhərə varid olmuşlar.

Şəhərə girdiklərində Urmiya xristian əhalisi xüsusən pravoslavnı qismi müfrəzəni[1] təbrikəmiz üzlər ilə alqışlayırdı.

Pişvaz edənlərin çoxusu arvadlar idi ki, bu da Urmiyədən ötrü təbiidir. Zira, buradakı assuri camaatinin kişiləri kəsri kəsb etmək[2] üzrə məmaliki əcnəbiyyəyə getdiklərindən vətənlərində ancaq arvadlar qalıyor.

Şəhərin əsl əhalisi hesab olunan yerli müsəlmanlar isə hər şeyə laqeyd baxdıqları kimi bu vürudə dəxi laqeyd idilər.

Soldatlar konsulxana həyətində yerləşib. Vəzifələri isə fəqət konsulxananı mühafizə etməymiş. Məlum oluyor ki, bu 40 nəfər soldat və bir əfsər tamam bir il məmuriyyətə[3] gəlmişlər. Bu cəhət rusların bir il daha İranda qalmaq niyyətlərinə işarə kimi görünür.

### Osmanlılar Dilmaqanda

Keçən müxabirəmizdə xəbər verdiyimiz Səidülməmalik ilə Osmanlı şahbəndəri Hamibəy arasında baş verən atışmaya əlavə olaraq xəbər veriyoruz ki, atışmanın hüdusini hazırlayıb, 4 nəfər Osmanlı əsgərini öldürüb, 3 nəfərini yaralayandan sonra şəhəri qoyub qaçmağa məcbur olduqda şəhər əhalisi əncümənə yığışıb, Osmanlı şahbəndərinə kətbən[4] verdikləri bir tərziyətnamələrində[5] bəyan etmişlərdir ki, baş vermiş olan vəqeyi-faciədən dolayı izhari-təəssüf edir. Vəqəni törətmiş olan Səidülməmalikə olan narazılıqlarını bildiriyorlar.

Hal-hazırda yeni bir İran hakimi təyin olunana qədər əhalinin xahişinə müvafiq şahbəndər cənabları müvəqqəti olaraq şəhəri idarə ediyorlarmış.

Faciədən sonra qaçıb gizlənmiş olan Səidülməmalik və fədailəri xüsusunda müxtəlif rəvayət gediyorsa da, məzkurların harada olduqları məlum olmuyor.

Bir rəvayətə görə, məzkur Qarabağ deyilən Dilman kəndlərinin birində, digər daha səhih bir rəvayətlə Qaradağda gizlənmiş və guya, dəstəçilik fikrinə düşmüşdür.

Urmiyə
**M.Əmin**
*«Tərəqqi», № 136, 20 iyun 1909*

---

[1] **müfrəzə** – dəstə, hissə
[2] **kəsri kəsb etmək** – qazanc əldə etmək
[3] **məmuriyyət** – ezamiyyət
[4] **kətbən** – yazılı
[5] **tərziyətnamə** – üzrxahlıq məktubu



## YOL TƏƏSSÜRATI

*(keçən nömrədən mabədi)*

Əvvəlinci düşərgəyə çatdıq, burada az istirahət etməli idik. Atlar açılacaq, yeyənəcən, biz də çayxana dibində düşüb, bir az istirahət edəcəyik.

Bura Səmədxanın olduğu yerlərdir. Bu kəndlər hamısı onun tərəfdarlarıdırlar. Zatən Səmədxanın ordusunun düşərgəsi olan Sərdərud həman buradır.

Bura kəndçilərinin hissiyyatı, həman rus qaragüruhçu mujiklərinin hissiyyatı ilə tam birdir.

Bunlar məşrutəçini görmək istəməzlər. Məşturəçilər talançılar imiş, qarət edənlərmiş, istərlərmiş ki, özləri ağa olsunlar, padşahın üzünə ağ olurlarmış.

Ağac kölgəsində oturub, kürəklərini divara sürtən bu cəmiyyətdən birisi təsadüfən ayaq dırnağını tutuyor idi. Birdən başını qalxızıb: «Bax... məşrutə əlimə düşsün, başını qoyun kimi kəsərəm» – deyə axmaqanə gülümsəndi.

Mən məşrutənin qarətgirlik, oğurluq deyil, nədən ibarət olduğunu bunlara qandırmaq fikrinə düşdüm. Fəqət əbəs. Bunları qandırmaq müşküldür. Zira, kəndçiləri qandırmaq üzrə İran inqilabında bir hərəkət, bir əsas yoxdur. Kəndistan camaatı istər məşrutəçisi, istər istibdadçısı hamısı bir kor alətdirlər. Bunlarda rəy yoxdur. Bunlardan zatən rəy gözləmək dəxi olmaz. Məgər inqilaba alışan sinif isə xas millətdir ki, bir rəyi-müəyyən üzrə mübarizə edən fəqət bunlardır. Əvam camaat isə bunun, yainki başqasının ardınca sürünür.

Hərgah bu kəndçilərə qabaqca bildirə idilər ki, məşrutə onları ərbabın tədiyyatından xilas edib, qanun onları mühafizə edəcəkdir. Artıq hər keyfi istəyən onları öldürmək, döymək deyil, hətta söyməyə belə qoymayacaqdır, onda müsəlləmdir[1] ki, bunlar bu dərəcə də bitərəf qalmazdılar.

İran kəndçisi o qədər döyülmüş, o qədər əzilmiş, o qədər sürülmüşdür ki, ətrafında baş verən hər qisim qanunsuzluqlara təbii bir nəzərlə baxıb, həmişə də öylə təsəvvür ediyor ki, günah məzlumdadır.

«Öldürəndə heç günah olmaz» – zərbül-məsəlini mən Bakıda eşitmişdim. Burada dəxi eynilə gördüm.

Durduğumuz çayxanadan bir az aralı yol içində düşüb zarıyan bir qoca kişini qoyub ötmüşdük, bunu Səmədxanın atlıları döymüş idi. Biçarə o qədər əzilmiş idi ki, durub bir-iki qədəm o tərəfə gedib, ağac kölgəsində qalmağa halı yox idi. Bizim tələşımızı görüb, yaxın gələn

---

[1] **müsəlləm** – doğru

başqa bir iranlı kəndçisindən isə bizim israrımıza baxmayaraq, bu biçarəyə yaxın gəlmək belə istəmiyordu, qorxurdu.

Biz zavallı o qocanın halını bəlalı bu kəndçilərə nəql edərək, xəyal etdik ki, gərək bu adamlar da onun kimi hər dəfə döyülməyə razı olduqlarına müntəzir olalar. Lakin nə qədər təəccüb. Bunlara heç təsir etmədi.

– Yəqin, günahı çox imiş. Bəs niyə bizi döymürlər?! – deyə soyuq bir cavab verdilər.

Məzlumiyyəti bu dərəcə səfalətli gördüyümdə hiddətləndim. İnsan bu dərəcə bir cəhl və qəflətə uyduğunu bütün-bütünə insanlıqdan xaric olub, hissiyyati-heyvaniyyətdən belə məhrum qaldığını görüncə, artıq səbir və taqətim qalmadı. Bir lisani-hiddətlə bu zalım məzlumlara dedim ki:

– Eyib deyilmi ki, yalan diyorsunuz, qoy sizin aranızdan bir nəfər çıxsın da barmağını yumub desin ki, onu nahaq yerə azı bir 3 dəfə döyməmiş olsunlar?!

Bu suala qarşı hamısı böyük xəcalət almış kimi görülüb, öz-özlərinə utandılar. Biri-birlərinə baxıb fikirləşdilər, kimsə cürət etmədi ki, yalan desin. Görünüyordu ki, o məzlum qocanın barəsində rəva gördükləri böhtandan naşi utanırdılar.

Nəhayət, aralarından bir-ikisi baş qaldırıb dedilər ki, oğlan, ərbab doğru deyir.

Bu təsiri, bu zaman o xəcaləti rəf etmək üzrə aralığa fəramuşluq vermək üçün orada hazır olan dankçi[1] aləti-kəsbi-ruzisini alıb, ləhvinə[2] başladı. Bütün təəssürat da getdi. Biz də qoşub yola düşdük.

* * *

Axşama bir 3 saat qalmışdı ki, Kokand deyilən kəndə yetişdik. Azərbaycan kəndləri çox da kasıb kəndlər deyil.

Təbiət buralarda o qədər səxavətlidir ki, ərabın-tamahını sakit ediyordu. Kəndçiyə də bir şey baqi qalır.

Bu tərəf kəndləri Culfa, Təbriz yolunda olduğu kimi talana getməmişlərdir. Zira, bu yerlərə vəhşi Rəhim xanın atlıları gəlməmişdir. Bunlarda dövr edən Hacı Səmədxan imiş.

Hacı Səmədxan isə irticayundan olsa da, Rəhim xan kimi əhdişikən və namussuz deyilmiş ki, burasını məşrutəçilər dəxi təsdiq ediyorlar. İştə bu cəhətdən Kokanda bir dirilik tapmaq mümkündür.

Kokand kənd deyil, qəsəbçədir. Təbiətcə ən dövlətli bir qəsəbçədir. Burada kilidli xuşkəbar ağacları var. Buradakı qoz ağaclarını bu vaxta kimi heç bir kənddə görməmişdik. Badam, kağızı badam, püstə, alça, qeysi, fındıq, qoz və bu kimi şeylər bütün Təbriz əhalisinin – Azərbaycanın verdiyi məhsulatdır.

[1] dankçi – təbilçi

[2] ləhv – əylənce



Kokanda bu qədər hamısı bolluqdur. Kəndçilərlə ən yaxından tanış olub, onların məişətinə ən yaxın bir vasitələr ilə bələdiyyət yetirdiyimiz əvvəlinci dəfə burada oldu.

Qırmızısaqqal bir kişinin evində gecələməli olduq. Qoca xeyli vüqarlıdır, səngindir. Bütün azərbaycanlılarda müşahidə olunan bir tərzdə soyuqdur. Qabaqca bir ev göstərib bəyənmədiyimizi hiss etdikdə, başqasını göstərdi. Xoşumuza gəldi. Əyləşdik. Yuyunduq. Təmizləndik. Rahat olduq.

Kəndin övzainə bələd olmaq üzrə, bir qədər müsahibətdə bulunduq. Kəndimə belə, gəldi ki, bu kənddə çox gavlar (öküzlər) olduğu üçün arabaya da gafqanlığı – (öküz arabası) deyilir.

Əhalisi bağbançılıq ilə, rəncbərlik və maldarlıq ilə dolanır. Zatən Azərbaycan kəndlərinin çoxusu, demək olar ki, əksəri həmən bu sayaq ilədir. Hər yerdə balaca bir qəsəbçə dəxi vardır. Ətrafı isə bağdır, bağatdır. Bütün xuşkəbar ağacıdır. Azərbaycanda çox dəmyə yerlər vardır ki, bir az müddət ilə onları bütün sulayıb hamısını bağıstan etmək olar.

Fəqət bu yerləri bir bağıstan etmək üçün gözəl bir idarə lazımdır ki, bu gözəl məmləkət fəlakətlərə uğrayıb, izmehlalə düçar olmasın. Məmləkət sahibi adını daşıyanlar öz nəfsi-şəxsilərini nəzərdə tutaraq məmləkətin məzarıstan olmasını bağıstana dönməsinə tərcih verirlər. Lakin burasını düşünmüyorlar ki, məmləkət onların keyflərinə rəğmən bağıstan olar. Amma o vaxt onlar qəbiristan qarovulçuluğuna yaramazlar.

İran kəndlərində məktəb axtarmaq və bu barədə sual vermək insanın ittilaatsızlığına[1] dəlildir. Amma bizim rüfəqamızdan yoldaşımın hərəmi nisadən və bir dərəcə İranın vəzinə nabələd olduğundan naşi suallarında artıq dərəcə bir azadlıq ediyor. Və bu cəhətdən bir çox cüziyyata bələd oluyoruz.

Kaşif[2] əmələ gəldi ki, burada Nuh əyyamından qalma qədim bir məktəb var. Bəzi uşaqlara Quran öyrədən bir molla var. Bir neçə uşaq dəxi yanında təlim alıyor. Təlim nə təlim! Zatən bu təlimxanalardan mən Bakıda görmüşdüm. Fəqət çoxdan idi təəssüratım fəramuş olmuş, yadımdan çıxmaq üzrə idi! Təbrizdə isə bu təəssüratı təzələdim. Qəreinə o təəssüratı təkrar etmək becə əbəsdir. Zira, kimdir bu məktəb deyilən bu fəlakət evini görməmiş olsun. Ancaq bu məktəblərə tamaşa etdikdə məşhur mücahid Panovun İran xüsusunda yazdığı risaləsinin həmən İran məktəblərinə dair yeri yadıma düşdü.

Mücahidi müşar ileyh məktəb qapısında durub, yarım saat tamamında təkmil etdiyi hissiyyati-dilxəraşini[3] zikr etdikdən sonra, xəyali

[1] ittilaatsızlıq – məlumatsızlıq

[2] kaşif – kəşf edilmiş, bilinmiş

[3] dilxəraş – ürəkparçalayan

olaraq burada məhv olmaqda olan məsumları Avropa uşaqları ilə qiyas ediyor və öz-özünə sual veriyor ki, bu məsumların günahı nədir?

Cavabında isə zikr ediyor ki, bunların İranda anadan olmalarından başqa bir günahları yoxdur.

Əvət, iranlılıq böyük bir günahdır ki, onun cəzası fəlakət, səfalət və əsarətdir...

İştə iranlılıq məzlumluq qədər bir günah?..

Bu kənd əhalisinin çoxunun özünəməxsus yeri var. Əkər, biçər, hasilini götürər.

Adətən, Azərbaycanda torpaq məsələsi haman iki qisimdir.

Bəzi kəndlər var ki, yerləri əhali arasında təqsim olunub. Hər kəs öz tarlalarını göyərdib biçər. Və bir çox xalisə və ərbab kəndləri var ki, onlar da müəyyən bir şərtlə işləyib, əkib-biçdikdən sonra bir hissə aparar, maliyyati-divan isə yer sahibindən alınar.

Zatən bütün İranda bir qisim üsul olsun, yoxdur.

Torpaq məsələsi də dəxi yoxdur.

Məmləkət təmam bir dərəbəylik dövrü keçirdiyindən hər yerin özünəməxsus qaydası və qanunu kimi bir adəti vardır.

Qanunu vardır demiyoram.

Zira, İran bu vaxta kimi qanun görməmişdir.

Bir çox təzyiqat və təcavüzata məzhər olan bir qanuni-əsası varsa da, füruati-qanun hənuz vücudpəzir belə olmamışdır ki, bu olmayınca, təbii ki qanuni-əsası bir faidə verəməz.

Bu qanunsuzluq sayəsində kəndçilərin başına olmazın bəlalar açılar.

İran kəndlisini indiki dərəbəylik bəlasından qurtarmaq üçün əvvəlinci çarə mülkədarın əlindən yerini almaq deyil, hökumət etmək ixtiyarını almaqdır.

Ərbabın yerinə toxunmaq olmaz. Zira, bu məsələni həll etmək üçün zəmin hələ hazır deyildir. Xüsusiyyəti təqdis[1] edənlər məşrutiyyət pişrovlarıdır. Amma hökmdarlığı mülkədarlıqdan ayırmağa isə kimsə tapılmaz ki, şəri bir məhzur[2] göstərsin.

Mülkədar ağadan hakimlik ixtiyarı alınıb, haman mülkədar öz raiyyəti kimi başqa bir hakimin əvamirinə müdavatca məhkum olduğu o surətdə kəndçi bir çox özü var, adı yox nahaqq vergilərdən xilas olar. Artıq ərbabın təşəxxüsfüruşluğuna qurban olunaraq, nahəqq yerə döyülməz, həbsə salınmaz, cərimə olunmaz. Ərbab ilə müqərrər olan hissəsini verməkdən başqa bir əlaqeyi-hüquqisi olmaz. İştə kəndçilərin hüquqi bir idarədən gözlədikləri əvvəlinci iqdam budur.

[1] təqdis – müqəddəs saymaq
[2] məhzur – qadağan



İştə Kokand kəndi nə tövr düşübsə ki, ərbablıq çox azdır. O cəhətdən dəxi bir dərəcə rahət olduğundan fəlakətli deyildir. Bir dərəcə sərvəti var. Məsələn, bizim mizbanımız[1] bir o qədər dövlətli kəndçilərdən olmadığı halda, evinin – həyətinin vəzi, güzəranı bəd deyildi. Hətta yoldaşım «Russukoe slovo» müxbiri təəccüb edib, deyirdilər ki, rus mujiklərinə nisbətən İran kəndçiləri varlıdırlar.

Mizbanımızın «ərbab-ərbab» – deyə bir ehtiyat ilə başlanan səsi yuxarı pərdəyə qalxdıqda, oyandıq. Səhər açılmış, gün çıxmış idi. Amma yuxudan doymamışdıq. Zira, mizbanımız təbiətində olan soyuqluğuna görə mərhəmətsiz olaraq yatacaq vermədiyindən, səfəri bir hal ilə quru xalça üstündə yatmağa məcbur olduğumuzdan rahat yata bilməyib, daima kəndistana məxsus həşərat ilə mübarizə etməyə məhkum edən mübarizə intidadından[2] yorulub, səhərə yaxın xəstə olub yuxuya qalmış idik ki, ondan da bidar olunduq. Samovar hazır idi. Çay içdik. Hesabımızı etdik. İki tümən hesabımız oldu. Gözəl bir Avropa mehmanxanasının qiyməti. Hesablaşdıq və vidalaşdıq. Fayton da qoşulmuşdu. Yola düşdük.

İkinci mənzilimiz Urmiyə dəryasının kənarıdır.

Urmiyə
**M.Əmin.**
*«Tərəqqi», № 137, 22 iyun 1909*

## YOL TƏƏSSÜRATI

*(keçən nömrədən mabədi)*

Gündən iki saat qalıyor. Urmiyəyə getmək üzrə at tutub, yola düşmüşük. Gəmi bərəsindən bir az aralı otuz-qırx evdən ibarət Gülməxana kəndi görünür. Yolçularımız dəxi bu kəndlidirlər.

Bunlar təklif ediyorlar ki, bu gecə Gülməxanada qalaq da, sabah sübhdən yola düşək.

Biz kənddə qalmağın nə olduğunu bir dəfə gördüyümüzdən artıq israr edirik ki, birbaşa şəhərə gedək.

Bunlar gecə ilə şəhərə girmək müşkül olduğu, yollarda su batdaqlarını keçmək çətin olduğunu bildirib, öz mehmannavazlıqlarını tərif ediyorlar:

– Gedək bu gecə kənddə qalaq. Çay qoyduraq sizin üçün, sonra bax bu bağlarda gəzin, yaxşı yumşaq döşək altınızda, yastıq dalınızda özünüz üçün keyf edin. Biz də əziyyət çəkməyək, siz də rahət olun – deyə cavab verirlər.

[1] mizban – ev sahibi
[2] intidad – burada şiddət

Yolçularımız bizi ürüyüb oxşayırlar ki, birbaşa Urmiyə getməyib, bu gecəni burda qalaq!..

Yolçularımızın ilticalarını[1] eşidib, razı olduq. Gecə qalmaq üzrə kəndə çatıb, şeylərimizi düşürürük.

Hər tərəfdən bizi qoruyurlar. Mehmannavazlıq mafövqi-mütəsəvvir[2] olunmalıdır. Arvad, kişi hər bir dil ilə nəvaziş ediyorlar.

O saət tut dərib gətirib, qonaq edirlər. Ev sahibəsi ahıl bir arvaddır. Gecə nə yemək istədiyimizi soruşur. Toyuq və keklikləri olduğunu bildirir. Toyuq şorbası və keklik kababı istəyirik. Çox xoşnud oluyor.

Dəryanın bu tərəfi başqa bir aləm. Buradakı kəndçilərin istiqanlılıqlarını görüncə, insan heç inanmaz ki, burası Azərbaycan olsun. Kokand ilə Gülməxananın zəmin ilə asiman təfavütü vardır.

Bu əziz mizbanlar nə qədər sevimli adamlar, nə dərəcə sadəlövh adamlar, bilmiyorlar ki, qonaqları ilə nə tövr dolansınlar ki, onların rizayi-xatirləri əldə olunsun.

Az qalır ki, pərvanə olsunlar da adamın başına dolansınlar.

* * *

Axşamçağıdır. Palaz salınıb. Kənd həyətində oturub, samovar məclisini hazır etmişik.

Bir halqa arvad-kişi oturmuşuq. Bütün qonşular da buradadır.

Əvvəlinci dəfədir ki, İranda kişi məclisində arvadların da hızır olduqlarını görüyoruz, xoşlayırız. Biri-birlərimizin adını öyrəniriz. Mənim qiyafəmə görə adımın Məhəmməd Əmin olduğuna təəccüb ediyorlar. Təəccüblərini isbat üçün onları şübhədən çıxarıram. Müsəlman olduğumu bildirirəm. Bunlar inanmaq istəmiyorlar. Həmd surəsini oxuyunca bunların şadlığı birə-on daha artır. Gedib bir kitab gətirirlər. Məni imtahan etmək üçün verirlər ki, oxuyum. Farsca yazılmış möcuzatnamədir. Oxuyuram. Şadlanırlar. Biri-birlərinə gözəlcəsinə möcuzat kitabını oxuya bildiyimi xəbər verirlər.

Bizi Urmiyəyə aparan cavan yolçularımız dəxi bisavad deyillər. «Gülüstan»dan, Hafizdən beyt oxuyurlar. Hələ «be xale hinduyəş bəxşəm se mən qəndo do xormara»* lətifəsini də bilirlər. Mənimlə beytləşirlər. Mən təəccüb ediyoram. Heç xəyal etməz idim ki, İran kəndlərində belə sevimli, mərifətli kəndçilər olsun.

Ailənin başı Murad çalsaqqalı, mehriban gözləri ilə ağıllı bir mərd olduğunu bildiriyor. Bunun 3 oğlu var, üçünü də oxutdurmuş. Urmiyədə

[1] **İltica** – iltimas, xahiş

[2] **mafövqi-mütəsəvvir** – təsəvvür xaricində

* Onun hindli (qara) xalına üç batman qənd, iki xurma bağışlaram



molla yanında oxumuşlar. Bunlar ilə bir az da ümumi məsələlərdən söhbət ediyoruz. Bu kənd şahzadə İmamqulu Mirzənindir. Şahzadədir, şah tərəfdarıdır. Bir o qədər tövcü və vergi ağırlığı çəkməyən və bu cəhətdən şahzadəni sevməkdə olan gülməxanalılar da şah tərəfdarlarıdırlar.

Kürdlərdən şikayət ediyorlar. Keçən il gəlib kəndi yenə basıb, 900 dəvələrini və qoyunlarını aparmışlar. Sonra rus konsulu vasitəsilə 600-nü qaytarıb, 300-nü özlərinə mal etmişlər.

Bunlara Osmanlıya dəxalət vermək dəfələrlə təklif olunmuşsa da, qulaq asmamışlar. Məclisimizdə bir nəfər cavan adam var ki, Rusiyada olmuş, Həştərxanda kitabçı dükanında qulluq etmiş, tək-tük rus sözləri bilir. Yoldaşlarım ilə qırıllaşıyor. Gülməxanadan Rusiyaya getmiş bu adam təkdir. Kəndin hamısı bir tövr dolanacaq sahibidir. Aralarında acları yoxdur. İldə 50 manat şahzadəyə, 100 manat da qonşu kənddəki mollaya verirlər. Bütün ildə verdikləri vergiləri iştə bu təxminən, hər evin ildə 4–5 manat qədəri bedehi vardır.

Bunların dolandığı qoyun saxlamaq, yer əkməkdədir. Hər evin bir atı və bir cüt öküzü vardır.

Çay və söhbət məclisi qurtarır. Süfrə çəkilir də şorba aralığa gəliyor. Saqqızını ağzından salmayan ev sahibəsi hazırladığı pişmələri süfrəyə gətirdikdə pişəzvəxt üzrün istəyir ki, bəlkə, ərbablara xoş gəlmədi. Lakin əbəs yerə üzr istəyir. Zira, şorbadan o dərəcə razı qaldıq ki, öz razılığımızı dəfəat ilə bəyan etmək lazım gəldi.

Filhəqiqət belə şorbanı ən əla mehmanxanalarda tapmaq müşküldür.

Nə müəttər, nə təmiz xörək, üstündən keklik kababı ki, zaiqəni[1] dəxi tamam gözəl ediyordu...

Xörək yeyərkən mizbanlarımız fərti-məhəbbətlərində arvadlı-kişili dövrəmizi almışlar, təklif edirik yemirlər.

Ancaq tamaşa ediyor, bizim iştahamıza seviniyorlar.

Nə saf dərun[2] məxluq. Tamamisi bir uşaq məhəbbəti ilə məşhun[3], nə sadə bir təbiət!..

Xörəkdən sonra rəftarında xeyli cəld tərpənişli olan ev anası yerimizi salıyor.

Handa yaxşı yorğan-döşəyi varsa, bizdən əsirgəmiyor. Yunsuz olan mitil yorğan-döşəyi döşəyir də üzr istəyir ki, kürdlərin qorxusundan yorğan-döşəyin üzlərini çıxartmışdır.

Çünki zalım kürdlər qarətə gələndə yastıqların, döşəklərin, yorğanların üzlərini də cırıb aparırlar. Biçarə arvad!..

M.Əmin

*«Tərəqqi», № 139, 24 iyun 1909*

[1] **zaiqə** – beş duyğudan biri olan dadbilmə

[2] **dərun** – ürək, qəlb

[3] **məşhun** – dolu, yüklü

## YOL TƏƏSSÜRATI

### URMİYƏDƏN

Darvazadan daxil oluruq. Müxtəlif qiyafəli bir küçədir, gediyoruq. İran məşhurlarının əksinə olaraq, bura evlərinin küçəyə pəncərələri vardır.

Küçədə gəzinərək qiyafəsi qırmızı, qırmızı fəslərin çoxluğu soruşmamış haman burasının xristian məhəlləsi olduğunu bildirir. Qırmızı fəslilər bura xristianları assurilərdir.

Bunrların özlərinə məxsusi bir qiyafeyi-millilləri yoxsa da, fəs sevirlər. DeməK olur ki, assurilerin çoxu fəs qoyar.

Misyonerlərin açdıqları bura məktəblərinin bütün şagirdləri haman qırmızı Osmanlı fəsi geyirlər.

Daha təəssüflü olan rus misyonerxanasının şagirdləri və müəllimləri dəxi fəspuşdurlar. Küçənin bu tərəf, o tərəfi bütün xristian evləri və xristian dükanlarıdır.

Burada hər cür sənət və peşə tapılar. Dərzi, başmaqçı, əkkas[1], həkim, xırdafürüş, əttar baqqal, hər qisim ticarət müəssisəsi mövcuddur. Dükanların qapısının bir çoxunda lövhələr asılmışdır. Lövhələr assuri və müsəlmanca yazılmışdır.

Bəzi ləvazimat almaq üzrə xırdavat dükanına daxil oluruq. Dükançı təbrizli bir türkdür. Haman uzun paltar, molla qiyafəsi, arıq röyət, rəngli saqqal tacirlərdəndir. Bir çox vaxt Qafqazda olmuş, ticarət etmişdir…

Dükanına düzdüyü mətaların əksəri rus malıdır.

Osmanlı pulu ilə alınan Avstriya malı isə hesaba alınmayacaq bir dərəcədədir. İynə-sapından tutmuş, köynək və düyməsinə kimi rus malıdır…

Bir-iki lazım olan şeylərin qiymətini soruruq, amma qiymətin bahalığından təəccüb etmirik. Çünki artıq İran dadi-sitədinə[2] alışmışıq. Onlar birə üç qiymət dedikdə utanmazlarsa, biz də üçə bir qiymət verdikdə qısılmıyoruq. Amma bir şeyə dilgirik ki, belə bir cüzi müamilə üstündə külli vaxtımızı hədər edəcəyik. Zatən İranda vaxtın qədri yoxdur. Vaxt burada qəpiyə alınmaz, hər şeydən ucuz olub, qədr və əhəmiyyəti bilinməyən haman vaxtdır.

Avropa iranşünaslarından biri ilə etdiyimiz müsahibədə məzkur dedi ki, İranda cüzi bir iş azı 3 ay, tezi 2 həftə, təcili isə 3 gün – bir həftə çəkər, tələsmək bilməzlər.

Şəhərə təzə gəldiyimizi, hər şeydən maraqlandığımızı görən küçənin işsiz dolaşan müxtəlif olan əhalisi iştə dükanın qapısını almışdır. Bunlar ilə danışırıq. Danışırıq qırmızı fəsli cavan bir assuri təqdim olunur. Rusca danışır, sınıq-salxaq bir ləhcə və şiyvə ilə səhv və amma sözləri bir-birinə qoşuyur da bəhs ediyor.

[1] əkkas – fotoqraf

[2] dadi-sitət – alver



Bu adam rus misyonerxanası cünbündə olan məktəbdə rus dili müəllimidir. Bizi rusiyalı olduğumuz üçün özünə doğma hesab ediyor.

İştə cavan bir kürd qiyafəsi bir qədər təməddünləşmiş diqqətimi cəlb ediyor.

Buna yan alıb tanış oluram, müsahibə ediyoruq. Bu Osmanlı təbəəsi imiş, əhvalından xəbər alıyoram.

Sultan Həmidi qalxızdılar, indi daha bir az tutmaq, kəsmək və şuluqluq daha vardır.

Deyirlər ki, gələcəkdə əlbir olacaqlar – deyə türk ləhcəsi ilə cavab veriyordu.

Fəqət indi bir az şuluqluq olarsa, bu gərək insanı ümidsiz etməsin.

Zira, köhnə bir evi söküb, təzə imarət yapdıqda, toz olmasın, torpaq olmasın – deyə arzu etmək mümkün deyil.

İştə Sultan Həmid idarəsi kimi bir köhnə istibdad qalxızılır, əvəzinə yeni türk üsulu kimi bir qanun qonulur. Təbii ki, şuluqsuzcasına böylə bir dəyişik ola bilməz.

Müsahibim fikrim ilə tamam-tamam razıdır. Vətəni olan osmanlının istiqbalına xeyli güvənir. Haman o istiqbal sayəsində milləti olan kürdlərin mütəməddiyanə məişət edəcəklərinə dəxi ümidlər bəsliyor.

Əsl bazara tərəf gediyoruz.

Bura küçələri Təbriz kimi tamam bir boz divarlardan ibarət deyil. Bir çox küçələrdə şaqqıltı ilə axan nəhrin kənarlarında bitən göy ağaclarla müzəyyəndir.

Bazara çatıyoruz.

Tərəddüdlü, qalmaqallı, həyatlı bir caddə, haman Təbriz kimi, üstü örtülü kərpic tağlar – İranın bütün bazarları böylədir. Hətta xırda kənd bazarları dəxi ələf qurusu və çör-çöp ilə olsa da, bazarları örtürlər. Əvvəli darvazadan giririk. Yeyinti satılan bazardır. Qatar ilə baqqal dükanı, əttar dükanı və qəssablardır. Satıcılar bütün müsəlmanlardır. Səsdən qulaq tutulur. Hərə bir dil ilə öz matəmını tərif ediyor.

Malını tərif, müştərini cəlb etmək kimi sədalar arasında yol ötənlər biri-birinə zarafat etmək kimi səslər dəxi musiqi düzəldib, bazar nəğməsinə təkmil veriyor.

Bütün bazarı gəzirik. Hər şeyə baxıb, hər kəsə diqqət yetiririk, hər kəs də bizə baxıb diqqət yetirir, başqalarının bir o qədər məzhəri-diqqətləri olmazdıq, əklər qiyafəsini təəssüratımda təriflərini etdiyim İran sailləri bizi diqqətsiz buraxaydılar.

Günah edib bazar başında bir qran pul paylamışıq. İndi bir 10 nəfər gəl-gör üryan, çirkin və cındırpuş uşaqlar dalımızca düşüb sayə[1] kimi dolanır, hərə bir lisani-müessir ilə ləliyor. Həvəsimizi bütün pərt ediyorlar. Artıq heç bir şey öyrənə bilmirik. İnanız, heç şey də görmüyoruq. Hər kəsə rücu edib, xahiş edirik ki, bizi bunların əlindən xilas etsin, kimsə bacarmıyor. Pul verib ötürmək isə tədbirlərin ən pisidir. Zira, o vaxt dəstə daha da böyüyəcək.

Bir tövr ilə dilənçilərin cəngindən qurtarıb, bazardan rədd oluruq.

**M.Ə.**

*«Tərəqqi», № 140, 25 iyun 1909*

## YOL TƏƏSSÜRATI

### URMİYƏDƏ

*(keçən nömrədən mabədi)*

Bazarın xaricə malı satan qismi bütün rus əmtəəsi ilə ticarət ediyor.

Haman rus ticarətinin daireyi-tövsiyəsini bir dərəcə göstərmək üçün 1908-ci sənə martın 9-dan 1909 sənəsi martın 9-na kimi Urmiyəyə gələn Rusiya mətaının ümdələrinin statistikasını mülahizə etmək ərbabınca mənfəətindən xali olmaz.

| cins | miqdarı | qiyməti |
|---|---|---|
| çit – | 532, 896 mən* | 1725060 qran** |
| neft (cövhər) – | 901 72 metr | 733,323 « » |
| qənd – | 331 659 litr | 175,543 « » |
| şam – | 960 | 5700 « » |

Çay, dəmir alat, papiros kağızı, ənfiyə[2], içki və bir çox qeyri şeylər daxi Urmiyə bazarında boldur.

Bu ədədlər Urmiyə gömrükxanasından keçən malların miqdarını göstərir. Həqiqətdə isə bundan daha artıqdır. Zira, Urmiyəyə gələn malların çoxusuna Xoy gömrükxanasında baxılır. Urmiyədə baxılan isə Rusiya yük şirkətçisi vasitəsilə gələn mallardır.

Azərbaycanda işlənən fabrika hasilatı şeylərinin əksəri rus malıdır.

Azərbaycan rusların ticarətinə qarşı bir dərəcəyədək rəqabətsiz bir bazardır. Fəqət rus diplomatiyasının sayeyi-təvəccöhündə bu rəqabətsizlik davam edə biləcəkmi?..

[1] **sayə** – kölgə
* **mən** – batman (bir batman 4,75 kq)
** **qran** – 1826–1932-ci illərdə kəsilmiş və 20 şahıya bərabər gümüş sikkə Çəkisi 7 qr. Nominal dəyəri 1000 dinara bərabər idi. – *Ş.H.*
[2] **ənfiyə** – burunotu



* * *

Bazarın səyahətindən qayıtdıqda yolumuzu başqa bir küçədən salırıq. Qəsdimiz şəhəri səyahətdir.

Müsəlman məhəlləsidir. Evlər pəncərəsiz, rovzənəsiz[1], qara palçıq divarlardan ibarətdir. Məlumdur ki, belə bir sadə və yekrəng olub, tərəddüd sərrdan daha məhrum olan küçələrin içinə qabili-təvəccöh artıq bir şey tapmaq olmaz.

* * *

Urmiyə evləri tamam səngərli olub hərəsi bir qala imiş.

Damlarda, evlərin guşələrində bir arşın hündürlükdə hasar çəkib bir neçə arşın daha qayrılmışdır. Bunlar düşməndən müdafiə etmək üzrə qayrılmış səngərlərdir. İnqilab vaxtının asarıdır.

Şəhər kənarında bağ-bostan üstündə tikilən evlər isə bir qalaya müşabehdir.

Bu qalalar qala palçıqdan yapılıb girdə olur, üst tərəfindən isə köhnə şəhər qalalarında olan kimi tüfəng atmaq üçün deliklər qoyublar.

Bu yerlərin bəlası olan kürdlərdən müdafiə üçündür.

Məhəllələrin birindən keçərkən topxanaya rast gəlirəm. Daxil olub tamaşasını ediyoram. Bu topxanalardan birini mən Ənzəlidə və Təbrizdə daxi görmüşəm. Topxana dediyin keçmiş əzəmətdən qalmış məxrubə[2] bir yadigardır.

Sümbə ilə dolub atılan bir çox bürünc toplar işlə tökülüb uçmaqda olan topxanadadır. Əllərinin altında durub yan-yana söykənmişlər. Bugünkü dava kərəstiləri[3] barəsində olsun ki eşidiblər ki, böylə bir heyətlə ağızlarını açmış dağ qalmışlardır.

Bu bir o qədər köhnə asar deyildir. İran isə bir çox asari-ətiqə[4] yeridir. Burada nə qədər asari-əzəmət olan xərabələr vardır.

İran 6 min illik bir mədəniyyətin qəbiristanıdır. Topxanadan çıxıb xiyabanə tərəf gəlirik. Müsəlman məhəllələrində bir çox müsəlman arvadlarına rast gəlirik. Bunlar Təbrizdə, Rəştdə gördüyümüz nisvani-islamiyyə kimi bir o qədər də bərk çakinməzlər. Çoxsu rübəndsiz olur. Qarapuş olmaq daxi ümumi deyildir. Bir çox arvadlar rast gəlir ki, əlvan və qırmızı çarqəd örtərək gəziyorlar. Su başında oturub, küçədə paltar yuyarlar, qab suya çəkərlər.

Urminin mənzəreyi-ümumisi qayətdə nəcibdir.

Məşhər[5] uzaqdan böyük bir dağa, qalın bir meşəyə bənzəyir. Hər tərəfdən haman oxumaq avazlarıdır, qonağa çatıyor. Əhalisi laübali və laqeydliklə məşhur və mərufdur.

Urmiyə, 15 iyun

**M.Əmin**

*«Tərəqqi», № 141, 26 iyun 1909*

[1] **rovzənə** – baca
[2] **məxrubə** – xərab olmuş
[3] **kərəsti** – ləvazimat
[4] **asari-ətiqə** – köhnə abidələr
[5] **məşhər** – göstərilən yer

## İRAN MƏKTUBLARI

*(müxabiri-məxsusimizdən)*

### OSMANLI-İRAN HADİSƏSİ

#### Urmiyədən

Bu gün xüsusi bir iş üçün Osmanlı şahbəndərxanəsinə gediyorum.

Küçələr haman adi surətində, xariqüladə heç bir şey yox. Urmiyənin həmişəki qaidəsi üzrə küçələr xəlvət, cümə olduğundan bazar-dükan bağlı, söyüdlərin dibində xırda uşaqlar çimir.

Gediyoram. Şahbəndərxanə qapısında duran əsgərlər:

– İcazə yoxdur – deyə məni saxlayırlar. Təvəqqe ediyoram ki, şahbəndərə desinlər ki, filankəs gəlmiş, görüşmək istəyir.

İzin alınır.

İçəri gediyoram. Şahbəndərxanənin dəftərxanəsi ağzına kimi dolmuş onbaşılar, amirlər – hamısı müsəlləhdirlər, durmuşlar. Halət başqadır.

– Nə varmış, görəsən?

Mənə yer göstəriyorlar. Otururam. Şahbəndər cənablarının qiyafəsi bambaşqa. Fəs əvəzinə ingilis kepkəsi, ayağına səfər şalvarı geymiş. Beşaçılan vintovkası da qabağında durmuşdur.

Telefon ilə danışır. Görünür ki, rus konsulxanası ilə söhbət ediyor. Telefon müsahibəsindən anlaşılır ki, şahbəndər cənablarının şəhər valisi ilə bir məsələsi vardır.

Nə varmış, bu nə halətdir? – deyə soruyoram. Şahbəndər Petros əfəndi məni hali ediyor. Deyir ki, bizim Osmanlı təbəəsi və şahbəndərxanə (gömrük idarəsi. – *Red.*) qulluqçularından bir nəfərin əlindən hökumətə şikayət etmişlər. Vali alıb onu həbs etmiş. Bir nəfər başqa qulamımızı göndərmişəm ki, onu həbsdən alsın, nə təqsiri varsa, biz özümüz edək. Qulamı söyüb qovmuşlar. Mən qulama inanmayıb telefon ilə validən bəyani-hal etdim. Cavab verdilər ki, doğrudur, qovmuşuq. Bunu mütaaqib yerdə baxdım ki, şahbəndərxanə ətrafında fədailər səngər tutmuşlar. Mən də qorxdum. Zira, Dilmaqan vəqəəsi bizə dərs olmuşdur. 7 nəfər əsgərimizin qanı hənuz qurumamışdır. Odur ki, biz də qarovulda durmuşuq. Məqami-müdafiədə bizə baxınız nə haldıyam – deyə:

– Çuxasını atır da bütün patron içində olduğunu nişan verir.

Şəhər kənarındakı əsgərləri daxi dəvət etmişəm. İndi gələcəklər. Valiyə bir saat daxi vaxt verdim. Bir saatə kimi məhbusu buraxmazsa, güc ilə alacağam.

Bu vaxt vali yanına məhbusu almaq üçün getmiş olan 2 qulam qayıdırlar.

Petros əfəndi kəmali-hiddətlə bunlara hayqırır da, çığırır ki, bəs hanı məhbuslar. Bunlar söz demək istəyirlər, şahbəndər isə qulaq asmaq



istəmiyib, birinin boynuna bir sillə, digərinin arxasına bir təpik salıb, bu saət gediniz də iki nəfər də özünüzlə əsgər alınız, vali qapısında durunuz da, bir saətə kimi gözləyiniz.

Bunlar çıxıyorlar. Həyətdə durub, pəncərədən deyirlər ki, axır bizə deyirsiniz ki, qayıdınız, necə gedək ki, valinin dövrəsinə səf çəkib durmuş mühafizlər kimsəni buraxmırlar.

– Aha... öylə! – şahbəndər daha da kəcxulq oluyor. Qulam daxil olub da şəhər kənarındakı əsgərlərin gəldiklərini xəbər veriyor. Yüzbaşı gəlir, şahbəndər ilə görüşür, çıxıb komandaya məşğul oluyor.

– Mən əhvali belə görüyor, söhbətdən heyrətim artıyor. Əcəba şahbəndər cənabları niyə gərək belə bir hiddətə gəlsin?..

Öz fikrimi bəyan ediyoram ki, Osmanlı dövlətinə yaramaz ki, bugünkü gündə iranlılarla qövqa açsın. Bu bir ləhzə indi ki, politikaya diqqət verməlidir. İşin sülh ilə qurtarmasına çalışmasını şahbəndər cənablarından xahiş ediyoram.

Tövsiyəmdən dolayı bəyani-təşəkkür ediyor.

Vidalaşıb çıxıram. Damlarda bütün əsgərlərdir. Səngər bağlamışlar. Bir dəstə əsgər daxi küçə uzunu nərəyə isə gediyor. Məsələni ətraflıca tədqiq etmək üçün buradan çıxıb, birbaşa fədaibaşı Məşədi Bağırın yanına gediyoram. Nə fədai hərəkəti, nə də səngərlər görünüyor. Bir xətasız deyilən nəzmiyyə idarəsinə daxil oluram. Baxıram ki, Məşədi Bağır kəmali-sakitlik ilə öz nəzmiyyələri ilə oturub bozbaşın yeyir. elə bil ki, bu mərəkədən heç xəbəri belə yoxdur.

Məni görcək, təklif edir ki, süfrəyə əyləşim. Bəyani-imtinan edərək imtina ediyoram. İsrar ediyor, həmsüfrəlik ediyoram. Əhvalatı xəbər alıyoram, bəyan ediyorlar ki, həbs olunan əvvəli nə osmanlı təbəəsidir, nə də şahbəndər qulluqçusu. Bir neçə vaxt bundan irəli osmanlılara qulluq etmişdir. Səngər bağlamaq filan xəbərləri daxi tamilə[1] yalandır. Söhbət ediyoruq. Məşədi Bağır həm validən, həm şahbəndərdən şikayət ediyor. Hər ikisinin də üsulsuzluq etdiyini zəmm ediyor[2].

Şəhərdə olan nəzmiyyə vəzifəsini dolandıran fədailər birər gəlib, Məşədi Bağırın ki, sərnəzmiyyə rolunu ifa ediyor. ərz ediyorlar ki, Osmanlı əsgərləri dərvazələri tutmuşlar. Burada daxi sülhən məsələləri həll etməyi tövsiyə edib çıxıram.

İndi haman ultimatumdan tamam 4 saətdir keçir. Hənuz bir şuluqluq yoxdur. Məlum oluyor ki, məhbusu buraxmışlar. qailə[3] rəf olmuş.

İştə qanlı bir nəticə çıxaracaq olan vəqə bu surətlə həll olundu. Bu iştə rus konsulu xeyli vəsadət etmişdir. Osmanlılar ilə iranlılar arasında olan gərginlikdən bu vəqə bir nümunədir. Neçə vaxt iləri Dilmaqanda düşən vəqəeyi-mösifəni[4] yazmışdıq!..

---

[1] **tamilə** – tamam
[2] **zəmm etmək** – gileylənmək, danlamaq
[3] **qailə** – hadisə
[4] **mösif** – təəssüf doğuran

Fəqət böylə bir hal osmanlılara yaraşar, onların mənafeyinə təvafüq edərmi?

Milçəkdən fil qayırmaq dərəcəsində təmkinsizlik edən Petros əfəndi kimi nümayəndələr öz vəz və hallarını anlamayaraq, rəqibin fitnələrinə alət olmalarına mənafeyi-osmaniyyəni himayə etdikləri halda, onu ayaq altına alıb tapdalayırlar və qoşunsuz, hökumətsiz İrandan bir saatlik ultimatumla bir məhbus buraxdırmasını anlamıyor və daha doğrusu, anlamaq istəmiyorlar ki, böylə bir şiddətli rəftar ilə elə hər bir şeydən artıq gərək olan «cəlbi-məhəbbət»[1] məsələsi real oluyorda, rəqib- lərin istədikləri «təfriqə» məsələsi cayigir oluyor.

Assuriləri katolikliyə döndərmək yolunda misyonerlik aləmində xidmət etmiş və bu xidməti üzrə Rim papasından medal almış bir adama siyasi bir nümayəndəlik verilərsə, böylə oluyor. Qaş qayırdığı yerdə göz çıxarıyor.

Osmanlı yeni türk xaricə vəzarətinə lazımdır ki, burasına diqqət yetirib də Əbdülhəmid əsrindən qalan tətimmələri xarici politikasından dəxi təmizləsin və diplomatiya məmurlarına bunu andırsın ki, İran müvəqqəti valiləri təhti nüfuza düşərlərsə də, Osmanlı mənafeyini müharibə edən məmuruni-siyasiyyət böylə bir səpki-müttəhimlik yaraşmaz!..

* * *

Bu sətirləri qurtarırdım ki, qulağıma tüfəng atışmalarının sədası gəldi.

Təhqiq etdim, xəbər aldım. Məlum oldu ki, dağlı assurinin həbsdən xilas olmasında kəsb qələbə etmiş olan Petros əfəndinin hirsi yatmamış haman «yağı» iranlılara zərbi-dəstini, bittamam göstərib, osmanlı heysiyyətini qalxızmaq üzrə çoxdan bəri bəhsli[2] olub qalan məscid məsələsini təzələmişdir.

### Məscid məsələsi

Bura sünnülər məhəlləsində köhnə bir məscid vardır ki, sünnülərin əlindədir. Bu məsciddə yaxın bir mollanın evi var. Əz qərari-məlum bu ev məscidin ləhəqatından[3] olub, bir zaman hümayun bu mollaya satılmış imiş ki, bədə mollanın özü burada olmadığı bir vaxt haman məbləğ məzkurun oğluna verilib, ev yenə də geri alınmışdır. Molla isə səfərdən qayıdıb öz evinə malik olmuş və mollalığına salıb məscid mütəvəllilərinin etirazına baxmamışdır.

Şahbəndər cənabları isə bu davanı Səidülməmalik vaxtında belə edib o vaxt mövcud olan bələdiyyədən bir heyət gedərək, təyini-məsafə edib, məsələni məscidə tərəf kəsmişdir. Fəqət iş icra olunmuyub qalmışdır.

[1] cəlbi-məhəbbət – məhəbbət qazanmaq

[2] bəhsli – mübahisəli

[3] ləhəqat – burada: mülklər



İndi isə başına vaxt qəhət olmuş olan şübhəli şahbəndər bir qovğadan qurtaracağın haman bir məscid məsələsini qalxızmış və əsgərləri ilə gedib, mollanı vadar etmişdir ki, bilatəxir evi təxliyə etsin. Etdirmiş və beydaq da vurmuşdur.

Böylə bir hərəkətdən həyəcana gəlmiş olan molla bir dadi-fəryad ilə vali yanına getmiş, fədailər dəxi bundan xəbər tutaraq, nümayəndə müteəssir olmuş. Müftinlər[1] isə işə düşmüş, gülləbazlıq başlanmışdır. Osmanlı təbəəsindən bir-iki nəfərini öldürüb və yaralamışlar.

Şahbəndər isə bütün-bütünə qorxmuş, əhli-əyalını mənsub olduğu Amerika misyonerxanasına göndərmiş və özü isə axşam qaranlığı düşdükdə rus konsulundan telefon ilə istəmişdir ki, valiyə desin ki, İran qarovulçularından kimsə bayıra çıxmasın.

Bu gecə səhərə kimi şəhərin müxtəlif yerlərində atışma səsidir gəliyordu. Halət həyəcanlıdır. Hər kəsdən xəbər alarsan nədir?

– Osmanlı ilə əncümən dava ediyor – diyorlar. – Osmanlı ilə əncümən dava ediyor!..

İştə Osmanlı diplomatlarının yaratdıqları tədbirli diplomatiya politikası!

Böylə şiddətli tədbir və yersiz tərsliklərlə əcəba Petros əfəndinin istədiyi nədir?

Urmiyənin rus qoşunları ilə dolması və osmanlılara qarşı böyük bir nifrəti-ümumi qazanılmasımı?

Nəzərimizcə, böylə bir arzu Petros əfəndiyə lazımsa da, osmanlıların hökumətinə bilmərrə lazım deyildir.

Fəqət bundan bir şey anlaşılır və hasil oluyor ki, Petrosun şahbəndərliyi şübhəlidir – deyiriz. Zira, bura məhafili-rəsmiyyəsi onu şahbəndər tanımıyor. Fəqət qabaqda olduğu kimi bir tacirbaşını tanıyorlar. O özü isə şahbəndərliyini rus konsulxanasında yazdığı kağızlardan çıxıyorsa da, böylə bir mühüm məsələdə qoşunkeşlik edib, hətta Təbriz və Tehran ilə müxabirə etmiyor.

* * *

İndi bu saat Osmanlı şahbəndərxanasından gəliyoram. Rus konsulu iki nəfər kazak ilə, Osmanlı şahbəndəri 30 nəfər əsgər ilə şahbəndərxanadan çıxıb, vəsatətə gəlmiş olan Nəzmüssəltənə Əmirtumanın evinə gedirlər ki, vali də oraya gəlib iğtişaşa intəha qoyulacaq.

Bir əsgəri daha bu gün sübh qıçından yaralamışlar. Konsullar şahbəndərxanadan bir-iki küçə ayrılmağın qonşu damlarda səngər bağlamış olan fədailər əsgərlərə atəş açırlar. Əsgərlərin atəşkəs borusu isə eşi-

[1] müftinlər – fitnəkar

dilir. Damlardakı səngərlərdə gizlənmiş olan fədailəri görmək mümkün deyil ki, güllə atmaq fayda versin.

Hələ də ara-sıra güllə atılmaqdadır. Buradakı rus konsulu cənab Miller neçə vaxtdır ki, ərzi-hal yazmaqdan, teleqraf verməkdən yorulmuşdur ki, burada qüvvətli bir hökumət lazımdır.

Rusiya mənafei bilmərrə zaye oldu getdi. Qoşun göndərməlidir. Heç kəs qulaq asmıyordu.

Nəhayət, 40 soldat almağa müvəffəq oldu. Onda da bu 40 soldat ilə layihələrində olan işləri icra edə bilmiyor. Yollar haman əvvəlki surətdə bağlı qalmış, teleqraf işləmiyor. Bir çox siyasi fikir icra olunmamış qalıyor.

İştə bu vəqəə ən açıq həqiqətlərdən biridir ki, rus konsulunun sidqinə şahid olsun, məqsudinə çatsın.

Böylə bir əhəmiyyəti haiz olan məktub bu gün xüsusi bir çapar ilə kəmali-sürət ilə olaraq Təbrizə göndərildi.

Urmiyədən tereqraf etmək mümkün olmadığından, bu xəbəri teleqrafa müxabirə edə bilmədim.

Petros əfəndinin politikası barəsində müfəssəl gələn dəfədə.

İndi isə poçta vaxtı keçiyor. Artıq təfsil vermək mümkün deyildir.

Urmiyə, 14 iyun
**M.Əmin**

Çörəkçilər ilə qəssablardan başqa bütün dükan-bazar bağlıdır. Əhval müşkilləşiyor.

*«Tərəqqi», № 142, 28 iyun 1909*

## İRAN MƏKTUBLARI
*(müxabəri-məxsusimizdən)*

### TƏBRİZDƏN

Səttarxan, Bağırxan və yoldaşları hənuz Osmanlı bəstindədirlər. Böylə görünür ki, İran məsələsi tamamilə həll olunmayana kimi bəstdəkilər çıxmayacaqlarmış.

Tehranın mühasirə içində olduğuna dair burada xəbərlər buraxılmışdır. Öylə danışırlar ki, guya, Qəzvin orduyi-millisi Tehran hasarlarının dibindədirdə Səmsamüssəltənəni gözlüyorlar ki, axırıncı hücumlarını etsinlər.

Təbriz və Tehran yolunda şuluqluq varmış, şahsevənlər yoldan keçən karvana əziyyət edirmişlər – deyə şayələr buraxılmış, Miyanə yolunda heç bir faytonçu Tehrana getmək istəmiyor.



Ərdəbildə əhval məğşuşdur. Şahsevənlər Məhəmmədqulu Alanın sərkərdəliyi ilə Rəşidülmülkü əhatə edib tutmuş, həbsə almışlar. Hal-hazırda isə, guya, Məhəmmədqulu özü Ərdəbildə hökumət etməkdədir.

Burada bir intibahnamə paylayıb Səttarxan, Bağırxan və qeyri mücahidlər barəsində bəzi ittihamat nəşr etmiş və əleyhlərində şiddətli bir lisan ilə ittihamatda bulunmuşlar. Buradakı ərbabi-maarifin əksərən əqidələri bunadır ki, bu intibahnamə rus konsulxanasının təhriki ilə nəşr olunmuşdur.

Tazə təşkil olunmaqda olan nəşri-maarif cəmiyyətinə əzalar yazılmaqdadır. Yaxın bir vaxtda cəmiyyəti-məzkurənin rəsmi-iftitahı[1] olub, idarəsi və qeyri heyətləri təşkil olunacaqdır.

Rusiya qoşunu arasında naxoşluq düşüb, yatalaq mərəzi sirayətini artırır. 20 gündən bəri 6 nəfər soldat və bir kazak ölmüşdür. Görünür ki, Təbrizin havası soldatlar ilə saziş etmiyor. Azarlıyan soldatlar ümdə Polşa tərəfindən alınanlardır.

İki gün irəli buradan Urmiyə gedən Kamilbəy haman Urmi şahbəndərliyinə təyin olunaraq getmişdir ki, məşhur Petros əfəndinin əzlinaməsini dəxi özü ilə bərabər aparmışlar. Burası çoxdan lazım idi.

Layiq deyil ki, o kimi hiylə satan şarlatanlar Osmanlı nümayəndəsi olsunlar da yeni türk diplomatiyasının abrusunu aparsınlar.

Böylə bir təbdil bir az daha əvvəl vaqe olsaydı, iyunun 13-də olan o müsif vəqəə daha düşməz idi zənn edəriz.

Osmanlı baş şahbəndəri cənab Məhəmməd Əli bəy əfəndi şəhər kənarında olan Lalə yaylağına köçmüş, bəstnişinlər isə konsulxanada qalmışlardır.

Agentə teleqrafının əlavə etdiyimiz xürafatı isə agentənin adəti olan böhtanlardandır.

Urmi rus konsulu Təbriz general-konsulluğuna yazdıqları ərzi-hallarında israrən istəyir ki, Xoy və Səlmas yolunu açmaq və bu cəhətdən rus malüt-ticarəsinə toxunan zərərlərə bir xatimə çəkmək üçün oraya kilitli bir qoşun göndərilsin.

Hazırda göndərilmiş olan 40 nəfər soldat isə konsulxananı mühafizə etməyə ancaq kafidir.

Teleqrafı sazlamaq, yolları açmaq isə bunların qillətindən[2] naşi mümkün deyildir.

---

[1] iftitah – açılış

[2] qillət – azlıq

Xorasan iğtişaşı burada bir çox həyəcana bais olmuşdur.

Rus konsulxanası bu xüsusda heç bir cavab verməyib dedi ki, üç gün irəli rəsmi surətdə teleqraf çəkib cavab istəmişiksə də, bir xəbər yoxdur.

Hərgah Gilan və İsfahan inqilabçıları tizdəstlik[1] edib, yaxın günlərdə bir şey edə biləcək olurlarsa, işi irəlidən apara biləcəklər, yoxsa İran adəti olan ağır tərpənmək bu dəfə də vaqe olarsa, şahı, taxtını və tacını təmin etmiş, dövlətini mühafizət edəcəklərdir.

Qaracadağlı məşhur Təbriz cəlladı Rəhim xanı Əhərdə olduğu halda, şahsevənlər mühasirəyə almışlardır.

19 iyun

**M.Əmin**

*«Tərəqqi», № 143, 29 iyun 1909*

## QƏRİBƏ BİR BAYKOT

*(müxabiri-məxsusimizdən)*

### TƏBRİZDƏN

İranın ermənilərі iranlıların ən mədəni qismi hesab olunurlar. Bunlar burada Avropalı bir millət kimi yaşarlar. Bütün ölkə məktəbsizlik bəlasına giriftar, cəhalətə düçar olduğu bir halda bu millətin özünəməxsus məktəbləri mövcud olub, hər qisim ülümdən təhsil edərlər.

İran qəribə bir təzad və dərəbəylik ölkəsi olduğundan qanun-qaidəsi yox, zülm və ədaləti bəgənilməz bir dövlət olduğundan, nədən isə ermənilər İranda kəmali-istirahət və azadlıqla yaşamışlar.

İran istibdadından bunlar zərrəcə bir zərər görməmiş kəmali-rəfahətlə dolanmışlar.

İran xanlarının, ərbablarının, sahibi-zülm və ictihaflarının[2] hər nə qədər dürüşkarlıqları[3], vəhşilik və dirrəndəlikləri[4] varsa, hamısı haman müsəlman əhalisinin başında oynadılmış, ermənilər isə bu bəlalardan daima məsun[5] qalmış, müsəlmanlara nisbətən artıq bir imtiyaz ilə dolanmışlar.

İştə bu imtiyaz sayəsində olaraq rəfahət və səadətlərini hazırlayıb, hər yerdə cəmiyyətlərini mədəni etməyə çalışmışlar.

Böylə ki, bu gün Təbrizdə hər kəs erməni cəmiyyətini görər. Onların firavan həyatlarına diqqət edər. İttifaq, ittihadlarına baxar, məktəb, kəlisa və qeyri-mədəni cəmiyyətlərini seyr edərsə, bu millətə afərin oxur, təhsin edər.

---

[1] **tizdəstlik** – çeldlik
[2] **ictihaf** – qəddarlıq
[3] **dürüşkar** – kobudluq edən
[4] **dirrəndəlik** – yırtıcılıq
[5] **məsun** – toxunulmaz



Bu gün baxıram ki, erməni dilində elamnamələr nəşr olunuyor.

Birini alıram, oxutdururam. Tərcümə ediyorlar ki, erməni bağında erməni müteəllimlərinin cəmiyyətləri nəfinə seyri-ümumi olacaqdır.

Maraqlanıyoram, gediyoram. İran ermənilərinin mədəniyyətlərinə tamaşa edim, görüm İranın mütərəqqi qismi olan bu cəmiyyət nə haldadır, heç olmazsa burada asari-mədəniyyət görüm də İrana sevinim.

Bir-iki nəfər iranlı cavanlarına, əhli-maarifinə təklif ediyoram ki, bu gün erməni bağında seyri-ümumi vardır, gedəlim, seyr edəlim.

Bunlar mənə deyirlər ki, onlar məzurdurlar, gedə bilməzlər. Zira, müsəlmanlar bu bağa qoyulmazlar.

Mən inanmıyoram. Zira, necə olur böylə bir şey olsun ki, ermənilərin İran müsəlmanlarından nifrət etməyə heç haqq və ixtiyarları yoxdur.

Necə olur böylə bir fikir olsun ki, ermənilər daima İranda məhəbbətlə yaşayaraq gəlmiş, bunları burada kimsə incitməmiş, tamam İran xanların, ərbabların, qisim-qisim zalımların zülm və ictihaflarına, qədr və cəbrlərinə məzhər olub qaldıqları bir vaxtda, ermənilərə kimsə bir təcavüz etməyib, bunlar məsud yaşamış, öz güzaranlarında olmuşlar. Həyati-ümumiyyələri fikrində olub, binnisbə[1] bütün hürriyyətləri ilə mənfəətbərdar olub, iqtisadən daxi xoş rüzgarlıqda olmuş, dolanmışlar.

Necə böylə bir şey oluyor. Haman bu ermənilər, bugünkü gündə müsəlmanlar ilə əl-ələ, yan-yana olaraq hürriyyət uğrunda, vətən üstündə can veriyor, fəda oluyorlar.

Qırmızı Sultan Həmidin əsrində çəkdikləri fəlakətlərə, məhzər olduqları bəlalaraTürkiyədə ermənilər belə bir şey yapmadılar, yapmamışlar. Necə oluyor mehriban İranda belecə bir mehribansızlıqlarda bulunsunlar. Böylə bir şey olamaz. Yəqin, bu bir münaqişədir. Şəxsən təhqiq etmək lazımdır.

Gediyoram. Bilet alıb bağa daxil oluram. Kimsə bir söz demiyor.

Tanış ermənilərə rast gəliyoram. Zarafatyana diyoram, təəccüb ediram ki, məni daxil olmağa qoydular.

Bunlar xəcalət çəkərək, məhbubanə gülümsəyirlər.

Bədən mən eşitdiyim inanılmaz xəbəri təhqiq edirəm. Məlum olur ki, əsli varmış. Fəqət bəyan edirlər ki, bu bəzi avam və dənilər ki, özlərini arvad olan cəmiyyətlərdə apara bilmiyorlar, onlardan ötəridir. Yoxsa tərbiyət olunmuş əhli-ürfanə söz yoxdur. Çox oluyor biz öz yoldaşlarımızı bərabər gətiririk.

Böylə bir izahat verdikdən sonra tanış ermənilər məni digər erməni və erməni xanımları ilə tanış ediyorlar. Söhbət ediyorduq, gəziyorduq, dolanırdıq.

---

[1] **binnisbə** – nisbətən

Bunlar həmin bu cəmiyyətin və bağı idarə edən komisyonun dargözlüyündən, mütəəssib millətçi olduqlarından şikayət ediyorlar. Diyorlar ki, guya, erməni tacirlərinin çoxusu xuliqandır, istibdad tərəfdarıdır, millətçidir, mütəəssibdir. Cavan ermənilər onların əleyhinə mübarizə ediyorlar. Amma hənuz gücsüzdürlər, böylədirlər, öylədirlər.

O gün tə gecəyə kimi gəzib dolanıb söhbət ediyoruq. İranın övzaihaliyəsindən bəhs ediyoruz. İran inqilabını tənqid edirik. Axırda biz cəmiyyət ilə bağdan çıxıb ayrılırıq. Xudahafizləşir, vida ediyor, hər kəs bir tərəfə gediyoruz. Bunlar kəmali-səmimiyyətlə məni hər dəfə bağa gəlməyə dəvət ediyorlar. Yenə təşəkkür ediyoram.

* * *

Bir neçə vaxt sonra rəfiqim «Russkoye slovo» müxbiri və o cənabın banuyi-möhtərəmələri ilə bərabər erməni bağının qabağından keçirik. Ətəşimizi yatırmaq üzrə bağa daxil oluruq ki, bir qədər mədəniyyət suyu içək. Gedirik balkonda bufet qabağında oturub su istəyirik. Su verirlər. Rəfiqim nədən ötrü isə durub bufetə gediyor. Mən ilə hörmətli xanım qalırıq. Söhbət ediyor. Ermənilərin hümmətli, mədəniyyətli bir millət olub, hər yerdə məhəbbət və həmiyyət ilə dolanmaqlarına, bərbad İran içində böylə abad bir bucaq rahlayıb, rahətcə dolanmalarına dair mübadileyi-əfkar edirik.

Bu vaxt bir nəfər cavan erməni mənim yanıma gəlib, iki dəqiqəliyə xahiş edirlər ki, bir mühüm söz deyəcəklərdir.

Durub bunun ardınca gediyoram. Məni bir tərəfə, camaətdən kənar bir ağacın dibinə çəkib, guya, utana-utana bəyani fikir və etizar[1] etməyə başlayıb, rusca olaraq diyor:

«Mən artıq dərəcə bir heyif ediyoram ki, komisiyonda rusca danışa bilən fəqət mən olduğumdan böylə bir təklif icra etmək mənim öhdəmə düşüb. Məcburən sizə bəyan etməliyəm ki, müsəlmanların bu bağa gəlməyə ixtiyarları yoxdur. Təvəqqe ediyoram ki, məni əfv buyurasınız».

Müsəlmanı bağdan çıxartmaq üçün həman türkcə danışmaq bilən ermənilərə rusca danışmağı bacaranı axtarmağa nə ehtiyac var idi, bilmiyoram. Bəlkə, böylə vaxtlarda rusca danışmaq dəxi vəhşiyanə məramnamələrin bir fəsli mühümmidir?

– Bu, vəhşilik, bədəvilikdir, – deyə etiraz edib belə bir cəmiyyətə də, bağa da tüpürdüm.

– Düz buyurursunuz, əfəndim. Vəhşiyanə bir qaidədir. Amma mən bu qaidəni icraya məmuram. Məndə təqsir yoxdur.

Mən əhvalı yoldaşlarıma hala edincə, onlar da tüpürüb mötərizanə[2] bir surətdə bağı tərk etdik. Və əslində, erməni məktəbinin müəllimi

[1] etizar etmək – üzr istəmək

[2] mötərizanə – etirazkarcasına



olan fövqüzzikr məmur əfəndiyə dəxi bir neçə növhanəd və tobixatda[1] bulunub bağdan çıxdıq. Amma insanların bu dərəcə bir vəhşi millətçilik, dəni təəssübə, əclaf girü dara, alçaq nəmək bə haramlığa qapıldıqlarına heyif etdik.

İnsanın hamıdan çox əziz bəslədiyi bir övladı tərəfindən təhqir və təkdir olunan qədim bir məmləkətə həm nifrəti, həm də heyfi gəlirdi.

Biçarə İran!

Millətçilik! İnsan – insanlar əvəzində utanıyor, xəcalət çəkiyor!

Belə bir qaidə xüsusunda bundan artıq tənqiddə bulunub böylə bir rəftardan nə kimi şeylər törənə biləcəyini xüsumati-mədəni qarelərin, ələlxüsus, internasyonal ermənilərin nəzər-diqqətlərinə vagüzar ediyoram. Özüm isə böylə bir təəccüblü boykotajı qəribə bir vəhşilik hesab etməkdən başqa bir şey bilmiyoram!!.

Nasyonalizmin bu dərəcəsinə çıxmaq, həman o nasyonu bərbad etməkdir.

Təbriz
**M.Əmin**
*«Tərəqqi», № 143, 29 iyun 1909*

## YOL TƏƏSSÜRATI
*(xüsusi müxbirimizdən)*

### URMİYƏ

Urmiyə dəryasının Urmi tərəfi Gülməxanə kəndi – Urminin hal və övzaindən bir nümunə!..

Burası kiçik bir kənddir. Nə mollası var, nə kəndxudası. Hər bir cəhətdən qonşudakı böyük kəndə tabedir.

Müşti-nümuneyi-xərvari[2] qəbilindən olaraq Gülməxanədən aldığımız zövqü, orada gördüyümüz hüsnü-qəbulu, mehmannavazlığı, əhalinin sadədil, safdərun[3] olması ilə bərabər, bir dərəcəyədək arif olduğunu görüncə, insanın ürəyi şad oluyor. Bu mütəşəkklikdə nə qədər dilgüşə, ruhpərvər isə xərvar məsabəsində[4] olan Urmi daha zövqəfsa olacağından insanın ürəyi həman o tərəfə pərvaz ediyor. Dəryanın o tərəfində, dəryanın üzündə İmamqulu Mirzənin paraxod adı verdiyi qan çanağında insan nə qədər əzilib, ürəyi nə qədər qısılırsa da, Gülməxanədə bir gecə qalmaq hamısını yaddan çıxarır.

[1] tobix – danlaq

[2] müşti-nümuneyi-xərvari – xərvardan bir ovuc nümunə

[3] safdərun – safürəkli

[4] məsabəsində – misalında

Kokanda məktəb var idi, yəni bir molla var idi ki, uşaqlara dərs deyirdi. Amma mizbanımız oğlanların oxutmamış və oxutmuyordu. İşə göndərir idi. Gülməxanədə molla yoxsa da, qonaqçımız Muradın 3 oğlunun 3-ü də əhlisavaddırlar. «Gülüstan», Hafizdən şeirlər oxuyub, risalədən danışırlar.

Bunlar şəhərdə molla yanında oxumuşlar.

Gülməxanədə görərək gəldiyimiz bu qədər qaranlıq səhifələr arasında bir saf rəngli güldür. Bura insanın ürəyini açıyor, güldürür. Adının Gülməxanə olduğu nahaq deyilmiş!..

Gün çıxmış. Gülməxanəni işıqlandırmış, cavan yolçum Rəmz bizi tələsdirirlər. «istiyə düşərsiniz» – deyirlər.

Havada gecənin sərinliyindən bir əsər var ikən getməyimizi məsləhət görüyorlar. Bizim halımıza qaldıqlarında öz mənfəətlərini gözləmələrin də safdərunanə olaraq gizlətmiyorlar. Onlar çalışırlar ki, tezliklə qayıtsınlar, gəmi adam gətirmiş olur isə kirayə aparsınlar. Yola çıxırıq. Bütün külfət bizi yola salıyor. Hərəsi bir dil ilə nəvaziş ediyor. Ev kişisi Murad təvəqqe edir ki, qayıdanbaş dəxi onlara qonaq olaq. Vədə veririk, vidalaşırıq. Kəndi çıxdıqca haman «yaxşı yol» – deyə bizi ötürürlər. Hörmət ediyorlar. Kəndi çıxırıq, təpəyi aşırıq artıq dərya görünmüyor. Ətraf bütün bağdır. Göyərir. Yolçularımız bizi təfrih üçün xahişimizi əmələ gətirmək üzrə milli mahnılar oxuyurlar. Bu mahnılarda nə qədər sadəlik, nə qədər hissiyyati-təbii vardır. Mahnılardan birisini kəndçinin hal-hazıra nisbətən tutduğu nöqteyi-nəzəri saf dərunanəsini mütərcəm olduğu cəhətdən şayani-qeyd olduğundan burada zikr ediyoruz.

Mahnı cavan bir kəndli dilindən öz sevgilisinə xitabən deyilir:

Abı, yaşılı geyinər,
Zəbuni[1] yerdən sürünər.
Yel vurar məmən görünər,
Yandım, yanasan, ay qız!
Xırda qalasan, ay qız!
Apararlar xan yanına
Məni danasan, ay qız!
Qənd olasan, şəkər olasan
Cibə dolasan, ay qız!
Xırda qalasan, ay qız!
Apararlar əncümənə
Məni danasan, ay qız!

İştə avamcasına deyilən bu şeirlərdəki mütəəssir sözlər kəndistan həyatına bir şölə salıyor da, onu bütün həqayiqi ilə aşikar ediyor.

Oğlan bir qızı sevir, onu alıb qaçıyor, çünki qızın ürəkdən istədiyinə baxmayaraq, ata-anası özlərinə məxsus mülahizələrinə görə vermək istəmiyorlar.

Xan yanına aparıb, onu qandırmaq istiyorlar.

[1] zəbun – burada paltar



İnqilab başlıyor, xanlıq işinə gediyor, əncümən qurulur, amma eşq-məhəbbət işi haman köhnəliyində qalır. Bu dəfə də qızı sevgilisini danmaq üçün əncümənə aparıyorlar.

Sadə aşiqin ürəyini dağlıyıb sünuhati şairanəsini[1] oyadırlar. Fövqdə ki, mahnıları oxudururlar. Öylə ki, onun bu dərdi, o, ağlayıb-oxşaması milli oluyor.

Yolçular ağzına düşüyor da, dağlara səs salıyor, bağları ağladıyor, müsafirləri düşündürüyor.

Yolçularımız çox mehribandırlar, öz bildiklərini zühura verməkdə bir zərrə də müzaiqə etmiyorlar, oxuyurlar.

Lakin avamcasına mənalı olan mahnıları eşitdirən, bu sadə olan millət, verdikləri zövq əvəzində mükafat alaraq qeyri yerlərdə olduğu kimi cib deyil, haman könülə baxıyorlar.

Təvəqqe ediyorlar ki, mən də oxuyum. Bunlar israr ediyorlar, sizin yerin oxumağını eşitmək istərik. Müzaiqə buyurmayınız, – deyirlər.

Böylə bir sadədil rəfiqlərin ürəklərini sındırmaq şiyməyi[2]-insaf deyil. Oxumaq bilməsəm də haman yolçularımızın xatirini sındırmamaq üzrə «Leyli Məcnun»un «söylə bir görək, ey ərəb»indən istifadə ediyoram.

Yolçularımızın şadlığı, razılığı həddindən artıqdır. Yolun ayrılığını yolçularımızın düzlüyü yaddan çıxarır. Gediyoruz. Özümüzü bu anda məsud biliriz. Yolçularımız yoldan kənar olan hündür bir təpəni nişan veriyorlar.

– Bax, bu şiş dağı görüyorsunuzmu, buradan bizim başımıza nə bəlalar yağıyor idi. Kürdlər gəlib burada səngər ediyor, gecələr tökülüb, bu ara kəndləri bütün çaparlar idi. Haman bu yolun lap burasında bizim kəndimizdən bir nəfəri öldürmüşdülər. Fəqir məzlumun birisi idi. Yazıq!..

Bəs kürdlərdən sizi mühafizə edən yoxdurmu?

– Ey, harada qaldı!.. Bizim işimiz bir Allaha qalıb, onun da səbrinə qurban olum!

Doğrudan da, bu biçarə kəndçiləri əqvami-vəhşiyyədən olan dağ kürdlərinin talanından kimsə saxlamamışdır. Xüsusən bu axır ki, məşrutə sənələrində. Bir vaxt məhəlli irticayunlar məşrutəni nəzərdən saldırmaq üzrə yollayıb, bir vaxtda Sultan Həmid idarəsi sərhəd məsələsini həll etmək üzrə kürdləri İran sərhəddinə qısqırdıb ki, oradakı kəndlər Osmanlı himayətinə və dəxalətinə gəlməyə məcbur olsunlar. Məşrutəçilər də daima bunlar ilə müdafiədə bulunduqlarından, fürsət olduqca əllərinə düşəni qarət etməyə bunları icbar etmişlərdir.

Böylə bir dolama-dolaşıq siyasətdən istifadə edib, öz quldurluğuna meydanı açılmış görən vəhşi dağ əhalisi kürdlər, bu iki-üç ilin ərzində olmazın qarətlər etmişlərdir. Böylə bir ziyadə təsir görən kəndistan əhalisi isə məşrutənin şuluqdan ibarət olduğuna inandırılmışlardır.

[1] sünuhati-şairanə – şairanə xəyallar
[2] şiymə – təbiət, xasiyyət

Bizim sadədil, səfdərun gülməxanəçilərimiz dəxi bu təsirdən qurtarmamışlar.

– Əgər sizin bu gözəl və hasildar yerlərinizdə qaidə olaydı, qanun olaydı, bu yerlərin sahibi olaydı, yəni qoyaydılar ki, məşrutə düzələydi, o vaxt siz nə qədər məsud olur, nə qədər xoşbəxt keçiniyordunuz, bilirmisiniz?..

– Ah, məşrutə də bir şey deyildir, şuluqluqdur. Əgər şuluqluq olmasaydı, əlbəttə, məşrutə yaxşıdır, amma qoymuyorlar.

Əvət, məşrutə yaxşıdır, amma qoymuyorlar!..

Bu sözlərdə, sadədilanə rədd edilən bu sözlərdə nə qədər həqiqət, nə qədər məna var!..

– Kimdir qoymayan?

– Allah bilir!..

İştə İran məşrutəçilərinə lazım idi və lazımdır ki, kəndçilərin, əhalinin mübaliğəsiz və təşviqsiz almış olduqları bu dərəcədə məlumatlarını artırsınlar.

Öylə etsinlər ki, yazıq kəndçi – «məşrutəni kim qoymuyor?» – sualının cavabını Allahın öhdəsinə atmayıb da özü bilsin.

Böylə olur isə, o vaxt kəsbi-hürriyyət bugünkü bir hali-fəlakətə düşməz və əcnəbi qoşunları dəxi məmləkət daxilində şeypur çalıb, nəğmə oxuyub nümayiş etməz və məmləkətin istiqlali təhlükəyə düşməz idi.

Ey dad adamsızlıq...

* * *

Gediyoruq, gün var, fəqət biz görmüyoruq, yolumuzun bu yan, o yanında baş qalxızmış olan zümrüd rəngli ağaclar asimanə çəkilmiş, kölgə salmış, bir hümməti-laqeydanə ilə ətrafına əhəmiyyət verməyib, etilapərəstanə[1] bir hal ilə həmişə yuxarı çəkilməkdə olan qovaqlar sərbaz səfləri kimi düzülmüşlər də təravətli yapraqların simin[2] şüaları ilə günəşin oxlarını rədd ediyorlar, yolu sərin saxlıyorlar, gözəl bir xiyabandır gediyoruz. Təbiətdən həzləniriz. Ağacların xışıltısı, onları tərənnümə gətirib təravət verən kötüklərində axan suyun şaqqıltısı, yolçularımızın zümzüməsi yoldan kənar eşidilməkdə olan cüllütlərin mahnıları tam bir musiqi dəstgahıdır!..

İştə bu xiyaban Urmiyə gediyor...

Bir az sonra şəhərə daxil olacaq!..

Yolda rast gələn ğulamlar, şəhərin övzaindən xəbər veriyorlar.

Müxtəlif libaslı adamlar rast gəliyor da Urminin beynəlmiləl bir şəhər olduğuna dəlalət ediyor.

Böyük çalmalı, gen şalvarlı, ənni qurşaqlı kürd gəliyor. Belindəki xonçərini rahlıyor. Gözlərindəki iti baxışı ilə bir çox mənalar ifadə etdirir.

[1] etila – yüksəliş [2] simin – gümüşü



Xəyal edirsən ki, böylə diyor:

– Ax, nolaydı, xəlvətdə əlimə düşəydin!..

Bir dəstə ərəb dilinə bənzər bir ləhcə ilə danışan müxtəlif qiyafəli insanlar keçiyor. Bunlar yolun hər tərəfinə baxıyor, yolçunun hamısına diqqət ediyorlar. Bunlar qiyafeyi-milliyyələrini itirmiş olan aysorlardır. Bunlardan kimisi iranlı qiyafəsində olub keçə papaqlı, kimisi Avropa libasında olub həsir şlyapalı, kimisi Qafqaz paltarı geyib baş furaşkalı, kimisi kürd libasında qırmızı fəslidir. Odur İran ermənisi gəliyor. Erməniliyinə işarə olaraq belində bir qayışı vardır. Yoldaşı zərdüşti paltar yəhudi ilə türkcə söhbət ediyor.

Müxtəlif millətlərin arasında bir-birini qanmaq və qandırmaq üzrə ümumi olaraq türk dili işlənir. Türk dili burada beynəlmiləl bir dildir.

Onu hər kəs biliyor. Erməni, kürd, rus, fransız, ingilis, fars, aysor, alman hamısı türkcə danışar.

Bu, qədər müxtəlifül-cins bir heyətin hamısı ilə danışa bilirəm. Türkəm, bu cəhətdən özümü xoşbəxt hiss ediyoram.

Bizi saxlıyorlar. Rus soldatlarının gəlməsini eşidiblərmiş, xəbər alırlar. Deyirik ki, sabah gələcək.

Aysorilərin sifətlərində bir bəşaşət görünüyor. Anlaşılır ki, bu vürud çoxdan gözlənir. O saat dönüb yanında başdan-başa ağ geymiş olan qarısına öz dili ilə bəyani-hal ediyor, o da sevinir.

Soldat gələcək, xristianlıq güclənəcək, kürdlər daha qarət edə bilməyəcəklərmiş!..

Həman mənzərə, həman təravət, həman ahəng, həman xiyabandır gediyoruz. Təbiətin hüsn və qüdrətin hiss ediyor, yaratdığı müxtəlif əlvan məxluqatı görüyor, hifz ediriz!..

Nagah bir ətri-giyah və səbzanə öyrəşmiş olan qonşumuza tənəffür ediyor, böylə bir gözəl və müəttər olan ərsəgahi-təbiətdən xilafi-məmul olaraq nifrətli və çirkin bir qoxu qalxıyor.

Bu, dəbbağxanə qoxusudur...

Şəhər darvazasının qabağından axan suyun üstündə kölgəli söyüdün dibində qolları və baldırı çırmanmış dəbbağ başını aşağı salıb, aşılanmış gamış dərisini təmizliyor. Dəridən qalxan üfunət suyu, havanı pisliyor da, dəbbağçının təşkil elədiyi heyət bütün o mənzərəyi-şairanəni korluyor.

Atları qamçılayır, burnumuzu tutub cəldlik ilə ötürük, şəhərə daxil oluruq.

Urmiyə, 15 iyun
**M.Əmin**
*«Tərəqqi», № 144, 30 iyun 1909*

## YOL TƏƏSSÜRATI
*(müxabiri-xüsusumuzdan)*

### URMİYƏDƏ

#### Müsəlmanlar

Urmi müxtəlif-ül-cins vəl-məzhəb bir yerdir. Burada yeddi millət və 15-ə yaxın məzhəb nümayəndələri vardır.

Şəhərin əksəriyyəti müsəlmanlar əlindədir.

Müsəlmanlar hər yerdə olduğu kimi, burada da səfil bir ömür keçiriyorlar. Dilxahları yemək və içmək, rəftarları döymək və döyülməkdir. Artıq bir işə baxmazlar. Laqeydanə dolanır, ömür sürürlər.

Əyan kəmali-istirahət ilə ömür keçirib keçinir. Əvam isə Urmi kimi dövlətli bir yerdə özünə maaş tapmayıb xaricəyə gedir, fəhləlik edir.

Bunların dolanacağı əksərən bağçıvanlıq ilə olub satdıqları səbzədir. Rusiyanı bu qədər doldurub, hər tərəfə dağıdılan səbzə çoxusu bu tərəflərdən gedir.

Səbzədən keçəndən sonra bir qədər məhəlli tütün satarlar. Tütünün bir o qədər də əhəmiyyəti yoxdur, zira sərhəddən keçən Osmanlı tütününün qabağında bura tütünü rəqabət edəmiyor.

Üçüncü dərəcə halüt-ticarə buğdadır ki, buradan osmanlıya aparılır.

Məhəlli mətalar ki, əhaliyə mədari-maaşdır, ümdə bunlardır, bunlardan keçəndən sonra bir xeyli tüccar vardır ki xarici mal satmaqla dolanırlar. Bir nəfər Urmi tacirinin dediyi kimi xaricə hamballıq ediyorlar.

Bura müsəlmanları arasında, ələlxüsus ətraf kəndlərdə məşrutə fikri bir o qədər də əsaslı deyildir. Zira, necə düşübdürsə ki, Urmi əvvəldən yerinin dövlətliliyindən və baxtlarına düşmüş olan hakimlərinin İranın qeyri hakimlərinə nisbətən bir dərəcə yola yaxın olduqlarından naşi bir o qədər sıxıntıda olmayıb özlərini rahət hiss etmişlər. Və o cəhətdən də məşrutədən ötrü artıq bir riyazət[1] çəkib dəstü-pa vurmağa meyyal[2] deyildirlər.

İştə bu cəhəti Səidülməmalik cənabları nəzərə alıb iqdamati-inqilabkaranələrində bir dərəcə etidal qəbul etsə idilər, güman ediyoram ki, Urmini gecə ilə qoyub getməyə və ardınca bu qədər narazılıqlar eşitməyə məcbur olamazdı.

İranın bütün şəhərlərində olduğu kimi, burada da molla boldur. Hər tərəfdə elə əmmamədir ki, görünür.

Əslən Urmi ruhanilər mənbəidir. Burada bir molla deyil, hər qisim ruhani boldur, keşişə də bərəkət vermişdir.

Bu qədər çox olan mollalar hər yerdə olduğu kimi, burada da müftə yeyib, müftə gəzən, muftəcə fəzl[1] satanlardandır. Amma haman ümumi

[1] **riyazət** – çətinlik
[2] **meyyal** – meyil edən

[1] **fəzl** – dəyər



bir laqeydlik sayəsində bir o qədər mütəkəbbir deyildirlər. Amma tənbəlliklərinə nə söz demişəm: Amerikadan, İngilisdən, Almaniyadan, Fransadan, Rusiyadan durub basa-basa gəlib idarələr açıb, pullar sərf edib nəşri-din və maarif edən keşişlərdən bu ağalar bir ibrət almış, bu avam camaat üçün bir iş görmüşlərmidir?

Xeyr, bunları qoyunuz da möminləri kafir etsinlər, yoxsa kafirləri mömin etmək bunların işi deyil.

Zatən bunların dünya ilə işləri yoxdur. Mülkləri, kəndləri, rəiyyətləri, cahi-cəlalları olsa, bankda nəqdləri varsa da, dünya üçün deyil, axirət üçündür.

Bu dünyada nə var ki, molla ona aludə olsun. Onun bunca ibraz etdiyi bətalət, ətalət hamısı axirət üçündür. Dünya adamı olsaydı, onda, bəli, durardı, o da keşişlər kimi məktəb açdırar, xalqı savadlı etdirər idi.

Bir də Fransa keşişi, məsələn, gəlir burada mürid düzəldir, onlara xərc ediyor, onun üçün ki, parisdə daha bazarı tutmuyor, yanbuzuna vurub qovurlar. Allaha şükür mollaya nə var ki.

Urmi nə qədər az fanatik olsa da, mollanın ardınca başmaq tərpətməyə hələ çox adam var.

Fransa, Amerika, ingilis, rus və nemeslərin mütəəddid[1] olaraq açdıqları məktəbləri, dəvaxanə[2] və mərizxanələri müqabilində müsəlmanların bu inqilab vaxtında açılan birce ədəd yetim məktəbləri vardır.

Gözəl bir məqsəd ilə açılmış bu yetim məktəbində altmışa qədər küçədə dilənçilik edən uşaqlar yığışıb təhsil edirlər.

Amma bunda da ancaq bir surət vardır. Üsuli-cədid tədris və təlimdən hələ çox uzaq olub, ancaq surəti bir məktəb halına qoyulmuş. Davam edəcək və tərəqqi tapacaq isə yaxşı, yoxsa dilənçilikləri əllərindən alınmış olan biçarəgan lap avara qalacaqlar.

Bura əyani-ərbabının isə camaat ilə işi yoxdur. Bunlar hələ bir ələməti-vüqar və daraiyyət olaraq həyatlərindən daha çox az-az çıxar, camaat arasında gəzməz, bazardan keçməzlər. Tacir qismi haman bir dəstgah ilə öyrənmiş olduğu ticarətini edər. Birə üç qiymət, çənə döymək, vaxtını sərf edib parasını toplayar. Camaat yadında deyil.

Zatən feodalizm halında olan İranda ümumi bir fikir və təşəbbüs dalına düşən adam və ya heyət az tapılar.

Hər kəs öz başının həşirində olub kimsə xəyal etmiyor ki, bunların ümumi bir mənafeləri dəxi vardır ki, o yaddan çıxarılırsa şəxsiyyətləri dəxi məhv olacaqdır.

İştə bu fikir ümumiyyətin füqdanındandır ki, İran bir bu dərəcə əxlaqsızlaşmış və məmləkətini islaha bu dərəcəyədək istedadsızlıq büruz ediyor.

[1] **mütəəddid** – çoxlu, saysız

[2] **dəva** – dərman

Bu bəla Urmini dəxi qaplamış, sarsıtmışdır. Baxınız, kürdlər bu ətrafa bir bəlayi-mübrəm olmuş. Vaxtilə dağ ləzgilərinin Şamaxı və Bakı vilayətləri başına gətirdiklərini indi kürdlər Urmi və Səlmas vilayətlərinə ediyorlar.

Bir bu qədər camaati-müslimin bunların əlində aciz qalıb təhsili-əmniyyət üzrə Osmanlıya dəxalət veriyorlar.

Amma bir ovuc məsabəsində olan ermənilər erməni kəndlərini mühafizə etmək üzrə fədai dəstələri hazırlamışlar ki, kürdlərin öhdəsindən çox yaxşı gəliyor, onların vəhşiyanə hücumlarını dəf ediyorlar.

İranın milləti-məhkuməsi böylə etdiyi bir halda milləti-hakiməsi olan müsəlman kəndləri tamamilə başlarını itirib əmanətlərini ancaq Osmanlı baydağı altına girməkdə görüyorlar.

İştə bu ümumi bir fikri-vətənpərəstanənin yoxluğundandır.

Əgər bu fikir olsaydı, onlar da ermənilər kimi özlərini aciz və yalqız bilməz və difaə hazır olub, kürdlərə deyil ki, babasına da cavab verərdilər.

Yoxsa bugünkü kimi hər bir cüzi işdən ötrü İranın istiqlalına bir zərbeyi-mühlik olan bəst və dəxalət kimi məsələlərdən istifadə etməyə tələsməzdilər. Əvət, bəst məsələsi İranın istiqlalına bir zərbə vuruyor!

Necə!..

Öz vətənində, öz məmləkətində, öz şəhəri, öz yurdunda giriftari-zülm və əsarət olan İran camaati qaçıyor da xaricə baydağı altında mütəhəssin olur, buna ülfət ediyorsa, təbiidir ki, vətəninə nisbət bildiyi məhəbbət azalır, zira vətəni onu təhlükəyə salar.

İştə vəhşi kürdlərin talanına qarşı nə hökumətdən, nə də millətdən himayə görmüyüb ya rus, ya Osmanlı konsulxanalarının himayəsinə güvənən əhalidə əgər hissiyyati-vətənpərvəranə nəhayət dərəcədə zəif isə bir dərəcəyədək təbiidir.

Urmidəki müsəlman xanları əğləbən[1] ruspərəstdirlər. Onlar çalışırlar ki, Təbrizdə olduğu kimi, Urmi və Səlmasi tərəfində də külliyyətli qoşun keçsin. Böylə bir hissiyyatın illəti haman rusların buralarda qazanmış olduqları məziyyəti iqtisadiyyədir.

İstiqraz bankının buradakı şöbəsi haman bu ərbabların bir çoxu ilə əlaqədar olduğundan təbii ki, onlar ruspərəstlik edəcəklər.

Petros deyil, əsl yeni türk məsləkli bir kardan Osmanlı şahbəndəri lazımdır ki, böylə nüfuza qarşı mübarizə edə bilsin də, bir çox məvadi-iqtisadiyyəyə isnad edən rus diplomatiyası ilə rəqabət edə bilsin.

Buradakı müsəlmanların qiyafəsi haman Təbriz qiyafəsidir. Libasları o tövr uzun, baş qırxıq, xətt nazik, ancaq simaları onlara nisbətən gözəldir.

Fəqət bu gözəl və salim simalar hifzüssihhə[2] olmadığından bir çox naxoşluqlara giriftar oluyorlar. Naxoşluğa giriftar olan müsəlmanların

[1] əğləbən – əksəriyyətlə

[2] hifzüssihhə – sağlamlığın qorunması



azı olur ki, Amerika və ya Fransa misyonerxanasının köməyinə ricu ediyorlar. Əksər əhali isə haman bizim Qafqaz kəndlərində olan həkimbaşıların və falçıların cəngali-vəhşiyyanələrində qalıb tələf oluyorlar.

Böylə həkimbaşılardan biri Mirzə Səttar deyilən bir nəfər vardır ki, həqqül-qüdmə bir qrand tutub 12 şahıya kimidir.

Kəndistan arasında şöhrəti olan bu adam 12 şahıya (leyn 12 qəpik) nə tövr azarlı adam olsa öylə sağaldır ki, elə bil anadan tazə doğulmuşdur.

Nə qədər böylə bir həkimi-loğman sirətlər[1] sayəsində Urmi müsəlmanları «tazə anadan doğulsalar» da, istemal etdikləri tiryək, həşiş və araq kimi adətlərdən rəngi-röyətlərini itirib «qəbirdən xortlamışları da» az deyildir, tamam bir kolleksiyon tapılar.

Asari-ədəbiyyatdan burada heç bir şey yoxdur. Assur dilində nəşr olunmaqda olan qəzetələrdən yeri gələndə bəhs edərik. Müsəlmanca qəzetə oxuyanı axtaraq, bəlkə, tapaq!

Mümkün deyil. Burada bir neçə nəfər «Həblülmətin»* müştərilərindən savayı bir nəfər ruznamə alıb oxuyan tapammazsınız. Qafqazda çıxan türk qəzetələri dəxi burada alınmıyor. Zatən burada türkcə oxumaq adət deyildir. Hamısı türk olsalar da, türkcə oxumazlar.

Azərbaycanın hamısı böylədir. Hələ öylə tiplər var ki, bu halı Qafqaza da təklif ediyor, xülyalarında bəsliyorlar ki, gərək bütün aləmi-islam fars dili öbyrənsin, farsca oxusun.

Bir il bundan irəli burada «Fəryad» adında həftəlik bir qəzetə çıxarmış. Bədə Təbrizdə vaxtilə çıxmaqda olan 30-a qədər ruznamələrin cümləsində bu da ömrünü urmiyalıların maarif dostlarına qurban edib getmiş, bir neçə vaxt keçdiyi fəryadları haman səhralar arasında çəkilən fəryadlar qəbilindən olub səmərəsiz qalmışdır. Axırda tələf olmuşdur.

15 gün Urmiyada qaldığımda nə qədər soraq edib xəbər aldım ki, bir nəfər türk ruznaməsi alan tapım da gördüm ki, Qafqazda yainki Osmanlıda nə oluyor, övzai-aləm necədir? Mümkün olmadı.

Osmanlı şahbəndərinə ricu etdim ki, bəlkə, İstanbul qəzetələri ola, o da mümkün olmadı.

İrana ki, insan düşdümü, bütün aləmi-mədəniyyətdən əli üzüldü deməkdir!.. Fədai siniflərində olub cannisarlıq edənlər külliyyətən müsəlmandırlar.

Hal-hazırda şəhərin nizamını gözləmək üzrə 150 nəfərə kimi fədai vrendei tüfəngləri ilə müsəlləh olaraq şəhərdə gəziyorlar.

Bunlar Məşədi Bağır namı ilə məşhur olan bir fədaibaşının təhti riyasətindədirlər. Məşədi Bağır şəhərin polisemeyester yerini dolandırır.

[1] sirət – sərgüzəşt

* «Həblülmətin» – 1892–1933-cü illərdə Hindistanda fars dilində çıxıb – S.H.

Məşədi Bağırın salimünnəfs bir adam olduğuna bütün Urmi şəhadət verir. Tamam bir rüşvət və qarətgirliklə ittiham olunan bir çox məşrutə fədailəri arasında bu adamın adı yaxşılıq ilə çəkilir. Bir nəfər urmiyəli rast gəlmədi ki, bundan şikayət etsin.

Hamısı yekdəhən olaraq «Məşədi Bağır» yaxşı adamdır, «nəcibdir» – deyə tərif edir.

Bu adam bir çox zaman Qafqazda, Bakıda olmuş, Rusiya hərəkatlarında bir dərəcəyədək iştirak etmiş, tərbiyeyi-siyasiyyəsini haman 1905-ci və 6-cı illərdəki Bakı hərəkatından almış.

Heyif ki, bu adamın savadı, elmi yoxdur, avamdır. Amma bu avamlıq məsaili-siyasiyyəni anlamaqda, özləri iqrar etdikləri kimi görünüyorsa da, istedadi xüdadadiləri sayəsində fədailər ilə etdiyi xoşrəftarlığı ilə kəsbi-ləyaqət ediyor.

Ülamayi-Urmiyənin bir heyəti məcməədə ki, əncümən sədri cənab Ağa Şeyx Mirzə Məsihanın görüşünə gedəndə xidmətlərinə yetişdik və onlar ilə bəzi müsahibələrdə bulunduq.

İran ruhanilərinin bugünkü gündə vəzifələri camaatda hissiyyatı vətənpərvəranə oyatmaq üzrə çalışmalarının lüzumunu və bundan ötrü də üsuli-cədid məktəbləri açması lazım gəldiyindən beynəlahali böyük nüfuz sahibi olan mollalara bu xeyir işlərə iqdam etmələrini tövsiyə etdikdə hamısı bu tövsiyədən naşi təşəkkür ibraz edərək müvafiqət hasil etdilər. Ümid edirik ki, bu müvafiqət qövli olmayıb feliyyətə dəxi keçə idi!

Urmi, 15 iyun
**M.Əmin**
*«Tərəqqi», № 145, 1 iyul 1909*

## YOL TƏƏSSÜRATI

*(müxabiri-məxsusimizdən)*

### DİN BAZARI

Urmiyəyə gələn hər bir səyyahın Avropa misyonerlərinin yapdırdığı kəlisaları artıq xərclərlə qayıtdınları o məktəbləri nəzərini cəlb etməyə bilməz.

Dinə bir təpik atıb hər yerdə din və dindarlıq əleyhinə olan Avropanın gəlin də burada etdiyi işlərinə, assuri camaatinin başında oynadığı oyuncaqlarına tamaşa ediniz.

Burada beş dövlətin misyonerxanası vardır. Ən qədimi amerikalılarındır ki, protestan məzhəbini tərvic[1] edir.

Olardan keçəndən sonra fransızlardır ki, katolik məzhəbini rəvac verirlər. Lyuteranlıq paylıyan Almaniya misyonerxanası Buxse Anna Fridman adına bir daiyə vardır ki, pansion açmış təlim və tərvicə məşğuldur.

[1] tərvic – rəvac vermə, işə salma



Rus misyonerləri dəxi yeddi ildən burada yurd salıb ortodoks pravoslavni dinini qəbul etdirirlər.

Və başqa bir çox xırda və cüzi məzahiblərin dairələri dəxi mövcuddur.

İştə bu misyonerxanaların hərəsi bir din dükanı şəklini alıb dəllallarını assurların canına salırlar. Öz bazarını rəvaclı etmək üzrə mağazalarını dilçəsp etməyə çalışır. Bir-birilə etdikləri rəqabətdə cürbəcür işlər ediyorlar.

Əhalini cəlb etmək və müridlərini çoxlaşdırmaq üzrə məktəb açar, dəvaxana, əczaxana, mərizxana düzəldirlər.

Füqərayi-əhaliyə kömək edib xaricə məmləkətlərə göndərir və onları işə qoyarlar. Hamısından əhəmiyyətlisi odur ki, məhəlli assuri keşişlərinə (qişşələrinə) artıq məvacib verməklə öz tərəflərinə çəkər və onların vasitəsilə avamlarını yollaşdırar və illik hesablarında səmti-riyasəti olan məhllinə bil-iftixar bazar təxsisatlarını çoxlaşdırarlar.

Xristian bir milləti başqa xristian məzhəbinə döndərmək üzrə açılan bir rəqabət assuri camaatinin əxlaqında böyük rol oynayır. Özü də fəna bir rol. Əvam və fəqir əhali baxır ki, mədəniyyətli Avropadan durub da ölkələri basa-basa gələn onun münəvvər dindaşı buraya gəlib onu öz dinindən dönüb başqa bir məzhəbə keçməyə dəvət ediyor və dəvət qəbul olunduqda cürbəcür imtiyazlar ondan ötrü hasil oluyor. O da başlıyor haman bu mədəniyyətli dinxəridlərə din satmağa.

Din məsələsi vicdani bir məsələdir. Hər kəs dinini satarsa, vicdanını satmış kimidir. İştə keşişlər rəqabəti protestanlıq, katoliklik, pravoslavnılıq və qeyrə rəqabəti öylə bir surət alar assurilərin vicdanlarını satın almağa başlıyorlar.

Təbiidir ki, böylə bir dinfüruşluq da biçarə assuri vicdan məsələsini bilmərrə fəramuş ediyor, hər bir şeyi pula əvəz etmək kimi onu bir əxlaqsızlıq dərəcəsinə düşürüyor.

İştə ruhani dailər gəlirlər ki, islam təzyiqi altında qalmış olan Şərq xristian bəradərlərinə dəsti-müqəddəslərini uzatsınlar da, onlara müavinət edib səadəti-ruhaniyyəyə yetirsinlər. Gəlirlər işlərini görür, hər bir misyoner öz siyasi nüfuzunu işə verir.

Nəhayət, öylə olur ki, dinini, vicdanını satmağa alışdırılan assurilər arasında «xaça kox»luq kimi rəzalətli sənətlər törədir.

Xaça koxluq nədir?

Görürsən bir-iki assuri bir dəstə xırda küçə uşaqları yığıb əksini aldırdı. Bir assuri qişşəsinə[1] imza elətdirdi ki, bu heyət filan assori kəndindəki yetim məktəbinin xristian uşaqlarıdır, müstəhəqqi-ianədir. Buradan haman əksi alıb gediyor birbaş Amerikaya, yainki Rusiyaya haman bu yetimlərin mənfəətinə olaraq ianələr cəmləyir, qayıdır

[1] qişşə – hiyləgər

Assoruslana, başlar özü üçün ev tikməyə. Ev tikər, bağ salar, artığı ilə bir qədər dolanar. Sonra yenə başqa birisi ilə özgə bir tədbir tökər. Xaça koxluğunu edər.

Zatən xaça kox – xaç satan deməkdir.

Əxlaqlarını, insaflarını, vicdanlarını dinə, dinlərini dəxi pula satmış olan bu tövr xaça koxlar, keşişlər rəqabətinin verdiyi səmərədən naşi o qədərdir ki, tərif ilə qurtarmaz, lisan ilə deyilməz. Xaça koxluq əlavə papasların artıq bir şiddət ilə din almaları assurilər arasında başqa cür bir fəsadi-əqidə dəxi törədir.

Görürsən ki, bir misyonerxana nə tövr isə rəyasəti-ruhaniyyə mərkəziyyəsindən bir qədər təzə təxsisat aldımı, o saat məhəllə və kəlisa dailərinin, qişşələrinin məvacibi artar. Məvacib artması kafidir ki, qişşənin ədədi, onların ədədi ilə bərabər müridlərin parası da artsın.

Meydani-rəqabətdə biri-birinə sibqət[1] etmək qəsdi ilə çalışan misyonerlər nüfuzlarını artırmaq qəsdi ilə əhalinin qülubini cəzb etmək üzrə bir çox asari-mədəniyyə yapmışlardır.

Əvvəl gördükləri iş isə kəlisa tikmək ilə məktəb açmaq olmuşdur.

Məktəbdən keçəndən sonra mərizxana, kütübxana, mətbəə və qəzetə dəxi güşad və təsis etmişlərdir.

Urminin özündə dailər tərəfindən açılmış 8 ədəd məktəb vardır ki, bunlardan 2-si, biri zükur, biri ünasa mənsub olmaq üzrə amerikalılar tərəfindən açılmışdır. 2-si də (biri zükur, biri ünas) fransızlarındır.

Bir ünas məktəbi almanlarındır. 2-si dəxi (biri ünas, digəri zükur) rusların olub, 1 ədəd zükur məktəbi dəxi ingilislərindir.

Bu məktəblərdə məktəbi açmış olan misyonerxananın lisani-dövlətlisi ilə bərabər fars, türk və başqa Avropa dilləri dəxi təlim olunur.

Ümdəsi hər kəs öz dövləti lisaninə əhəmiyyət veriyor da, ümumi müxtəlifəni dəxi hər məktəb öz lisani-rəsmiyyəsində təhsil edir və bu surətlə məktəbdən təhsil edib tamam etmiş şagirdi meydana buraxdıqda öz dövlətinin mənafeyi-siyasi və iqtisadiyyəsinə xidmət edər, bir nümayəndə hazırlamış oluyor.

Bu məktəblərin qapısı hər kəsin üzünə açıqdır. Hər kəs hansı millətdən istərsə ki, elm təhsil etsin məktəbə daxil olub təhsil edər. Dini təhsil etmək isə məcburi olmayıb hər kəsin öz xahişinə görədir. Ancaq rus məktəbləri bu qaidənin təhtinə daxil deyildir.

Rus məktəblərinə daxil olmaq üçün əvvəlinci şərt pravoslavni dilini qəbul etməkdir. Və din təlimi dəxi hər kəs üçün məcburidir.

Bu məktəblərin bir çoxunda həqqi-tədris mövcuddur. Amma fəqir və biçiz olanlar müftə oxuyurlar. Lakin rus mədrəsələri tamamilə məccanidir.

[1] sibqət – irəli düşmə, qabaqlama



Bainhəmə məccaniliyinə baxmayaraq, bomboşdur. Xahişmənd azdır.

Ən çox mütəəllimli olan Amerika məktəbidir. Zira, burada ki, üsulitəlim daha müvafiq olub, tədris olunan ülum isə həyatidir. Amerika məktəbində bir neçə nəfər müsəlman daha təhsil etməkdədir.

Təbrizdəki Amerika və fransız misyonerxanalarının zatən ümdə gördükləri işləri haman bu təhsil məsələsidir. Təbrizdəki təhsilkərdə cavan müsəlmanların çoxusu bu məktəblərdə oxumuşlar ki, bunların çoxusu halən məşrutə hərəkatında ciddi fəaliyyət göstəriyorlar.

Ağayi Tağızadə cənabları dəxi Amerika məktəbində təhsil etmişlərdir.

Amerika və Fransa misyonerxanalarının məktəbdən savayı burada mükəmməl mərizxanaları, dəvaxanaları dəxi vardır ki, bütün əhali onlardan mənfəət aparmaqdadır.

Misyonerxanaların asari-mədəniyyələri yalnız bir şəhərdə deyildir, civarda ki, assori kəndlərinin bir çoxunda məktəb güşad edilmişdir.

Urminin 7 verstliyində, məsələn, Göy Təpə deyilən bir assori kəndi vardır ki, Əsli ilə Kərəmi – məşhuru biri-birinə göstərən Əsli suyu dəxi o kənddədir. Bu kəndin 2 minə yaxın səkənəsi vardır. İki min nüfusu olan bir İran kəndinin, diqqət ediniz, 3 kəlisası, 10 məktəbi vardır. Bu məktəblərdə 500-ə kimi oğlan və qız təhsil etməkdədir...

Bu qədər təmtəraq və dəstgah ilə dailik binası quran Avropa misyonerləri hərdənbir xəyallanırlar ki, müsəlmanlardan da döndərsinlər, amma dişləri batmıyor.

Zira, islam deyə inandıqları əqidələrində müsəlmanlar o dərəcə möhkəmdirlər ki, bir dəfə inandıqlarından əslən vaz keçməzlər.

«Müsəlmanı döndərmək olmaz!»

İştə budur bütün misyonerlərin təsəvvürü.

Urmi, 16 iyun

**M.Əmin**

*«Tərəqqi», № 148, 5 iyul 1909*

## XÜSUSİ MÜXBİRİMİZDƏN GƏLƏN TELEQRAFLAR:

### Məhəmmədəlinin heyəti-vükəlayi qəbul etməsi

*Tehran* – Məclisi-millinin Məhəmmədəli şahın xəli[1] xüsusunda qərar verdiyi qətnaməni heyəti-vükəla yekşənbə günü rus səfarətxanasında Məhəmmədəli Mirzəyə vüsul etdi. Məhəmmədəli Mirzə artıq soyuqluq ilə qətnaməni oxuyub tamam etdi.

[1] xəl – vəzifədənçıxma

### Heyəti-vükəla Əhməd Mirzənin hüzurunda

*Tehran* – Heyəti-vükəla Məclisi-millinin qətnaməsini vüsul etdikdən sonra Əhməd Mirzənin nərədə olmasını sual edirlər. Məhəmmədəli Mirzə diyor ki, «oğlum Əhməd Mirzə o biri yan otaqdadır». Heyəti-vükəla o biri otağa gedib cərgə ilə diz üstə durub qabaqca Əhməd Mirzənin ayağından öpüb sonra İranın padşahı intixab olduğunu bəyan etdilər.

### Təzə padşah

*Tehran* – Heyəti-vükəlayi-millinin qətnaməsini oxuyandan sonra Əzədülmülk altı atlı karet ilə Əhməd Mirzəni Səltənətabadda saraya apardılar.

### Sarayın qarət olunması

*Tehran* – İranın sabiq padşahı Səltənətabaddan çıxandan sonra sərbazlar fövri[1] sarayı qarət etmişlər. Buna görə də təzə şah bu gecəni öz nənəsinin evində qaldı.

### İcrayi-qəsəm

*Tehran* – Təzə şahın millətə və məşrutəyə xeyirxah olduğuna qəsəm[2] etmək üçün 3 gündür ki, hazırlaşılır. Düşənbə günü Tehranın bütün qüvveyi-əsgəriyyəsi Qurana qəsəm etdilər.

### Heyəti-vüzəra

*Tehran* – Heyəti-vüzəra təşkili tamam oldu. Vəziri-xaricə Nəsirülmülk, vəziri-ədliyyə Fərman Fərma, vəziri-nəqdiyyə Şəfiüddövlə, vəzirlər poçt və teleqraf – Mənsur, intixab və təyin olunmuşlar.

### Vəzirin qaçması

Qara dəstələr təşkilində müttəhim olan sabiq poçt və teleqraf vəziri Müxbirüddövlə ingilis səfarətxanasına qaçıb gizlənmişdir.

### İstibdad tərəfdarlarının fərarı[3] və millət məhkəməsinə verilmələri

Millət qələbəsindən sonra rus və ingilis səfarətxanalarında qaçıb gizlənən istibdadpərəstlər təmamən millət məhkəməsinə verilib Məclisi-millidə cəzalanacaqlar.

### Bahadırı-cəng

*Tehran* – Bahadırı-cəng, müfəxxəm və qeyri rus müəllimləri heyətdə gizləndilər.

---

[1] **fövri** – dərhal
[2] **qəsəm** – and içmək
[3] **fərar** – qaçma, sovuşma



*Tehran* – Təzə hökumət bu fikirdədir ki, İngilisdən və Fransadan siyasi adamlar gətirtsinlər.

*Tehran* – Sabiq şahın əmisi Zillüssultan rus və ingilis nümayəndələri ilə müşavirə edir ki, həmişəlik surətdə niyabəti-səltənətə təyin olunsun. Bu günlərdə Zillüssultan Tehrana gələcəkdir.

### Sabiq şah Bakıdan gedəcəkdir

*Tehran* – Peterburq məhafilində bu fikirdədirlər ki, görək sabiq şahı nərədə yerləşdirsinlər. İstiyorlar ki, onu Kaluqa şəhərinə göndərib orada Krım xanlarından qalma sarayda iqamət etdirsinlər. Şeyx Şamil dəxi öz ailəsi ilə burada olurdu. Sabiq şah özü istiyor ki, Krımda sakin olsun. Məhəmmədəli Mirzə Ənzəlidən keçib Bakıya gələcəkdir və buradan o yana ötəcəkdir.

*Peterburq* – İran səfarətinə yaxın olan məhafildə danışılır ki, məclisin açılması bir aydan sonra olacaqdır.

*Astara* – Böyük bir vuruşmadan sonra məşrutəçilər Ərdəbili fəth etdilər. Hakimi-şəhər Rəşidülmülk rus konsulxanasında gizləndi. Məşrutəçilər şəhəri alan kimi hər yerdə nizam və qaydə bərpa etdilər. Əlan[1] şəhər sakitdir.

*«Tərəqqi», № 151, 8 iyul 1909*

## İRAN MƏKTUBLARI

### RƏŞTDƏN

İki ay fəraqdan sonra yenə də Rəştdəyəm. Bu iki ayın ərzində Rəştdə olan təbəddülati-təbii və milli xeylidən xeyliyədir. Dar küçələr bacarıldıqca genəlmiş, daş döşənmiş, hamar edilmişdir.

Səbzə meydanının baş tərəfində hər gün çalışmaqda olan musiqi yoxsa da, təzə açılmış mədrəsənin şagirdani gimnastik manevrası ediyorlar. Rəştin, doğrudan da, məşrutəçi bir şəhər olduğunu göstəriyorlar.

Məhəlli qəzetələrin kiçikliyinə baxmayaraq, əhali kəmali-şövq ilə tökülüb qəzetə alıyor, oxuyor.

Daha iki ay bundan irəli olan silahsız mücahidlərdən biri də yoxdur. Bekar tüfəngdar isə tapılmaz, hamısı işdədir. Tehranda can verib can alıyorlar.

Burada ancaq şəhəri mühafizə etmək və nəzmi-nizamı gözləmək üzrə bir qədər mücahid durur ki, bunlar hökuməti-məhəlliyyənin qüvayi-qəhriyyəsi[2] hökmündədir.

---

[1] **əlan** – indi, bu saat
[2] **qüvayi-qəhriyyə** – cəza dəstələri

İdarət qabaqkına nisbətən bir nizami-külli təhtində olaraq idarə olunur. Meydani-ədalət isə həqayiqi-haliyeyi-İraniyyə dairəsində qurulub, hüququnnasə kamalınca yetişilməkdədir.

Əcnəbi təbəələrinə nisbət daha irəlidən tutulub gəlməkdə olan toxunmamaq politikası indi daha artıq bir məharətlə aparılmaqdadır.

Qəzvinin öylə bir qəhrəmanana surətdə icra edilən fəthibenami, Tehran hasarı dibində beydaqi-sürxi[1]-hüriyyəti nəsb etmiş olan şəciani[2]-gilaniyyənin Səltənətabadda məhsur olan səltənət bərbadə etdikləri nəsayeh[3] və təhdidati rəştlilərə daha artıq bir ruh verdiyində, rus qoşunlarının Təbrizə getdiyi kimi Tehrana dəxi gedəcəkləri xəbəri çıxar. Bu xəbər Rəşt camaatini olmazın dərəcədə dilgir edər.

Əhali tamamən dükan-bazarlarını bağlayıb əncümənə yığışar, böyük bir demonstrasyon yaparlar. Əncüməndən tələb edərlər ki, ruslara qarşı tədabirdə bulunsun. Əncümən nə qədər bunları iqna etmək istərsə də ki, ruslar rəsmən elan etmişlər ki, ümurati-daxiliyyəmizə müdaxilə etməsinlər – deyirsə də, kimsə qulaq asmaq istəməz, ədədcə 8 minə çatan izdiham bilatərəddüd olaraq öz istədiyində israr edər.

Nəticədə isə böyük bir mitinq təşkil verilir. Bu mitinqdə müxtəlif natiqlər əhali arasından qalxıb rusların bu gün Gilana və Tehrana gəlmələrini şaha kömək etmək kimi tələqqi[4] edib onlara qarşı şiddətli bir lisan sürərək böylə bir nəticəyə gəlmişlər ki, tətili-ümumi ilə etirazlarını izhar etsinlər.

*«Tərəqqi», № 155, 13 iyul 1909*

## TEHRAN FƏTHİNİN TƏFSİLATI

*(müxabiri-məxsusimizdən)*

3 min mükəmməl, müsəlləh mühafizi olan Qəzvinin səkkiz saat içində qəhrəmanana bir surətlə hücum edən mücahidlərin əlində əsirisəmigun olub məqhur[5] qaldığını görən sabiq Məhəmmədəli şah Qacarın, guya, rus və ingilis təminatı və təhdidati-nəsayehi[6] təhtində olaraq elan etdiyi qanuni-əsasi və vədə verdiyi intixabat əvvəlcə Qəzvin və İsfəhan inqilabçılarını dəxi böyük bir məşəqqətdən xilas olmuş olan Təbriz ilə bərabər razı salıb tərk-silah etdirdi isə də bu sükut müvəqqəti oldu.

Şahın xəyanəti zühur etdi. Məlum oldu ki, rusları fövqəladə bir ixtiyarat ilə məmləkətə dəvət edib də ölkənin istiqlaliyyətinə dəsti-tətavülünü[7] uzatmış bir dənaət[8] etmişdir.

---

[1] **beydaqi-sürx** – qırmızı bayraq
[2] **şəci** – igid, cəsur
[3] **nəsayeh** – nəsihətlər
[4] **tələqqi** – qarşılamaq
[5] **məqhur** – qəhr olmuş, əzilmiş
[6] **nəsayih** – nəsihətlər
[7] **tətavül** – təcavüz
[8] **dənaət** – alçaqlıq



Elani-məşrutiyyət ilə bərabər siyaqi-istibdadan əl çəkməyib həman düşmənani-hürriyyətin müsahibə və müanisətlərindən həzziyab[1] olan şaha, dəfəat ilə içdiyi andı, verdiyi sözü kəndi sındırdığından naşi kimsə inanmazdı.

Bu inanmamazlıq durur ikən İranın təcəddüdünə dəxi kimsə inana bilməzdi. Rus və ingilis diplomatları özləri dəxi böylə bir təcəddüdü halə inanmadıqları bir halda Avropalığa zidd bir üsul ilə tədaviyi vərəm ediyor, şişib deşilmək halətinə gəlmiş olan vərəmi neştərlənib irin-çirk axıb bilmərrə bir operasiyon yapmaq əvəzində həman müdaxilati-mərhəmi ümumi camaat qəlbində düyünləşmiş olan, lakin büğz[2] və ədavət İranını Məhəmmədəli Mirzənin axırıncı məşrutiyyət elan etməsi ilə yapmaq, dağıtmaq və bu surət ilə İran yarasını sağaltmaq istiyor, daha doğrusu, daima bədəni azarlı saxlamaqla özlərinin xanə doktorluq vəzifələrini möhkəmləşdirmək üzrə İrana lələlik etmək istiyorlardı.

Politikanı olduğundan daha şiddətli bir surətdə görən məşrutəçilər əvvəl kərə də böylə bir iqdamə razı olmuş kimi görünüb, hər yerdə məşrutəni qəbul etmək üzrə bəşaşət və şadlıqlar etdilərsə də, biləxərə karet birdən-birə dəyişib inqilabçılar əldən getməkdə olan heysiyyati-milliyyələrini iadə etmək üzrə Tehrana hərəkət etməyə, sözü bir yerə qoyub gilanlılar ilə isfahanlılar Tehrana hərəkət etməyə başladılar.

Təkdir[3] olunmuş İran heysiyyati-vətənpərvəranəsi mühafizə olunmalıdır – deyə iki fövclər[4] söz bir yerə qoyub Tehrana: «gəliyoruz» – deyə yürüş etməyə başlanıldı.

İştə vətənlərinin heysiyyətini mühafizə etməyə bihəqq darə olan inqilabi-Tehraniyyənin məvəqqəni bil-ixtisar olsa da, nəql etmək interessiz deyildir.

### Tehranın fəthi

Qəzvindən hərəkət etmək üzrə Sipəhdar həzrətlərinin təhti kumandanlarında olaraq 2 minə baliğ Gilan mücahidləri qüvvələrini üç yerə təqsim edib müxtəlif yollardan Tehranın bir mənzilliyində vaqe olan Kərc Kur pəyəsindəki briqada kazaklarına hücum etmək istəmişlər.

Kərc Ənzəli – Tehran şose yolu üzərində düşmüş olan bir tərəfi hündür dağlar, bir tərəfi dərin çay olan möhkəm bir səngəri-təbiidir. Burada duran 4 yüz Lyaxov kazaklarının vüqudu ilə oranı almaq mücahidlərə xeyli çətin imiş.

Lakin bir gün irəlidən Kərcdən bir istasyun Qəzvin tərəfdə olan hasarın mənzilində ordu salmış olan mücahidin ilə kazak əfsərləri telefon vasitəsilə mükalimə edər, bəyan edilmişlər ki, onlar mücahidlər ilə dava etmək istəmiyorlar və əgər orduyi-milli Kərcə gələrsə, onlar təxliyeyi-səngər edəcəklər, geri çəkiləcəklərdir.

---

[1] **həzziyab** – xəstə
[2] **büğz** – kin, ədavət
[3] **təkdir** – incitmə, əziyyətvermə
[4] **fövc** – camaat, dəstə, güruh

Mücahidin onlara bir dəfə silahlarını töküb teslim olmağı təklif edirlərsə də, onlar bunu qəbul etməyib ancaq geri çəkiləcəklərini bildirmiş və doğrudan da, millətçilərin müqəddəmətül[1]-ceyşləri[2] Kərcə gələcək kazaklar səngərlərini buraxıb Tehranın 25 verstliyində olan Şahabada çəkilmişlərdir. Lakin bir ruhi-təqib ilə ruhlanan mücahidlər müqəddəmətül-ceyşi geri çəkilənlərdən əl çəkməyib təqibən Şahabada kimi bunların ardınca gedib orada bir zədxurda düçar olmuşlar ki, buradakı zədxurd bir karvansaranı səngər etmiş, top və pulemyota dara olan 4 yüz kazak müqabilində açıq meydanda olaraq gülləbaranlığa və müdafiəyə məcbur olan 40–50 nəfər mücahid dəstəsi dura bilməyib 2 nəfər məqtul[3] və 3–4 nəfər məcruh[4] verərək geri qayıtmışlardır. Bunlar Şahabaddan geri qayıdıb sabahı günü haman Əli Şahbaz deyilən bir yerdə yığışmaqda olan qüvayi-milliyə mülhəq olunmuşlar ki, burada Qum yolu gəlmiş olan 2 min Bəxtiyar atlıları dəxi Gilan mücahidlərinə mülhəq olmuşlar idi.

Millət ordusunun qüvvəti bu surətlə təcəmmö etməkdə ikən məqsəd şose yolu ilə deyil, birahdan Tehrana girmək imiş. Lakin bunların fikrini duymuş olan Lyaxov istəyirmiş ki, ətraf kəndlərdə səpələnmiş olan kazak və başqa silahşur və digər sərbaz gücü ilə mücahidləri mübarizə etməyə məcbur edib, onları bu yol ilə bilmərrə müstəhzi[5] etsin ki, bunların qüvayi-hərbiyyələri zəfə düçar olsun da Tehrana daxil olduqlarında döyülməkləri asan olsun.

İştə bu surətlə də Əli Şahbaza yığılmaqda olan millət ordusunun müqabilində olaraq hökumət qüvvəsi Əhmədabad deyilən bu kəndə cəm olmaqda və oradan irəliləməkdə olan mücahidləri pişvaz etməkdə idilər.

Böylə ki, Badamın deyilən bir yerdə ki, orası böyük bir bağ olub dövrəsi hasardır, mücahidlər bağda olduqları halda hökumət ordusunun toplarına nişanə oluyor, şiddətli bir müharibə başlanır.

O günü müxtəlif yerlərdən, təpələrdən olaraq açılan top bombardmanına baxmayaraq, mücahidlər rəşidanə bir surətlə edilən mücahimatı[6] rədd ediyor, özlərinə atılan topları mücahid topçularının məharəti zəbun ediyor idi.

Böylə ki, Qara Təpə deyilən bir yerdən mücahidlərə atılmaqda olan topa mücahidlər tərəfindən açılan topdan sonra oradan daha top atılmamış, güllə açılmamışdır.

---

[1] müqəddəmə – qabaq hissə
[2] ceyş – ordu, qoşun
[3] məqtul – öldürülmüş
[4] məcruh – yaralı
[5] müstəhzi – istehza edən, ələ salan
[6] mücahim – hücum edən

## TEHRAN FƏTHİNİN XƏRİTƏSİ



Millət topçuları öylə bir məharət ilə atırlarmış ki, neçə dəfə düşmənin toplarını vurub xarab etmişlərdir.

Bu aralıq hökumət qoşunu bir neçə hiyləgərliyə təvəssül etmiş və bir dərəcəyə dəkin müvəffəq olmuşlardır.

Böylə ki, qiyafətən libasən İsfəhan ordusundan seçilməyən hökumət bəxtiyariləri qırmızı beydaq alaraq böyük bir dəstə ilə məşrutəpərəstlik ünvanı ilə Gilan ordusuna yaxın gəlib birdən atəş açmış xətə etmişlərdir. Sonra həman bu hiyləni görmüş olan mücahidlər, başqa bir yerdə daha böyük bir təəssüflü vəqəəyə giriftar olmuşlar. Böylə öz bəxtiyarilərini hökumət bəxtiyarisi hesab edərək gülləyə basmış, bir neçə nəfərlərini öldürəndən sonra səhvlərini anlamışlardır. Sonra qərar etmişlər ki, bəxtiyarlılar ilə bəxtiyarilər vuruşsunlar da başqaları ilə, əlalxüsus kazaklar ilə Gilan mücahidləri müqabil olsunlar.

Bir-iki gün bu aralarda müxtəlif yerlərdə zədxurd olduqdan sonra hökumət qoşunu görür ki, millətyan Badaməki tərk edib geri, Əli Şahbaza tərəf çəkilir. Onların təqibinə məşğul olduqda buraya gedənlərin cüzi bir qismi olub qismi-küllisinin birəhədən olaraq Həsənabad deyilən bir kənddən ki, Şahabad ilə Əhmədabadda duran hökumət ordugahlarının mabeynində vaqe olmuşdur, gecə ilən keçib şəhərin darvazasına özlərini yetirmiş və şəhər içindəki məşrutəçilər tərəfindən üzlərinə açılan darvazadan daxil olub kazakxana dövrəsini və topxana meydanını tutmuşlar.

Əli Şahbaz dövrəsi üzərinə getməkdə olan hökumət ordusu mücahidlərin şəhərə daxil olub kazakxana ilə müqatilədə olduqlarını eşidərəşitməz geri, şəhərə qayıtmış və bunları təqibən Əli Şahbazda olan mücahidlər dəxi şəhərə girmişlərdir.*

Dörd gün tamam mücahidlər ilə kazaklar və başqa hökumət sərbazları atışmışlar.

Bu günlər Tehranın ömründə olsun ki, görünməmiş günlər idi.

Topların gurultusu, bombaların partıltısı, güllələrin şaqqıltısı zəhrəçak[1] ediyor, ürək qoparıyormuş. Pulemyotun müsəlsəl[2] olaraq atmaqda olan gülləsinin sədası bir müdhiş şey kimi nəql ediyorlar.

Üçüncü gün mühasirədən sonra Lyaxov mücahidlərə kağız yazıb təslim olunarsa, kazaklara və onun özünə təmin verilib iləriki hal və övzaları[3] ilə qalıb ancaq yeni hökumətə tabe olmaları şərti ilə artıq müqabilə etməyib təslim olunacaqlarını bəyan etmişdir.

* İştə bu yerləri layiqincə təsəvvür etmək mümkün ola bilməsi üçün bu yerlərin müxtəsər xəritəsini nəqş ediyoruz. *Qeyd M.Ə. Rəsulzadənindir*

[1] **zəhrəçak** – ödsaçan
[2] **müsəlsəl** – arasıkəsilməz
[3] **övza** – vəziyyətlər



Mücahidlər dəxi Lyaxovun təklifini bədəlmülahizə qəbul edib təslimi qəbul etmişlər.

Kazakların bu surətlə təslim olunduqlarına baxmayaraq, silahxur[1] atlısı sakit olmaz.

Fədailərə hücum edirlər. Fəqət bu hücuma şiri qəzəbalud kimi acıqlanmış olan mücahidlər öylə dəhşətli bir atəş açıb silahxurları tirbaran[2] etmişlərdir.

Bir meydanda 51 nəfər ancaq məqtul buraxmış pərakəndə olmuşlardır. Kazakların təslimini o axırıncı ümidi olan silahxurların şikəst aldığını xəbər alan Məhəmmədəli Mirzə artıq durmağı rəva görməyib əhli-yalını yığıb birbaş Zərkəndə rus səfarətxanasına getmiş mütəhəssin olmuşdur. Səfarətxanaya daxil olanda mələkə hökrüm-hökrüm ağlayırmış.

Əlhal səfarətxananın çox yarısı şahi-sabiq Məhəmmədəliyə məkan olmuş, işin böylə bir surət aldığını görən mücahidlər təxir etməyib o günü kabinə təşkil verib şahın böylə bir surətlə qaçdığından dolayı bittəbi özünü təxti-tacı İranidən xəl[3] etdiyindən dolayı artıq İrana padşah olmadığını bəyan əvəzində isə Məhəmmədəli Mirzənin 12 yaşında olan oğlu vəliəhd Əhməd Mirzəni təxti-İraniyyəyə cülus etdirərək onu naibüssəltənə olmaq üzrə qacariyyənin ən piri olan Əzədüddövlə təyin etmişlər və bu xüsusi elani-məxsus ilə əhaliyə bildirmişlərdir. Bunun təfsilatı məlumdur.

Mücahidlərin Tehran fəthində göstərdikləri istedad, saxladıqları nəzmi-nizamü qaidə fiəlhəqiqə layiqi-təqdir və təhsindir. İnqilabdan qabaq bir gecə yox imiş ki, o gecə tüfəng açılmasın, bir küy-kələk qopmasın, amma indi bütün şəhər müxtəlif adamlar, mücahidlər ilə dolu olub hamısı dəst bir silah olduqları halda bir tərəfdən olsun, bir güllə olsun atılmaz, əmniyyət tamamdır.

Kimsənin malına, canına, irz[4] və namusuna təərrüz[5] yox, hər kəs öz kəsbkarına məşğuldur.

Tazə təşkil olunmuş heyəti-vüzəra camaat müntəxəbindən[6] təyin olunmuş məclisi-fövqəladə ilə ki, əcələtən[7] parlaman əvəzidir, bərabər olaraq bütün ümurati-hökuməti idarə və icra ediyor.

Lyaxov dəxi təslimin şəraitinə görə hənuz öz qulluğunda qalıb kazaklara dəxi təxliyeyi-silah etdirilməmişlərdir.

Amma briqada qabaqkı kimi müstəqil olmuyub vəziri-cəng olan Sipəhdara tamamilə tabedir.

Tehran

**M.Əmin**

*«Tərəqqi», № 160, 161, 19 və 20 iyul 1909*

[1] **silahxur** – silahlı
[2] **tirbaran** – gülləbaran
[3] **xəl** – mənsəbdənkənar etmə
[4] **irz** – namus
[5] **təərrüz** – təcavüz
[6] **müntəxəb** – seçilmiş
[7] **əcələtən** – tələsik

## İRAN MƏKTUBLARI

*(müxabiri-məxsusimizdən)*

### Vürudi-mövkibi-məsud*

Məhəmmədəli Mirzə oğlu Əhməd Mirzənin Əhməd şah olduğu elan, elannameyi-dövlətidən sonra, ikinci bir elani-dövləti ilə padşahi-cavanbəxtin rəcəbin 2-də qürubə 4 saət qalmış Səltənətabaddan şəhərə varid olub sabah ayın 3-də axşama 3 saət qalmış mərasimi-səlam icra olunacaqdır.

Və üç gün tamam şəhər çıraqban olacaqdır.

Rəcəbin 3-də vaxti-mövudda[1] Səltənətabaddan dərvazada mücahid fövcləri[2]. İran süvariləri səfi-nizam çəkib durmuşlardı.

Mürtəza Quluxan Bəxtiyari, Əmidüssultan və Mirzə Əli xanın təhti məmuriyyətində olaraq mücahidlərdən və Bəxtiyar atlılarından mütəşəkkil 5 yüz atlıdan mütəşəkkil Səltənətabada getmiş olan heyətin Şahicavanbəxt Əhməd şahın mövkibi-məsudlarını gözləyirlərdi.

Burada qoşun və fəadilərdən savayı bir çox əhali dəxi təcəmmö[3] edib cavan şahlarını gözləyirlərdi.

Sifətlərdə bir asari-bəşşaşət[4] idi ki, görünürdü, qəlblərdə bir asari-fərəh idi ki, hiss olunurdu.

Bir az keçmədi ki, şahın karetası nümayan oldu. Karetanı əlvan geyinmiş bəzəkli şatirlər[5] çiyinlərində gümüşbaşlı çomaqlar olduğu halda əhatə edib gəliyor. Qəribə mənzərə təşkil ediyor.

İrəlicə bir neçə atlı mücahidlər yol açıb dalınca mövkibi-şahanə gəliyorlardı.

Mütəəddid[6] atlar qoşulmuş olan şah karetinin dalınca mücahid fövclər gəliyorlar, böyük bir şan və cəlal ilə cavan şahı təşyi[7] ediyorlar.

Mən dərvaza yanında durmuşam, mövkibi-hümayun çatıyor, kalyaskeyi-şahənşahi qabağımdan keçiyor. İçində 12 yaşında gözəl bir uşaq oturmuş. Bu, İranın əvvəlinci padşahıdır ki, məsumdur, ali[8]-Qacardan olsa da, məsumdur. Hənuz kimsəni təzyiq etməmişdir. Bəlkə, daima təzyiqdə bulunmuşdur. Zira, Məhəmmədəli Mirzə kimi bir atanın ailəsində dirilik etmək, fəqət təzyiqdə bulunmaqdır.

Mən əl çalıyoram, təbrik ediyoram. Cəmaət yekdəhən olaraq hilalı görmüş kimi səlavat çevirirlər.

Mövkibi-hümayun keçiyor, işte məşrutiyyət gediyor, məsum məşrutiyyət.

---

* **vürud** – gəlmə, çatma
* **mövkib** – müşayiətçilər dəstəsi
* **məsud** – xoşbəxt

[1] **mövud** – müəyyən edilmiş
[2] **fövclər** – dəstələr
[3] **təcəmmö** – toplanma
[4] **bəşşaşət** – sevinc
[5] **şatir** – yol açan
[6] **mütəəddid** – çoxlu, müxtəlif
[7] **təşyi** – müşayiət etmə
[8] **al** – nəsil, sülalə



Mövkibi-hümayun şəhər küçələrindən keçdikcə tamaşaçı olan əhali təbrik və təhniyyətgu[1] olaraq mövkib keçən caddələrə[2] təsəvvürə gəlməz bir basırıq təşkil ediyordular. Ətrafdan hey gül idi ki, şahın karetı üzərinə atılır, şah alqışlanır idi.

Mövkibi-hümayun darülxilafə qapısına çatdıqda artıq cəmaət əlindən keçməyə yol yox idi. Nəzmiyyələr mövkibə yol açmağa məcbur idilər. Kareta üzük qaşı kimi aralığa alınmış idi.

«Zindəbad[3] məşrutə!», «Zindəbad Əhməd şah!», «Mürdəbad istibdad!» nərələri asimana büland olmuş idi.

Nəhayət, təkəssür[4] etmiş olan əhali bərkənar edilib mövkibi-hümayuna yol açıldı, kareta darülxilafə qapısına çəkilib, zatiəqdəsi[5]-hümayunu iclali[6]-nüzul[7] buyurub darülxilafəyə daxil oluyor.

Bir çox əhali isə dərbardan[8] getmək istəmiyib dayanmış, şahlarını, özləri təyin etmiş cavan və məsum şahlarını bir daha görmək istiyorlardı.

Bu anda salam topları atılmağa başladı. 101 dəfə atılan top Əhməd şahın vürudini evlərdə qalmış olan əhaliyə dəxi bildirdi.

* * *

Bu cəşndə nə Lyaxov və nə də onun kazakları hazır deyil idilər.

Bunlara qəsdən izin verməmişlər ki, surəti yaxşı düşməz. Əhali deməsin şahı kazaklar gətirib taxtə oturtdular.

### Əvvəlinci səlami-hümayun

Rəcəbin 3-də axşama 3 saət qalmış məclisi-səlam açılmış idi.

Baği-gülüstanda, otaği-büllurda pəncərə qabağında cəvahirat ilə mürəssə[9] bir kürsü üstündə məsumiyyətlə müzəyyən millət təyinkərdəsi Əhməd şah Qacar başında taci-nimi-rəsmi olan külahi-cıqqədar olaraq oturmuşlar.

Ətrafında heyəti-vüzəralar durub məclis tamamdır.

Bağ əhali ilə doludur. Şah özləri müxtəlif bir nitqi-səlam buyurub, ondan sonra Naibüssəltənə qoca Qacar Əzədüddövlə vəziri-cəngi-Sipəhdar birər nitqlər dedilər.

Şahi-cavanbəxt müxtəsərən söylədikləri nitqlərində buyurdular ki:

«Mən ümid edirəm ki, mənim tərbiyəm millətimin istədiyi kimi olub, mən eyləyə bilərəm ki, öz əziz cəmaətim ilə ki, mənim fərzəndlərimdir, məhəbbət və dostluq ilə dolanam».

---

[1] **təhniyyət** – mübarəkbadlıq etmə
[2] **cadda** – baş küçə, böyük yol
[3] **zindəbad** – yaşasın
[4] **təkəssür** – çoxalma, artıb bollaşma
[5] **əqdəs** – ən müqəddəs
[6] **iclal** – cəlal, əzəmət
[7] **nüzul** – nazil olma
[8] **dərbar** – padşah sarayı
[9] **mürəssə** – qiymətli daş-qaşla bəzədilmiş

Fədailərdən bir nəfərin söylədiyi nitq daha müəssir[1] idi.

Nitqlərdən sonra icrayi-səlam başlanıb dəstə-dəstə fədailər, fövc-föve qoşunlar pişkahi-həzrəti-əqdəsi-hümayunidən keçib şaha təqdim olundular. Təqdim olunanlar cümləsində Lyaxovun özü və kazakları dəxi var idi.

Bədə musiqiyi-marşı-milli çalaraq əhali «Zindəbad Əhməd şah», «Payəndəbad-İran, bərqərarbad məşrutə nistbad istibdad», – deyə sədalarını asimanə qalxızdılar. Bu səsləri təqib edən səlam topları məclisin xitamını xəbər verib, şah təzimən çəkilib içəri otaqların birinə getdilər. Məclisi-səlam qurtardı. Əhali mütəfərriq oldu.

**Müxtəlif xəbərlər**

Rəsmi-səlamdan sonra şah həzrətləri dübarə qayıdıb gecə ilə Səltənətabada getmişlərdir.

İnqilab dəvairi[2] Məhəmmədəli Mirzənin tezliklə İrandan çıxmasına israrları vardır. Məzkurə ayda 2 min tümən məvacib təyin etmişlərdir.

Məhəmmədəli Mirzə bir çox xüsusi adamlara borclu olduğundan qərzdar[3] məqruzlarının[4] düçar olduğu halətdən naşi xeyli təlaşdadırlar.

Rus, ingilis səfarətləri çalışırlar ki, Məhəmmədəli Mirzəyə təyin olunan məvacibi artırsınlar.

Şayiələr dövran ediyor ki, Lyaxov Məhəmmədəli Mirzə ilə bərabər Rusiyaya gedəcəkdir.

Qanuni-intixabat bütün əyalətə göndərilib Tehranda dəxi bu günlərdə müntəxibin əvvəl seçkisinə başlanması üçün dövlət tərəfindən elan verilmişdir.

Dövlət tərəfdarı olan bəxtiyarilər, sərdari-müfəxxəm[5] adamları şəhərdən kənar kəndlərdə talan ediyorlar. Onları tədib etmək üçün tədabir ittixaz olunmuşdur.

Parlamanın tezliklə yığılması, əminiyyəti-kamilə bərqərar olunması xüsusunda tədabiri-məcdanə[6] də bulunmağı əmr edər. Şahənşah cavanbəxt tərəfindən dəxiliyyə və hərbiyyə vəzirlərinə birər fərman sudur etmişdir.

Burada Jan Porsan deyə təzə təşkil olunmuş bir firqənin əvvəlinci intibahnaməsi nəşr olunmuşdur. Bu intibahnamədə Jan Porsan özünün rəayanın hüququnu mühafizə edər bir firqə olduğunu elan ilə vədə verir ki, bu yaxında məramnaməsini nəşr edib bir qəzetə dəxi versin.

Mövkibi-hümayunun şəhərə vürudları və icrayi-səlamdan naşi üç gün tamam Tehran bayram edib çırağban edildi.

---

[1] **müəssir** – təsirli
[2] **dəvair** – dairələr
[3] **qərzdar** – borcu olan
[4] **məqruz** – borclu, borc almış
[5] **müfəxxəm** – iftixar, fəxr edilən
[6] **məcd** – böyüklük



Təbriz hökumətinə Müxbirüssəltənə* təyin olunmuşdur ki, Məhəmmədəli Mirzə hökuməti Təbrizin israrına baxmayaraq, bu adamı onlara vermək istəmiyor idi.

Zəncan şuluqluğunu yatırtmaq üzrə iki yüz nəfərdən ibarət bir fədai dəstəsi göndərilmişdir.

Tehran
**M.Əmin**
*«Tərəqqi», № 162, 21 iyul 1909*

## İRAN MƏKTUBLARI

*(müxabiri-məxsusimizdən)*

### TEHRAN FƏTHİ

Tehranın axırıncı inqilabı böyük bir şiş peyda qılıb çirk tutub, irin bağlayan İran vərəminin operasyonudur. İranı sevən bir iranlı, vətənini əziz tutan bir şəxs, bir inqilabçı, haman bu operasyon olmazsa İranın daima azarlı, qızdırmalı qaldığını əlaniyyə gördüyündən edə bilməzdi ki, böylə bir operasyonu cani-dil ilə istəməsin.

Hərçəndi azarlı bədəndə böyük bir nüfuz qazanmış olan «haziq»[1] təbiblər əvvəl dəfə «operator»ları iğfal[2] edə bildilər. Yəni Məhəmmədəli şahı əlani-məşrutiyyətə icbar etmələri ilə «operasyonu» «lüzumsuz» buraxsınlar.

Məhəmmədəli şahın iqdamati-nifaqkaranəsi və dövri-bərində olan müstəbidlərdən ayrılmaq istəməməsini görüncə ayıldılar, axırıncı dəfə bildilər ki, operasyon olunmayınca bu vərəm müalicə-pəzir olmayacaqdı.

Bu operasyon nədən ibarət idi? Tehranın alınması, şahın və şah ilə bərabər şöhrəti-seyyiatları[3] ilə məşhur olanların təbidi[4] millət tərəfindən əlani-məşrutiyyət olunması idi.

Operasyon başlandı:

Hürriyyət qəhrəmanları Tehran darvazalarını aldılar. İstibdadın yeganə ümidgahı olan kazak briqadası təslim olundu. Sirri[5] bir ərzihalında dediyi kimi «quldurlar yuvası olan məclis»i dağıtmağa şahı təhrik edən rus polkovniki qospodin Lyaxov dəxi zəlil oldu.

Bu əzəməti eşidən səltənətabadçı axır nəfəs şahın zilləti bir ləhzə mülahizə edilsin.

Yığışıb Zərkəndəyə-rus səfarətinə qaçmaq istəyir. Əmirbahadır qoymuyor. Hələ silahxurilər rəşidanə surətdə dava ediyorlar. Ümidimiz intiha bulmamışdır – deyə onu saxlayırlar.

---

* **müxbirüssəltənə** – keçmiş İranda dövlət məmurlarına verilən adlardan biri
[1] **haziq** – mahir, dərin məlumatlı
[2] **iğfal** – aldatma
[3] **seyyiat** – pis əməllər
[4] **təbid** – sürgün etmə
[5] **sirri** – gizli

Təxtindən endirilməkdə olan tacdarlara məxsus və məfhum[1] bir haləti faciədə Məhəmmədəli şah Qaradağ sipəhsalarının[2] axırıncı məsləhətinə də qulaq asıyor.

Bəlkə, nəqşə[3] döndü!

Heyhat, dağ aşağı hərəkət verilən bir daşı artıq saxlamaq olurmu?

Silahxurilər də basıldı, olmazın surətdə müxtəl[4] və pərişan oldular – deyə xəbəri-dəhşət əsəri Səltənətabada gətirirlər!..

Əşyasını, ailəsini fərarə hazırlamış olan şah artıq davam edəməz.

Zərkəndəyə! – deyə çıxar. Bu dəfə dəxi qabağını saxlamaq istəyən Əmirbahadır isə bero, pədərsüxtə – digərəm veyl kon*, – deyə tapança ilə təhdid edər.

Şah qaçır! Qabağını kim saxlaya bilər?

İradeyi-şahı qaçmağa müncər olmuşdur, varsın, olsun, fəqət təxttacını əldən qoysun.

Təxt və tac nədir? Adam bu halda bir pənahgah axtarır ki, özünün və ağlar gözlü ailəsinin canını təmin etsin!

Varsın, Zərkəndədə otursun!

Varmış, orada oturmuş. Özü ilə bərabər Əmirbahadır cəng, Hacı Məhəmməd İsmayıl Məğazzadə və bir neçə digərlərini də aparmışdır!

İştə hal-hazırda Zərkəndədə rus səfarətinin bami[5] iki dövlətin beydağı (rus və ingilis) çırpınır da sabiq İran tacdarı olan Məhəmmədəli Mirzənin canını himayət edirlər.

Xəli[6]-şahi elan edilir, əvəzinə isə Əhməd şah cavanbəxtin millət tərəfindən sahibi-təxt və taci-İran olduğu rəsmi icraat ilə bütün aləmə bildirilib kabineyi-vüzəra təşkil və əmniyyəti-şəhər hasil edilir.

Böylə bir hali-siyasi isə Əhməd şahı qəbul etməklə bütün düvəli müəzzəmə[7] tərəfindən təqdir edilir.

Lakin bu tamam bir operasyondurmu?

Lyaxov, haman darüşşürayi-milli, o amali-yeganeyi-millini bombarda edən Lyaxov qalır, şahpərəsti və istibdad dostu ilə bəslənmiş və tərbiyələnmiş briqada kazakları haman avtanomi halları ilə qalıyor, Lyaxovun əlini tanıyorlar. Top, topxanə, qurxanə, tüfəng və pulemyotları – hamısı əllərində olub vəz və hallarında bir təğyir yoxdur. Cüzi bir intriqa qalxarsa, o vaxt nə tərəfində olacaqları az bir mülahizə ilə bəlli olur, zənnindəyim!..

Məclisi dağıdan Lyaxov dəxi indi duruyor, məşrutiyyət polkovniki ünvanı ilə məşrutə briqadasına rəyasət ediyor.

---

[1] məfhum – mənə, düşüncə
[2] sipəhsaları – qoşun başçısı, sərkərdə
[3] nəqşə – plan, xəritə
[4] müxtəl – pozğun, pozulmuş
* Rədd ol dədəsi yanmış, məndən əl çək!
[5] bam – dam
[6] xəl – mənsəbdən kənar etmə
[7] müəzzəm – böyük, əhəmiyyətli



Fəqət məşrutiyyət ilə istibdad idarəsi arasında Lyaxov halətinin tufavütü olmuşdur ki, bu adam o vaxt vəziri-cəngə tabe olmuyub müstəqillən iş görürdü.

Amma indi vəziri-cəngə, yəni Sipəhdara tabedir. Fəqət tabeiyyət onun əllərində olan məsum qanlarını yuyurmu? Fəqət bu hal onun dəstixününindən həlakətə gedən mücahidini-milləti geri qaytarırmı?

Məgər bu tabeiyyət təmin ediyormu ki, bu adam bir daha xəyanət edəməz? Sonra bu «tabeiyyət» onu məmur olduğu politikeyi-məlumi icradan saxlıyormu? Bu məsələ mühümdür.

Bəs Eynüddövlə nə tövr olur ki, müqərrəbi[1]-dərbari kəsilərdə hökumətin bir çox məsalehində[2] oluyor, heyəti-vüzəra məclisində oluyor?

Bu haman Eynüddövlə deyilmi ki, Təbrizdən dünən qayıtdı?

Bu haman Eynüddövlə deyilmi ki, Təbriz əhrarını mühasirə edib aylarla qəhrəmanların başlarına od yağdırır idi.

Bu haman Eynüddövlə deyilmi ki, onun ölüm xəbəri çıxanda həmin indi Tehranı təsxir etmiş olan gilanlılar Rəştdə çırağan ediyordular?

Bu adamın elədiyi xəyanətləri İranın xırda uşaqları da bilir.

Bainhəmə[3] müqərrəb oluyor, hökumət almaq fikrinə düşüyor. Yaxşıdır onu Təbriz hakimi təyin edəsinlər. O vaxt inqilab tamamilə əmələ gələr.

İndi hər kəs məşrutəpərəstlik susinə girmiş ifadeyi-hürriyyət satıyor. Bazar rəvacdır, fürsətdən istifadə ediyor.

İndi əhval böylə bir surət almışdır: məşrutəpərəst haradan başlayıb, müstəbid nərədə qurtardığı məlum deyildir. Hamısı biri-birinə qarışıb məzhəb itmişdir.

Məhəmmədəli şah xəl olunmuş, amma Məhəmmədəli şahı saxlayan qüvai-ictimaiyyə təsfiyyə olunmamışdır. İstibdad sınmış, amma ona təravət verməkdə olan qabığı üzülməmişdir.

Məşrutə verilmiş, amma onu mühafizə etmək üçün lazım məvadd hənuz qüvvətlənməmişdir.

Şəhərdə olan qüvai-hərbiyyə hamısı müsəlləhdir. Lehində və əleyhində olanlar hamısı müsəlləhdirlər.

Amma bu fərqlə ki, məşrutə əleyhinə güllə atanlar bir dərəcə orqanizasyonlu, baş bir yerdədir.

Kazak briqadası kimi ki, bütün-bütünə haman Lyaxovun əlindədir, silahxurilər dəxi təxliyeyi[4]-silah etməmişlər. Lakin onların silahları alınmaq üzrədir.

Məşrutənin püştpənahi haman bəxtiyarili və başqa fədai mücahidləridir ki, müsəllahdir, bunlarda həmişəliklə tüfəng altında qalammazlar.

---

[1] müqərrəb – yaxın qüvvələr
[2] məsaleh – fayda, xeyr
[3] bainhəmə – bununla belə
[4] təxliyə – boşaltma, boşaldılma

Bir az sonra hərə dağılıb öz işinə gedəcək, hürriyyətini kəsb etdikdə maaşını qazanmağa varacaqdır.

İştə bu cəhətləri nəzərə alaraq vüzarəti-cəng gərək fövqəladə bir fəaliyyətdə buluna idi.

Lakin maattəəssüf[1] dövlətin ən dəyərli və lazımlı qolu olan bu vüzarət bir dərəcəyə kimi öz vəzifəsini kəmalincə ifa etmək istedadından bəzi səbəblərə görə məhrumdur.

Bu əsbab[2] məhv edilməlidir. Burasını dəvairi[3] inqilab da hiss etməkdədirlər.

Əvət, indiki halda düzəldilməyən nəvaqisi-əsasi sonra artıq müşkülat ilə düzələ bilər. Madam ki, operasyondur, tamamilə operasyon yapmalıdır, yoxsa bir az irin buraxmaqla yaranı qapamaq azarlını ya həlak etmək və ya təzə bir operasyonlar yapdırmağa məcbur etmək kimidir.

Buraxmalıdır ki, bütün irin-çirk axsın, vərəm tamamilə təmizlənsin, tainki bədəndə qalmış olan əsarət artıq səmm[4] bağlaya bilməsin. Səmm bağlarsa, təzədən vərəmlər yaradacağına şəkk və şübhə yoxdur.

İştə Lyaxovlar, eynüddövlələr, nürüddövlələr və başqa bir çoxları həman naqissizcəsinə edilən operasiyondan azarlı bədəndə qalmış olan irin çirkdir ki, təmizlənməlidir, yaranın ağzı bağlanmamış ikən məlhəm qoymalıdır. Yoxsa təzədən cərraha ehtiyac olacaqdır.

Operasiyonların naqis olduğunu zatən inqilabçılar özləri də iqrar ediyorlar. Onlar diyorlar ki, azarlının bundan artıq neştər vurmağa davamı yoxdur. Ona görə də artıq neştər vurmayıb məlhəm ilə yaranı sağaltmalı, yəni İran kompromisni işə verməlidir, güzəşkar olmalıdır.

Operasyonu uzatmağa inqilabçıları nə qorxuduyormuş, hansı cəhət varmış ki, azarlı artıq neştər vurmağa davam etmiyormuş?

Bu xüsusidə bir neçələri ilə görüşüb söhbət etdim. Aldığım mülahizələr iştə bu: Tehranda artıq qan vurmaq üsulu icra olunmuş olsaydı, lazım gəliyor 3 gün əvəzinə azı bir 7 gün atışma və müqatilə olunaydı. Bu üç gündə gündəki kimi hökumət qoşunları müxtəlif bəhanələr ilə qətl və qarət başlamışlardı. Əgər dava uzanıb haləti-hərbi uzansa idi, o halda qarətlərin qabağını saxlamaq müşkül olacaq və Qəzvindəki rus qoşunları daxi təbəələrini mühafizə etmək ünvanı ilə Tehrana daxil olacaqlar idi.

İştə bu hal inqilabçıları vadar etmişdir ki, hiddət və şiddətlərini azaldıb güzəştkarlıqla işi qurtarıb şəhərin əmniyyətini təmin etsinlər. Bu bəyan inqilabçıların ifratpərəst qismini hərgiz iqna etmiyor. Onlar güman ediyorlar ki, hər halda bu hal Lyaxov və eynüddövlələrdən təmkin etmək dərəcə bir güzəşti-eybavəri icab etmiyor və etməz idi.

Tehran

***M.Əmin***

*«Tərəqqi», № 163, 22 iyul 1909*

[1] **maattəəssüf** – təəssüf olsun
[2] **əsbab** – səbəblər
[3] **dəvair** – dairələr
[4] **səmm** – zəhər, ağı



## TEHRANIN FƏTHİNDƏN SONRA İRAN MƏKTUBLARI

*(müxabiri-məxsusimizdən)*

### EDAM CƏZALARI

Qəribə sakitanə bir surət almış olan qələbeyi-inqilab bu gün təğyiri[1]-rənc etmiş idi.

Qürubə bir az qalmış topxana meydanı əhali ilə dolmuş idi. Komisyoni-cəng qabağında gimnastikdən ötrü qurulmuş ağac bütün ənzarı[2] cəlb etməkdə idi.

Nagah ənzarın gözlədiyi bədbəxt aşkar oluyor. Boz sərdari və qara papaqlı olan miyanə boylu məhkumi gimnastik ağaclarının yanına gətirirlər ki, bu dəfə dar ağacı rolunu oynayır. Zatən İranda bir şeyə müxtəlif vəzifələr vermək adətdir.

Bu adam qarelərimizə məlum olan Şah Əbdüləzim faciəsini təşkil edən bədbəxtdir. Şahın çıraxçısıdır ki, axır vaxtlarda qorxanaya daxi nəzarət ediyormuş. Şah Əbdüləzim faciəsini bu adam o vaxt Tehranda hakim olan Məfaxirülmülk ilə dilbirlikdə düzəldib imiş ki, onu da güllələbaran etmişlər.

Bunun ləqəbi Sənii[3]-həzrətdir. Sənii-həzrəti kürsü üstə çıxarırlar. Bir nəfər göy əmmaməli seyid bunun günahlarını bir-bir oxuyub nəticeyi-mühakimənin ayeyi-quran ilə təvafüq[4] etdiyini bəlbəyən bu bədbəxt, taleyi bərgəştənin məhkəmeyi-nizamiyyə tərəfindən edama məhkum olunduğunu elan edincə ciyəni boğazına salıb ayağı altında olan kürsünü kənar edirlər. Bir kəlmə olsun danışmayaraq oradan asılı qalar, boğular, rəngi qaralar.

Hazırun əl çalıb «zindəbad qanun», «zindəbad ədalət», – deyə fəryad edər.

Biz də camaatla bərabər «zindəbad qanun», «zindəbad ədalət» sözlərinə etiraz etməz idik, əgər bu edamda duruyəlik[5] görməyəydik. Fəqət nədən isə maattəəssüf duruyəlik mövcuddur.

İsimləri, vücudları ilə bir aləmi-istibdadi-mücəssəm olanlar kəmali-azadlıqla gəzib bitəərrüz qaldıqları şəhldir. Vəzifə və qulluq aldıqları halda idareyi-sabiqə ilə qurtarmaq və hesablaşmaq üzrə çıraxçılardan başlamaq doğrusu ki, yoldan çıxıb zərərdidə olmuş vaqon üzərində maşınçını qoyub da biçarə yol qarovulçusunu edam etməyə, yainki stansiya süpürgəçisini məsuliyyətə almağa bənzəyir.

Əcəba! Yeni hökumət bu edamı müstəbidlərin bitənbih qaldıqlarından dolayı dilgir və narazı olan əhalinin gözündən pərdə asmaq üçünmü ediyor?

[1] **təğyir** – başqalaşma
[2] **ənzar** – nəzərlər, baxışlar
[3] **səni** – icad, ixtira, ən gözəl
[4] **təvafüq** – uyğungəlmə, müvafiqolma
[5] **duruyəlik** – ikiüzlülük

Əbəs!..

Zira, onları dilgir edən bu milçəklər deyil, fillərdir ki, həman fillərin də baqi qalıb, minlərlə biçarəgan millətı edama verdiklərinə, məşrutəçiləri mühasirədə qoyub bombardman etməklərinə baxmayıb onlara heç təərrüz etmədikləri səhldir, dövr başa keçirir, böyük qulluqlar verirlər.

Onlar öylələrini görürlər ki, dünən rus qoşununun zərbi-dəsti ilə Təbriz məşrutəçilərini mühasirədən qayıdıb bu gün Tehran məşrutəçiləri tərəfindən Xorasan kimi böyük bir əyalətə hakim olmaq fikrinə düşüyorlar.

Onlar Rəhim xanları görürlər ki, Azərbaycanda əli çatan yerdə istər qız, istər oğlan olsun, namus qoymadığı halda tənbehsiz qalıb kimsə ona cəza etmək fikrində deyildir.

Əhalinin böylə mütəzadd vəqayedən naşi dilgir olan qismi edam cəzalarının Sənii-həzrətindən başlandığını görəndə etirazları daha da artır! Məəttəəssüf hökuməti-cədidədə də bir duruyəlik görüyorlar.

İşıə heysiyyəti-kamiləsini bərdavam etmək üzrə İran inqilab hökuməti bir az ciddi olmalı, bu kimi köhnə duruyəlik politikalardan aralanmalıdır.

Ya əfvi-ümumi, ya edam isə ola. O kəslər edam olunsun ki, onların ismi ilə bu kəslər aləmi-istibdad təcəssüm ediyor.

Yoxsa böylələri dura-dura kiçik müstəbidlərdən başlamaq duruyəlikdən başqa bir təsir verəməz. Hökuməti-abrudan[1] sələr!

İnqilab başında duran cavan ünsürlərin vücudu ilə ümidimiz bərdavamdır ki, hökuməti-məşruteyi-İraniyyə düşmək istədiyi bu səhv caddəsindən çıxar da düz yola düşər.

* * *

Görünür ki, edam cəzaları müxtəsər bir icraat ilə qurtaracaq deyildir.

Hal-hazırda həbsxanada bir neçə nəfər vardırlar ki, edama məhkum olmuşlar da bu günlərdə cəzalanacaqdırlar.

Aşağıda adları yazılan əşxas tovqif olunub təhti-istintaqə verilmişdir;

Hacı Əli Əkbər Birucərdi – bu adamın cümleyi-seyyiatından[2] sərimənbərdən olaraq məşrutiyyətin küfrünü elan etməsidir.

Nəcdüddövlə topxana rəisi. Məclis bombardman olan gün bu adam topçulara böylə bir nitq söyləmiş: «Qardaşlarım, bu gün sərbazlıq nə olduğunu göstərməli gündür».

Bir gözdən kor olan Axund Amili əlaniyyə olaraq məşrutiyyətin şəri olduğunu təcavüz edən Axund Molla Kazım Xorasani hücəcül-islamın küfrünə fitva veriyor imiş.

Acudan başi[3]-məclis bombardman olan gün İran məmurlarından əvvəlincisi imiş ki, məscidə və darüşşuraya top bağlamağa davütələb olmuşdur.

[1] **abru** – abır
[2] **seyyiat** – pis əməllər, işlər
[3] **acudan başi** – baş adyutant



Sərdari-əfxəm[1] Qulam Hüseyn xan – Şah Əbdüləzim vəqəəsində zimədxəldir ki, edam olunan Sənii-həzrətin istintağından zimədxəl olduğu anlaşılmışdır.

Əfkari-ümumi bu yoldadır ki, yenə bir çox həbslər icra olunub, adlı adamlar dəxi dəstgir olunacaqlardır.

Tehran, 17 iyul
**M.Əmin**
*«Tərəqqi», № 166, 26 iyul 1909*

## İRAN MƏKTUBLARI
*(müxabiri-məxsusimizdən)*

### TEHRANIN MÜHAFİZƏSİ

Tehran üsuli-idareyi-əskəriyyədədir. Şəhərin mühafizəsi xüsusində komisyoni-cəngə və nizamiyyəyə fövqəladə ixtiyarlar verilmişdir.

Bu ixtiyarlar o dərəcə fövqdür ki, komisyoni-cəng elan etdiyi bir elamnaməsində diyor ki, heç kəsin komisyoni cəng şöbəsi ünvanı ilə və ya politik və dövlət işlərinin məhəlli-müzakirəsi adı ilə əncümən və ya cəmiyyət açmağa ixtiyarı yoxdur. Hər yerdə böylə bir əncümən və ya cəmiyyət təşkil verilərsə, o mərkəz bilmərrə münhədim və xarab və müəssisləri dəstgir olunub iqab[2] olunacaqlar.

Edam olunanlar dəxi komisyoni-cəng mühakiməsi ilə edam olunurlar.

Şəhərin qarovul mühafizəsi fədailərinin öhdəsindədir. Gilan mücahidləri, Bəxtiyar atlıları dəstə-dəstə olaraq gecələr və gündüzlər şəhəri gəzib əmniyyəti gözləyirlər.

Bunlarla bərabər paytəxtin əmniyyətini təmin etməkdə jandarma heyəti dəxi işləməkdədir.

Nəzmiyyə riyasəti mücahidin sarayından erməni Beprimə tapşırılmışdır. Bu adam inqilab vaxtında rəşadəti üzrə şöhrət tapmış bir daşnaksakandır.

Mücahidindən tərtib verilmiş polis filvaqe[1] paytəxti nəhayət dərəcə bir əmniyyət və sakitlik ilə saxlamağa müvəffəq olmuşdur. Öylə ki, Qəzvindəki mehmanların Tehrana gəlmələrinə bir zərrə bəhanə qalmamışdır.

Mücahidlərin və məşrutəpərəst olan Bəxtiyar atlılarının ibraz etdikləri cavanmərdlik hər kəsi heyrətə gətiriyor. Bunlardan bir nəfər şikayətçi tapılmaz. Bunlar filvaqe özlərini əhrar fədailəri kimi aparıyorlar. Bütün qeyrət və hümmətləri ilə çalışırlar ki, yeni üsuli-idarəni eyblendirəcək bir hərəkətdə bulunmamaları ilə özgələrə timsali-ibrət olsunlar. Müvəffəq oluyorlar.

[1] **əfxəm** – ən böyük
[2] **iqab** – cəzalandırma
[1] **filvaqe** – həqiqətən, olduğu kimi

Nə ali fikir!

Əllərində silah olanlardan baisi-səlbi[1] əmniyyət olanlar Lyaxov kazakları, şah tərəfdarı olan Sərdari-müfəxxəm[2] əlində olan Bəxtiyar atlıları və bir dəstə dəxi silahxurilərdir.

Hamıdan çox şuluqluq edən axırıncılardır ki, şəhərdən kənar Şümranat tərəflərində ordu salıb yoldan keçən fəqir-füqərayə, kəndistan əhalisinə əziyyət veriyor, soyurlar.

Bunların tədibi uğrunda lazımeyi-tədabir ittixaz olunmuş, təxliyeyi silah etmələri üçün iqdamat olunmuşdur.

Əvvəlcə silahlarını verəcək olmadıqlarını israrən bildirmiş olan silahxurilər, indi boyunduruq altına gəlib təslim olunurlar.

Öz vətənləri olan İraqa gediyorlar.

Sərdari-müfəxxəm atlıları olan bəxtiyarilər isə Şümranat cümləsindən olan Niyavərannam bir baği-dövlətidə ordu salıb əhaliyə əziyyət etməkdədirlər.

Bunların yanına əvvəlcə nəsihət etmək üzrə bir heyət göndərilmiş, tapşırılmışdır ki, biirzəlik etməsinlər.

Səhih rəvayət ediyorlar ki, təhdid edilmiş olan bu bəxtiyarilər bu günlərdə Niyavəranı təxliyə edib öz vətənlərinə mütəfərriq olacaqlar.

Üsuli-hərb və mübarizədən çox piyanlıq və bədməstliyə öyrədilmiş olan Lyaxov qırmızı puş[3] kazakları ilə şəhərdə məst olub laübali işlər etmələri ilə əhaliyə xeyli əziyyət verdiklərindən əlavə bəzi fitnəəngiz təşəbbüsatda bulunurlar.

Bir neçə kazakı küçədə məst olduqları halda məşrutiyyət ünvanına bəd dемələrindən naşi nəzmiyyə həbs etmişdir.

İki gün irəli dəxi polisə nəfəratı ilə bərabər olan jandarma görürlər ki, bir dəstə lyaxovçular məhlələrin birində bədməstliyə məşğuldurlar.

Jandarma gedər də bunları tərbiyət üzrə dolanmağa dəvət edər. Bunlar qulaq asmaz, jandarmı söyərlər. Jandarm bunların şərrini dəf etmək üzrə tutub nəzmiyyəyə gətirmək istər. Kazaklar müdafiədə bulunub onlardan biri jandarma tərəf atəş açar. Açılan atəş ilə biçarə jandarm düşüb təslimi-ruh edər. Əhvali bu sürətlə görən digər kazaklar məbadə mücahidlər onlara qisas etməsinlər xəyalilə tüfənglərini hazırlayıb divar daldasında səngərbəndlik edərlər.

Böylə halda başqa iş görməyib bacardıqca kazaklara olunan rəftarlarında fitnəyə yol verməduklərinə rəislərindən dəstürüləməl almış olan mücahidlər isə bunlarla artıq əlbəyaxa olmuyub məvəqə halı nəzmiyyə rəisinə bildiriyorlar. Məzkur Lyaxova rəsmi kağız yazıb bəyan edər ki, o öz kazaklarının halından müvazib olub rəftarlarını təhti nizamə alsın, yoxsa mücahidlərə ixtiyar verəcəkdir ki, bu kimi hallarda öz heysiyyətlərini saxlamaq üzrə lazımeyi-tədabirdə bulunsunlar. Jandarmı öldürmüş olan kazak tutulub təhti mühakiməyə verilmişdir.

Bu günlərdə şəhərin mühafizəsi bir az daha qüvvətlənmişdir. Şəhəri mühafizə etməkdə olan polisə nəfəratının üzərinə 4 yüz nəfər daha əlavə edilmişdir ki, bunların vəzifəsi dəstə-dəstə olaraq şəhəri axşam səhərə kimi gəzib qarovul çəkməkdir.

Jandarma qətli vəqəəsindən bəri axşamlar kazakxana dövrəsində olan səngərlərə mücahid qarovul qoyulub keşik çəkməkdədir.

Kazaklar Lyaxov idarəsindən alınıb başqa bir idarəyə verilməyincə, onların milli bir qüvveyi-qəhriyyə olmasına inanmaq həman Eynüddövlənin məşrutəpərəstliyinə inanmaq kimi bir anlaşılmaz səfsətədir.

Dər hər surət bugünkü əmniyyəti-Tehraniyyə tərifdən müstəğnidir[1].

**M.Əmin**

*«Tərəqqi», № 167, 27 iyul 1909*

[1] **səlb** – dar ağacından asma
[2] **müfəxxəm** – fəxr edilən
[3] **puş** – geyinmiş



## İRAN MƏKTUBLARI

*(müxabiri-məxsusimizdən)*

### ƏSASİYYEYİ-SƏLTƏNƏT

Məhəmmədəli Mirzə səltənətdən daha əl üzdüyü zaman Səltənətabaddan qaçdığında özü ilə bərabər pürqiymət olan əsasiyyeyi-səltənəti dəxi özü ilə bərabər Zərkəndəyə rus səfarəti himayətinə aparmış idi.

Təzə hökumət isə bu əşyaları məzkurdan müsirranə[2] surətdə tələb edib sırağa gün 50 nəfər kazak və 100 nəfər bəxtiyar süvarisindən ibarət bir qüvvə ilə üç nəfərdən ibarət heyəti-məmura gedib Zərkəndə də şahisabiqdən əsasiyyeyi-məzkurəyi aldılar.

Heyət əlində olan siyahiyeyi-mövcudəyə müqabil siyahı oxunduqca şah əşyaları veriyor idi.

Təhvil alınan əşya cümləsində, dəryanur, tacı-padşah, ciqqeyi-şahi, baha qaş-daş ilə bəzədilmiş tənpuşi-şahi mövcuddur.

Siyahı üzrə bəzi şeylər təhvil verilməmiş qalmışdır ki, şah onların atasının mali-məxsusi olub irsən öz məxsusi mal olduğunu iddia ediyor. Bu xüsusda məsələ hənüz həll edilməmiş münazə fihi[3] qalmışdır.

Əşyalar təhvil alındığı zaman balaca bir cəbəni açmaq istərlər. Şahisabiq isə deyər ki, bu cəbə mənim özümə məxsusdur. Və sizi maraqlan-

[1] **müstəğni** – ehtiyacı olmayan
[2] **müsirranə** – israrla
[3] **münazə fihi** – mübahisəli

dıran orada bir şey yoxdur. Açılmasına israr olunduğu zaman şahi-sabiq deyir ki, mən sizə şah sözü verirəm ki, orada öylə bir şey yoxdur. O halda heyət cəbəni alıb öz möhrü ilə möhürlər və hökumətlərindən bir əmri-məxsus alınana kimi açılmayacağını xahiş edirlər.

### Eydi-mövlud

Keçən gecə eydi[1]- mövlud[2] axşamı olmaq münasibətilə dərbar[3] qabağında böyük bir atəşbazlıq icra olundu.

Topxanadan tutub dərbar qapısına kimi imtidad edən enli xiyaban bu tərəf o tərəf çırağban olub arada isə müxtəlif surətlə fişəngbazlıq oyunları düzəlib rəngarəng atəşlər oynadılar. Ağzına kimi dolmuş olan xiyabanın ibraz etdiyi şadlıq, şadyanəlik tərifə sığışmaz. Buradakılar həmısı özlərini nəhayət dərəcədə xoşbəxt hesab ediyorlar.

Daima «zindəbad hürriyyət», «zindəbad Əhməd şah», «zindəbad qanun», «zindəbad İran», «mordəbad istibdad» və qeyrə, – deyə sədalar ucalırdı.

Topxana meydanında ələddəvam[4] top atılıb gurultusu ilə qulaq tutuyordu.

### Rəsmi-salam

Bu gün rəcəbülmürəccəb ayının 13-ü yövmi-məsudi-mövludi həzrəti-Əli əleyhissəlam olduğu münasibətilə bir yövmi milli olduğundan qədimdən bəri adət olub gəlməkdə olduğu üzrə imarəti-şahidə rəsmi-salam icra olundu.

Bu salam şahənşahi-cavanbəxt Əhməd şah Qacarın 2-ci səlami-rəsmisidir.

Salam zöhrdən qabaq Gülüstan həyətində başlanıb bütün sahib mənsəblər öz fövcləri[5] ilə hazır idilər. Lyaxov dəxi öz ofiserləri ilə bərabər bir yanda tamam libasi-rəsmidə olaraq səf çəkib dayanmışlardı.

Otaqi-büllurun sirmələri yuxarı çəkilmiş pəncərə qabağında cəvahirat ilə mürəssə kürsiyi-səlam qoyulmuş, dövrəsini bütün vüzəra və şahzadələr almışdır. Kürsünün sağ tərəfində şahın böyük qardaşı durmuşdur.

Müstəşarlar həmısı tirmə cübbə olaraq bir surəti-rəsmiyyədə səf çəkmişlər.

Mücahidlərdən dəxi bir heyət mövcuddur. Bütün cəngi və ürfi heyətləri bu minval ilə rəsmən durduqları halda biri-birinin əqəbincə olaraq heyəti-süfəra kəlami-rəsmiyyət ilə keçib təşrifat otağına gediyor, orada şahı gözliyor.

Tehranda olan bütün düvəli-müəzzəmə[6] nümayəndələri mövcuddur. İngilis, rus, Osmanlı, alman, Avstriya, Fransa, İtaliya və qeyriləri.

[1] **eyd** – bayram
[2] **mövlud** – doğulmuş
[3] **dərbar** – padşahın sarayı
[4] **ələddəvam** – daimi olaraq
[5] **fövcləri** – dəstələri
[6] **düvəli-müəzzəmə** – böyük dövlətlər



Müşar ileyhim Şahi-cavanbəxt ilə otaqi-təşrifatda görüşüb zati-hümayunlarını təbrik edib əltafi hümayuna məzhər[1] oldular.

Bədə, heyəti süfəra həman təmami-rəsmiyyət ilə otaqdan cıxıb Naibüssəltənə ilə görüşəndən sonra dərbardan təşrif apardılar.

Süfəra ilə olunan icrayi-təşrifatdan bir az sonra cəmaət ideyasının əməlının mücəssəməsi Sultan Əhməd şah təmamı lıbasi-rəsmiyyədə olaraq Naibüssəltənə ilə bərabər salam otağına təşrif gətirib uşaqlığına baxmayıb kəmalü-vüqarü dəbdəbə ilə kürsiyi-cavahiratmürəssə oturur və nazik uşaq səsilə ayəyi Quran olan: «Əlyövmə əkməltu ləkum dinəkum və ətməmtu əleykum nemətı»* ayəsini oxuyandan sonra hazırıni yövmi-məsud münasibəti ilə təbrik ediyor.

Pəncərə qabağında mövqeyi-təzimdə duran qabapuş qoca Nizamülmülk ki, çoxdan bəri dərbar səlamlarının nazırıdır, cəmaət tərəfindən cavab olaraq görünüş edərək şahı təbrik ediyorlar.

Onun sırası ilə xətib ərəbcə bir xütbə irad edib peyğəmbərimiz Məhəmməd ibn Abdullah, imamımız Əli Vəliyullah və aliətharını təmcid və təhmiddən sonra xütbəni nami-məsumi-şahənşahi ilə xətm ediyor. Bundan sonra dərbar şairi Şəmsüşşüəra sürud etmiş olduğu mədhiyyəsini oxuyub qəsidəsini şahpərəst məşrutəçilər ilə məşrutəpərəst şahın həyatlarına zindəbad – deyərək xətm ediyor.

Bundan sonra şah cəmaətə ümumi bir təzim edib qalxır. Naibüssəltənə qolundan tutduğu halda gediyor.

Marşi-milli tərənnümsaz oluyor.

Hər dəstə fövc-fövc olaraq getməyə başlıyordular. Salam qayədə bir rəsmiyyət ilə icra olunur idi.

Burada bir neçə nəfər əkkaslar[2] var idi.

Heyəti-süfəra[3] ilə olunan müsahiblərin xülaseyi-məalini[4] gələn posta ilə yollaram.

**M.Əmin**

*«Tərəqqi», № 168, 28 iyul 1909*

## TEHRAN

*(xüsusi müxbirimizdən)*

### ZİLLÜSSULTAN GERİ QAYTARILIR – MİR HAŞIM ASILDI

Məncildə tovqif edilmiş Zillüssultandan bir kürur tümən alındıqdan sonra geri qaytarılır. Təbrizin yalançı «müctəhidi» Mir Haşımı bu gün asdılar.

[1] **məzhər** – nailolma
* Bu gün mən sizin dininizi kamil etdim, sizə nemətimi tamam etdim
[2] **əkkas** – fotoqraf
[3] **süfəra** – səfirlər
[4] **məal** – məna

**Tehran, 27 iyul**

Şahi-sabiqin borclularına məhkəmeyi-ədliyyə tərəfindən elan olunmuş ki, sabiq şahın qərzdarlarına məhkəmə tərəfindən elan olunmuş ki, şah Tehrandan çıxana kimi məhkəməyə şikayətlərini versinlər. Və illa sonra həqiqət anlaşılmaz.

**Rəsulzadə**
*«Tərəqqi», № 168, 28 iyul 1909*

## İRAN MƏKTUBLARI
*(xüsusi müxabirimizdən)*
*(keçən nömrədən mabədi)*

### SİLAHXURİLƏR

İraq fövcələrindən olan silahxurilər Məhəmmədəli Mirzənin ən tərəfdarı olan silahdarlar idi ki, hər kəs təslim olub qurtarandan sonra bunlar dəxi özlərindən bir 40 nəfər öldürtdürmək dərəcədə istiqamət[1] göstərdiklərini xəbər vermişdik.

Vəqəəyi-Tehran surəti-məlumayi aldıqdan sonra bunlar çəkilib Səltənətabad tərəfdə ordu vurmuşlar idi.

Hökuməti-haliyyə bunları tərk-silah edib vətənlərinə getmələrinə qərar verdiyindən qərari-müəyyəni bunlara ixtar[2] edincə əvvələ bunlar bu qərara təslim olmaq istəməzlərsə də, bədə çarəsiz qalıb təklifi qəbul edərlər.

Haliyyə bunlar silahlarını zəxireyi-dövlətiyyə təslim edərək yol xərci alıb gəldiyi yollar ilə geri gediyorlar.

### Qəzetələr

Fəthdən sonra yenə qəzetələr nəşrə başlamışdır. Haliyyə beş qəzetə çıxmaqdadır. Yəni bunların adı qəzetə olub özləri qəzetəlikdən xeyli-xeyli uzaqdırlar. Buradakı tanışlarımdan biri məzəkarlıq edib İran qəzetələrinin cəsamətini[3] tənqid edib diyor ki, İran qəzetələri kəbinnaməyə oxşuyor.

İştə bu kəbinnamələrdən indi Tehranda 5 ədəd nəşr olunur ki, bunların hamısı irəliki döri-məşrutiyyədə nəşr olunur idi.

Böyük və Avropa qiyafətli qəzetə, məramnaməli bir qəzetə nəşr etmək fikri bura ərbabi-qələmi arasında xeyli irəliləməkdədir.

Hal-hazırda bir dəstə əhli-maarif kompani təşkil etmək istiyorlar ki, Avropa qəzetələrinin şəklində və məalında bir qəzetə nəşr edib bütün həyati-ictimaiyyəni şiddətli tənqidə çəkməklə bərabər nafe məqalələr və bütün

[1] **istiqamət** – doğruluq, düzgünlük
[2] **ixtar** – xatırlatmaq
[3] **cəsamət** – böyüklük, irilik



təbəqati-əhalini maraqlandıran əxbarati-müxtəlifə və teleqraflar dərc etsinlər ki, işin bu cəhətinə İran qəzetələrinin heç birində əhəmiyyət verilmiyor.

### «Novoye vremya»

«Novoye vremya»nın Yançevetski namində bir müxbiri vardır ki, Suvorin babanın Tehran casusudur.

Bu casusun idarəsinə verdiyi yalan teleqramlar iranlıları olduqca mütənəffir[1] edib rus mətbuatına qarşı acıdır. Bu acımaq bir əksül-hərəkət surətini alardı əgər burada «Russkoye slovo»nun mütəəddid[2] müxbirləri olmaya idi. Həman müxbirlər həmişə «Novoye vremya»nın xilafi məqsəd və rəyi olaraq əxbaratı surəti-məvəqəi[3] ilə rusiyalılara bildirirlər.

Bu adamcığın axırıncı müxabirəsində götürüb heç əslü-əsası olmadığı halda mənsub olduğu fitnənaməsinə teleqraf etmişdir ki, «Şəhərdə əmniyyət yoxdur. Reaksiya baş qalxızmış, bu gün-sabah böyük şuluqluq çıxacaqdır, hökuməti-haliyyə tamamilə ingilispərəstdir. Ruslara qarşı bir nifrəti-ümumi hasil olmuşdur.

Rus qoşunlarının nədən ötrü Qəzvində bihərəkət durduqlarını anlamiyoram.

Böylə bir hökumətə rus pulunu borc vermək böyük bir günahdır».

Bu provakatorun teleqramının surəti teleqrafxanədən hökumət əlinə keçincə qərar verilir ki, yazıb rus səfarətindən xahiş olunsun ki, bu adamın vücudi rus-İran münasibati-dostanəsinə xələl verdiyindən naşi onu İrandan təbid etsinlər.

Bu adamcıq nə tövr acı qanlı isə səfarətdə dəxi bundan narazılıq ediyorlar.

Tehran, 18 iyul
**M.Əmin**
*«Tərəqqi», № 169, 29 iyul 1909*

## İRAN MƏKTUBLARI
*(müxabiri-məxsusimizdən)*

### İNDİKİ VƏ GƏLƏCƏK MƏQSƏDLƏR

İran inqilabının əvvəlcə məqsədi qəsb olunmuş qanun əsasını almaq hətk[4] edilmiş hörməti-milliyəsini saxlamaq, qətl edilmiş vükəlai-həqiqisinin intiqamını almaq biibareyi-uxra[5] Məhəmmədəli Mirzə ilə hesablaşmaq ikən axırda başqa daha bir müşkül, daha bir mühüm məsələyə

[1] **mütənəffir** – nifrətlənən
[2] **mütəəddid** – çoxlu, saysız
[3] **məvəqə** – vaqe olan, hadisə
[4] **hətk** – rüsvayçılıq, yırtma
[5] **biibarəyi-uxra** – başqa sözlə

düçar oldu ki, o da istiqlali-məmləkəti xarici rəqiblərə qarşı mühafizə etmək idi.

Baxdılar ki, Tehran alınıb Məhəmmədəli Mirzə ilə lazım mühasibat olunmaz isə məmləkətin istiqlalı məhv oluyor, gediyor.

İştə iranlıların getməkdə olan abrulərini geri qaytarıb bir nam tarixi verən Tehran inqilabi-axirəsi müzəffərənə bir surətdə icra olundu.

Bu inqilab iki böyük qüvvətli ruh ilə ruhlanıyor: biri məmləkəti qanuni bir ölkə edib əsl məşrutiyyət yoluna salmaq, digəri isə xarici təxti-nüfuzundan çıxıb istiqlali-mülkü-milləti bilmərrə təmin etmək.

Bu məqsədlərini icra etmək üçün inqilabçıların təşkil etdikləri hökuməti-hazirə fəaliyyət göstərməkdədir.

Təxirsiz olaraq axır vaxtda hazırlanmış qanun intixabatı Təbrizdən göstərilən təshihat ilə düzəldib, ətraf vilayətə göndərib, tezliklə intixab olunmasına əmr olunmuşdur.

Paytaxtın özündə dəxi elani-məxsus ilə seçkilərə hazırlanmaq ixtar olunub bu yolda hər qisim təshilata iqdam olunmuşdur.

İntixablarda bu qədər təcil etməkdən məqsəd parlamanın tezliklə yığılmasıdır. Zira, parlamani-Rəşteyi-hökuməti yığışdırmaq müşkül olduğunu camaat gücü ilə sari-hökumətə gəlmiş olanlar yaxşı anlıyorlar.

Parlaman iflihai məsələsindən keçəndən sonra hökuməti-milliyyəni hər şeydən çox düşündürən rus qoşunları ilə Məhəmmədəli Mirzənin məmləkətdən çıxmasıdır.

Mədam ki, rus qoşunları məmləkətdə durmaqdadırlar sər idarədə olanlar istiqlali-məmləkətdən əmin deyildirlər. Bunları tezliklə məmləkətdən çıxartmaq üçün dəxi vilayətlərin əmni-asayişi-kamilə təhtinə keçməkdən savayı başqa çarə bilmiyorlar.

Əmni-asayişə müxill[1] olan şəraitdən birisi də Məhəmmədəli Mirzənin Tehranda qalmasıdır.

Burada dəvairi inqilabın fikrincə, Məhəmmədəli Mirzə İranda qalarsa, daima onun başında bir mərkəzi-irtica bəhəmə[2] gələcək və həmişə də hökumətin fikrini, diqqətini cəlb edəcək. Bir çox artıq-əskik danışıqlara və bica hərəkətlərə səbəb olacaqdır. Yaxşısı budur ki, çıxıb getsin, məmləkəti rahət qoysun. Bu xüsusda hal-hazırda rus səfarəti ilə hökumət arasında ciddi söhbətlər vardır.

Vilayətlərdən əmniyyətsiz olan Ərdəbil təslim olunub Rəşidülmülk dəxi rəisi-tacidari olan sabiq şah Məhəmmədəli Mirzəyə təqlid edərək qaçıb rus konsulxanasında təhəssün etmişdir.

Zəncani təhti-qaidə və əmanə gətirmək üçün dəxi Tehrandan qüvveyi-lazimə göndərilmişdir.

[1] müxill – xələl gətirən

[2] bəhəm – toplanmaq, əmələ gətirmə



Hökumətin ən əvvəlinci fikri həman əmniyyəti, asayişi təmin etmək və tezlik ilə parlamanı açmaqdır.

İştə millətin xahişi ilə sahibi-taxt-tac olmuş 12 yaşlı şahənşahi-cavanbəxt Əhməd şah həzrətləri dəxi vəziri-daxilə ilə vəziri-cəng naminə verdiyi fərmanında bilatəxir məmləkəti əmni-asayişə gətirmək və parlamanın tezlik ilə açılması yolunda lazımeyi-iqdamatda bulanmağı təkidən[1] əmr ediyorlar.

Xülasə, binayi-istibdadi məhv və nabüd etmək üzrə külüng işlədən qəhrəmanlar hiss ediyorlar ki, daha uçurtmaq, dağıtmaq dövrü keçdi, indi isə daha müşkül bir dövr açılmışdır ki, o da təmir və ümran[2] dövrüdür.

Bu vaxtadək təxrib olunurdu. İndi isə təmir gərək. Məlumdur ki, tikmək, sökmək deyildir, qiyas edilməz dərəcədə müşküldür.

Bir imarəti sökmək üçün artıq bir ustadlıq və məharət istəməz, amma həman sökülmüş imarəti təmir üçün təcrübədidə bənnalar, sənəti anlayan xarratlar lazımdır.

İştə üsuli-istibdad və mütləqiyyəti yıxmış, tökmüş olan mücahidlər özlərinin məharətsiz bənna və təcrübəsiz xarrat olduqlarını iqrar ilə İranı Avropa surətli adminstratsiyon şəklinə salıb idarəli bir dövlət etmək üçün Avropa bitərəf dövlətlərindən vüzarətlarda işləmək üzrə birər mücərrəb[3] müavinlər və müstəşarlar cəlb etmək fikrindədirlər.

Bundan keçəndən sonra məmləkəti saxlayan qoşun ilə məktəblər olduğunu hiss etmiş olan əhrar əvvəlinci məramnamələrində qüvveyi-qəhriyyə ilə qüvveyi-mənəviyyəni artırmaq, doğrudan da, bir qüvveyi-mötəna-bihi[4] şəklinə qoymaq istiyorlar.

Vüzarəti-cəngidə böylə bir fikir oyanmışdır ki, Bəxtiyar elini fövc Əhmədiyyə namilə rus kazakları prinsipi ilə olaraq münəzzəm bir ordu surətinə salsınlar.

Maarif nəzarəti dəxi pulsuz ibtidai məktəbləri xüsusunda parlamanın əvvəlinci iclaslarında təqdim etmək üzrə layihə hazırlamaqdadır.

Bu iqdamatı əmələ gətirmək üçün bədihidir[5] ki, himmət olduğundan sonra əvvəlinci dərəcə olaraq pul lazımdır.

İştə bu xüsusda nəqdiyyə vüzarətinin fikri nə olduğu məlumumuz deyildir.

Parlaman açıldıqdan sonra dövlətin verdikləri vədə üzərinə borc pul buraxacaqları müsəlləmdir[6]. Amma bu pul ilə dərdə çarə olacaqdırmı?

Nəqdiyyə vəziri daxili-məmləkətdə nə yol ilə pul yığa biləcəyini bilmiyoram. Lakin bu qədər vardır ki, maliyyatı yığmaq üzrə tədabiri-lazı-

[1] təkid – qəti

[2] ümran – abadlıq

[3] mücərrəb – təcrübəli

[4] qüvveyi-mötəna-bihi – qayğı göstərən

[5] bədihi – aydın

[6] müsəlləm – şübhəsiz

mə görülmüşdür. Bütün ətraf əyalət əncümənlərinə və hökumətlərinə yazılmış ki, tezliklə vergi yığılıb xəzineyi-mərkəziyyəyə verilsin.

Təzə cavanlaşmış qoca İrana iqdamati-təcəddüdkarisində müvəffəqiyyətlər diləр, arzu edəriz ki, qüvvədə olan fövqüzzikr məqasid tezliklə feliyyətə gəlsin.

Tehran, 17 iyul
**M.Əmin**
*«Tərəqqi», № 170, 30 iyul 1909*

## İRAN MƏKTUBLARI
*(müxbiri-məxsusimizdən)*

### EDAM CƏZALARI

Dövrü sabiq xainlər ilə hesablaşıyorlar. Boğazlarından alıb dardan asıyorlar.

Əhali bu edamlardan xeyli xoşlanır. Topxana meydanında yığılan camaatin halına diqqət yetirilirsə, müstəbidlərin edamından bu dərəcə bir həzz apardıqları insanı heyrətə salıyor.

İnsan nə qədər düşər, nə qədər alçaqlanarmış, camaat yanında böyük hörmətlərə, artıq şanlara dara olan bir «mollanı» alırlar da haman camaatin alqışları altında boğazına tənab[1] salıb dardan asıyorlar, kimsə etiraz etmiyor.

Camaat nə qədər dəyişərmiş. Yanında bir dərvişin, rövzəxanın, küçə mollasının belə adını hörmətsizcəsinə anmaq mümkün olmayan bir camaat hüzurunda haman iki il irəli ən alim və fazil hesab elədiyi bir «müctəhidnümani» alıb dara çəkiyorlar, kamali-şadlıq ilə əl çalıb «zindəbad», «məcazat[2]», «zindəbad qanuni-Məhəmmədi» – deyə izhari rizaiyyət ediyor.

Rəcəbin 13-cü günü yövmi-mövludi-həzrəti-əmir əleyhissəlam olduğundan eyddir. Əhali işlərindən fariğ[3] bazar və meydanlarda gəziyorlar.

Axşamtərəfi qürub yaxınlaşıyor. Tehranın istisindən qaçıb zirzəmilərdə gizlənən əhali axşam kölgəsindən bilistifadə bayıra çıxmış «görək bu gün kimi asacaqlar» gümani ilə Topxana meydanına yığılmış, kəsrət[4] etmişdir.

Meydandan qalxan gübar[5] Tehranı, quru havayı olduqca bulandırmış kəsafət vermiş, insan boğulur. Amma tamaşa üçün gələn camaat məhkum boğulunca boğula-boğula qalar da tamaşasını təkmil etmək istəyir.

İzdihamda böyük bir xəlcan[6] və hərəkət görünüyor. Qarışqa kimi hərəsi bir tərəfə dartınır, boylanır, özünə hündür yer hazırlayır ki, asılacaq olanı iyicə görsün, tamam təfsilatı bilsin.

[1] **tənab** – ip
[2] **məcazat** – cəzalar
[3] **fariğ** – boş, asudə
[4] **kəsrət** – çoxluq
[5] **gübar** – toz, torpaq
[6] **xəlcan** – təlaş, təşviş



Nagah dar ağacının yanında cavan bir mücahid çıxıb əhaliyə ixtar ediyor ki, bu gün növbə seyyiati-qanuni-şəknanə və iqdamati-irticapərəstanə və məvaizi[1]-xəyanətkaranəsi ilə məşhur olan əmudi[2] mütləqiyyət Şeyx Fəzlüllahındır.

Cavan xütbəsini təmam edər-etməz, «zindəbad məcazat» – sədası asimanfərsa[3] oluyor.

Bu sədadan sonra izdiham bir daha xəlcanlaşıyor. Yer üstə davada olanların mühacələridir eşidilinir. «Miarənd[4], miarənd», – deyə izdiham tamam qulaqlarını şəkliyor. Bütün nəzərlər dar ağacına tərəf ətf[5] olunur.

Nagah «zindəbad azadi!», «zindəbad qanun», – deyə izdiham bir ağızdan olduğu kimi dad ediyor.

Baxıram ki, qoca bir molla dardan asılmış duruyor. Yanımda durmuş olan bir nəfər qoca kişi bu mənzərəni görcək kamali-hiddətlə: «bədbəxt xələqəllahu bekoştən dadi, hala bengər həmçinin iftizahi bərsərt avərdi. İn çe axirətəst»*, – deyə bəyani-hissiyyat ediyor.

Tamaşadan geri qalmışları görürəm ki, qaça-qaça gəlir, gülüyor, «zindəbad azadi», «zindəbad qanuni-Məhəmmədi», – deyə çığırırlar.

Ümumi bir şadlıqdır.

Nə qədər bir təbəddül!..

Şeyx Fəzlüllahın oğlu Şeyx Mehdi dəxi atasının edamından xoşhaldır.

Bu adamı bir gün irəlidən tamam tehranlılar hər soqaqda, hər küçədə görüyorlarsa atasının edam olunacağından dolayı təbrik edər və təhniyyət[6] diyorlar idi.

Bu isə tamam bu alqışları qəbul edib, cavabında «zindəbad mükafat, «məcazat», – deyə atasının cəzalanmasını lazım biliyor idi.

Bu adam cavandır. Məşrutəpərəstdir. Məclis vəqəəsindən sonra 15 gün tamam bağı-şahda zəncir altında oturmuş, bədə atasının səyi ilə Tehrandan təbid[7] edilmişdir.

Şeyx Fəzlüllahın cəsədi, o bir edam olunanlar kimi darda çox qalmadı. Tez götürüldü.

Şeyx Mehdi gəlib etiraz etmiş. Demiş ki, bu bədbəxtin cəzası edam idi ki, olundu.

Bir çox xəlqüllahi ölümə verdiyi üçün öldürüldü, – deyər, öldürüləndən sonra asılı qalıb müftəzih edildiyinə görə razı olamam. Xahiş edirəm onu dəxi dardan alasınız.

[1] **məvaiz** – möizələr
[2] **əmud** – sütun, dirək
[3] **asimanfərsa** – göyə ucalma
[4] **miarənd** – gətirirlər
[5] **ətf** – nəzərini çevirmə

* Allahın bədbəxtini ölümə verdin, indi, bax gör, sən öz başına necə bir biabırçılıq gətirdin. Bu nə axirətdir

[6] **təhniyyət** – təbrik etmə
[7] **təbid** – uzağa sürgün etmə

Xahiş qəbul olunmuş, pədərinin cəsədi bir saatdan artıq asılmamışdır.

Şeyx Fəzlüllahdan sonra sabahi acudanbaşı[1] dəxi dardan asıldı. Camaat haman hal ilə şadlıq ediyor, bu edamlardan nəhayət dərəcə razı qalıyor idi.

Camaat ilə bərabər bütün mətbuat dəxi edamları təqdir ediyor. Hansı qəzetəyə baxsanız, edam cəzasını təqdir edən bir ayeyi-Qurananiyyə ilə başlanan birər məqalələr görəcəksiniz!..

«Və ləküm fil-qisasi-həyatun»* – işte qəzetələrin edamlar xüsusundakı əfkar və bəyanları!..

Hal-hazırda həbsdə istintaq təhtində bir çoxları vardır. Güman ki, onları da asalar. Məsələnin əsas tərəfi kənarda, biz əsasən edam cəzasının zidlərindən olsaq da, burada sükuta məcburuz. Zira ki, bizi iqna[2] ediyorlar ki, məşrutəçilər bu cəzaları icra etməyə məcburdurlar, ayrı çarələri yoxdur.

Fəqət edam cəzaları əlaniyyə camaat hüzurunda edilmək bicadır.

Zira, böylə bir edam beynənnas[3] bir bədəxlaqlıq ihdas ediyor. Məsələn, axırıncı dəfə acudanbaşını asdıqda xırda uşaqlar gəlib ayağından tutub dartır idilər.

Məşrutəpərəst cavan hökumətə lazımdır ki, özünü rəhl və mürüvvət ilə tanıtdırsın, böylə aşkara boğazlanan edamları isə camaatda sui-əxlaq törətdiyi kimi hökuməti-haliyəni dəxi idareyi-sabiqə şəklində rəhmsiz tanıtdırır.

İştə iranlıların cavanlarından, hətta hökumət əzalarının əczalarından dəxi bu fikirdədirlər ki, edamları məhrəmanə[4] edib camaatdan gizlin etsinlər, necə ki, Avropada edilir.

Bir iki-üç gündür dar ağacı götürülüb, edamlara fasilə verilmişdir.

Tehran, 21 iyul

**M.Əmin**

*«Tərəqqi», № 172, 3 avqust 1909*

## İRAN MƏKTUBLARI

*(müxabiri-məxsusimizdən)*

### İCRAYİ-İNTİXABAT

Tehran qəhrəmanları burasını iyicə düşünmüş və anlamışlardır ki, artıq vurub dağıtmaq vaxtı keçdi. Çətin bir vəzifə artıq məşəqqət və həddsiz navaqisat[5] və üyubatə[6] sansız müşkulat və üqubatə[7] düçar olsalar da, nəhayət, lillahülhəmd[8] məqsəd ələ gəldi. Məqsud ələ gəldi.

[1] **acudan** – adyutant
* **və-ləküm-fil-qisasi-həyatun** – sizin həyatınız qisasdadır
[2] **iqna** – qane etmə
[3] **beynənnas** – insanlar arasında
[4] **məhrəmanə** – məxfi, gizli
[5] **navaqisat** – nöqsanlar
[6] **üyub** – eyblər
[7] **üqubat** – cəzalar
[8] **lillahülhəmd** – Allaha şükür



Lakin məqsud axirin deyil, onu hasil etmək üçün lüzumati-əvvəliyyədən olan məqsudi-əvvəlin ələ gəldi.

Emar[1] və imrani-məmləkət-iştə inqilabçıların məqsədi-axirini ki, bu məqsədə gedildikcə getdilər, çatıldıqca çatdılar, daima irtifa[2] edər və ona çatmaq istəyənləri həmişə balalara[3] çıxarar.

Fəqət bu emar və imran mədəniyyət yoluna qədəmdaz olmaq üçün yolu basıb örtmüş və xarab etmiş olan bütün xarabazar və kuhistani-istibdadı yıxmaq, dağıtmaq, dinamit qoyub partlatmaq lazım idi ki, yol rahatlansın, gələcəkdə kari-mədəniyyəti görmək üçün bir mümaniət qalmasın.

İştə iranlılar çəkmək istədikləri rahi-tərəqqidə düşmüş olan istibdadi-vəhşi qayası, Məhəmmədəli Mirzə idarəsini haman üsuli-lazimə ilə dağıdıb, yıxılmaz görünən o heykəli-mühibi[4] darmadağın etdilər. Yəni üsuli-idareyi-keyfə-ma-yəşanı yıxdılar, böyük bir iş gördülər.

Hala çəkmək istədikləri yolun salınmasına hazır olmalı işə girişməlidir.

İşə girib də daha artıq güc, zori-bazu, partlatmaq, dağıtmaq kimi işlərdə xərc edilən vəsait deyil, təmirdə vacib olan əql, tədbir, üsul və elm xərcə verilməlidir.

Böylə bir vəsaili-imranı əldə etmək üzrə məmləkətin qəlbi, ruhi, əqli hökmündə olan məclisi-darüşşuranı öylə təşkil etməlidirlər ki, doğrudan da, bu darüşşura məmləkətin ən müdəbbirlərini[5], ən üqəlalarını, ən üləmalarını, ən əxlaqlılarını, ən dəyanətli və irzlilərini[6] öz əczası bulsun da ona bağlanan ümidlərin rizasına mütəhhər[7] olsun.

Darüşşuranın vücudi ümum əhalinin möcibi-şükranı olmalıdır. Bütün əhali anlamalıdır, maddətən anlamalıdır ki, yolunda fəda etdiyi bu qədər canlar, bu əndazə samanlar[8] əbəs deyilmiş, camaat öz maişət və həyatında görməlidir ki, keçdiyi o qədər müsibət və məşəqqətlər dalısında gözlədiyi rəfahət, ümid elədiyi səadət əfvahi bir söz olmuyub, əsli və nəfi var bir həqiqətdir.

Məclisi darüşşuranı öylə intixab etməlidir ki, sabiqdəki darüşşuranın tayı olmasın ki, əhali onu tənqid edərək böyük bir yas ilə diyordu ki:

«İrəlicə bir hakimə rüşvət verməli olduğumuz halda, indi bir sürü vəkilləri görməliyiz».

Darüşşura haman bir mənbəyi-feyz və ümid olmalı. İştə məqsud! Səmimi olub camaat arasında məşrutiyyətə nisbətən başlanmaqda olan gözləmələri meydana qoymaq. İştə mətlub[9]!

[1] **emar** – abad etmə
[2] **irtifa** – tərəqqi
[3] **bala** – yüksək
[4] **mühib** – qorxunc, təhlükəli
[5] **müdəbbir** – tədbirli
[6] **irz** – namus, şərəf
[7] **mütəhhər** – pak, təmiz
[8] **saman** – dövlət, sərvət
[9] **mətlub** – arzu olunan

Böylə bir məqsudi ələ gətirmək, böylə bir mətlubə nail olmaq üçün təbii ki, intixabatə layiqincə diqqət verməli, bütün fikir və xəyali, tədəbbür və təəqqülü[1] ona həsr etməlidir ki, darüşşuraya ləyaqətli adamlar seçilsin də məmləkətin ən gözəl əxlaq və həsənatına[2] məzhər olan adamlar vəkil düşsünlər.

Hala intixab başlanıb gediyor. Tehran neçə hissəyə bölünüb kəmali-sürətlə intixab təərrüfləri[3] paylanır, əhali də gəlib öz seçki haqqı olduğunu isbat etdikdən sonra təərrüfəsini alıb gediyor.

Seçki haqqını isbat etdikdən sonra diyoruz, zira İranda siyahiyi-ümumi statistik dəftər-kitab olmadığından seçki idarələri irəlicədən vilayətdə kimin seçkiyə haqqı olduğunu təyin etmək mümkün deyildir. Ona görə də lazım gəliyor ki, hər kəs şəxsən gəlib bəyani-hal ilə isbati-ləyaqət etsin təərrüfəsini alsın. Bu da intixabata bir çox ləngliк verər bir şərti-İrani!

Təərrüfə paylanması ilə bərabər intixaba dair təşviqat dəxi icra olunmaqdadır.

Tərtibati-təşviqiyyə dərəceyi-lüzumunda deyilsə də, təşviqat yox deyildir. Bütün qəzetələr bu xüsusda yazıb hər kəs özünün savab bildiyi adamları seçilmək üzrə təklif ediyor.

Qəzetələrdən savayı ayrı-ayrı ixtarnamələr, bəz xüsusi əşxas və heyətlər tərəfindən nəşr olunmuşdur ki, onlar da öz namizədlərini seçməyə əhalini dəvət ediyorlar.

Burasını da qeyd etməlidir ki, bu müxtəlif siyahılarda verilən namizədlər əksərən həman bir dövrə adamların adlarıdır ki, beynəlcəmaət mövcibi-nifrət və ikrah olmuyub seyyiati-sabiqədən mübərra və bir dərəcə ləyaqəti-lazıməyə daradırlar.

Siyahılar arasında ki, ixtilaf cüzidir. Hamı siyahıların şərik olduğu bir çox namizədlər vardır.

Siyahıların hamısında ağayi Tağızadənin ya adı və yainki o cənab xüsusunda bir qeydi-əlavə vardır:

«Tağızadə cənablarını yazmayırız, zira biliriz ki, onlar yəqinən Azərbaycanda seçiləcəklər».

Görünür ki, insan zəhmət çəkməsə istədiyi, yaxud aldığı şeyin qədrini bilməz.

Görünür ki, «qan tökülməksizin alınan hürriyyət camaətimiz arasında möhtərəm tutulmaz».

Budur keçən parlaman ilə indiki seçki namizədlərini müqayisə edək:

O vaxt cüzi bir nümayiş ilə yuxarıda elan edilən məşrutədən nəşi darüşşuranın qismi-əzəmi həman əmmamədarlardan mütəşəkkil olduğu halda, indi iki illik qanlı mübarizə və müqatilədən sonra camaət tərəfindən təşkil olunan intixabatda seçilməyə təklif olunan namizədlər arasında bir nəfər olsun molla adı yoxdur ki, bu cəhət hətta mollaları bir dərəcə acıqlandırır, sındırır, pərt ediyor. Fəqət biçarə zəxmxurdə camaət nə eləsin ki, müəmmam[1] vəkillərin üzünü bir dəfə gördü, artıq ziyarət etmək istəmiyor. Haqqı da vardır ki, istəmiyor.

[1] **təəqqül** – düşünmə, fikirləşmə
[2] **həsənat** – gözəl xüsusiyyətlər
[3] **təərrüfə** – seçki kağızı



Zira, sabiq parlaman əzaları olan əmmamədarlar daha nələr etmədilər. Nə kimi seyyiatda bulunmadılar.

Vəkil olduqları halda vəkalətlərindən sui-istifadə edərək tamam ümuri-dövləti ləngidib tamam idarəni işdən saldılar ki, bu yol ilə özlərinə əhəmiyyət peyda etsinlər. Fəqət bu dəfə o əhəmiyyəti alamazlar. Zira, əhəmiyyət almaq üçün can fəda etməli, qurban verməli, riyazət çəkməli idi ki, bu əmmamədarlar o qisim fədakarlıqlara hərgiz müstəid deyildirlər.

Tehran intixabçılarının və hətta hal və heysiyyatları ümid verəcək haldadır. Rəştdən gələn xəbərlər dəxi bu qəbildən olub təskinamiz ruhpərvərdir. Bütün səyləri onadır ki, cavan iranlılar vəkil düşsünlər.

Təbriz seçkiləri nə tövr gediyor bilmiyoram, fəqət əminəm ki, orada məmül vəkillər verməklə bu qədər müddət, elədiyi mübarizələri, göstərdiyi fədakarlıqları, səbir etdiyi mühasirləri mənasız buraxmaz...

Əvvəlinci məclis vaxtında ləyaqətli vəkil verən Təbriz müsəlləmdir ki, bu dəfə xəbt[2] etməz, edəməz!

Dər hər surət intixabatın surəti-icrası bəd deyil, ümidlər bəxş ediyor, nəticəsi bu ümidlərin doğru olduğunu isbat edəcək olduğu bir az sonra daha aşkar olacağından intixabat xüsusunda axırıncı fikri-qətimizi hənuz bəyan etmiyib sonraya qoyuruz.

İndiki hal isə ümidbəxşdir!

Tehran, 20 iyul
**M.Əmin**
*«Tərəqqi», № 173, 4 avqust 1909*

## TEHRAN VƏQAYEİ*

*(müxabiri məxsusimizdən)*

### VANEKDƏ BİR İĞTİŞAŞ

Tehranın şimal tərəfində rus səfarəti vaqe olan Zərkəndənin yaxınlığında Təbriz dəvaçilərindən (ki, Mirhaşım və Eynüddövlə ilə bərabər gəlmişlərdir) mümqanlılardan mürəkkəb bir dəstə ədədləri üç yüzə çatan istibdad qoşunlarından vardırlar ki, bunlar üç gün irəli yağı olmuş o yaxınlıqda olan Vanek adlı bir erməni kəndə tökülmüşlərdir. Kənd

[1] **müəmməm** – əmmaməli
[2] **xəbt** – ehtiyatsızlıq
* **vəqaye** – vaqiələr

əhalisi məqami-müdafiəyə gəlib o vaxt bir dəstə kazak dəxi kəndlilərin himayəsinə çatmış bunlar ilə atışmışlar.

Həman saət şəhərə xəbər gəlib mücahidlər və bəxtiyarilərdən külliyyətli qədər bir güc göndərilib yağıları mühasirəyə almış və əvvəlcə səfarət tərəfi tutulmuşdur ki, bunlar qaçıb bəstə girə bilməsinlər. Sübh vaxtı bunlar artıq ərsəni[1] özlərinə təng görüb pərakəndə olmuş və qaçıb şah Əbdüləzim tərəfinə keçmişlərdir. Lakin buradakı kəndlərin birində bunlar tamamən mühasirə olunub təslimə məcbur edilmişlərdir. Güman ediyorlar ki, bunlar səfarətdə ki, bəstnişinlər[2] tərəfindən təhrik edilmişlərdir.

### Məhəmmədəli peşiman olmuş

Üç gün bundan irəli Məhəmmədəli Mirzə dəvəti-məxsusə ilə Eynüddövlə, Nirüddövlə və müvəqqətən parlaman yerini dolandıran məclisi-fövqəladə əzasından Seyid Nəzərullah cənablarını xüsusi söhbət etmək üzrə yanına istəmişdir.

Bunlar dəxi məhəllindən izin hasil edəndən sonra Zərkəndəyə gedib sabiq şah ilə mülaqatda bulunmuşlar.

Sabiq şah bunları qəbul edərək kamali-həsrətlə demiş ki: «Sizə zəhmət verdiyimdən məqsəd, mənim xahiş və təvəqqimi millətə yetirməkdir. İki ildir ki, arada müftinlər işləyib məmləkəti müstəhsil etdikləri kimi, məni də bu halə gətirdilər. Mən dəfəat ilə istəmişəm ki, öz canıma qəsd edəm, anıma yenə də bu fikirdən saqınmışam. Hala ki, iş bu dərəcəyə yetibdir, mən xahiş ediyorum ki, sabiq şah haliyyə şahın atası olduğuna nəzər edilmiyorsa da, bir nəfər müfrədatı-millətdən olmaq üzrə mənə imkan versinlər ki, İranın guşələrindən birində qalıb da ömrümü tamam edim».

Mədüvvin sabiq şahdan müftinin barəsində dediyi mülahizədən ötrü izahat istəyib «bəyan ediniz ki, fitnə hansı tərəfdən olmuşdur», – dedikdə Məhəmmədəli Mirzə «hər iki tərəfdən», – deyə cavab vermişdir.

Məlum olur ki, Məhəmmədəli Mirzənin bu xahişi məqbul düşməmişdir. Zira, bunun səmimiyyətinə artıq kimsə inanmıyor. İranda qalmasını nə surətlə olursa-olsun kimsə təcviz[3] etmiyor. Hökuməti aliyənin fikrincə, Məhəmmədəli Mirzə İranda qalarsa, məmləkətin asayişini təmin etmək müşküldür.

İştə təvəqqeyi-acizanə qəbul edilməmişdir. Bərəks yeni bir heyət seçilib göndərilmiş ki, rus və ingilis səfarətləri ilə şahın tezliklə getmək tərtibatını mühəyya[4] etsinlər.

---

[1] **ərsə** – meydan
[2] **bəstnişin** – pənah gətirənlər
[3] **təcviz** – mümkün, hesab etmə
[4] **mühəyya** – hazırlığı görülmüş



### Poçtu vurdular

Qəzvindən gələn poçtu şose yolunda saxlayıb üç min tümən qran[1] aparmışlardır. Qarətkarları tapmaqdan ötrü tədabiri-ciddiyyə ittixaz[2] olunmuşdur.

### Bəstdakılar

İran hökuməti rus səfarətinə müraciət edib şah və ailəsindən başqa orada təhəssün[3] etmiş olanları dövlət xaini və müqəssirləri olduqları üçün mühakimə olunmaqdan ötrü verilmələrini istəmişlər. Bu xüsusda Peterburq ilə müxabirə olunmaqdadır.

### «Həblülmətin»in tövqifi[4]

Vüzərati-maarifdən sadir olan fərman mövcibi ilə hər gün nəşr olunan «Həblülmətin» ruznaməsinin 6-cı nömrəsi zəbt olunub qəzetənin nəşri saxlatdırılıb, müdiri dəxi 48 saat həbsdə saxlandıqdan sonra azad edilmişdir.

Biçarə mühərririn bütün təqsiri həman səhvən yazdığı bir mətləb olmuşdur ki, orasını eynilə dərc ediyoruz:

«... Və inək həzarə sisəd saləstki, nəjadi İrani mixahəd poşte xudra öz ziri-barisəngin xürafati-anan (yəni ərəbhayi-susimarxar) xali nümayəd...»*

Mollalar tamamən qiyam edib bu adam şəriətə xürafat diyor, – deyə bir şuriş qalxızmış və qanuni-əsasi məcibincə bu adamın cəzalanmasını mütalibə[5] etmişlərdir.

Hətta məclisi-fövqəladə əzalarından olan Ağayi Sədrülüləma təklif ediyorlarmış ki, Şeyx Fəzlüllah kimi bu adamı da dara çəksinlər. Fəqət məclisin cavan üzvləri böylə bir cüzi səhvdən ötrü insanı dardan asmazlar, qanunən mühakimə edib cəzası nə olursa onu icra edər, – deyə Sədrülüləmaya cavab vermişlərdir.

Əslən seçkilərdən və edamlardan münzəcir[6] olan axundlar istəmişlər ki, burada bir bəhanə çıxarıb intiqamlarını qəzetəçidən alsınlar.

İştə bunların böylə bir iqdamatlarının qabağını almaq və fəsadlarını yatırtmaq üçün hökumət dəxi ruznamə barəsində böylə bir iqdam etmişdir.

Nəzərimizcə, böylə bir fəsad müqabilində qanunu ötüb də fövqəladə tədabir görmək deyil, kamali-etidali[7]-dəm[8] ilə həman qanunu icra etməli

---

[1] **qran** – İranda pul vahidi
[2] **ittixaz** – qəbul etmə
[3] **təhəssün** – qala, istehkam içinə çəkilmə
[4] **tövqif** – həbsə alınma, qadağan
* Hazırda min üç yüz ildir ki, İran mücahidləri öz bellərini onların (kərtənkələ yeyən ərəblərin) xürafatlarının ağır yükü altından azad etmək istəyirlər
[5] **mütalibə** – tələb
[6] **münzəcir** – iyrənən, nifrət bəsləyən
[7] **etidal** – bir bərabərdə olma
[8] **dəm** – söhbət

idi. Yəni həman altıncı nömrəni tovqif etməli, qəzetənin intişarını saxlamamalı və müdiri də mühakiməyə dəvət etməli və mühakiməsiz, hərgiz tovqif etməməli idi. Zira, bu adam cani deyil, xayin deyil, fəqət olsa-olsa əqidəsi başqa sadə bir mühərrirdir. Və bir də hər bir cüzi nümayiş ilə hökumət dəst paçə[1] olur isə əhəmiyyətini itirər.

### Əmiri Müfəxxəm

Hökumət tərəfdarı olan bəxtiyarilərin rəisi Əmiri-Müfəxxəm iyulun 20-də bir neçə nəfər öz adamları ilə bərabər şəhərə gəlib hökumətə təslim olmuşlardır. Məzkur öz adamları ilə bərabər çıxıb vətənlərinə gediyorlar.

Orada bir fəsad çıxartmaqları zənn olunmaq üçün oğlu girov olmaq surəti ilə Tehranda qalıyor.

### Qəzvindəki rus əsgərləri

Hal-hazırda Qəzvində iki minə yaxın rus qoşunu mövcud olub, bunların 10 ədəd topları və 2 ədəd pulemyotları vardır.

Neçə gün bundan irəli soldatlardan iki nəfəri qaçıb ordudan yox olmuşlar.

Rus konsulu hökumətə müraciət edib tələb ediyor ki, 2 günə kimi bu soldatları tapıb orduya versinlər.

Yoxsa konsul cənabları qoşuna izin verəcəkdir ki, bütün Qəzvinin evlərini bir-bir axtardıb qaçmış, gizlənmiş olan soldatları tapsın.

### Parlaman vəkilliyinə namizədlər

Ağayi Tağızadə, Hüseynqulu xan Nəvvab, Vüsuqüddövlə, Ağa Mirzə Əli Məhəmmədəli xan, Ağa Mirzə Əli Məhəmməd xan, Müstəşarüddövlə, Həkimülmülk, Müizüssultan, Mirzə Hüseyn xan Kəsmai, Zəkaülmülk, Mirzə İbrahim xan Münşizadə, Əmidülhükəma, Müxbirülmülk, Əsədullah Mirzə, Muxtarüddövlə, Doktor Vəliyullah xan, Vəhidülmülk, Nizamülhükəma Möhsün Mirzə, Mirzə Əbdülqasım xan, Rzaqulu xan rəisi-darülfünun, Sahib Nəsəq, Hacı Əminüzzərb, Fəhmülmülk, Doktor Mənuçöhr xan və digərləri.

Adları zikr olunan bu namizədlər ki, əksər siyahılarda vardırlar – hamısı mütərəqqi tərbiyəşödə cavanlardır ki, çoxlarının sinni 30–35-dən o tərəfə keçməmişdir.

Bu adamlar məsləkən bütün hüriyyətpərəstdirlər.

Tehran, 21 iyul
**M.Əmin**
*«Tərəqqi», № 174, 5 avqust 1909*

[1] paçə – baş-ayaq



## İRAN MƏKTUBLARI
*(müxabiri-məxsusimizdən)*

### RUS SƏFARƏTİNDƏ

Bu gün rus səfarətində idik. Səfir yerini dolandıran cənab Sablin ilə mülaqat etdik, hüsni-qəbul buyurdular.

«Tərəqqi» qəzetəsi Sablin cənablarını maraqlandırdığı kimi səfarətin başqa əzalarının dəxi calibi-diqqəti oldu.

– Sizin qəzetənin yəqin İran məsələsinə nüfuzu vardır.

– Bəli, İranda oxucularımız yox deyildir. Azərbaycanda rəvac olunur. Əlavə olan Rusiyada əvvəlinci yövmiyyə[1] qəzetədir ki, Avropa üsulunda nəşr olunur.

– Nə lisanda nəşr olunur?!

– Türkcə, Azərbaycan şivəsilədir.

– Bizim türkcə oxuyan əzamız vardır. Lazım gəliyor ki, səfarət üçün yazdıraq.

– Təvəccöhünüzdən dolayı təşəkkür edirəm. Söhbətimiz siyasiyatə intiqal[2] ediyor. Sablin cənablarının bəyanatından anlaşılır ki, bizim diplomatiya bu vaxta kimi apardığı politikasının gurultuya getdiyindən dolayı xeyli təəssüfdədir.

Səhvlərini iqrardan çəkinmiyor. Məhəmmədəli şah sabiqi tamam himayə edib axırda bu günə gətirməkdə rus politikası, Tehran səfarəti az iş görməmişdir. Lakin bu himayətlə bərabər taxti-tacından, namişanından istefa verib canını götürüb qaçan şah məxlui-bəstə almaqda məcbur olmuşdur.

Övzə təsəvvür edilsin!

– Doğrumudur ki, iranlılar ruslardan narazıdırlar?

– Əvət, bərəmizdə bir qədər bədgümandırlar! Lakin bu axır politikamızdan dolayı razı olmalıdırlar.

Zira, Təbrizi xilas edən bizim qonşumuz oldu. Hərgah bizim qoşunumuz bir az da gec Təbrizə gəlsəydi, Eynüddövlə şəhəri alacaq idi. Biz şahın evini yıxdıq.

– Doğrudur, amma bədbəxtanə orada da politikamız gec getdi. Tamam İranın sevgilisi olan Səttarxan ilə tərəf olduq. Sərdari-millini bir halə gətirdik ki, bizim qorxumuzdan qaçıb Osmanlı səfarətində bəstnişin oldu.

Ümidvaram ki, bundan böylə əfkari-ammənin hüsni-təvəccöhünü qazanaq.

Bundan ötrü nəzərimizcə hökuməti-haliyyə pul verməklə kömək etməlidir ki, bütün idarət tərtibi-kamilə tapıb məmləkət asayiş bulsun.

[1] yövmiyyə – gündəlik

[2] intiqal – keçmə

– Bəli, biz qərz[1] verməyə amadəyik. Fəqət indi dərbar kəmali-pərişanlıqda və tərtibsizlikdə ikən pulumuz təmin olunmadığından məcburuq ki, parlaman iftitahını[2] gözləyək.

Hökumət müqtədir və tərtibati-mükəmməl olmaq üçün pul lazım gəldiyini zənni-acizanimcə inkar etməzsiniz.

– Biz Məhəmmədəli şah zamanında hökumətə cüzi bir borc vermək istədiyimiz zaman ətrafdan protest teleqramları gəlib hökumətə parlaman açılmayana kimi pul verilməməsini tələb ediyordular. Hala həman teleqraf göndərənlər özləri əsasən təzadda düşməmələri üçün parlaman açılınca gözləməmizi tövsiyə ediyorlar.

Lakin onlar elə bilirlər ki, xüsusi surətdə rus və ingilis bankindən ticarəti-borc eləsinlər.

– Zillüssultanın vürudi xüsusunda cənab alinin mülahizatı nə dairədədir. Bunun vürudi ingilislərin politikası deyilmidir?

– Bu xüsusda ingilislərlə olan müqavilamiz müəyyəndir. O cəhətdən əmniyyətimiz vardır. İngilis səfarətinin Zillüssultana göndərdiyi teleqraf bizim teleqraf ilə bir misaldadır ki, onun İrana gəlməkdən xəyalini münsərif etməyi tövsiyə ediyor.

Zillüssultan İrana gəldiyində bir fikri-siyasi təqib etdiyini bəyan ilə izhar ediyor ki, qocalmış, xəstələnmiş, axır ömrünü vətənində qalmaq istəyir, gəlib bir neçə gün qoca əmizadəsi Əzədülmülkün yanında qalandan sonra öz mülkünə gedəcəkdir (Əzədülmülk Naibüssəltənədir).

Lakin mənim nəzərimcə, Zillüssultan İranda qalarsa, mütləq bir intiriqa çevirəcəkdir. Hətta özü belə hərəkət etməsə də, onun ətrafında bir çox intriqalar mərkəzləşəcəkdir. Bunda söz yoxdur. Şahiməxlu dəxi Zillüssultanın İrana gəlməsindən mütəvahhişdir.

O qorxur ki, məzkur dərbarə yaxınlaşsın da Əhməd şahı zəhərləsin. Hal-hazırda belə müşar ileyhin ğəza və tərbiyəsində xeyli diqqət və ehtiyat ediyorlar. Hətta xörəyini möhürlənmiş halda veriyorlar.

Guya, məclisi-fövqəladə tərəfindən Zillüssultana bir ixtar teleqrafı edilmişdir ki, İrana gəlməsin. Amma bainhəmə Zillüssultan yolundan qalmıyor. Əgər hökumət onu tutub geri göndərər və İrandan təbid edərsə, səfarətlərin heç biri himayə etməyəcəklərdir.

– Şah nə vaxt getməlidir?

– 75 min tüman məvacib qərar verildiyini eşitmişsiniz, hala hesab ediyor, mülahizə ediyor ki, kimi özü ilə götürsün, haraya getsin. Fikri budur ki, dolanacağını öylə etsin ki, bir qədər ucuz və münasib olsun. Gedəcək yeri təyin olunmamışsa da, bu iki həftə içində məlum olub və hərəkət edəcəklərdir.

**M.Əmin**
Tehran, 23 iyul
*«Tərəqqi», № 175, 6 avqust 1909*

[1] qərz – borc

[2] iftitah – açılma



## TEHRAN VƏQAYEİ
*(müxabiri-məxsusimizdən)*

### PUL İSTEHSALI

Xəzineyi-dövlət bomboş olduğundan hökuməti-cədidənin övzai olmazın dərəcə bir üsrətdədir. Bütün fikirlər pul istehsalının yollarını düşünməkdədir.

Qərar edilmişdir ki, siyahı üzrə zəngin adamlardan halı-halına görə bir qədər pul yığılsın.

Bu qəsd ilə əvvəlinci iqdamat olunmuş, lakin bir hökuməti idarə etmək üçün böylə iqdamat ilə dərdə çarə edilməz. İştə başqa tədabir fikrindədirlər. Bəziləri bu fikirdədirlər ki, əsaseyi-səltənətdən olan cəvahirati-giranbəhalardan[1] bir qədərini satıb pul eləsinlər. Amma bir çoxlar bu fikrin ziddində olub illərdən bəri bir rəsmi-dövləti olaraq saxlanmaqda olan bu əsasiyyələrin füruşunda taxtitac şahi-cavanbəxtə bir təkdir gördüklərindən narazılıqlarını izhar ediyorlar.

– Ümdə pul hasil etmək vasitəsi qərzdən başqası deyildir.

Fəqət kimdən qərz edilsin? Parlaman açılana kimi borc verməyəcəklər.

Maliyyə komisyonu çalışır parlaman açılana kimi cüzi bir qərz eləsin, amma bu fikrə ingilislər razı olurlarsa da, ruslar tərəddüd göstəriyorlar. Təəccübdür, Məhəmmədəli şah sabiqə həman bu şərt üzrə borc vermək istəyən rusları ətraf protestləri saxladığı bir halda, indi həman iqdami millətlərə nisbət görməkdə tərəddüd ediyorlar.

Və bununla bərabər, politikamız dəyişmişdir xəyalındadırlar. Halənki sözlə deyil, fel ilə iranlılara bildirməlidir politika dəyişmişdir.

Maliyyəni yığmaqdan dəxi bir o qədər şey gözlənmiyor. Zira, maliyyeyi-məmləkət yığılmış, qurtarmış kimidir. İnqilabçılar yığanı inqilabçılar, hökumət yığanı da hökumət yığıb xərcləmişlər, artıq camaatdən maliyyat yığılarsa, bir qoyundan iki dəri soyulmaq kimi olacağından bu qisim bir pul istehsalı idareyi-məşrutəni nəzərdən salmaq və etiraz artırmaqdan bir nəticə hasil etməyəcəkdir.

Dar hər surət tamam işləri yoluna salmaq üçün bir istiqraz lazımdır və bu istiqraz nə yol ilə olursa, bu yaxın günlərdə icra olunacaqdır.

### Hökumət təyinləri

Məmləkətə asayişi-tammə vermək üçün əyalətləri nizam və intizamə qoymaqdan ötrü hakimlər təyin olunub göndərilməkdədir.

Və əyalətlərdə qalan vergiləri yığmaq üzrə ki, hər şeydən əvvəl, lazım olan pul istehsalına nəzərən vacibdir. Təyinlərdə bir qədər sürət edilir. Bu sürətdənmi, ya nədən isə təyinlər əksərən qeyri-məmul bir surətdə oluyor.

Təyin olunan bir çox hakimlərdən ancaq üç nəfəri vardırlar ki, inqilabi nöqteyi-nəzərindən təzə olub əhrar zümrəsindən hesab oluna bilirlər.

[1] giranbəha – baha, qiymətli

Digərləri isə həman dövri-sabiqdə hökumət ərbabi-istibdadından ibarətdirlər. Məsələn, Fars kimi mühüm bir əyalətə Eynüddövlə kimi bir Təbriz mühasiri göndəriliyor.

İşin bu cəhəti əhrari olmazın dərəcə mükəddər və naümid etməkdədir.

Sipəhdar ilə daxiliyyə vəziri əlindən keçməkdə olan bu təyinlər bir çox düşüncələrə səbəb oluyor da hansı mülahizətə görə böylə edildiyi heç vəchilə anlaşılmayır. Diyorlar ki, bu da pulsuzluqdandır.

Zira, Fars kimi əyalətlərə Eynüddövlələr təyin olduqda onlar eyləyə bilərlərmiş ki, ta bir yerdən pul təhsil olunana kimi və kiseyi «fütuvvətlərindən» xərcləsinlər də bədə yığacaqları maliyyətdən və təhsil olunacaq istiqrazdan vəchi müsaliha bitirsinlər.

Filvaqe[1] əgər şüyu hökmünə keçən bu xəbər doğru olub, vüzarəti-məşrutiyyənin mülahizatı vüqufkaranələri bu qəbildən isə o surətdə xeyli təəssüf edilməlidir.

Zira, bu üsul ilə dövri-sabiqdə olan qaidə arasında heç bir fərq yoxdur.

Zira, onlar hökuməti müəyyən bir məbləğə satıyor idilər. Bunlar da vəchi müsaliha[2] ediyorlar. Nəticə isə həman əvvəlki, zira eynüddövlələr həman özləridir.

Bir təbəddül olmuşsa, o da istibdadı vüqayə etməkdə göstərdikləri şücaətdir.

Ümid edirik cavan hökumət böylə bir xətamak politikanın uyubanını anlayıb da bir qədər təəmmül edər və hakimlərin həman bir dövrə qacardan təyin edilmək xürafatını özündən rədd edər də, doğrudan da, hürr və məşrutə bir hökumət kimi camaat arasında ittixaz etdiyi vəzi-ictimaisi deyil, ehtiva etdiyi istedadına nəzərən hər bir vəzifəni öz əhlinə verməklə əsas və rişəsini bərkişdirər.

**Şahi-sabiq**

Şahi-sabiqin səfarətdəki həyatı xeyli çətinliklə keçir, əhvali pərişandır. Bütün günü ev içində olub bayıra çıxmıyor. Günün çox hissəsini xanənişinliklə keçirir. Səfarətin bir kənarında çadır qurub oturmuş olan Əmirbahadıri-cəng ilə araları kökdür. Bir çox zaman onu yanına çağırıb müsahibə ediyorlar.

**Şahi-sabiq ilə oturanlar**

Şahi-sabiq ilə bəstə oturan Əmirbahadıri-cəng, mücəlləl Hacı Məhəmməd İsmayıl və qeyriləri barəsində məclisi-fövqəladə tərəfindən təyin olunan heyət və səfarətlərdən mütəşəkkil iclasın qərarına görə qərar verilmişdir ki, bunlar hamısı mühakiməyə verilib qanun üzrə hər mücazata layiq olsalar barələrində icra olunsun. Şəxsi-şah və ailəsindən başqa cümlə müthəssinin bu surətlə təht-mühakiməyə alınacaqlardır.

**M.Əmin**

*«Tərəqqi», № 176, 7 avqust 1909*

[1] **filvaqe** – doğrudan, həqiqətən

[2] **müsaliha** – sülh, barışıq



## XÜSUSİ MÜXBİRİMİZDƏN TELEQRAF

**«Tərəqqi»yə nisbət altafi hümayuni**

*Tehran* – əlahəzrət şahənşahi-cavanbəxt Əhməd şahın fərmanlarına müvafiq mürəbbiləri Smirnov müxbirinizə yazdığı məktubunda zati-hümayunun xahişini bəyan ediyor ki, «Tehran əlahəzrət şahənşahi» ünvanına 1 nömrə «Tərəqqi» qəzetəsi göndərilməsini idarəyə ixtar eyləsin.

«Tərəqqi» qəzetəsinin İranda iltifati-şahənşahəyə məzhər olduğunu Tehran müxbirimiz bizə xəbər verir.

Bu xəbər bizim üçün mövcibi-məsərrət və şadmani bir əhvalatdır. Zira, «Tərəqqi» qəzetəsi bidayəti-intişarından bu günə qədər öz səhifələrini İran üçün açıb, məmləkətin vəqai və həvadisatından bitərəfanə bir surətdə müvafiqi-həqiqət olaraq müfəssəl xəbərlər yazmaqla bərabər, iranilər üçün tərəqqi və təməddün yolunda rəhbər və dəlil olmaq üzrə xüsusi məqalələr daxi dərc edib İranın tərəqqi, abad, imran və istiqlalını əzcanu-dil arzu edən bir qəzetədir. Ona binaən böylə bir qəzetənin İran başında duran bir zatın nəzər diqqət və etibarına məzhər olması idarəmizcə son dərəcə arzu edilən əhvaldandır.

Şahənşahi-cavanbəxtin bu iltifati-şahanəsinə qarşı təşəkkürati-səmimanəmizi izhar ilə qəzetəmizin bundan sonra da İranın abadlığı yolunda əlindən gələn xidmətləri mümkün dərəcə müzayiqə etməyəcəyini də əlavə ərz ediyoruz.

Qəzetəmizin İran haqqında tutduğu məslək, İranın ehya və təcəddüdü yolunda canlar fəda edəcək dərəcədə çalışan İran qəyur mücahidləri tərəfindən məzhəri-təqdir və rəğbət olduğunu kəmali-iftixar ilə elan ediyoruz.

**İdarə**

*«Tərəqqi», № 176, 7 avqust 1909*

## İRAN MƏKTUBLARI

*(müxabiri-məxsusimizdən)*

**VƏZİ-HALİYYƏ***

Vüzarətlər hənuz kəmalincə tərtib və nizamə düşməmişdir. Vəzirlər ancaq dərbarə gedib gəlməkdədirlər. Darüşşurayi-millinin açılması nisbətlə vəzirlərin nə kimi layihələr hazırladığı hənuz məlum deyildir. Pulsuzluq hökumət makinasını xeyli ləngidir və bəzən bir para tənaqüsata[1] daxi, guya, səbəbiyyət veriyor.

Köhnə dövrün çömçə dolandıranlarının hala əlləri qazandan rədd olub müxtəlif ünvan vəsvəsələrlə daima dərbarda olub təzə vüzəranın ətrafını dolaşıyor, süfrə töküntüsü yığmaq fikrindədirlər.

Təəccüb burasındadır ki, bunlar süfrə xırdası yığmaq üzrə təlaş etdikləri halda, bəzən oluyor ki, yağlı tikələr də tapıyorlar.

* **vəzi-haliyyə** – hazırkı vəziyyət

[1] **tənaqüs** – əksilmə, azalma

Dərbarın böylə bir halda olub dost ilə düşməninin fərqinə varmamasına qarşı əhalinin iş anlayan maarifmənd qismi arasında narazılıq zühur etdiyindən dolayı əfkari-ümumiyyə get-gedə calibu-diqqət oluyor.

Bu halı məhəlli Tehran ruznamələri tənqid etmiyorlar. Zira, bir dərəcə məddahlığı sevər olduqlarından əlavə məsuliyyət təhtinə düşməkdən dəxi qorxurlar. «Həblülmətin»in düçar olduğu keyfiyyət mətbuata suitəsir etmişdir.

Lakin behər hal hökuməti-haliyyə öylə edə bilməzdi ki, Məhəmmədəli Mirzə idarəsi kimi əfkari-ümumiyyəni bilmərrə yaddan çıxarıb ona qiymət qoymasın. Odur ki, müsamihə ilə keçirdiyi qeydsizliyi bir dərəcə təshih etmiş kimi görünür.

Bu hal ağayi Tağızadə cənablarının vürudindən sonra ərzirüxsar etməkdədir.

Aldığımız mövsuq[1] xəbərlərə görə ağayi Tağızadə cənabları hökuməti-haliyyənin nə vəzilə qurulmasına dair irad buyurduqları nitqi-müfəssəllərində hələti-haliyyəni və müşahidə olunan fövqüzzikr firqəsizliyi tənqid edərək məclisi-fövqəladə də demişdir ki:

«Əcəba, nə vaxta kimi bizim bu biçarə vətən bir dəstə xainlərin mali-məxsusi olub qalacaqdır? Əcəba, bu şahzadələr nə qədər təlelidirlər ki, məmləkətdə hər nə tövr üsul qaim olursa bunlar ağa oluyorlar. İstibdadda bunlar, məşrutiyyətdə bunlar, babalıqda bunlar, islamiyyətdə bunlar, hər halda bunlar. Axır bir dəfəlik bunlar qurtarmalıdır. Təzə bir dövrə düşmək istəyən məmləkəti idarə üçün təzə adamlar aramalıdır. Bəsdir ki, məmləkət bir dövrə ağalara bu qədər nökər olub qaldı, artıq təzələnməlidir».

Tağızadə cənablarının şifahi olaraq camaat arasında yayılmış olan əfkari-məcdanəsi olduqca alqışlanıb «bu sözlər tamamilə millətin məqasididir»[2],– deyə təqdir və təsdiq olunur.

Qanı, canı ilə kəsbi-hürriyyət etmiş olanların məqasidi-vətənpərvəranələri Tağızadə kimi mücahidi-həqiqi tərəfindən cürətlə bəyan və ixtar edildiyindən dolayı əsərbəxş ediyor. Ətrafa göz örtən ərbabi-dərbar ayılır, hökumətdə bir həyat görünür. Böylə tənqidatın nəticəsi olaraq Eynüddövlənin Fars hökumətinə təyin olunması təbdil edilmişdir. Farsa başqası təyin olunacaqdır.

Əvət, hökumət nə qədər mütərəqi olsa da, camaat tənqidi lazımdır. Tənqid olmazsa məqasidi-milli ələ gəlməz, bu bir qaideyi-ümumidir.

### Şahi-cavanbəxtin tərbiyəsi

Şahın hal-hazırda bir neçə mürəbbiləri vardır ki, onlardan biri rus dilinin müəllimi cənab Smirnov olub, digəri dəxi bir nəfər fransızdır. Bunlardan başqa iranlı lələsi dəxi vardır.

[1] mövsuq – mötəbər
[2] məqasid – məqsədlər



Əlahəzrət Əhməd şah fitrətən nümayəndə zirək və bohuş olduqlarından dolayı bu vaxtında ona layiqincə tərbiyeyi-milli verilərsə irəlidə vətən onlardan bir çox müvəffəqiyyətlərə nail, yoxsa fəsadi-əxlaq ilə böyüyər isə zəhməti təsəvvür oluna bilər.

İştə zati-hümayunlarını tərbiyə etmək üzrə məşrutəçilər ciddi fikirlərdə bulunurlar. Bu xüsusda ittixaz ediləcək tədabirin layihəsi böylədir ki, rus müəllimi Smirnovun kontraktına görə altı il bundan sonrakı haqqını verib, onu şagirdindən üzülüşdürsünlər. Və bilümum əlahəzrət hümayunu xarici mürəbbilərindən xilas edib İranın zübdə[1] ülamai-bəəxlaqına tapşırsınlar ki, onlar bu növnihal[2] bağı-məşrutiyyəti əxlaqi-həmideyi[3]-milliyyə ilə müttəssif eyləsinlər.

M.Əmin

*«Tərəqqi», № 177, 9 avqust 1909*

## İRAN MƏKTUBLARI

*(müxabiri-məxsusimizdən)*

### EDAM VƏ TÖVQİF

Məşhur müftin[4] Təbriz «qəhrəmanı» «islamiyyə» müəssisi Mir Haşımın dara çəkildiyini bateleqraf xəbər vermiş idik.

Bu bədbəxt Tehran fəth edildiyi vaxt qaçıb Zərkəndədə bəstə girmiş idi. Orada bunun adamları dəvəçilər ki, Təbrizdən qaçanda özü ilə bərabər Tehrana gətirmiş idi, nədən isə bir qövğa çıxararlar.

Bundan dolayı «burası qövğa yeri deyil», – deyə səfarət bunu və adamlarını çıxarıb qovar. O vaxt bu bədbəxt ingilis kəndi olan Qulhəkdə olur, orada dəxi atışma salıb başqa kəndlərə keçər, təğyiri-libas edərək bu kəndlərdə dolaşar ki, bir vaxt fürsət tapıb özünü bir yana çıxara bilsin.

Lakin o qədər qanlara bais olmuş bu adamı qəza kor edər, fürsət bulamaz. Nəhayət, təğyiri-libas etdiyi halda Şümranatda qarovulçusu olan İran kazaklarına rast gələr. Bunlar bunu dəstgir edib özü ilə bərabər olan qardaşı ilə birlikdə şəhərə gətirib hökumətə təhvil verərlər. Hökumət təhvilinə aldığı kimi məhkəmeyi-nizamiyyədə həman o gün istintaq olunub 24 saatə kimi qətl cəzasına məhkum olunaraq sübh tezdən Topxana meydanında yığılmış olan dar ağacının təzədən qurulmasına bais olar. Camaata ibrət olmaq üzrə boğazına tənab[5] keçirilib oradan asılar.

İstintaqında mərhum təqsiratına iqrar edərək demişdir ki:

[1] zübdə – seçilmiş hissə
[2] növnihal – cavan
[3] həmidə – bəyənilmiş
[4] müftin – fitnəkar
[5] tənab – ip, örmək

«Mən bilirəm siz məni öldürəcəksiniz. Öldürün və ləkum filqisasi-həyatun, ya uli-ləbsar* ki, fəqət bu qədər biliniz qardaşımın təqsiri yoxdur. Hər nə eləmişəmsə mən etmişəm».

Mir Haşım tövqif edildiyi zaman yanından 8 yüz Osmanlı lirəsi ilə bir neçə min dəxi İran tüməni tapılmışdır. Zəbt olunmuşdur. Qardaşı tövqifdədir.

* * *

Mir Haşımın edamından sonra həman Mir Haşımın yoldaşı Hacı Mirzə Həsənin oğlu Hacı Mirzə Məsud dəstgir edilib mühakiməyə verilmişdir.

### Zillüssultan

Zillüssultan Rəşti keçib Münciə çatdıqda Müncil hakimi bunu saxlayıb Rəşt komitəsi tərəfindən bunu tövqif edib Rəhmətabada göndərməsinə məcbur olduğunu bəyan edər.

Özünü əsir görmüş olan şahzadeyi-piri-Müncil hakimindən icazə olaraq Tehrana bir çox dost-aşnalarına və hökumətə teleqraf çəkər. Bu teleqraflar arasında ən tühəf[1] məzmunlusu vüzəradan birisinin adına keşidə[2] etdiyi teleqrafdır ki, bu teleqraf qayət maraqlı təbii olduğu üçün eynilə dərc ediyoruz:

«Həzrəti-əcəlli[3]-bəradərim! Bir gün kəmineyi[4]-Səttardan böylə bir teleqraf gəldi ki, məni bir neçə süvari ilə Rəhmətabada aparsınlar. Xəbər alıram nə kolyaska yolu var, nə at. Siz görünüz ki, Naibüssəltənə, Eynüddövlə və Lyaxov barəsində bu hökmü eləmədilər. Mən günahkar olsam da, günahım onlardan artıq deyil. Onlar hər biri əqəllən[5] evlərində rahətdirlər. Qardaşlıqda həzrəti-əcəldən xahiş ediyoram ki, bir qeyrət eyləsin. Həzrəti-əcəll sipəhsaların mənə bir lütfləri vardır. Sizdən həm söz eşidərlər və başqa vüzəra və əşxas dəxi ondan söz eşidərlər. Mənim həqqimdə iki işdən birini ediniz. Ya Tehranda, ya İsfəhanda hər şəkil ilə xatircəm olarsınızsa məni evimdə qoyunuz və ətrafıma qarovul düzünüz. Ona razı olmasalar ki, vücudum müzirridir və sizin xidmətinizə yaramazsa o vaxt məni İrandan mürəxxəs buyurunuz ki, bu yol ilə ki, gəlmişəm, geri qayıdıb Fransaya gedim. Hər bir günahkara, hər bir müqəssirə bu qədər riayət və rəhm olunar. Həzrəti-alidən həman oğlum Əkbər Mirzənin başına təvəqqe ediyoram. Əgərçi bilirsən ki, Firəngistan həyatından nə dərəcədə mütənəffirəm[6] və əgər istəsəniz və övliyai[7]-dövlət mənim Tehranda və ya İsfəhanda öz evimdə qalmağımı məsləhət görmiyorlarsa iqdam elə ki, mən Firəngistana qayıdım. Hər növ itminan[8] istəsələr ver ki, gedib Sulusda asudə oturam və özüm dəxi buna xeyli razıyam.

* Sizin həyatınız qisasdadır, ey görənlər

[1] tühəf – gülünc, təəccüb

[2] keşidə – çəkilmiş

[3] əcəll – ən ali, ən yüksək

[4] kəminə – aciz, kiçik

[5] əqəllən – ən azı, heç olmazsa

[6] mütənəffir – nifrətlənən

[7] övliya – rəhbərlər, başçılar

[8] itminan – inam, etiqad



Zatınıza məxsus qeyrətinizdən məni bu xiffət, zillət və keşməkeşdən xilas buyurub bu iki işdən birini hər tədbir ilə olsa da, düzəldib, hökmünü alıb məndən ötrü göndərmənizi bəklərəm. Xahişməndəm ki, mənzilinizə getməyiniz, asudə olmayınız – məni asudə ediniz!»

### Zillüssultan

Bu xüsusda hökuməti-mərkəzinin qəti nə nöqtədə olduğunu bateleqraf xəbər vermişdik.

Zillüssultanın böylə bir təhqirə alındığı, süfrə xırdasına yığışan məşrutəsuslu müstəbidlərə artıq dərəcə təsir etmiş, hesablarını almışlardır.

## ŞAHIN BORCLARI

Vüzarəti-ədliyyə şahi-sabiqin qərzdarlarına elan etmişdir ki, şahın İrandan çıxana kimi tələblərinin miqdarını ədliyyəyə bildirsinlər ki, tə işlərə surət verilsin, yoxsa şahi-sabiq gedəndən sonra burası mümkün olmayacaqdır.

Bu elandan sonra ədliyyəyə bir çoxları tərəfindən ərizələr gəliyor ki, bu ərizələr içində 50 min tüməndən tutub 9 yüz, 5 yüz tümənə kimi tələbkar olanlar vardır.

Tələbkarlar cümləsində Fransa səfarəti əzaları dəxi vardırlar.

Xaricə təbəələri öz tələblərini mütalibə etmək üzrə xaricə vüzarətinə müraciət ediyorlar.

Təxminən Məhəmmədəli Mirzənin Tehran borcu 2 yüz min tümənə kimi vardır.

Hərgah bu elan bir az irəlidən Təbrizə dəxi elanı olunaydı, güman ediyordular ki, oradan daha çox tələbkarlar tapılar idi. Zira, vəliəhd olduğu zaman orada kəsmiyən qulaq qoymamışdır.

### «Həblülmətin»in mühakiməsi

«Həblülmətin»in mühakiməsi neçə gündür ki, ədliyyədə icra olunur. Bu cəhət əhalini xeyli hərəkətə gətirir.

Mollalar, mollabazlar çalışırlar ki, nə tövr olsa da, bu ruznaməçəvisi mümkün olduqca bərk cəzalandırsınlar. Lakin mollabazların bu cidiyyəti ürəfa məslək cavanlar arasında biçarə məhkumə müdafiələr yaradır.

Hər məclisdə, məhafildə[1] bunun məzlumiyyətidir, danışılınır. Məarifməndanın fikrincə, bu mübarizə «Həblülmətin»i mühakimə etdirmək pərdəsi altında gizlənmiş olan mollabazlıqdır ki, nəticəsi atiyeyi-mətbuat üçün xeyli vəximdir[2].

[1] məhafil – yığıncaqlar

[2] vəxim – ziyanlı

Ədliyyə tərəfindən «Həblülmətin»i mühakimə etmək üzrə təyin olunan heyəti-münsifənin əzaları tamamən mollalardır ki, çoxunun qəsdi haman məhkumlarını batırmaqdır.

Məarifmənd cavanlar öz tərəflərindən ədliyyəyə verdikləri bir ərzi halda xahiş ediyorlar ki, haman heyəti-münsifəyə onların da nümayəndəsi qəbul olunsun, tainki, mühakimə tərəf tutmasın.

*«Tərəqqi», № 179, 11 avqust 1909*

## İRAN MƏKTUBLARI

*(müxabiri-məxsusimizdən)*

### İSTİQBALİ-MİLLİ

Şənbə günü Ağayi Tağızadə cənabları, Ağa Seyid Məhəmmədrza və qeyri məiyyəti[1] ilə bərabər Tehrana varid oldular.

Müşar ileyhi cənablarını Tehran fövqəladə bir surətdə pişvaz edib fikri-hürriyyət və məşrutiyyətin istiqbalı-İraniyə və vətəniyyənin maddeyi-təcəssümü olan bu vücudi-möhtərəmi olduqca təclil[2] etdi.

İnsan bu pişvazı gördükdə bu şadlıqlara diqqət verdikdə aləm-aləm düşüncələrə düşüyor, bir dünya təsəvvürata dalıyor.

Məclisi-darüşşurayi-milli topa tutulduğu zaman kimsə güman etməz idi, etmiyor idi ki, bu tezliklə haman payi-nəhsi[3] istibdad altına alınmış məşrutiyyət İrana övdət etsin də pişvazlarını təclil, bixkonlarını[4] isə zəlil etsin.

Milləti-İraniyyə, həqiqətən, böylə gözlənmədiyi bir surətlə izhari-vücud etdi. Hətta böylə bir izharə bu gün behəqq təclil olunan məzhəri-əltaf və hissiyyati-səmimanəyi-milli olan Tağızadə həzrətləri özləri dəxi təsəvvür buyurmuyorlarmı?

Yadımdadır ki, cənab Tağızadə bir çox rüfəqası ilə bərabər Lyaxovun dəsti-ğədrindən qurtarıb ingilis səfarəti himayəsi altında olaraq Bakıdan keçdikləri zaman xidmətlərinə yetişdik.

O vaxt Təbrizdə məşəli-inqilab təzəcə alovlanıb sərdari-milli Səttarxanın nami-bənamları afaqa əks-səda salmağa yenicə başlamış, Tehran vəhşiliklərinə əyalətlərdən qalxan yeganə etiraz idi ki, nəticəsi kimsəyə məlum deyil idi.

Təbrizdə partlayan bu zərrə qığılcım mümkün edə biləcəkmi ki, bir atəşi-xanimansuz şəklini alsın da bütün zalimləri, xainləri ihraqi-binnar[5] etsin. Yainki söndürülmüş olan həriqin[1] axırıncı şölələridir ki, bir neçə kürək torpaq və ya bir neçə boçka su ilə söndürülə bilər?

[1] **məiyyət** – böyük rütbəli və vəzifəli şəxsləri müşayiət edən şəxslər
[2] **təclil** – yüksəltmə
[3] **nəhs** – uğursuz
[4] **bixkon** – kökündən qazan
[5] **ihraqi-binnar** – oddа yandırma



İştə bu məsələnin təyinini İran həqayiqinə behəqq aşina olub haman həqayiq içində dəstü-pa vurmuş olan Ağayi Tağızadənin bu xüsusda bəslədiyi əqideyi-həqiqət qərinindən bilmək üzrə Azərbaycanda başlanmış olan hərəkətə nə nəzərlə baxdıqlarını interviyum zəminində verdiyim suallara əlavə etdim. Müşar ileyhi izhar buyurdular ki, Təbrizin qüvvətinə bir o dərəcə etiqad etmiyorlar. Olsun ki, Səttarxanın o rəşadət və iqdamatı əsbabi-mühəyya olmadığından məqsudə çatmasın.

Fəqət bu atəş söndürülsə də, tarixcə haizi[2]-əhəmiyyətdir.

Baxınız bugünkü bu eydi-millinin, bu pişvaz məşrutiyyətpərəstanənin illəti-zihəqqi olan Ağayi Tağızadə dəxi iki ilin ərzində ola biləcək böylə bir istirdadi-hüquqi ümid etmiyorlardı.

Əvət, siyasətdə peyğəmbər olmaq müşküldür. İran həqayiqi isə bu çətinliyə daha bir qat işkal[3] əlavə ediyor.

Nə isə İran milləti imtahani-ictimaini verdi. Bu imtahanda böyük bir sıxıntılara düçar olsa da, İran ərbabi-siyasətinin özlərinin belə gözləmədikləri bir hal ilə istedadnaməsini alıb bugünkü səadətə nail oldu.

Qanlı istibdad əlindən can götürüb məmaliki əcnəbiyyədə sükna edərək məmləkətlərinin xilasına oradan çalışmaq istəyən mühacirləri bir az keçmədi İranın müxtəlif nüqatında açılan meydani-mübarizətə canfəşanlıq etmək üzrə dəvət etdi.

Ağayi Tağızadə Təbrizə gəlib həmvətənləri ilə əl-ələ verərək tamam o mühasiratı çəkdilər. İndi isə təzlil edilərək çıxdığı Tehrana təclil ediləraək gəliyorlar.

Müşar ileyhin Qəzvinə varid olduğu xəbəri bateleqraf Tehran rüfəqasına çatıyor bir neçə müqərriblərdən[4] ta Qəzvinə kimi pişvaz ediyor. Ordan bir dəstə mücahid ilə Tehrana tərəf çıxırlar. Şənbə günü nahari Şahabadda yeyib, istirahətdən sonra məhəlli məqsudlarına davam ediyorlar.

İştə burada pişvaza gələnlərin qabağı açılır. Hər neçə qədəmdən bir istiqbala gələnlərin faytonu, kareti, yainki atı, eşşəyi dayanıb bütün dəstgahi-müsafirin dəxi dayanılır. Camaat sevdiyi vəkili, natiqi siyasi karkoni ilə öpüşür, görüşürlər.

Bu görüşlərdə tühəf-tühəf[5] təsadüflər, ali hissiyyatlar ümidbəxş mənzərələr nəzərə gəliyor.

[1] **həriq** – yanğın
[2] **haiz** – malik olan
[3] **işkal** – çətinlik
[4] **müqərrib** – yaxınlar
[5] **tühəf** – görünməmiş

Öpüşürlər, öylə bil ki, mənfədən[1] qayıtmış ata ilə oğul yainki, iki doğma qardaş öpüşür.

Əvət, məsləkdaşlıq qardaşlıqdan, ata-oğulluqdan daha artıqdır. Zira, məslək ayrılığından naşi atanı dərdə görməklə həzdə bulunan oğulun Tehran şahidgahıdır.

Bu vəz ilə mövkibi-milli hərəkət ediyor.

Pişvaza Qırmızı beydaqlı hürriyyət fövci, mücahid firqəsi gəliyor. Tağızadə və rüfəqasının faytonlarını aralığa alıb təşyi[2] ediyorlar.

Bu qaidə ilə heyəti-möhtərəmə Mehrabada yaxınlaşır. Burada dəxi iki yüz nəfərə kimi mücahid fövci kəmali-nizam ilə durub salam veriyorlar. Ağayi Tağızadənin kareti görüncəyin «zindəbad Tağızadə», – deyə sədalar asimanə qalxıyor.

İstiqbal olunan heyət Mehrabad əskiləsində hazırlanmış məclisi-qəbulə təşriffərma oluyor. Şərbət və şirniyyat istemalından sonra bir az tövqif edib qalxıyorlar. Camaət təmamən hazır, bütün nəzərlər bugünkü cəşnə bir təbəssümi-şadi ilə nazirdirlər.

Mövkibi-möhtərəm buradan dəxi hərəkət ediyor, əlliyə yaxın fayton, 5 yüz nəfərə kimi mücahidi-süvarə təşyidə hazırdırlar.

Bu minval ilə heyəti-təclil hərəkət ediyor. Atların, faytonların hərəkətindən qalxan kird ğubardan[3] göz-gözü görmiyor. Tehranın istisi havanı olduqca qızdırmışdır. Hərarətli bir yel əsiyor. Lakin böylə bir təbii sıxıntıda olan insan mənəvi bir ruh alıyor. Zəfəri-millini görür də ürəyi açılıyor. «Zindəbad» sədaları təhtində mövkib şəhərə doğru gəliyor. Şəhər yaxınlığında yüz nəfərdən ibarət bir müfrəzə[4] briqada kazakı səf çəkmiş, durmuşdur. Ağayi Tağızadənin kareti keçdiyi vaxt tamam nizam ilə kazaklar salam verirlər.

Bu mənzərə insana nə qədər təsir ediyor. İki il bundan irəli baği-şahə aparmaq üzrə bütün künc bucaqlarda axtardıqları bir vücudi indi haman baği-şahə getmək üzrə tamam nizümü-təbəiyyət[5] ilə pişvaz ediyorlar.

Buradan ötüb Ağayi Tağızadə baği-şahda post və teleqraf vəziri cənab Sərdar Mənsur tərəfindən hazırlanmış şirniyyat süfrəsinə təşriflərmə oluyorlar. Şərbət içildiyi sırada Seyid Yaqub Şirazi cənabları müxtəsər bir nitq söylədi. Haman bura millət hamilərinin, nümayəndələrinin qətlgahi olub da indi böylə bir təşrifatə məzhər olduğunda aləm-aləm mənalar görüyor. Bu istiqbalda istiqbali-milli hiss ediyor.

---

[1] **mənfə** – sürgün
[2] **təşyi** – yola salma, müşayiət etmə
[3] **ğübar** – ətraf toz-torpaq
[4] **müfrəzə** – tabelik
[5] **təbəiyyət** – tabelik



Buradan qalxan heyəti-möhtərəmə bağı-şah darvazasından şəhərə daxil olub, məclis vəqəsində Əminüddövlə bağında öldürülən Təbriz vəkili Hacı Mirzə İbrahim Ağanın qəbri üstünə əzim oluyor.

Küçələrdən keçərkən bu tərəf, o tərəfdə düzülən camaət alqışlar ilə pişvaz edib, «zindəbad Ağayi Tağızadə», – deyə izhari-məhəbbət ediyordular.

Hacı Mirzə İbrahim Ağanın qəbri şəhərin lap o biri tərəfindədir. Xeyli yoldur. Bu yolu camaət tamamən pişvazdadır. Arvad, uşaq, qoca, cavan tamamən küçələrdədirlər.

Qəbrin üstündə böyük bir çadır qurulmuş, məqbərə güllər, lalələr ilə bəzədilmişdir. Bu çadırın altında təqribən 5–6 min əhali təcəmmö[1] etmişdir.

Burada bir nəfər vaiz qalxıb, natiqlikdən çox rövzəxanlıq ediyor, bu iki il ərzində olunan mücahidatı, edilən fədakarlıqları, verilən qurbanları, Təbrizin çəkdiyi fəlakət və riyazətləri oxşuyor.

Camaət başına döyüb ağlayır. Nəhayət, şəhidi-rahi hürriyyət Hacı Mirzə İbrahim Ağanın ruhi-pürfütuhlarına bir fatihə oxuyaraq, camaət mütəfərriq oluyor.

Ağayi Tağızadə, rüfəqası bir dəstə təşyi edənlərlə məən[2] postxanə xiyabanında hazırlanmış mənzillərinə tərəf hərəkət ediyorlar.

Mövkibin keçəcəyi küçələr sulanmış, bu tərəf o tərəfdə mücahidlər səfləri kəmali-nizam ilə durub, salam veriyorlar. Əhali haman qərari-məzkur üzrə «zindəbad» sədası ilə müşar ileyhi istiqbal ediyorlar.

Camaət Ağayi Tağızadəyə artıq inanır, amalının yeganə mübarizi olaraq, bu cənabi tanıyır. Onun fəzlinə, dəyanətinə inanır.

Tanışlarımdan bir nəfər ilə söhbət ediyoram. Məni təbrik ediyor, diyor: lillahülhəmd, Tağızadəmiz də gəldi çıxdı, inşallah bir çox nöqsanlarımız düzələcəkdir.

Ümid edirik ki, əvvəli məşrutiyyətdən bu vaxta kimi bütün əfal və hərəkatında daima haqq və həqqaniyyəti özünə əsas ittixaz edərək, sədaqəti ilə böylə bir məqami kəsb etmiş olan Ağayi Tağızadə cənabları bundan böylə dəxi camaətin onlara nisbət bəslədikləri böyük ümidlərin öhdəsindən gələrlər.

Fəqət camaət dəxi izharatında səmimi olmalıdır. Yoxsa camaətsiz Ağayi Tağızadələr nə qədər faal, nə qədər səmimi, nə qədər hümmətli olsalar da, məqsud ələ gəlməz.

Hürriyyət və məşrutiyyətini qanlı müsadimələr ilə kəsb etmiş olan camaət, yəqin ki, böylə bir təvəccöhdə olub, öz arasından mütəəddid Tağızadələr yetirəcəkdir.

**M.Əmin**

*«Tərəqqi», № 180, 12 avqust 1909*

---

[1] **təcəmmö** – cəmləşmə, toplanma
[2] **məən** – birlik

## İRAN MƏKTUBLARI
*(müxabiri-məxsusimizdən)*

### MÜTLƏQİYYƏTİ-HAKİMƏ

Vazehdir ki, dövri-inqilab hər bir məmləkətin həyatında ən nazik və ən ehtiyatlı bir vaxtdır ki, bu anda işlər əqlə deyil, adətən, hissiyyata bağlanır da, hər dəfə bir şuriş, bir hərəkət gözləmək təbii olur.

İştə, nəzərində olan üsuli-idarəni icra etmək üzrə inqilabçılar hər bir işdə sürət ilə mütləqiyyəti dəstürkar etməlidirlər ki, nişanladıqları məqsədlərinə çatınca məmləkəti asayişdə saxlayıb təlatümünün yatmasına imkan verdirsinlər.

İnqilab məmləkəti lovsi[1]-istibdaddan təmizləmək üzrə təlatüm verən bir tufan isə, mütləqiyyəti-hakimə, inqilab dəxi o təlatümün asayişini təmin edən bir qüvvədir ki, onun vasitəsi ilə bulanmış olan həyati-ictimaiyyə durulur, kəsb eləmiş olduğu təəffündən[2] mübərra oluyor.

Böylə bir qüvveyi-hakimənin vücubi İranda daha bir şiddətlə hiss olunmaqda idi.

Adətən, inqilablarını çevirmiş olan məmləkətlərdə hakimi-mütləq ixtiyari Türkiyədə sərdari-əzəm Mahmud Şövkət Paşa olduğu kimi, bir nəfər sahibi-nüfuz, etimad və iqtidara verilib, bütün idarəti-dövləti, ləşkəri və kişvəri onun məğzinin kifayəti və əqlinin dirayəti[3] ilə ixtiyarının qüvvətinə tapşırılır ki, bu camaatin məzhəri-etimadi olan bu adam məmləkəti nizami halına gətirib, tamam asayişi mühəyyavər, aksiyon yollarını məsdud edər və məmləkəti təhlükədən qurtarıb, düzgünlüyə çıxarar da quvayi-ictimaiyyənin istedadi-təcəddüdkarisinə buraxar.

Lakin iranlılar cənab Ağayi Tağızadənin Tehrana vürudlarından sonra böylə bir səri və mütləq qüvvəyə möhtac olduqlarını üz verməkdə olan bəzi məvaddı mülahizə edərək hiss etdiklərindən qəbul etdisələr də, bir adama ixtiyar verməni şəraiti-iraniyyədən dolayı mümkunül-icra görmədiklərindən heyəti-müdirə namında 20 adamdan ibarət bir heyət təşkil verdilər ki, məclisi-fövqəladə tərəfindən seçilmiş olan bu heyət tamam işləri icra etməyə məcbur olub, hakimiyyəti-mütləqə ixtiyarında olacaqdır. Ağayi Tağızadə cənabları dəxi bu heyətin əzalığına intixab edilmişlərdir.

Bu heyətin öhdəsində böyük məsuliyyətlər vardır. Məmləkətin asayiş və islahat yoluna düşməsini əhali heyəti-müdirə – deyilən bu nəfəratdan gözliyor.

---
[1] **lovsi** – murdarlıq, kəsafət
[2] **təəffün** – çürümə
[3] **dirayət** – bilmə, başa düşmə



Heyəti-müdirə xüsusunda Ağayi Tağızadə ilə elədiyimiz mülaqatda müxbirinizin «heyəti-müdirə nə edəcəkdir?» – deyə verdiyi sualına yeganə səyyasi[1]-İran olan Tağızadə cənabları dedilər ki:

– Heyəti-müdirənin bu yaxında görəcəyi işlər bunlar olacaqdır ki, aksiya gümanlarını məhv etmək üzrə tədabiri-lazimə görüb, asayişi ixlal edəcək[2] olan hər bir hərəkətin cilovunu almaqda hazır olsun. Bu gün artıq dərəcədə möhtac olduğumuz pul istehsalına yollar fikirləşsin.

Şahın tərbiyəsinə diqqət yetirib, dərbarda olan şübhəli adamları rəf edib əzayi-dərbarı məmun[3] adamlar təşkil etsin.

Məmləkətin qüvveyi-nizamiyyəsinə artıq diqqət verib, onu bir hala qoysun ki, təzə İranı mühafizə edəcək qüvvətə dara olsun.

Rusların İrandan çıxmalarına lazımeyi-tədabirdə bulunacaqdırlar.

Bütün varidati-dövləti ya nəzarət yetirib onları vadar edəcəkdir ki, təzliklə islahati-kara şüru etsinlər.

Və başqa bir çox məqasidi vardır ki, əvvəlcə bunlar məddi-nəzərdə olduğundan fəqət bunları zikr ediyorum...

– Məclisi-fövqəladə heyəti-müdirə təşkil verdikdə özü istefaya gediyor idi?

– Əvət, istefaya getməli idi. Amma bəzi mülahizata görə qalıyor. Fəqət işlərə müdaxilə etməyib, həftədə bir dəfə yığılacaq və heyəti-müdirənin görmüş olduğu işlərdən ittilaət[4] peyda edəcəkdir.

Və bir də heyəti-müdirənin bir çox heyətləri (seksiyonları) olacaqdır ki, lüzumunda həman məclisi-fövqəladə əzasından da oraya intixab ediləcəklərdirlər.

Ümid etməlidir ki, bu heyət İranın təcilən görülməyi lazım gələn mühüm işlərinə surət verər də, üstünə götürmüş olan məsuliyyəti ifa ilə vətənə behəqq xidmət edər.

### Şahi-sabiq

Sabah, ya o biri gün Məhəmmədəli şah sabiq Rusiyaya əzimətən Tehrandan çıxmalıdır. Şahı 200 nəfər İran kazakı Qəzvinə kimi aparıb, oradan rus kazakları müşayiət edəcəkdirlər.

### Mücövhərati-dövləti

Mücövhərati-dövləti təhqiq edildikdə, nöqsanlara məzhər olduqları anlaşılır, təxmin ediyorlar ki, cəvahirin nısfı[5] zaye edilmişdir. Xəzinə dövlətini təhqiq etdikdə bir balaca cəbənin içindən 50 min əşrəfi tapılmışdır. Bu cəhət dərbariləri xeyli təəccübə gətirir.

---
[1] **səyyasi** – siyasətçi, siyasət adamı
[2] **ixlal etmək** – pozmaq
[3] **məmun** – inanılmış
[4] **ittilaət** – tanış olmaq
[5] **nısf** – yarı

Güman ediyorlar ki, burada pul olduğu nəzərə belə gəlməyib, səhvən qalmışdır, yoxsa Məhəmmədəli Mirzə bu əşrəfilər ilə eləyə bilərdi ki, bir az daha istiqamət göstərib, səfarətə getməyinə bir az təxir verəydi.

### İntixabat

Tehran intixabatının dövrəyi-əməli qurtarmışdır. Seçilmişlər tamamilə hürriyyətpərəstlikləri məşhur olanlardır. Vükəla intixabı dəxi bu yaxında icra olunacaqdır.

### Yeni qəzetə

Gələn həftənin içində «İrani-nov» namində gündəlik bir qəzetə nəşr olunmağa başlayacaqdır ki, bu qəzetənin cəsaməti və proqramına nəzərən əvvəlinci bir ruznamə olcaqdır ki, Avropa üsulu ilə aparılacaqdır.

Qəzetədə müxbiriniz Məhəmməd Əmin Rəsulzadə yaxın bir şərakət[1] edəcəkdir.

Tehran
**M.Əmin**
*«Tərəqqi», № 183, 16 avqust 1909*

[1] **şərakət etmək** – iştirak etmək



## ƏLİFBA ÜZRƏ ADLARIN GÖSTƏRİCİSİ

### A

*Abdullah Gilyom* – XX əsrin əvvəllərində İngilterədə müsəlman liderlərindən biri – 38

*Aleksinski Q.A.* (1879...) – əvvəllər sosial-demokrat idi. 1905–1907-ci illər inqilabı dövründə bolşeviklərə qoşulmuşdu. II Dövlət dumasının deputatı. Sonralar s.d.-lardan uzaqlaşmışdı – 134, 141

*Arseni* – keşiş, «Həqiqi ruslar»ın dini başçılarından biri, Qüdsişərifə getmişdi ki, Rusiyanı inqilab «bəlasından» xilas etsin – 92

*Aşurbəyov İsa bəy* – neft sənaye sahibi, bir sıra qəzetlərin naşiri olub – 55

*Alişevski* – Bakı qubernatoru olub – 291

*Andrey* – keşiş, «Russkiye vedomosti» qəzetində çıxış edirdi. Stolıpinin tərəfdarı idi – 170

*Andrep Fon* – oktyabrist firqəsinin fəallarından biri idi. Maarif komsiyonunun işində fəal iştirak edirdi – 277, 278, 279

*Abdullazadə Mir İsmayıl* – Rəştdə 1909-cu ilin martında məşrutəçilərin təşkil etdikləri komitədə maliyyə rəyasətliyinə təyin olunmuşdu – 318

*Ağa Mir Mustafa* – müctəhidi-məşhur Hacı Mirzə Hüseyn Aştiyani cənablarının xələfi, xaincəsinə öldürülmüşdür – 323

*Asəfüddövlə* – Şiraz hakimi olub – 331

*Ağayani Abdulla Mazandarani* – tanınmış din xadimlərindən idi – 331

*Ağa Seyid Məhəmməd* – Təbriz tacirlərindən biri – 355

*Ağa Bözörg* – Təbriz tacirlərindən biri – 355

*Abidi* – Təbriz tacirlərindən biri – 355

*Ağa Şeyx Məsiha* (A.Ş.Mirzə – Məsiha) – Urmiyədə məşhur müctəhid. Urmiyədə əncümənin sədri idi – 364, 400

*Axund Amili* – məşrutiyyətin şəri olduğunu iddia edən din xadimi idi – 420

*Ağavi Sədrülüləma* – məclisi fövqəladənin üzvlərindən biri idi – 437

*Ağa Mirzə Əli Məhəmmədəli xan* – parlaman vəkilliyinə namizədlərdən biri – 438

*Axund Molla Kazım Xorasani* – parlaman vəkilliyinə namizəd idi... – 420

*Ağa Seyid Məhəmmədrza* – parlaman vəkilliyinə namizəd idi – 448

*Atabəy-əzəm Mirzə Ələsgər xan* – İranın sədri-əzəmi (Baş naziri) idi. Həsən ağa adlı bir mücahid tərəfindən öldürülmüşdür – 37

*Ağa Mirzə Əli Məhəmməd xan* – parlaman vəkilliyinə namizəd idi – 438

### B

*Budda* (sanskripcə Buddha – hərfi mənada nurlu) – buddizmdə ən müqəddəs varlıq – 39

*Bulat* – Dumada Milyukov, Çxeidze və Keçeçqori ilə birgə çıxış edirdi – 258

*Batyanov* – general, Qafqaz məsələsinə dair irticaçı mövqe tuturdu – 278

*Bertran* – Belçikada ilk kooperatorlardan biri – 220

*Bravin* – II Nikolay hökumətinin İranda konsulu olmuşdur – 225

*Bəsiri Xaqani* – rus konsulluğunda işləyən İran təbəəsi idi – 311, 312

*Baranovski* – Rusiyanın Tehran səfarətində birinci tərcüməçi idi – 314

*Bağırovlar* – Tehran şose yolunun dəstigahlarından biri – 330

*Bijik əfəndi* – Culfada erməni hakimi – 340

*Bağırxan* (1861–1917) – Təbriz üsyanının (1908–1909) rəhbərlərindən biri.

Səttarxanın silahdaşı – «Saləri milli» (xalq sərkərdəsi) – 344–346, 348, 351, 355, 386, 387

*Bəsirüssəltənə* – Təbrizdə vəzifə sahiblərindən biri – 354

*Buxse Anna Fridman* – İranda fəaliyyət göstərən alman lüteran misyonerlərindən idi – 400

### Ç

*Çxeidze N.S. (1864–1926)* – menşevizmin liderlərindən biri, III və IV Dövlət dumalarının deputatı, Gürcüstan Demokratik Respublikası dövründə (1918–1921) müəssislər məclisinin sədri olmuşdur – 258, 286, 287

*Çunkovskin N.F. (1865–?)* – Qafqazda canişin Şurasının üzvü, bu Şurada ticarət və sənaye nazirliyinin nümayəndəsi idi – 286

### D

*Dimanski İ.A.* – əvvəllər Bakıda qaləbəyisi olmuşdur. Sonralar Bakı «Rus camaatinin ittifaqı» qaragüruhçu dəstənin başçısı idi. Milli ədavəti qızışdırırdı – 142, 143

*Dubrovin A.İ. (1855–1918)* – qaragüruhçu «Rus xalqı ittifaqı»nın təşkilatçısı və rəhbəri, 1905–1907-ci illərdə yəhudi talanlarının və terror tədbirlərinin fitvaçısı və təşkilatçısı olmuşdur – 166, 167, 194

*Dustakyan* – Bakıda neft sənaye fəhlələri həmkarlar ittifaqında işləyirdi – 168

*Davidov* – Qafqaz canişininə yaxın olan məmur, rotmister idi – 286

### E

*Engels Fridrix (1820–1895)* – elmi kommunizmin banilərindən biri – 56

*Eynüddövlə* – 200–203, 245, 249, 283, 323, 339, 351, 359, 417, 423, 435, 436, 439, 442, 444, 446

*Eyvazov Həsən Səbri* – ümumtürk dəyərləri təbliğ edən tanınmış jurnalist və publisist. «Həyat», «Füyuzat» və digər mətbuat orqanlarında güclü, sənətkarcasına yazılmış xeyli məqalələri dərc olunmuşdur – 52, 149, 150

### Ə

*Əli ibn Əbu Talib (598–661)* – Osman öldürüldükdən sonra seçilən dördüncü xəlifə, Məhəmməd peyğəmbərin əmisi oğlu və kürəkəni (qızı Fatimənin əri) – 23, 25, 328

*Əşrəfi Ata bəy Əzəm* – 1906-cı ildə də İrandakı «Ədalətxanə» məclisinin tərtib və təsisçilərinin başçısı – 37

*Əbdürrəhim* – Şamaxı əfəndisi. İnqilab dövründə padşah II Nikolaya yaltaqlıq teleqramı vurub «Molodes» almışdı – 92

*Əfinciyans* – papiros istehsal edən erməni fabrikantı – 96

*Əlimərdan bəy Topçubaşov (1865–1934)* – görkəmli dövlət və siyasi xadim, hüquqşünas, jurnalist və publisist. 1897–1917-ci illərdə «Kaspi» qəzetinin redaktoru, Dövlət dumasının deputatı və arada «Müsəlman qrupunun» başçısı, Rusiya Müsəlmanlarının 1–4-cü qurultaylarının təşkilatçılarından biri – 8, 14, 104

*Əhməd bəy Ağayev (1869–1939)* – Azərbaycanın tanınmış milli mütəfəkkir filosofu, jurnalist və publisist, «Həyat», «İrşad, «Tərəqqi» və digər qəzetlərin redaktor və aparıcı mühərrirlərindən olmuş, 1909-cu ildə İstanbula köçmüş, Türkiyə respublika elan edildikdən sonra Atatürkün daxili və xarici siyasət xəttinin, o cümlədən Sovet–Türkiyə dostluğunun tərəfdarı idi – 10, 104, 185

*Əminəssultan* – 144



*Əli Heydər* – Türkiyə qanuni-əsasinin banisi, millət şəhidi, Midhət Paşa öldürüldükdən sonra onun xələfi – 156

*Əlixanov* – iri torpaq sahibi, çar qulluqçusu – 27

*Əzimbəyov* – papiros istehsalçısı – 96

*Əbdülhəmid P. (1842–1918)* – 1876–1909-cu illərdə Türkiyə sultanı. 1876-cı ildə «Yeni osmanlılar» cəmiyyəti ilə əlaqədə olan Midhət Paşanın təzyiqi altında konstitusiya vermiş, lakin az sonra parlamenti buraxmış və irtiçaçı «zülm rejimi yaratmışdı – 67, 79, 130, 154, 379, 384, 389, 393

*Əfəndiyev Abdullabəy* – müəllim, «Dəbistan» jurnalında «Rüstəmin yuxusu» adlı əsəri nəşr olunmuşdu – 75, 76

*Əlibəyov Mustafa bəy* – mütərəqqi xalq ziyalısı, fəal ictimai xadim, 1911–1912-ci illərdə Azərbaycanda ilk qadın jurnalının naşiri – 276

*Əşrəf* – 228

*Əlizadə Səfər* – Bakı şəhər dumasında məmur – 169

*Əliyev Mirzə Ağa (1883–1954)* – görkəmli aktyor və ictimai xadim, xalq artisti. 1906–1912-ci illərdə «Həmiyyət» və «Nicat» cəmiyyətinin teatr truppasında iştirak edirdi, dövri mətbuatda məqalələri var, hətta xüsusi nəşriyyat yaratmaq üçün təşəbbüsdə bulunmuşdu – 174, 175

*Ərəblinski (Xələfov) Hüseyn (1881–1919)* – istedadlı aktyor və rejissor, 1906–1913-cü illərdə «Nicat» cəmiyyətinin teatr truppasında aktyor və rejissor idi. Azərbaycan peşəkar teatrosunun yaradıcılarından biri – 274

*Əbumüslim Dağıstani* – «İrşad» qəzetində çıxış edirdi – 96

*Əmirbahadır* – 57, 97, 230, 273, 320, 322, 324, 325, 327, 415, 416, 442

*Əfəndiyev Rəşid bəy (1863–1942)* – görkəmli maarif xadimi, yazıçı, etnoqraf. 1900–1917-ci illərdə Qori Seminariyasında Azərbaycan dilindən dərs demişdir – 123

*Əbdülhəsən* – 308

*Əliyev Əliş bəy* – 308

*Əminüddövlə* – 323, 451

*Əmidüssultan* – 327

*Əbdülməlik* – 330

*Əlaülmülk* – 331

*Əmirnizam* – 331

*Əhməd Cəmal əfəndi* – 340

*Əmir Xosrov* – 355

*Əmirtuman* – 385

*Əzədülmülk* – 404, 440

*Əzədüddövlə* – 413

*Əhməd şah* – 412–414, 416, 424, 425, 429, 440, 443, 445

*Əli Vəliyyullah* – 425

*Əhmədiyyə* – 429

*Əmiri-Müfəxxəm* – 438

*Əmidülhükəma* – 438

*Əsədullah Mirzə* – 438

*Əkbər Mirzə* – 446

### F

*Flankəs* – Üzeyir Hacıbəylinin ədəbi təxəllüslərindəndir – 253

*Fulbaum* – Bakı qradonaçalniki idi – 243

### G

*Gavə* – 38

*Ged Jül* (1845–1922) – fransız sosialist hərəkatının və II İnternasionalın təşkilatçı və rəhbərlərindən biri – 212

### H

*Haqverdiyev Əbdürrəhim bəy (1870–1933)* – görkəmli yazıçı, dramaturq, ictimai xadim, tərəqqipərvər rus aktyoru S.Lanskoyun «Qəzavat» əsərini Azərbaycan dilinə tərcümə etmişdi,

«Nicat» dram truppası tamaşaya qoymuşdu. Şeyx Şamilin həyatından bəhs edən bu əsər barədə fitnə və provakasiya törətmək istəmişdilər. M.Ə.Rəsulzadə bu hərəkəti ifşa etmişdir – 274
*Hadi Məhəmməd (1879–1920)* – görkəmli Azərbaycan şairi, publisist – 104
*Hacıbababəyov* – «Nicat» cəmiyyətinin katibi olub – 163
*Hacıbəyov Üzeyir bəy (1885–1948)* – dahi bəstəkar, musiqişünas, yazıçı, publisist, müəllim – 260
*Hacıyev Ağaməhəmməd Hüseyn* – Culfada tacirbaşı – 342
*Hafiz (1325–1389)* – məşhur fars şairi – 376, 392
*Hacı Əli Əkbər Birucərdi* – din xadimi – məşrutəni küfr elan etmişdi – 420
*Hacı Əminüzzərb* – parlaman vəkilliyinə namizəd idi – 438
*Hacı Məhəmməd İsmayıl* – Məhəmmədəli şahla xarici səfarətxanaya pənah gətirmişdi – 416, 442
*Hacı Mirzə İbrahim Ağa* – inqilab şəhidlərindəndir – 451
*Hacı Məhəmməd Rza Ağa* – əncüməni əyaləti sədri – 334
*Hacı Mirzə Hüseyn Aştiyani* – məşhur müctəhid – 323, 326
*Hacı Mirzə Məsud* – xain Mir Haşımın yoldaşı – 446
*Hacı Sadıq Kərbəlayi Bağır oğlu* – Təbrizdə rus kazakları tərəfindən günahsız öldürülmüşdür – 354
*Hacı Seyid Hüseyn Daşgər* – imam cümənin nökəri – 201
*Hacı Cəlil Mərəndi* – yerli əncümən vəkillərindən biri, şəhid edilmişdi – 201
*Hacınski Mehdi bəy (1879–1941)* – görkəmli maarif və mədəniyyət xadimi, publisist, naşir, «Tərcüman», «Kaspi», «Həyat», «İrşad», «Təkamül» və s. qəzet və jurnallarda çoxlu yazıları dərc olunmuşdur – 163
*Həsən bəy Zərdabi* – 160
*Həzrəti Höccət* – 331
*Həmidüssultan* – 412
*Hüseynzadə Əli bəy (1864–1940)* – görkəmli mütəfəkkir yazıçı, jurnalist, publisist, tərcüməçi: «Həyat», «Kaspi», «Füyuzat» və s. qəzet və jurnalların müəyyən müddət redaktoru olub. Zəngin mətbu irsi var. 1910-cu ildə Türkiyəyə gedib İstanbul Universitetinin professoru olmuşdur – 8, 9, 11, 167
*Hüseyn Abdin Kamal* – 318
*Hüseynəli xan* – 309, 320
*Hüseyn Kasman* – 334, 335
*Hüseynqulu xan Navvab* – parlaman üzvlüyünə namizəd – 438

## I

*İqnatyev A.P.* – qraf, güclü monarxiya tərəfdarı, Dövlət duması çağrılmasının əleyhinə idi – 120–125, 138
*İlminski N.İ. (1822–1891)* – mürtəce maarif xadimi – 138
*İvan* – Rus mujiki mənasında işlədilib – 146
*İclalülmülk* – 201, 344
*İqbalüssəltənə* – 202
*İsa* – xristianlığın əfsanəvi banisi, peyğəmbər – 92
*İsmayılov Kərim bəy* – maarif xadimi, «Hesab məsələləri» adlı müxtəsər dərslik yazmışdı – 259
*İbrahimxan* – doktor İbrahimxan Rəştdə mücahidlərə qoşulmuşdu – 323
*İmadülislam* – 355
*İntizamülmülk* – 355
*İmamqulu Mirzə* – Urmiyədə vaxtaşırı ədalətli hakim olub – 369, 377, 391

## J

*Jerusalmi İyerusalem V. (1854–1923)* – Avstriya filosofu və psixoloqu, Vyanada fəlsəfə professoru olmuşdur. Çin müsəlmanlarının vəziyyəti barədə məqalələrin müəllifidir – 38
*Jarski* – «Novoye vremya» qəzetinin İrandakı müxbiri, qeyri-obyektiv məlumatları ilə məşhur idi – 340, 341
*Jan Porsan* – Tehranda təşkil olunmuş firqə. İlk intibahnaməsində özünün rəiyyətin hüququnu mühafizə edəcək bir firqə olduğunu elan və vəd edirdi – 414

## K

*Kampanella Tommazo (1568–1639)* – italyan utopik sosialisti, monax, «Günəş şəhəri» əsərinin müəllifidir. Burada o Sakit okeanda istismardan, xüsusi mülkiyyətdən azad bir xəyali şəhər təsvir edirdi. Əsər rus dilinə tərcümə edilmişdir (1934) – 45
*Karl Kautski (1854–1938)* – Almaniyada s.d. hərəkatının və II İnternasionalın nəzəriyyəçi və liderlərindən biri, sentrizmin ideoloqu, 1920-ci ilin sentyabrında II İnternasionalın nümayəndə heyətinin başçısı kimi Tiflisdə olarkən Azərbaycanın XI Qızıl Ordu tərəfindən işğal olunmasına qarşı çıxmışdır – 214
*Katilovski* – Bakı gimnaziyasının direktoru. Direktorluq ilə missionerliyi birləşdirmək istəyirdi – 86
*Kamil Paşa* – 293, 294
*Kokovsev V.N. (1853–1943)* – uzun müddət (1904–1914) kiçik fasilə verməklə çar hökumətinin maliyyə naziri olmuşdur – 148
*Komarov* – inqilabdan əvvəl hesab məsələlərinə dair dərsliklərin müəllifi – 260
*Kazımzadə A.* – 261
*Krılov* – 246
*Kərbəlayi Məhəmməd Əlvat* – 201
*Koxman* – 267
*Kərbəlayi Əli* – 316
*Kruşevan P.A. (1860–1909)* – irticaçı publisist, qaragüruhçu «Bessarabets» qəzetinin naşiri və antisemit «Druq» qəzetinin redaktoru idi – 134, 136, 141

## Q

*Qeqeçkori E.P. (1879–1954)* – görkəmli siyasi xadim, III Dövlət dumasının deputatı, duma s.d. fraksiyasının liderlərindən biri, Zakavkaziya komissarlığının sədri. 1918-ci il mayın 26-dan Gürcüstan Demokratik Respublikasının xarici işlər naziri – 258
*Qiyavanski* – Fransada 8 saatlıq iş gününü təklif edənlərdən biri – 45
*Qofeldyan Kant* – Prusiya kralının sarayında məşhur həkim – 45
*Qoloşşapov* – çar generalı, 1906-cı ildə Azərbaycana göndərilmiş cəza dəstəsinin komandiri, ermənipərəst cəllad – 29, 30, 63, 118, 123
*Qalitsin A.D. (1874–)* – knyaz, iri mülkədar, məşhur Zemstvo xadimi, III Dövlət dumasının deputatı – 184, 263, 266
*Qrinqmut V.A. (1851–1907)* – rus mürtəce publisisti, 1897–1907-ci illərdə «Moskovskiye vedomosti» adlı monarxist qəzetin redaktoru idi – 138
*Qolovin F.A. (1867–)* – Zemstvo xadimi, kadet idi. II Dövlət dumasının sədri. III Dövlət dumasının üzvü – 146
*Quçkov A.İ. (1862–1936)* – Oktyabristlər partiyasının təşkilatçısı və lideri. III Dövlət dumasının sədri – 277, 278
*Qaspirinski İsmayıl bəy* – görkəmli jurnalist, redaktor, türkoloq, «Tərcüman» qəzetinin redaktoru – 110
*Qasımov Ağəli* – tanınmış pedaqoq, publisist, uşaqlar üçün «Elmi-hesabı» dərsliyinin müəllifi – 259
*Qənizadə Soltan Məcid (1866–1937)* – maarif xadimi, yazıçı. 1909-cu ilin martında Rəştə ianə məqsədilə onun

«Dursunəli və Ballıbədi» əsəri tamaşaya qoyulmuşdu – 309
*Qulam Hüseyn xan sərdari-əfxəm* – ən böyük sərdar idi – 421

L

*Lvutski* – 28
*Lyaxov* – rus polkovniki, İrandakı rus qoşunlarının komandiri – 230, 248, 249, 317, 324, 326, 332, 333, 351, 407, 408, 410, 411, 413–418, 422–424, 446, 448
*Lordşir* – Tehranda ingilis rəiyyəti – 317

M

*Məhəmməd Ağa Şahtaxtlı (1846–1931)* – görkəmli şərqşünas, jurnalist və publisist, «Şərqi-Rus» qəzetinin naşiri və redaktoru, dilçi, pedaqoq və ictimai xadim – 21, 170, 194
*Məhəmməd Əli Rəsulzadə (1886–1962)* – istedadlı jurnalist və publisist, «Müsavat» partiyasını yaradanlardan biri, fəal siyasi və ictimai xadim M.Ə.Rəsulzadənin əmisi oğlu, məsləkdaşı – 23
*Məhəmməd ibn Abdullah* – islamın banisi, böyük peyğəmbər – 71, 425
*Müzəffərəddin* – 96, 98
*Məhəmmədəli Mirzə (Məmmədəli şah)* – 97, 98, 104, 128, 133, 144, 145, 228, 229, 231, 297, 326, 332, 333, 337, 403–407, 411, 412, 414–417, 423, 426–428, 433, 436, 439–441, 444, 447, 453, 454
*Mustafa Mahmudov* – Azərbaycandan II Dövlət dumasının deputatı – 124, 136
*Məhərrəmbəyov Baxşəli bəy* – Tiflisdə «rus patriot firqə»sinin iştirakçısı, müsəlmanlar onu «baykot» etmişdilər – 126
*Midhət Paşa (1822–1883)* – Türkiyənin görkəmli dövlət xadimi, böyük vəzir (1872, 1876/77), Osmanlı imperiyasının iqtisadi, siyasi və mədəni geriliyini aradan qaldırmaq məqsədilə islahatlar keçirməyə cəhd göstərmişdi. 1876-cı il dekabrın 23-də Türkiyənin ilk konstitusiyasını elan etmişdi. Qatillər tərəfindən öldürülüb – 156
*Mixayliyevski* – Bakıda telefonni küçəsində adına məktəb vardı – 157
*Mirzəbəyov* – Bakıda mülk sahibi – 253
*Makiavelli (1469–1527)* – florensiyalı siyasi xadim, yazıçı. Makiavellizm – öz məqsədinə nail olmaq üçün hər şeyə – hiylə və böhtana əl atmaq – 254
*Milyukov P.M. (1859–1943)* – Kadetlər partiyasının lideri, tarixçi və publisist, III və IV Dövlət dumalarının üzvü idi – 258
*Markov N.Y.* (1876–...) (Markov 2-ci) – çar Rusiyasının mürtəce siyasi xadimi: «Rus xalqının ittifaqı» və «Mixali Arxangel Palatası» təşkilatlarının rəhbərlərindən biri III və IV Dövlət duma- larının deputatı – 258
*Mirepyev* – Qori gimnaziyasının direktoru, Kazan misyonerxanasının «yetirməsi» idi. Müsəlmanları hər vechlə sıxışdırırdı – 269, 270
*Maksimov* – Nobel firmasının mühəndisi, naməlum şəxs tərəfindən güllə ilə vurulmuşdu – 303, 304
*Mühacir Qarabaği* – Təbriz əncüməni vəkili – 200
*Məhəmmədov Dadaş* – 1908-ci ildə «Nicat»ın açdığı məktəbin pansionatına D.Məhəmmədovun kontoru ildə 300 manat pul verirdi – 205
*Menşikov M.O. (1859–1919)* – qaragüruhçu «Novoye vremya» qəzetinin əməkdaşı, mürtəce publisist – 173, 174, 188
*Mehdiyev Rəşid* – Krımda nəşr olunan «Vətən xadimi» qəzetinin «müdiri-məsulu» – 52



*Molla Fəzləli* – 1907-ci ilin yanvarında yolüstü Bakıya gəlmiş Təbriz vəkillərindən idi. Möhtərəm axund molla Fəzləli Sabunçi məscidində iranlı fəhlələr qarşısında çıxış etmişdi. M.Ə.Rəsulzadə nümayəndə heyəti ilə görüşmüşdü – 103
*Mirzə Əbülhüseyn xan* – İran məşrutə inqilabının fəallarından biri – 240
*Məhəmməd xan* – 308
*Mexo* – 309
*Məhəmmədhəsən* – 315
*Mirzə Əbülqasım* – 315, 330, 438
*Məşədi Məhəmməd* – 315
*Müxbirülmülk* – 317, 438
*Mirzə Mustafa İftixarülülama* – 317, 318
*Məxəfürülmülk* – 318, 419
*Müəzzil Soltan Zəncan* – 320
*Müzəffər Dövləyə* – 320
*Molla Həmzə* – 324
*Müşirüssəltənə* – 325, 326, 351
*Müzəffərüssəltənə* – 330
*Məhəmməd Kazım Əlxorasani* – 331
*Məhəmmədquluzadə Mirzə Ələkbər* – Cəlil Məmmədquluzadənin qardaşı – 343
*Müşirüddövlə* – 354
*Mötəmədülmülk* – 354
*Müntəzəmüddövlə* – 361
*Məşədi İsmayıl* – 365
*Məşədi Bağır* – 365, 383, 399, 400
*Möhtəşəmüssəltənə* – 369
*Murad* – 376, 392
*Miller* – Urmiyada rus konsulu – 386
*Məhəmmədqulu Alar* – 387
*Məhəmməd Əli bəy* – 387
*Mirzə Səttar* – 399
*Müxbirüddövlə* – sabiq poçt və teleqraf vəziri – 404
*Mürtəza Quluxan Bəxtiyari* – 412
*Mir Haşım* – 425, 435, 445, 446
*Mirzə Hüseyn xan Kəsman* – 438
*Mirzə İbrahim xan Münşizadə* – 438
*Möhsün Mirzə* – 438
*Mahmud Şövkət Paşa* – 452
*Manuçehr xan* – 438

N

*Nəqibin oğlu Səni* – Tehranda Topxanada törətdiyi cinayətlər ilə ad çıxartmışdı – 318
*Nağıyev Musa* – 223, 300
*Nadir şah Əfşar (1688–1747)* – 1736–1747-ci illərdə İran şahı – 38
*Naib Yusif* – 344, 345
*Naib Hüseyn* – 344
*Naibüssəltənə* – hökmdarı əvəz edən (opekun) qacar Əzədüddövlə – 331, 413, 425, 440, 446
*Namiq Kamal bəy* – 171
*Nəvidülmülk* – əxbarat (informasiya) vəziri – 356
*Nəzmüssəltənə* – 385
*N.Nərimanov (1870–1925)* – görkəmli dövlət xadimi, tanınmış yazıçı, jurnalist və publisist. M.Ə.Rəsulzadə N.Nərimanovun Bakıda açdığı qiraətxananı yüksək qiymətləndirirdi – 26, 40, 101
*Nəsrəddin şah* – 97
*Nəcəfov Məşədi Rzaqulu* – İran culfasında rus əsgərləri tərəfindən həbs olunmuş gənc maarifpərvər idi – 341
*Nəcəfi Əşrəf* – müctəhid – 248, 299
*Nizamülmülk* – 425
*Nirüddövlə* – 436
*Nobel* – məşhur neft sənaye sahibi, mühəndis Nobel qardaşlarının neft şirkəti Azərbaycanda 1870-ci illərin əvvəllərində yaranmağa başlamışdı – 303, 304, 308
*Nolde (Baron)* – Qafqaz canişininin nümayəndəsi, II Dövlət dumasında Purişkeviçə qarşı çıxıb Voronsov-Daşkovu müdafiə etmişdi – 285, 286, 287

## O

*Orlov* – İranda rus nümayəndəliyi əməkdaşlarından idi – 363

*Ouen Robert (1771–1859)* – ingilis utopik sosialisti, cəmiyyətin dəyişdirilməsini şəxsi mülkiyyətin ləğvi ilə əlaqələndirirdi, o İngiltərədə təcrübi kommunist koloniyaları yaratmışdı. Amma bir şey hasil olmamışdı – 217

## P

*Pivovarov* – Cavanşir mahalında polis rəisi – 28

*Pleve V.K. (1846–1904)* – çar Rusiyasının mürtəce dövlət xadimi, 1902-ci ildən daxili işlər naziri, 1904-cü ilin iyulunda eser Sazonov tərəfindən öldürülmüşdür – 64, 138, 239, 263

*Purişkeviç M.V. (1870–1920)* – iri mülkədar, monarxist, irticaçı, II, III, IV Dövlət dumalarının üzvü, talançı, antisemit çıxışları ilə tanınırdı –166, 167, 194, 285, 286, 287

*Pobedonostsev K.P. (1827–1907)* – çar Rusiyasının mürtəce dövlət xadimi, sinodun ober prokuroru – 147

*Pimoşkin* – Qafqazdan II Dövlət dumasına vəkil seçilmişdi – 279

*Paşayan* – tələbə idi – 309

*Panov* – İranda olan rus kazak dəstəsinin komandiri – 315, 316, 317, 322, 325, 330, 332, 373

*Petros əfəndi* – erməni taciri, fırıldaqçı, özünü Urmiyədə Osmanlı konsulu kimi qələmə verirdi, halbuki «türkcə bilmiyor, katib vasitəsilə iş görüyor», «indiki yeni türk idarəsinə yaraşar nümayəndə» deyil idi (M.Ə.Rəsulzadə) – 361–363, 365, 382, 384–387, 398

## R

*Razi* – M.Ə.Rəsulzadənin şeirlərində işlətdiyi təxəllüs – 36

*Rəmz* – M.Ə.Rəsulzadəni Gülməxanə kəndindən aparan gənc yolçu – 392

*Rəhim xan* – İran inqilabının qəddar düşməni, Məhəmmədəli şahın himayədarlığı ilə başına silahlı quldurlar yığıb, məşrutəçilər əleyhinə vuruşurdu – 200, 283, 307, 343, 351, 353, 359, 372, 388, 420

*Rəhimxan Xəlilov* – 308

*Rəcəbəli oğlu Səfərli* – 301

*Rəşid* – 104

*Rəşidülmülk* – Astarada şəhər hakimi, məşrutə əleyhinə vuruşan dəstələrdən birinin başçısı – 316, 320–322, 328, 332, 337, 387, 405, 428

*Rzaquluxan* – parlaman vəkilliyinə namizəd, rəisi darülfünün – 438

*Rudiçev* – Stolıpinin tərəfdarlarından biri, aclıqla əlaqədar bir komissiya yaratmağı təklif etmişdi – 146

## S

*Salar, Salarfiruz* – İran şahı Məhəmmədəlinin qardaşıdır. 1906–1911-ci illərdə inqilabi hərəkata qarşı mübarizədə şahın yaxın köməkçisi idi – 332, 363

*Sablin* – 1909-cu ilin yayında İranda Rusiyanın səfiri vəzifəsini icra edirdi – 439

*Sami bəy* – Türkiyənin Urmiya və Dilman konsulu – 362, 363

*Səmsam* – İranda hökumət başçısı idi – 325, 330

*Seyid Əşrəf* – 309, 319

*Seyid Zəblüllah* – Mazandaran dövlətməndlərindən biri idi – 315

*Seyid Yaqub Şirazi* – İranda saraya yaxın adamlardan biri idi – 450

*Seyid Nəsrullah* – Məclisi-fövqəladənin üzvü idi – 436

*Seyid Əhməd Çələbi Murad* – Krımda nəşr olunan «Vətən xadimi» qəzetinin sahibi – imtiyazı – 52

*Sereteli İ.Q. (1882–1959)* – menşevizmin liderlərindən biri, 1917-ci ilin fevralından sonra Müvəqqəti hökumətin üzvü, Gürcüstan Demokratik Respublikasının başçılarından biri idi – 138

*Seyfüddövlə* – şahzadə idi – 322

*Sədüddövlə* – İranın xarici işlər vəziri idi – 331, 354, 356

*Sadiq həzrətləri* – saraya yaxın adam idi – 317, 319

*Səddi-İsgəndər* – 149

*Sədi (1203–1292)* – dahi fars şairi, 30 ilə yaxın dərviş libasında Yaxın və Orta Şərq ölkələrini gəzib dolaşmış, Azərbaycanda da olmuşdur. Məşhur «Bustan» və «Gülüstan» əsərlərinin müəllifidir – 56, 116

*Sədri-Əzəm Ələsgər xan* – 97

*Səlmasi Səid (Hacı Ağabala Haqverdi oğlu)* – şair, Azərbaycanın fədakar mücahidlərindən biri. M.Ə.Rəsulzadə yazırdı ki, Səid Səlmasi Təbrizdə bir mətbəə açmışdı. Mücahidi-həqiqi idi. «O yeganə cavan vətəni yolunda bir mətbəəsini deyil, öz canını da fəda etdi!», «qələmini sındırıb, mətbəəsini dağıtdılar. Amma qeyrət və hümmətini əlindən almaq mümkün deyil» idi – 359–361

*Səmədxan* – Rəhim xanla bərabər Təbrizə hücum edən canilərdən idi – 308, 319, 359, 371, 372

*Səniüddövlə* – sabiq məclisi-milli sədri, əvvəllər maliyyə vəziri olmuşdu, ingilis səfirliyinə qaçıb sığınmışdı – 317

*Səni həzrətləri* – Şah Əbdüləzim faciəsinin təşkilatçısı kimi dar ağacından asılmışdı – 318

*Sərdari-Ərfə* – şahzadə idi – 322

*Sərdari-Əsəd* – Bəxtiyarilərin başçılarından, şahzadə idi – 298, 322, 330, 338

*Sərdari-Mənsur* – İranın poçt və teleqraf vəziri – 450

*Sərdari-Müzəffər* – İranda qoşun rəisi (rəisi-ləşkər) – 320, 338

*Sərdari-Mümətəd* – hökumət canişini mənsəbinə (naibülhökmə) təyin edilmişdi – 318

*Sərdari-Əfxəm* – mücahid hərbi hissələrinin rəislərindən biri – 320

*Sərdari Hikmət* – Sərdar Əsədin qardaşı – 298

*Sarkisyan* – 66

*Səttarxan [Hacı Həsən oğlu (1867–1914)]* – Azərbaycanın böyük dövlət xadimi, 1906-1911-ci illərdə İran inqilabının və Cənubi Azərbaycanda demokratik hərəkatın rəhbəri, İran və Azərbaycanın xalq qəhrəmanı – 200, 202, 231, 241, 245, 248–250, 321, 325, 333, 344–346, 348, 351, 386, 387, 439, 446, 448, 449

*Sidqihərəm* – Qəzvində rəisi-külli təyin edilmişdi – 309, 319

*Sinarski* – Təbrizdəki rus məmurlarından biri – 339

*Sipəhdar* – İranın iri torpaq sahibi. Gilanda kəndləri var idi. Əvvəllər Məhəmmədəli şahın tərəfdarı olmuş, sonra məşrutəçilər tərəfə keçərək Tehrana hücum edən mücahidlərə başçılıq etmişdi. 1909-cu ilin iyulunda Məhəmmədəli şah İrandan qovulandan sonra təşkil olunmuş müvəqqəti İran hökumətində hərbi nazir, sonra isə Baş nazir olmuşdur. Lakin onun başçılıq etdiyi hökumət əks-inqilabı siyasət yeritmiş, inqilabçıları daşnak Yefremin əli ilə tərk-silah etdirmişdi – 305–307, 309–312, 314, 318, 321, 323–325, 328–330, 336–338, 352, 407, 411, 413, 417, 442

*Syomin Orest* – «Vestnik Baku» qəzetində zemstvo smetasına dair məqalələri çıxmışdı – 289, 292

*Smirnov* – 12 yaşlı Əhməd şahın müəllim və tərbiyəçilərindən idi – 443, 444, 445

*Starski* – İrandakı rus qoşununun generalı – 355

*Stolıpin P.A. (1862–1911)* – çar Rusiyasının dövlət xadimi, 1906-cı ildə Nazirlər Şurasının sədri, siyasi irtica (1907–1910) onun adı ilə bağlı idi – 92, 100, 103, 135–138, 141, 146, 168, 170, 171, 173

*Suvorin A.S. (1834–1912)* – məşhur rus naşiri, 1876–1912-ci illərdə «Novoye vremya» qəzetinin naşiri – 274, 427

*Sultan Həmid* – Bax: Əbdülhəmid.

**Ş**

*Şahtaxtinski Baxşəli ağa* – Culfada rus gömrükxanasının xəzinədarı – 341

*Şahənşahi xan* – 328

*Şvars A.N. (1848–1915)* – 1908–1910-cu illərdə çar Rusiyasının xalq maarif naziri, orta və ali məktəblərdə bir sıra mürtəce mahiyyətli tədbirlərin müəllifidir – 239

*Şeyx Əliəsgər* – 343

*Şeyx Kəbir* – 315, 316

*Şeyx Kərbəlayi Nəsrullah Naxçıvanlı* – 341

*Şeyx Mehdi* – 431

*Şeyx Şamil (1797–1871)* – avar Dağıstan və Çeçenstanda çar müstəmləkəçilərinə qarşı mübarizənin rəhbəri – 274, 275, 405

*Şeyx Fəzlüllah* – İranda məşrutə hərəkatının əleyhinə mübarizə aparan qaragüruhçu ruhanilərdən biri – 230, 317, 318, 322, 324, 351, 431, 432, 437

*Şəmsüşşüəra* – 425

*Şərifzadə* – 200

*Şərifzadə Q.* – Bakıda naşir, kitab ticarətçisi – 261

*Şəfiüddövlə* – nəqdiyyə vəziri – 404

*Şövkətnizam* – 330

*Şümr* – 331

*Şücai Nizam* – 245, 358

**T**

*Tağıyev İsmayıl* – H.Z.Tağıyevin oğlu, II Dövlət dumasına vəkil seçilmişdi, amma getməmişdi. Kadetlərə yaxın idi – 124

*Tağıyev Hacı Zeynalabdin (1838–1924)* – Azərbaycanın görkəmli iş adamı, qeyrətli vətəndaş, məşhur mesenat – 59, 163, 276, 350

*Tağızadə Əli Abbas* – Bakıda cinli Əliabbas adı ilə tanınmışdı – 172

*Tağızadə Seyid Həsən* – İran məşrutə hərəkatının başçılarından idi. M.Ə.Rəsulzadənin dostu, həmkarı, bir müddət xaricə mühacirət etmişdi. Sonra qayıtmış, Tehranda çox böyük məhəbbətlə qarşılanmışdı – 241, 318, 368, 403, 434, 438, 444, 448–453

*Tardov* – «Russkoye slovo» qəzetinin İranda xüsusi müxbiri, Tehrana gedərkən «Tərəqqi» qəzetinin xüsusi müxbiri M.Ə.Rəsulzadə ilə yol yoldaşlığı etmişdir – 366

*Tanrıquliyev Əli* – «Nicat» maarif cəmiyyətinin fəal üzvü, cümə məktəbinə nəzarət ona tapşırılmışdı – 188

*Tatamyans* – 216

*Təbatəbai Məhəmməd* – İranın tanınmış dini rəhbərlərindən biri idi. «İrşad» qəzetinin 1906-cı il 13 mart tarixli nömrəsində onun məktubu dərc olunmuşdur – 62, 128

*Təvəkkülov* – II Dövlət dumasında müsəlman fraksiyasının üzvü, «Novoye vremya» qəzetində kadetlərin başçısı Quçkovu tənqid edən məktubla çıxış etmişdi – 278

*Timofeyev* – M.Ə.Rəsulzadə yazırdı ki, «Vozrojdeniye» qələmi, Timofeyev isə kazağı, əsgəri və tüfəngi ilə mücadilə ediyor» – 55

*Tyutin Həsən* – Yaponiya müsəlmanlarının nümayəndəsi – 38



*Tolstoy L.N. (1828–1910)* – dahi rus yazıçısı, «Xudaşünasi kəbir» (M.Ə.Rəsulzadə) – 178

*Tomas Mor (1478–1535)* – ingilis utopik sosializminin banisi, krala and içməkdən imtina etdiyi üçün edam olunmuşdur – 44, 45

*Trepov D.F.* – Peterburqun general-qubernatoru, I rus inqilabının yatırılmasına rəhbərlik etmişdir – 57, 64

*Töhfətulleyn K.M.* – «Əl əsrül-cədid» qəzeti və «Fikir» jurnalının mühərriri – 98

*Triadze* – 245

**V**

*Volter (1694–1778)* – fransız yazıçısı, filosofu, tarixçisi, müstəmləkəçilik və müharibə əleyhinə çıxmış. Mütərəqqi Avropa ictimai fikrinin görkəmli nümayəndələrindəndir – 66

*Vəzirov Haşım bəy (1868–1916)* – tanınmış jurnalist, yazıçı. 1907–1916-cı illərdə Bakıda «Təzə həyat», «İttifaq», «Sədə», «Sədayi-vətən», «Sədayi-həqq», «Kavkazets» (rusca) qəzetlərini, «Məzəli» satirik jurnalını nəşr etmişdir – 108

*Voronsov-Daşkov İ.V. (1837–1916)* – Rusiya dövlət xadimi, 1905–1916-cı illərdə Qafqaz canişini, ermənipərəst – 174, 179, 182, 183, 188, 189, 254, 261, 286, 287

*Vəliyullah xan doktor Vəliyullahxan vihidülmülk* – 1909-cu ildə İranda parlaman vəkilliyinə namizəd idi – 438

*Vahidülmülk* – 1909-cu ildə İranda parlaman vəkilliyinə namizəd idi – 438

*Vüsuqüddövlə* – 1909-cu ildə İranda parlaman vəkilliyinə namizəd idi – 438

**Y**

*Yadigarov Hüseyn bəy* – Tiflisdə irticaçı «rus patriot firqəsi»nin vəkillərindən biri – 126

*Yusif bəy* – Astarada rus konsulluğunun nümayəndəsi olub – 321

*Yəzid ibn Müaviyə* – 331

*Yusifov Kərbəlayi Tağı* – Culfada komisyonçu – 342

*Yançevetski* – «Novoye vremya» qəzetinin Tehran müxbiri. «Suvorin babanın Tehran casusu» (M.Ə.Rəsulzadə) – 427

*Yekaterina A. (1729–1796)* – 1762–1796-cı illərdə Rusiya imperatriçası – 141

*Yefrem* – Tehranda nəzmiyyə riyasəti. Mücahid sarayından daşnak Yefremə tapşırılmışdı. Onun əli ilə Sipəhdar inqilabçıları tərk-silah etdirmişdi – 421

**Z**

*Zöhhak* – İran əsatirində dəmirçi Gavənin məğlub etdiyi zalım və qaniçən padşah. Firdovsinin «Şahnamə»sində mənfi surətlərdən birinin adıdır – 228, 229

*Zal bə Rüstəm (Zal oğlu Rüstəm)* – İranın əfsanəvi qəhrəmanı. Firdovsinin «Şahnamə» əsərinin əsas qəhrəmanlarındandır – 68

*Zəhirüssəltənə* – 323

*Zillüssultan* – 405, 425, 440, 446, 447

## PARTİYALAR, CƏMİYYƏT VƏ ŞİRKƏTLƏR

*Bəradərani-Rəsulov* – Rəsulov qardaşlarının Bakı limanında gəmiçilik və yükdaşımaqla məşğul olan kiçik şirkəti: çox da böyük olmayan gəmiləri və bir anbarları vardı – 250

*Cəmiyyəti-xeyriyyə* – 246

*Daşnaksütyun* (İttifaq) – qatı irqçi erməni millətçi partiyası 1890-cı ildə Tiflisdə yaradılmışdır. 100 ildir ki, türk xalqına, o cümlədən Azərbaycan xalqına qarşı təcavüzdədir. «böyük Ermənistan» xülyası ilə hər cür hiylə və alçaqlığa əl atmışdır və atır. M.Ə.Rəsulzadə bu qəddar və canilər partiyasını qəti ifşa edir və gələcək nəsli xəbərdar edirdi. Son Qarabağ hadisələri bu uzaqgörənliyi təsdiq edir. Daşnaksütyun indi Ermənistanda faktiki olaraq hakimiyyətdədir – 59, 65, 66, 67, 101, 105, 106, 111, 117–120

*Hnçak (zəng)* – erməni millətçi partiyası. 1877-ci ildə Cenevrədə təşkil olunmuşdur. Zaqafqaziyada özünü erməni sosial-demokrat partiyası adlandırırdı. Sol ibarələrlə maskalansa da, sonda qəti millətçilik mövqeyini seçmişdi. İndi də bu mövqedən çıxış edir – 66, 67

*İctimaiyyun-ammiyyun* – sosial-demokrat – 84, 102, 105, 106

*İctimaiyyun-inqilabiyyun* – sosialist inqilabçılar (eserlər) – 101

*«İttihad və tərəqqi»* – 293

*Jan Porsan* – Tehranda təşkil olunmuş firqə. İlk intibahnaməsində özünü raiyyətin hüququnu mühafizə edəcək bir firqə olduğunu elan və vəd edirdi – 414

*«Kadet» firqəsi* – 1905-ci ilin oktyabrında yaranmışdı. Konstitusiyaçı-demokrat, monarxist partiya idi – 84, 101, 189

*Kurinskoye-kaspiyskoye obşestvo* – nisbətən böyük gəmiçilik şirkəti idi – 250

*«Qafqaz merkuri»* – Kaspidə iri gəmiçilik şirkəti – 250, 251

*Müsavat* – 12, 13, 14, 17

*Nadejda* – Xəzərdə gəmiçilik şirkəti – 250, 251

*Nəşri-maarif* – 1906–1917-ci illərdə mədəni-maarif sahəsində fəaliyyət göstərmiş xeyriyyə cəmiyyəti – 246, 247

*Nicat* – birinci rus inqilabı dövründə Bakıda yaradılmış mədəni-maarif cəmiyyəti. Bir müddət onun sədri M.Ə.Rəsulzadə olub. Xeyli iş görüb – 40, 41, 152, 161, 163, 188, 204, 205, 243, 246, 247, 274–276, 282, 302

*Rus millətinin (xalqının) ittifaqı* – «Həqiqi ruslar», «Xalis rus firqəsi» – monarxistlərin ifrat irticaçı təşkilatı idi. 1905-ci ildə yaranmışdı, qeyri-rus millətləri quduzcasına təqib edirdilər, imperiyanı saxlamaq tərəfdarları idilər. İndi də ardıcılları var – 84, 101, 178, 254

*Səadət* – 1907-ci ildə Bakıda yaradılmış müsəlman xeyriyyə cəmiyyəti, köhnə üsullu məktəb və mədrəsələrin yenidən qurulmasını, yeni dini məktəblər açmağı qarşısına məqsəd qoymuşdu. Çox xeyirli işlər görürdü – 246, 247

*Sovet sezda* – Bakı neft sənayeçiləri qurultayı Şurası. 1884-cü ilin əvvəlində yaradılmışdı. Neft sənayeçilərinin cəmi 35 qurultayı olmuşdur. Onun daimi rəhbər orqanı qurultay Şurası idi. Şuranın Peterburqda daimi nümayəndəsi vardı. Neft sənayeçilərinin mənafeyini müdafiə edirdi. Xeyirli işləri də az olmayıb – 235, 304

*Şurayi-Osmani* – əsrin lap əvvəllərində Misirdə təşkil olunmuş cəmiyyət



idi. «Təkamül» qəzetində onun proqramı dərc olunub (№ 9). «Şurayi-Osmani» cəmiyyətinin qəsdi. Türkiyə istibdadından möhnətkeş Türkiyə əhalisini qurtarıb idareyi-məşrutiyyəyə və qəsb edilmiş qanuni-əsası iadəsi ilə bəxtiyar etməkdir». (M.Ə.Rəsulzadə) – 130–132, 155, 156

*Trudovik firqəsi* – Rusiyanın Dövlət dumalarında xəlqçi məsləkli kəndlilərdən və ziyalılardan ibarət demokratlar qrupu idi. 1906-cı ilin aprelində I Dövlət dumasında təşkil olunmuşdu – 288

*«Vostoçnoye obşestvo»* – Kaspidə iri gəmiçilik şirkəti – 250, 251

*«Yakor»* – çarizmin Bakıda yaratdığı (noyabr, 1905) irticaçı və əks-inqilabi təşkilatlardan biri idi – 106, 143

*«Yer və ixtiyar»* (Zemlya i volya) – 1876-cı ildən Rusiyada fəaliyyət göstərirdi. 1907-ci ildə Bakıda II Dumaya seçkilər ərəfəsində «Yer və ixtiyar» bloku yaranmışdı – 106, 111, 117, 118

*17 oktyabr İttifaqı (oktyabristlər partiyası)* – 1905-ci il 17 oktyabr manifesti elan edildikdən sonra meydana gəlmişdi. Başçıları A.İ.Quçkov, M.V.Rodzyanka idi – 88, 106, 257–259, 277–279

*«Tan yulduzı» (Dan ulduzu)* – 1906-cı ildə Kazanda tatar dilində nəşr olunan mütərəqqi qəzet idi. M.Ə.Rəsulzadə onun 1–2-ci nəşrlərinə «İrşad»da xülasə yazmışdır: «Mündəricatı o qədər maraqlı, məsləki o qədər müstəqildir». «Qoy «Tan yulduzı» işıqlandırsın cümlə türk qardaşlarımızın qəlbinə – sinfi xudşunaslıq nuru salsın», – deyirdi – 54, 55, 150

*«Trudovaya jizn»* – 1906-cı ilin iyun-iyul aylarında Bakıda nəşr olunub. 26 nömrəsi çıxıb – 66, 67

*«Tərcüman»* – 1883–1918-ci illərdə Krımda Bağçasaray şəhərində nəşr olunan, Rusiyada türkdilli xalqların həyatını işıqlandırmağa səy edən qəzet idi. Redaktoru məşhur redaktor, publisist və ictimai xadim İsmayıl bəy Qaspiralı idi. Azərbaycanda xeyli oxucusu və ziyalılarla yaxın əlaqəsi vardı – 93, 104, 105, 110, 150

*«Təkamül»* – həftəlik qəzet. 1906–1907-ci illərdə Bakıda nəşr olunub, 14 nömrəsi çıxıb. «Hümmət» təşkilatının orqanı idi. Qəzetin faktiki redaktoru M.Ə.Rəsulzadə idi. Qəzetin hər nömrəsində onun 3–4, bəzən daha çox yazısı dərc olunmuşdur. Yazılarının ümumi sayı 40-dan çoxdur. «Təkamül»də S.M.Əfəndiyev, S.Müsavi, M.Hadi, Z.Zeynalov, N.Nərimanov, M.Hacınski və b. öz yazıları ilə iştirak edirdilər – 7, 9, 105, 110, 150

*«Tovariş»* – gündəlik qəzet. 1906–1907-ci illərdə Peterburqda nəşr edilmişdir. Əslində, kadetlərin orqanı idi – 124

*«Tərəqqi»* – 1908–1909-cu illərdə Bakıda Ə.Ağayevin redaktorluğu ilə çıxan gündəlik, iri formatda, ictimai, siyasi, iqtisadi, ədəbi qəzet idi. M.Ə.Rəsulzadə «Tərəqqi»ni Azərbaycanda ilk Avropa tipli qəzet adlandırırdı. Qəzetin naşiri 46-cı nömrədən Murtuza Muxtarov idi. «Tərəqqi»ni öz dövrünün ciddi tarixi salnaməsi adlandırmaq olar. Azərbaycanın ən güclü milli qələm sahiblərinin böyük bir dəstəsi «Tərəqqi» ətrafında cəmləşmişdi (Ə.Ağayev, Ə.Hüseynzadə, Ü.Hacıbəyli, M.Hadi, Ö.F.Nemanzadə, Ə.Qəmküsar və b.). M.Ə.Rəsulzadə qəzetin ən fəal əməkdaşlarından və müəlliflərindən idi. Onun bu qəzetdə 100-dən artıq çox qiymətli, müxtəlif janrlı əsəri dərc olunmuşdur – 7, 205, 246, 249, 302, 337, 439, 443

*Türk yurdu* – 10, 11

*«Ural»* – tatar dilində ilk leqal bolşevik qəzeti; Orenburqda nəşr olunurdu. 1907-ci ildə 31 nömrəsi çıxıb. Redaktoru X.Yamaşev idi. M.Ə.Rəsulzadə qəzetin nəşrini alqışlamışdı – 150

*«Ülfət»* – 1905–1907-ci illərdə Peterburqda tatar dilində nəşr edilən qəzet. Naşiri və redaktoru Ə.İbrahimov idi – 105, 110, 150

*«Vətən xadimi»* – 1906-cı ildə Krımda tatar dilində nəşr olunmuşdur. Müdiri-məsuli – R.Mehdiyev sahibi-imtiyazı Murad Əfəndi Çələbi idi – 52, 150

*«Veçe»* – «Həqiqi rus firqəsinin» qəzeti, 1906-cı ildə nəşr olunub – 178, 181, 182, 184, 188, 190

*«Vestnik Baku»* – gündəlik qəzet. 1908-ci ildə nəşr olunmuşdur – 289

*Volna* – 7

*«Vozrojdeniye»* – qəzet, 1905-ci ilin oktyabr-dekabr aylarında Tiflisdə çıxmışdır – 55

*Yergiri-Dzayn* – 1907-ci ildə Tiflisdə nəşr olunan daşnak jurnalı – 156

*Yeni Qafqasiya* – 11

*«Yoldaş»* – həftədə iki dəfə çıxmalı olan qəzet, «Hümmət» təşkilatının nəşri, cəmi 3 nömrəsi (№ 1, 22 avqust – № 3, 1 sentyabr 1907) çıxmışdır. Qəzetin nəşrinin təşkili və fəaliyyəti M.Ə.Rəsulzadənin adı ilə bağlıdır. «Yoldaş»ın 3 nömrəsində onun 5 yazısı dərc olunmuşdur – 7, 151–158

*«Zaqafqaziya»* – 1907–1914-cü illərdə Tiflisdə rus dilində nəşr edilən gündəlik qəzet – 153, 154



## COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ


**A**

*Azərbaycan* – 5, 6, 8–21, 26, 104, 128, 129, 150, 249, 259, 298, 299, 325, 348, 353, 368, 372, 373, 374, 376, 380, 399, 420, 434, 439, 449
*Avropa* – 10, 36, 45, 57, 97, 115, 129, 144, 145, 147, 157, 166, 167, 186, 206, 208, 209, 232, 236, 240, 241, 249, 252, 273, 280, 323, 324, 326, 336, 355, 357, 374, 375, 378, 395, 400, 401, 402, 426, 429, 432, 439, 454
*Avstriya* – 45, 273, 310, 378, 424
*Avstraliya* – 45, 46, 48
*Alp* – 61
*Almaniya* – 166, 209, 222, 328, 397, 400
*Altay* – 61
*Amerika* – 5, 43, 45, 46, 96, 168, 208, 214, 222, 245, 297, 385, 397, 399, 401, 403
*Asiya* – 37, 77, 144, 209
*Astara* – 307, 309, 317, 320, 321, 328, 329, 332, 337, 405
*Astarabad* – 316, 330, 331
*Assoruistan* – 402
*Afrika* – 126, 207
*Acı* – 345
*Araz* – 338

**B**

*Badamıx* – 408, 410
*Bağişah* – 314, 318, 322, 325
*Bayıl* – 243
*Bakı* – 8, 11, 12–14, 21, 24, 26, 40, 41, 53, 66, 86, 94, 96, 102, 105, 106, 110, 111, 114–118, 123, 126, 136, 139, 140, 141, 142, 151, 152, 154, 165, 175, 176, 179, 180, 183, 190, 191, 193, 205, 223, 224, 227, 232–235, 241, 242, 246, 247, 250, 251, 255, 263, 267, 271, 275, 285, 289–292, 304, 305, 329, 332, 357, 358, 365, 371, 398, 400, 405, 448
*Balaxanı* – 304
*Barfürus* – 315, 316
*Basmança* – 283
*Basmınc qəryəsi* – 356
*Bağçasaray* – 93, 110
*Beljik* – 220, 223
*Bəndərgəz* – 316
*Berlin* – 209
*Baxtiyar* – 297, 298, 408, 412, 421, 422, 429
*Bolqariya* – 130, 273
*Bəqiyyətül-Seyf* – 328
*Bibiheybət* – 243
*Biləsuvar* – 337
*Bosna-Hersok* – 273

**C**

*Cenevrə* – 118
*Cədid-Zelanda* – 45
*Cənubi Yorkşir* – 222
*Culfa* – 245, 283, 338–341, 343, 347, 372

**Ç**

*Çadrovı* – 205
*Çin* – 37–39
*Çornı qorod* – 85
*Çikaqo* – 209

**D**

*Dağıstan* – 267, 274
*Dəvəçi* – 199, 201, 202, 203
*Dilmaqan* – 361, 370, 382, 383
*Dilman kəndi* – 363, 370

**E**

*Ermənistan* – 15, 130, 355

**Ə**

*Əli Şahbaz* – yer adıdır – 408, 410
*Ənzəli* – 307, 319, 323, 328, 329, 332, 333, 334, 337, 342, 381, 405, 407
*Əmraxiz* – 202

*Ərdəbil* – 129, 307, 309, 317, 320, 321, 322, 328, 332, 337, 387, 405, 428
*Ərəbistan* – 130, 209
*Ərk* – 200–202, 356
*Əsgərani* – 317
*Əfqan* – 37, 47
*Əhmədabad* – 408, 410
*Əhər* – 388
*Əhrab məhləsi* – 201

F

*Fars* – 442, 444
*Finlandiya* – 189
*Fillipani* – 297
*Firəngistan* – 57, 330, 446
*Fransa* – 43, 46, 57, 208, 212, 222, 324, 397, 399, 403, 405, 424, 446, 447

G

*Gəncə* – 31, 107, 151, 153
*Gilan* – 310, 311–313, 316, 319, 320, 322, 325, 335, 336, 338, 388, 406, 408, 410, 421
*Girman* – 240
*Göy Təpə* – 403
*Gülmaxana* – 375–377, 391, 392
*Gülüstan* – 424
*Gürcüstan* – 15, 188
*Guhistan* – 319

H

*Hamburq* – 222
*Heyran* – 316, 317, 320, 328, 332
*Həsənabad* – 410
*Həştərxan* – 377
*Həştərud* – 353
*Hindistan* – 37, 47, 222
*Hollanda* – 46

X

*Xiyaban (məhəllə)* – 202, 355
*Xoy* – 339, 341, 344, 355, 362, 363, 369, 380, 387
*Xorasan* – 146, 388, 420

İ

*İngiltərə* – 219–222, 245, 249
*İraq* – 338, 422
*İran* – 5, 9–11, 36–38, 47, 56–58, 61, 62, 67–70, 76, 77, 85, 86, 96–98, 103, 105, 112, 113, 127–129, 133, 135, 144, 145, 167, 173, 228, 229, 239–241, 248–249, 254, 272, 273, 283, 284, 298, 299, 307, 310, 312, 313, 315–319, 321–325, 332, 334–340, 342, 343, 346, 348, 351, 352, 354–357, 360–362, 366–371, 373–376, 378, 379, 381, 382, 384–386, 388–391, 393–400, 403–407, 411, 412, 414–421, 424, 426–430, 432, 434, 436, 437, 439, 440, 443, 445–449, 452, 453
*İran Culfası* – 340, 344
*İrəvan* – 53, 54, 108, 189
*İrlanda* – 222
*İstanbul* – 9, 11, 12, 16, 100, 399
*İtaliya* – 296, 297, 424
*İsfahan* – 298, 322, 323, 325, 330, 331, 333, 388, 410, 446
*İçəri Rusiya* – 234, 235, 238, 250, 261, 262

K

*Kazan* – 16, 78, 269
*Kaluqa* – 405
*Kanada* – 222
*Karganərud* – 314, 319
*Kars* – 189
*Kaspi* – 241, 250
*Kaşan* – 323
*Kərc* – 407, 408
*Kirmanşah* – 76
*Kirkan* – 309
*Kislovodsk* – 357
*Kiçik Asiya* – 173, 297
*Kişinyov* – 27
*Kiyev* – 14
*Kol qəbiristanlığı* – 355
*Krasnovodsk* – 105, 332
*Krım* – 14, 52, 405



Q

*Qarabağ* – 32, 81, 123, 317, 370
*Qaradağ* – 155, 370, 416
*Qalabra* – 296
*Qaracadağ* – 307, 353
*Qara Təpə* – 408
*Qafqaz* – 10, 11, 13, 15, 17, 21, 24, 26–30, 63, 79, 82, 83, 89, 101, 129, 134, 139, 143, 150, 152, 153, 174, 178–184, 188–190, 194, 223, 225, 237, 238, 246, 248, 250, 254, 255, 261, 262, 263, 266, 270, 271, 278, 279, 285–287, 292, 296, 308, 357, 365, 378, 395, 399, 400
*Qəzvin* – 283, 309, 314, 319, 320, 324, 326–330, 338, 354, 386, 406, 407, 418, 421, 427, 437, 438, 449, 453
*Qərbi Avropa* – 5, 8, 9, 192, 268
*Qori* – 270, 271
*Quba* – 166
*Quvasu* – 52
*Qüdsi-Şərif* – 92

L

*Lalə yaylağı* – 387
*Lənkəran* – 96, 329
*Lodz* – 190
*London* – 48, 85, 86, 240, 249

M

*Mazandaran* – 240, 315, 322, 325, 330, 333, 334, 338
*Mançester* – 222
*Maku* – 347
*Mehrabad* – 450
*Meşkin* – 307
*Mərkəzi Rusiya* – 250
*Mərənd* – 113, 245, 339, 355, 357, 358
*Məsinə* – 296
*Məşhədsər* – 315, 316
*Miyanə* – 368, 386
*Misir* – 130
*Misrül-Qahirə* – 131
*Müncil* – 446
*Monte-Karlo* – 272
*Moskva* – 13, 14, 188, 190, 234, 277, 350

N

*Naxçıvan* – 342
*Nematabad* – 356
*Namin* – 320, 321
*Nəcəf – Əşrəf* – 248
*Nijni-Novqorod* – 111
*Nikolayevski küçə* – 253
*Niyavaran* – 422

O

*Odes – Odessa* – 27, 63
*Orenburq* – 124
*Orexovo-Zuyevo* – 234

P

*Parapet* – 261
*Paris* – 43, 57, 249, 298, 358
*Peterburq* – 61, 85, 126, 134, 142, 157, 178, 181, 183, 254, 267, 314, 356, 405, 437
*Pərsəngi məhəlləsi* – 201
*Poli-Ənbuh* – 327
*Polşa* – 387
*Poluacı* – 256
*Prusiya* – 45
*Pribaltiyski kray* – 234

R

*Rasta küçə* – 201, 355
*Rəşt* – 307, 308, 310, 313, 314, 317, 319, 321, 322, 324, 327, 329–335, 337, 381, 405, 406, 416, 435, 446
*Rotan* – 222
*Roçdel* – 217, 218–222

S

*Sabunçu* – 103
*Savalan kəndi* – 202
*Samara* – 167
*Samur* – 358
*Samsunxan məscidi* – 200
*Seylon* – 222
*Sentlyun* – 43
*Serbiya* – 155
*Salmas* – 339, 344, 355, 363, 369, 387, 398

*Səltənətabad* – 353, 404, 412, 414, 416, 423, 426
*Sərdərud* – 371
*Sihir* – 14, 135
*Siciliya* – 296
*Sulus* – 446

**Ş**

*Şamaxı* – 92, 141, 282, 398
*Şahabad* – 408, 410, 449
*Şahsevən* – 307, 328
*Şvetsariya* – 46, 214
*Şeffild* – 45
*Şiraz* – 113, 322, 331
*Şişgilan məhəlləsi* – 201, 359
*Şotland* – 221
*Şuşa* – 29, 118, 119, 225
*Şümranat* – 422, 445

**T**

*Tavriçeski saray* – 126, 137, 178, 195, 255
*Talış dolab* – 319
*Temza* – 241
*Teri* – 222
*Tehran* – 9, 10, 38, 58, 61, 62, 97, 98, 104, 112, 113, 128, 201, 228, 231, 240, 248, 297, 311, 314, 316–334, 336, 338, 340, 342, 345, 346, 351, 353, 354, 368, 369, 385, 386, 403–408, 410, 411, 414, 415, 418-421, 423–428, 430–432, 434, 435, 438, 439, 441, 443–450, 452–454
*Təbriz* – 9, 96, 98, 103, 104, 113, 128, 200–202, 229–231, 240, 241, 248, 249, 283, 284, 298, 299, 309, 314, 321, 322, 331, 333, 336, 339, 341, 342, 343, 345–347, 350–354, 356, 359, 362–367, 369, 372, 373, 379, 381, 385–388, 398, 399, 403, 406, 415, 417, 420, 428, 435, 439, 442, 445, 447–449, 451
*Təzəpir* – 205
*Tiflis* – 21, 31, 53, 55, 126, 153, 156, 163, 231
*Topxana* – 318, 424, 430, 445
*Trabzon* – 100
*Tsürix* – 214
*Türkiyə* – 5, 9, 10, 13, 61, 79, 130, 132, 154, 155, 188, 254, 273, 293, 313, 348, 363, 452
*Tüngabün* – 338
*Türküstan* – 10, 13, 14, 16, 189

**U**

*Uralsk* – 98
*Ukrayna* – 27
*Urmiyə* – 173, 353, 355, 361–365, 369, 370, 375, 376, 378, 380, 381, 382, 385–387, 391, 394, 396, 398–400

**V**

*Vallis* – 45
*Vanex* – 435
*Viktoriya* – 45
*Viborq* – 106
*Volqa* – 190, 250

**Y**

*Yaponiya* – 37, 38, 76
*Yunan* – 38, 39
*Yorkşir* –222

**Z**

*Zaqafqaziya* – 5, 15, 178–181, 262, 264, 265, 289, 292
*Zaqatala okruqu* – 263
*Zakaspiyski kray* – 250
*Zəngəzur* – 81, 107, 108
*Zəncan* –320, 328, 415, 428
*Zərkənd* – 411, 415, 416, 423, 435, 436, 445



## KİTABIN İÇİNDƏKİLƏR

Ön söz (Şirməmməd Hüseynov) ....... 5
Məhəmməd Əmin Rəsulzadə (Mirzə Bala Məmmədzadə) ....... 8

*1903 – 1909*

Öz müxbirlərimizdən. Bakı ....... 21
Hümmət və qeyrət vaxtıdır ....... 21
Elm tərifində deyilibdir. Müxəmməs ....... 24
«Hümmətür-ricəl təqləül-cibal» ....... 25
Mərəzimizin çarəsi ....... 27
Bəlayi əzim ....... 29
Növhə ....... 30
Kənddə müsibət ....... 31
Mövcibi-heyrət ....... 32
Təəssüfli halətimiz ....... 34
Qara pul ....... 35
İranda hürriyyət ....... 36
Çin müsəlmanları ....... 38
Qiraətxanə ....... 40
Qiraətxanələrimizə dair ....... 42
Fəhləyə dair. Adi iş günü ....... 43
Yeni qəzetə ....... 52
Yenə də müsibətmi?! ....... 52
«Tan yuldızı» (Dan ulduzu) ....... 54
Yeni inqilab xadimi ....... 55
İranda inqilab ....... 56
İki nüktə ....... 59
İranda «Yanvarın doqquzu» ....... 61
«Sükunət» ....... 62
Dəhşətli məbər ....... 63
Daşnaksütyunçuya rəddiyyə ....... 65
İran işləri ....... 67
Bu gün ....... 70
Edam cəzası ....... 72
Oktyabrın 17-si ....... 73
Rüstəmin yuxusu ....... 75
İrana dair. İranda bomba ....... 76
Araq içməyiniz! ....... 78
«Dəbistan» ....... 79
«Şeytan» işinin nəticəsi ....... 80
Milliyyət məsələsi ....... 83
Hər yandan ....... 85

Hürriyyəti-mətbuat. Müsəlman mürəttiblərinə dair ... 86
Bakı, 23 dekabr ... 88
Cavanlarımıza ... 89
Hər yandan ... 91
Milliyyət və ticarət (*Ticarətin beynəlmiləlliyi*) ... 94
Şahın vəfatına dair ... 96
İslam mətbuatı ... 98
Hər yandan ... 99
Bakı, 10 dekabr ... 101
Təbriz vəkillərinin Bakıda təvəqqüfləri ... 103
Hər yandan ... 104
Bakı, 20 yanvar ... 105
Tənqidçilər ... 107
Hər yandan. Seçkiçilər ... 109
Cavabə-cavab ... 110
Bakı, 3 fevral ... 111
İran işləri ... 112
Nagəhan-bəla (*Məişətdən bir səhifə*) ... 114
Rus mətbuatı ... 117
İqnatyevin layihəsi ... 120
Hər yandan ... 122
Rus mətbuatı. «Bürokratiya və müsəlman məktəbləri» ... 124
İbrət almalı ... 126
Bakı, 17 fevral ... 126
İran işləri. Axırıncı vaqiələr ... 127
«Şurayi-Osmani» ... 130
Hər yandan ... 133
Hər yandan. İndi hamısı tələsir ... 135
Bakı, 12 mart ... 137
İkinci duma ... 139
Hər yandan. Hayandan başlayaq? ... 141
Firqələr və cəmiyyətlər. Qaragüruhçular ... 142
Bakı, 17 mart ... 143
Hər yandan ... 146
Bakı, 26 mart ... 147
İslam mətbuatı ... 149
İkinci müəllimlər ictimai ... 151
Bakı, 29 avqust ... 153
Osmanlı əhrarı ... 154
Skaoznyak ... 157
Həftə məktəbi ... 157
Həsbi-hal ... 158
Təsəvvürati-əhrarənə ... 159
M.Ə.Rəsulzadənin H.Zərdabinin dəfn mərasimindəki nitqi ... 160
Şeir. Məzaliyyət içində mübhəmiyyət ... 161



Dövlət duması ... 162
Şeyxülislamlığa dair ... 163
Müftilər işləyir ... 163
Xırda-mırda ... 166
Şayiət ... 168
Xırda-mırda ... 168
Fəlsəfə ... 169
Səfsətə ... 169
Keşişlər dövranı ... 169
Xırda-mırda ... 171
Əhvali-zaman ... 173
Özümlü bir iş ... 174
Xırda-mırda. Çərənçiyə ... 176
Saillərə ... 177
Qafqazı «unutmayın»! ... 178
Qafqazı «unutmayın»! ... 181
Cümə məktəbi ... 185
Mərkəz firqəsi ... 188
Mədənçilər ilə fəhlələrin məsləhəti ... 190
Nə böyük təhqir ... 194
Duma nə eləmiş? ... 195
Mütaliələrimdən ... 196
İrana dair. Təbriz əhvalatı (*xüsusi müxbirimizdən*) ... 199
Təbrizdən (*xüsusi müxbirlərimizdən*) ... 201
Cümə məktəbi ... 203
Təşəkkür ... 205
Kooperativ cəmiyyətləri ... 205
Realni məktəbində müsəlman əlifba sinfi ... 223
Şeytan bağlıdır ... 226
Məhəmmədəli şahın fərmanı ... 228
Neft mədənləri ... 231
Yerli məktəblər ... 237
Tələbələr iğtişaşı ... 239
Nə etməlidir? ... 240
Vəhşətimizə payan gərək ... 241
Eydi-fitr münasibətilə. İşsiz ... 243
İrandan bizə yazırlar ... 245
Xeyriyyə və maarif cəmiyyətlərimiz ... 246
Harda qaldılar? ... 248
Bakı bəndəri ... 250
Xatirə ... 253
Qafqaz yaddan çıxmış ... 254
Körpü həmmalları ... 255
Qorxudurlar ... 257
«Hesab məsələləri» ... 259

Zemstvo islahatı xüsusunda ...261
Zemstvo islahatı barəsində ...263
İbtidai yerli məktəblər ...265
Mətbuat xüsusunda ...267
Tədrismi, ticarətmi? ...268
Müəllimlər gərək ...270
İcmali siyasi. İran, Türkiyə, Rusiya ...272
Fitnə və provokasiya ...274
Milliyyət və əyalət məsələsi ...277
Dövlət duması. Yəhudi məsələsi ...279
Ehtiyac nəyədir? ...280
Müsəlmanlar üçün gecə kursları açıldı ...282
İran işlərinə dair ...283
Qafqaz barəsində ...285
Çarəsi nədir? ...288
Zaqafqaz zemstvo smeti ...289
Gənc türklərin son qələbəsi haqqında ...293
Nə dəhşətli bir gülüş! Nə acı bir istehza! ...294
İran işlərinə dair. Bəxtiyar eli nə politika tutuyor?! ...297
Bir qocanın müsibəti ...300
Gecə dərslərindən təəssüratım ...302
Açıq terror ...303
İran məktubları. Rəşt. Cəşni eydiyyə ...305
İran məktubları. Rəştdən ...307
İran məktubları. Rəştdən *(xüsusi müxabirimizdən)*. Rus kazakları ...310
İran məktubları. Mazandaran vaqiəsinin təfsilatı ...315
İran məktubları. Qəzvin səmti. Rəştdən ...319
İran məktubları. Tehran kompaniyaçıları ...324
İran məktubları. Rəşt. Rus iqdamatı ...329
İran məktubları. Rus nümayişi ...332
İran məktubları. Mitinq ...334
İran məktubları. Culfa ...338
İran məktubları. Culfada təftişat və həbslər ...340
İran məktubları (*xüsusi müxbirimizdən*). Təbrizdən ...342
Xüsusi teleqraflar ...346
İran məktubları. Təbrizdən. Səttarxan, Bağırxan nə
üçün bəstə getdilər ...347
İran işləri. İran məktubları. Vəzi-siyasi ...350
İran işləri. İran məktubları. Təbriz. Əncümənin ərzi-halı ...354
Yol təəssüratı ...357
İran məktubları. Yol təəssüratı. Təbrizdə ...359
İran məktubları. Urmiyə ...361
İran məktubları *(keçən nömrədən məbədi)* ...363
Yol təəssüratı. Təbriz–Urmiyə yolu ...365
İran işləri. İran məktubları. Urmiyədən Möhtəşəmüssəltənə ...369





Yol təəssüratı (*keçən nömrədən məbədi* ...371
Yol təəssüratı (*keçən nömrədən məbədi*) ...375
Yol təəssüratı. Urmiyədən ...378
Yol təəssüratı. Urmiyədə (*keçən nömrədən məbədi*) ...380
İran məktubları *(müxabiri məxsusimizdən)*.
Osmanlı–İran hadisəsi. Urmiyədən ...382
İran məktubları *(müxabiri məxsusimizdən)*. Təbrizdən ...386
Qəribə bir boykot *(müxabiri-məxsusimizdən)*. Təbrizdən ...388
Yol təəssüratı *(xüsusi müxabirimizdən)*. Urmiyə ...391
Yol təəssüratı *(müxabiri-xususumuzdan)*. Urmiyədə. Müsəlmanlar ...396
Yol təəssüratı *(müxabiri-məxsusimizdən)*. Din bazarı ...400
Xüsusi müxbirimizdən gələn teleqraflar ...403
İran məktubları. Rəştdən ...405
Tehran fəthinin təfsilatı *(müxabiri-məxsusimizdən)* ...406
İran məktubları *(müxabiri-məxsusimizdən)*.
Vürudi-mövkibi məsud ...412
İran məktubları *(müxabiri-məxsusimizdən)*. Tehran fəthi ...415
Tehranın fəthindən sonra İran məktubları
*(müxabiri-məxsusimizdən)*. Edam cəzaları ...419
İran məktubları *(müxabiri-məxsusimizdən)*. Tehranın mühafizəsi ...421
İran məktubları *(müxabiri-məxsusimizdən)*. Əsasiyyeyi-səltənət ...423
Tehran *(xüsusi müxabirimizdən)*.
Zillissultan geri qaytarılır – Mir Haşım asıldı ...425
İran məktubları *(xüsusi müxabirimizdən)*
*(keçən nömrədən məbədi)*. Silahxurilər ...426
İran məktubları *(müxabiri-məxsusimizdən)*.
İndiki və gələcək məqsədlər ...427
İran məktubları *(müxabiri-məxsusimizdən)*. Edam cəzaları ...430
İran məktubları *(müxabiri-məxsusimizdən)*. İcrayi-intixabat ...432
Tehran vəqayei *(müxabiri-məxsusimizdən)*. Vanekdə bir iğtişaş ...435
İran məktubları *(müxabiri-məxsusimizdən)*. Rus səfarətində ...439
Tehran vəqayei *(müxabiri-məxsusimizdən)*. Pul istehsalı ...441
Xüsusi müxbirimizdən teleqraf.
«Tərəqqi»yə nisbət əltafi hümayuni ...443
İran məktubları *(müxabiri-məxsusimizdən)*. Vəzi-haliyyə ...443
İran məktubları *(müxabiri-məxsusimizdən)*. Edam və tövqif ...445
İran məktubları *(müxabiri-məxsusimizdən)*. İstiqbali-milli ...448
İran məktubları *(müxabiri-məxsusimizdən)*. Mütləqiyyəti-hakimə ...452
Əlifba üzrə adların göstəricisi ...455
Partiyalar, cəmiyyət və şirkətlər ...466
Mətbuat orqanları ...468
Coğrafi adlar göstəricisi ...471

*Məhəmməd Əmin Rəsulzadə*
ƏSƏRLƏRİ
I cild
*(1903–1909)*
İkinci nəşri
Bakı, «Təhsil», 2014.

Bədii və texniki redaktoru *Abdulla Ələkbərov*
Kompüter tərtibatçıları *Səadət Quluzadə, Təhmasib Mehdiyev*
Korrektoru *Natəvan Məmmədova*

Çapa imzalanmışdır 11.06.2014. Kağız formatı $60x90^1/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 30,0.
Sifariş 32. Tiraj 500.

«Təhsil Nəşriyyat-Poliqrafiya»
müəssisəsinin mətbəəsində çap olunmuşdur.
Bakı, AZ 1052, F.Xoyski küç., 121A
Tel.: (+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
e-mail: tahsil_az@yahoo.com